Mahir Həmzəyev

AZƏRBAYCAN – BALTİK MƏDƏNİ ƏLAQƏLƏRİ

Mahiras Gamzajevas

CULTURAL RELATIONS BETWEEN AZERBAIJANIS AND THE BALTIC NATIONS

(XIX–XXI century)

Culturological articles, historical journalism, literature reviews, documentary outlines, political notes, interviews and essays.

Published with the support of the Embassy of the Republic of Azerbaijan in the Republic of Lithuania

Vilnius – 2022

– 29460 –

Mahir Həmzəyev

AZƏRBAYCAN – BALTİK MƏDƏNİ ƏLAQƏLƏRİ

(XIX–XXI əsrlər)

Kulturoloji məqalələr, tarixi publisistika, ədəbi düşüncələr, resenziyalar, politoloji qeydlər, müsahibələr, sənədli oçerklər və esselər

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Vilnüs – 2022

66.4(5 Ста) + 66.4(451) + 63.3(5 Ста)64 + 82.3(5 Ста)
1/58

Tərtib edəni, xüsusi redaktoru və ön zösün müəllifi – Mahir Həmzəyev

Kitab Azərbaycan Respublikasının Litva Respublikasındakı Səfirliyinin dəstəyi ilə nəşr olunub

Litva Azərbaycanlıları Cəmiyyətinin sədri, ədəbiyyatşünas, publisist və tərcüməçi Mahir Həmzəyevin səkkiz fəsildən ibarət bu kitabında Azərbaycan və Baltik xalqları (litvalılar, latışlar və estonlar) arasındakı çoxvektorlu əlaqələrə və dövlətlərarası münasibətlərə dair müxtəlif illərdə yazılmış bir sıra məqalələri toplanmışdır.

Toplu zaman kəsiyi baxımından təxminən 200 illik bir tarixi – XIX–XXI əsrlərin müxtəlif mərhələlərini əhatə edir. Ensiklopedik mahiyyət daşıyan bu kitabda xalqlarımızın XIX əsrdən başlanan mədəni və ictimai-siyasi əlaqələri çoxsaylı arxiv mənbələri, rəsmi sənədlər, elmi əsərlər, tarixi hadisələr, mətbuat materialları, son illərin mədəniyyət tədbirləri, əyani misallar və faktlar əsasında tarixi-praktiki aspektdə araşdırılıb təhlil edilir və elmi-populyar janrda təqdim olunur.

Kitab Azərbaycan və Baltik ölkələri arasında mədəni əməkdaşlıq və dialoq strategiyasını daha məzmunlu və dinamik tərzdə həyata keçirməyə stimul vermək məqsədini güdür.

Əsər geniş oxucu auditoriyası – o cümlədən kulturoloqlar, tarixçilər, ədəbiyyatçılar, politoloqlar, konfliktoloqlar, etnoloqlar, beynəlxalq icmalçılar, eləcə də multikultural cəmiyyət, dövlətlərarası münasibətlər, diaspora, mədəniyyət və etniklər siyasəti sahəsində çalışanlar üçün nəzərdə tutulub.

ISBN 978-609-95862-1-2

© Mahir Həmzəyev, 2022

Kitabı, 1918-ci ildə müstəqil Azərbaycan, Estoniya, Latviya və Litva respublikalarını yaratmış, həmin illərdə dövlətlərarası münasibətlərimizin təməlini qoymuş, İstiqlalın tanınması yolunda birgə mübarizə aparmış Azərbaycan və Baltik xalqlarının Vətən sevdalı övladlarının şanlı xatirəsinə həsr edirəm.

Bakı – Tallin – Riga – Vilnüs, 1918 – 2022-ci illər.

KİTABIN İÇİNDƏKİLƏR

Xəzər sahillərində Baltik ab-havası... *Müəllif sözü* 15

I Fəsil

XALQLARIMIZI ƏBƏDİ YAXINLAŞDIRAN LİTVA XADİMİ

Azərbaycan Vintsas Krevenin həyat və yaradıcılığında 23
28 aprel çevrilişi Litva konsulunun gözü ilə 57
Abdulla Şaiq. Litvalı həmkarım 62
Abdulla Şaiq. Nalçik həyatı 69
V. Krevenin "Azəristan ölkəsi"nə qayıdışı 70
Vaqif Yusifli. Azərbaycana məhəbbətlə 73
"Vilnüs – Bakı: mədəniyyət körpüləri" mövzulu beynəlxalq konfrans 79
Azərbaycan səfiri H. Məmmədzadənin konfransa Təbriknaməsi 84
Litva Seyminin sədri İ. Degutienenin konfransa Təbriknaməsi 86
"Azəristan ölkəsi" kitabı Azərbaycan dilində 88
Litvada Cümhuriyyətin 100 illiyi ilə bağlı tədbirlər 89
Cümhuriyyətdəki Litva konsulunun istiqlal mövzulu əsəri 91
Livada Cümhuriyyət ilə münasibətlərin 100 illiyi qeyd olunub 94

II Fəsil

BALTİK ELLƏRİNDƏN EŞİDİLƏN AZƏRBAYCAN SƏSLƏRİ

Azərbaycan – Baltik əlaqələri və mədəniyyətimizin yayım yolları 101
Xalqın ən böyük elçisi 101
Tarixi köklərə söykənən çağdaşlıq 101
Talelərinə qürbət biçilmiş Baltik övladları 103
Estoniya–Azərbaycan mədəni və ictimai-siyasi əlaqələri 107
Avropanı fəth etmiş Mirzə Şəfi nəğmələri Estoniyada 110
Eston əsilli Böyük türk oğlu 118
Latviya–Azərbaycan tarixi, mədəni və mənəvi bağları 120
Qədim Litva–Azərbaycan mədəniyyət körpüləri 125
Rusiya Şərqşünaslığı və ekspansiv siyasət 131
Hər közərən işıq ulduz olmaz 134
Şərqlə Qərbin qovuşuğunda Litva izləri 137
Əlaqələrimizin karaim kökənli telləri 142

Şapşal İran əks-inqilabının episentrində 150
Sığınacağa çevrilmiş Şah hərəmxanası 152
Şapşalın fəaliyyəti ayrı-ayrı müəlliflərin təqdimatında 153
Şapşal öz anti-inqilabi baxışları barədə 155
Ay-ulduz rəmzi altında İstiqlal savaşı 156
Prezidentlərin yüksək diqqətindəki qədim əlaqələrimiz 162
Litvada gerçəkləşən mədəniyyət siyasətimiz 165
Kreativ ideyalar və akademik tədbirlər 168
Ordu torpaqları, kitab könülləri fəth edir 175
Dominant mədəniyyətə inteqrasiya və qarşılıqlı zənginləşmə 186

III Fəsil
QORQUD MÜDRİKLİYİ VƏ MİRZƏ CƏLİL YANĞISI BALTİK ƏDƏBİ-MƏDƏNİ MƏKANINDA

İsa Həbibbəyli. Qorqud müdrikliyi və müasirlik 193
"Kitabi-Dədə Qorqud" Baltik xalqlarının dillərində 198
Mirzə Cəlilin əsərləri Litva dilində 200
Litvada Mirzə Cəlilin kitabının təqdimatı 203
İ. Aleksayte. Mirzə Cəlilin hekayələri və Litva ədəbiyyatı: ədəbi paralellər 206
H. Kobetskayte. Irəli gedərkən arxaya da baxmağı unutma 208

IV Fəsil
"KİTABİ-DƏDƏ QORQUD"UN BALTİK ÇEVİRMƏNLƏRİ

Kəlbəcərdən Litvaya uzanan Dədə Qorqud yolunun bələdçisi 215
Folklorumuzun Şah əsərinin latış mütərcimi 220
Eposun eston tərcüməçiləri cütlüyü 223
Dastanın akademik tərcümə strategiyası 225
Bənzər dəyərlərə söykənən fəaliyyət 227

V Fəsil
LİTVAYA GEDƏN NİZAMİ YOLU

Litvaya gedən Nizami yolu... 233
Estoniyada ədəbiyyatımızın zərif və əzəmətli səsi 243
Qorqud atanın rəvac verdiyi mənəvi yaxınlıq 244
Tartudan Bakıya uzanan ədəbi meridianlar 244
Rəsul Rza poeziyasının bədii tükənməzliyi ilə üz-üzə 246

Türk xalqlarının mədəniyyət elçisi 249
Oda sitayişə və qayaüstü rəsmlərə ehtiramla yazılmış misralar 251
İşıq axarında seçilən kövrək nur teli 253
Eston şairi Li Seppelə 254
"Şərqin qapısı" kəhrəba və göllər diyarında 255
Böyük şairin 80 illik yubileyinə ehtiramla 261
Sigitas Geda. Azərbaycanlı litvaca yazır 262
Anarın və Rəşad Məcidin novellaları Litva dilində 265
60-cılar nəslinin Baltik ölkələrində vuran nəbzi 265
Böyük nəsrə aparan yolun Litvadan keçən hissəsi 266
"Qara çörəyin ağ üzü" Vilnüsdə 268
Litva Ensiklopediyasında Azərbaycan yazarları barədə 270
Pərvinin hekayələri litva və latış dillərində 271
Həmvətənimizin romanı Vilnüsdə 272
Eldar Nəsiblinin şeir çələngində Litva çiçəkləri 274
Kaunas gözəlləri haqqında duyğulu xatirələr 274
Qazaxdan Klaypedaya uzanan poetik trayektoriya 275
Ecazkar poeziya diyarı 276
Ədəbi yaddaşı genişləndirən çiləntilər 277
"Sehrbazlar dərəsi" Litvada 278
Avropada mədəniyyətlərin qovuşuğunda ucalan səsimiz 279
Qədim etnoqrafik regionda "Sehrbazlar dərəsi"ni tanıtım tədbirləri 281
Kamal Abdulla yaradıcılığı Litva mediasında 283
Avropanın coğrafi mərkəzinə qayıdış 284

VI Fəsil
LİTVA DİLİNDƏN TƏRCÜMƏLƏRƏ YAZILAN ÖN SÖZLƏR

Heydər Əliyev: Azərbaycan Litva yolu ilə getməlidir 289
Suilanları kraliçası Əgle 291
Nağılın süjeti və qədim əsatirlərlə mövzu yaxınlığı 291
Milli identikliyin dərin köklərinə işıq salan əsər 292
Litva ədəbiyyatında "meşə qardaşları" mövzusu 296
Caz musiqisini xatırladan novellalar müəllifi 299
Litva lirik nəsrinin və Avropa novella formasının banisi 301
Keçmişdəki ağrılar və gələcəklə bağlı ümidlər 304
Elçin Hüseynbəylinin yaradıcılığında Ağ və Qara 310

VII Fəsil
QARABAĞ DÜYÜNÜ LİTVA DİSKURSUNDA

Qarabağ həqiqətlərinin ədəbi-publisistik üsullarla yayım yolları 317
Litvalı müəllifin Azərbaycanlıların soyqırımı barədə əsəri 319
Erməni terroru haqqında film Litva saytında 321
Soyqırım həqiqətləri ensiklopediyasından tərcümələr 321
V. Landsbergis 20 yanvar təcavüzü haqqında 323
V. Landsbergis. Azərbaycanın faciəsi 324
Qarabağ danışıqları müharibədən başqa heç nə vəd etmir 327
V. Landsbergisin J. M. Barrozoya məktubu 331
J. M. Barrozonun V. Landsbergisə cavab məktubu 332
Nabukko Avropanın Xəzər xəyalının zirvəsində durmalıdır 334
Azərbaycan–Avropa münasibətləri hər iki tərəf üçün vacibdir 336
Litva Parlamentində Xocalı konfransı 337
Xocalı qətliamı ilə bağlı Litva millət vəkillərinin AP-nə müraciəti 338
V. Karakorskis. Qarabağda ermənisayağı "təyini-müqəddərat" 340
Milli özünüdərkin ən uca zirvəsi 342
Qarabağ münaqişəsinin kökləri Kremlin kulisləri arxasındadır 348
Əsl dost dar gündə tanınar 350
Qarabağla parlament dostluq qrupunun yaradılması diasporamızı hiddətləndirib 353
Azərbaycan Litvaya nota vermişdir 355
Ermənipərəst Litva tarixçisi tutarlı cavablarla susduruldu 356
V. Karakorskis. Qarabağla parlament dostluq qrupunun ləğvi labüddür 358
LR Seymində "Dağlıq Qarabağla parlament dostluq qrupu"nun gizlinləri 360
Ermənipərəst Litva diplomatları ifşa olunur 365
Ermənistanın yalan vədləri bizim tənqid hədəfimizdədir 367
Moldova Ombudsmanına təşəkkür məktubu 369
Qarabağ münaqişəsi barədə kitabın təqdimatı 370
Hazırkı olaylar indi və yalnız Ukraynada başlanmayıb 372
Litva deputatının antiazərbaycan fəaliyyəti yolverilməzdir 380
"Erməni soyqırımının" Litvadakı "peşəkar bilicisi" və təbliğatçısı 380
Litvada ermənipərəst qüvvələrə züytutan Baş redaktor 380
Səxavətli erməni sponsoru 381
Mahir Həmzəyevin Litvanın dövlət başçısına müraciəti 382
Azərbaycan diasporu Litvanın ikili standart siyasətinə qarşı 385
"Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri" əsəri Litva dilində 388
L. Kasçyunas. 20 yanvar faciəsi və milli identiklik 391
Aprel döyüşləri ilə bağlı Prezident İ. Əliyevə müraciət 397

Litva radiosunda Aprel döyüşləri barədə həqiqətlər səsləndirilib 398
Ermənistan–Azərbaycan media savaşı və Azərbaycan diasporu 400
Bakı–Vilnüs: Azadlığa gedən yolda taleyüklü Yanvar hadisələri 405
Qarabağ mövzulu hekayələr Litva dilində 406
Litva kitablarına köçmüş Qarabağ ağrısı 409
Litva radiosunda erməni yalanları ifşa olunub 414
2-ci Qarabağ müharibəsi ilə bağlı Litva rəhbərliyinə müraciət 415
2-ci Qarabağ savaşı ilə bağlı Litva radiosunda qərəzli təbliğatın iflası 418

VIII Fəsil
ƏLAQƏLƏRƏ RƏVAC VERƏN TARİXİ QƏRARLAR, SƏFƏRLƏR, TƏBRİKLƏR

AR Ali Sovetinin 30 avqust 1991-ci il tarixli Bəyanatı 423
AR Ali Soveti Milli Şurasının 6 dekabr 1991-ci il tarixli Qərarı 425
Litva Respublikası Ali Sovetinin 20 dekabr 1991-ci il tarixli Qərarı 426
Prezident Ə. Elçibəyin Litva azərbaycanlılarına Novruz təbriki 427
Həmvətənlərimizin təşkilatlanması yolunda ilk addımlar 428
Prezident İ. Əliyevin Litva Azərbaycanlıları Cəmiyyətinə məktubu 430
A. Petrauskas. Milli və bəşəri dəyərlərə bağlılıq. Təbriknamə 432
Azərbaycan və özbək əlaqələrinin Litvada göyərən şaxəsi 434
LR Seyminin sədri Ç. Yurşenasın Təşəkkürnaməsi 437
H. Kobetskayte. Milli birlik və milli ideya Diasporun hərəkətverici özəyidir 438
LR Baş naziri A. Brazauskasın B. Vahabzadəyə Təbriknaməsi 441
Prezident V. Adamkus Litva azərbaycanlıları barədə 443
Litva Prezidentinə Bakı Universitetinin Fəxri doktoru adı verilib 444
Diaspora rəhbəri Prezident V. Adamkusla görüşüb 446
LR Baş naziri G. Kirkilasın Diaspor rəhbərlərinin I Bakı Forumuna Təbriknaməsi 448
28 May Respublika günü münasibətilə Litvadan təbrik 450
Prezident V. Adamkus Litva-Azərbaycan mədəniyyətlərarası dialoqu barədə 452
LR Seyminin sədr müavini G. Steponaviçyusun Təbriknaməsi 454
Vətən yolunu nişan verən əbədi poeziya işığı 455
Azərbaycan Litva şagirdlərinin gözü ilə 457
LR Baş naziri A. Kubilyusun Azərbaycanlıların III qurultayına Təbriknaməsi 461
LR Seyminin sədri İ. Degutienenin Azərbaycan xalqına Təbriknaməsi 464
LR Baş naziri Diasporumuzun fəaliyyətini yüksək dəyərləndirib 466
Litva Yazıçılar İttifaqının yubiley Təbriknaməsi 468
Vilnüsdən Bakıya təşəkkür məktubu 471

Azərbaycan diasporunun fəaliyyəti barədə ekspozisiya 473
Azərbaycan diaspor xadiminə bədii sənət yaradıcısı statusu verilib 475
Litva Hökuməti soydaşımızı mükafatlandırıb 478
Akademik T. Kərimli Litvada işgüzar səfərdə 479
Xalq yazıçısı Anara Litvadan yubiley təbriki 481
LR Seyminin sədri V. Pransketisin M. Həmzəyevə yubiley Təbriknaməsi 482
LR Seyminin sədr müavini İ. Degutienenin M. Həmzəyevə yubiley Təbriknaməsi 483
Litva–Azərbaycan mədəniyyətlərarası dialoquna diaspor dəstəyi 485
Diasporamız "Litva naminə..." mahnı bayramında iştirak edib 487
Tamerlan Qarayev Litvaya səfir təyin olundu 489
Səfir T. Qarayev Litva Prezidentinə etimadnaməsini təqdim etdi 489
Səfir T. Qarayevə Litva azərbaycanlılarının Təbriknaməsi 491
LR Seyminin sədr müavini G. Kirkilasın azərbaycanlılara Təbriknaməsi 493
Litva Prezidenti həmvətənimizi orden ilə təltif edib 495
Litvadakı Azərbaycan Səfirinin M. Həmzəyevə Təbriknaməsi 497
Milli müxtəlifliklərdən rəvac alan mədəni əlaqələrimiz 498
Antanas Ventslova. Sevdim Azərbaycanı... *Epiloq əvəzi* 499

İstifadə olunmuş illüstrasiyaların mənbələri 501

XƏZƏR SAHİLLƏRİNDƏ BALTİK AB-HAVASI...

Müəllif sözü

Salam, dəyərli Oxucu!

Əlinizdə olan bu kitaba Azərbaycan və Baltik xalqları (litvalılar, latışlar və estonlar) arasındakı çoxvektorlu mədəni əlaqələrə dair müxtəlif illərdə yazdığım ədəbi, kulturoloji və politoloji məqalələr, resenziya, icmal, sənədli oçerk və esselər, media vasitələrinə verdiyim müsahibələr daxil edilib. Topluda həmçinin bir sıra Azərbaycan və Baltik xalqları müəlliflərinin bu mövzu ilə bağlı bəzi məqalələri də yer alıb.

Burada getmiş yazılar mövzu baxımından ən fərqli sahələri – tarix, ədəbiyyat, incəsənət, dini dəyərlər, pedaqoqika, publisistika, ədəbi tərcümə, mədəniyyətlərin qarşılıqlı təsiri, müqayisəli dilçilik, kulturologiya, politologiya, türkologiya, baltikşünaslıq, slavyanşünaslıq, etniklər siyasəti, diaspora, beynəlxalq hüquq, ictimai diplomatiya, dövlətlərarası münasibətlər və bir sıra digər istiqamətləri əhatə edir. Bütün bu çeşidli mövzuların hamısını Mədəniyyət adlanan ümumi bir məxrəc birləşdirir. Deməli, mədəniyyətin insan fəaliyyətinin təməl daşı, onun əsrlər boyu yaradıb nəsildən-nəsilə ötürdüyü ən çeşidli maddi və mənəvi sərvətlər toplusu, tarixi yaddaşın daşıyıcısı olduğunu nəzərə alsaq, Azərbaycan–Baltik mədəni əlaqələrini araşdırarkən yalnız bir mövzu çərçivəsində məhdudlaşmamağım, yəqin ki, başa düşüləndir.

Sizə təqdim olunan publikasiyaların bir qismi zaman kəsiyi baxımından təxminən 200 illik bir tarixi – XIX–XXI əsrlərin müxtəlif mərhələlərini əhatə etsə də, kitabda əsasən 1990–1991-ci illərdə Azərbaycan və Baltik dövlətlərinin müstəqilliyinin bərpasından sonrakı dövrə aid mədəni proseslər, tarixi olaylar və yeni geosiyasi nizamdan qaynaqlanan aktual mövzular üstünlük təşkil edir.

Ensiklopedik xarakter daşıyan bu kitab Azərbaycan və Baltik dövlətləri müstəqillik əldə etdikdən sonra bu mövzuda dilimizdə çap edilən ilk nəşrdir.

Mövzuların çoxu dövlətlərimizin istiqlal tarixində ilk dəfə olaraq müstəqillik dövrünün mədəniyyət siyasəti doktrinasına uyğun ideoloji yanaşmalar, keçmişə yeni baxış və yeni konseptual dəyərləndirmələrə əsaslanan tədqiqat bucağı altında araşdırılıb. Bu çalışmaların böyük qismində xalqlarımız arasındakı tarixi, ədəbi-mədəni və ictimai-siyasi əlaqələrin yaranmasını şərtləndirən amillər, tarixi hadisə və proseslər, eləcə də əlaqələrimizin inkişafına töhfələr vermiş elm, mədəniyyət, incəsənət adamları, ictimai-siyasi xadimlər, diplomatlar və digər şəxsiyyətlər barədə ilk dəfə olaraq bir sıra naməlum faktlar və ümumiləşdirmələr verilib.

Azərbaycan–Baltik mədəni əlaqələrinin kök atmasında öncə Böyük Litva Knyazlığında (1236–1569), sonra isə Böyük Litva Knyazlığı və Polşa Krallığının birgə yaratdığı Reç Pospolita dövlətində (1569–1795) yaşayan müxtəlif xalqların xələflərinin – tatar, karaim, eston, latış, polyak, rus, ukrayna, belarus, alman, sorb, ingilis, fransız kökənli xadimlərin dolayısı ilə körpü rolu oynaması oçerklərdə xüsusilə vurğulanıb. Bu yolla əlaqələrimizin ilk pöhrələrinin boy atması üçün töhfələr vermiş bir sıra yaradıcı xadimlərdən, Vilnüs Universitetinin məzunları – İ. Petraşevski, A. Mitskeviç, O. Senkovski, A. Xodzko, L. Şpitsnagel, A. Muxlinski kimi məşhur şərqşünas alimlərin, şair və yazıçıların gördüyü mühüm işlər burada tarixi-praktiki aspektdə işıqlandırılıb.

Kitabda Baltik xalqları mühacirlərinin XX əsrin 1-ci rübündə Azərbaycanda və Gürcüstanda fəaliyyət göstərmiş milli icmaları haqqında nadir tarixi faktlar təqdim olunub, Qafqaz Litvalıları Şurası, Bakı Latış Cəmiyyəti və Bakı Eston Cəmiyyətinin 1905–1922-ci illərdəki fəaliyyəti, habelə bu təşkilatların liderlərindən P. Daylide, V. Hertels, E. Freys, A. Freybergs, K. Seller, R. Puur, H. Tomson və digər ictimai-mədəni xadimlər barədə bilgilər verilib.

Topluda latış, eston və litva xalqlarının E. Birznieks-Upitis, Y. Dravin-Dravnieks, Y. Yaunsudrabinş, P. Rozitis, A. Upitis, A. Balodis, Y. Medinş, O. Kiisel, P. Kıyv, P. Kreytsvald, P. Yakobson, Y. Liyv, A. Haava, A. Zifeldt-Simumyagi, Y. Zauerveynas, Y. Pranaytite, S. Vaynoras, M. Şalçyus kimi mədəni və ictimai-siyasi xadimlərinin XIX əsrin sonu, XX əsrin I yarısında Azərbaycan–Baltik mədəni əlaqələri sahəsində gördüyü faktiki işlər ehtiva olunmuş sənədli oçerklər, həmçinin 1918–1922-ci illər Litva–Azərbaycan dövlətlərarası münasibətləri ilə bağlı, eləcə də 1919–1920-ci illərdə Litva dövlətinin Cümhuriyyətdəki ilk konsulu Vintsas Krevenin 1909–1920-ci illərdə Bakıda göstərdiyi pedaqoji, ədəbi, elmi-mədəni, ictimai-siyasi və diplomatik fəaliyyət haqqında özgün araşdırmalar dərc edilib.

Bütün bunlarla yanaşı araşdırmalarda qədim Azərbaycan-Baltik elmi-mədəni və ictimai-siyasi əlaqələrinin türk kökənli telləri də işıqlandırılıb. Bu, ilk növbədə Baltik ölkələrində və Polşada XIV əsrin ikinci yarısından başlayaraq məskunlaşmış qədim türk xalqları – Krım tatarları və karaimlərin bir sıra tanınmış xələflərinin Azərbaycanla ilgili akademik və ictimai-siyasi fəaliyyəti əsasında təsvir olunub. Məşhur Litva-Polşa karaim şərqşünasları – S. Şapşal, A. Zayonçkovski, V. Zayonçkovski və A. Dubinskinin türkoloji tədqiqatları bu araşdırmalarda Azərbaycan-Baltik mədəni əlaqələrinin xusisi bir kəsimi kimi təqdim edilib.

Daha sonra, Azərbaycan Cümhuriyyətinin dövlət idarəçiliyində çalışmış bir sıra Litva-Polşa tatar xadimləri – o cümlədən Olgerd Kriçinski və Arslan Kriçinski qardaşları ilə Cümhuriyyətin siyasi mühacirləri arasındakı mədəni və ictimai-siyasi əlaqələrə (XX əsrin 20–30-cu illərində) toxunulub. Siyasi mühacirlərdən M. Ə. Rəsulzadə, X. Xasməmmədov, Ə. Topçubaşov, həmçinin Cümhuriyyət ordusunun alay komandiri, polkovnik V. Yadigarov, publisist Ə. Azərtəkin, yazar-publisist, tərcüməçi M. B. Məmmədzadə kimi xadimlərin və Cümhuriyyətin maarifpərvər xanımı Şəfiqə Qaspralının həm Kriçinski qardaşları ilə, həm də o vaxt Vilnüsdə yaşayıb fəaliyyət göstərən karay türklərinin öndəri S. Şapşalla apardıqları yazışmalar, Cümhuriyyət ordusunun Baş qərargah rəisi, Litva tatarı, general-leytenant M. Sulkeviçlə bağlı xatirələr və digər əlaqələr araşdırılıb.

"Kitabi-Dədə Qorqud" eposunun Baltik ölkələrində tanıdılıb yayımlanması məsələsi toplunun iki fəslində işıqlandırılıb. Folklorumuzun şah əsərinin Baltik xalqlarının dillərinə tərcümə edilməsi çoxəsrlik Azərbaycan-Baltik mədəni əlaqələri tarixində parlaq ədəbi-mədəni olay kimi diqqət mərkəzinə çəkilib və eposun Baltik ölkələrində nəşri bu möhtəşəm abidənin dünya xalqlarının mənəvi dəyərləri xəzinəsinə daxil olmasını əks etdirən zəngin salnamənin orijinal və qiymətli səhifələri kimi dəyərləndirilib. Daha sonra, "Kitabi-Dədə Qorqud"u litva, latış və eston dillərinə tərcümə edən S. Geda, V. Arzumanlı, U. Berzinş, A. Pekkonen və V. Məmmədovun yaradıcılığı haqqında bilgilər, eposun tərcüməsi ilə bağlı onların üzləşdikləri çağırışlar və digər kreativ məqamlar barədə ədəbi tənqid və müqayisəli dilçilik rakursunda bəzi düşüncələr təqdim olunub.

"Litvaya gedən Nizami yolu..." oçerkində dahi Azərbaycan şairi Nizaminin XIX əsrdən başlayaraq Litvada öyrənilməsi və əsərlərinin Litva dilinə tərcümə olunub yayımlanması tarixi araşdırılır.

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Kitabın "Qarabağ düyünü Litva diskursunda" adlı fəsli Ermənistan–Azərbaycan, Qarabağ münaqişəsi barədə həqiqətlərin ədəbi-publisistik üsullarla Litvada yayımlanmasına həsr olunub. Münaqişə mövzusunda təbliğat və maarifləndirmə işinin çağdaş təcrübəsinə istinadən Avropa düşüncə tərzinə uyğun hazırlanmış bir sıra yazılar, həmçinin tanınmış Litva müəlliflərinin münaqişəyə dair məqalələrindən edilmiş bəzi tərcümələr də bu fəsildə yer alıb...

Qeyd edim ki, mən əsərdəki çoxsaylı mövzuların hər birini ayrı-ayrılıqda şərh etmək fikrindən uzağam. Belə ki, diqqətli oxucu özü burada Azərbaycan–Baltik mədəni əlaqələri ilə bağlı ən müxtəlif yönlü araşdırmalarla qarşılaşacaq, çox sayda yeni faktlar və təzə adlar aşkar edəcək. Lakin tədqiqatların üsulu və kitabın mahiyyəti barədə daha bir neçə fikir bildirməyin gərəkli olacağını düşünürəm. Topluda tədqiqatlarla bağlı elmi metod müstəvisində qaldırılan bir sıra yeni elmi-nəzəri müddəalar, əsasən Baltik ölkələrində reallaşdırılmış mədəniyyət layihələri və praktiki misallar əsasında tədqiq edilib. Araşdırmalarda işıqlandırılan məsələlər, təqdim olunan təsəvvür və fikirlər, proses və olayların şərhinə yönəldilmiş açıqlamalar yalnız nəzəri baxışlar kompleksinə söykənməyib. Belə ki, irəli sürülən elmi, kulturoloji və komparativistik tezislərin bir qismi Baltik ölkələrindəki bəzi diaspor təşkilatlarının akademik fəaliyyətinə istinadən açıqlanıb, yəni, nəzəriyyə və təcrübə birləşdirilib. Odur ki, əsər sırf elmi xarakter daşımır, daha çox elmi-kütləvi səpkidə yazılıb.

Kitabın əsas məramı Azərbaycan və Baltik xalqları arasındakı tarixi və ictimai-mədəni əlaqələrin köklərini axtarıb üzə çıxarmaq və bu əlaqələr zəminində ölkələrimiz arasında yeni məzmunlu mədəni körpülər salmaq, müasir dövrdə münasibətlərimizi genişləndirmək, xalqlarımızı mənəvi cəhətdən bir-birinə yaxınlaşdırmaq, Baltik ölkələrində bizə dost münasibət bəsləyənlərin sıralarını artırmaq və ölkəmizin Baltik ölkələrindəki imicini gücləndirməkdən ibarətdir.

Bununla yanaşı, topluda qədim mədəni əlaqələrimizdən müstəqillik mənafeləri üçün səmərəli istifadə etmək, həmçinin SSRİ dönəmindəki Azərbaycan–Baltik mədəni əlaqələrini müstəqil dövlət maraqları çərçivəsində qiymətləndirmək və milli maraqlara uyğun şəkildə dəyişdirmək, Azərbaycanla Baltik regionu arasındakı münasibətlər sistemində ölkəmizin özünəməxsus yer tutmasını təmin etmək kimi məsələlər işıqlandırılıb.

Kitab həm də Azərbaycanla Baltik ölkələri arasında mədəni əməkdaşlıq və dialoq strategiyasını daha məzmunlu və dinamik tərzdə həyata keçirməyə stimul vermək məqsədini güdür.

Əziz Oxucu! Bu kitabı yazarkən səmimi qəlbdən çalışdım ki, Xəzər sahillərində Baltik, Baltik sahillərində isə Azərbaycan ab-havasını yaradım. Məramıma nə dərəcədə yetdiyimi bilmirəm. Lakin, mən hər bir halda Azərbaycan və Baltik xalqlarının xoşbəxt gələcəyinə, mədəniyyətlərimizin daha da çiçəklənməsinə böyük nikbinliklə baxıram, xalqlarımız arasındakı qarşılıqlı anlaşma ənənələrinin zənginləşməsinə, əməkdaşlıq körpülərinin genişlənməsinə, mədəni əlaqələrimizin yeni tarixi və ictimai-siyasi şəraitdə uğurla davam edəcəyinə ürəkdən inanıram.

Odur ki, Sizinlə gələcəkdə mədəniyyətlərimizin qovuşuq məkanındakı işığında yenidən görüşmək ümidi ilə... Qoy Uca Tanrı öz mərhəmətini xalqlarımızdan heç vaxt əsirgəməsin!

Bakı – Vilnüs – Riga – Tallin, 10 dekabr 2021-ci il.

I FƏSİL

XALQLARIMIZI ƏBƏDİ YAXINLAŞDIRAN LİTVA XADİMİ

AZƏRBAYCAN VİNTSAS KREVENİN HƏYAT VƏ YARADICILIĞINDA

Vintsas Kreve-Mitskəviçyus (1882–1954) XX əsr Litva ədəbiyyatının ən məşhur klassik yazıçılarından biridir. O, eyni zamanda görkəmli ədəbiyyatşünas alim, ictimai-siyasi və mədəni xadim olaraq tanınıb. Kreve onun ədəbi təxəllüsüdür, həqiqi familiyası isə Mitskəviçyusdur.

Vintsas Krevenin ədəbi irsi Litva ədəbiyyatı qızıl fondunun mühüm bir hissəsini təşkil edir. Bu irsin böyük qismi indiyədək Litvanın orta və ali məktəblərinin tədris proqramlarına daxil edilərək müntəxəbati əsərlər kimi tədris olunur. Litvalı ədəbiyyatşünas və tənqidçi, professor Vitautas Kubilyus (1926–2004) yazır ki, "V. Kreve öz yaradıcılığında Avropa universallığını və janr müxtəlifliyini çoxvektorlu və polifonik şəkildə ustalıqla əks etdirən, milli idealizm yönlü ədəbiyyata dramatik əhatəlilik və klassik dolğunluq gətirən ilk Litva yazıçısı olaraq, ən məşhur milli psixoloji surətlərin və milli ədəbi üslubun yaradıcısıdır..."[1]

V. Kreve həm sağlığında, həm də vəfatından sonra, bir çox Litva yazıçılarının taleyində, ədəbi axtarış və yaradıcılıq yollarında xüsusi rol oynayıb. Onun istedadı, erudisiyası, çoxşaxəli fəaliyyəti və böyük dühası, adi adamlardan tutmuş tanınmış şəxsiyyətlərə qədər, ən müxtəlif əqidəli insanları vəcdə gətirib, həmin dövrdə mövcud olmuş ədəbi mühitin oturuşmasında müstəsna rol oynayıb, milli mədəniyyətin inkişafına güclü təkan verib və indiyədək Litva mədəniyyəti və ədəbiyyatında öz təsir qüvvəsini itirməyib...

V. Kreve 19 oktyabr 1882-ci ildə Litvanın Varena rayonu Merkine bələdiyyəsinin Subartonis kəndində dünyaya gəlib. İlk təhsilini 1898–1900-cü illərdə Vilnüs katolik ruhani seminariyasında alıb. Sonralar öz üzərində müstəqil çalışaraq 1904-cü ildə Kazanda 1-ci şəhər gimnaziyasında ekstern yolu ilə imtahan verib kamal attestatı alıb. 1904–1908-ci illərdə Kiyev və Lvov universitetlərinin Tarix-filologiya fakültəsində rus dili və ədəbiyyatı ixtisası üzrə təhsilini davam etdirib, müqayisəli dilçilik sahəsində diplom işini müdafiə edərək filologiya magistri dərəcəsinə layiq görülüb.

V. Krevenin həyat və yaradıcılığının – elmi-pedaqoji, mədəni, ictimai-siyasi və təşkilati fəaliyyətinin on bir ilə yaxın dövrü Azərbaycanla sıx bağlı olub. Belə ki, o, 1908-ci ildə müqəddəs Vladimir adına Kiyev İmperator universitetini

[1] Vytautas Kubilius. "XX amžiaus literatūra". Vilnius, "Alma Littera", 1995, psl. 83.

bitirdikdən sonra – 1909–1920-ci illərdə Bakı 1-ci realnı məktəbində[2] rus dili və ədəbiyyatı müəllimi işləyib. 1911-ci ildən başlayaraq eyni zamanda bir müddət Bakı Mariya qızlar məktəbində *(rusca – Бакинская Мариинская женская гимназия)* dərs deyib. V. Kreve həmin illərdə Bakıda Vikenti İosifoviç Mitskeviç kimi tanınıb.

1. V. Kreve. Bakı, 1914-cü il. 2. Bakı 1-ci realnı məktəbinin binası. Nikolayevski (indiki İstiqlaliyyət) küç. № 6.

V. Kreve 1912-ci ildə Bakı 1-ci realnı məktəbi əsaslı kitabxanasının müdiri təyin olunub, 1914–1917-ci illərdə məktəbin Pedaqoji şurasının katibi, 1917–1920-ci illərdə isə sədri seçilib.[3] 1914-cü ildə ona kollej asessoru rütbəsi verilib. 1915-ci ildə səmərəli pedaqoji fəaliyyətinə görə III dərəcəli Müqəddəs Stanislav ordeni ilə təltif edilib. Rus dili və ədəbiyyatı müəllimlərinin 27 dekabr 1916-cı il – 4 yanvar 1917-ci il tarixlərində Moskvada keçirilən I Ümumrusiya qurultayında iştirak edib.

V. Kreve Bakıda tez bir zamanda şagirdlərinin sevimli və qayğıkeş müəlliminə çevrilir, pedaqoji fəaliyyətində yenilikçiliyi və geniş dünya görüşü ilə müəllim həmkarlarının hörmətini qazanır. Həmin illərdə Bakı 1-ci realnı məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi işləyən böyük pedaqoq və ünlü yazıçı Abdulla Şaiqlə V. Kreve arasında dostluq və yaradıcılıq əlaqələri yaranır. V. Kreve həmçinin A. Şaiqin ədəbi görüş dairəsinin genişlənib formalaşmasında, Avropa ədəbiyyatı xəzinəsini və eləcə də rus ədəbi tənqidini öyrənməsində böyük əmək sərf edib və çox mühüm rol oynayıb. Bunu A. Şaiqin özü də 1957-ci ildə V. Kreve haqqında yazdığı xatirələrində minnətdarlıqla etiraf edib:

[2] Bakıda o vaxtkı Nikolayevski – indiki İstiqlaliyyət küçəsində yerləşən həmin məktəbin binasında hazırda Azərbaycan Dövlət İqtisad Universiteti fəaliyyət göstərir.

[3] Vincas Krėvė-Mickevičius. Literatūra ir kalba, t. XVII. Vilnius, "Vaga", 1981, psl. 286.

"O vaxtlar mən hələ gənc idim, mütaliə dairəm məhdud idi. Doğrudur, mən Şərq yazıçı və mütəfəkkirlərindən xəbərdar idim, az-çox ərəb, fars, türk ədəbiyyatlarını bilirdim, Sədinin, Hafizin, Xəyyamın, Nizaminin, Xaqaninin, Ruminin, Firdovsinin, Füzulinin, Qaani Şirazinin yaradıcılığı ilə tanış idim. Lakin, rus və qərbi Avropa ədəbiyyatı və tənqidi sahəsində bildiyim məni qane etmirdi. Mitskəviçyus bu kəsiri hiss edirdi. Bunu onunla izah edə bilərəm ki, bir dəfə çox ehtiyatla və üsulluca o, mənə öz xidmətini – rus və qərbi Avropa ədəbiyyatının nailiyyətləri ilə tanış olmaqda kömək göstərmək istədiyini təklif etdi. Yadımdadır, bu söhbət onun kitabxanadakı otağında oldu. O zaman Vikenti İosifoviç mənə dedi: "Rus və qərbi Avropa ədəbiyyatının klassiklərini dərindən öyrənmək öz yaradıcılığıma daha tələbkar olmağıma, yaradıcı təfəkkürümün inkişafına çox böyük kömək edər".

O, elə inandırıcı şəkildə danışırdı ki, mən istər-istəməz onunla razılaşmalı oldum. Qərara aldıq ki, o, mənim ədəbi dünyagörüşümün zənginləşməsi üçün əlindən gələni əsirgəməsin. İndiki kimi yadımdadır, biz işi əvvəlcə "Ədəbiyyat nəzəriyyəsindən" və Sipovskinin "Poetika"sından başladıq. Sipovskidən sonra biz böyük bir ciddiyyətlə rus tənqidçilərini – Belinskini (Mitskəviçyus Belinskinin əsərlərini gözəl bilir və onu yüksək qiymətləndirirdi.), Çernışevskini, Dobrolyubovu öyrənirdik. Sonra növbə Bayrona, Göteyə, Şillerə, Balzaka, Stendala və b. çatdı. Mitskəvçyus mənim ədəbi görüş dairəmi genişləndirmək üçün əlindən gələni edirdi..."[4]

Məlumdur ki, A. Şaiq həm də Azərbaycan uşaq dramaturgiyasının banisi olaraq tanınır. O, 1910-cu ildə yazdığı "Gözəl bahar" pyesi ilə milli uşaq teatr tamaşasının əsasını qoyub. 1913-cü ildə Bakı 1-ci realnı məktəbinin azərbaycanlı şagirdləri A. Şaiqin bu bir pərdəli mənzum pyesini səhnəyə qoymuşdular (bu qoyuluş barədə "Kaspi" qəzetinin 1913-cü ildə çıxmış 57-ci sayında məlumat dərc olunub). Bu tamaşadan sonra V. Kreve A. Şaiqin yaradıcılığı ilə daha yaxından maraqlanmağa başlayır və bir dəfə o, A. Şaiqdən onun əsərlərindən birinin sətri tərcüməsini xahiş edir. Yazıçı ona alleqorik məzmunlu "Ana və oğul" ("Simurq quşu") balladasının rus dilinə edilmiş sətri tərcüməsini gətirir. Ertəsi gün V. Kreve A. Şaiqə bu əsərin rus dilinə edilmiş əla poetik tərcüməsini göstərir (V. Kreve yaradıcılığının ilk dövründə polyak və rus dillərində də əsərlər yazıb). Təəssüf ki, bu tərcümənin hardasa dərc edilib-edilməməsi barədə hələlik əlimizdə bir məlumat yoxdur. Ola bilsin ki, tərcümə heç bir yerdə dərc edilməyib və V. Krevenin arxivində saxlanılır.

V. Kreve Bakı 1-ci realnı məktəbində fəaliyyət göstərən şagird ədəbi dərnəyinə rəhbərlik edib. Bu dərnəyin ən istedadlı üzvlərinin, həmçinin azərbaycanlı

[4] Abdulla Şaiq. "Xatirələrim". Bakı, "Gənclik", 1973-cü il, səh. 347–348.

şagirdlərin ədəbi yazılarının "İlk cücərtilər" *("Первые всходы")* adlı rusca buraxılan almanaxda çap olunub yayılmasını təşkil edib. Dərnəkdə araşdırılan mövzuların çoxunun rus və Qərb ədəbiyyatı ilə bağlı olmasına baxmayaraq, o, apardığı məşğələlərdə türk mədəniyyətinin də öyrədilməsinə yer verib. Dərnəyin üzvü, V. Krevenin şagirdi, sonralar Bakı Universitetinin dosenti olmuş coğrafiyaşünas alim Hadı Əliyev litvalı müəllimi haqqında 1957-ci ilin dekabrında yazdığı xatirələrində göstərir ki, "Mitskəviçyus Şərq ədəbiyyatının bütün yeniliklərini izləyirdi... Məsələn, şagirdlərdən biri onun rəhbərliyi ilə "Müasir türk ədəbiyyatı" mövzusunda referat yazmışdı".[5]

V. Kreve Azərbaycan folkloru, etnoqrafiyası və məişəti ilə çox yaxından maraqlanırdı, şagirdlərindən tez-tez əfsanələr, nağıllar və adət-ənənələr haqqında soruşardı. O vaxtlar Qori müəllimlər seminariyası şagirdlərinin toplayıb ayrıca dəftərlər şəklində çapdan buraxdıqları "Qafqaz xalqlarının atalar sözləri və zərb-məsəllərini" acgözlüklə oxuyub toplayırdı. Bunlar onun üçün həmişə əsl bayram və qiymətli söz xəzinəsi idi...

V. Krevenin həmkarı və şagirdləri: 1. Abdulla Şaiq. 2. Tağı Şahbazi Simurq. 3. Ruhulla Axundov.

Bakıda kamil pedaqoq kimi ad qazanmış V. Kreve azərbaycanlı şagirdlərinin mütərəqqi dünyagörüşlərinin formalaşması, ədəbi-estetik və elmi-nəzəri baxışlarının rasional istiqamətdə inkişaf etməsi və beləliklə də Azərbaycan türklərindən oluşan yüksək səviyyəli ziyalı dəstəsinin yetişdirilməsi işinə mühüm töhfələr verib. Onun yetişdirmələri sırasında sonralar Azərbaycanda yazıçı, jurnalist, həkim, iqtisadçı, pedaqoq və ictimai-mədəni xadim kimi tanınmış Tağı Şahbazi Simurq, Ruhulla Axundov, Abdulla Şıxlinski, Abdulla Şahbazov,

[5] Vincas Krėvė-Mickevičius. Literatūra ir kalba, t. XVII. Vilnius, "Vaga", 1981, psl. 349.

Həbib Talışinski, Qulam Həsənov, Hadı Əliyev, Səməndər Axundov və çox sayda digər şəxslər vardı...

Yazıçı və dövlət xadimi Tağı Şahbazi (1892–1938) 1935-ci ildə Bakıda çapdan çıxmış seçilmiş əsərlərinin birinci cildinə yazdığı ön sözdə Litva yazıçısının adını böyük hörmət və minnətdarlıqla qeyd edib.[6] O, ədəbi yaradıcılığına V. Krevenin göstərdiyi təsirdən danışaraq onu öz əsərlərinin ilk tənqidçisi adlandırıb. Amma nəşriyyat o zaman V. Krevenin xaricdə – burjua dövləti Litvada yaşadığını əsas tutaraq, T. Şahbazini bu fikrindən döndərərib və buna görə də V. Krevenin adı həmin kitaba salınmayıb (bu haqda T. Şahbazinin qardaşı Abdulla Şahbazov öz xatirələrində yazıb).

V. Kreve istedadlı şagirdi, sonralar Azərbaycanda sol təmayüllü ictimai-siyasi xadim, tərcüməçi, ədib və publisist kimi tanınmış Ruhulla Axundova (1897–1938) da himayədarlıq edib. Belə ki, dəfələrlə R. Axundovun təhsil pulunu ödəyə bilmədiyi üçün məktəbdən xaric olunmasının qarşısını alıb, pedaqoji şura iclaslarında və direktorluğun qarşısında onu haqlı olaraq müdafiə edib. Nəticədə yaxın gələcəyin fəal ictimai xadimi məktəbi uğurla bitirə bilib.

"Dil millətin ucaltdığı əzəmətli abidədir...". Bu aforizm V. Krevenin müasiri, Litva ədəbi dilinin "atası" sayılan Yonas Yablonskis (1860–1930) adlı məşhur dilçi alimə məxsusdur. V. Kreve bütün həyatı və yaradıcılığı boyu var gücü ilə bu "əzəmətli abidəni" daha da bəzəməyə və qorumağa çalışıb. Onun ana dilinə həm həyatda, həm də əsərlərində sədaqətli övlad sevgisi ilə yanaşmasını digər böyük mütəfəkkir və humanist xadim – Litva yazı dilinin banilərindən biri kimi tanınan Mikaloyus Daukşa (1527–1613) tərəfindən 400 il öncə deyilən və artıq aforizmə çevrilən bu fikirlə ifadə etmək olar: "Dil – birgə məhəbbətin rabitəsi, birliyin anası, vətəndaşlığın atası və dövlətin keşikçisidir".

Bu deyimə uyğun olaraq, Litva danışıq dili V. Krevenin yaradıcılığında ən yüksək səviyyədə linqvistik seçim və üslub mədəniyyəti süzgəcindən keçirilib qiymətli daş-qaşlar kimi qarışıqlardan təmizlənir, qızıl külçələri şəklinə salınır və "məhəbbətin rabitə vasitəsi, birliyin anası" olmasını təsdiq edən ritmik quruluşlu poeziya misraları tək səslənən məftunedici cümlələrə çevrilirdi...

Ana dilini – o cümlədən Azərbaycan dilini millətin varlığını təsdiq edən başlıca amil olaraq göz bəbəyi kimi qoruyub yaşatmağın vacibliyini şagirdlərinə təlqin etmək V. Krevenin Bakıdakı pedaqoji fəaliyyətində əsas yerlərdən birini tuturdu. O, bu məsələyə ələlxüsus Baltik xalqları ziyalılarına xas olan mütərəqqi mühafizəkarlıq və böyük həssaslıqla yanaşırdı. Azərbaycan dilinin

[6] Tağı Şahbazi Simurq. "Əsərləri", I cild, Bakı, "Azərnəşr", 1935, 289 səh., 3000 nüsxə.

Bakı 1-ci realnı məktəbində tədris edilməsinin aktual problemləri ilə bağlı V. Krevenin ictimai-siyasi və edukoloji baxışları Məmməd Əmin Rəsulzadənin o zaman bu məktəbdə hökm sürən vəziyyətə aid 1908-ci ildə dərc etdirdiyi "Realnı məktəbində müsəlman əlifba sinfi" adlı araşdırma məqaləsində[7] yer almış tənqidi mülahizələrlə və irəli sürülmüş milli-maarifpərvər müddəalarla tamamilə uzlaşırdı.

V. Krevenin azərbaycanlı şagirdlərə xüsusi hörməti və məhəbbəti olub. O, şagirdlərində milli şüur və özünüdərketmənin formalaşması, vətənpərvərlik hisslərinin oyadılması, milli-mənəvi dəyərlərimizin – Azərbaycan tarixi, dili və ədəbiyyatının öyrənilib təbliğ olunması, maarif və mədəniyyətin xəlqi ruhda tərəqqi tapması istiqamətində və habelə azərbaycançılıqla bağlı bir çox digər sahələrdə xeyirxah işlər görüb, mühüm xidmətlər göstərib. V. Krevenin keçmiş şagirdi Səməndər Axundov müəllimi haqqında 1957-ci ilin martında belə yazıb:

"Bir kərə şagirdlərdən biri Mitskəviçyusdan soruşdu ki, doğrudanmı biz tatarıq? O dedi ki, yox, siz türksünüs və Azərbaycan (bu sözü o zaman biz ilk dəfə ondan eşitdik) isə sizin vətəninizdir. Sonra o, Azərbaycan dilinin mənşəyi və qədim Azərbaycan mədəniyyəti barədə danışdı, Nizami, Xaqani və Füzulinin yaradıcılığından söhbət açdı. Mitskəviçyus öz fikirlərini çox cəsarətlə söyləyirdi və xüsusilə qeyd edirdi ki, bizim dilimiz heç bir *"туземный язык"* – yəni *"yerli dil"* yox, Azərbaycan dilidir və bu dili öz adi ilə adlandırmaq lazımdır".[8]

Söz düşmüşkən qeyd edək ki, V. Kreve litvalılar arasında Nizaminin yaradıcılığı barədə ictimai diskursda ilk dəfə mülahizə və dəyərləndirmələr təqdim edən xadimlərdən biridir. A. Şaiq onun haqqındakı xatirələrində qeyd edir ki, V. Kreve sıradan bir ədəbiyyat müəllimi deyildi, dərin bilikli və ədəbiyyatın müxtəlif sahələri üzrə geniş dünyagörüşlü bir ədəbiyyatşünas idi, Şərq ədəbiyyatına, o cümlədən Nizaminin, Şota Rustavelinin, Sədinin yaradıcılığına yaxından bələd idi.

V. Kreve hələ o illərdə Nizaminin ədəbi irsini tədrisə cəlb edərək, şagirdlərinə onun haqqında danışır və poeziyasından tez-tez misallar gətirirdi. V. Krevenin şagirdlərindən A. Şahbazov, H. Əliyev və Q. Həsənov litvalı müəllimi barədə 1957–1958-ci illərdə yazdığı xatirələrində göstərirlər ki, o, Nizaminin poemalarını çox sevir və Nizami dövrü Azərbaycan mədəniyyətini yüksək dəyərləndirirdi. V. Kreve yeri gəldikcə Nizamini Qərb ədəbi klassikləri ilə müqayisə edirdi. O, Nizami sənətinin Bayron poeziyasına, "Leyli və Məcnun" poemasının "Romeo və Cülyetta" faciəsinə təsirindən danışır, bunların arasında paralellər aparırdı. V. Kreve şagirdlərinə danışırdı ki, dahi alman şairi

[7] Bakı, "Tərəqqi" qəzeti, 23 sentyabr 1908-ci il, № 59.
[8] Vincas Krėvė-Mickevičius. Literatūra ir kalba, t. XVII. Vilnius, "Vaga", 1981, psl. 346–347.

Yohan Volfgang Göte Nizaminin əsərlərinə heyran olmuş və özünün məşhur "Qərb-Şərq divanı"ndakı ayrı-ayrı şeirləri onun yaradıcılıq dühasına ithaf etmişdir. Vurğulamaq lazımdır ki, o vaxt V. Krevenin irəli sürdüyü bu ədəbi tezis sonralar Dünya nizamişünaslığında təsdiq olundu və öz həqiqi qiymətini aldı.

Əlamətdar haldır ki, V. Kreve sonralar da, 1922–1954-cü illərdə Kaunas, Vilnüs və Pensilvaniya universitetlərinin professoru olaraq Dünya ədəbiyyatı tarixindən oxuduğu mühazirələrdə, Şərqin düşüncə və həyat tərzi, fəlsəfə, inanc və dünyagörüşü sistemləri, bədii sözə və estetik gözəlliyə münasibət barədə danışarkən Nizami yaradıcılığına xüsusi yer ayırmışdır.

Qeyd etdiyimiz kimi, ana dilinə övlad sevgisi ilə yanaşmaq, ona sahib olub keşiyində ayıq-sayıq durmaq V. Krevenin həm həyatda, həm də pedaqoji fəaliyyətində diqqət yetirdiyi əsas məsələlərdən biri idi. Bununla bağlı Abdulla Şaiqin V. Kreve haqqında yazdığı "Litvalı həmkarım" adlı xatirələrindəki bəzi faktları örnək kimi göstərmək olar. A. Şaiq yazır ki, „azərbaycanlı olduğum halda mənə tatar namını taxan və millətimizi unutdurmağa çalışan, hər hüququmu ayaqlar altına alan müstəbid çar siyasətindən ziyadə mənimlə bir məktəbdə çalışan, bir cəbhədə pedaqoq namını daşıyan çar müəllimlərinin bizə qarşı olan hərəkət və rəftarı mənə hər şeydən ağır gəlirdi".[9]

O zaman Azərbaycan dili Bakının ancaq bir neçə məktəbində tədris olunurdu, həm də bu fənn dərs cədvəlində "tuzemnı dili" kimi göstərilərək azad dərs şəklində altıncı saata salınırdı və bu dərslərdə iştirak etmək məcburi sayılmırdı. Azərbaycanlılar etnonimi əvəzinə isə *"tatarva"* sözü işlədilirdi.

A. Şaiq qeyd edir ki, "Çarizm Azərbaycanı nəinki çar müstəmləkəsinə çevirmişdi, həm də azərbaycanlılara təzyiq göstərir və Azərbaycan xalqının mədəni irsi müxtəlif üsullarla inkar edilirdi. Odur ki, *"туземный язык"* müəllimlərindən tələb olunurdu ki, dərslərdə yalnız dinin öyrənilib təbliğ edilməsinə xüsusi diqqət yetirsinlər..."

Ədib daha sonra yazır: "Xatırlamaq nə qədər ağırdırsa da, lakin, o vaxt elə valideynlər tapılırdı ki, öz uşaqlarına "yerli dil" dərslərində iştirak etməyə icazə vermirdi. Yadımdadır, bir dəfə, varlı Məmmədbəyov (bu günə qədər bu familiyanı xatırlayıram) müəllimlər otağına soxularaq, hamı eşidəcək bir tərzdə dedi ki, guya mən onun oğlunun başını boş, lazımsız dərslərlə yoruram". Mitskəviçyusu bu əhvalat çox həyəcanlandırdı. O vaxt Mitskəviçyus elə yerindəcə – müəllimlər otağında, öz narazılığını bildirərək dedi: "o adam ki, öz doğma ana dilini öyrənməkdən utanır, onu adam adlandırmaq olmaz".

[9] Abdulla Şaiq. "Xatirələrim". Bakı, "Gənclik", 1973, səh. 306.

A. Şaiq xatirələrində xüsusilə vurğulayır ki, V. Kreve "adamın milli qürurunu tapdalayanlara qarşı, xüsusən o vaxt azərbaycanlılara olan pis münasibətə, onları "tuzemnı" sayanlara qarşı çox amansız idi. O, bütün bunları alçaq hərəkət kimi qəbul edir, belə münasibətlərlə barışmırdı".[10]

V. Kreve o vaxt öz uşaqlarının "tuzemnı dili" dərslərində iştirak etməsinə icazə verməyən və bunu özlərinə həqarət sayan bəzi üzdəniraq azərbaycanlı valideynlərə kəskin etirazını bildirir, onları tənqid və tənbeh edib utandırırdı. Bununla yanaşı, V. Kreve o vaxtlar azərbaycanlı şagirdlərə və müəllimlərə yersiz təhqirlərlə hücum edən rus şovinist məmurlara və pedaqoqlara qarşı da hər dəfə öz qəti etirazını bildirmişdir. Bakı məktəblərində dərs deyən həmin pedaqoqlardan bəziləri (A. Zudin, A. Kalyujnıy, V. Sidorenko və b.) azərbaycanlı şagirdlərdə başqa dilləri, xüsusilə, rus dilini öyrənmək qabiliyyəti olmadığını sübut etmək istəyirdilər. V. Kreve belələrinə həmişə kəsərli cavablar vermişdir...

Rusiya İmperiyasının Azərbaycanda milli dəyərləri məhv etmək, azərbaycanlılara tatar namını taxıb milli kimliyi unutdurmaq üçün yeritdiyi müstəbid siyasətə qarşı gedən belə mərd və ədalətli hərəkətlər, Azərbaycan xalqının azadlıq hüquqlarının müdafiəsinə yönəlikli misallar V. Krevenin Azərbaycanla bağlı fəaliyyətində çoxdur. Bunu Litva yazıçısının Bakıda onunla birgə işləmiş həmkarları, həm azərbaycanlı, həm də digər millətlərdən olan şagirdləri, eləcə də litvalı müasirləri öz xatirələrində dönə-dönə qeyd ediblər. A. Şaiqin və Bakı 1-ci realnı məktəbi şagirdlərinin V. Kreve haqqında yazdıqları həmin xatirələr 1981-ci ildə Litva SSR Elmlər Akademiyasının Litva dili və ədəbiyyatı institutu tərəfindən Vilnüsdə buraxılan "Ədəbiyyat və Dil" elmi-kütləvi seriyasının XVII cildində çap olunub. Litva ədəbiyyatşünası Yokubas Sklyutauskasın 1957–1958-ci illərdə Bakıda topladığı bu xatirələr və avtobioqrafik mətnlər göstərilən institutun əlyazmalar fondunda saxlanılır.

V. Krevenin çoxsaylı yetişdirmələri arasında həmçinin başqa millətlərdən olan (rus, erməni, gürcü, yunan, polyak, alman, osetin və b.) və sonralar elm və sənət xadimləri kimi çox geniş tanınan digər şagirdlər də vardır. Onlardan bəziləri də ötən əsrin 50–60-cı illərində V. Kreve haqqında xatirələr yazıblar. Bu xatirə müəllifləri arasında V. Krevenin sabiq şagirdləri – tanınmış erməni dramaturqu, ədəbiyyatşünas və tərcüməçi Tiqran Axumyan (1894–1973) və erməni əsilli dilçi-russünas professor, SSRİ Elmlər Akademiyasının müxbir üzvü, Lenin mükafatı laureatı, akademik Stepan Barxudarov (1894–1983) da vardır ki, onların xatirələri Yerevanda və Vilnüsdə bir neçə dəfə təkrarən çap olunub.

[10] Abdulla Şaiq. "Xatirələrim". Bakı, "Gənclik", 1973-cü il, səh. 344–345.

Azərbaycanda özünə yeni dostlar tapan V. Kreve həyat yoldaşı, Bakı yəhudisi – Rebekka Karakla (1889–1966) da burada rastlaşıb, çox sevdiyi bu xanımla 1913-cü ilin avqustunda ailə həyatı qurub. Nikah mərasimi Vilnüsdə müqəddəs Mikoloyus katolik kilsəsində keçirilib və kəbindən qabaq katolikliyi, eləcə də Mariya-Ona adını qəbul edən Karakla V. Krevenin nikahı burada qeydə alınıb.

1914-cü il iyulun 7-də isə bu cütlüyün Ona-Aldona adlı qızı dünyaya gəlib. V. Krevenin qızının vəftiz mərasimi (xaç suyuna salma, xristianlığa qəbul olunma ayini) o zaman Bakıda Birja – indiki Üzeyir Hacıbəyov küçəsi № 36 ünvanda yerləşən Müqəddəs Bakirə Məryəmin Məsum Hamiləliyi katolik kilsəsində baş tutub.[11] Vəftiz mərasimi 5 oktyabr 1914-cü ildə (köhnə stillə) Bakı katolikləri dini icmasının rəhbəri, sözügedən katolik kilsəsinin baş keşişi Stefan Demurovun (1871–1938) rəhbərliyi ilə icra olunub və mərasimdə V. Krevenin həyat yoldaşı və qohumları ilə bərabər bir neçə müəllim həmkarı da iştirak edib.

1. V. Krevenin həyat yoldaşı Rebekka Karak. Bakı, 1913-cü il. 2. V. Kreve azyaşlı qızı Onute ilə. Bakı, 1915-ci il. 3. V. Krevenin qızı Onutenin xaç suyuna salma ayininin keçirildiyi Müqəddəs Bakirə Məryəmin Məsum Hamiləliyi katolik kilsəsi. Bakı, 1914-cü il.

V. Kreve Azərbaycanda həm də ictimai-mədəni xadim kimi fəaliyyət göstərib, Bakının qaynar mühitinə qaynayıb-qarışıb, şəhərin ictimai-mədəni həyatında yaxından iştirak edib. O, 1911–1912-ci illərdə Bakı Xalq Universitetinin təsisçilərindən biri olub. Bu universitetin və bir sıra xeyriyyə cəmiyyətlərinin xətti ilə müxtəlif auditoriyalarda ədəbiyyat, dil, tarix, fəlsəfə və din mövzularında mühazirələr oxuyub, mütərəqqi ruhlu çıxışlar edib. O vaxtkı Bakı qradonaçalniki – qubernator hüququnda olan şəhər polis rəisi, polkovnik

[11] Адрес календарь Азербайджанской Республики на 1920-й год. Библиотека Гос. архива политических партии и общественных движений Азербайджанской Республики, фонд № 1810, раздел «Духовенство».

Pyotr İvanoviç Martınov (1867–?) Bakı Xalq Universitetini "üsyankar natiqlərin tribunası" kimi öz nəzarəti altında saxlamağa çalışsa da, hətta bir neçə dəfə onun fəaliyyətini dayandırmağa nail olsa da, sonradan şəhər ictimaiyyətinin tələbi ilə bu ictimai-mədəni maarif ocağının fəaliyyətini bərpa etməyə məcbur olmuşdu. Bu barədə ilk dəfə hələ 1926-cı ildə ünlü Litva ədəbiyyatşünası, akademik Kostas Korsakas (1909–1986) V. Krevenin ədəbi fəaliyyətinin 20 illiyinə həsr etdiyi bir məqaləsində yazmışdır.[12] Əlbəttə, Martınov pedaqoq V. Kreveni tanımaya bilməzdi, şübhəsiz ki, onun "millətçi çıxışları" barədə də eşitmişdi. Üstəlik, Martınovun oğlu Bakı 1-ci realnı məktəbinin şagirdi idi və çox pis oxuduğuna görə atası onu bu məktəbdən çıxartmağa məcbur olmuşdu. Sözsüz ki, V. Krevenin öz şagirdlərinə Azərbaycanla bağlı ötürdüyü mütərəqqi bilgilər irticaçı şəhər başçısının xoşuna gələ bilməzdi.

V. Kreve Bakının siyasi həyatında da yaxından iştirak edib – 1917-ci ilin oktyabrında Bakı şəhər Dumasına qlasnı (deputat) seçilib və həmin il dekabrın 12-dən etibarən, bir müddət həm də Dumanın katibi olaraq fəaliyyət göstərib. V. Krevenin 1921-ci ildə Kaunasda yazdığı tərcümeyi-halında göstərilir ki, o, həmçinin 1917–1918-ci illərdə Eserlər partiyası Bakı şəhər komitəsinn *"Znamya truda"* qəzetini redaktə edib.

V. Kreve 1917–1920-ci illərdə Bakı litvalılarının lideri olaraq Azərbaycanda yaşayan litvalıların təşkilatlanması, hüquqlarının qorunması, habelə onların Vətənə qayıtmasını təmin etmək üçün bir sıra vacib təşkilati işlər görüb. 1917-ci ilin dekabrında V. Krevenin rəhbərlik etdiyi Bakı litvalıları digər Qafqaz litvalıları təşkilatları ilə birgə Tiflisdə Qafqaz Litvalıları Şurasını yaradıblar. Bu Şura o zaman Azərbaycan, Ermənistan və Gürcüstanda yaşayan litvalıların təmsilçisi kimi, həm də Litva dövlətini bərpa etmək istiqamətində aparılan milli-azadlıq hərəkatına əməli işdə dəstək verib və 16 fevral 1918-ci ildə Vilnüsdə Litva dövlətinin bərpa edilməsi haqqında İstiqlal Bəyannaməsinin Qafqaz litvalıları adından da elan olunmasını təmin etmək üçün mühüm ictimai-siyasi və təşkilati fəaliyyət göstərib.

1918-ci ildə Litva və Azərbaycan öz müstəqilliyini bəyan etdikdən sonra, V. Kreve fəaliyyətini əsasən Litva–Azərbaycan dövlətlərarası münasibətlərinin təşəkkül tapmasına yönəldib, Litvanın Azərbaycandakı Konsulluğunun təsis olunmasında bilavasitə iştirak edib.

[12] Gelvainis K. [Korsakas K.] Vincas Krėvė-Mickevičius. Mėnesinis mokslo, visuomenės, kultūros, meno ir literatūros žurnalas "Kultūra", 1926, Nr. 11, psl. 424–427.

1918-ci il iyulun 23-də Litva Dövlət Şurasının qərarı ilə Tiflisdəki Qafqaz Litvalıları Şurasının əsasında Litvanın Azərbaycan, Ermənistan və Gürcüstan dövlətlərindəki nümayəndəliyi təsis edilib və Qafqaz Litvalıları Şurasının sədri, o zaman IV Tiflis oğlanlar gimnaziyasında riyaziyyat müəllimi işləyən litvalı xadim Pranas Daylide (1888–1965) bu dövlətlərdə diplomatik nümayəndə təyin olunub.

Diplomatik nümayəndə P. Daylide 22 avqust 1918-ci ildə Vilnüsdən Tiflisə qayıdır və Etimadnaməsini Qafqaz dövlətlərinin burada fəaliyyət göstərən rəsmi təmsilçilərinə – o cümlədən Azərbaycan Cümhuriyyətinin Gürcüstan Respublikasındakı diplomatik nümayəndəsi Məmməd Yusif Cəfərova (1885–1938) təqdim edir.[13] Daha sonra isə Cümhuriyyətin Nazirlər Kabinetinin 21 oktyabr 1918-ci ildə keçirilmiş iclasında P. Daylidenin Azərbaycanda Litva Hökumətinin işlər müvəkkili olmasına razılıq verilir.[14] Beləliklə, Litva dövlətinin Cümhuriyyətlə diplomatik əlaqələrinin əsası 23 iyul 1918-ci ildə qoyulub və müstəqil Azərbaycan–Litva dövlətlərarası münasibətlərinin tarixi məhz həmin vaxtdan başlanır.[15]

Litvanın Qafqaz dövlətlərindəki nümayəndəliyinin binası və baş fasada vurulmuş xatirə lövhəsi. Nümayəndəlik 1918–1921-ci illərdə Tiflisdə Kiroçnıy (indiki Kote Mardjanişvili) küçəsi № 45 ünvanda fəaliyyət göstərib.

22 mart 1919-cu ildə Litvanın Zaqafqaziya Respublikaları hökumətləri yanındakı diplomatik nümayəndəsi P. Daylide Litva dövlətinin Bakıda konsulluğunun açılması ilə bağlı 142 saylı Nota ilə Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyinə müraciət etdi. Notada Bakı şəhərində Konsulluğun təsis edilməsinə ehtiyac olduğu bildirilirdi. Diplomatik nümayəndə yazırdı ki, "Qafqaz respublikalarının hər birində ayrılıqda Litva nümayəndəliyi təsis

[13] Lietuvos mokslų akademijos Vrublevskių biblioteka. Rankraščių skyrius, F. 255, vnt. 1060, l. 1v.
[14] "Azərbaycan" qəzeti. Bakı, 24 oktyabr 1918-ci il, № 21.
[15] Lietuvių Enciklopedija. IV tomas. Bostonas, 1954, psl. 231; Lietuvių Enciklopedija. XII tomas. Bostonas, 1957, psl. 94.

edilənə qədər, Bakıda Konsulluğun açılması Azərbaycan Hökuməti ilə yaxın əlaqələr qurmaq lüzumundan irəli gəlir və eyni zamanda Azərbaycan ərazisində yaşayan Litva vətəndaşlarının maraqlarını təmin etmək məqsədini güdür." O, habelə göstərirdi ki, "əgər qaldırılan bu məsələ üzrə razılıq əldə olunarsa, konsul səlahiyyəti Litva vətəndaşı Vikenti Mitskeviçə (Vintsas Kreve-Mitskəviçyusa – *M. H.)* veriləcək."[16]

O vaxtkı Xarici işlər naziri Məmməd Yusif Cəfərov bu Nota ilə əlaqədar Cümhuriyyət Hökuməti qarşısında vəsatət qaldıraraq müvafiq təqdimat verir. Bu təqdimat əsasında Hökumət müsbət qərar qəbul edir və Konsulluğun təsis olunmasına razılıq verir. Beləliklə Cümhuriyyətdə Litva dövlətinin konsulluğu açılır və V. Kreve burada ilk konsul təyin olunur.

Bu barədə rəsmi məlumat "Azərbaycan" qəzetinin rusca nəşrinin 27 mart 1919-cu il tarixli sayında dərc edilib; sonralar eserlərin *"Znamya truda"* qəzetinin 13 və 18 noyabr 1919-cu il tarixli saylarında da Litva konsulluğunun fəaliyyəti ilə bağlı məlumatlar çap olunub. Qəzetlərdə bu publikasiyaların müəllifi göstərilməsə də, üslubuna görə onların V. Kreve tərəfindən yazıldığını təyin etmək asandır.

İlk dövrdə Litva konsulluğu V. Krevenin Bakıda *Pozenovski* küçəsi № 15 ünvanda yerləşən mənzilində qərar tutub və burada fəaliyyətə başlayıb (20 aprel 1929-cu ildə Bakı Şəhər Soveti Rəyasət heyətinin 9 saylı qərarı ilə həmin küçənin adı dəyişdirilərək Fridrix Engelsin adı verilib. 1992-ci ildən başlayaraq küçə Cəfərov qardaşları adlanır).

1. AXC Xarici işlər naziri Məmməd Yusif Cəfərov. 2. 1919–1920-ci illərdə Litva dövlətinin Cümhuriyyətdəki konsulluğunun yerləşdiyi bina. Bakı, Pozenovski (indiki Cəfərov qardaşları) küçəsi, ev № 15.

[16] Azərbaycan Respublikasının Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi, fond. 277, siy. 2, iş 33, s. 1–2.

Konsul V. Kreve yenicə müstəqillik əldə etmiş Litva dövlətinin *de facto* tanınması üçün mühüm işlər görüb. Litva diplomatının bu fəaliyyətinin, eyni zamanda Azərbaycan Cümhuriyyətinin də beynəlxalq aləmdə tanınması ilə bilavasitə bağlılığı vardı. Bunu deyərkən, biz ilk növbədə M. Y. Cəfərovun göstərilən təqdimatında ehtiva olunmuş çox mühüm bir tezisi əsas kimi götürürük. Nazir AXC Hökümətinə yönəlik həmin təqdimatında yazırdı:

"Zənn edirəm ki, müqəddəratını təyin etmiş xalqların beynəlxalq əlaqələrinin inkişafına dəstək verməklə, biz eyni zamanda respublikamızın da beynəlxalq münasibətlər sahəsində nüfuzunun artmasına şərait yaratmış oluruq".

Vurğulamaq lazımdır ki, V. Krevenin konsul təyin olunmasından sonra Azərbaycan və Litva respublikalarının, habelə Estoniya, Latviya, Ukrayna, Gürcüstan dövlətlərinin Paris Sülh Konfransındakı təmsilçilərinin müstəqilliyin tanınması ilə bağlı 8 oktyabr 1919-cu il və 16 mart 1920-ci il tarixlərində birgə imzalayıb Fransanın Baş naziri, Paris Sülh Konfransının sədri Jorj Klemansoya (1841–1929) və İtaliya Parlamentinə ünvanladıqları kollektiv müraciətlər, etiraz bəyanatları və digər sənədlər sözügedən tezisi təsdiq edən vacib tarixi faktlardır.[17]

Haşiyə çıxıb qeyd edək ki, Litva dövlətinin həmin müraciətlərə imza atmış təmsilçilərinin ad və soyadları Azərbaycan mənbələrində təhrif olunmuş şəkildə göstərildiyi üçün, burada o yanlışları da təshih etmək yerinə düşərdi. Belə ki, Azərbaycan Cümhuriyyəti adından o sənədləri Ə. M. Topçubaşov və R. Xanbudaqov, Litva dövləti adından isə mühəndis və diplomat Tomas Norus Naruşyaviçyus (1871–1927), eləcə də 1919–1922-ci illərdə Litva yepiskopluğunun Vatikandakı təmsilçisi olan katolik keşişi Yurgis Naryauskas (1876–1943) imzalayıblar.

V. Kreve 1922-ci ildə Kaunasda yazdığı digər tərcümeyi-halında göstərib ki, o, 1919-cu ildə Azərbaycan Parlamentinin qərarı ilə açılan Bakı Universitetinin müəllimi (bəzi mənbələrdə dosent kimi göstərilib – *M. H.)* olaraq burada qədim bulqar dili üzrə mühazirələr oxuyub.[18] Düşünürük ki, o, bununla Azərbaycanda ali təhsilli dilçi mütəxəssislərin hazırlanması işinə də töhfələr verib.

1917–1920-ci illərdə onun Bakıdan Litvaya yazdığı məktublarda o dövr Azərbaycan və Qafqaz reallıqları ilə bağlı bəzi tarixi məqamlar və dramatik olaylar da yer alıb. Məsələn, Bakıda 1918-ci ilin payızında baş vermiş hadisələr, Türkiyə ordu hissələrinin şəhəri azad etməsi və s.

[17] Азербайджанская Демократическая Республика (1918–1920). Внешняя политика. Баку, издательство "Азербайджан", 1998, стр. 369–372, 566–567.

[18] Vinco Krėvės-Mickevičiaus CURRICULUM VITAE. Literatūra ir kalba, t. XVII. Vilnius, "Vaga", 1981, psl. 248–250.



Kaune, 1921 m. kovo m. 3 d. Nr. 58

Vyriausybės Žinios

— 542 —

Azarbeidžano Socialistinės Tarybų Respublikos Vyriausybės ir Lietuvos Demokratinės Respublikos Vyriausybės

SUTARTIS

del teisių garantijų tų Respublikų piliečiams, gyvenantiems kitos Respublikos teritorijoje.

Azarbeidžano Socialistinės Tarybų Respublikos Vyriausybė, atstovaujama jos Užsienių Reikalų Liaudies Komisaro Mirza-Davuda GUSEINOV iš vienos šalies ir Lietuvos Demokratinės Respublikos Vyriausybė, atstovaujama jos Atstovo Užkaukazio Respublikų Vyriausybėms, Pr. DAILIDĖS — iš antrosios, remdamosios abiejų Respublikų pilno nepriklausomybės pripažinimo pagrindu, padarė ir pasirašė 1920 m. rugsėjo mėn. 25 d. Tiflise šiokią sutartį:

1. Azarbeidžano Socialistinė Tarybų Respublikos Vyriausybė duoda gyvenantiems jos teritorijoje Lietuvos piliečiams tas teisių garantijas, kuriomis naudojasi Lietuvos piliečiai Tarybų Rusuose, einant Rusijos Socialistinės Federacinės Tarybų Respublikos ir Lietuvos Demokratinės Respublikos š. m. liepos 12 d. sutartimi.
2. Lietuvos Demokratinės Respublikos Vyriausybė duoda tokias pat garantijas gyvenantiems Lietuvos teritorijoje Azarbeidžano Socialistinės Tarybų Respublikos piliečiams.

Ši sutartis su reikiamais parašais yra padaryta dviejuose egzemplioriuose, kurių vienas pasilieka pas Azarbeidžano Socialistinės Tarybų Respublikos Užsienių Reikalų Liaudies Komisarą, antras pas Lietuvos Demokratinės Respublikos Atstovą ir įgyja galios tuojau ją pasirašius.

(Pasirašė) D. GUSEINOV, Azarbeidžano Socialistinės Tarybų Respublikos Liaudies Komisaras, ir

Pr. DAILIDĖ, Lietuvos Demokratinės Respublikos Atstovas Užkaukazio Respublikų Vyriausybėms.

1920 m. rugsėjo m. 25 d.
Tiflisas.

Azərbaycan SSR və Litva Respublikası arasında 1920-ci ildə imzalanmış hökümətlərarası müqavilənin çap olunduğu Litva dövlətinin "Hökumət xəbərləri" nəşri. Kaunas, 3 mart 1921-ci il, № 58.

V. Krevenin müstəqil Litva–Azərbaycan dövlətlərarası münasibətlərinin əsasının qoyulması ilə bağlı fəaliyyəti barədə deyilənlərə əlavə olaraq, indiyədək geniş ictimaiyyətə az məlum olan və həmin münasibətlərin Cümhuriyyətin süqutundan sonrakı çətin siyasi vəziyyəti işıqlandıran tarixi bir faktı da açıqlamaq istərdik. 1920-ci il sentyabrın 25-də Tiflisdə Azərbaycan SSR və Litva Respublikası arasında ilk hökümətlərarası müqavilə bağlanıb.[19] Bu müqavilə onda Azərbaycan SSR ərazisində yaşayan Litva Respublikası vətəndaşlarına və Litva Respublikası ərazisində yaşayan Azərbaycan SSR vətəndaşlarına qarşılıqlı şəkildə hüquqi təminatların verilməsi haqqında idi. Həmin sənəddə müqavilə bağlamış tərəflərin biri digərinin "dövlət müstəqilliyini tamamilə tanıması" barədə maddə də təsbit olunub. Litva Respublikası adından bu müqaviləni Qafqaz dövlətlərindəki diplomatik nümayəndə Pranas Daylide, Azərbaycan SSR adından isə Xalq xarici işlər komissarı Mirzə Davud Hüseynov (1894–1938) imzalayıb. Sovet Rusiyasının birbaşa təzyiqi və təhriki ilə hazırlanıb imzalanmış həmin müqavilə müstəqilliyi məhv edilmiş Azərbaycanın zorla sovetləşdirilməsi və Sovetlər imperiyasına qatılması yolunda məcburən edilmiş addımlardan biri idi. Həm Litvanın, həm də Azərbaycanın dövlət arxivlərində bunu sübut edən bir sıra digər tarixi sənədlər də mövcuddur.

Bütün bunlar bir daha konsul V. Krevenin o dövrdə necə mürəkkəb tarixi və siyasi şəraitdə fəaliyyət göstərdiyini göstərir. V. Kreve 1920-ci il aprel işğalını kəskin formada pisləyib və bunu yaradıcılığında da əks etdirib. O, Rusiyanın təcavüzkar siyasətinə, onun Azərbaycanı işğal etməsinə və faciəli hadisələrə münasibətini Bakını tərk etdikdən bir qədər sonra Kaunasda *"Tauta"* qəzetində dərc etdirdiyi "Bolşeviklər" adlı sənədli siyasi oçerkində birmənalı şəkildə bildirib (oçerk barədə bu kitabdakı "28 aprel çevrilişi Litva konsulunun gözü ilə" adlı ayrıca məqalədə ətraflı təhlillər verilir).

V. Kreve həm yaradıcılığında, həm də fəaliyyətində milli və ümumbəşəri ideallar daşıyıcısı, çoxmədəniyyətlilik və dini tolerantlıq carçısı, yüksək dəyanətli əxlaqi-tərbiyəvi obrazlar yaradıcısı, insanpərvərlik və mənəvi ucalıq tərənnümçüsü olaraq tarixdə silinməz izlər qoyan humanist, nəcib və mərhəmətli bir şəxsiyyət olub. O, insan həyatının real təhlükə ilə üzləşdiyini görəndə həmişə ona kömək əlini uzadıb və bu zaman hətta konsul səlahiyyətlərindən qeyri-qanuni istifadə etməkdən çəkinməyib. Onun Bakıdakı konsul fəaliyyətində belə halları təsdiq edən çoxlu faktlar mövcuddur. Bu faktlardan indiyədək naməlum qalan birini ilk dəfə ictimaiyyətə təqdim etmək istərdik.

[19] Leidinys "Vyriausybės Žinios". Kaunas, 1921 m. kovo 3 d. Nr. 58.

28 aprel çevrişi və Azərbaycanın işğalının ilk günündən bolşeviklər qanlı üsullara əl atdılar. Bu dövr Azərbaycanda bolşevik rejiminin ən təhlükəli zamanı idi. [...] 1920-ci ilin aprelin 28-dən 1921-ci ilin avqustuna qədər Azərbaycanda 48 000 adam qırmızı terrorun qurbanı oldu.[20] Cümhuriyyətin süqutundan sonra konsul V. Kreve Litva burjua dövlətinin elçisi kimi daha Bakıda qala bilməyib Vətəninə qayıdan zaman, məşhur ağqvardiyaçı siyasi xadim Mixail Floroviç Podşibyakinin (1883–1963) burada ölümcül təhlükəli bir vəziyyətə düşdüyünü görür.

Haşiyə çıxıb qeyd edək ki, M. Podşibyakin V. Kreveni yaxşı tanıyırdı. O, 1912-ci ildən başlayaraq V. Kreve ilə bahəm Bakı Xalq Universitetində mühazirələr oxuyub, 1917–1918-ci illərdə Bakı şəhər dumasında V. Kreve ilə birgə fəaliyyət göstərib, 1919–1920-ci illərdə isə Bakıda rus gimnaziyasında müəllim işləyib və bu baxımdan V. Krevenin pedaqoq həmkarı olub. M. Podşibyakin həm də Bakı Rus Milli Şurasının sədri kimi o vaxt Bakıda gedən ictimai-siyasi proseslərin önündə gedib. O, uzun müddət Rusiya Kadetlər partiyası Bakı şəhər komitəsinin rəhbərlərindən biri olub və 1917-ci ildə Şəhər dumasına bu partiyadan deputat seçilib, Rusiyada 1917-ci il oktyabr çevrilişindən sonra Bakı məktəblərində "Rusiya inqılabının taleyi" mövzusunda əksinqilabi mühazirələr oxuyub. O, 1917–1918-ci illərdə Bakıda hakimiyyətin bolşeviklərə verilməsinin, habelə Bakı kommunasının yaradılmasının qəti əleyhdarlarından biri olub. Bu baxımdan Şəhər duması da Bakı bolşevik sovetinin rəqibi idi və M. Podşibyakinin antibolşevik fəaliyyəti həm də burdakı çıxışlarında öz əksini tapıb.

Sözgəlişi deyək ki, imperialist təfəkkürlü böyük rus şovinist millətçisi kimi tanınan M. Podşibyakin həmçinin Azərbaycan xalqının öz milli müqəddəratını təyin etməsinin, müstəqil dövlət qurmasının qatı əleyhdarı idi, "vahid və bölünməz Rusiya" ideyasının tərəfdarı olaraq Azərbaycanı yalnız Rusiya imperiyasının tərkibində görmək istəyirdi. Bununla bağlı belə bir məsələni də qeyd etmək vacibdir ki, M. Podşibyakin 1918–1920-ci illərdə çar generalı Anton Denikinin (1872–1947) Cənubi Rusiya ərazilərində (o cümlədən Şimali Qafqazda) yaratdığı ağqvardiyaçı Hökumətin Bakıdakı nüfuz agenti olaraq çox güclü anti-Azərbaycan fəaliyyəti göstərib. Həmin dövrdə M. Podşibyakinin sədr olduğu Bakı Rus Milli Şurası qızğın əksinqilabi təbliğat yuvası olmaqla bərabər, həm də Denikinin Azərbaycandakı imperialist maraqlarının əsas dayaq mərkəzi idi.

M. Podşibyakinin bu cür destruktiv fəaliyyətini göstərən bəzi araşdırmalar çağdaş Azərbaycan tarixşünaslığında da öz əksini tapıb. Gəlin, qısaca həmin araşdırmalara müraciət edək:

[20] Nəsiman Yaqublu. „Cümhuriyyət qurucuları". Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2018, səh. 22.

„Özünü şəhərin hərbi qubernatoru elan etmiş general Tomsonun başçılığı ilə hindli əsgərlərdən ibarət İngiltərə qoşunları 1918-ci il noyabrın 17-də Bakıya daxil oldu. Polkovnik F. P. Kokkerel Bakıda müttəfiq dövlətlərin polis komissarı təyin edildi. [...] Noyabrın 17-də axşam Rus Milli Şurasının üzvləri M. Podşibyakin, Y. Smirnov, V. Baykov və A. Leontoviçin general Tomson tərəfindən qəbul edilməsi Azərbaycan hökumətinin narahatçılığını daha da artırdı. Görüş zamanı Rus Milli Şurasının üzvləri özlərini Azərbaycanın sahibi kimi aparırdılar. Onlar Tomsonun yaradılacaq koalision hökumətə daxil olmaq haqqında təklifini həm öz adlarından, həm də Erməni Milli Şurasının adından rədd etdilər. Onların fikrincə, xristianların Azərbaycan hökumətinə daxil olması onun müttəfiqlər tərəfindən tanınmasını asanlaşdıra bilərdi. Bu adamlar Azərbaycanın Rusiya müstəmləkəçiliyindən azad olub öz milli müqəddəratını təyin etməsi əleyhinə idilər. Nəhayət, görüş zamanı Tomson onlara xatırlatmağa məcbur oldu ki, hazırkı vəziyyətdə Rusiya, sadəcə olaraq, mövcud deyildir.[21]

1. Rusiya Kadetlər partiyası Bakı şəhər komitəsinin rəhbəri, Bakı Rus Milli Şurasının sədri Mixail Podşibyakin. 2. Azərbaycan SSR Xalq xarici işlər komissarı Mirzə Davud Hüseynov.

İstər-istəməz, Cümhuriyyət dövründə V. Krevenin və M. Podşibyakinin Bakı şəhər dumasındakı fəaliyyəti məsələsinə ötəri olsa da, nəzər salmaq lazım gəlir.

Məlum olduğu kimi, Bakıda 1918 il mart qırğınlarından sonra hakimiyyəti ələ almış bolşeviklər Şəhər dumasını buraxdılar. Belə ki, 10 aprel 1918 ildə Bakı və onun rayonlarının İnqilabi müdafiə komitəsinin dekreti ilə Duma ləğv olundu və onun funksiyaları Şəhər təsərrüfatı idarəsinə verildi. Lakin Cümhuriyyətin icra idarələri müvəqqəti paytaxtdan – Gəncədən Bakıya köçürüləndən

[21] Azərbaycan tarixi. Yeddi cilddə. V cild (1900–1920-ci illər). Bakı, "Elm", 2008. səh. 279–280.

bir neçə gün sonra Bakı şəhər duması Azərbaycan Hökumətinin 22 sentyabr 1918-ci il tarixli qərarı ilə Rusiya Müvəqqəti hökumətinin 9 iyun 1917-ci il tarixli qanunu əsasında seçilmiş tərkibdə bərpa edildi. Deputatların xeyli qismi qarışıqlıq vaxtı Bakını tərk etdiyinə görə, Şəhər dumasına öz tərkibini artırıb 80 nəfərə çatdırmaq səlahiyyəti verilmişdi. Bu qərara görə siyahıya Dumanın köhnə tərkibindən qalmış 34 deputatın – o cümlədən M. Podşibyakinin və 46 nəfər yeni deputatın adları salınmışdı.[22]

Bununla belə, Şəhər dumasının köhnə tərkibindən olan V. Krevenin adı bu siyahıya düşməmişdi. Çünki o, bu zaman Bakıda deyildi, müstəqilliyini bərpa etmiş vətəni Litvaya qayıdıb burada dövlət quruculuğu işlərinə qatılmaq məqsədilə siyasi vəziyyəti və sosial məsələləri yerində öyrənmək üçün 1918-ci il iyunun əvvəlində Vilnüsə getmişdi və oradan Bakıya vətəndaş savaşı alovlarında qovrulan Rusiya üzərindən çox böyük çətinliklə yalnız həmin ilin oktyabrın ortalarında qayıda bilmişdi...

İndi isə qayıdaq əsas mətləbə. Sözügedən ağqvardiyaçı M. Podşibyakinin 28 aprel işğalından sonra bolşeviklər tərəfindən mütləq güllələnəcəyinə heç bir şəkk-şübhəsi olmayan konsul V. Kreve bu siyasətçi və pedaqoq həmkarına saxta şəxsiyyət sənədi düzəldir, onu "Litva vətəndaşı Mikolas Banyaviçyus kimi" Bakıdan çıxarır və özü ilə Kaunasa apararaq beləcə ölümdən xilas edir.

Azərbaycanın müstəqilliyinə qarşı fəaliyyət göstərmiş bu ağqvardiyaçı rus siyasi xadimini labüd ölümdən xilasetmə tədbiri ilk təəssüratdan bəzi vətənsevər oxucularda bir qədər qeyri-məmnunluq və koqnitiv dissonans hissləri yarada bilər. Bu, anlaşılandır. Amma burada başqa reallıqlar da vardır. V. Krevenin humanizm, mərhəmət və nəciblik kimi ali mənəvi keyfiyyətləri insanların milli, irqi və dini mənşəyindən, həmçinin siyasi əqidəsindən asılı olmayaraq təzahür edirdi. Onun Bakıda Litva konsulluğunun adından saxta sənəd düzəltmə yolu ilə ölümdən xilas etdiyi çoxsaylı xadimlər və adi insanlar arasında ən müxtəlif siyasi əqidə sahibləri olan yəhudi, litva, eston, latış, rus, belarus, polyak, alman, çex mənşəli mühacirlər olub. Xüsusilə vurğulamaq lazımdır ki, Cümhuriyyətin ali idarələrində çalışan və Milli ordu quruculuğunda xidmət edən onlarla Litva–Polşa tatar xadiminin 28 aprel çevrilişi nəticəsində Bakıda düşdükləri olduqca təhlükəli vəziyyətdən qurtulması üçün konsul V. Krevenin onlara verdiyi Litva Respublikasının vətəndaşlığını təsdiq edən saxta sənədlər xilasedici rol oynayıb. V. Kreve həmçinin Cümhuriyyətin tanınmış xadimləri – Ədliyyə nazirinin müavini Olgerd Nayman Kriçinskinin (1884–1942), onun qardaşı, Cümhuriyyət Hökümətinin İşlər idarəsi dəftərxanasının direktoru, eyni zamanda İşlər idarəsi Xüsusi şöbəsinin rəisi və "Azərbaycan Cümhuriyyəti hökumətinin xəbərləri" nəşrinin redaktoru Leon (Arslan) Nayman Kriçinskinin (1887–1939), Cümhuriyyətin Xarici işlər nazirliyi Dəftərxanasının direktoru İsmayıl Xuramoviçin, bu Dəftərxananın vitse-direktoru Konstantin Sulkeviçin, habelə digər tatar əsilli Cümhuriyyət qulluqçularının bolşeviklərin ölüm caynağından xilas edilib riskli yollarla tarixi vətənlərinə – Litvaya qayıtması üçün misilsiz işlər görüb.

[22] Азербайджанская Демократическая Республика (1918–1920). Законодательные акты (сборник документов). Баку, издательство "Азербайджан", 1998, стр. 360–361.

1920-ci il iyunun ikinci yarısında V. Kreve ailəsi ilə bərabər Azərbaycanı həmişəlik tərk edərkən şəxsi kitabxanasının bir hissəsini həmkarı və dostu, yazıçı Abdulla Şaiqə bağışlayıb. A. Şaiqin vəfatından sonra onun oğlu, ədəbiyyatşünas alim, professor Kamal Talıbzadə (1923–2006) həmin kitabları Azərbaycan SSR EA Pespublika Əlyazmaları Fonduna təhvil verib.[23]

V. Kreve gənclik şəhəri Bakıya olan məhəbbətini və Azərbaycana bəslədiyi səmimi duyğuları da özüylə Litvaya aparıb və bütün ömrü boyu qəlbində yaşadıb. Sonralar Bakı 1-ci realnı məktəbi şagirdlərinin ona ötürdükləri hədiyyələri – üzərində V. Krevenin adı və soyadı monoqram üslubunda həkk edilmiş portsiqarı və üstündə rusca *"Баку"* sözü yazılmış kibrit qutusunu da bu məhəbbətin nişanəsi və ən əziz bir xatirə kimi həyatının sonunadək saxlayıb. Bu hədiyyələr sonralar onun həyat yoldaşının Bakıdan apardığı Azərbaycan xalçaları ilə bərabər, hazırda yazıçının Vilnüsdəki mənzil muzeyində ekzotik eksponatlar kimi nümayiş olunur.

V. Kreve Bakıdan Litvanın müvəqqəti paytaxtı Kaunasa 14 iyul 1920-ci ildə Moskva və Riqa üzərindən qayıdıb. O, Vətənə qayıtdıqdan sonra Litvanın bir sıra hökumət qurumlarında çalışır, ictimai-siyasi təşkilatlara rəhbərlik edir, "Litvalıların xalqçılar birliyi" partiyasının *("Lietuvių tautininkų sąjunga")* və "Litva atıcılar ittifaqı" *("Lietuvos šaulių sąjunga")* hərbi-vətənpərvər təşkilatının rəhbərlərindən biri olur, redaktor olaraq ədəbi jurnallar, məcmuə və dərsliklər hazırlayıb çap etdirir, şifahi xalq ədəbiyyatı nümunələrinin toplanılması, sistemləşdirilib təbliğ olunması sahəsində böyük işlər görür.

O, 1922–1939-cu illərdə Kaunas, 1940–1943-cü illərdə isə Vilnüs Universitetlərində slavyan dilləri və dünya ədəbiyyatı üzrə professor olaraq çalışıb, burada Humanitar elmlər fakültəsinin dekanı vəzifəsinə seçilib. Eyni zamanda elmi təşkilatçılıq sahəsində fəaliyyət göstərib, 1941-ci ilin yanvar ayında Litva SSR Elmlər Akademiyasının yaradılmasında iştirak edib və həmin ilin aprelin 4-də

[23] Vaqif Arzumanov. "Azərbaycan–Litva ədəbi əlaqələri". Bakı, "Yazıçı", 1979, səh. 35.

bu Akademiyanın ilk prezidenti seçilib. Sonradan elm sahəsindəki xidmətlərinə görə Riqa Universitetinin fəxri doktoru və Roma Elmlər Akademiyasının müxbir üzvü adına layiq görülüb.

II Dünya müharibəsi illərində V. Kreve və ailəsi bir yandan bolşeviklərin, digər yandansa nasistlərinin təqiblərinə məruz qalıb və həyatı üçün real təhlükələr yaranıb. Həyat yoldaşı yəhudi əsilli olduğuna görə, o, 1941-ci ildə donos əsasında arvadı ilə birgə gestapo tərəfindən həbs edilib, istintaq olunub Vilnüsdəki yəhudi *gettosuna* aparılmaq üçün dörd gün zindanda saxlanılıb. Vilnüs Universitetində german filologiyası üzrə müəllim işləmiş İrina Reyngardayte-Vladimiroviene (1914–1996) V. Kreve haqqında 1975-ci ildə yazdığı xatirələrində bu həbslə bağlı qeyd edir ki, "yazıçının arvadının Azərbaycandan olması əsas kimi göstərilərək, guya onun yəhudi olmadığını təsdiq edən sənədləri böyük çətinliklə əldə etmək mümkün olur və onları həbs kamerasından sərbəst buraxırlar".[24]

Amma bu, repressiya təhlükəsinin sovuşması demək deyildi. Bir müddət sonra Vilnüs Universiteti tələbələrini SS legionu sıralarına səfərbər etməyə yardım göstərməkdən boyun qaçırdığına görə günahlandırılan professor V. Kreve faşistlərin qəzəbinə tuş gəlib və 1943-cü ilin fevral-mart aylarında gestapo onu Polşadakı *Ştutthof* alman konslagerinə aparmaq üçün çox axtarıb. Lakin o, gözdən uzaq məntəqələrdə yaşayan qohum və dostlarının yanında gizlənərək birtəhər həbsdən yayına bilib.

V. Kreve həm müharibədən öncə, həm də qarmaqarışıq müharibə illərində müasir Litva ictimaiyyəti tərəfindən indiyədək birmənalı qəbul olunmayan bir sıra ziddiyyətli siyasi addımlar atıb. Belə ki, o, 1940-cı il iyunun 15-də Litvanın SSRİ tərəfindən işğalından sonra, Stalinin burdakı emissarları Vladimir Dekanozov (1898–1953) və Nikolay Pozdnyakovun (1900–1948) səyləri sayəsində həmin il iyunun 17-dən avqustun 25-nə kimi qondarma Litva SSR Xalq hökümətində Baş nazirin müavini və eyni zamanda Xarici işlər naziri vəzifələrini yerinə yetirib. İyulun 1-də SSRİ Xalq xarici işlər komissarı Vyaçeslav Molotovla (1890–1986) Moskvada keçirdiyi gecə danışıqlarından sonra Litvanın müstəqilliyini itirdiyini və Kremlin ssenarisi əsasında Litvada marionet Xalq Seyminin yaradıldığını görən V. Kreve bir az sonra bir aylıq məzuniyyət götürüb və bu yolla ölkənin sovetləşdirilməsindən uzaqlaşmağa çalışıb. Buna baxmayaraq, nə qədər təzadlı görünsə də, o, 1940-cı ilin sonunda SSRİ Parlamentinə Litva SSR üzrə keçirilmiş qondarma seçkilərdə iştirak edib və 12 yanvar 1941-ci ildə SSRİ Ali Sovetinin Millətlər palatasına deputat "seçilib".

[24] Vincas Krėvė-Mickevičius. Literatūra ir kalba, t. XVII. Vilnius, "Vaga", 1981, psl. 478.

V. Kreve Litvanın Almaniya tərəfindən işğalı dövründə də ziddiyyətli siyasi addımlar atıb. Belə ki, 30 avqust 1942-ci ildə Kaunasda keçirilmiş məşhur mitinq zamanı özünün 1940-cı ildə Litva Xalq hökümətindəki fəaliyyəti ilə bağlı açıqlamalar verərək SSRİ rəhbərliyinə və onun Baltik dövlətlərində II Dünya müharibəsi ərəfəsində yeritdiyi işğalçı siyasətə qarşı mətbu bəyanatlar verib, 14–15 iyul 1940-cı ildə Litva Xalq Seyminə keçirilmiş saxta seçkiləri ifşa edən sərt siyasi çıxışlar edib.[25] O, həm də buna görə, 1944-cü ilin iyulunda Qırmızı ordu Kaunasa yaxınlaşanda bu dəfə Sovet zindanına düşməmək üçün ailəsi ilə birgə Qərbə – Avstriyaya mühacirət etməyə məcbur olub.

V. Krevenin ziddiyyətli siyasi fəaliyyətinin nəticəsi kimi belə bir məqamı da vurğulamaq istərdik ki, Litva SSR Xalq Komissarları Sovetinin 18 yanvar 1946-cı ildə qəbul etdiyi 31a saylı qərara görə onun adı Litva SSR Elmlər Akademiyasının həqiqi üzvlüyündən silindi, kitabları kitabxanalardan yığışdırıldı və əsərləri tədris proqramlarından çıxardıldı, özü də SSRİ-də "Vətən xaini" elan olundu.

Yazıçı Avstriyadakı müharibə qaçqınları düşərgəsi *Glasenbaxdan* başlanan və iki aydan çox davam edən çətin və yorucu odisseyadan sonra, nəhayət 1947-ci il aprelin 18-də Almaniya (Münhen) üzərindən Amerikaya gəlib və ömrünün sonuna qədər burdakı Pensilvaniya Universitetində slavyan dilləri və dünya ədəbiyyatı üzrə professor kimi mühazirələr oxuyub.

1. V. Kreve Glasenbax düşərgəsindən yük vaqonunda ABŞ-a yola düşərkən (o, arxada qapının ağzında durub). Zalsburq vağzalı, 12 fevral 1947-ci il. 2. V. Kreve və xanımı Rebekka Mariya Mitskəviçiene. ABŞ, 1952-ci il.

V. Kreve 7 iyul 1954-cü ildə ABŞ-ın Pensilvaniya ştatının Sprinqfild şəhərində (Filadelfiya yaxınlığında) ürək tutmasından vəfat edib və orada dəfn olunub.

[25] Buv. Liaudies Vyriausybės ir Liaudies Seimo narių vieši pareiškimai. Kaunas, "Į Laisvę", 1942.VIII.31. Nr. 202.

V. Krevenin vəfatının birinci il dönümündə onun Filadelfiya məzarlığındakı qəbri başında düzənlənmiş anım törənindən bir görüntü. 7 iyul 1955-ci il.

Lakin nə qədər dissonans kimi səslənsə də, onun bu dünyadakı yürüşü ölümüylə sona çatmayıb, o böyük insanı və gözəl yazıçını son mənzilə aparan əbədiyyət yolu uzaq və qürbət eldə bitməyib. Ədib 1948-ci ildə Amerikadan Litvaya yolladığı məktubların birində yazırdı: "...hələ də inanmaq istəyirəm ki, o xoşbəxt zaman gəlib yetişəcək və onda Litvaya qayıda biləcəyəm, orada – Subartonis kənd qəbristanlığında, ata-anamın və əcdadlarımın yanında uzanıb əbədi dinclik tapacağam..."[26]

Belə ümid, nisgil və həsrət dolu istəyini V. Kreve dost-tanışları ilə yazışmalarında dəfələrlə təkrar edib. Lakin tale ona qarşı amansız olub, Litvanın dövlət müstəqilliyi çox-çox sonralar bərpa olunub və təəssüf ki, V. Kreve həmin günü görməyib... Amma müstəqilliyin bərpasından sonra onun nəşi daim bütün qəlbiylə can atdığı Vətəninə gətirilib...

V. Krevenin həyat və fəaliyyətinin Bakı dövrü bir yazıçı və dramaturq kimi onun yaradıcılığında ən məhsuldar illər hesab olunur. Belə ki, o, Litva ədəbiyyatının qızıl fonduna daxil olmuş məşhur əsərlərini – "Şarunas" dramını, "Skirgayla" və "Kürəkən" pyeslərini, "Daynava diyarı qocalarının rəvayətləri" kitabını, "Küləşlə örtülmüş dam altında" adlı toplunu təşkil edən hekayələrin əksəriyyətini, "Səma və Yer oğulları" roman-epopeyasının böyük hissəsini və digər klassik əsərlərini Bakıda yaradıb və "Kreve" ədəbi təxəllüsünü də məhz burada qəbul edib. V əsr hind şairi və dramaturgu Kalidasanın klassik sanskrit dilindəki "Şakuntala" dramından rus dilinə tərcümələri də Bakıda ərsəyə

[26] Albertas Zalatorius. "Vincas Krėvė: nebaigta monografija". Vilnius, LLTI, 2003, psl. 515.

gətirib. Hind Avropa dilləri qrupuna aid olan xalqların təşəkkül tarixi və etnik köklərilə bağlı araşdırmaları da burada davam etdirib, sonralar nəticə olaraq bu mövzuda Kaunasda "Hind-Avropalıların ilk vətəni" adlı sanballı əsəri çap olunub.[27]

Xüsusilə qeyd etmək lazımdır ki, V. Krevenin Şərq mövzusundakı əsərləri onun ədəbi irsində müstəsna yer tutur və kreveşünas alimlərin fikrincə sənətkarın bütün yaradıcılıq xəzinəsinin ideya-fəlsəfi açarı hesab olunur. Həmin əsərlərin əsas qismi ədibin məşhur "Şərq hekayətləri" (nağılları) adlı toplunu təşkil edir.[28] Bu topluya beş əsər, ö cümlədən "Azəristan ölkəsi" adlı hekayət daxildir. Bundan başqa, "Şərq hekayətləri"nə Zərdüşt, Buddizm və İslam dini mövzularında, həmçinin Tövrat və İncil motivləri əsasında yazılmış daha dörd dini-fəlsəfi və bədii əsər – "Pratyekabudda", "Kralın ən yaxşı şərabını saxladığı qab", "Çarpışan qüvvələr" və "Qadın" adlı hekayətlər daxildir.

"Azəristan ölkəsi" hekayəti V. Krevenin Azərbaycan tarixi, milli-mənəvi dəyərləri, dini ayinləri, məişəti və təbiəti mövzusunda yaratdığı mühüm əsərlərdən biridir. Yüksək ədəbi məziyyətləri ilə fərqlənən bu hekayətdə dərin dini-fəlsəfi müddəalar yer alıb, milli varlığın təşəkkül tapması, etnik köklərin qorunub saxlanılması və kimliyin yaşadılması ilə bağlı bir sıra vacib həyati şərtləri ehtiva edən ümumiləşdirmələr ön plana şəkilib. Əsərlə bağlı bəzi mülahizələrimizi açıqlamaq istərdik.

Tədqiqatçıların fikrincə, "Azəristan ölkəsi" 1920-ci ilin aprelində müstəqil Azərbaycan Respublikasının süqutundan sonra yazılmış əsərdir. İlk dəfə 1921-ci ildə Litva Maarif nazirliyinin nəşri olaraq Kaunasda buraxılan *"Skaitymai"* adlı ədəbi-tənqidi jurnalın 3-cü sayında[29] dərc edilib və povest kimi təqdim olunub (V. Kreve uzun müddət həmin jurnalın redaktoru olub). Daha sonra əsər V. Krevenin 1930-cu ildə çapdan çıxmış seçilmiş əsərlərinin 10-cu cildində çap edilib. Əsərin əlyazmasının yazı makinasında çap edilmiş bir neçə səhifəsi Vilnüsdə Litva ədəbiyyatı və folkloru institutunda, eləcə də Litvanın Martinas Majvidas adına Milli Kitabxanasında saxlanır.

Əsər yazıçının bir sıra digər əsərlərindən fərqli olaraq 1930-cu ildən sonra uzun zaman ərzində Litvada bir daha çap edilməyib. Yalnız ilk nəşrindən təxminən 90 il ötdükdən sonra – 2008-ci ildə ədibin Vilnüsdə buraxılmış *"Pratjekabuda"* kitabında "Azəristan ölkəsi" müstəqil Litvada təkrarən işıq üzü görüb.[30] Sovet Litvasında isə bu əsər V. Krevenin "Dumanda" romanı, "Tovlama"

[27] V. Krėvė-Mickevičius. "Indoeuropiečių protėvynė". Kaunas, Humanitarinių mokslų fakulteto leidinys, 1927, 146 psl.
[28] V. Krėvės raštai. X tomas. "Rytų pasakos". Kaunas, 1930.
[29] "Skaitymai". Mėnesinis literatūros žurnalas. Kaunas, Švetimo ministerijos leidinys, 1921 m., Nr. 3, psl. 102–115
[30] V. Krėvė. "Pratjekabuda". Rytų pasakos. Vilnius, UAB "Petro ofsetas", 2008, psl.125–145; ISBN 978-9955-815-58-7

povesti, "Qadın" hekayəti, "Bolşeviklər" siyasi oçerki və daha bir neçə başqa kitabı ilə bərabər qadağan olunmuş əsərlər siyahısına salınmışdı. Ümumən Sovet dövründə V. Kreve başqa dillərə olduqca az tərcümə edilib və heç "Şərq hekayətləri" də digər dillərdə nəşr olunmamışdı.

"Azəristan ölkəsi" Sovet Litvasından fərqli olaraq, xaricdə litvaca iki dəfə – 1954-cü ildə Çikaqoda *"Terra"* nəşriyyatında,[31] ikinci dəfə isə V. Krevenin Bostonda *"Lietuvių enciklopedija"* nəşriyyatı[32] tərəfindən 1956–1961-ci illərdə 6 cilddə buraxılmış əsərlərinin 5-ci cildində çap olunub. Əsər Azərbaycan dilinə 2005-ci ildə tərcümə olunub və ilk dəfə "Ulduz" ədəbi jurnalında dərc edilib (2006-cı il, № 1). Yeri gəlmişkən, "Azəristan ölkəsi" V. Krevenin digər Şərq hekayətləri ilə birgə bu yaxınlarda ingilis dilinə də tərcümə edilib və 2018-ci ildə ABŞ-ın İndiana ştatının mərkəzi Indianapolis şəhərində çapdan buraxılıb (tərcümə edəni – Rimas Çernyus).[33]





1. V. Krevenin 2018-ci ildə ABŞ-da ingiliscə buraxılmış "Şərq hekayətləri" kitabının üz qabığı. 2. "Azəristan ölkəsi" əsərinin ingilis dilindəki nəşrinə çəkilmiş illüstrasiya. Rəssam – Agne Yuşkayte. ABŞ, 2018-ci il.

V. Kreve bu əsərində Azərbaycanı təbii şəraitinə görə fərqlənən, inzibati baxımdan sərhədləri təyin olunmuş və müstəqil coğrafi məkanı əhatə edən bir ölkə kimi təqdim edir, beləliklə, Azərbaycan dövlətçilik tarixinin köklərinə toxunur. Bu, təkcə Litva–Azərbaycan ədəbi əlaqələrində yox, həm də Azərbaycan-Baltik mədəni əlaqələrində mühüm əhəmiyyət kəsb edən məqamlardan

[31] Vincas Krėvė. "Rytų pasakos". Chicago, "Terra", 1954 m. 216 psl.
[32] "Lietuvių enciklopedija" – ABŞ litvalılarının 1953–1985-ci illərdə Bostonda fəaliyyət göstərmiş nəşriyyatı.
[33] Vincas Krėvė. "Tales from the East". Translated by Rimas Černius; illustrated by Agnė Juškaitė. Indianapolis, Indiana. IBJ Book Publishing, 2018, page 160. ISBN 978-1-939550-78-1.

biridir. Çünki, V. Kreve Baltik xalqlarının ədibləri arasında öz yaradıcılığında "Azəristan" sözünü yalnız coğrafi yer adı (toponim) kimi yox, həm də məhz Azərbaycan türklərinin məskunlaşdıqları ərazi mənasında, milli-mənəvi dəyərlərini və dini adət-ənənələrini yaşatdıqları məkan anlamında, azərlərə məxsus ölkə adı kimi işlədən ilk Baltik yazıçısıdır.

Əsərin adından da görünür ki, müəllif onu yazmazdan öncə Azərbaycan dilinin fonetikası və morfologiyası ilə tanış olub, əsas nitq hissələrindən biri olan İsim və onun növlərini öyrənib, düzəltmə isimlərin əmələ gəlmə və yazılış qaydalarını nəzərdən keçirib. Məhz bunun nəticəsidir ki, V. Kreve azərlərin (azərilərin yox!) yaşadığı özünəməxsus ərazinin coğrafi adını dəqiq göstərmək məqsədi ilə milli mənsubiyyət bildirən və samitlə bitən *Azər* sözünə yer bildirən *-stan* sözdüzəldici şəkilçisi artırıb, bu etnonim əsasında məkan əlaməti bildirən yeni düzəltmə xüsusi isim – *"Azərstan"* sözünün yaradılmasının morfoloji qaydalarına riayət edərək bu kəlməni ölkə adı olaraq işlədib. O, orijinalda əsərin adını Litva dilinin qrammatikasına uyğun – *as* sonluğu artıraraq *"Azerstanas" (Azerstan + as)* şəklində yazıb. Bütün bunlar V. Krevenin ölkəmizin adına və bu mövzuya həm də bir dilçi alim kimi nə qədər böyük məsuliyyətlə yanaşdığını göstərir.

Əsərin adının Azərbaycan dilində səslənməsi ilə bağlı vacib linqvistik bir məqamı xüsusi qeyd etməyi zəruri sayırıq. Litva dilində hekayətin *"Azerstano* šalis" – *"Azərstan ölkəsi"* adlanmasına baxmayaraq, biz onu dilimizə *"Azəristan ölkəsi"* şəklində tərcümə etməyi daha düzgün bildik. Çünki, Azərbaycan dilində düzəltmə isim şəkilçilərinin yazılış qaydalarına uyğun olaraq məkan mənalı isim düzəldən *–stan* şəkilçisi samitlə bitən sözlərə artırıldıqda, sözlərin son saitindən asılı olaraq, onun əvvəlinə *ı, i, u, ü* saitlərindən biri əlavə edilir (məsələn, dağ – Dağıstan, özbək – Özbəkistan, monqol – Monqolustan, kürd – Kürdüstan və s.).

"Azəristan ölkəsi" həm də Azərbaycan tarixinə həsr olunmuş bədii əsər kimi maraq doğurur. Amma biz bu hekayətdə (nağılda) konkret tarixi faktlarla üzləşmirik, hətta tarix burda qismən rəvayət halını alıb, cərəyan edən hadisələrə isə ilk növbədə milli-mənəvi dəyərləri yaşatmaq, dini və milli-etnik identikliyi qoruyub saxlamaq tələblərindən yanaşılıb qiymət verilib. Buna baxmayaraq hekayətdə ümumi çərçivədə olsa da, Azərbaycanın İslamdan sonrakı tarixinin bir neçə mərhələsi aydın görünür. Yadelli işğalçılara qarşı zaman-zaman aparılan mübarizələr, doğma torpaqların müxtəlif dövrlərdə işğal edilməsi, qəsbkarların Azərbaycanda törətdikləri qətliam və talanlar, xalqın yaşadığı fəlakətlər inandırıcı şəkildə təsvir olunur və koloritli bir dildə təqdim edilir.

Əsərdə bir çox qəsbkar xalqların çiçəklənən bu məmləkəti soyub-talan etmələrini əks etdirən hadisələrlə yanaşı, ermənilərin də Azərbaycan torpaqlarına gəlməsi və burada törətdikləri fitnəkar əməllər barədə səhnələr yaddaqalan bədii vasitələrlə və yüksək sənətkarlıqla təsvir olunub. Bu səhnələr rəvayət janrında yaradılmasına baxmayaraq real hadisələrin bədii inikası olaraq bir sıra rus müəlliflərinin XIX əsrdə və XX əsrin əvvəllərində çapdan çıxan və Qarabağın tarixinə bu və ya başqa şəkildə aidiyyəti olan əsərləri ilə mövzu yaxınlığı təşkil edir.

XIX əsrdə ermənilərin Azərbaycana köçürülməsi və burada məskunlaşdırılmasını təsdiq edən müxtəlif tarixi mənbələr, faktlar və xeyli araşdırmalar mövcuddur. Bu barədə o dövrdə əsasən rus müəllifləri – A. Qriboyedov, S. Qlinka, İ. Kanadeyev, A. Frenkel, M. Mayevski, V. Veliçko, N. Şavrov və başqaları tarixi oçerklər, məruzələr, hesabatlar və icmallar yazıblar. Amma XX əsrin əvvəllərinə qədərki Qərb ədəbiyyatında bu barədə bədii əsər yoxdur. Odur ki, V. Kreve bu mövzunu Baltik xalqları ədəbiyyatında ilk dəfə işləmiş yazıçı kimi Avropa ədəbiyyatı tarixinə daxil olub.

"Azəristan ölkəsi" sırf erməni–azərbaycanlı münasibətlərinə həsr olunmuş hekayət olmasa da, V. Kreve bu əsərində ermənilərin tipik antihumanist obrazını yaradıb. Müəllif orijinal cizgilərlə, dolğun və inandırıcı məcazlarla, müxtəlif həyati epizodlarla və bədii priyomlarla erməninin pərdə arxasında gizlənən riyakar üzünü zərgər dəqiqliyi ilə açıb, böyük fırça ustası tək məxsusi çalarlarla və heyrətamiz bir dəqiqliklə onun adekvat portretini çəkib. Bu portretin bəzi cizgilərini sözügedən hekayətdən səciyyəvi misallar qismində götürdüyümüz aşağıdakı sitatlarla təqdim etmək istərdik:

... Allah Azəristan ölkəsinə xalis şeytan oğlunu, Yer üzünün nanəcib və alçaq varlığını, dırmıxa oxşayan əlləriylə hər şeyi qamarlayıb özünə yığan ürəyiqurdlu ermənini göndərdi. Erməni Azəristan ölkəsinə öz arşını, tərəzisi, batmanı, girvənkə və misqalı ilə gəlir, öz çanağını və sərnicini gətirir. Hamısının da ölçüləri saxta idi. Hər kəsə nə ölçürdüsə, ona külli miqdarda ziyan vururdu, kimə nə çəkirdisə, onu da gözlərinin içinə baxa-baxa aldadıb böyük zərərə salırdı.

Ermənilər Azəristan ölkəsində guya dost kimi məskunlaşdılar. Ancaq ikiüzlü olmalarını, yalan və hiylə qurub əl altından iş görmək və kürəyə xəncər sancmaq məharətlərini gizlin saxlayırdılar. Nə vaxt ki, ermənilər qeyri-ermənilərlə duzçörək kəsir, kirvəlik edir, onlara guya mehribanlıq göstərir və nəvazişlə baxıb xoş sözlər danışırdılar, elə o vaxt həmin adamlara – onların lənətə gəlmiş cinsinə mənsub olmayanların hamısına – hər hansı bir pislik və yamanlıq etmək barədə düşünürdülər.

Azəristan ölkəsində ermənilər o qədər törəyib artdılar ki, daha neçə baş olduqları bilinmirdi, sayı–hesabı məlum deyildi, hamısı da indi olduğu kimi, o vaxtlar da camaatı aldadaraq dəllallıq edirdilər. Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş idilər, yalnız özgə əməyi hesabına yaşayıb haram çörək yeyirdilər, özgə əzab-əziyyəti sayəsində dolanır və özgə göz yaşlarını su yerinə içirdilər.

Lakin Azəristanın bədbəxt oğulları erməni hiyləsini çox gec başa düşdülər. Onlar ilk vaxtlar ermənilərlə dostlaşdılar və ticarət etməyə başladılar, ermənilərlə alverə girişmiş varlılar qısa müddətdə müflisləşdilər, ortabablar lüt-üryan qaldılar, sısqa vücudundan başqa heç nəyi olmayan dilənçi gününə düşdülər. Bütün sərvətlər və dəyərli hər nə vardısa ermənilərin əlinə keçdi, Azəristan oğullarınınsa məkrli ermənilər yedirtmək üçün əzab-əziyyət və alın təriylə becərdikləri torpaqdan savayı heç nəyi qalmadı... [34]

Doğrudur, bir sıra rus yazıçıları və başqa millətlərdən olan bəzi müəlliflər əsərlərində ermənilərin iç üzünü açıb göstərən ayrı-ayrı misralar qoşublar, kiçik səhnələr yaradıblar, xırda epizodlar qələmə alıblar. Lakin V. Krevedən fərqli olaraq, onlar erməni xislətini "Azəristan ölkəsi" əsərində olduğu kimi erməni-azərbaycanlı qarşıdurması kontekstində açıqlamayıblar. Həm də buna görə bu nadir əsər göstərilən mövzunun Avropa ədəbiyyatında ilk bədii inikası olaraq müstəsna əhəmiyyət daşıyır.

Əsərdən görünür ki, V. Kreve erməni-azərbaycanlı münasibətlərini dərindən öyrənmiş, ermənilər haqqında müxtəlif müəlliflərin ona qədər qələmə aldıqları tarixi publisistik yazılarla yaxından tanış olmuş və bəlkə də, onlardan yaradıcı şəkildə bəhrələnmişdir. Bu fikrin təsdiqi tək, həm qarşılıqlı ədəbi təsir faktı kimi, həm də müqayisəli ədəbi əlaqələr baxımından V. Krevenin "Azəristan ölkəsi" əsəri ilə, rus şairi, dramaturq, publisist və qafqazşünas araşdırmaçı Vasili Lvoviç Veliçkonun (1860–1904) təxminən həmin dövrdə yazılmış "Dağlarda" *("В горах")* adlı şeiri arasında mövzu və ideya səsləşməsini misal göstərmək istərdik. Rus müəllifi şeirində rusların sayəsində Azərbaycana gətirilən ermənilər qoca Musa kişinin dilindən "qara ilan" adlandıraraq sonda yazır:

O acı gülüşlə davam elədi:
"Hər şey əlinizdə! Nə vaxtsa burda
əyyaşlıq, sərxoşluq olub – duyduzmu?
İndi cavanlar da əvvəlki deyil...
Müqəddəs dinlər də unudulubdu.
Günahkar, əlbəttə, ermənilərdir,
Hər şey əllərində! Məzar yurd yeri...
İndi hakimdirlər onlar hər şeyə.
Onları siz bura buraxmısınız –
Biz quluq, siz isə gedəsi qonaq!"[35]

[34] V. Kreve. Əsərləri. 10 cilddə. Kaunas, 1930-cu il, X cild, səh. 131-155 (Litva dilində).

[35] Величко Василий Львович. "Арабески", Санкт Петербург, 1904 г., стр. 34–36. Şeiri şair və mütərcim Səlim Babullaoğlu tərcümə edib.

Qeyd eymək lazımdır ki, V. Kreve erməni–azərbaycanlı münasibətləri ilə bağlı təkcə "Azəristan ölkəsi" əsərində ədalətli mövqedən çıxış etməyib, ümumən həyatda da "erməni məsələsində" ardıcıl şəkildə eyni xətti yürüdüb. Məsələn, onun yaxın dostu, Litva yazıçısı Lyudas Gira (1884–1946) 1913-cü ildə Bakıya – V. Kreveyə məktub yazaraq Vilnüsdə buraxılan *"Vaivorykštė"* adlı jurnalda çap olunmaq üçün erməni əlifbasının 1500 illik yubileyi münasibətilə ondan bir məqalə yazmağı xahiş edir. Məktubda ermənilər "orijinal mədəniyyəti olan qədim xalq" kimi təsnif olunsalar da, dünya ədəbiyyatının gözəl bilicisi olan V. Kreve bu barədə 11 noyabr 1913-cü ildə Bakıdan həm litvalı həmkarına yazdığı cavab məktubunda, həm də şagirdi, sonralar erməni yazıçısı kimi tanınacaq T. Axumyana ünvanladığı məktubda "təəssüflə" bildirir ki, "erməni ədəbiyyatı haqqında heç nə bilmədiyi üçün o cür məqaləni yazmağa imkanı yoxdur".[36] Kim bilir, bəlkə də o vaxt V. Krevenin beynində "Azəristan ölkəsi"ndə Əzrayılın Azərbaycana gətirdiyi ermənilərlə bağlı təsvir edilən olaylar dolanır, təxəyyülündə artıq o səhnələrin ilk variantları cızılırdı...

Təbii ki, buna qədər Litva ədəbiyyatına xas olmayan qeyri-ənənəvi bir mövzuda yazılmış, Şərq rəvayətlərinə uyğun ideya-məzmun konsepsiyası çərçivəsində və bədii-estetik üslubda işlənmiş "Azəristan ölkəsi" əsəri barədə müasir Litva ədəbiyyatşünaslığında ədəbi mübahisə doğuran fikirlər də mövcuddur. Əsasən Azərbaycanın qonşu xalqlarla dini və millətlərarası münasibətləri vektorunda təqdim olunan həmin fikirlər ünlü ədəbiyyatşünas alim, V. Kreve yaradıcılığının gözəl tədqiqatçısı, professor Albertas Zalatoryus (1932–1999) tərəfindən yürüdülüb. Məsələn, o, yazır ki, "bu hekayəti danışan müsəlmanı *(azərbaycanlını – M. H.)* V. Kreve əsərdə çox dardüşüncəli və kateqorik mühakimələr yürüdən bir surət kimi təsvir edib. Müsəlmanın sözlərində digər xalqlara qarşı, başqa dini inanclı qonşulara – ermənilərə, ruslara, gürcülərə, bir sözlə, Allahı tanımaq istəməyən və onun buyurduğu qayda-qanunlara əməl etməyən hər kəsə qarşı böyük nifrət duyulur... Lakin biz o müsəlmanın hekayətini, ələlxüsus onun dini və millətlərarası münasibətlər barədə dediyi fikirləri heç bir halda müəllifin şəxsi mövqeyi kimi qəbul etməməli, o surəti müəlliflə eyniləşdirməməliyik..."[37]

Hekayətin həm məzmunu, həm də ideyası ilə adekvat olmayan və tədqiqatçının obyektivliyini şübhə altında qoyan bu fikirlərdən aydın görünür ki, litvalı professor əsərdə yaradılmış mənfi erməni surətinə görə, onlar barədə düzənlənmiş real təsvirlər və sərt deyimlər üzündən, V. Kreveni "Azəristan ölkəsi"nin qonşuluğundakı xristian xalqların gözündə bir növ "təmizə çıxarmağa" çalışır. Lakin erməni, gürcü və rus qəsbkarları ilə yanaşı, V. Krevenin

[36] Vincas Krėvė-Mickevičius. Literatūra ir kalba, t. XVII. Vilnius, "Vaga", 1981, psl. 75.
[37] Albertas Zalatorius. "Vincas Krėvė: nebaigta monografija". Vilnius, LLTI, 2003, psl. 218–219.

hekayətdə "həmşəri" etnonimi altında eynilə qəddar işğalçılar kimi təsvir etdiyi farsları – azərbaycanlıların müsəlman qonşularını professor A. Zalatoryus öz araşdırmasında nədənsə heç bir yerdə xatırlatmır. Görünür, bunu o məqsədlə edir ki, "azərbaycanlıların xristian qonşularına bəslədiyi böyük nifrət hissi" ilə bağlı irəli sürdüyü qondarma tezisi "dini tolerantsızlıq" paradigması ilə əsaslandıra bilsin. Lakin professor bu zaman həm də "unudur" ki, müxtəlif əsrlərdə Litvanı viran qoyub əsarət altına almağa gəlmiş yadelli işğalçıları, o cümlədən Tevton dini cəngavərlər ordeninin döyüşçülərini xristianlığa qədərki litvalıların özləri də heç vaxt gül çələngiylə qarşılamayıblar. Ələlxüsus səlib yürüşləri dövründə...

Ümumən, A. Zalatoryus V. Kreve haqqında 2003-cü ildə Vilnüsdə buraxılmış monoqrafiyasında "Azəristan ölkəsi" hekayətini Avropa və rus ədəbi prosesindən təcrid edilmiş bir şəkildə araşdırır. V. Kreveyə qədər başqa ədəbiyyatlarda bu mövzuda yaradılmış çox mühüm publisistik əsərləri tədqiqata cəlb etmir, nəticədə, zənnimizcə, bir sıra subyektiv, birtərəfli və səthi fikirlərə gəlib çıxır.

V. Krevenin Azərbaycan tarixi və mədəniyyətinə, adət-ənənələri və xalq məişətinə göstərdiyi böyük maraq, ümumiyyətlə, yazıçının Azərbaycana bəslədiyi hörmət hissləri, səmimi duyğuları onun "Azəristan ölkəsi" əsərində həm emosional şəkildə, həm də yüksək bədii səviyyədə ifadə olunub. Əsərdən aydın görünür ki, V. Kreve azərbaycanlıların həyat tərzini, xarakterini və əhval-ruhiyyəsini yaxşı öyrənib və lap yaxından duyub. Əsərdə hekayət ikinci şəxsin – "Azəristan ölkəsi"nin bir dindar sakini adından olduqca zəngin bir dildə, yaddaqalan üslubda danışılır. V. Kreve həmin şəxsin danışığına müvafiq temperament və milli çalarlar vermiş, hətta onun danışıq tərzini, and içməsini belə fərdiləşdirmişdir. O hekayətçi şəxs öz danışığında Azərbaycan dilindəki fonetik etnonimləri (cürcü, həmşəri, urus, gavur), dini şəxsləri bildirən xüsusi və ümumi dini-mifoloji isimləri (Allah, Məhəmməd peyğəmbər, Şeytan, Əzrayıl, Ədəm bağları, divlər), coğrafi toponimləri (Məkkə, Mədinə, Kərbala, Məşhəd, Muğan düzü), İslam dininin termin və məhfumlarını (Quran, məscid, minarə, şəriət, namaz, molla, şeyx, müəzzin), bitki və meyvə adlarını (palma, tut ağacı, əncir, heyva, hulu, şaftalı), ətraf mühitlə bağlı ifadələri, məişət sözlərini, bayram və insan adlarını (qır, çuxa, aul, Novruz bayramı, Allahyarxan) el dilində olduğu kimi işlədir.

Bundan əlavə, "Azəristan ölkəsi"ndə Qurandan gətirilmiş kəlamlardan da yeri gələndə istifadə olunur ki, bu da əsərin dini-psixoloji təsirini və emosional effektini xeyli gücləndirir. V. Kreve bu əsərində həm də Qurandan bir sıra ayələri ("Bismillahir-rəhmanir-rəhim", "La ilahə illəllah və Məhəmmədün rəsulüllah", "Allahu əkbər", "Allahu Alim") ilk dəfə Litva ədəbiyyatına gətirib onların mənasını açıqlayan yazıçı kimi çıxış edir.

Milli-etnik zəmini daha parlaq və doğal ruhda təqdim etmək üçün əsərdə istifadə olunmuş bütün bu çalarlar, təsvir olunan adət-ənənələr, dini ayinlər, Şərq ədəbiyyatına xas bədii təsvir üsulları və psixoloji xarakterlər ekzotik təbiət lövhələri və hadisələrlə vəhdət təşkil edərək əsl Azərbaycan koloriti yaradır, əsərə yaddaşa rahat həkk olunan yenilməz bir Azərbaycan doğmalığı gətirir.

Beləliklə, "Azəristan ölkəsi" əsərini həm də V. Krevenin Azərbaycan tarixinə və etnokulturoloji dəyərlərinə yaxından bələd olaraq onları sayğı ilə tanıdıb yaymağın bariz bir nümunəsi kimi dəyərləndirmək mümkündür. Hətta deyərdik ki, əsər V. Krevenin Azərbaycanla mədəni-mənəvi tellərlə bağlılığını əks etdirən və bədii dillə təsvir olunan gözəl bir monumental tablodur, onun Azərbaycan xalqına bəslədiyi hörmətin yüksək ifadəsi, Azərbaycanın dirçəlişinə həsr etdiyi möhtəşəm Nəğmə, istiqlalına məhəbbətlə qoşduğu və vurğunluqla oxuduğu əzəmətli bir Himndir...

V. Krevenin başqa əsərlərində də Azərbaycan ədəbiyyatı və folkloru ilə səsləşən məqamlar çoxdur. Ələlxüsus yazıçının "Qadın" əsəri ilə Hüseyn Cavidin (1882–1941) "İblis" dramı arasındakı mövzu yaxınlığı, genetik qohumluğu olmayan tipoloji oxşarlıqlar və digər ədəbi paralellər bunu çox aydın şəkildə göstərir. Bu əsərlərdə qaldırılan və insanlığı həmişə düşünməyə sövq edən oxşar dünyəvi ideyalar, ümumbəşəri problemlər, taleyüklü fəlsəfi suallar və onların həllini bənzər süjetlər və obrazlar vasitəsilə fərqli janrlarda, müxtəlif bədii üsullarla tapmaq cəhdləri, hətta V. Kreve və H. Cavidin oxşar həyat faciələri, bu iki böyük milli yazarı bir-birinə mənən yaxınlaşdıran amillərdir.

V. Krevenin "Daynava diyarı qocalarının rəvayətləri" kitabına daxil olan "Qartal haqqında nəğmə" rəvayəti də Azərbaycan xalq ədəbiyyatı motivləri əsasında yaradılmış məşhur əsərlərdən biridir. Şərq ruhunda yazılmış bu gözəl rəvayət Litva ədəbiyyatı məkanına olduqca təbii şəkildə daxil olaraq ədəbi camiyə tərəfindən elə qəbul edilib ki, V. Kreve ədəbi istedadının ən sadiq pərəstişkarları "Qartal haqqında nəğmə"dən bir çox parçaları bu gün də əzbərdən söyləyirlər...

V. Kreve xalqımızın etnokulturoloji dəyərləri ilə maraqlanmaqla bərabər, həm də türklərin qədim tarixinə dair bəzi araşdırmalar aparıb. Belə ki, o, "Hind-Avropalıların ilk Vətəni" adlı monoqrafiyasında[38] digər məsələlərlə yanaşı, qədim hind-avropa xalqlarının mənşəyi və onların Şərqdən Qərbə köç yollarını tədqiq edərkən Xəzər xaqanlığını, Türküstan tarixi-coğrafi regionunu, o

[38] V. Krėvė-Mickevičius. "Indoeuropiečių protėvynė". Kaunas, Humanitarinių mokslų fakulteto leidinys, 1927.

cümlədən Şərqi Türküstanın Uyğur ölkəsini, Qaşqar vahəsini, Yarkand məmləkətini, Əfqanıstanın Herat provinsiyasını və keçmiş Baktriya antik ölkəsini, İranın Xorasan və Mazandaran əyalətlərini tədqiqat obyektləri olaraq çalışmalara cəlb edib və Turan irqi haqqında mülahizələr təqdim edib.[39] Litvalı müəllif Qafqaz Albaniyası adının mənşəyi ilə bağlı hipotezlər də irəli sürüb.[40]

V. Krevenin Şərq mövzulu kitablarının görüntüləri. 1. "Şərq hekayətləri". Çikaqo, 1954-cü il. 2. "Hind-Avropalıların ilk Vətəni". Kaunas, 1927-ci il. 3. Seçilmiş əsərlərinin 10-cu cildi. Kaunas, 1930-cu il.

V. Krevenin bu monoqrafiyasında balt etnik qruplarının etnogenezi və ilk vətənlərinin tarixi ilə bağlı Orta Asiya, Əfqanıstan, İran və Qafqaz tarixi kontekstində gündəmə gətirdiyi bir neçə lingvistk nəzəriyyə çox-çox sonralar – XX əsrin 70–80-ci illərində hind-avropa dillərinin müqayisəli tarixi dilçilik (linqvistik komparativistika) sahəsi üzrə məşhur şərqşünas və qafqazşünas alimlər olaraq tanınmış Vyaçeslav İvanov (1929–2017), Tamaz Qamkrelidze (1929–2021) və Serqey Starostin (1953–2005) tərəfindən inkişaf etdirilmiş, hind-avropa dillərinin balt qrupunda və Qafqaz dillərində *izoqloslar* təşkil edən bəzi əlamətlər üzə çıxarılmış və konkret nümunələrlə əsaslandırılmışdır.[41]

Bir sözlə, V. Kreve sənətini geniş anlamda Şərq bulaqlarından qaynaqlanan bolsulu Litva çayına bənzətmək olar. Onun Şərq mövzulu əsərləri Qərb – Şərq mədəniyyətlərarası dialoqu kontekstində mühüm əhəmiyyət kəsb edir. V. Kreve bu əsərləri ilə Litva mədəniyyəti tarixində ilk dəfə olaraq Litva ədəbiyyatının həm də dünya ədəbiyyatının tərkib hissəsi, dünya ədəbi prosesinin tamhüquqlu

[39] Ibid. psl. 110.
[40] Ibid. psl. 25.
[41] Древний Восток. Этнокультурные связи (сборник статей). Москва, "Наука", 1988 г., 344 стр.

iştirakçısı olduğunu göstərib. Bunu litvalı ədibin Azərbaycan mövzulu əsərləri – "Azəristan ölkəsi", "Qartal haqqında nəğmə", "Çarpışan qüvvələr" və "Bolşeviklər" barədə də demək mümkündür...

Odur ki, yaradıcılığında universal və ümumbəşəri dəyərlər bənzərsiz surətdə təsvir və ifadə edildiyinə görə Pensilvaniya universiteti 1954-cü ildə V. Krevenin namizədliyini ədəbiyyat üzrə Nobel mükafatına təqdim etməyi nəzərdə tutmuşdu. Lakin yazıçının qəfil ölümü buna imkan vermədi.

V. Kreve sadə litvalılar arasında bütün dövrlərdə yüksək qiymətləndirilən, xatirəsi həmişə əziz tutulan və çox sevilən əsl milli yazıçıdır. 1990-cı il martın 11-də Litvanın dövlət müstəqilliyi bərpa olunduqdan sonra, qədirbilən litvalılar V. Krevenin adını layiq olduğu elmi-ictimai və ədəbi mövqelərdə bərpa etməyə başladılar. Yazıçı son arzusuna da çatıb. Belə ki, 1992-ci ilin oktyabrında onun vəsiyyəti yerinə yetirilib, V. Krevenin və həyat yoldaşı Rebekkanın nəşləri uzaq Amerikadan Litvaya gətirilib doğma Subartonis kəndinin məzarlığında qumsal torpağa tapşırılıb – bu dəfə azad ata yurdunun qoynunda basdırılıb. Beləliklə, V. Krevenin yer üzərindəki yürüşü, onun özünün istədiyi kimi, doğma Litvasında başa çatıb. Yazıçının qızı Ona-Aldona Moşinskiene (1914–2005) isə 2005-ci ilin dekabrında Filadelfiyada 91 yaşında vəfat edib və vəsiyyətinə əsasən onun da nəşinin külü olan urna Litvaya gətirilib və 30 iyun 2006-cı ildə ata-anasının əbədi uyuduğu məzarda basdırılıb.

1. V. Krevenin Subartonis kəndindəki ev muzeyi. 2. V. Kreve və onun həyat yoldaşının 1992-ci ilin oktyabr ayında Filadelfiyadan Litvaya köçürülmüş məzarı. Subartonis kənd qəbristanlağı.

1988-ci ildə Litva SSR EA Rəyasət heyəti V. Kreveyə akademik elmi adını qaytarıb, hazırda bu Akademiyanın böyük iclas zalını onun barelyefi bəzəyir. 1989-cu ildə Kaunas şəhəri Daynava mikrorayonundakı mərkəzi xiyabana və Varena şəhərindəki baş küçələrdən birinə V. Krevenin adı verilib. 1989-cu ildə isə Merkine qəsəbə gimnaziyasına V. Krevenin adı verilib və 1994-cü ildə bu məktəbin qarşısında yazıçının abidəsi ucaldılıb. Kaunasdakı Böyük knyaz Vitautas adına universitetin Humanitar elmlər fakültəsinin auditoriyası 2002-ci ildən V. Krevenin adını daşıyır. 1997-ci ildə Vilnüsdə V. Krevenin mənzil muzeyi açılıb. Burada onun fəaliyyətinin Bakı dövrünə də aid eksponatlar düzənlənib.

Əhəmiyyətli haldır ki, Litva ədəbi klassikinin xatirəsi Bakıda da əbədiləşdirilib. Vaxtilə onun dərs dediyi binada - indiki Azərbaycan Dövlət İqtisad Universitetində bu gün V. Kreve adına auditoriya fəaliyyət göstərir. Auditoriyanın və V. Krevenin burdakı xatirə barelyefinin açılış mərasimi 18 may 2022-ci ildə baş tutub (barelyefin müəllifi litvalı rəssam və heykəltəraş Antanas Jukauskasdır). Mərasimdə AR Mədəniyyət naziri Anar Kərimov və Universitetin rektoru Ədalət Muradov, həmçinin o zaman Bakıda rəsmi dövlət səfərində olan Litva prezidenti Gitanas Nausedanın xanımı Diana Nausediene və Litva nümayəndə heyətinin üzvləri iştirak ediblər. Auditoriyanın açılışı zamanı rəmzi lentin kəsilməsi mərasimini Litvanın birinci xanımı D. Nausediene və rektor Ə. Muradov icra etdilər.

Keçmiş Bakı 1-ci realnı məktəbinin binasında – indiki Azərbaycan İqtisad Universitetində V. Kreve adına auditoriyanın və onun xatirə barelyefinin açılış mərasimi. Bakı, 18 may 2022-ci il.

Mərasimdə çıxış edən D. Nausediene auditoriyanın açılmasını bir-birimizin tarix və mədəniyyətini daha yaxından tanımaq baxımından yüksək dəyərləndirdi. Nazir Anar Kərimov isə Azərbaycan və Litva arasında hərtərəfli münasibətlərin, habelə mədəni əlaqələrin inkişaf etdirilməsinin hər iki ölkə üçün önəm daşıdığını vurğuladı. Sonra D. Nausediene auditoriya ilə tanış oldu və tələbələrlə söhbət etdi. O, həmçinin Universitetdə şəhidlərin xatirə kompleksini ziyarət etdi.

Sonda Abdulla Şaiqin Litva ədəbiyyatı ilə sonrakı illərdəki əlaqələri haqqında qısa bir haşiyə. Ədəbi klassikimizin V. Kreve ilə saxladığı dostluq və yaradıcılıq münasibətləri barədə yuxarıda göstərilənlərə əlavə olaraq daha iki faktı vurğulayıb qeyd etmək istərdik ki, 1952-ci ildə Vilnüsdə litvaca "Azərbaycan hekayələri" toplusu çapdan buraxılıb. Topluda Azərbaycan nəsri bu ölkədə ilk dəfə olaraq geniş şəkildə təqdim olunub. Belə ki, kitabda on yeddi Azərbaycan yazarının hekayələri və bəzi povestlərdən parçalar verilib. A. Şaiqin iki əsəri – "Köç" və "Məktub yetişmədi" adlı hekayələri də burada yer alıb. Topluya daxil edilmiş bütün əsərləri rus dilindən məşhur ədəbiyyatşünas alim, xanım Yanina Jekayte (1926–2006) tərcümə edib.[42] 1956-cı ildə isə A. Şaiqin 75 illik yubileyi münasibətilə Litva Yazıçılar İttifaqının Rəyasət heyəti ona təbrik teleqramı ünvanlayıb və bu təbrikin mətni Azərbaycan mətbuatında dərc olunub.[43]

Beləliklə, göründüyü kimi, V. Krevenin Azərbaycanla əlaqələri çoxyönümlü və səmərəli olub. O, bununla da, çoxəsrlik Litva–Azərbaycan ədəbi-mədəni və ictimai-siyasi əlaqələri tarixinə yeni səhifələr yazıb, xalqlarımız arasındakı münasibətlərin inkişafına qiymətli töhfələr verib, Azərbaycan mədəniyyəti qarşısında mühüm xidmətlər göstərib. Bu əlaqələr həm də aydın göstərir ki, litvalı xadim Azərbaycan milli-mənəvi dəyərlərinin, ədəbiyyatı və tarixinin, məişəti və təbiətinin yalnız gözəl bilicisi yox, həm də Azərbaycan xalqının, onun mədəniyyətinin böyük və səmimi dostu olub...

Yazıçının həyat və fəaliyyətinin Bakı dövrü əlaqələrimizin zəngin səhifələrini təşkil etməklə bərabər, həm də o zaman Bakıda yaşamış Baltik xalqları mühacirlərinin Azərbaycanın dirçəliş hərəkatında iştirak edib çoxmillətli vətəndaş cəmiyyətinin əsaslarının qoyulmasına, müstəqil Litva–Azərbaycan dövlətlərarası münasibətlərinin təşəkkül tapmasına verdiyi töhfələr kimi böyük tarixi əhəmiyyət kəsb edir.

Bir sözlə, tam əminliklə demək olar ki, V. Kreve xalqlarımızın tarixi, ədəbi-mədəni və ictimai-siyasi əlaqələri məkanında çox-çox uzaqlardan görünən və yolgöstərən sönməz bir işıldağdır...

Vilnüs – Bakı, 1982–2022-ci illər.

[42] Azerbaidžaniečių apsakymai. Vertė Janina Žėkaitė. Vilnius, Valst. grožinės literatūros leidykla, 1952, 511 psl.
[43] Bakı, "Ədəbiyyat və incəsənət" həftəliyi, 18 mart 1956-cı il, № 12, səh. 2.

28 APREL ÇEVRİLİŞİ LİTVA KONSULUNUN GÖZÜ İLƏ

28 aprel 1920-ci ildə XI Qırmızı ordunun hərbi təcavüzü nəticəsində Azərbaycan Cümhuriyyəti süqut etdi və ölkə bolşeviklər Rusiyası tərəfindən işğal olundu. Təcavüzkarın tərəfində başda Anastas Mikoyan (1895–1978) olmaqla erməni silahlı dəstələri də iştirak ediblər. Bu işğal hadisəsi barədə indiyədək həm Azərbaycanda, həm də başqa ölkələrdə yüzlərlə analitik məqalələr, tarixi əsərlər və elmi monoqrafiyalar yazılıb. Amma buna rəğmən, həmin dramatik və faciəvi olaylar haqqında 28 aprel çevrilişindən dərhal sonra isti-isti yazılan kitablar və digər publikasiyalar çox deyil. Belə nadir analitik əsərlərdən biri Cümhuriyyətdəki Litva konsulu, ünlü ictimai-siyasi xadim və məşhur yazıçı Vintsas Krevenin qələminə məxsus "Bolşeviklər" adlı sənədli siyasi oçerkdir.

V. Kreve XI Qırmızı ordunun Azərbaycana qarşı törətdiyi hərbi təcavüzün və 28 aprel çevrilişinin canlı şahidi olub. Odur ki, tarixi faktlara əsaslanaraq yazılmış "Bolşeviklər" oçerkində o dövrdə Azərbaycanda baş vermiş hərbi və ictimai-siyasi olaylar öz əksini tapıb. V. Kreve əsərində həm də 28 aprel çevrilişinin siyasi, ideoloji və hərbi aspektlərini açıqlayıb. Müəllif bolşeviklər Rusiyasının müstəqil Azərbaycanla münasibətlərdə tutduğu riyakar siyasi mövqeni, ölkəyə qarşı həyata keçirdiyi hərbi təcavüzün – "proletariat inqilabının" məkrli üsullarını və təcavüzün hiyləgər yollarını ustalıqla ifşa edib. V. Kreve o zaman Rusiyadan Azərbaycana zor gücünə ixrac edilmiş "bolşevik inqilabının" siyasi və hərbi texnologiyasını da açıqlayıb, onun həyata keçirilməsinin aldadıcı manevrlərini və süngülər üstündə Bakıya gətirilmiş *"Revkom"* və *"Narkomların"* əsl mahiyyətini real faktlara istinadən təhlil edərək çox dürüst şəkildə üzə çıxarıb.

"Bolşeviklər" oçerkində həmçinin 28 aprel çervrilişində fəal iştirak etmiş "inqilabi xadimlər" – narkomlar (xalq komissarları) Mirzə Davud Hüseynovun və Çingiz İldırımın (1890–1937), eləcə də Azərbaycanın dövlət müstəqilliyinin barışmaz düşmənlərindən biri – Bakı Rus Milli Şurasının sədri, Rusiya Kadetlər partiyası Bakı komitəsinin rəhbəri və Bakı şəhər dumasının deputatı Mixail Floroviç Podşibyakinin anti-Azərbaycan fəaliyyəti barədə mühüm bilgilər yer alıb.

Bununla bərabər, əsərdə daşnakların bolşeviklərlə gizli sövdələşməyə girməsi və əlaqələndirici şəkildə hərbi əməliyyatlar aparması, 28 aprel çevrilişi ərəfəsində Azərbaycan hərbi qüvvələrinin Qarabağda və Ermənistanla sərhəddə cəmləşdirilməsi və nəticədə ölkənin şimal sərhədlərinin müdafiəsiz qalması kimi vacib hərbi-tarixi faktlara toxunulub.



XI Qırmızı ordunun "III İnternasional" zirehli qatarı Bakı vağzalında. Şəkildə: M. Yefremov (qatar komandiri), A. Mikoyan, Q. Musabəyov, Kamo (S. A. Ter-Petrosyan), L. Qoqoberidze, İ. Bakayev və b. 28 aprel 1920-ci il.



XI Qırmızı ordunun bolşevik-daşnak hərbi-siyasi xadimləri: M. Levandovski, K. Mexonoşin, M. Yefremov, L. Qoqoberidze, Q. Orconikidze, S. Kirov və A. Mikoyan Bakı dəmir yolu vağzalında. Aprel, 1920-ci il.

Oçerkdə ehtiva olunmuş mühüm bilgilərin bir qismi də 28 aprel çevrilişi ərəfəsində yerli əhali içində qızğın təbliğat aparan və xalqı XI Qırmızı orduya müqavimət göstərməməyə səsləyən, işğalçılara fəal kömək etməyə çağıran bir sıra Türkiyə zabitlərinin bolşevik-daşnak qüvvələri ilə əlbir olub müstəqil Azərbaycana qarşı apardıqları destruktiv əməllərlə bağlıdır. Bu mövzu indiyədək Azərbaycan tarixşünaslığında və politologiya elmində yetərincə araşdırılıb ictimaiyyətə ayrıca toplu kimi geniş təqdim olunmasa da, yaxın keçmişdə nəşr

olunan bir sıra tarix kitablarında bu məsələyə həsr edilmiş bəzi mühüm araşdırmalar çap edilib. Məsələn, 2008-ci ildə buraxılmış yeddicildlik "Azərbaycan tarixi" nəşrinin 5-ci cildində yer almış "Azərbaycan Xalq Cümhuriyyətinin süqutu" fəslində bu baradə belə bir vacib tarixi ümumiləşdirmə təqdim olunur:

"1920-ci ilin aprelində Bakıda hərbi çevrilişin hazırlanması və keçirilməsində burada olan Türkiyə hərbi xidmətçiləri və kommunistləri fəal rol oynayırdılar. Məhz onların köməyi nəticəsində şəhərdə bir çox mühüm obyektlər, o cümlədən dəmiryol vağzalı tutuldu, şəhərin hərbi qubernatoru Murad Girey Tlexas (1873–1920) həbs edildi. Məhz Türkiyə zabitləri və əsgərləri Hökumətin Bakını tərk etmək cəhdinin qarşısını aldılar." [44]

Burada xüsusi elmi-tarixi əhəmiyyət kəsb edən məqam budur ki, bu ümumiləşdirmənin faktiki məzmununu əsaslandıran bəzi tarixi hadisələr və siyasi reallıqlar hələ 1920-ci ildə V. Krevenin sözügedən "Bolşeviklər" oçerkində tam aydınlıqla belə təsvir edilib:

"...Hələ müstəqil Azərbaycan ilə Moskva arasında danışıqlar gedərkən, bolşeviklər 1920-ci ilin martın 4-də Bakı Rus Milli Şurası sədri Podşibyakinin yanına iki səlahiyyətli nümayəndə göndərmişdilər: onlardan biri Azərbaycan hava qüvvələrinin rəhbərliyində xidmət edən Türkiyə zabiti Əfşar xan idi, digərininsə ad-familiyası yadımda qalmayıb. Onlar bilmək istəyirdilər ki, bolşeviklər Bakıya gəldikdən sonra rus ictimaiyyəti, həmçinin Rus Milli Şurası buna necə münasibət göstərəcək və hansı mövqeni tutacaq. Gələn nümayəndələr heç də gizlətmirdilər ki, bolşeviklər bu və ya digər yolla may ayının 1-nə qədər Bakını tutacaqlar.

Şuranın sədri bu suala İdarə heyətində müzakirələrdən sonra cavab veriləcəyini bildirdi və martın 5-də bu məsələ ilə bağlı iclas çağırdı.

İdarə heyətinin iclasında bunlar qərara alındı:

1. Azərbaycan hakimiyyəti tərəfindən burada rusların təsir gücünü var qüvvələri ilə məhv etməyə çalışdığını nəzərə alaraq;

2. Rusiyanın bərpa olunmasında və sənayesinin inkişaf etdirilməsində Bakının olduqca vacib rolunu nəzərə alaraq, bolşeviklər tərəfindən Bakının tutulmasını məqsədəuyğun hesab edirik.

3. Hazırda yalnız Sovet hakimiyyəti yeniliklər gətirmək iqtidarında olduğu üçün və Rus hakimiyyəti Rusiyadan ayrılmış ucqarları yenidən birləşdirmək istədiyinə görə, Moskvanın Azərbaycandakı planlarına dəstək verilməli, bolşeviklər Bakıya gəldikdən sonra onlara bütün işlərdə var qüvvə ilə əməli kömək göstərilməlidir.

[44] Azərbaycan tarixi. Yeddi cilddə. V cild (1900–1920-ci illər). Bakı, "Elm", 2008. səh. 423–424.

TAUTA

kultūros ir politikos laikraštis

Eina tuo tarpu du kartu per savaitę

Atskiro num. kaina 50 skat.

Redakcijos ir Administracijos adresas: Kaunas, Maironio g. Nr. 13 A. Tel. 54. Kalb. val.: Kasdien 1—2 val. ir 5—6 p.p.

Prenumeratos kaina:
Metams — 48 auks.
Pusei metų — 24 „
Trims mėn. — 12 „
Užsienyje — 96 „
Amerikoj — 3 doleriai.

Skelbimai: petito eilutei — 2 auks., pirmame pusl. — 4 „
Didesniems ir kartojamiems skelbimams, susitarus, numeliaisma neolinčių.

Nr. 34 (43) | Kaunas, Penktadienis, 1920 metų Liepos 30 d. | 2 Metai

V. Krėvė

Bolševikai.

1. Darbai, ne šodžiai.

Mūsų kaimynai ir dar pabyr galingiausieji, tiesiog yra rusai - didžiumelčiai. Kad žinotume, kaip su jais elgtis, reikia geriausia-pir pažinti ir pažinti net iš šodžių, nes iš kalbų, tik iš jų darbų. Mes dabar tokiame pat podėjime esame, kokiame kadaisiai buvo Užkaukazės respublikos. Kad suprastumo, kas tie bolševikai, kokia jų taktika, kokie pasiekimai, ko tikėti iš jų, gera, ar blogai, — neveltui bus kiek tik susigalimus su jų pažiūrimu Užkaukazėje.

Gretima su rusais bolševikais, laisvanorių armėjai buvus, buvo Azerbaidžiano demokratinė respublika. Anksčiau tuo pačiu maž-daug laiku, kaip ir Lietuva. Sudarė ją vokiečiai ir turkai 1918 m. rugs. m., išvarius bolševikus iš Baku. Azerbaidžiano respublika buvo panaši į kitas respublikas: buvo parlamentas, buvo ministerijos, buvo duonos iki valsčai, buvo kontrolės pilnos prekių ir aviginti buvo nepatenkinta. Gyventi buvo galima. Žinoma, kaip visur, taip ir Azerbaidžiane, daugumu buvo nepatenkinta savo likimu. Visiems valdžai, jog kitaip elgiantis valdžiai, gali būti dar geriau. Juodos duonos kainavo 6 m. svaras, baltos galima buvo gauti už 8—9 m.; žmonės nuomė, jog galėt būti dar geriau, jei valdžia būtų mandagesnė. Mėsa kainavo po 20—30 m. svaras. Žmonės irgi murmėjo, manydami, kad būtų dar gėriau, jeigu valdžia atkrau kovotų su spekuliacija ir taip toliau. Taisė nepasitenkinimus valdžia buvo dar tuo didesnis, kad Azerbaidžiane labai triko inteligentinės inteligentijos. Kalba buvo vartojama visose įstaigose rusų, tarnavo daugumoje ten rusų valdininkai. Vien vidaus reikalų ministerijoje, karinomenėje ir parlamento įstaigose lankinosi įvesti totorių kalbą, bet tasai klausimas visai neišsiskyrė, nes ir tie tarnautojai totoriai, kurie buvo turėjo būti prašalinti dėlai savo neusipratimo, dėlio stokos supratimo savo pilietinių pareigų. Kaip tik pasiskelbęsiems totorių gandrai maž-daug atsakomosnę vietą, taujau pradėtavo imti kyšius ir elgtis su visais, kaipo dievaitis, kurio galybei nėra galo. Tad visas valdiškas aparatas buvo tankose rusų; žinoma, visas aukštesnes vietes užimdavo intrigentai-totoriai, tuo dar toliau buvo nepatenkieti rusai. Tiesą pasakius — ir nekuomet draugais Azerbaidžiano ir netuvo. Pirma laikė Denikino atsiųsti, paskiau, kada laisvanorių jėgos antrapėjo, ėmė laikti bolševikų. Šiądo gandai, kad bolševikai suvis dabar neloki, kaip buvo, kad je dabar jau žinokę darbą vesti, kad pas juos nebėsą teroro, kad inteligentijos jau neperseikioja, kad je vien atsiųsi kovoja su spekuliacija, kad jems atrykus, bus viai pigiau, bus tenpviau gyventi. Rusai ją laikę - laikė ir dėlto, kad visgi tai—rusų valdžia. Darbininkai laikė, kad gi tai darbininkų valdžia — sulig ją mamonės. Paprastieji pilietiai, kurie abejojo,

[1]) Prie to prisidėta galimybė saujas rėmai daryti iš tų [illegible] bolševikai vandenimis, ją paėmė [illegible]

[illegible] ir kitos, tuomsyta gi buvo delegacija į bolševikų karo vadą, veikiamą tose srityse.

Delegacijai buvo atsakyta, kad tai yra daroma strategijos žvilgsniu, nes ėmė gandas, jog Azerbaidžanas ruošiasi su rusais kovon ir mano pasikvietęs talkon Anglus.

Tai strategijos žvilgsniu privarstas yra užimti jaunimą, iš kurios pastraukė, kaip tik tie visi gandai bus tuščiomi.

Neuskubo delegacija sugrįžti į Baku, kaip siųlė ėmė, kad bolševikų tarnytojus jau užėmė Derbentą, keturios valandos kelio į Baku.

O atsakymo iš Maskvos nebuvo jokio.

Buvo išsiųstos kelios ataštos tos paėgėos, kurios tno laiko galima buvo patraukti: keturias palkas ir vienas batalionas antro pulko ir nedidelis būrelis šaulių — laisvanorių.

Tom pačiąjame vadovavo turkų karininkai, iš austo jau susigiuoti. Dalis tų jėgų į pusę bolševikų perėjo, kita buvo išvaikyta ir tik nedidelis būrelis atitraukė į Balodžiaus stotį, tryliką versnių nuo Baku.

Kelias į Baku bolševikams buvo atviras.

Dr. J. Mikelėno

Padėtis Kryme.

— Čia reikia pridėti, kad jau toki Krymo ypatybė: visi rodžiai su vėžia žirbyje važiuoja į Krymą ir suaikai dūsuodami, išvažiuoja iš Krymo. Kurortas saulės, vyniogių, saudymosi, gėlių ir kitokią smagumų ir gydymosi šalis.

Bet ačiū Dievui, kad dabartinis Krymas toli nuo mūsų palikof Mėnesių, vėliau t. y. gegužės pabaigoje išvažiavo iš jaliaus Lietuviai ir sugrįžę tik ką į Kaunų pranešė, gyvenimo sąlygos per tą laiką dar antra tiek pablogėję. Produktų suskiai gauname ir mokame už juos: avieto svarui 5,000 rublių, lašinių 4000 r., kiaušinui 250 rublių, baltų svarui nuo 700 ig 900 rubl., jaikraščio 1 numetis 125 rubl. Anglų svaras steri. 14,000 r. kaloja. Caro 1000 r. kainoja 60,000 r.

Lietuviai rengėsi pasisamdyti gatavį ir vistiems vienu laiku išvažiuoti, kaip jau padarė latviai ir daro lenkai. Lietuviams vis trukdos, tai kad nėra atstovo, kuris duotų liudymus, kad je Lietuviai. Šiuo reikalu Simferopolio ir jaliaus Lietuviai siuntė į gen. Vrangelį delegaciją su prašymu, kad Vrangelis pripažintų vietam lietuvių veikėjui Konsulio teisės, kurs galėtų išduoti liudymus.

Jaliaus „Kibirkštėlės" Valdyba siuntė per anglus laišką į Lietuvą su prašymu, ar atsiųsti atstovą, ar paskirti tokio atstovo draugiškos pirmininką Jūrevičių.

Lig šiol tepasiseka išvažiuoti ar su lenkais ar su latviais, gaunant iš ją pasus.

Kas turi kur ir kam pasiseka, visi bėga. Išvažiuoti yra labai sunku. Galinos vaziuoti tik per jūrės, bet del stokos anglų garlaivai nereguleriai vaikščioja ir laistai lupa. Lig Konstantinopolio ar Varnos ima 10—15 anglišką svarų steri. O svaras Denikino pinigais kainoja 7000 rublių. Priešnama kaina ar visai vokiškai yybėms ir į Lietuvą Valstiai pabėgėlių lietuvių grąžinimo reikalais.

Jaučiama ypač nuskriotos laiko reikalingumas Krymo atstovo Lietuvių valdžios, kurs registruoti Lietuvos pilietiai, duoti jiems liudymus ir gintų jaus.

Lietuvos Valstybės Atstovas p. Lisauskis, atvažiavęs į Odėsą, pėsiąjoja ko nors Kryme gali lietuvių reikalus; bėtų užėjęs ią spraga, o tiesp nuskriaudę Krymečius lietuvius.

Priėš pat manę išvažiuvimą iš Krymo dar pasirodė, jog bėta nuo pavasario 1919 metų Simferopolyje Lietuvių Tautos Tarybos įgaliotinis. Įgaliotinis veikė tik Simferopolyje, nors buvo skirtas visam Krymui. Jis davė aple savo ėmę jaliečiams tikt pradžioje 1920 metų.

Tai sulinojęs apie įgaliotinį, draugiškai „Kibirkštėlės" iš tuojau buvau paėjęs į Simferopolį užmegsti su juo tylų ir pradėti veikti tarnai. Aš turėjau vadovaštinau su įgaliotinio veikimu; buvo registruojami Lietuvos pilietai ir išduota ig 150 liudymų ant tam tikrų blankų, kreiptasi į gubernatorių ir kitus aukštus vyrus lietuvius atsiųsdavimo iš karinomenės reikalais, bet veikti draugu su įgaliotinju jaliečiams nebėpriėjęs. Priėš pat mano atvažiuvimą į Simferopolį p. Įgaliotinis atsitko nelaimė: geral pažinimas p. Įgaliotinio priėsavo pagėbinėmas, kurkam jisai visuomet barzdą skutęs (nes p. Įgaliotinis buvo trijerta) atėjęs su kuleta sargybinių ir nepranešdamas prieėsaties, atėmęs įgaliavimą, antspaudą, blankas su antspaudais ir jo įgaliotinio pasą.

Antrą dieną pasvietęs pas savę jo įgaliotinio sekretorį kurį pristavo pagėbinėmas ligi saulės geral žinojęs nes sekretorius be savo tiesiųjų pareigų sekretoriavimo savo padėrbta mašina įgaliotinio bute (kirpykloje) tiktos dėbo, žiurdes ir ir paėmęs jo dokumentus. Man pagrįtus į jalię, kibirkštėlės valdyba per ėmęsmą užkluosė Simferopolio Valstybinės apsaugos Viršininką, už ką atimti dokumentai p. Įgaliotinio. Atsakymo nesulaukė.

Iš jalios lenkų konsulo aš gavau pažėidimą vėliausi su lenkais draugę, kaipo Vilniaus Betvrių komiteto tarnautojas.

Iš jalios galėjome išvažiuoti per užgėsėes ėjusią su lenkų traukiniais į Varną garlaiviu „Rossija". Bet kadangi tarėjome išvažiuoti iš Krymo iš Pietų Rusijos, kur pilna kiaušių siurpyra, to padėrsi negalėjom, nes tuo laiku jalię užėmė kapitonas Orlovas ta savo būrių. Orlovo kazokai buvo kova su spekuliacija ir kyšių ėmimu. Pažėiminkavęs jaliojė savaitę, spekuliacijos mė kyšių nepanaikino, tik paėmė 2 milijonus iš jaliot tanko, tiečo, o mums atbėdė garlaivį, nes garlaivis neužėjo į Jaltą, kaipo į svetimą šalę, atkovotą netinomo ricerio Orlovo, tik iš Sevast. nuėjo tiesiai į Varną. Išvažiavome tik 27 balandžio. Ir šiam tygiai daugel buvo darc. as kliūčių. Rusai nenorėjo leisti, verte imti uzrubėž. pasą arba duoti savo taisiką ?, ir t.

V. Krevenin "Bolşeviklər" oçerkinin dərc edildiyi "Tauta" qəzeti. Kaunas, 30 iyul 1920-ci il, № 34.

4. Bolşeviklər Bakıya gələnə qədər yerli *"Qolos Rossii"* qəzetində[45] Azərbaycan hakimiyyətinə qarşı şiddətli təbliğat aparılmalı və onu xalqın gözündən salmaq üçün ciddi işlər görülməlidir.

Bakı Rus Milli Şurasının çıxardığı bu qərar sonra Əfşar xana təqdim olundu..."

Oçerkdə Türkiyə zabiti ilə bağlı göstərilən fakta daha dəqiq aydınlıq gətirmək üçün qeyd edək ki, V. Kreve burada Cümhuriyyət ordusunun Baş qərargahı yanında hərbi aviasiya dəstəsinin rəisi, leytenant Əfşar xan Teymurçini nəzərdə tutur. Ə. Teymurçin bu vəzifəyə Azərbaycan Cümhuriyyətinin Hərbi naziri, general Səməd bəy Mehmandarovun (1855–1931) və Cümhuriyyət ordusunun Baş qərargah rəisi, general Matsey (Süleyman bəy) Sulkeviçin (1865–1920) 19 avqust 1919-cu ildə imzaladıqları 370 saylı Əmrlə təyin olunmuşdu.

Üç hissədən ibarət "Bolşeviklər" oçerki Kaunasda 1919–1920-ci illərdə litvaca nəşr edilən *"Tauta"* mədəniyyət və siyasət qəzetinin 1920-ci ilin iyul-avqust aylarında çıxmış 34, 35 və 36-cı saylarında dərc olunub.[46] Bundan sonra əsər 90 ilə yaxın bir müddət heç vaxt təkrarən çap edilməyib.

Oçerk Litvanın müstəqilliyi bərpa olunandan sonra Litva Azərbaycanlıları Cəmiyyətinin təşəbbüsü və səyləri ilə 2007-ci ilin noyabr və 2010-cu ilin aprel aylarında Vilnüsdə Litva, Azərbaycan[47] və rus[48] dillərində dövri mətbuatda yenidən işıq üzü görüb. Əsər Azərbaycanda iki dəfə – V. Krevenin 2010-cu ildə Bakıda "Mütərcim" və 2015-ci ildə "Parlaq imzalar" nəşriyyatları tərəfindən buraxılmış "Azəriztan ölkəsi" kitabında çap olunub, həmçinin 2015-ci ildə "525-ci qəzet"də[49] dərc edilib.

V. Krevenin "Bolşeviklər" sənədli siyasi oçerki 1920-ci il 28 aprel çevrilişindən dərhal sonra yazılan və nüfuzlu avropalı bir müəllifin əsəri olaraq Litvanın ictimai-siyasi dairələrində maraqla qarşılanıb, həm də ki, aprel çevrilişi həqiqətlərini Litvada adekvat təqdim edən mötəbər yazılı mənbələrdən biri olaraq qəbul olunub.

[45] Bu qəzet 1918–1919-cu illərdə Bakıda "Единая Россия" adı ilə buraxılıb.

[46] Vincas Krėvė. "Bolševikai" (politinė apybraiža). I, II ir III dalys. Kaunas, kultūros ir politikos laikraštis "Tauta", 1920 metų liepos 30 d. № 34 (43), rugpjūčio 3 d. № 35 (44), rugpjūčio 6 d. № 36 (45).

[47] Vintsas Kreve. Bolşeviklər. Vilnüs, www.slaptai.lt xəbər portalı, 26 aprel 2010-cu il.

[48] Винцас Креве. "Большевики" (документальный очерк бывшего консула Литвы в Баку В. Креве об апрельском перевороте в Азербайджане в 1920 г.). Вильнюс, портал новостей www.slaptai.lt. 26 апреля 2010 г.

[49] Vintsas Kreve. "Bolşeviklər". Bakı, "525-ci qəzet", 8 avqust 2015-ci il, № 142

Abdulla ŞAİQ (1881–1959)

LİTVALI HƏMKARIM

(V. K. Mitskəviçyus haqqında xatirələrim)

Vikenti İosifoviçin (Vintsas Krevenin) bizim gimnaziyaya gəldiyi ilk gün yaxşı yadımdadır. Hamı ona maraqla baxır, şagirdlər isə bir yerə toplaşıb onun haqqında danışırdılar. Hamı bir şey haqqında pıçıldaşırdı: "Gör, bizim təzə müəllimin boyu necə kiçikdir..." Əvvəllər V. K. Mitskəviçyus qısaboy olması ucbatından bəzi çətinliklərlə üzləşirdi. Hətta gimnaziyanın direktoru İvan Viktoroviç Denferlə onun arasında ziddiyyət əmələ gəlmişdi. Məsələ belə idi ki, təzə müəllimə hansı siniflərin tapşırılması mübahisəli qalmışdı. Mitskəviçyus tələb edirdi ki, ona yuxarı siniflərdə rus ədəbiyyatından dərs deməyə icazə versinlər. Amma, gimnaziyanın direktoru buna razı deyildi. Ümumiyyətlə, İvan Viktoroviç Denfer çox sakit, söhbəti sevən adam olsa da, bu dəfə o, tərslik edirdi... Mitskəviçyusun yuxarı siniflərə müəllim təyin olunmaq məsələsini o, eşitmək belə istəmirdi. Buna səbəb yenə gənc müəllimin qısa boyu idi. Həqiqətən, gimnaziyanın yuxarı sinif şagirdlərinin boyu ondan bir neçə qarış hündür idi. Direktor Denfer hər cür çalışırdı ki, Mitskəviçyusu yuxarı siniflərdə dərs demək fikrindən yayındırsın, hətta axırda o, Mitskəviçyusa bildirdi ki, o hələ gəncdir, pedaqoji işə təzə başlayıb, şagirdlər ona qulaq asmazlar, sinifi başlarına götürərlər, onları idarə etmək çətin olar və s. Mitskəviçyus isə, elə bil ki, qəsdən, özünü elə göstərirdi ki, guya direktorun hara işarə vurduğunu başa düşmür və eyni zamanda təslim olmaq da istəmirdi. Mübahisə bir neçə gün davam etdi. Nəhayət, direktor Denfer, ürək ağrısı ilə razı oldu...

Bir halda ki, müəllim bu qədər inadkar idi, o nə edə bilərdi ki? Doğrusu, yeddinci sinif şagirdləri də (yeddinci sinif məktəbin ən yuxarı sinifi idi) bu fikirdə idilər ki, onlar dərsi söz-söhbətə, deyib-gülməyə çevirə biləcəklər. Lakin, elə ilk dərsdən sonra onlar məni məktəbin dəhlizində saxlayıb,

ətrafıma toplaşaraq biri digərinə aman vermədən Mitskəviçyusun ilk dərsini bərk tərifladilər. Direktor Denfer, Mitskəviçyusun təkcə, bir dərsində iştirak etdikdən sonra, o saat yumşaldı və müəllimlər otağına gəlib, hamının eşidəcəyi bir tərzdə bildirdi ki, təzə rus ədəbiyyatı müəllimi çox savadlı və istedadlı pedaqoqdur. Sonralar məktəbin direktoru Denfer Mitskəviçyusa böyük hörmət edir, pedaqoji şuranın iclaslarında onun fikirləri ilə hesablaşırdı. Denferin təklifi ilə Mitskəviçyus pedaqoji şuranın katibi, daha sonra isə 1-ci realnı məktəbinin əsaslı kitabxanasının həmişəlik müdiri seçildi. Vikenti İosifoviçin nüfuzu, onun direktor Denferə təsiri bizim məktəbin həyatında tamamilə yeni hadisə idi. Bu isə məktəbdə bir çox azərbaycanlı şagirdlər üçün böyük əhəmiyyətə malik idi.

Tezliklə, Mitskəviçyus özü, hamının sevdiyi müəllimə, onun fənni isə sevimli dərslərə çevrildi. O, gəncləri maraqlandırır və onlarda ədəbiyyata həvəs oyadırdı. Bu, böyük xidmət idi.

O vaxtlar Azərbaycanda yerlilərlə yanaşı, xarici kapitalistlər də ağalıq edirdilər. Azərbaycanlılar isə öz doğma vətənlərində əzab-əziyyət içərisində yaşayırdılar. Əhalinin savadsızlığını dini təsəvvürlər daha da dərinləşdirirdi. Azərbaycan dili Bakının ancaq bir neçə məktəbində tədris olunurdu, o da "altıncı dərs" kimi (azad dərs şəklində). Dərs cədvəlində isə Azərbaycan dili *"туземный язык" – ("yerli dil")* kimi göstərilirdi. Çarizm Azərbaycanı nəinki çar müstəmləkəsinə çevirmişdi, həm də azərbaycanlılara Rusiyada yaşayan başqa millətlər kimi təzyiq göstərir, Azərbaycan xalqının mədəni irsi müxtəlif üsullarla inkar edilirdi. Odur ki, *"туземный язык"* müəllimlərindən tələb olunurdu ki, dərslərdə dinin öyrənilməsinə və təbliğinə xüsusi diqqət yetirsinlər və s. Əlbəttə, bir çox başqa müəllimlər kimi mən də bu yol ilə getmirdim. Şagirdlər mənim dərslərimdə Azərbaycanın çar müstəmləkəsinə çevrilməyi barədə də, ölməz Nizaminin yaradıcılığı haqqında da məlumatı eşidə bilirdilər. Hətta çar mütləqiyyətinə istehza edən, mövcud ictimai-siyasi quruluşu qamçılayan Sabirin satiraları da o vaxt mənim dərslərimdə əldən-ələ gəzirdi.

Xatırlamaq nə qədər ağırdırsa da, lakin, o vaxt elə valideynlər tapılırdı ki, öz uşaqlarına "yerli dil" dərslərində iştirak etməyə icazə vermirdilər. Yadımdadır, bir dəfə, varlı Məmmədbəyov (bu günə qədər bu familiyanı xatırlayıram) müəllimlər otağına soxularaq, hamı eşidəcək bir tərzdə dedi ki, "guya mən onun oğlunun başını boş, lazımsız dərslərlə yoruram". Mitskəviçyusu bu əhvalat çox həyəcanlandırdı. O vaxt Mitskəviçyus elə yerindəcə, müəllimlər otağında, öz narazılığını bildirərək dedi: "o adam ki, öz doğma ana dilini öyrənməkdən utanır, onu adam adlandırmaq olmaz".

Zaman keçdikcə biz daha yaxın dost olduq. Onun bir xasiyyəti mənim çox xoşuma gəlirdi. O, adamın milli qürurunu tapdalayanlara qarşı, xüsusən o vaxt azərbaycanlılara olan pis münasibətə, onları "tuzemnı" hesab edənlərə qarşı çox amansız idi. O bütün bunları alçaq hərəkət kimi qəbul edir, belə münasibətlərlə barışmır və bu hadisələri qeyri etik hərəkət kimi qiymətləndirirdi. Bizim müəllimlər arasında isə müxtəlif baxışlı adamlar vardı. Təəssüf ki, elələri də tapılırdı ki, onlar azərbaycanlılara etinasız yanaşır, yeri gələndə hətta onlara qarşı öz nifrətlərini belə bildirməkdən çəkinmirdilər. Hətta bilə-bilə onlar azərbaycanlı şagirdlərin qiymətini aşağı salaraq göstərmək istəyirdilər ki, onlar geridə qalmış millətdən olduqları üçün rus dilini heç vaxt yaxşı öyrənə bilməzlər və s. Mitskəviçyus belələrinə qarşı həmişə mənfi münasibət bəsləyirdi. Həm də təkcə sözlə yox...

A. Şaiq Bakı 3-cü kişi gimnaziyasının şagirdləri arasında. 20 aprel 1912-ci il.

Beşinci sinifdə istedadlı şagirdim Ruhulla Axundov (sonralar məşhur inqilabçı, Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra görkəmli siyasi və mədəni xadim, ədəbiyyatçı, publisist olmuşdur) rus ədəbiyyatı üzrə gözəl inşalar yazırdı. Mitskəviçyus həmişə Ruhulla Axundovla maraqlanar və mənə onun böyük ədəbi istedad olduğunu, ona xüsusi diqqət yetirməyi xatırladardı. Mitskəviçyus tez-tez mənə deyərdi: "Əgər o, rus dilində belə gözəl inşalar yazırsa, təsəvvür edirsinizmi o, bunları öz doğma dilində necə maraqlı yaza bilər".

Bütün müəllimlər bilirdilər ki, Mitskəviçyus şagirdlərə qiymət qoymaqda o qədər də əliaçıq deyildi. O, "beş" qiymətini demək olar ki, yazmazdı. Bu aydın

idi, belə ki, o bizim məktəbdə ən tələbkar müəllim hesab olunurdu. Amma, bir gün o, bizim hamımızı təəccübləndirdi. O, Axundovun inşa yazısına təkcə "beş" yox, *"пять плюс"* – yəni, "beş üstəgəl" vermişdi. Hamı məəttəl qalmışdı (öz növbəsində isə bu bir sıra qaragüruhçu müəllimlərə vurulan sillə idi). İnspektor Popov isə tələb edirdi ki, Mitskəviçyus heç olmasa qiymətdən "plyusu" pozsun. Əsla mümkün olmadı. Pedaqoji şuranın iclasında Vikenti İosifoviç "beş plyusu" müdafiə məqsədilə elə bir çıxış etdi ki, hamı dilini dişlədi. Yadımdadır, bu iclasdan sonra o, mənə bir daha Axundov haqqında xatırlatdı və onu gözdən qoymamağı xahiş etdi. Mitskəviçyus daha bir istedadlı azərbaycanlı şagirdə, sonralar məşhur Azərbaycan yazıçısı olmuş Tağı Şahbaziyə böyük qayğı göstərirdi.

O biləndə ki, mən bədii yaradıcılıqla da məşğul oluram, bu bizim münasibətlərimizi daha da yaxşılaşdırdı. Belə ki, o vaxt bizim məktəbin azərbaycanlı şagirdləri tərəfindən tamaşaya qoyduqları "Gözəl bahar" mənzum pyesimdən sonra o, mənimlə daha da yaxınlaşdı.

A. Şaiq. "Gözəl bahar" pyesinin Azərbaycan dilində nəşri. Bakı, Orucov qardaşlarının mətbəəsi, 1912-ci il, 34 səh.

Pyesin hadisələri mürəkkəb deyildi. Səhnəyə yenicə cana gəlmiş Bahar daxil olur. Onun ətrafını quşlar, kəpənəklər, qaranquşlar, uşaqlar bürümüşdür. Baharın gəlişi ilə günəş doğur. Günəş meşələri, çölləri, təbiəti oyadır, çaylar daşır, qarın təzyiqi altında əyilən ağacların başları dikəlir. Sanki hər bir şey Baharın gəlişindən razıdır, məmnundur. Təkcə Şaxta hirslidir, narazıdır. O, təzədən qışı geri qaytarmaq istəyir ki, Baharı qovsun, yenidən çölləri, çəmənlikləri qalın

qarla örtsün, fırtına, boran hökmran olsun, torpağı, çiçəkləri dondursun, quşları qərib ölkələrə uçursun. Ancaq, Bahar bundan qorxmur. Torpaq oyanmışdır, indi heç kəs ona təsir edə bilməz, hamı Bahara tabedir; günəş də, torpaq da, guşlar da. Hamı əl-ələ verib axtarış aparır, qışı tutub gətirirlər, mühakimə edib ölüm cəzası kəsirlər. Hamı azadlıq əldə edir. Bu pyes, eləcə də tamaşa o vaxt Mitskəviçyusun xoşuna gəlmişdi. Tamaşadan sonra o, mənə yaxınlaşıb əlimi möhkəm-möhkəm sıxaraq dedi: "Baxmayaraq ki, mən Azərbaycan dilini bilmirəm, ancaq Sizin əsərinizi deyəsən sözün əsil mənasında başa düşdüm. Yaxşı və lazımlı alleqoriyadır". Əsərimin Mitskəviçyusun xoşuna gəlməsi məni çox sevindirdi.

Mən müəllim dostumu yaxından tanıdıqca, ona bir o qədər hörmətim artırdı. Mitskəviçyus bundan sonra tez-tez yaradıcılığımla maraqlanır, məndən mütaliəm barədə, nəsrlə bir şey yazıb, yazmadığımı və s. haqqında soruşardı. Bir dəfə o, şeir yazdığımı bildikdə məndən əsərlərimdən birini oxumağı və sətri tərcümə etməyimi xahiş etdi. O vaxt mən "Ana və oğul" ("Simurq quşu") balladasını (alleqorik məzmunlu) elə təzəcə yazıb qurtarmışdım. Balladada deyilirdi ki, öz xalqının azadlığı uğrunda həlak olan qəhrəmanların müqəddəs ruhları o qədər böyük və güclüdür ki, onlar ölümdən sonra məhv olmurlar. Qafqaz dağlarına çəkilib, əfsanəvi Simurq quşunu sevindirirlər, günəşi doğmağa səsləyirlər. Balladanın əsas ideyası bu idi ki, ölümsüz, qurbansız xoşbəxtlik və azadlıq əldə etmək olmaz.

Mitskəviçyus mənim azərbaycancadan ruscaya tərcüməmi öz dəftərçəsinə geyd etdi. Təsəvvür edin ki, səhərisi gün mən nə qədər sevindim və təəccübləndim. Vikenti İosifoviç cibindən kitabçasını çıxatdı və mənim "Ana və oğul" balladamın əla tərcüməsini əzbərdən oxudu.

– Deməli Siz də yazırsınız? – deyə, özümdən asılı olmayaraq ona bu sualı verdim.

– Hərdən az-az... eh, bu nədir ki, – deyərək, Vikenti İosifoviç gülümsədi, əlini yelləyərək söhbəti başqa mövzuya keçirtdi. O, özünün yaradıcılığı barədə danışmağı sevməzdi... Təsəvvür edin ki, biz onunla bu qədər dostluq etdik, bir yerdə işlədik, ancaq, V. Mitskəviçyusun bədii əsərlər yazması barədə, həm də doğma Litva dilində yazması haqda ilk dəfə 1957-ci ildə Bakıda qonağım olmuş gənc dostum Sklyutauskasdan[50] eşitdim.

Vikenti İosifoviçin rus dilinə etdiyi "Ana və oğul" balladasının tərcüməsini yaxşı xatırlayıram. Bilmirəm ona bu tərcüməni bir yerdə çap etdirmək nəsib olmuşdurmu, əgər olmamışdırsa, çox təəssüf. O gündən mən bildim ki, Mitskəviçyus rus dilində şeirlər də yazır. Mən bu yeganə şeirdən başa düşdüm ki,

[50] Litvalı dramaturq, nasir, esseist və ədəbi tənqidçi Yokubas Sklyutauskas (1925–2004) nəzərdə tutulur.

litvalı dostum üçün rus dilində şeir yazmaq çətin bir şey deyil, o, yazıçı üçün lazım olan əsas silaha – gözəl dilə malikdir. Bu adam rus ədəbi dilinin, canlı rus nitqinin yaxşı bilicisi idi.

O vaxtlar mən hələ gənc idim, mütaliə dairəm məhdud idi. Doğrudur, mən Şərq yazıçı və mütəfəkkirlərindən xəbərdar idim, az-çox ərəb, fars, türk ədəbiyyatlarını bilirdim, Sədinin, Hafizin, Xəyyamın, Nizaminin, Xaqaninin, Ruminin, Firdovsinin, Füzulinin, Qaani Şirazinin yaradıcılığı ilə tanış idim. Lakin, rus və qərbi Avropa ədəbiyyatı və tənqidi sahəsində bildiyim məni qane etmirdi. Mitskəviçyus bu kəsiri hiss edirdi. Bunu onunla izah edə bilərəm ki, bir dəfə çox ehtiyatla və üsulluca o, mənə öz xidmətini – rus və qərbi Avropa ədəbiyyatının nailiyyətləri ilə tanış olmaqda kömək göstərmək istədiyini təklif etdi. Yadımdadır, bu söhbət onun kitabxanadakı otağında oldu. O zaman Vikenti İosifoviç mənə dedi: "Rus və qərbi Avropa ədəbiyyatının klassiklərini dərindən öyrənmək öz yaradıcılığıma daha tələbkar olmağıma, yaradıcı təfəkkürümün inkişafına çox böyük kömək edər". O, elə inandırıcı şəkildə danışırdı ki, mən istər-istəməz onunla razılaşmalı olurdum. Qərara aldıq ki, o, mənim ədəbi dünyagörüşümün zənginləşməsi üçün əlindən gələni əsirgəməsin. İndiki kimi yadımdadır, biz işi əvvəlcə "Ədəbiyyat nəzəriyyəsindən" və Sipovskinin "Poetika"sından başladıq. Sipovskidən sonra biz böyük bir ciddiyyətlə rus tənqidçilərini – Belinskini (Mitskəviçyus Belinskinin əsərlərini gözəl bilir və onu yüksək qiymətləndirirdi.), Çernışevskini, Dobrolyubovu öyrənirdik. Sonra növbə Bayrona, Göteyə, Şillerə, Balzaka, Stendala və b. çatdı.



1. Bakı I realnı məktəbinin keçmiş sinif otaqlarından biri. 2. Bakı I realnı məktəbi kitabxanasının müdiri V. Kreve. 1912-ci il.

Mitskəviçyus mənim ədəbi görüş dairəmi genişləndirmək üçün əlindən gələni edirdi. Hətta, o, mənim "pəncərə" saatlarımı (dərslər arası boş saat) da dərs cədvəlindən özü üçün yazıb götürmüşdü. Bu saatlarda o, məni öz otağında gözləyər və biz burada ədəbi mövzularda söhbətlər edər, bu haqda məndən öz şəxsi mülahizələrimi soruşar, oxuduğum kitablardan qaranlıq qalan məsələləri mənim üçün aydınlaşdırardı. Bir sözlə, onun otağı mənim üçün "qiraət zalına" çevrilmişdi. Bütün bu söhbətlər zamanı mən bir daha yəqin etdim ki, Vikenti İosifoviç Mitskəviçyus sıravi bir ədəbiyyat müəllimi deyil, hərtərəfli biliyə malik ədəbiyyatçı, ədəbiyyatın müxtəlif sahələri üzrə müəyyən, aydın biliyə, dünyagörüşə malik ədəbiyyatşünasdır. Düzdür, o, Azərbaycan dilini bilmirdi, ancaq, Nizaminin, Şota Rustavelinin, Sədinin yaradıcılığına yaxından bələd idi. Hər dəfə Mitskəviçyusun otağında mənim üçün hazırlanmış kitab görürdüm. O, mənim mütaliəm üçün böyük həvəslə kitab seçərdi. Bəzi kitabları isə o, öz evindən gətirərdi. Onun evdə böyük şəxsi kitabxanası vardı. Mitskəviçyus mənim dünya ədəbiyyatı və rus ədəbi tənqidinin öyrənməyim üçün böyük əmək sərf edirdi.

Bir neçə il keçəndən sonra Azərbaycanda Sovet hakimiyyəti quruldu. Bu zaman Azərbaycan sosialist mədəniyyəti böyük sürətlə inkişaf edirdi, lakin, ədəbi kadrların çatışmamazlığı üzündən mənim işim daha da ağırlaşmışdı. Mən Universitetdə ədəbiyyat nəzəriyyəsi və tənqid üzrə mühazirələr oxuyur, proqramlar tərtib edir, ədəbi-bədii jurnallar üçün məqalələr yazır, yaradıcı gənclərə rəhbərlik edirdim. Bax, bu zaman – belə günlərdə mən böyük bir minnətdarlıqla öz dostumu, rus və dünya ədəbiyyatı xəzinəsini öyrənməkdə mənə əvəzsiz, səmimi-qəlbdən köməklik göstərən Mitskəviçyusu dönə-dönə xatırlayırdım. O vaxt mən bir daha hiss edirdim ki, Mitskəviçyusun mənə göstərdiyi qayğı, kömək, bu gün öz qüvvəsini bizim yeni doğulan sosialist mədəniyyətimizə, biliyimizə sərf etməkdə nə qədər böyük qiymətə malikdir.

Yeri gəlmişkən qeyd edim ki, Mitskəviçyus Şərq folkloru, etnoqrafiyası və məişəti ilə çox maraqlanırdı, tez-tez şagirdlərindən xalq əfsanələri, nağılları və adət-ənənələri haqqında soruşardı. Bir gün onun əlinə Qori müəllimlər seminariyasında buraxılan "Qafqaz xalqlarının atalar sözləri və zərb-məsəlləri dəftərləri" keçmişdi. Bu onun üçün əsil bayram idi. Demə, Qori seminariyasının rəhbərliyi öz yetirmələrinə Qafqaz xalqlarının atalar sözü və zərb-məsəllərini toplamağı tapşırmış və nəticədə sonradan bütün bunlar ayrıca dəftərlər şəklində çap olunmuşdu. Mitskəviçyus bu zərb-məsəllər və atalar sözü "dəftərlərini" toplayırdı. Bunlar onun üçün əsl xəzinə idi.

Gözəl pedaqoq və mədəniyyət xadimi V. İ. Mitskəviçyusun xatirəsi indi də yaşayır. Biz ona Azərbaycan xalqının səmimi dostu kimi hörmət bəsləyirik.

A. Şaik

Bakı, 1957-ci il.

Abdulla Şaiq. "Xatirələrim". Bakı, "Gənclik", 1973-cü il, səh. 342-349.

NALÇİK HƏYATI

(Xatirədən bir parça)

...Bakı realnı məktəbinin müəllimlərə məxsus 40 minə qədər kitabı olan zəngin bir kitabxanası var idi. Rus ədəbiyyatı müəllimi V. İ. Mitskəviçyus həmin kitabxananın müdiri idi. Mitskəviçyusdan izn alıb hər gün boş saatlarımı o kitabxanada keçirirdim. Mitskəviçyus mənə həm rəhbərlik edir, lazım olan qiymətli kitabları mənə verib oxumağımı tapşırır, həm də bəzən oxuduğum əsər haqqında bir tələbə kimi məndən sorğu-sual edirdi. Hətta, son zamanlar imtahan günlərində Mitskəviçyus məni özüylə bərabər yuxarı sinif tələbələrinin imtahanlarına aparırdı. Beləliklə, o zaman mən rus və Avropa klassiklərinin əsərləri ilə, Belinski kimi tənqidçilərin fəaliyyəti ilə tanış olmuşdum...

Bakı, 1957-ci il.

Abdulla Şaiq. "Xatirələrim". Bakı, "Gənclik", 1973-cü il, səh. 296–297.

V. KREVENİN "AZƏRİSTAN ÖLKƏSİ"NƏ QAYIDIŞI

Litvalı ədəbiyyatşünas A. Valyonisin M. Həmzəyevlə müsahibəsi

Vintsas Kreve-Mitskəviçyusun zəngin ədəbi irsini dünya xalqlarının dillərinə edilən tərcümələri təkcə bir əlin barmaqları ilə saymaq olar. Buna görə də Bakıdan Vilnüsə gəlib çatmış ən yeni xəbər bizi çox sevindirdi: Azərbaycan Yazıçılar Birliyi Tərcümə mərkəzinin "Mütərcim" nəşriyyatı *"Dünya ədəbiyyatından – Books"* seriyasından V. Krevenin "Azəristan ölkəsi" kitabını 2010-cu ildə azərbaycanca çapdan buraxıb[51] (İosif Brodski, Milan Kundera, Çeslav Miloş, Pol Elüar, Orxan Pamuk, Xulio Kortasar kimi məşhur dünya yazarlarının kitabları ilə yanaşı).

Kitaba Litva yazıçısının "Şərq hekayətləri" toplusundan götürülüb tərcümə edilmiş bu əsərlər daxil edilib: "Azəristan ölkəsi", "Qadın", "Kralın ən yaxşı şərabını saxladığı qab" və "Çarpışan qüvvələr". Bunlarla yanaşı topluda ədibin "Bolşeviklər" siyasi oçerki və Azərbaycan ədəbiyyatının klassiki Abdulla Şaiqin "Litvalı həmkarım" adlı xatirələri də dərc olunub. A. Şaiqin litvalı dostu və həmkarı haqqında yazdığı bu xatirələr bizi 1909–1920-ci illərə aparıb çıxarır. O illərdə V. Kreve Bakıda yaşayıb və işləyib, bir sıra yetkin əsərlərini də burada yazıb.

V. Krevenin əsərlərini Litva dilindən Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü Mahir Həmzəyev tərcümə edib. "Azəristan ölkəsi" kitabı M. Həmzəyevin V. Krevenin həyat və yaradıcılığı haqqında, eləcə də Litva ədibinin Azərbaycan ədəbiyyatı və mədəniyyəti ilə əlaqələri barədə yazdığı "Azərbaycanın böyük və səmimi dostu" adlı məqalə ilə başlanır.

M. Həmzəyev artıq otuz ilə yaxındır ki, Litva–Azərbaycan ədəbi və mədəni əlaqələrinin öyrənilməsi sahəsində araşdırmalar aparır, Şərqin Qərblə mədəniyyətlərarası dialoquna yaradıcı töhfələr verir. Tədqiqatçı V. Krevenin şəxsiyyət və yaradıcılığı ilə Bakı Universitetində təhsil aldığı dövrdə tanış olub, ilk dəfə Litva adını isə məktəb illərində Litva xalq nağıllarını oxuyanda eşidib.

M. Həmzəyevin elmi-ədəbi araşdırmaları əsasən 1909–1920-ci illərdə V. Krevenin həyat və yaradıcılığının Bakı dövrü ilə bağlıdır. O, litvaşünaslıqda indiyədək məlum olmayan faktlar və yeni arxiv sənədləri üzə çıxarıb. Litva ədəbiyyatı klassikinin Azərbaycanda göstərdiyi ictimai-siyasi və diplomatik fəaliyyətə aid olan bu nadir məlumatlar və ümumiləşdirmələr hazırda M. Həmzəyevin yazıb bitirməkdə olduğu monoqrafiyada əks olunacaq. Sözügedən mənbələr əsasında V. Krevenin Xəzər sahillərindəki həyat və fəaliyyətinə həsr

[51] Vintsas Kreve. "Azəristan ölkəsi". Hekayələr, məqalə, xatirələr. Bakı, "Mütərcim", 2010-cu il, 125 səh.





1. V. Krevenin "Azəristan ölkəsi" kitabının üzqabığının görüntüsü. Bakı, 2010-cu il.
2. Litvalı ədəbiyyatşünas, tənqidçi və tərcüməçi Arvidas Valyonis.

olunmuş bir neçə qısametrajlı televiziya filmi də Vilnüsdə məhz M. Həmzəyevin təşəbbüsü və dəstəyi ilə yaradılıb.

Kitabın tərcüməçisi M. Həmzəyevlə Vilnüsdə görüşdük və "Azəristan ölkəsi"nin Litvadan Bakıya qayıdışı ilə bağlı onunla həmkarcasına söhbət etdik.

– Vintsas Krevenin əsərlərinin poetik və melodik üsulunu dərindən duyaraq, onları Azərbaycan dilində yaratmağa necə müvəffəq oldun?

– Kitab həcmcə böyük olmasa da, onun tərcüməsi üzərində iki il çalışdım. V. Kreve şəxsiyyətinin nəhəngliyi və istedadının əzəməti ilə bağlı böyük məsuliyyət hissi tərcümə zamanı məni mütəmadi müşayiət edir və öz təzyiqini göstərirdi. Çalışırdım ki, Litva Götesi və Şekspri adlandırılan V. Kreve əsərlərinin bədii bütövlüyünü azərbaycanlılara tam adekvat şəkildə təqdim edim. "Şərq hekayətləri" fəlsəfi və dini məzmununa görə mürəkkəb əsərlər sayılır. Bundan əlavə, həmin əsərlər indiyədək başqa dillərə tərcümə edilərək işıq üzü görməyib və odur ki, digər tərcüməçilərin yaradıcılıq təcrübəsindən əxz etmək imkanım olmayıb. Əgər, V. Krevenin əsərləri onun sağlığında dünyanın müxtəlif dillərinə tərcümə edilsəydi, yəqin ki, o, ədəbiyyat üzrə Nobel mükafatı ilə təltif olunardı. Bununla yanaşı, "Şərq hekayətləri"nin mövzu baxımdan Buddizm, İslam, Zərdüşt, Tövrat və İncil dinləri ilə bağlı olması, həm də süjet xətlərinin Şərq fəlsəfəsi və mifologiyasından qaynaqlanması, bu əsərlərin sovet dövrünün senzura çərçivəsindən kənara çıxmasına "maneə olurdu". V. Krevenin "Şərq hekayətləri" orijinalın dilində mənsur şeirlər kimi səslənir. Bu əsərlər daxili qafiyələr sistemi, dalğavari ifadə üsulu, kiçiltmələr və əzizləmələrlə fərqlənir. Bu

cür ədəbi üsul və bədii ifadə forması tərcümə zamanı xüsusi diqqət və ədəbi adekvatlıq tələb edir. Türk dilləri sistemi hind-avropa dilləri sistemindən fərqli olduğuna görə, "Azəristan ölkəsi" kitabının Azərbaycan dilinə tərcüməsi zamanı mətnlərin həcmi bir qədər artıb.

– Tərcümə zamanı sənin yaradıcılıq işini yüngülləşdirən amillər olubmu?

– Tərcümə əsnasında Vintsas Krevenin əsərlərində bənzərsiz Azərbaycan koloritini əks etdirən milli rəngləri, doğma təbiət lövhələrini və şairanə mənzərələri dərhal tanıdım, ölkənin ab-havasını bir daha yaxından duydum və landşaftını gördüm. Azərbaycanlıların həyat tərzi, ənənə və ayinləri təsvir olunan parçaları çevirərkən özümü məsud hiss edirdim, o anlarda V. Kreve sanki mənə bələdçilik edir və əlimdən tutub məni doğma yerlərə aparırdı. V. Kreve ilk qeyri-azərbaycanlı yazıçıdır ki, bizim ölkəni Azəristan adı altında təsvir edib. O, həm də dünyada ilk xristian etiqadlı müəllifdir ki, "Şərq hekayətləri"ndə ("Azəristan ölkəsi", "Qadın") Litva ədəbiyyatına Qurandan ayələr gətirib.

– Tərcümə zamanı məsləhətlərə ehtiyac duyurdunmu?

– Arxaik söz və ifadələr, Litva dilinin Dzukiya dialekti ən çox çətinlik yaradan amillərdən idi. Dəyərli məsləhətlər üçün litvalı yazıçılara – Algirdas Potsyusa, Alfonsas Bukontasa, Sigitas Gedaya və Yonas Velivisə təşəkkür edirəm.

– Vintsas Kreve bu kitabın tərcüməsi üzərindən özünün gənclik şəhəri Bakıya qayıtdı. "Azəristan ölkəsi" Azərbaycanda necə qarşılandı?

– Azərbaycanın akademik ictimaiyyətində Vintsas Kreve gəlişi hər vaxt gözlənilən şəxsiyyətdir. "Azəristan ölkəsi" barədə, ələlxüsus onun "Bolşeviklər" siyasi oçerki haqqında internet qəzetlərdə xeyli rəy və fikirlər dərc olunub. Mədəniyyət hadisələrinə səhifələrində geniş yer ayıran "525-ci qəzet"də bu kitab və onun müəllifi barədə mənim dörd məqaləm dərc olunub. Eşitdiyimə görə V. Krevenin "Azəristan ölkəsi" əsərini türk dilinə də çevirmək istəyirlər. Çox şadam ki, azərbaycanca danışan V. Kreve-Mitskəviçyus təxminən yüz ildən sonra özünün gənclik ölkəsinə qayıdıb.

Vilnüs, "Literatūra ir menas" həftəliyi, 22 oktyabr 2010-cu il, № 39.
Bakı, "525-ci qəzet", 8 dekabr 2010-cu il, № 224.

Vaqif YUSİFLİ
Filologiya elmləri doktoru,
Tənqidçi-ədəbiyyatşünas

AZƏRBAYCANA MƏHƏBBƏTLƏ

V. Krevenin "Azəristan ölkəsi" kitabı haqqında

Bizim ədəbiyyatşünaslıqda Azərbaycan-Pribaltika ədəbi əlaqələrindən kifayət qədər söz açılıb, bu sahədə praktiki işlər də görülüb. Hörmətli professor Pənah Xəlilovun (1925–2019) bir vaxtlar ali məktəblər üçün nəşr etdiyi "SSRİ xalqları ədəbiyyatı" ikicildlik dərsliyində Latviya, Litva və Estoniya ədəbiyyatı haqqında geniş təsəvvür yaradan elmi oçerklərlə tələbə ikən tanış olmuşuq. Filologiya elmləri doktoru Vaqif Arzumanlının (1947–2014) da bu sahədə xidmətləri çoxdur. Lakin elə güman edilməsin ki, Azərbaycan–Pribaltika ədəbi əlaqələrinin bütün aspektləri tədqiq edilib, əlbəttə, hələ toxunulmamış ya da ötəri tədqiq olunmuş mövzular qalmaqdadır.

Bu yaxınlarda görkəmli Litva yazıçısı Vintsas Krevenin "Azəristan ölkəsi" kitabı çapdan çıxıb. Litva yazıçısının beş hekayəsi toplanan bu kitaba Litva Azərbaycanlıları Cəmiyyətinin sədri Mahir Həmzəyev geniş, deyərdim, bir tədqiqat səviyyəsində ön söz yazıb. Kitabdakı əsərlərin tərcüməçisi də odur. Ön sözdən və tərcümələrdən hiss olundu ki, Mahir Həmzəyev Litva ilə, onun ədəbiyyatı, dili və mədəniyyəti ilə çox sıx bağlı olan bir ziyalıdır. Elə bu gərəkli təşəbbüsdən görünür ki, uzun illər bizə dost olan bir ölkədə yaşayan Mahir Litva Azərbaycanlıları Cəmiyyətinin sədri kimi necə faydalı işlər görüb...

Hələlik bu kitabda toplanan hekayələr barədə söhbəti bir az sonraya saxlayıb belə bir sual verək: Biz – Azərbaycan ədəbiyyatşünasları və oxucuları çoxəsrlik Litva ədəbiyyatı haqqında nə bilirik, hansı təsəvvürə malikik? Təbii ki, huşyar oxucularımız Litva ədəbiyyatı dedikdə, ilk növbədə, XX əsrin böyük şairlərindən biri – Eduardas Miejelaytisi (1919–1997) xatırlayacaqlar. Mənim fikrimcə, Azərbaycan ədəbiyyatında Rəsul Rza hansı yeri tutursa, Litva ədəbiyyatında da E. Miejelaytis o yeri tutur. Hətta bu şairlərin yaradıcılığı arasında oxşarlar, paralellər diqqəti cəlb edir. Hər iki şair keçən əsrin 60-cı illərində poeziyada yeni bir təmayülün – modernizmin əsasını qoymuşlar. Onlar "İnsan"

1. Prof. P. Xəlilovun "SSRİ xalqları ədəbiyyatı" ikicildlik dərsliyi. Bakı, "Maarif", 1975–1977.
2. V. Arzumanovun "Azərbaycan-Litva ədəbi əlaqələri" kitabının görüntüsü. Bakı, "Yazıçı", 1979.

silsiləli şeirlərilə XX əsr poeziyasında fəlsəfi lirikanın daha da vüsət qazanmasında böyük rol oynamışlar. Lakin Litva ədəbiyyatını təkcə bizim az-çox tanıdığımız E. Miejelaytisin əsərləri ilə məhdudlaşdırmaq olmaz. Bu ədəbiyyatın Kristionas Donelaytis (1714–1780), Antanas Strazdas (1763–1833), Antanas Baranauskas (1835–1902), Simonas Stanyaviçyus (1799–1848), Vintsas Kudirka (1859–1899), Yuliya Jemayte (1845–1921), Yonas Bilyunas (1879–1907), Yulyus Yanonis (1896–1917), Vitautas Montvila (1902–1941), Salomeya Neris (1904–1945), Pyatras Svirka (1909–1947) və başqa görkəmli nümayəndələri vardır. (Bu barədə Pənah müəllimin dərsliyində geniş məlumatlarla qarşılaşa bilərsiniz).

XX əsr Litva ədəbiyyatının görkəmli nümayəndələri sırasında Vintsas Kreve-Mitskəviçyusun da öz yeri var. "Azəristan ölkəsi" kitabına yazdığı ön sözdə M. Həmzəyev V. Krevenin həyat və yaradıcılığı haqqında kifayət qədər məlumat verir. Ona görə də bu haqda ətraflı söz açmağı lazim bilmirik. Qısaca onu söyləmək olar ki, V. Krevenin həyatı faciəli və dramatik hadisələrlə doludur. O, zəngin biliyə malik bir ziyalı idi, mükəmməl təhsil görmüşdü. V. Krevenin həyatının 11 ili Bakıda keçmişdir və oxuculara təqdim edilən "Azəristan ölkəsi" kitabında olan hekayələr həmin illərin təəssüratlarını əks etdirir. O, böyük ədibimiz Abdulla Şaiqin yaxın dostu olmuşdur. Onlar Bakı 1-ci realnı məktəbində müəllimlik etmişlər. A. Şaiq ömrünün son illərində qələmə aldığı "Xatirələrim" kitabında litvalı həmkarı haqqında yazır:

"V. Krevenin bizim gimnaziyaya gəldiyi ilk gün yaxşı yadımdadır. Hamı ona maraqla baxır, şagirdlər isə bir yerə toplaşıb onun haqqında danışırdılar.

[...] Zaman keçdikcə biz daha yaxın dost olduq. Onun bir xasiyyəti mənim çox xoşuma gəlirdi. O, adamın milli qürurunu tapdalayanlara qarşı, xüsusən o vaxt azərbaycanlılara olan pis münasibətə, onları "tuzemnı" hesab edənlərə qarşı çox amansız idi. O, bütün bunları alçaq hərəkət kimi qəbul edir, belə münasibətlərlə barışmır və bu hadisələri "qeyri-etik" hərəkət kimi qiymətləndirirdi. Beşinci sinifdə istedadlı şagirdim Ruhulla Axundov (sonralar məşhur inqilabçı, görkəmli siyasi və mədəni xadim, ədəbiyyatçı, publisist olmuşdur) rus ədəbiyyatı üzrə gözəl inşalar yazırdı. Mitskəviçyus həmişə Ruhulla Axundovla maraqlanar və mənə onun böyük ədəbi istedad olduğunu, ona xüsusi diqqət yetirməyi xatırladardı. O biləndə ki, mən bədii yaradıcılıqla da məşğul oluram, bu, bizim münasibətlərimizi daha da yaxınlaşdırdı. Yeri gəlmişkən qeyd edim ki, o, Şərq folkloru, etnoqrafiyası və məişəti ilə çox maraqlanırdı, tez-tez şagirdlərindən xalq əfsanələri, nağılları və adət-ənənələri haqqında soruşardı..."

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra V. Kreve ailəsiylə birgə ölkəmizi tərk edir. Öz vətəninə qayıtdıqdan sonra isə Litva Respublikasının dövlət və hökumət işlərində çalışır, universitetlərdə öz ixtisası üzrə – slavyan və dünya ədəbiyyatlarından mühazirələr oxuyur. Litva faşistlər tərəfindən işğal olunandan sonra isə təqiblərdən yayınmaq üçün (onun həyat yoldaşı yəhudi idi, təqiblər də buna görə idi) Qərbə mühacirət edir. O, ABŞ-a köçür və 1954 cü ildə elə oradaca vəfat edir. Sonralar onun nəşinin qalıqları Vətəninə gətirilir.

İndi keçək əsas mətləbə – V. Krevenin Azərbaycan dilinə tərcümə olunmuş "Azəristan ölkəsi" kitabına. M. Həmzəyev yazır ki, "Azəristan ölkəsi" hekayəti Azərbaycan tarixinə həsr olunan bir bədii əsər kimi maraq doğurur. Onu da qeyd edir ki, bu hekayətdə biz çox konkret və dəqiq tarixi faktlarla üzləşmirik və tarix burada hətta qismən rəvayət halını alır. Əsərdə Azərbaycanın islamdan sonrakı tarixinin bir neçə mərhələsi haqqında məlumat əldə edirik.

Amma ilk növbədə, gəlin, əsərin janrını müəyyənləşdirək. Bizim fikrimizcə, bu, nağıl üslubunda yazılmış hekayədir. Nağıl təhkiyəsi əvvəldən sonadək davam edir, oxucu burada nə əsərin qəhrəmanı sayıla biləcək konkret bir obraz, nə də davamlı bir süjet xətti ilə rastlaşır. Adətən, hər hansı hekayədə müəyyən əhvalat (harada başlanmağı və harada qurtarmağı bilinən) nəql edir, bu əhvalatda təsvir olunan obrazlar diqqəti cəlb edir. "Azəristan ölkəsi" sadəcə olaraq, müəllifin Azərbaycan haqqında, onun keçmişi və hazırkı *(əsrin əvvəlləri nəzərdə tutulur – V. Y.)* durumu barədə eşitdikləri bilgilərdir ki, bu bilgiləri də nağıl üslubunda qələmə almışdır.

Əsərdə iki əsas xətt diqqəti cəlb edir: birincisi; dini dəyərlərin təbliğidir. Müəllifin İslam dininə, Allahımıza, peyğəmbərimizə rəğbəti hər bir səhifədə hiss olunur: "Bir Allah vardır və Məhəmməd də Onun həqiqi peyğəmbəridir, qoy hər ikisinin mərhəmət və şərəfi əsrlərdən-əsrlərə yaşasın və onların adına

hörmət etməyən hər kəs isə məhv olsun. İndi burada, adını doğrudan da Allaha ibadət edən müsəlman qoyanlar da daxil olmaqla, yaramaz adamlar yaşayırlar. Onlar vicdanlarını unutmuş və abır-həyanın nə olduğunu bilmirlər, nə də Onun müqəddəs adına hörmət edirlər".

İstər "Azəristan ölkəsi", istərsə də digər hekayələrdə (məs: "Qadın") Allaha, Məhəmməd peyğəmbərə inam böyükdür və bu sətirləri oxuyarkən oxucuya elə gəlir ki, o, Şərqi, İslam dinini çox gözəl bilir: "Həqiqətdə bir Allah vardır və Məhəmməd də onun həqiqi peyğəmbəridir. Allahdan başqa bir Allah yoxdur və Məhəmməd də onun bircə elçisidir".

Allahın buyurduğundan kənara çıxmaq, ona ibadət etməmək insanlara baha başa gəlir, qarşıda yeni müsibətlər, bəlalar gözlənir. Əsərdəki ikinci xətt Xeyir və Şərin, insanlıqla, humanizmlə bunun əksi olan qüvvələrin mübarizəsidir. İnsanlar Allahın göstərdiyi yoldan üz döndərəndə, başları kefə, əyləncəyə, haram işlərə qarışanda, vicdanlarını unudanda Allah onları cəzalandırmaq üçün Şeytanı Azəristan ölkəsinə göndərir. Şeytan insanlar arasında gəzib-dolanır, gah tacir, gah da molla sifətində onları dünya nemətlərinə aludə olmağa şirniklendirir. Beləliklə, zaman keçdikcə insanlar Allahı və onun əsl elçisi Məhəmmədi yaddan çıxarır, müqəddəs Quranın öyrətdiyi kimi yaşamağı, şəriət qaydalarına riayət etməyi unudurlar. Əsərdə bu proses tez-tez təkrar olunur: Azəristan ölkəsinin sakinləri hər dəfə Allahın buyurduğundan kənara çıxanda, dinc və sakit həyat tərzini pozan əməllərə meyl etdikdə daha qorxulu bəlalarla üzləşirlər.

Budur, yeni bir bəla: "Əzrayıl uzun müddət fikirləşir, Azəristan ölkəsinin oğulları üçün hansı bir bədbəxtliyi gətirsin deyə, çox götür-qoy edir, nəhayət, bir fəlakət düşünüb tapır. Azəristan ölkəsinə xalis şeytan oğlunu, yer üzünün əsil murdar və alçaq varlığını, ürəyi qurdla və kin-küdurətlə dolu, dırmıxa oxşayan əliylə hər şeyi qamarlayıb özünə yığan ermənini göndərir. Azəristan ölkəsinə erməni öz arşını, öz tərəzisi və qapanı, öz əyarı və çəki daşlarıyla – bir sözlə, öz saxta meyarlarıyla gəlir. Hər kəs üçün nə ölçürsə, onu amansızcasına aldadır, kim üçün nə çəkirsə, ona dəhşətli ziyan vurmağa başlayır. Onlar əkəndə yox, biçəndə yox, yeyəndə isə tikənin böyüyünü istəyir, yalnız yad əməyinin hesabına yaşayır, haram çörəklə dolanırlar. Nə vaxt ki, ermənilər qeyri-ermənilərlə duz-çörək kəsir, kirvəlik edir, başqalarına guya mehriban gözlə, nəvazişlə baxıb ağızlarından xoş sözlər çıxarırdılar, o vaxt onlar, artıq həmin adamlara nə isə bir pislik, yamanlıq etmək barədə düşünürdülər. Lakin Azəristanın bədbəxt oğulları erməni hiyləsini çox gec başa düşdülər".

Təsəvvür edin, bu sözlərin müəllifi müsəlman olmayan bir litvalıdır və təbii ki, bu litvalı on bir il Bakıda yaşayıb və ermənilərin nə cür millət olduğunu, ermənilyin mahiyyətini bir çoxlarından fərqli olaraq tez anlayıb.

Bu əsər müstəqil Litvada dəfələrlə çap olunub (Azərbaycan dilində isə ilk dəfə 2006-cı ildə "Ulduz" jurnalının yanvar sayında işıq üzü görüb). Əsərin tərcüməçisi M. Həmzəyev kitaba yazdığı ön sözdə belə bir faktı da vurğulayır ki, V. Kreve erməni-azəri məsələsində həmişə ardıcıl mövqedən çıxış edib, məsələn, ona təklif edirlər ki, erməni əlifbasının 1500 illik yubileyi münasibətilə bir məqalə yazsın, ermənilər "orijinal mədəniyyətə malik olan qədim xalq kimi" təqdim eləsin, V. Kreve bu təklifdən imtina edir.

Əsərdə ermənilərlə yanaşı, rusların da Azəristan ölkəsinə gəlməsi, xalqa olmazın zülmlər etməsi də bir neçə abzasda nəzərə çarpdırılır:

"Onda Allah yenidən qəzəblənərək Azəristan oğullarından küsdü və onları yer üzündəki gavurların ən acıqlısı və qudurğanı, ən qəddarı və amansızı, bütün gavurların gavuru olan, yırtıcı və qaniçən urus gavurunun əsarətinə verdi. Urusların sayı göydəki ulduzların, dəniz sahilindəki qum dənələrinin sayı qədər idi. Onlar çəyirtkə sürüsü kimi ölkənin canına daraşdılar. Ayaqları dəyməmiş bir yer qoymadılar".

Əsər pessimist sonluqla başa çatır. Müəllif yazır: "O vaxtdan indiyədək Azəristanın oğulları iztirablar və ufultular içində ah-aman edə-edə kölelik edirlər, onları yağıların pəncəsindən xilas edə bilənsə yoxdur".

Qeyd edək ki, V. Krevenin Bakıda yaşadığı illərdə Azərbaycan rus imperiyasının əsarətində idi. Sonra qısa müddətdə olsa da, müstəqil Azərbaycan Demokratik Respublikası yarandı və V. Kreve bu respublikanı ürəkdən alqışladı, Litva dövlətinin Azərbaycan Respublikası ilə diplomatik əlaqələrinin qurulmasında böyük rol oynadı. O, Litvanın Azərbaycanda ilk konsulu təyin olunur. Sonra isə Sovet imperiyası yaradıldı. V. Kreve bu quruluşu arzulamırdı və bu səbəbdən də, Bakını tərk etdi.

Onun "Bolşeviklər" məqaləsi də antibolşevik ruhda yazılmışdır. Məqalədə Azərbaycanda sovet hakimiyyəti qurulmasından öncəki hadisələr və çevrilişin ilk ayları təsvir olunur. Açıqca hiss olunur ki, V. Krevenin bolşeviklərə heç bir rəğbəti yoxdur və o, XI Ordunun Bakıya hücumunu işğalçılıq hesab edir, Litvanı da belə bir təhlükəni gözləyəcəyindən narahatlıq keçirir.

V. Krevenin kitaba daxil edilmiş "Qadın", "Kralın ən yaxşı şərabını saxladığı qab" və "Çarpışan qüvvələr" yazıları da "Şərq hekayələri" silsiləsindəndir. "Azəristan ölkəsi" əsərinə aid olan nağıl təhkiyəsi, dini və folklor materiallarına istinad bu hekayələrdə də aydın nəzərə çarpır. Hiss olunur ki, Litva yazıçısı Azərbaycan folklorunu da yaxşı mənimsəmişdir. Lakin o, folklora və dini rəvayətlərə müraciət edərkən orijinal yol seçmiş, təsvir etdiyi hadisələrə fəlsəfi rəng qatmağa çalışmışdır.

"Qadın" hekayəsinin məğzi bundan ibarətdir ki, rəhmli və mərhəmətli Allah "əşrəfül-əşya" – İnsan yaradır, bu insanı yer üzündə məskunlaşdırır ki, orada

hökmranlıq etsin, dünyanı gözəlləşdirsin. Allah özünün xəlq etdiyi bu varlığı heç nədən məhrum eləmir, ona uca dağlar, yamyaşıl ağaclar, mavi dənizlər bəxş edir. Təbiət onun üzünə gülümsəyir, insan da Allaha ibadət edir. Şeytan isə İnsana paxıllıq edir, Allahın sevimlisinə çevrilmiş bu məxluqu yoldan çıxarmaq məqsədi ilə ona xidmət üçün Qadın göndərir və İnsan... günaha batır. Bu isə Allaha xoş gəlmir. Beləliklə, bundan sonra Yer üzündəki bütün müsibətlər, çarpışmalar, həyat mübarizələri başlayır.

"Çarpışan qüvvələr" hekayəsində də bizə məlum olan Hörmüz və Əhrimən qarşıdurması nəql olunur.

V. Krevenin "Şərq hekayələri" Şərqə, İslam dünyasına, Azərbaycana böyük məhəbbətin ifadəsidir və nə yaxşı ki, biz bu əsərlərlə gec də olsa, tanış olduq. Tanış olduq və gördük ki, Azərbaycana sevgilərin sərhədi çox genişdir, hüdudsuzdur...

Bakı, "525-ci qəzet", 2 fevral 2011-ci il, № 19.

VİLNÜS – BAKI: MƏDƏNİYYƏT KÖRPÜLƏRİ

V. Kreveyə həsr olunmuş beynəlxalq elmi konfransdan qeydlər

1988-ci ildə qurulmuş Litva Azərbaycanlıları Cəmiyyətinin fəaliyyət istiqamətlərindən biri Litva–Azərbaycan ədəbi, mədəni, elmi və ictimai-siyasi münasibətlərində müxtəlif dövrlərdə mühüm əlaqələr yaratmış və onları yüksək dərəcədə zənginləşdirmiş elm, mədəniyyət və incəsənət xadimlərinin, müstəqil Litva–Azərbaycan dövlətlərarası münasibətlərinin qurulması və inkişaf etdirilməsi sahəsində mühüm xidmətlər göstərmiş şəxslərin həyat və fəaliyyətinin tarixi ildönümlərinə həsr edilmiş layihələr vasitəsi ilə Litvada milli-mənəvi dəyərlərimizin təbliğinə və Azərbaycan haqqında geniş bilgilərin yayılmasına yönəlmiş tədbirlərin keçirilməsi ilə bağlıdır.

Çoxşaxəli Litva–Azərbaycan əlaqələri tarixində bu baxımdan müstəsna xidmətləri olmuş şəxsiyyətlərdən biri məşhur Litva yazıçısı və dramaturqu Vintsas Kreve-Mitskəviçyusdur.

Litva Azərbaycanlıları Cəmiyyətinin təşəbbüsü ilə 26 oktyabr 2012-ci ildə Litva paytaxtında Vintsas Krevenin anadan olmasının 130 illik yubileyinə həsr edilmiş "Vilnüs–Bakı: mədəniyyət körpüləri" mövzusunda beynəlxalq elmi konfrans keçirildi. Konfransın keçirilməsi ilə bağlı Litva Seyminin Kanselyariyası xüsusi qərar qəbul etdi. Tədbir Seymin ən möhtəşəm zallarından biri olan Litva Respublikasının Konstitusiya zalında baş tutdu.

Konfransdan görüntü (sağdan): LEA-nın prezidenti, akademik Valdemaras Razumas, LEA-nın həqiqi üzvü, Vilnüs Universiteti Litva ədəbiyyatı kafedrasının professoru Viktoriya Dauyotite, Litva Yazıçılar Birliyinin "Metai" ədəbi jurnalının şöbə müdiri, Vilnüs Universiteti Litva ədəbiyyatı kafedrasının dosenti Regimantas Tamoşaytis, Azərbaycan–Baltik mədəni əlaqələrinin tədqiqatçısı M. Həmzəyev. Vilnüs, 26 oktyabr 2012-ci il.

Tədbirdə Azərbaycan Respublikasının Litvadakı səfirliyinin 1-ci katibi Atəş Qırxıyev fövqəladə və səlahiyyətli səfir Həsən Məmmədzadənin konfrans iştirakçılarına ünvanladığı xüsusi müraciəti səsləndirdi, tədbir iştirakçılarını Səfirin adından salamlayaraq onlara Böyük elçinin xoş arzularını yetirdi. Litva Respublikası Seyminin sədri İrena Degutiene və Litva Respublikasının Mədəniyyət naziri Arunas Gelunasın konfransa ünvanladıqları xüsusi təbrik məktubları oxundu.

Konfransda Litvanın bir sıra millət vəkilləri, Litva Respublikası Prezidentinin Maarif, təhsil və mədəniyyət məsələləri üzrə baş müşaviri Virginiya Budiene, Seymin Maarif, elm və mədəniyyət komitəsinin, İnsan hüquqları və Xarici işlər komitələrinin təmsilçiləri, Parlamentin beynəlxalq əlaqələr departamentinin rəhbərliyi, Litva Respublikası Baş nazirinin kanselyariyasında çalışan dövlət qulluqçuları, Litva Respublikası Mədəniyyət nazirliyi və Xarici işlər nazirliyinin məsul əməkdaşları, Macarıstanın Litvadakı səfiri Zoltan Peçe, eləcə də Türkiyə, Rusiya, Ukrayna, Gürcüstan dövlətlərinin Litvada akkredite olunmuş diplomatik korpusun təmsilçiləri, Litva Respublikasının İnsan hüquqları üzrə Ombudsmanı və UNESCO üzrə Litva Milli Komissiyasının səlahiyyətli nümayəndələri, Litvanın rayon və şəhər bələdiyyə strukturlarının təmsilçiləri, Latviyadan gəlmiş qonaqlar, Litva Elmlər Akademiyasının həqiqi və müxbir üzvləri, Litva ədəbiyyatı və folkloru institutunun struktur bölmələrinin rəhbərləri və aparıcı elmi işçiləri, Vilnüs Universiteti Litva ədəbiyyatı kafedrasının professorları, Mikolas Römeris adına Vilnüs hüquq universiteti və Böyük Litva knyazı Vitautas adına Kaunas universitetinin dosentləri, burada

Litva Seyminin Konstitusiya zalının görüntüsü konfrans zamanı. Vilnüs, 26 oktyabr 2012-ci il.

təhsil alan azərbaycanlı tələbələr, mədəniyyət, incəsənət və maarif xadimləri, yazıçı, tarixçi, pedaqoq və politoloqlar, bədii tərcümə mütəxəssisləri, nəşriyyat əməkdaşları, muzey və kitabxana işçiləri, Litva milli icmalarının və digər QHT rəhbərləri, iş adamları, KMV-nin təmsilçiləri iştirak edirdilər.

Konfrans proqramı çərçivəsində Seymdə Vintsas Krevenin Azərbaycandakı həyat və fəaliyyətinə aid sənədli ekspozisiyanın və "Litva–Azərbaycan ədəbi körpüləri" mövzulu kitab sərgisinin açılışı oldu. Azərbaycan ədəbiyyatından Litva dilinə və Litva ədəbiyyatından Azərbaycan dilinə tərcümə olunub müxtəlif illərdə Vilnüsdə və Bakıda çap edilmiş kitablar xüsusi stendlərdə sərgilənmişdi.

Öncə konfrans iştirakçılarına Azərbaycanın keçmişi, dövlətçilik tarixi, təbiəti, milli geyimləri və milli mətbəxi, memarlıq abidələri və dini məbədləri, xalçaları, musiqi alətləri və xalq rəqsləri haqqında, eləcə də ölkəmizin iqtisadiyyatı barədə qısametrajlı video-təsvirlər nümayiş etdirildi.

Sonra konfransın elmi hissəsi başlandı. Litva Elmlər Akademiyasının prezidenti, görkəmli akademik və professor Valdemaras Razumas, Litva Elmlər Akademiyasının həqiqi üzvü, filologiya elmləri doktoru, Vilnüs Universiteti Litva ədəbiyyatı kafedrasının professoru, akademik Viktoriya Dauyotite-Pakeriene, Varena rayonu Vintsas Kreve adına Merkine qəsəbə gimnaziyasının Litva dili və ədəbiyyat müəllimi, pedaqoji metodika mütəxəssisi Rita Çernyauskiene, Litva Respublikası Mədəniyyət nazirinin müşaviri, tarixçi və etnoloq alim, Qarabağ münaqişəsi mövzulu tarixi və politoloji publikasiyalar müəllifi İmantas Melyanas, V. Krevenin Vilnüsdəki mənzil muzeyinin direktoru Vladas Turçinaviçyus, Litva Yazıçılar İttifaqının *"Metai"* ədəbi-bədii jurnalının şöbə müdiri, Vilnüs Universiteti Litva ədəbiyyatı kafedrasının dosenti, filologiya elmləri doktoru Regimantas Tamoşaytis, Litva Seymi Sədrinin xarici siyasət məsələləri üzrə müşaviri, Vilnüs Universiteti Beynəlxalq münasibətlər və siyasi elmlər institunun müəllimi, sosial elmlər doktoru Laurinas Kasçyunas, Litva Milli İcmalar Şurasının sədri, Azərbaycan–Baltik mədəni əlaqələrinin tədqiqatçısı Mahir Həmzəyev məruzələrlə çıxış etdilər.

V. Krevenin həyat və yaradıcılığının Bakı dövrünə (1909–1920) aid elmi məruzələr dinlənildi. Çıxış edənlər onun ədəbi, elmi, pedaqoji, mədəni və ictimai-siyasi fəaliyyətində Azərbaycanla bağlı vacib amillərin çox mühüm rol oynadığını göstərdilər, Azərbaycan ədəbiyyatı və mədəniyyətinin, həmçinin Şərq fəlsəfəsinin V. Krevenin ədəbi və elmi yaradıcılığına göstərdiyi böyük təsir barədə yeni araşdırmalar və ümumiləşdirmələr təqdim etdilər.

V. Krevenin Baltik xalqları ədəbiyyatı tarixində ilk dəfə olaraq Buddizm, Zərdüşt, Tövrat, İncil və İslam dinləri mövzusunda yazdığı bədii-fəlsəfi əsərlər ("Pratyekabudda", "Çarpışan qüvvələr", "Qadın", "Səma və Yer oğulları" və b.)

barədə analitik çıxışlar edildi, onun Avropa ədəbiyyatına ilk dəfə olaraq Qurandan bəzi ayələri gətirməsi faktı xüsusilə vurğulandı.

Vintsas Kreve və Hüseyn Cavid yaradıcılığında yer almış ədəbi paralellərə və tipoloji oxşarlıqlar mövzusuna toxunuldu. Vurğulandı ki, litvalı və azərbaycanlı yazıçının "Qadın" və "İblis" adlı əsərlərində qaldırılan oxşar bəşəri problemlər, oxşar ideyalar və fəlsəfi suallar, bunların bədii həllini bənzər süjet və obrazlarla əks etdirmək baxımından, insanlığı daima düşündürən həyati suallara oxşar üsul və ədəbi vasitələrlə cavab tapmaq nöqteyi-nəzərindən bu iki dahi sənətkarı bir-birinə ruhən yüksək dərəcədə yaxınlaşdırır.

V. Krevenin Azərbaycan tarixi və təbiəti, milli-mənəvi dəyərləri, məişəti və dini adət-ənənələri mövzusunda yazdığı "Azəristan ölkəsi" adlı hekayət əsasında hazırlanmış məruzədə digər dəyərlərlə yanaşı, XIX əsrdə Qafqazda aparılmış məcburi miqrasiya prosesləri, ermənilərin Azərbaycana köçürülmələri, tarix boyu onların yerli əhalini doğma yurdundan necə sıxışdırıb çıxartmaları, erməni köçkünləri tərəfindən yerli xalqın var-dövlətinin hansı hiyləgərliklərlə ələ keçirilməsilə bağlı həmin əsərdə yer alan və inandırıcı bədii boyalarla təsvir olunan səhnələr barədə danışıldı və mühüm tarixi əhəmiyyətli bu məsələlər Qarabağ münaqişəsi kontekstində işıqlandırıldı. Məruzədə həmçinin Rusiya müəlliflərinin (A. Qriboyedov, S. Qlinka, V. Mayevski, A. Frenkel, V. Veliçko, N. Şavrov və b.) XIX əsrdə və XX əsrin əvvəllərində çapdan çıxmış və Qarabağın tarixinə aidiyyəti olan əsərləri ilə V. Krevenin "Azəristan ölkəsi" hekayəti arasındakı mövzu yaxınlığı və digər komparativistik məqamlar ilk dəfə olaraq Litva akademik ictimaiyyətinin diqqətinə çatdırıldı.

Çıxışlarda V. Krevenin 1919–1920-ci illərdə Bakıda Litva dövlətinin Cümhuriyyətdəki konsulu olaraq göstərdiyi diplomatik fəaliyyət müstəqil Litva–Azərbaycan dövlətlərarası münasibətlərinin təşəkkül tapması və Paris Sülh Konfransında bu ölkələrin müstəqilliyinin *de facto* tanınması baxımından tarixi əhəmiyyət daşıyan amil kimi dəyərləndirildi.

1920-ci il 28 aprel çevrilişi barədə V. Krevenin "Bolşeviklər" adlı siyasi oçerki əsasında hazırlanmış məruzədə Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğal edilməsi prosesində Anastas Mikoyan başda olmaqla, erməni daşnak qüvvələrin qırmızı işğalçılarla əlbir olub həyata keçirdikləri dağıdıcı fəaliyyəti bir daha təsdiq edən yeni faktlar açıqlandı.

Əsas məruzələrdən sonra Konfransla bağlı ümumiləşdirmələr edildi, təklif və tövsiyələr səsləndi. Diskussiyalarda Latviya Azərbaycanlıları "Ocaq" Cəmiyyətinin sədri, Riqa Klassik gimnaziyasının direktoru Roman Əliyev, publisist və nasir, sosial elmlər doktoru Yonas Velivis (1940–2014), Mikolas Römeris adına Vilnüs hüquq universitetinin dosenti, siyasi elmlər doktoru Adas Yakubauskas, Litvanın Azərbaycandakı sabiq səfiri, türkoloq alim, Azərbaycan

ədəbiyyatının Litva dilinə tərcüməçisi, humanitar elmlər doktoru Halina Kobetskayte və digərləri iştirak etdilər.

Bu diskussiyalarda xüsusilə qeyd olundu ki, V. Krevenin zəngin fəaliyyətinin Bakı dövrü, onun burada xalqımızın qədim tarixi və zəngin milli mənəvi dəyərlərindən yararlanaraq yaratdığı parlaq sənət nümunələri Azərbaycan və Litva arasında uzanan bir möhtəşəm körpü olaraq bu gün də xalqlarımız arasındakı qarşılıqlı anlaşma ənənələrinin genişlənib zənginləşməsinə və yeni tarixi gerçəkliklər dönəmində inkişaf edən Azərbaycan–Litva ictimai-siyasi və mədəni münasibətlərinin optimallaşdırılmasına xidmət edir, iki azad xalqın bir-birinə mənən daha da yaxınlaşmasına öz səmərəli təsirini göstərir.

Natiqlər belə bir fikri də vurğuladılar ki, yüzillik tarixə söykənən və dərin köklərə əsaslanan Litva–Azərbaycan əlaqələri V. Krevenin verdiyi dəyərli töhfələr sayəsində həm məzmun və ruh, həm də bəşəri ideyaları və taleyüklü mövzuları ehtiva etmək baxımından, münasibətləri qarşılıqlı anlaşma, hörmət və etimad üzərində qurmaq, digər inanc və əqidələrə dözümlü yanaşmaq nöqteyi-nəzərindən müasir dövrdə beynəlxalq münasibətlərdə gerçəkləşməkdə olan sərhədlərsiz Avropa və yeni qonşuluq münasibətləri konsepsiyasına tam uyğun gəlir. Bununla bərabər, bu əlaqələr özündə Şərq-Qərb mədəni əməkdaşlığının gücləndirilməsi və getdikcə qloballaşan dünyada mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsi üçün digər xalqlara nümunə ola bilən çox münbit bir zəmin daşıyır.

Konfransın bədii hissəsində tanınmış teatr və kino aktyoru Dalya Mixeleviçyute V. Krevenin "Azəristan ölkəsi" əsərindən bir parçanı oxudu, sonra V. Krevenin həmkarı Abdulla Şaiqin "Hamımız bir günəşin zərrəsiyik" şeirini və Xalq şairi Rəsul Rzanın Litva mövzulu "Dostuma məktub" əsərini deklamasiya etdi. Litvanın əməkdar artisti, ünlü teatr aktyoru Tomas Vaysieta isə V. Krevenin Azərbaycan folkloru motivləri əsasında yaratdığı "Qartal haqqında nəğmə" əfsanəsini ifa etdi.

Bu konfrans Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Litva Azərbaycanlıları Cəmiyyəti, Litva Respublikası Seyminin Maarif, təhsil və mədəniyyət komitəsi, Litva Elmlər Akademiyası və Litva Milli İcmalar Evi tərəfindən təşkil olunmuşdu. 125 nəfər iştirakçının qatıldığı bu tədbir Litva Seyminin televiziyası ilə canlı yayımlandı. Litva Milli Televiziyası tərəfindən konfrans barədə hazırlanmış xüsusi videoreportaj 30 oktyabr 2012-ci il tarixində efirdə getmiş "Sabahınız xeyir" verilişində Litva ictimaiyyətinə təqdim olundu. Litvanın 20-dən artıq kütləvi informasiya vasitələri konfrans haqqında ədəbi və publisisitik yazılar dərc etdilər, foto və video-görüntülər yayımladılar.

Bakı, "525-ci qəzet", 6 noyabr 2012-ci il.

SƏFİR HƏSƏN MƏMMƏDZADƏNİN KONFRANS İŞTİRAKÇILARINA TƏBRİKNAMƏSİ

Hörmərli xanımlar və cənablar,
Dəyərli konfrans iştirakçıları!

Litvanın Azərbaycan Respublikasındakı ilk konsulu və Bakı Universitetinin ilk dosentlərindən biri, Litva ədəbiyyatının klassiki, tanınmış ictimai-siyasi və mədəni xadim Vintsas Kreve-Mitskəviçyusun anadan olmasının 130 illik yubileyinə həsr olunmuş "Vilnüs – Bakı: mədəniyyət körpüləri" mövzulu Beynəlxalq elmi konfransın bütün iştirakçılarını salamlamaqdan böyük məmnunluq duyuram.

Vintsas Kreve 1918-ci ildə Azərbaycan və Litva öz müstəqilliyini bəyan etdikdən sonra dövlətlərimiz arasında rəsmi əlaqələrin qurulub inkişaf etdirilməsində bilavasitə iştirak edib.

Vintsas Kreve 11 il Bakıda yaşayıb və ədəbi yaradıcılığının ən məhsuldar illərini burada keçirib. O, bir sıra Azərbaycan yazıçıları ilə dostluq əlaqələri saxlayıb, Şərq ədəbiyyatı və fəlsəfəsinin dərindən araşdırılması üzərində böyük uğurla çalışıb, Şərq-Qərb mədəni əlaqələri üfüqlərinin daha genişləndirilməsi və dünya ədəbiyyatı xəzinəsinin zənginləşdirilməsi işinə mühüm töhfələr verib.

Vintsas Kreve həyatında təkcə əsərləri ilə deyil, həm də ictimai-siyasi və mədəni fəaliyyəti ilə Azərbaycan və Litva xalqları arasındakı dostluq münasibətlərini hər zaman gücləndirməyə çalışıb. Sevindirici haldır ki, qədimdən bəri

davam edən həmin dostluq münasibətləri bu gün Azərbaycan və Litva arasındakı əlaqələrin bütün sahələrində özünü uğurla göstərir və mütəmadi olaraq inkişaf edir.

İnanıram ki, bu konfrans V. Krevenin həyat və fəaliyyətinin Bakı dövrünün daha dərindən öyrənilməsi, həmçinin onun ədəbi irsinin Şərq-Qərb mədəniyyətlərarası dialoqu aspektində araşdırılıb yayımlanması işinə yeni elmi töhfələr verəcək.

Bir daha bütün iştirakçıları səmimi qəlbdən salamlayır və konfransın işinə uğurlar arzulayıram.

Hörmətlə,

Həsən MƏMMƏDZADƏ
Azərbaycan Respublikasının Litva Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri

Vilnüs, Litva Respublikası Seyminin Konstitusiya zalı, 26 oktyabr 2012-ci il.

LIETUVOS RESPUBLIKOS SEIMO
PIRMININKAS

LİTVA RESPUBLİKASI SEYMİNİN SƏDRİ

TƏBRİKNAMƏ

"Vilnüs–Bakı: Mədəniyyət körpüləri" mövzulu Konfransın
hörmətli iştirakçıları və təşkilatçıları!

Əziz qonaqlar!

Sizi – iki dövlətin, iki xalqın və iki mədəniyyətin işığında bu gün bizə böyük Litva mütəfəkkiri Vintsas Kreve-Mitskəviçyusu bir daha ehtiramla xatırladan bu əlamətdar tədbirə toplaşanları səmimi qəlbdən salamlayıram. Bu Forum Litva ədəbiyyatının ölməz klassikinin anadan olmasının 130-cu ildönümünü layiqincə qeyd etmək üçün həqiqətən dərindən düşünülmüş və mahiyyətcə gözəl bir anım toplantısıdır.

Təbii ki, bu tədbirdə həm də V. Krevenin həyat və yaradıcılığının mühüm məqamları ehtiva olunub. Axı, Litva ədəbiyyatının klassiki on bir il ərzində – 1909–1920-cu illərdə Azərbaycanın paytaxtında yaşayıb və yazıb-yaradıb. O, burada çoxmillətli mədəniyyət məkanının dərinliklərinə nüfuz edərək onun dəyər və gözəlliklərini aşkara çıxarıb, həm də bu zaman topladığı unikal təcrübədən yaradıcılığında məharətlə istifadə edib. Beləliklə, yazıçının zəngin yaradıcılığında Litva tarixi və müasir həyatına, əfsanə və reallıqlarına həsr olunmuş əsərlərlə yanaşı, Azərbaycan tarixi, folkloru, mifologiyası və dini motivlər əsasında böyük istedadla yazılmış əvəzsiz əsərlər də yer alıb.

Litva ədəbi klassikinin mədəniyyətlərimizin zənginləşməsi və xalqlarımızın qarşılıqlı surətdə daha yüksək səviyyədə anlaşması üçün verdiyi digər, heç də az əhəmiyyət kəsb etməyən önəmli töhfələr Litva–Azərbaycan və Qərb-Şərq mədəniyyətlərarası dialoqunun gözəl nümunələrindən ibarətdir. Həmin töhfələr hazırda ümumdünya qloballaşma prosesləri kontekstində fərqli

sivilizasiyaların əməkdaşlığına, xalqlarımız arasındakı çoxəsrlik tarixi, mədəni və ictimai-siyasi əlaqələrin genişlənməsinə, müstəqil Litva–Azərbaycan dövlətlərarası münasibətlərinin möhkəmlənməsinə rəvac verir. Bu töhfələr indi də öz aktuallığını itirməyərək xalqlarımız və dövlətlərimiz arasındakı yaxın əməkdaşlığın vacib rəhni olaraq qalır. Və bu Forum da deyilənlərə bitkin bir nümunə olaraq təsdiq edir ki, bizi yalnız coğrafi məsafə ayırır, dəyərlərimiz və mədəni əlaqələrimiz baxımından isə bir-birimizə çox yaxınıq.

Bu dialoqun və əlaqələrimizin davam etdirilib möhkəmləndirilməsi üçün zəhmət çəkən hər kəsə səmimi-qəlbdən minnətdarlığımı bildirirəm. Litva Azərbaycanlıları Cəmiyyətinin sədri, ədəbiyyatşünas, Litva ədəbiyyatının tərcüməçisi, V. Kreve-Mitskəviçyusun Azərbaycandakı ictimai-siyasi, mədəni və diplomatik fəaliyyətinin tədqiqatçısı Mahir Həmzəyevə isə böyük məmnunluqla xüsusi təşəkkürümü bildirmək istəyirəm.

Vintsas Kreve-Mitskəviçyusun xatirəsinin anılması və adının əbədiləşdirilməsi işinə diqqət və səyləri ilə yeni çalarlar gətirən, bununla da litvalılar və azərbaycanlılar, Litva və Azərbaycan arasında qarşılıqlı etimadı və əməkdaşlıq münasibətlərini daha da möhkəmləndirən hər kəsə bir daha təşəkkür edirəm.

Bu Konfransın mahiyyətini və iş istiqamətini mən şəxsən belə dərk edirəm və onun bütün qonaqlarına daha böyük uğurlar arzulayıram!

İrena DEGUTİENE
Litva Respublikası Seyminin sədri

Vilnüs, Litva Respublikası Seyminin Konstitusiya zalı, 26 oktyabr 2012-ci il.

"AZƏRİSTAN ÖLKƏSİ" KİTABI AZƏRBAYCAN DİLİNDƏ

"ATV Kitab" seriyası çərçivəsində görkəmli litvalı yazıçı Vintsas Krevenin "Azəristan ölkəsi" kitabı[52] "Parlaq imzalar" nəşriyyatında nəfis tərtibat və yüksək poliqrafik keyfiyyətlə Azərbaycan dilində təkrarən işıq üzü görüb (birinci dəfə 2010-cu ildə nəşr edilib – *M. H.*).

"ATV Kitab" layihəsinin rəhbəri, şair və tərcüməçi Səlim Babullaoğlu Azərtac-a eksklüziv müsahibəsində bildirib ki, kitabı dilimizə Litva Azərbaycanlıları Cəmiyyətinin sədri, tanınmış publisist, tərcüməçi və fikir adamı Mahir Həmzəyev çevirib.

1. "Azəristan ölkəsi" kitabının üz qabığı.

2. Şair və tərcüməçi Səlim Babullaoğlu.

S. Babullaoğlu daha sonra deyib: "Düşünürəm ki, bu əsər təkcə ədəbiyyatsevərlərin deyil, ötən əsrin əvvəllərindəki tariximizi öyrənmək istəyən tarixçi-mütəxəssislər üçün də əvəzsiz mənbə olacaq. Kitabda erməni xislətini ifşa edən çoxlu məqamlar var. Bunu azərbaycanlı yox, yüz il əvvəl bir litvalı, özü də sıradan olmayan bir insan – böyük mütəfəkkir və ziyalı yazıb. Bu kitab bizə, öz tariximizə, mədəniyyətimizə, bütövlükdə öz həyatımıza başqalarının gözü ilə baxmaq imkanı verəcək. Bizi – azərbaycanlıları başqaları kənardan necə görürlər? Bu vacib sualın cavabını hər bir oxucu burada tapa biləcək..."

Azərbaycan Dövlət İnformasiya Agentliyi Azərtac-ın veb-saytı, 24 dekabr 2015-ci il.

[52] Vintsas Kreve. "Azəristan ölkəsi". Bakı, "Parlaq imzalar", 2015-ci il, 200 səh., ISBN 978-9952-8289-2-4.

LITVADA CÜMHURİYYƏTİN 100 İLLİYİ İLƏ BAĞLI TƏDBİRLƏR

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə Litvadakı Azərbaycan diaspor təşkilatları silsilə tədbirlər keçirməyə başlayıb. Litva Azərbaycanlıları Cəmiyyətinin bununla bağlı hazırladığı layihə çərçivəsində Vilnüsdə beynəlxalq elmi konfransın və xüsusi bayram mərasiminin təşkili, foto və tarixi sənədlərdən ibarət səyyar sərgilərin nümayişi, elmi müzakirələrin və digər tədbirlərin keçirilməsi nəzərdə tutulub. Layihənin əsas hissəsi 1918-ci ildə əsası qoyulmuş müstəqil Azərbaycan–Litva dövlətlərarası əlaqələri müstəvisində gerçəkləşdirilir. Bu istiqamətdə bir sıra tədbirlər artıq həyata keçirilib.

2017-ci ilin oktyabrında Litvanın Varena rayonu Merkine qəsəbəsindəki Vintsas Kreve adına gimnaziyada Litva dövlətinin bərpa edilməsinin qarşıdan gələn 100 illik yubileyinə və Litva ədəbiyyatının məşhur klassiki, 1909–1920-ci illərdə Bakı 1-ci realnı məktəbinin müəllimi və 1919–1920-ci illərdə Litva dövlətinin Azərbaycan Xalq Cümhuriyyətindəki ilk konsulu olmuş Vintsas Kreve-Mitskəviçyusun anadan olmasının 135 illiyinə həsr olunmuş elmi konfrans keçirilib. Litva ədəbiyyatı və folkloru institutu tərəfindən dil, ədəbiyyat və tarix üzrə pedaqoji mütəxəssislər üçün təşkil olunmuş konfransda Azərbaycan və Baltik xalqlarının ədəbi, mədəni, tarixi və ictimai-siyasi əlaqələrinin tanınmış tədqiqatçısı Mahir Həmzəyev 1918–1922-ci illərdə Litva–Azərbaycan dövlətlərarası münasibətləri və V. Krevenin Bakıdakı diplomatik fəaliyyəti barədə çıxış edib.

Sonra bu mövzunun davamı olaraq Litvanın *www.ru.Delfi.lt* xəbərlər portalında Mahir Həmzəyevin rus dilində hazırladığı "Litvanın Bakıdakı konsulu V. Krevenin verdiyi "həyat vizaları" başlıqlı tarixi essesi çap edilib. Esse həmçinin, Vilnüsdə 1965-ci ildən litvaca nəşr edilən *"Kultūros barai"* mədəniyyət və incəsənət jurnalında dərc olunub.

Bundan başqa, Mahir Həmzəyevin bu mövzuda daha bir geniş tədqiqat işi – litvalı yazıçı, dramaturq, pedaqoq və konsul Vintsas Krevenin Cümhuriyyət dövründə Bakı şəhər dumasının deputatı və Litva konsulu olaraq burada göstərdiyi ictimai-siyasi, kulturoloji və təşkilati fəaliyyəti haqqında tarixi oçerkləri Litva Yazıçılar İttifaqının *"Metai"* aylıq ədəbi-bədii jurnalının 11-ci və 12-ci saylarında (noyabr-dekabr 2017-ci il) dərc olunub. Tədqiqatın növbəti hissəsi jurnalın 2018-ci ilin yanvar buraxılışında çapdan çıxacaq. Həmçinin bu materiallarla bağlı Vilnüsdə Litva Yazıçılar İttifaqının klubunda ölkənin

Merkine qəsəbəsindəki V. Kreve adına gimnaziyada Litva dövlətinin bərpa edilməsinin 100 illik yubileyinə və Litvanın Cümhuriyyətdəki ilk konsulu Vintsas Krevenin anadan olmasının 135 illiyinə həsr olunmuş elmi konfransın iştirakçıları (1-ci sırada sağdan dördüncü M. Həmzəyev). 27 oktyabr 2017-ci il.

yaradıcılıq ittifaqları və akademik dairələri təmsilçilərinin iştirakı ilə 2018-ci ilin yanvar ayında "dəyirmi masa"nın keçirilməsi və ətraflı fikir mübadiləsi çərçivəsində tarixi-kulturoloji müzakirələrin aparılması planlaşdırılır.

Bu tədbirlərlə yanaşı, eyni zamanda, sosial şəbəkələrdə Litva ictimaiyyətini Azərbaycan Xalq Cümhuriyyətinin qurulması və fəaliyyəti, eləcə də həmin dövr Litva–Azərbaycan dövlətlərarası münasibətlərinin tarixi ilə bağlı məlumatlandırma və maarifləndirmə işləri həyata keçirilir.

Azərbaycan Dövlət İnformasiya Agentliyi Azərtac-ın veb-saytı, 19 dekabr 2017-ci il.

CÜMHURİYYƏTDƏKİ LİTVA KONSULUNUN İSTİQLAL MÖVZULU ƏSƏRİ

V. Krevenin "Qartal haqqında nəğmə" əsərinin tərcüməsinə ön söz

XX əsr Litva ədəbiyyatının məşhur yazıçılarından biri olan Vintsas Kreve eyni zamanda görkəmli ədəbiyyatşünas alim, ictimai-siyasi və mədəni xadim olaraq tanınıb. O, Kaunas və Vilnüs Universitetlərinin professoru (1922–1943), həm də Litva SSR EA-nın ilk prezidenti olub (1941).

V. Kreve həmçinin çoxəsrlik Litva–Azərbaycan ədəbi-mədəni və ictimai-siyasi əlaqələri tarixinə yeni səhifələr yazmış, xalqlarımız arasındakı münasibətlərin inkişafına qiymətli töhfələr vermiş, Azərbaycan mədəniyyəti qarşısında mühüm xidmətlər göstərmiş şəxsiyyətlərdəndir. Onun həyat və yaradıcılığının, elmi-pedaqoji, mədəni-maarif, ictimai-siyasi və diplomatik fəaliyyətinin on bir ilə yaxın dövrü (1909–1920) sıx şəkildə Azərbaycanla bağlı olub.

Şərq fəlsəfəsi, eləcə də Azərbaycan ədəbiyyatı və mədəniyyəti, Bakının qaynar ictimai-siyasi mühiti və o dövrdə burada baş vermiş coşqun hadisələr V. Krevenin ədəbi, elmi və publisistik yaradıcılığına güclü təsir göstərib. Bir sıra yazılarımızda qeyd etdiyimiz kimi, V. Krevenin Şərq mövzusundakı əsərləri onun bütün yaradıcılığının ideya-fəlsəfi açarı hesab olunur. Bunu yazıçının Azərbaycan mövzusunda yaratdığı "Azəristan ölkəsi", "Qartal haqqında nəğmə", "Çarpışan qüvvələr" və "Bolşeviklər" əsərləri barədə də demək mümkündür. Həmin əsərlər Litva ədəbiyyatına əvəzsiz bədii incilər, bənzərsiz surətlər, yeni məzmunlu bədii təsvir və ifadə vasitələri, əsrarəngsiz təşbeh və metaforalar sistemi, lirik-fəlsəfi duyğular dünyası və xüsusi bir Şərq zənginliyi gətirib.

V. Krevenin Şərq mövzusunda yaratdığı əsərlərin bir qismi ilk dəfə onun 1930-cu ildə Kaunasda çapdan çıxmış məşhur "Şərq hekayətləri" adlı kitabında toplanıb. Bu kitaba Baltik xalqları ədəbiyyatı tarixində ilk dəfə olaraq İslam, Buddizm, Zərdüşt və Yəhudi dinləri mövzusunda yazılmış beş dini-fəlsəfi əsər – "Pratyekabudda", "Kralın ən yaxşı şərabını saxladığı qab", "Azəristan ölkəsi", "Çarpışan qüvvələr" və "Qadın" adlı hekayətlər (nağıllar) daxildir.

Ədibin Bakıda yaratdığı Şərq mövzulu məşhur əsərlərdən biri də "Qartal haqqında nəğmə" rəvayətidir. Əsər ilk dəfə müəllifin 1912-ci ildə Vilnüsdə buraxılmış "Daynava diyarı qocalarının rəvayətləri"[53] kitabında çap edilib. Kitaba doqquz rəvayət daxildir. Romantik ruhda qələmə alınmış bu rəvayətlər eyni zamanda həm milli, həm də bəşəri ideyalarla zəngindir.

[53] "Dainavos šalies senų žmonių padavimai". Vilnius, 1912.



1. "Daynava diyarı qocalarının rəvayətləri" kitabının görüntüsü. Kaunas, 1921-ci il. 2. "Qartal haqqında nəğmə" rəvayətinə çəkilmiş illüstrasiya. Müəllifi – Litva rəssamı Adomas Galdikas.

Tanınmış Litva ədəbiyyatşünasları Yonas Lankutis (1925–1995) və Albertas Zalatoryusun qənaətlərinə görə, V. Kreve "Daynava diyarı qocalarının rəvayətləri" toplusunda bədii üslubun elə parlaq ifadə formasını yaradıb ki, müasir oxucular və ədəbiyyat araşdırmaçıları Litva folklorunun poetikası haqqında mülahizələr yürüdərkən, çox zaman qədim folklor nümunələri əvəzinə bu əsərlərə istinad edirlər. Sözügedən rəvayətlər özündə "nazlamalara", "əzizləmələrə" aid çox sayda orijinal epitetlər, Litva folkloruna xas olan rasional məzmunlu metafora və təkrirlər qalereyasını ehtiva edir. Bir sıra parçalarda isə, hətta Litva poeziyasının ən gözəl şeir nümunələrinin melodikliyindən belə geri qalmayan həmahənglik və incəlik hiss olunur.

Bütün bunlarla bərabər, kitaba daxil olan rəvayətləri – ələlxüsus "Qartal haqqında nəğmə" əsərini oxuyarkən Şərq motivlərini aydınca sezmək mümkündür. Baxmayaraq ki, Qartal surəti Litva folkloru və ədəbiyyatı üçün səciyyəvi hal deyil. Sözgəlişi qeyd edək ki, digər Şərq xalqlarının ədəbiyyatları ilə yanaşı, Azərbaycan folklorunda da "Qartal haqqında nəğmə"yə bənzər bir sıra ədəbi nümunələr mövcuddur. Odur ki, əsərdə həmçinin Azərbaycan folklorunun izini və ab-havasını, Azərbaycan dağlarının əyilməz əzəmətini duymaq çətin deyil. Bütün bu məqamlar bir daha göstərir ki, V. Kreve öz yaradıcılığında həm də Azərbaycan ədəbiyyatı və ümumən Şərq folkloru qaynaqlarından faydalanıb.

"Qartal haqqında nəğmə" rəvayəti mənsur şeir formasında yazılmış əsərdir. Bu dəyərli əsər Azadlığa və Müstəqilliyə oxunan möhtəşəm bir Himn kimi səslənir. Rəvayət Litva ədəbiyyatının ümumi mənzərəsinə çox təbii şəkildə daxil olub və ədəbi ictimaiyyət tərəfindən elə məhəbbətlə qəbul edilib ki, V. Kreve ədəbi istedadının ən sadiq pərəstişkarları "Qartal haqqında nəğmə" əsərindən bir çox parçaları bu gün də əzbərdən söyləyirlər.

Əsərin orijinaldan Azərbaycan dilinə edilmiş tərcüməsi oxuculara 2018-ci ildə "Ədəbiyyat qəzeti" həftəliyində və "525-ci qəzet" də təqdim olunub.

Bakı, "Ədəbiyyat qəzeti", 26 may 2018-ci il, № 20.
Bakı, "525-ci qəzet", 6 iyun 2018-ci il, № 101.

LİTVADA CÜMHURİYYƏT İLƏ MÜNASİBƏTLƏRİN 100 İLLİYİ QEYD OLUNUB

Müsahibə-reportaj

Vilnüsdə, Litva Elmlər Akademiyasının (LEA) Vrublevskilər adına Elmi kitabxanasının Nadir nəşrlər və əlyazmalar şöbəsinin oxu zalında "Litva – Cənubi Qafqaz dövlətlərarası münasibətləri: 1918–1922-ci illər" mövzusunda sənədli sərginin açılışı olub.

Üç bölmədən ibarət olan sərgi Litva dövlətinin bərpa edilməsinin 100 illik yubileyi, həmçinin, Litvanın Cənubi Qafqaz respublikaları ilə diplomatik münasibətlər qurmasının 100-cü ildönümü münasibəti ilə düzənlənib. Bununla bağlı qeyd etmək istərdik ki, 1918–1922-ci illərdə Tiflisdə Litvanın Qafqaz dövlətlərindəki ümumi Diplomatik nümayəndəliyi fəaliyyət göstərib.

Sərgi LEA Vrublevskilər adına Elmi kitabxana və Litva Azərbaycanlıları Cəmiyyəti tərəfindən birgə təşkil olunub. Burada nümayiş olunan sənədlər, foto şəkillər, müxtəlif tarixi eksponatlar Elmi kitabxananın fondlarından və Cəmiyyətin arxivindən götürülüb. Cəmiyyət, həmçinin, sərgiyə aid sənədli icmalın, müxtəlif açıqlama və izahların, diplomatik yazışmalara dair tarixi arayışların ortaq müəllifi olaraq çıxış edir. Sərginin kuratoru Elmi kitabxana direktorluğunun elmi məsələlər üzrə müavini, humanitar elmlər doktoru Rima Tsiseniene, redaktorları – kitabxananın elmi əməkdaşları – tarixşünas Rasa Sperskiene, Elmi informasiya şöbəsinin müdiri, humanitar elmlər doktoru Giedre Mikniene və Vilnüs Rəssamlıq Akademiyasının dosenti, dilçi alim Arturas Yudjentisdir.

Dövlətlərarası münasibətlərimizin 100 illiyinə həsr olunmuş tarixi-sənədli sərginin keçirilməsinin təşəbbüsçü və əsas təşkilatçılarından biri ədəbiyyatşünas Mahir Həmzəyevdir. M. Həmzəyev həm Litvada, həm də Azərbaycanda qədim Litva–Azərbaycan ədəbi, mədəni, tarixi və ictimai-siyasi əlaqələrini, həmçinin 1918–1922-ci illərdə Litvanın Qafqaz ölkələri ilə dövlətlərarası münasibətlərini ən mötəbər arxiv mənbələri əsasında araşdıran nüfuzlu tədqiqatçı kimi tanınıb.

M. Həmzəyev dövlətlərarası münasibətlərimizin qədim tarixi ilə bağlı "525-ci qəzet"ə bildirib:

"Litva dövlətinin Azərbaycan Cümhuriyyəti ilə rəsmi əlaqələrinin 100 illiyinə həsr olunmuş bölmə sərginin ən dolğun və informasiya tutumlu stendlərindən biri olaraq diqqəti cəlb edir.

Şəkildə (mərkəzdə): Azərbaycan Respublikasının Litvadakı müvəqqəti işlər vəkili Atəş Qırxıyev Vrublevskilər adına Elmi kitabxanada sərgini ziyarət etdikdən sonra təşkilatçılarla görüş zamanı "Azərbaycan xalçaları. Təbriz qrupu" kitab-albomunu kitabxanaya hədiyyə edərkən. Vilnüs, 30 avqust 2018-ci il.

Litva dövlətinin bərpa edilməsi barədə Deklarasiya 16 fevral 1918-ci ildə Vilnüsdə elan edilib. 23 iyul 1918-ci ildə Litva Dövlət Şurası Qafqaz dövlətlərində Diplomatik nümayəndəliyin təsis olunması ilə bağlı qərar qəbul edib və elə həmin gün Qafqaz Litvalıları Şurasının sədri, o vaxt Tiflis oğlanlar gimnaziyasında riyaziyyat müəllimi olaraq çalışan litvalı xadim Pranas Daylide Litva dövlətinin Cənubi Qafqaz respublikalarındakı diplomatik təmsilçisi təyin olunub.

Diplomatik nümayəndə P. Daylide öz etimadnaməsini *(lettres de creance)* Cümhuriyyət Hökumətinə 1918-ci ilin sentyabrında təqdim edib. 1919-cu ilin martın 22-də Litvanın Qafqaz dövlətlərindəki Diplomatik nümayəndəsinin Azərbaycan Respublikasının Xarici işlər naziri Məmməd Yusif Cəfərova ünvanladığı 142 saylı Notada ehtiva olunmuş vəsatət əsasında Bakıda Litva dövlətinin Azərbaycan Xalq Cümhuriyyətindəki Konsulluğu təsis edilib. Litva ədəbiyyatının məşhur klassiki, Bakı 1-ci realnı məktəbinin rus dili və ədəbiyyatı müəllimi Vintsas Kreve-Mitskəviçyus o zaman müstəqil Litvanın Cümhuriyyətdəki ilk konsulu təyin edilib. Litva konsulluğunun Bakıda fəaliyyətə başlaması barədə rəsmi xəbər "Azərbaycan" qəzetinin 27 mart 1919-cu ildə çapdan çıxmış sayında dərc olunub".

M. Həmzəyev deyib ki, "Litva konsulluğu ilk dövrdə Bakıda *Pozenovski* küçəsindəki 15 nömrəli binada fəaliyyət göstərib (1929-cu ildə Bakı şəhər

Şəkillərdə (soldan sağa) – Litva dövlətinin 1918–1921-ci illərdə Qafqaz respublikalarındakı diplomatik təmsilçisi Pranas Daylide və 1919–1920-ci illərdə Cümhuriyyətdəki konsulu Vintsas Kreve-Mitskəviçyus.

Sovetinin qərarı ilə küçənin adı dəyişdirilib Fridrix Engels adlandırılıb. 1992-ci ildən Cəfərov qardaşları adını daşıyır).

1919–1920-ci illərdə Litva və Azərbaycan keçmiş Rusiya imperiyasının ucqarlarında dövlət bağımsızlıqlarını təzəcə elan etmiş digər ölkələrlə bərabər Paris Sülh Konfransında müstəqilliyin tanınması istiqamətində tərəfdaşlıq edərək birgə diplomatik səylər göstəriblər. Azərbaycan Sülh Nümayəndə heyətinin sədri Ə. M. Topçubaşov 1919-cu ildə Parisdən Cümhuriyyət hökumətinə ünvanladığı məktubların birində göstərir ki, "...Estoniya, Litva, Ukrayna, Latviya, Belarus Nümayəndə heyətləri ilə zəif də olsa, əlaqələrimiz mövcuddur..."

Biz birgə diplomatik səylər deyərkən, ilk növbədə, Cümhuriyyətin nümayəndə heyəti üzvləri ilə bərabər göstərilən dövlətlərin təmsilçiləri tərəfindən Paris Sülh Konfransının sədrinə, müttəfiq ölkələrin Ali Şurasına və İtaliya Parlamentinə müstəqilliyin tanınması ilə bağlı ünvanlanmış birgə deklarasiyaları, etiraz notalarını və digər kollektiv müraciətləri nəzərdə tuturuq.

Azərbaycan Parlamenti 1920-ci ilin aprel ayının 22-də bir sıra Avropa ölkələrində və Amerikada – Fransa, Böyük Britaniya, İtaliya, ABŞ və Polşada fəaliyyət göstərəcək diplomatik missiyaların təsis edilməsi haqqında qərar qəbul edib. Göstərilən qərarın qəbul edilməsi ilə bağlı ADR Xarici işlər naziri Fətəli xan Xoyski (1875–1920) martın 14-də Parlamentə təqdim etdiyi izahedici arayışda qeyd edirdi ki, Azərbaycanın Polşada təsis ediləcək diplomatik nümayəndəliyi bir sıra orta Avropa ölkələrində – Rumıniya, Latviya, Ukrayna, Estoniya, Finlandiya ilə yanaşı Litva dövlətində də akkreditə olunacaq.

Lakin əfsuslar olsun ki, bu qərarın qəbul edilməsindən bir neçə gün sonra bolşeviklər Rusiyası tərəfindən həyata keçirilmiş 28 aprel çevrilişi və müstəqil Azərbaycanın işğalı ADR hökumətinin diplomatik nümayəndəliklər açmaq barədə qərarın icrasını alt-üst etdi.

Litva konsulu V. Kreve-Mitskəviçyus Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsindən sonra – 1920-ci ilin iyun ayında Bakını tərk edərək Vətəninə qayıdıb".

M. Həmzəyev qeyd edib ki, "25 sentyabr 1920-ci ildə Tiflisdə Azərbaycan SSR hökuməti və Litva Respublikası hökuməti arasında müqavilə bağlanıb. Müqavilə Azərbaycan SSR ərazisində yaşayan Litva vətəndaşlarına və Litva Respublikası ərazisində yaşayan Azərbaycan SSR vətəndaşlarına qarşılıqlı şəkildə hüquqi təminatların verilməsi haqqında idi. Sənədi Azərbaycan SSR hökuməti adından Xalq xarici işlər komissarı Mirzə Davud Hüseynov, Litva hökuməti adından Litvanın Qafqaz dövlətlərindəki diplomatik nümayəndəsi P. Daylide imzalayıblar.

Bakıdakı Litva Konsulluğu 1922-ci ildə Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının yaradılmasına qədər fəaliyyət göstərib. Həmin dövrdə Bakı yəhudiləri icmasının nüfuzlu xadimlərindən biri kimi tanınan məşhur diş həkimi Mixail Markovski bolşevik Rusiyasının XI Qırmızı ordu hissələri tərəfindən işğal edilmiş Azərbaycan paytaxtında çox mürəkkəb hərbi-siyasi şəraitdə Litva dövlətinin Qafqaz respublikalarındakı Konsulu vəzifəsində çalışıb.

Litva dövlətinin Bakıdakı Konsulluğu Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin 1-ci katibi Serqey Mironoviç Kirovun (1886–1934) və Azərbaycan SSR Fövqəladə Komissiyasının sədr müavini, Operativ işlər üzrə məxfi şöbənin rəisi Lavrenti Beriyanın (1899–1953) iştirakilə 1922-ci ilin avqustun 28-də ləğv olunub".

Bakı, "525-ci qəzet", 4 sentyabr 2018-ci il, № 150.

II FƏSİL

BALTİK ELLƏRİNDƏN EŞİDİLƏN AZƏRBAYCAN SƏSLƏRİ

AZƏRBAYCAN – BALTİK ƏLAQƏLƏRİ VƏ MƏDƏNİYYƏTİMİZİN YAYIM YOLLARI

Xalqın ən böyük elçisi

Azərbaycanlıların milli-mənəvi dəyərləri və qədim mədəni irsi xalqımızın milli identikliyini əsaslandıran, etnik özünəməxsusluğunu şərtləndirən başlıca amillərdir. Filologiya elmləri doktoru, akademik Nizami Cəfərovun təbirilə desək "...azərbaycanlıların bir xalq kimi mükəmməlliyinin göstəricilərindən biri (bəlkə də birincisi!) onun tarixən formalaşmış özünəməxsus etnokulturoloji sistemə malik olmasıdır ki, bunun da əsas komponenti mədəniyyətdir..."[54]

Mədəniyyət Azərbaycan ictimaiyyətinin əsrlər boyu inkişaf səviyyəsini əks etdirən mühüm göstəricilərdən biri olaraq həmçinin xalqımız və Vətənimiz haqqında xarici ölkələrdə müvafiq təsəvvür yaradan və imic formalaşdıran misilsiz maddi-mənəvi faktordur, hətta deyərdik ki, xalqın ən böyük elçisidir. Odur ki, mədəniyyətimizin təbliğ və təşviqinə yönəlik tədbirlər Azərbaycan səfirlikləri və diaspor təşkilatlarının çoxşaxəli fəaliyyətinin prioritet məqsədlərindən biri sayılır.

SSRİ dönəmindəki beynəlmiləlçilik ideologiyası və vahid sovet xalqının formalaşdırılması siyasəti tamamilə iflasa uğradığı üçün, eyni zamanda fərqli mədəniyyətləri, etnik və dini müxtəlifliklər öz etnokulturoloji dəyərləri və milli identiklikləri üçün təhlükə hesab edən multikulturalizmin Avropa modeli hazırda böhran dövrünü yaşadığına görə, Baltik ölkələrində mədəni irsimizin yayımlanması ilə bağlı açıq tədbirlər keçirərkən, çox vaxt burada hökm sürən ictimai-mədəni mühitə münasib, yerli xalqların tarixi ilə uzlaşan, düşüncə və həyat tərzinə uyğun gələn tanıtma üsullarından istifadə etmək lazım gəlir.

Həmin üsullar tədbirlərin gerçəkləşdirilməsi baxımından çeşidli palitra təşkil edir. Bu oçerklərdə, bir sıra Azərbaycan diaspor təşkilatlarının fəaliyyətində əsas təşkil edən o üsulların bir qisminə praktik nöqteyi-nəzərdən yanaşmaqla, mövzu ilə bağlı ümumi görsəniş yaratmağa çalışacağıq.

Tarixi köklərə söykənən çağdaşlıq

Litva Azərbaycanlıları Cəmiyyəti Litva və Azərbaycan arasında ictimai-siyasi, ədəbi-mədəni, elmi, pedaqoji və digər sahələrdə müxtəlif dövrlərdə vacib əlaqələr quran və yaxud bu əlaqələri nəzərəçarpan dərəcədə zənginləşdirən

[54] Nizami Cəfərov. "Azərbaycanlılar: etnokulturoloji birliyin siyasi-ideoloji üfüqləri". Bakı, "XXI-YNE", 2001, səh. 63

1. Rəssam və yazıçı A. Əfəndi (Vilnüs). 2. "Aydan" Estoniya–Azərbaycan Mədəniyyət Mərkəzinin sədri N. Hacıyev. 3. Tallində Azərbaycan məktəbinin rəhbəri və "Ocaq" radio verilişinin baş redaktoru S. Əliyeva

xadimlərin, eləcə də Azərbaycan mədəniyyətini Baltik ölkələrində tanıtmaq üçün müxtəlif janrlarda qələm çalmış, firça nümunələri yaratmış şəxslərin, müstəqil Azərbaycan–Litva dövlətlərarası münasibətlərinin qurulmasına və inkişafına töhfələr verən simaların həyat və fəaliyyət ildönümlərinə həsr edilmiş tədbirlər vasitəsi ilə bu ölkədə mədəni irsimizin təbliğinə və Azərbaycan haqqında həqiqətlərin yayımlanmasına üstünlük verir.

Zənnimizcə, bu cür fəaliyyət yönümünü tarixi-müqayisəli üsul və yaxud mədəni əlaqələrin komparativistika ilə uzlaşan kulturoloji dəyərlər yayımı metodu (forması) adlandırmaq olar.

Qədim Azərbaycan–Baltik mədəni əlaqələrinin oxşar mahiyyət daşıdığını və Baltik ölkələri ərazilərinin beynəlxalq aləmdə ümumi region kimi qəbul olunduğunu, habelə bu ölkələrdə fəaliyyət göstərən təcrübəli Azərbaycan cəmiyyətlərinin eyni dövrdə – 1988-ci ildə yaradıldığını nəzərə alaraq, Estoniya, Latviya və Litva azərbaycanlıları təşkilatlarının məqsəd və vəzifələrinin analoji məzmun daşıdığına əsaslanaraq düşünürük ki, qaldırılan mövzu ilə bağlı araşdırma və mülahizələri yalnız Litva–Azərbaycan mədəni əlaqələri rakursunda yox, ümumən Azərbaycan–Baltik mədəni münasibətləri müstəvisində aparmaq daha məqsədyönlü olardı. Həm də ki, Baltik ölkələrindəki Azərbaycan diasporunun bir sıra liderləri və yaradıcı təmsilçiləri – Estoniyada Eldar Əfəndiyev, Rauf Avşarov, Vidadi Məmmədov, Cəfər Məmmədov, Niyazi Hacıyev, Xaqani Qayıblı və Sənəm Əliyeva, Latviyada Ulduzxan Əhmədov və Roman Əliyev, Litvada Adilə Əfəndi və Leyla Şükürova kimi ictimai-siyasi və mədəni xadimlər uzun illərdir ki, bu istiqamətdə mühüm işlər görür, əlaqələrimizin zənginləşdirilməsi üçün kreativ töhfələr verirlər.

Vurğulamaq istərdik ki, Azərbaycan–Baltik mədəni əlaqələri haqqında kitabın bu fəslində təqdim olunan tədqiqat və mülahizələrin əksəriyyəti əsasən

XIX əsrdən başlayaraq, 1940-cı ildə Estoniya, Latviya və Litvanın SSRİ-nin tərkibinə inkorporasiya edilməsinə qədərki dövrə aid əlaqələrimizlə bağlı arxiv materialları, rəsmi sənədlər, elmi işlər, müxtəlif publikasiyalar və biblioqrafik mənbələrə istinadən aparılıb. Çalışmalar bəzən mozaik səciyyə daşıyır. Çünki, bu topluda əsas məram mədəni əlaqələrimizin inkişafına töhfələr vermiş bütün müəllifləri və gördükləri işlərin hamısını, bütün mədəni prosesləri və tarixi olayları *incorporo* olaraq akademik sistemləşdirmə və təsnifat tələblərinə uyğun şəkildə əsaslı elmi-araşdırma obyekti kimi tədqiqatlara cəlb etmək deyil.

Mədəni irsimizi Azərbaycan–Baltik mədəni əlaqələri kontekstində tanıdıb yaymaq üçün ilk növbədə bu əlaqələrin keçmişini, mahiyyətini və səciyyəvi cəhətlərini, eləcə də xalqlarımız arasındakı mədəniyyət körpülərinin quruculları olan Azərbaycan, Estoniya, Latviya və Litva xadimlərinin bu istiqamətdəki fəaliyyətlərini yetərincə bilmək vacibdir. Odur ki, öncə bu əlaqələrin qədim tarixinə retrospektiv nəzər salaraq bəzi komparativistik araşdırmalara diqqəti cəlb etmək istərdik.

Talelərinə qürbət biçilmiş Baltik övladları

Azərbaycan–Baltik mədəni əlaqələrinin ilk qaynaqlarının yaranmasında hələ XIX əsrin müxtəlif dövrlərində – 1813–1814, 1830–1831, 1863–1864-cü illərdən başlayaraq XX əsrin I rübünə qədər fərqli səbəblərə görə – siyasi sürgünlər, iqtisadi islahatlar, Rusiya–Osmanlı müharibələri, əmək miqrasiyası, I Dünya savaşı, məcburi köçürmələr, inqilabi hərəkatlar, çevrilişlər və s., Azərbaycanda və ümumən Qafqazda oluşaraq burada məskunlaşmış Baltik mühacirləri əsas rol oynayıblar. Təbii ki, xalqlararası münasibətlərlə bağlı o vaxtkı şəraitdə, coğrafi məsafə fərqlərini, linqvistik və inzibati maneələri dəf etmək, tərəflərin ünsiyyət qurub qarşılıqlı informasiya mübadiləsi aparmaq və həm də mədəni əlaqələr yaradıb inkişaf etdirmək proseslərində, milli mədəniyyətlərin, daha doğrusu onların yaradıcılarının bir-birilə müntəzəm kontaktda olması amili çox mühüm əhəmiyyət kəsb edirdi.

1897-ci ildə Rusiya imperiyasında keçirilmiş əhalinin 1-ci ümumi siyahıyaalınmasının nəticələrinə əsasən o zaman Qafqazda 4281 nəfər eston, 5121 nəfər litvalı və 1511 nəfər latış əsilli Rusiya vətəndaşı yaşayırdı.[55] Baltik mühacirləri burada əsasən Çar ordusunda, neft sənayesində, Xəzər gəmiçiliyində, dəmir yolunda, poçt xidməti, maarif, təbabət, hüquq və məhkəmə sistemində çalışırdılar. Bununla bərabər, Baltik mühacirləri arasında din xadimləri, yazar, tərcüməçi, publisist, rəssam, pedaqoq, folklorşünas, tarixçi və başqa sahələr

[55] Первая Всеобщая перепись населения Российской Империи 1897 г. т. II. С.-Петербург, 1905. Таблица XIII. Распределение населения по родному языку.

üzrə mütəxəssislər də vardı. Odur ki, onların Qafqazda məskunlaşmasından bir müddət sonra – XIX əsrin ortalarından etibarən azərbaycanlılar və Baltik xalqları arasında tədricən mədəni və ictimai-siyasi əlaqə körpüləri yaranmağa başladı.

Azərbaycan–Baltik ədəbi-mədəni əlaqələrinin inkişaf dövrlərindən danışarkən qeyd olunmalıdır ki, XIX əsrdə bu əlaqələr davamlı və məqsədyönlü olmayıb. O vaxtkı ədəbi əlaqələrimizdə təsadüfülük, Baltik xalqları üçün xas olmayan qeyri-adi həyati hallara göstərilən ekzotik maraqlar və spontanlıq elementləri üstünlük təşkil edib. Baltik müəlliflərinin o zamankı publikasiyalarında Qafqazı, o cümlədən azərbaycanlıların həyatını təsvir edən səhnələrdə çox vaxt bəsitlik, ibtidailik var idi. Çox zaman tərənnüm və təsvir romantik aspektdə olurdu. Müəllif uydurması realist təsvirə üstün gəlirdi. Həm də bu əlaqələrin yaranmasında çox vaxt başqa dillərdə – rusca, polyakca, almanca, fransızca, ingiliscə çap edilmiş nəşrlər vasitəçi (ötürücü) rolunu yerinə yetirirdilər (fransız müqayisəli ədəbiyyatşünaslığında belə nəşrlər *Transmetteur* və ya *Intermediaire* adlandırılır).

XIX əsrin 80-ci illərinə qədər estonların nəinki Şərq xalqları ilə, hətta digər Avropa xalqları ilə birbaşa ədəbi əlaqələri olduqca zəif və məhdud xarakter daşıyırdı. Bu əlaqələr əsasən alman ədəbiyyatı ilə olan əlaqələrlə kifayətlənirdi. Bunun bir sıra obyektiv və subyektiv səbəbləri var idi.

O zamankı eston və latış xalqlarının tarixinə qısa ekskurs edib qeyd edək ki, 10 sentyabr 1721-ci ildə Rusiya və İsveç arasında imzalanmış Niştadt sülh müqaviləsi nəticəsində 1700–1721-ci illər arasında davam etmiş Şimal müharibəsi bitdi, çar I Pyotr (1672–1725) Rusiyanı İmperiya elan etdi, Rusiya həmçinin Baltik dənizinin şərq sahillərində möhkəmləndi, müasir Estoniya və Latviya əraziləri isə Rusiyanın qərb sərhədlərindəki Baltikyanı məmləkətlər və ya *Ostsee* ölkələri kimi *(rusca – Прибалтийский край, Остзейский край)* Rusiyanın tərkibinə qatıldı. Həmin ərazilər əsasında Rusiya imperiyasında üç inzibati-ərazi vahidi – Estlandiya, Liflandiya və Kurlandiya quberniyaları yaradıldı. Amma buna rəğmən, bir sıra tarixi, iqtisadi, ictimai, sosial və dini səbəblərə görə bu quberniyalarda uzun müddət məxsusi bir *Ostsee rejimi* hökm sürməkdə davam edirdi. Həmin səbəblər üzündən alman dili 1880-cı illərin əvvəllərinə qədər Estoniyada geniş işlənirdi, təhsil bu dildə aparılırdı və təbii ki, gənc eston milli mədəniyyətinin əsas oriyentiri alman mədəniyyəti idi. Yalnız XIX əsrin sonuncu rübündə Estoniyada vəziyyət dəyişməyə başladı. Rusiya–Estoniya iqtisadi münasibətlərinin güclənməsi, ruslaşdırma siyasətinin genişlənməsi həm də estonların ruslarla və Rusiya imperiyasındakı digər xalqlarla mədəni əlaqələrinin intensivləşməsinə gətirib çıxartdı. Bu zaman Estoniyada

qərbi Avropa ədəbiyyatına (ilk növbədə Fransız və İngilis ədəbiyyatına), həmçinin etnik baxımdan estonlara qohum olan macar və fin xalqlarının ədəbiyyatına, daha sonra isə Şərq ölkələrinin mədəniyyətinə maraq yarandı. Estoniya–Azərbaycan, eləcə də Latviya–Azərbaycan mədəni əlaqələrinin yaranması da bu dövrə təsadüf edir.

Litvanın Azərbaycanla dövlətlərarası münasibətlərinə aid qaynaqların orta əsrlər dövrünə təsadüf etməsinə baxmayaraq (Ağqoyunlu və Səfəvi dövlətləri ilə), xalqlarımız arasındakı ədəbi-mədəni əlaqələr XX əsrin əvvəllərinə qədər məhdud xarakter daşıyıb. Litva mühacirləri o zamankı Azərbaycan ərazilərində azsaylı bir formada ilk dəfə XIX əsrin birinci rübündə oturuşublar.

Tarixi faktlara müraciət edək. 1812–1814-cü illər Fransa–Rusiya müharibəsində I Napoleon (1769–1821) ordusunun tərkibində polyaklar, tatarlar və digər xalqlarla yanaşı 27 000 nəfərə qədər litvalı hərbçini birləşdirən əlahiddə Litva polkları da Rusiyaya qarşı vuruşublar. Fransa ordusunun tam məğlubiyyəti nəticəsində litvalıların bir qismi ruslara əsir düşərək Rusiya imperiyasının ucqarlarına, o cümlədən Qafqaza sürgün olunublar. Məsələn, 1813-cü il payızda Varşavanın 30 kilometrliyində yerləşən Modlin qalasının müdafiəsində holland əsilli general Herman Villem Dandelsin (1762–1818) komandanlığı altında 3800 nəfər polyak və litvalı döyüşçü də iştirak edib. Rusiya ordu hissələri tərəfindən mühasirəyə alınmış qalanın müdafiəçiləri həmin general başda olmaqla 1 dekabr 1813-cü ildə ruslara təslim olublar. Onlardan 2400 nəfər polyak və litvalı döyüşçü hərbi əsir qismində Rusiyaya gətirilib. İmperator I Aleksandr (1777–1825) sonra bu hərbçiləri zəifləmiş çar ordusunun sıralarını möhkəmlətmək üçün Tiflisə – Rusiya ordusunun Qafqazdakı baş komandanlığının sərəncamına hərbi xidmətə göndərib.[56] Yeri gəlmişkən, Fransanın Tiflisdəki Konsulluğunun dəftərxana rəisi Benjamin de Tramasyur (1812–1876) 1855-ci ildə yazdığı "Qafqaz barədə yaddaş qeydlərində" *("Memoire sur le Caucase")* göstərir ki, o zaman Tiflisdə 2000 nəfər polyak yaşayırdı.[57]

Tarixə daha bir kiçik ekskurs etsək görərik ki, litvalıların Qafqazda, o cümlədən Azərbaycanda daha sonralar yığcam toplum formasında məskunlaşma halları XIX əsrin üçüncü onilliyinə təsadüf edir. Bu, o zaman Polşa və Litvada baş vermiş tələtümlü hadisələrlə bağlı olubdur. Litvalılar və polyaklar 1830–1831 və 1863–1864-cü illərdə öz milli azadlıqları uğrunda Rusiya imperiyasına qarşı qiyam qaldırdılar. Hər iki qiyam amansızlıqla yatırılıb məğlub edildi.

[56] Liudas Glemža. Lietuviški kariniai daliniai Prancūzijos kariuomenėje 1812–1814 m. Žurnalas "Karo archyvas". 2003, t. XVIII, p. 137–168. ISSN 1392-6489.

[57] "Памятная записка о Кавказе" (Mémoire sur le Caucase), Париж, 5 янв. 1855 г., подписано Трамазюром, Россия, 38, листы 128–147.

Çar rejimi tərəfindən üsyançılar və ailələri ağır repressiyalara məruz qaldılar. Həbs və edam cəzaları aparıldı, bir qismi Sibirə və Qafqaza sürgün olundular. Qiyamlardan sonra Litvada daha geniş miqyasda ruslaşdırma və assimilyasiya siyasəti aparıldı. 1831-ci il qiyamından sonra Vilnüs Universiteti bağlandı.

1864-cü il qiyamından sonra isə katolik inanclı əhalinin pravoslav ruhunda tərbiyələndirilməsi işinə başlandı. Katoliklərə dövlət vəzifələrində çalışmağa icazə verilmədi. Bu siyasətin həyata keçirilməsinin əsas vasitələrindən biri kimi kiril-rus əlifbası seçildi.

1864-cü ilin mayın 14-də Vilnüs general-qubernatoru, qraf Mixail Nikolayeviç Muravyovun (1796–1866) təşəbbüsü və Rusiya imperatoru II Aleksandrın (1818–1881) razılığı ilə litva dilində latın qrafikalı əlifbadan istifadə etməklə kitablar, dua kitabçaları, qəzet və jurnallar, təqvimlər və ümumiyyətlə hər hansı digər bir nəşr məmulatı çap etmək qəti qadağan olundu. Əvəzində litvalılar litvaca sözlərin tələffüzünə uyğunlaşdırılıb tərtib olunmuş *„qrajdanka"* adlanan kiril-rus əlifbasından istifadə etməyə məcbur edildi.

Bu yasaqdan sonra Kiçik Litva adlandırılan Şərqi Prussiyadan – yəni, indiki Kalininqrad vilayətindən, müasir Litva ərazisi olan Klaypeda regionundan və indiki Polşanın Varmiya–Mazurya Voyvodalığından Böyük (Ana) Litvaya gizlin yollarla latın qrafikası ilə litvaca nəşr edilmiş kitablar daşınmağa başlandı. Bu kitablar Şərqi Prussiyada və digər yerlərdə çap olunurdu. Kitabları ən müxtəlif „kontrabanda" yollarla Litvaya gətirən cəsur və vətənpərvər şəxslər kitabdaşıyanlar (kitabyayanlar) adlanırdı. Onda Litvada gizli məktəblər yaradılırdı. Litvalılar evində öz ana dilində kitab saxlayıb oxuduqlarına görə həbs olunurdular. Litvaca nəşrləri həm Litvaya, həm də Rusiya ərazilərindəki soydaşlarına gətirən kitabdaşıyanlar tutulanda çox ciddi şəkildə cəzalandırılırdılar. Hər il orta hesabla 7 mindən 23 min nüsxəyə qədər litvaca nəşrlər müsadirə olunurdu. Yalnız 1889–1904-cü illərdə 234 300 nüsxə litvaca ən müxtəlif nəşrlər aşkar edilib götürülmüşdü. Litvada latın qrafikalı nəşrlərin qadağası illərində Çar hökuməti 3000 nəfərdən artıq litvalı kitabdaşıyanı həbs etdi, onlardan 2000 nəfər ən ağır cəzalara məhkum olundu. Bu qadağa yalnız 1904-cü ilin aprel ayında ləğv edildi və İmperator II Nikolay bu barədə 7 may 1904-cü ildə uyğun fərman imzaladı.

Beləliklə, göstərilən səbəblərdən XIX əsrdəki bilavasitə (!) mədəni əlaqələrimiz barədə zəngin faktlara söykənən xülasələr və əsaslı ümumiləşdirmələr təqdim etmək imkanları geniş deyildir.

Bütün göstərilənlərə baxmayaraq, XIX əsrin sonu XX əsrin əvvəlindən başlayaraq bilavasitə Azərbaycan–Baltik mədəni əlaqələri tədricən fərqli

istiqamətlərdə inkişaf etməyə başladı. Həmin əlaqə formalarından biri o zaman Cənubi Qafqazda – o cümlədən Bakıda, Gəncədə, Şəkidə, Lənkəranda, həmçinin Güney Azərbaycanda, Tiflisdə və Gürcüstanın Qara dəniz sahillərində yaşamış Baltik ziyalıları tərəfindən Azərbaycan mövzusunun Baltik xalqlarının ədəbiyyat və publisistikasında gündəmə gətirilməsi, xalqımızın kulturoloji dəyərlərinin Baltik xalqları arasında tanıdılması ilə bağlıdır. Baltik əsilli qələm adamları Azərbaycan tarixinə və mədəniyyətinə, milli adət-ənənələrə və xalq məişətinə böyük maraq göstərir, bunu öz yaradıcılığında bədii üsullarla təcəssüm edirdilər. Bu yazılar adətən maarifləndirmə və informativ xarakter daşıyırdı. Baltik müəllifləri həm də tarixi vətənləri ilə əlaqə saxlayır, Azərbaycan barədə yazdıqları ədəbi və publisistik yazıları, ədəbiyyat və folklorumuzdan etdikləri tərcümələri mətbuatda dərc etdirirdilər.

Baltik mühacirləri XX əsrin 1-ci rübündə Azərbaycanda, Gürcüstanda, Ermənistanda və Şimali Qafqazda bir sıra milli cəmiyyətlər, mədəni-maarif təşkilatları, həftəsonu məktəbləri, qarşılıqlı yardım kassaları, I Dünya müharibəsində zərərçəkmişlərə yardım fondları, həvəskar teatr klubları və xalq özfəaliyyət kollektivləri yaratdılar ki, bu qurumların fəaliyyəti həm də xalqlarımızın bir-birini daha yaxından tanımasına və mədəni əlaqələrimizin inkişafına güclü təkan verdi. Bakı litvalıları o dövrdə həm Azərbaycanda, həm də Litvada getmiş taleyüklü tarixi proseslərdə fəal iştirak ediblər. Ümumən Baltik xalqlarının Qafqazdakı diaspor təşkilatları 1917–1922-ci illərdə müstəqil Baltik dövlətlərinin qurulması və milli dövlətçilik məramlarının reallaşdırılması istiqamətində öz etnik vətənlərinə siyasi, təşkilati, maddi, təbliğati və diplomatik dəstək veriblər, Baltik dövlətlərinin beynəlxalq aləmdə *de jure* tanınmasında çox önəmli işlər görüblər. Bu diaspora təşkilatları faktiki olaraq o zaman Azərbaycanı Baltik ölkələri ilə birləşdirən möhtəşəm bir körpü, çox vacib bir əlaqələndirici faktor rolunu oynayıblar.

Estoniya–Azərbaycan mədəni və ictimai-siyasi əlaqələri

Estoniya–Azərbaycan ədəbi-mədəni əlaqələrini qurmuş "qafqazlı" eston mühacirlərdən Otto Yohannes Kiisel (1886–1967), Peeter Friedrix Kıyv (1866–1946), Yoosep Robert Rezold (1847–1909) və Tiit Teder kimi mədəniyyət və mətbuat xadimlərinin işlərini örnək olaraq təqdim etmək mümkündür. Bu eston ziyalıları Azərbaycanın keçmişi, coğrafiyası və təbiəti, xanlıqların tarixi, şəhərləri, ədəbiyyat və mədəniyyəti, həmçinin digər etnokulturoloji dəyərləri mövzusunda eston dilində Qafqazda bir sıra əsərlər yaratmış, tərcümələr etmiş və tarixi vətənlərində nəşr etdirmişlər.

1. Yozep Robert Rezold. *2. Otto Yohannes Kiisel* *3. Peeter Friedrix Kıyv*

O. Kiiselin "Aşıq Qərib" dastanından etdiyi bəzi tərcümələr, "Qafqaz tatarlarının nağılları" (Azərbaycan nağıllarından parçalar), "Şərq qadınlarının həyatı barədə qeydlər" adlı əsərləri, həmçinin Bakının tarixinə və memarlığına həsr etdiyi oçerklər, P. Kıyvın yazdığı hekayə, oçerk və yol qeydləri, o cümlədən "Qonaq Süleyman" və "Qafqazdan məktublar" əsərləri, Y. Rezoldun "Qafqaz məktubları" silsiləsi, T. Tederin "Qafqaz xalqlarının həyat və məişətindən səhifələr" başlıqlı publisistik yazıları 1878–1914-cü illərdə *"Eesti Postimees", "Kodu", "Perekonnaleht", "Eesti kirjandus"* adlı qəzet və məcmuələr vasitəsilə eston oxucularına təqdim olunmuşdur.[58]

Qeyd etdiyimiz kimi, Baltik ölkələrində, xüsusilə Estoniyada və Latviyada klassik Azərbaycan ədəbiyyatının bəzi nümunələri XIX əsrdə əsasən alman və rusdilli mənbələr vasitəsi ilə yayılıb. Bu yolla yaranmış Estoniya–Azərbaycan ədəbi əlaqələrinə aid iki maraqlı faktı təqdim etmək istərdik.

Birinci fakt almandilli ədəbi mənbələr üzərindən Azərbaycan poeziyasından nümunələrin eston dilinə tərcümə edilib yayımlanması ilə bağlıdır.

Estoniyanın Vilyandi şəhərində 1878-ci ildən başlayaraq estonca nəşr edilən *"Sakala"* qəzetinin *"Sakala Lisaleht"* adlı əlavəsinin 8 iyul 1878-ci il tarixli 21-ci sayında "Fikir inciləri" (*"Mõte laastud"*) başlığı altında 26 misradan ibarət 3 poetik aforizm dərc olunub.[59] Publikasiyada şeirin müəllifi göstərilməyib. Sonda isə yalnız bir hərfdən ibarət *"K"* inisialı qoyulub.

Uzun dövr ərzində bu şeirin kimə məxsus olması ədəbi aləmdə bəlli deyildi. Yalnız 1963-cü ildə eston ədəbiyyatşünası, tənqidçi və yazıçı Endel Nirk

[58] Махир Гамзаев."Национальные общины у истоков межгосударственных отношений". Материалы международной конференции. Вильнюс, 2003 г., стр. 160–184. ISBN 9955-546-09-3.

[59] Viljandi. "Sakala Lisaleht", 8 juuli 1878, Nr. 21.

(1925–2018) öz çalışmasında müəllflik məsələsinə aydınlıq gətirib.[60] Məlum oldu ki, həmin aforizmlərin əsasında Azərbaycan ədəbiyyatının klassiki, şair Molla Pənah Vaqifin (1717–1797) məşhur "Görmədim" müxəmməsinin bir neçə beyti dayanır. Bu beytləri eston milli ədəbiyyatının banilərindən biri, klassik şair və yazıçı Fridrix Reynhold Kreytsvald (1803–1882) alman dilindən poetik aforizmlər şəklində tərcümə edib.

Endel Nirkin yazdığına görə Vaqifin bu beytlərini F. R. Kreytsvalda onun yaxın dostu, şərqşünas alman alimi, Berlin Akademiyasının akademiki Vilhelm Şott (1802–1889) göndərmişdir.[61] Vilhelm Şott 13 avqust 1869-cu ildə eston dostuna yazdığı məktubda göstərir ki, müxəmməsi tarixçi alim, şərqşünas Adolf Berjenin (1828–1886) Almaniyada nəşr etdirdiyi "Qafqaz və Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuə" adlı topludan götürərək tərcümə edib göndərir (A. Berje XVIII–XIX əsr Azərbaycan şairlərinin əsərlərini toplayaraq onları orijinalda olduğu kimi, yəni ərəb əlifbası ilə 1868-ci ildə Leypsiq şəhərində nəşr etdirib).

Sakala Lisaleht.
№ 21. 1878.



Görüntülərdə: 1. 1878-ci ildə M. P. Vaqifin şeirinin estonca dərc edilmiş qəzetin titul səhifəsi. 2. Şeirin eston dilinə tərcüməçisi F. R. Kreytsvald. 3. Şərqşünas alman akademiki Vilhelm Şott.

Bu, ilk baxışdan paradoksal görünə bilən bir ədəbi əlaqə faktıdır ki, eston ədəbi klassiki heç özü də bilmədən, az qala 150 il öncə estonları məşhur Azərbaycan şairinin poeziyası ilə tanış edib!

İkinci fakt isə rusdilli nəşrlər vasitəsi ilə yaradılmış XIX əsr mədəni əlaqələrimizə aiddir.

[60] E. Nirk. Kolm kildu aserbaidžani klassikast Kreutzwaldi luule pärandis."Keel ja Kirjandus", 1963, Nr. 8. lk. 459–460.

[61] Исаков С. Г. Первые переводы из литератур народов Закавказья, Средней Азии и Ирана на эстонский язык. "Ученые записки" (Тартуский гос. ун-т), вып. 201. Труды по востоковедению, I том. Тарту, 1968, с. 313–314.

Böyük yazıçı, dramaturq və filosof Mirzə Fətəli Axundov (1812–1878) ədəbiyyat tarixində "Şərq poeması" adı ilə məşhur olan əsərini 1837-ci ildə dahi rus şairi A. Puşkinin ölümü münasibəti ilə yazıb. Əsər ilk dəfə həmin ildə *"Moskovskiy nablyudatel"* jurnalının mart nömrəsində müəllifin öz tərcüməsində rusca çap olunub.[62] Onda poema oxuculara "Puşkinin qəbri üstünə qoyulmuş nadir çiçəyə" bənzədilib təqdim edilmişdi. Bu publikasiyadan sonra poema uzun illər rus mətbuatının diqqət mərkəzində olub və müxtəlif illərdə Puşkinin yubileyləri münasibəti ilə *"Russkaya starina"* jurnalında, *"Peterburqskiy listok"* və *"Kavkaz"* qəzetlərində, *"Tiflisskiy listok"* ictimai-siyasi və ədəbi qəzetinin "Əlavələri"ndə çap olunub. Əsər həmçinin tanınmış rus ədəbiyyatşünası və biblioqrafı Vladimir Vladimiroviç Kallaşın (1866–1918) "Puşkiniana"sında dərc edilib.

1899-cu ildə A. Puşkinin anadan olmasının 100 illik yubileyi ilə bağlı o zaman Tallində buraxılan *"Revelskiye izvestiya"* ədəbi və siyasi gündəliyinin 20 may 1899-cu il tarixli sayında *"İz peçati"* – "Mətbuatdan" başlığı altında "Şərq poeması"nın M. F. Axundovun özü tərəfindən ruscaya nəsrən edilmiş tərcüməsi dərc olunub.[63] Təəssüf ki, bu publikasiyada əsər "Puşkinin ölümü haqqında fars poeması" kimi təqdim edilib və onun müəllifinin də fars şairi M. F. Axundov olduğu göstərilir. Redaktorun verdiyi qısa təqdimatdan məlum olur ki, bu publikasiya ədəbiyyatşünas V. V. Kallaş tərəfindən təshih olunmuş və Moskva qəzetlərindən birində çap edilmiş redaksiyada verilir.

Avropanı fəth etmiş Mirzə Şəfi nəğmələri Estoniyada

Azərbaycan ədəbiyyatının klassiki, mütəfəkkir şair və pedaqoq Mirzə Şəfi Vazeh (1794–1852) poeziyamızın gözəlliyini və əsrarsızlığını, böyük Şərqin, ilk növbədə Azərbaycanımızın təravətini çox-çox uzaqlarda tanıdan görkəmli ədiblərimizdən biridir. O, dövrünün ən tanınmış yaradıcı şəxsiyyətlərindən biri olmuş, həm Vətənində, həm də Avropa ölkələrində böyük şöhrət qazanmışdır.

Mirzə Şəfi ümumən Şərq-Qərb mədəni əlaqələri tarixində məşhur bir şəxsiyyətdir. O, həm də eston ədiblərinin diqqətini çəkmiş ilk Şərq şairidir. Eston şair və tərcüməçilərinin XIX əsrin sonu XX əsrin əvvəllərində Mirzə Şəfinin yaradıcılığına müraciət etməsi təbii ki, təsadüfü olmayıb. Onun poeziyası XIX əsrin ikinci yarısında artıq bir sıra Avropa dillərinə tərcümə edilmişdi və Mirzə Şəfi Avropa ölkələrində çox məşhur bir müəllif olaraq tanınmışdı.

Məlum olduğu kimi, Azərbaycan ədibi bu populyarlığı onun şeirlərinin alman şairi, tərcüməçi və tədqiqatçısı Fridrix Bodenştedt (1819–1892) tərəfindən tərcümə olunub "Mirzə Şəfinin nəğmələri" *("Die Lieder des Mirza-Schaffy")*

[62] Восточная поэма на смерть Пушкина. Журнал Московский наблюдатель, 1837, ч. XI, кн. II (март), с. 297–304.
[63] "Ревельские известия". 20 мая 1899 года, № 110, стр. 2.

adlı toplu şəkilində 1851-ci ildə Berlində nəşr etdirdikdən sonra qazanmışdır. Bütün Avropanın Mirzə Şəfiyə bir şair kimi vurğun olmasını təsdiq edən faktlardan biri olaraq bunu göstərmək vacibdir ki, "Mirzə Şəfinin nəğmələri" şeirlər toplusu 1851-ci ildən XX əsrin əvvəllərinə qədər alman dilində 160 dəfə çap edilib. Ümumiyyətlə, həmin kitab indiyə qədər Baltik xalqlarının dilləri də daxil olmaqla, dünyanın müxtəlif dillərində 300 dəfədən artıq çap ediib. Diqqətçəkən məqamlardan biri budur ki, "Mirzə Şəfi nəğmələri"nin bəzi rusca nəşrləri XX əsrin lap əvvəllərində Estoniyada çap olunubdur.[64]





1.Mütəfəkkir şair M. Ş. Vazeh. 2. "Mirzə Şəfinin nəğmələri" kitabının F. Bodenştedt tərəfindən 1883- cü ildə Berlində çap etdirilmiş miniatür nəşri. 3. Alman qafqazşünası və tərcüməçi Fridrix Martin Bodenştedt.

"Mirzə Şəfinin nəğmələri"nin Ümumavropa şöhrəti və bu toplunun XIX əsrin ikinci yarısında dönə-dönə almanca təkrarən nəşr edilməsi həmin illərdən başlayaraq həm də bir sıra eston ədiblərində Mirzə Şəfi poeziyasına böyük maraq yaratdı və onun şeirlərini tərcümə etmək həvəsi oyatdı. Mirzə Şəfini estoncaya çevirən ilk ədib Peeter Yakobson (1854–1899) olub. O, XIX əsr eston ədəbiyyatı tarixinə şair və tərcüməçi, milli dirçəliş dövrü eston romantik ədəbi məktəbinin epiqonu, folklordan qaynaqlanan vətənpərvər şeirlər və romantik dramlar müəllifi kimi daxil olub. P. Yakobson həm də 1877–1878-ci illər Rusiya–Osmanlı savaşında unter-zabit rütbəli hərbi qulluqçu olaraq iştirak edib.

P. Yakobsonun 1885-ci ildə Estoniyanın Rakvere şəhərində çapdan çıxmış "Şeirlər" kitabının ikinci cildində Mirzə Şəfinin beş şeirinin tərcümələri də yer alıb.[65]

[64] "Песни Мирза Шафи". Вып. 1, Юрьев, 1903 г. (перевод Исидор Саввич Продана).
[65] P. Jakobson. "Luuletused". Teine anne, Rakweres, 1885, lk. 21–23.

Tanınmış eston ədəbiyyatşünası, Tartu universitetinin professoru və sabiq millət vəkili Serqey İsakovun (1931–2013) yazdığına görə, Mirzə Şəfinin bu kitabda getmiş şeirlərinin hansı dildən tərcümə olunması göstərilməsə də, şübhə yoxdur ki, P. Yakobson onları F. Bodenştedtin nəşr etdirdiyi "Mirzə Şəfinin nəğmələri"ndən götürüb estoncaya çevirmişdir. S. İsakovun fikrincə P. Yakobsonun tərcümələri xüsusi poetik məziyyətləri ilə seçilmir, tərcümədəki üslub və şeir texnikası hətta, o zamankı tələblər və bədii meyarlar səviyyəsində deyildir. Bundan əlavə, P. Yakobson şeirləri kifayət qədər sərbəst tərcümə edir, tez-tez Bodenştedtin mətnlərindən uzaqlaşır və bəzən tərcüməni yerli ədəbi mühitə – o dövrdə qəbul olunduğu kimi eston oxucusunun səviyyəsinə "uyğunlaşdırır..."[66]

Daha sonra – 1889-cu il oktyabrda *"Sakala"* qəzetində ünlü eston şairi, nasir və tərcüməçi Yuhan Liyv (1864–1913) tərəfindən Mirzə Şəfidən tərcümə edilmiş iki şeir dərc olundu.[67] Çox vacib haldır ki, qəzetdə bu şeirlərin müəllifinin məhz Mirzə Şəfi olduğu göstərilib *(Mirza Schaffy järele – w).*

S. İsakovun qənaətincə bu şeirlərin tərcüməsi P. Yakobsonun tərcümələrindən daha uğurludur, nisbətən dəqiqdir, orijinalın mətninə daha yaxındır, qafiyə sistemində müəyyən dəyişikliklər edilməsinə baxmayaraq üslub baxımından daha mükəmməldir və eston dilində yaxşı səslənir.

Mirzə Şəfinin "Yenə gəldi qızılgülün dövranı" adlı daha bir şeiri Tartuda buraxılan *"Olewik"* həftəliyinin 7 mart 1894-cü il tarixli 10-cu sayında Qustav Vulff-Iys (1865–1946) adlı tanınmış eston şairinin (ədəbi təxəllüsü – Q. Iys) tərcüməsində yer alıb.[68] Üç bənddə on səkkiz misradan ibarət bu tərcümə „Bülbül və gül" *("Ööpik ja õis")* başlığı altında verilib və şeirin müəllifi kimi isə F. Bodenştedt göstərilib (*F. Bodenstedti järele).* Maraqlıdır ki, buna qədər eston mətbuatında işıq üzü görmüş tərcümələrdə yalnız Mirzə Şəfinin adı göstərilirdi.

Qeyd etmək istərdik ki, bu, göstərilən şeirin eston dilinə ikinci tərcüməsi idi (ilk dəfə 1885-ci ildə P. Yakobson tərəfindən çevrilib). P. Yakobsondan fərqli olaraq Q. Vulff-Iys şeirin mahiyyətini və ruhunu eston oxucusuna daha yüksək poetik səviyyədə çatdıra bilib. Professor S. İsakov şeirin ikinci tərcüməsinin yetərli səviyyədə dəqiq yerinə yetirildiyini vurğulayır və əsərin estonca uğurlu səslənməsinin başlıca mənbəyi kimi "Mirzə Şəfi nəğmələri"nin almanca nəşrindən götürülmüş Bodenştedtin tərcüməsini (*"Im Garten klagt die Nachtigall"*) göstərir.

Burada bir haşiyə çıxmağı vacib bilirik. Mirzə Şəfinin şeirlərinin eston dilinə tərcümə edilməsi ilə bağlı ötən əsrin 60-cı illərindən indiyədək Azərbaycan alimlərinin yazdıqları bütün məqalə və kitablarda, biblioqrafiya nəşrlərində və

[66] Исаков С. Г. Первые переводы из литератур народов Закавказья, Средней Азии и Ирана на эстонский язык. "Ученые записки" (Тартуский гос. ун-т), вып. 201. Труды по востоковедению, I том. Тарту, 1968, с. 315.

[67] Viljandi. "Sakala", 5 oktoober 1889. Nr. 40, lk. 2–3.

[68] Tartu. "Olewik", 7 märts 1894. Nr. 10.

Olewik

Olewik.

Ööpik ja õis.

Görüntülərdə (soldan sağa): 1-2. 1894-cü ildə M. Şəfinin şeirinin estonca dərc edilmiş "Olewik" qəzetinin titul səhifəsi və şeirin mətni. 3. Həmin şeirin estoncaya tərcüməçisi Qustav Vulff-Iys.

kitabxanaların biblioqrafik göstəricilər bazasında "Yenə gəldi qızılgülün dövranı" başlıqlı şeirin ikinci tərcüməsinin 1894-cü ildə *"Olewik"* həftəliyində dərc edilməsinin ay tarixi dəqiq göstərilməyib və fevral ayında çıxmış 10-cu sayda dərc edilmiş kimi qeyd olunub. Lakin 7 fevral 1894-cü il tarixində bu həftəliyin 6-cı sayı buraxılıb. 10-cu sayı isə 7 mart 1894-cü ildə çapdan çıxıb və sözügedən şeir də həftəliyin məhz bu tarixli sayında çap edilib. Biz bu məsələyə aydınlıq gətirmək üçün qəzetin həmin ilin fevral və mart aylarında buraxılmış bütün nomrələrini yoxlayıb tutuşdurduq. Həftəliyin 9-cu sayı 28 fevral 1894-cü ildə buraxılıb. Bir hərtədən sonra – yəni, mart ayının 7-də növbəti 10-cu nömrə buraxılıb. Yəqin ki, 10-cu nömrə nəşr edilərkən, qəzetin titul səhifəsindəki buraxılış tarixində ay adını göstərən çap klişesini mətbəədə hansı səbəbdənsə dəyişməyi unudublar. Nəticədə ayların yeri dolaşıq düşüb və "7 mart" yerinə "7 fevral" gedib. Odur ki, Mirzə Şəfinin eston dilinə tərcümələrinin tarixi ilə bağlı uzun illərdən bəri Azərbaycan mənbələrində yer almış yanlış ay tarixini təshih etmək zənnimizcə yerinə düşərdi.

İndi isə əsas mövzuya qayıdaq. Estoniyanın Xalq yazıçısı, tanınmış şair və tərcüməçi Anna Haava (1864–1957) da Mirzə Şəfi yaradıcılığına müraciət etmiş və onun poeziyasından "Gəl nəzər sal, hökm ver" *(estonca – "Tule ja waata ja otsusta siis")* misrası ilə başlanan bir şeiri tərcümə etmişdir. Bu tərcümə A. Haavanın 1906-cı ildə Tartuda çapdan çıxmış "Dalğalar" adlı poeziya kitabına daxil edilib (səh. 108).[69] Kitabda şeirin Mirzə Şəfiyə məxsus olduğu göstərilsə də, onun hansı mənbədən götürüldüyü təəssüf ki, qeyd olunmayıb.

[69] Anna Haava. Luulekogu "Lained", Tartu, 1906, lk. 180.

M. Şəfi poeziyasının eston dilinə tərcüməçiləri: 1. Peeter Yakobson. 2. Anna Haava. 2. Yuhan Liyv.

XIX əsrin ikinci yarasından başlayaraq bütün Avropada əsl poeziya pərəstişkarlarının qəlblərini fəth edən, burada sevilə-sevilə oxunan Mirzə Şəfinin həyat və yaradıcılığı barədə indiyədək kifayət qədər yazılsa da, onun əsərlərinin alman və başqa dillərə tərcüməsi ilə bağlı bir sıra mübahisəli məsələlər hələ də öz ədalətli həllini gözləyir.

Söz açılmışkən, F. Bodenştedt tərəfindən Mirzə Şəfinin şeirlərinin şüurlu surətdə mənimsənimləsi səbəbindən bu iki yaradıcı şəxs arasında yer almış plagiat məsələsinin obyektiv şəkildə həll edilməsi və Azərbaycan şairinin müəlliflik hüququnun bərpa olunması üçün böyük əhəmiyyət kəsb edən bir sıra Avropa müəlliflərinin əsərləri arasında məşhur poliqlot, linqvist alim, publisist, şair və tərcüməçi, Göttingen universitetinin fəlsəfə doktoru Yurgis Yustus Zaurveynasın (1831–1904) "Mirzə Şəfinin Şərq-Qərb Divanı" adlı kitabı mühüm əhəmiyyət kəsb edir. Y. Zauerveynas bu kitabı F. Bodenştedtin anadan olmasının 70 illik yubileyi münasibətilə 1889-cu ildə Leypsiq şəhərində çap etdirib.[70] O, bu kitabda Mirzə Şəfini yubiley münasibətilə müxtəlif dillərdə – Azərbaycan, türk, Litva, qədim alman, fars, sanskrit, Çin, ingilis, italyan, yunan, latın, erməni, macar, ərəb, rumın, polyak və bir sıra digər Avropa və Şərq dillərində ayrı-ayrı şeirlərlə təbrik edib (Y. Zauerveynas 62 dildə sərbəst danışırdı, 200 dildə müsahibinə fikirlərini çatdıra bilirdi və 30-dan artıq dildə isə şeirlər yazırdı). Fərqli dillərdə çap olunmuş bu təbrik şeirlərinin hamısının kitabda eyni zamanda alman dilinə tərcümələri də verilib.

[70] Georg Julius Justus Sauerwein. West-Östliches Stammbuch. Zu Mirza Schaffy's siebzigstem Geburtstage 22. April 1889. Drugulin, Leipzig, 1889. (43 səh).

Azərbaycan dilində yazılmış və Bodenştedtin mürşidi kimi Mirzə Şəfinin tərənnümünə həsr olunmuş şeir kitabın lap əvvəlində yer alıb:

Xanənin dərvazasında budur odlu izdiham,
Litvalılar, polşalılar göndərər sənə salam.
Hər qəbilələr, millətlər sevər bu şairi –
Ki, təmam aləmdə məşhurdur, şair əlməram.
Azərbaycan, həm Tiflis təbrik göndərir,
Bu diyarın hamisi Mirzə Şəfidir tamam.
Mürşidin Mirzə Şəfi tatarca yaxşı söyləmiş,
Mən muridin də yazaram bu səfi tatar kəlam.

Lakin Y. Zauerveynas Mirzə Şəfiyə ünvanladığı poetik təbriklərlə əslində F. Bodenştedti təbrik edirdi... Amma bu təbriklər bilavasitə F. Bodenştedtə həsr olunsa da, biz onlardan Mirzə Şəfinin şəxsiyyəti haqqında da müəyyən məlumatlar alırıq.

Göstərilən plagiat məsələsi ilə bağlı ədəbiyyatşünas professor Vaqif Arzumanlının "Mirzəşəfişünaslıqda yeni mərhələ" kitabında ətraflı məlumatlar və geniş izahatlar verilmişdir.[71]

Y. Zauerveynasın yaradıcılığı ilə bağlı bir neçə açıqlama verib qeyd etmək istərdik ki, Hannover şəhərində dünyaya gəlmiş sorb əsilli bu xadimin ömrünün 25 ildən artıq dövrü Litvanın ədəbi-mədəni və ictimai həyatı ilə sıx bağlı olub. O, 1875-ci ildən başlayaraq Memel – indiki Klaypeda şəhərində yaşayıb, Litva danışıq və ədəbi dilinə yüksək səviyyədə yiyələnib və burada bu dildə yazıb-yaradıb, Litva mətbuatı ilə fəal əməkdaşlıq edib. *Girėnas* ədəbi təxəllüsünü də Litva dilində seçib (bu təxəllüs etimologiyasına görə *Orman sakini* mənasındadır). Ermənipərəst olub. Hələ 1885-ci ilin fevral-mart aylarında ermənilərin müdafiəsi mövzusunda litvaca əsərlər dərc etdirib. Həmçinin, Litva, valon, polyak, bolqar, fin, sorb xalqlarını da əzilən xalqlar sayıb və daim onların hüquqlarını müdafiə edib. Sorblar indiyədək Y. Zauerveynasa milli qəhrəmanları kimi böyük hörmətlə yanaşırlar

Y. Zauerveynas Azərbaycan və türk dillərinə bir sıra tərcümələr edib. Şərqşünasların 1889-cu ildə Stokholmda və Xristianiyada keçirilmiş VIII konfransı münasibətilə onun Şərq və Qərb xalqlarına ünvanlanmış təbriklərdən ibarət tərcümə kitabı nəşr olunub. Kitaba 40 dildə müxtəlif ədəbi nümunələr daxil edilib. Burda Azərbaycan dilində "Türk qazısının hekayəti" də yer alıb.[72]

[71] Vaqif Arzumanlı. "Mirzəşəfişünaslıqda yeni mərhələ". Bakı, "Qartal", 2005, səh. 16–23.

[72] Girenas. Le Livre des Salutations adressées aü Nations Orientales et Occidentales composé pour le VIIIième Congrès des Orientalistes qui se réunira à Stockholm en 1889. Drugulin, Leipzig 1888.

1855-ci ildə Y. Zauerveynasın müəllifliyi ilə "İngiliscə-Türkcə lüğət" cib kitabı işıq üzü görüb.[73] Y. Zauerveynas Böyük Britaniya və Xarici Ölkələr Bibliya Cəmiyyətinin təklifi ilə "İncil" və "Tövrat"ı azərbaycancaya çevirib. Bu kitablar 1878 və 1890-cı illərdə Londonda nəşr olunub.[74]

Sonda isə "Avropanı fəth etmiş Mirzə Şəfi nəğmələri Estoniyada" mövzusuna qayıdıb belə bir fikrin altını cızmaq istərdik ki, onun bədii irsinə Baltik xalqlarının oxucuları bütün dövrlərdə böyük rəğbət bəsləmişlər. Bu maraq bizim günlərdə də davam edir...

Azərbaycan–Estoniya mədəni əlaqələri ilə bağlı daha bir neçə tarixi və ictimai-siyasi faktı təqdim etməyi lazım bilirik. Həmin faktlar ilk növbədə Bakı Eston Cəmiyyətinin (Cümhuriyyət dövründə Eston Milli Şurası adlanıb – *M. H.*) gördüyü vacib işlərlə bağlıdır. Belə ki, bu Cəmiyyət XX əsrin 1-ci rübündə Bakıda göstərdiyi zəngin fəaliyyəti ilə Azərbaycan və eston xalqları arasındakı mədəni əlaqələrin yüksək səviyyədə genişləndirilməsinə, həmçinin Azərbaycan–Estoniya dövlətlərarası münasibətlərinin qurulmasına mühüm töhfələr verib.

Cəmiyyətin Nizamnaməsi 8 aprel 1910-cu ildə Bakı şəhəri və ətraf rayonların rəisi, polkovnik Pyotr Martınovun idarəsində (rusca – *Градоначальство*) təsdiq olunaraq qeydiyyatdan keçib. Ofisi Bakıda keçmiş *Milyutinski* – indiki Tərlan Əliyarbəyov küçəsindəki 14 nömrəli binada yaşayan eston iş adamı Karl Sellerin mənzilində yerləşib. Cəmiyyətin ilk sədri də elə Karl Seller olub. Təşkilatın təsisçiləri və İdarə heyəti üzvlərindən Robert Puur, Heynrix Tomson, Martin Tomingas, Ernest Liventhal, Yan Randmann, Yaan Oya, Liidia Seller, Mihhail Kolk, August Villmann, Osvald Yürgenson və digər eston xadimləri o dövrdə Azərbaycanda getmiş ictimai-siyasi və mədəni proseslərdəki fəallığı ilə seçiliblər.

Estonların milli identikliklərini qorumaq, mədəni səviyyələrini yüksəltmək və bir sıra digər vacib maarifləndirmə işlərini aparmaq məqsədi ilə 1911-ci ildə Bakı Eston Cəmiyyətinin nəzdində kitabxana, qiraətxana, konsert və teatr dərnəkləri təşkil edilmişdi. Kitabxana Estoniyada estonca nəşr edilən bir sıra qəzetlərə Cəmiyyətin vəsaiti hesabına abunə yazılmışdı, eləcə də estonca buraxılan bəzi kitabları sifariş edib alırdı. 1912-ci ildə kitabxanada 125 adda estonca kitab vardı. Cəmiyyət mütəmadi olaraq müxtəlif mədəni tədbirlər və milli bayramlar keçirir, həmçinin lüteran dini mərasimlərinin təşkilində böyük

[73] D. Kaunas. Neišleista J. Basanavičiaus knyga (str. antroji dalis). Vilnius, "Mokslas ir gyvenimas", 2001, Nr. 11 (527).
[74] Mykolas Kristupas Kūjus (1906–1984). "Jurgis Zauerveinas, jo gyvenimas, veikla ir raštai" (monografija). Kaunas, 1937 m. VDU leidinys "Darbai ir dienos", knyg. 6, 5–105 psl. (2 leid. 1984 m.).

rol oynayırdı. Cəmiyyətin gördüyü işlər barədə 1911-ci ildən başlayaraq həm də Estoniyanın *"Sakala"* qəzetində bir çox məlumatlar yayımlanıb.

Sözgəlişi göstərək ki, bir sıra eston mühacirləri Azərbaycanda həm də iqtisadi sahədə təşəbbüskarlıq göstəriblər və sahibkarlıq fəaliyyətində seçiliblər. Hələ 1908-ci ildə Bakıda Estoniyanın *"Revel"* Səhmdar Cəmiyyətinin nümayəndəliyi var idi. Bu şirkət mebel istehsalı ilə məşğul olurdu. 1911-ci ildən isə Bakıda Narvadakı *Kreenholmi* ipəyirmə və parça manufakturasının (1857) nümayəndəliyi fəaliyyət göstərirdi. Bakıda bu müəssisənin təmsilçisi Rudolf Kayzer idi.

1913-cü ilin məlumatına görə Bakı Eston Cəmiyyəti İdarə heyətinin üzvü Yaan Oyanın iki ünvanda – *Kolyubakin* (indiki Nigar Rəfibəyli) və *Telefonnı* (indiki 28 May) küçələrində iki böyük qastronomiya mağazası var idi. Yeri gəlmişkən qeyd edək ki, Bakı Eston Cəmiyyəti İdarə heyəti üzvlərinin əksəriyyəti Telefonnı küçəsində yaşayırdılar.

Nüfuzlu eston iş adamı Otto Heynrix Kaberin də Bakıda iki ünvanda – *Vokzalnı* (indiki 28 May) və *5-ci Naqornı* (indiki akademik F. Qasımzadə) küçələrində iki özəl fabriki fəaliyyət göstərib.

Eston iş adamı Robert Puur o vaxt Bakıda neft sənayesi biznesində uğurla çalışıb və 1916-cı ildən başlayaraq Şubanı neft Şirkəti Səhmdar Cəmiyyəti səhmlərinin 75 faizi ona məxsus olub (o, Bakıya 1905-ci ildə gəlib).

O vaxt bir sıra yüksək ixtisaslı eston dənizçiləri Xəzər Gəmiçiliyi Səhmdar Cəmiyyətində yuxarı vəzifələrdə çalışıblar. Belə ki, M. Kolk *"Yuq"*, R. Romm *"Talmud"*, K. Vellau *"Koran"*, A. Isop *"Qr. Artsruni"*, Y. Strandman *"Mariya"* adlı gəmilərin kapitanı olublar. Çörəyini dənizdən çıxaran digər dənizçi estonlar – V. Grüntal *"Robert Nobel"*, Y. Käosaar *"Votkinskiy zavod"*, V. Isop isə *"Yakov Zevin"* adlı gəmilərdə kapitanın baş köməkçisi olaraq işləyiblər. Y. Remmel Xəzərdə iki mühərriklə işləyən ilk reversivli *"Delo"* adlı gəminin (1908) 2-ci kapitan köməkçisi kimi tanınıb.[75]

Bakı Eston Milli Şurasının sədri R. Puurun 30 iyun 1920-ci ildə Estoniyanın Baş nazirinə ünvanladığı məktubda göstərilirdi ki, "Azərbaycandakı estonların sayı 600 nəfərdir". Məktubda sonra vurğulanır ki, "estonların qeydiyyata alınması hələ bitməyib və göstərilən məlumat Eston Milli Şurasının ümumi yığıncağının protokolundan götürülüb".[76]

1920-ci ilin avqustundan başlayaraq Azərbaycan SSR-də Estoniya dövlətinin Konsulluğu fəaliyyət göstərib. Konsulluq 1922-ci ilin avqustun sonunda Sovet hökumətinin birtərəfli qaydada qəbul etdiyi avtoritar qərar və repressiv

[75] Cəfər Məmmədov. Eestlased Aserbaidžaanis XIX sajandi lõpul ja XX sajandi algul. Autoriõigus tõlkele eesti keelde: Silvi-Aire Villo, 2007, l. 31–32, 42, 66.
[76] Eesti Riigiarhiiv (ERA). F 1600, nimistu 1, säilikud 4, l 5. (Estoniya Dövlət Arxivi – M. H.).

Bakı Eston İcmasının fəalları: 1. Osvald Yürgenson. 2. Liidia Seller. 3. Yooseph Saar. 4. Yooseph Eynberg

tədbir nəticəsində ləğv edilib. Bakı Eston Milli Şurasının sədri Robert Puur göstərilən illər arasında çox mürəkkəb ictimai-siyasi və hərbi şəraitdə müstəqil Estoniyanın sovet Azərbaycanındakı konsulu olub.

Eston əsilli Böyük türk oğlu

1940-cı ilə qədərki Estoniya–Azərbaycan ədəbi-mədəni və elmi əlaqələri tarixinə yeni zəngin səhifələr yazmış daha bir dəyərli eston xadiminin – dilçi və tarixçi alim Artur Zifeldt-Simumyaginin (1889–1938) fəaliyyətini özəlliklə vurğulamaq istərdik. Qeyd edək ki, 1889-cu ildə Tallində anadan olmuş A. Zifeldt-Simumyagi 1898–1905-ci illərdə Odessada təhsil alıb. O, 1905–1912-ci illərdə çar Rusiyasında baş vermiş inqilabi hadisələrdə fəal iştirak edib, 1912–1917-ci illərdə Almaniyada və İsveçrədə mühacirətdə yaşayıb və o zaman burada V. Leninlə birgə işləyib.[77]

A. Zifeldt-Simumyagi 1921-ci ildən etibarən Azərbaycanda yaşayıb. O, 1921–1938-ci illərdə burada Azərbaycan dili, etnoqrafiya və tarixi, ədəbiyyat və incəsənəti, təbabət və təbiəti, eləcə də digər sahələrdə kompleks şəkildə araşdırmalar aparan elmi-tədqiqat strukturlarının yaradılması işində bilavasitə iştirak edib və onların məqsədyönlü surətdə təşkilatlandırılmasına mühüm töhfələr verib. Alim 1923–1929-cu illərdə Bakıda müxtəlif təşkilatlarda, o cümlədən Azərbaycanı Tədqiq və Tətəbbö (Araşdırma) Cəmiyyətində fəaliyyət göstərib və 1921–1926-cı illərdə Bakı şəhər Soveti İcraiyyə komitəsinin Xalq maarif şöbəsinin rəhbər əməkdaşı olaraq çalışıb. A. Zifeldt-Simumyagi 29 dekabr 1932-ci ildə SSRİ Elmlər Akademiyası Zaqafqaziya filialının Azərbaycan bölməsinin təşkilindən sonra Bakıda təsis edilmiş bir sıra institutlara – Dil və Ədəbiyyat instituna, (27.II.1936 – 01.VI.1937), Tarix instituna (8.V.1937 – 13.VII.1937) və digər elmi qurumlara rəhbərlik edib. O, həm də

[77] Arthur Siefeldt-Simumägi. Eesti Entsüklopeedia. http://entsyklopeedia.ee/artikkel/siefeldt-simumägi_arthur1

türkologiya və etnoqrafiya sahələrində apardığı bir sıra mühüm elmi işlərin müəllifidir.[78]

Göstərilənlərlə yanaşı, A. Zifeldt-Simumyagi türk xalqlarını tanıtdırmaq kimi vacib və müqəddəs bir işin öhdəsindən gəlmək üçün mühüm səylər göstərib. Belə ki, o, 1925–1926-cı illərdə I Ümumittifaq Türkoloji Qurultayının keçirilməsi üzrə Təşkilat komissiyasının Məsul katibi olub və 1926-cı ilin fevralın 26-dan martın 5-nə qədər Bakıda "İsmailiyyə" binasında keçirilmiş Qurultayın işində yaxından iştirak edib. A. Zifeldt-Simumyagi həmçinin Qurultayın 2 Mart 1926-cı ildə Azərbaycan SSR MİK sədri Səməd ağa Ağamalıoğlunun (1867–1930) sədrliyi ilə keçirilən VIII iclasında "Türk dillərində elmi terminologiyanın yaranma prinsipləri haqqında" məruzə edib.

1. A. Zifeldt-Simumyagi 2. I Ümumittifaq Türkoloji Qurultayının keçirilməsi üzrə Təşkilat komissiyasının plenumu. Bakı, 3-4 yanvar 1926-cı il. 3. Türkoloji Qurultayın stenoqrafik hesabatı. Bakı, 1926-cı il.

Kiçik bir haşiyə. Məlumdur ki, I Türkoloji Qurultay Türkologiyanı böyük və sistemli elmi təlim kimi təqdim etmişdi, həm də türk dünyasının çoxəsrlik tarixinin və gələcək inkişafının elmi cəhətdən tədqiq edilib öyrənilməsinin əsaslı proqramını irəli sürmüşdü. Bu Qurultay o zaman beynəlxalq miqyasda da möhtəşəm rezonans yaratmışdı. Qurultay həm də türk xalqlarının elmi-mədəni birliyinə, ortaq milli-mənəvi dəyərlərinin inkişaf etdirilməsinə, inteqrasiya proseslərinin dərinləşdirilməsinə geniş imkanlar açan bir elmi və ictimai-siyasi hadisə idi.

Qurultayın qərarı ilə türk xalqları latın əlifbasına keçdilər. Ancaq Türkiyə Azərbaycandan bir il əvvəl bu qərarı vermişdi. Xalq yazıçısı Anar Qurultayın

[78] Артур Рудольфович Зифельдт-Симумяги. "Деятельность Общества обследования и изучения Азербайджана за два года". ИООИАз. 1926. № 1. С. 107–112; Uralo-Altaica. Кн. 1. Баку, Издание ООИАз, 1927; Предисловие // Чурсин Г. Ф. Программа по сбору этнографических материалов на Кавказе. Баку, 1929; Тюркологические этюды. Баку, 1930; Удины. Баку, 1933; К вопросу о языке хазар // СТ. 1988. № 6. С. 81–88.

keçirilməsinin 80 illiyi ilə bağlı 2006-cı ildə yazdığı essede göstərir ki, "bəlkə elə buna görə, Stalinin şeytan beynində SSRİ-dəki türk xalqlarını Türkiyə türklərindən birdəfəlik ayırmaq üçün yenidən əlifba dəyişdirilməsi – indi də kiril-rus əlifbasına keçmək fikri oyandı və qısa müddətdə həyata keçirildi".[79] Şübhəsiz ki, belə islahatlar şəraitində Qurultay iştirakçılarının böyük əksəriyyəti 30-cu illərin Stalin siyasi repressiyaları burulğanından yan keçə bilmədilər, "pantürkist", "antisovet millətçisi" və "xalq düşməni" kimi qondarma ittihamlarla məhv edildilər. Anarın essesində metaforik şəkildə deyildiyi kimi, Stalin 39-cu ildə öncə azərbaycanlıların, sonra da SSRİ-nin digər müsəlman xalqlarının latın əlifbasından rus əlifbasına keçməsini qərara alanda hər hansı müzakirədən, mübahisədən, diskussiyadan çəkinməyə bilərdi. Müzakirələr 1926-cı ildə Bakıda "İsmailiyyə" binasında başlamış, 1937-ci ildə NKVD zirzəmilərində tamamlanmışdı. "İslahatçıların" da, "latınçıların" da aqibəti eyni olmuşdu.

Eston əsilli Böyük türk oğlu A. Zifeldt-Simumyagi də həmin faciəli aqibəti yaşadı. O, 11 fevral 1938-ci ildə "əksinqilabi pantürkist təşkilatın üzvü kimi" həbs olundu və 21 iyun 1939-cu ildə SSRİ XDİK yanında Xüsusi Müşavirənin Hökmü ilə 8 il azadlıqdan məhrum edilərək Kolıma islah-əmək düşərgəsində cəza çəkməyə göndərildi. Düşərgəyə gətirildikdən bir neçə ay sonra – 6 dekabr 1939-cu ildə elə burada həyatını itirdi. 1956-cı ildə Xüsusi Müşavirənin Hökmünün əsassız olduğu etiraf olundu və ona bəraət verildi.[80]

Latviya–Azərbaycan tarixi, mədəni və mənəvi bağları

Azərbaycan–Latviya mədəni əlaqələrinin əsasını qoymuş latış ziyalılarından danışarkən ilk növbədə, XIX əsrin sonlarından XX əsrin üçüncü onilliyinə qədər Azərbaycanda yaşayıb fəaliyyət göstərmiş Xalq yazıçısı Ernests Birznieks-Upitis[81] (1871–1960), pedaqoq, leksikoqraf və naşir Yekabs Dravin-Dravnieks (1858–1927), yazıçı, jurnalist və tərcüməçi Pavils Rozitis (1889–1937), pedaqoq və yazıçı Sudrabu Edjus (1860–1941; əsl adı – *Morics Eduards Zilbers*), qələm və fırça ustası Yanis Yaunsudrabinş (1877–1962) kimi xadimlərin adlarını çəkmək lazımdır.

Qeyd olunanlarla bərabər, məşhur latış nasiri, dramaturq, şair, tərcüməçi və ədəbi tənqidçi kimi tanınmış Xalq yazıçısı Andreys Upitis (1877–1970) I Dünya savaşı dövründə – 1915-ci ildə Azərbaycana pənah gətirib və bir

[79] Anar. Fərəh, ümid, faciə. Birinci Türkoloji Qurultay haqqında düşüncələr. Bakı, "525-ci qəzet", 23 iyun 2016-cı il.

[80] А. Зифельдт-Симумяги. Электронный биобиблиографический словарь востоковедов-жертв политтеррора в советский период. Адрес: http://history.slovaria.ru/bbsvzhptsp/zifeld-simumyagi-zifelt-simumyagi-artur-rudolfovich

[81] Justas Paleckis. "E. Birznieko-Upyčio jubiliejus". Vilnius, "Literatūra ir menas", 1971 m. gegužės 1 d, psl. 9.

1. P. Rozitis. *2. Y. Yaunsudrabinş* *3. Y. Dravin-Dravnieks*

müddət Bakıda latış həmkarı E. Birznieks-Upitisin yanında qalaraq yazıb-yaradıb (A. Upitis sonralar Latviya SSR Yazıçılar İttifaqının sədri və Sovet Latviyasının dövlət xadimi olub). Yuxarıda adı çəkilən yazıçı P. Rozitis də I Dünya savaşı illərində Bakıya pənah gətirib və 1915–1918-ci illərdə "Nobel qardaşları" neft şirkətində çalışıb. Bakıda yazıb-yaratmış bu latış yazıçısı həmçinin ailə xoşbəxtliyini də Bakıda tapıb və burada Antoniya adlı xanımla evlənib (1917-ci ildə Bakıda onların ilk övladı – *Viestards* adlı oğulları dünyaya gəlib).

E. Birznieks-Upitisin "Qafqaz hekayələri" toplusu, A. Upitisin "1915-ci ildə Bakıda" başlıqlı publisistik xatirələri, S. Edjusun "Cənub səması altında", "Yunus" kimi əsərləri o dövrdə Azərbaycan mövzusunda yaradılmış əsərlərdir.

Göstərilən yaradıcı xadimlərlə yanaşı, tanınmış latış yazıçısı və ədəbi tənqidçi, 1928–1930-cu illərdə müstəqil Latviyanın Xarici işlər naziri olmuş dövlət xadimi Antons Balodis (1880–1942; ədəbi təxəllüsü – *Antons Krauja*) 1911–1920-ci illərdə Bakıda fransız dili müəllimi olaraq çalışıb, eyni zamanda 1915-ci ildən başlayaraq Bakıda Latış Müharibə Qaçqınları Komitəsinin rəhbəri olub.

Görkəmli latış bəstəkarı, pedaqoq və dirijor Yazeps Medinş (1877–1947) də Bakı opera teatrının xormeystri və dirijoru kimi 1916–1922-ci illərdə Azərbaycanda fəaliyyət göstərib.

Azərbaycan–Latviya tarixi, ədəbi-mədəni və ictimai-siyasi əlaqələrinin əhəmiyyətli dərəcədə inkişaf etdirilib yeni məzmun və keyfiyyət səviyyəsinə qaldırılmasında XX əsrin əvvəllərində Azərbaycanda fəaliyyət göstərmiş latış ictimai təşkilatları mühüm rol oynayıblar. O təşkilatlar 1900-cü illərin lap əvvəllərindən yaranmağa başlanıb. Məsələn, o zaman Tiflisdə azərbaycanca nəşr

1. E. Birznieks-Upitis

2. Antons Balodis

3. Yazeps Medinş

olunan "Şərqi-rus" qəzeti 8 iyun 1903-cü il tarixli sayında yazırdı ki, Azərbaycanda Latış Xeyriyyə Cəmiyyəti yaradılır. Ümumən, 1905-ci ilin oktyabr ayına qədər Bakıda bir sıra digər milli xeyriyyə cəmiyyətləri ilə yanaşı latış ictimai-mədəni təşkilatları da *de facto* fəaliyyət göstəriblər. Həmçinin onların burada qeyri-leqal formada siyasi fəaliyyətlə məşğul olan qurumları olub.

Çar 17 oktyabr 1905-ci ildə Rusiya vətəndaşlarına siyasi hüquqlar – şəxsiyətin toxunulmazlığı, vicdan, söz, mətbuat, yığıncaq və ittifaq azadlıqları verən Manifest imzaladı. Bundan bir zaman sonra – 11 dekabr 1905-ci ildə Bakı latışlarının ictimai-mədəni təşkilatı *de jure* təsis olundu. "Latışlar İttifaqı" adlı bu təşkilat 1 fevral 1906-cı ildə rəsmi qeydiyyatdan keçib. İttifaqın təşkilati və mədəni fəaliyyəti barədə o zaman Riqada latışca buraxılan *"Müsu Laiki"* qəzetinin 21 fevral 1907-ci il tarixli sayında "Bakıdan xəbərlər" başlığı altında əhəmiyyətli bir məqalə çap olunub.[82] Məqalədə digər faktlarla yanaşı, təşkilatın yaradılma tarixi və adı, məqsəd və vəzifələri, idarə orqanları barədə bilgilər yer alıb. Məqalədə göstərilir ki, 1905-ci ildə "Latışlar İttifaqı" təsis edilən zaman 39 üzvü vardı, 1907-ci ildə isə üzvlərin sayı 3 dəfə artaraq 120 nəfərə çatmışdı.

Haşiyə çıxıb qeyd edək ki, 1905-ci il rus inqilabı nəticəsində Çar hökuməti daha bir sıra güzəştlərə getməyə məcbur oldu. 4 mart 1906-cı ildə çar II Nikolay Fərman verərək "İttifaqlar və cəmiyyətlər haqqında müvəqqəti qaydalar" təsdiq etdi. Həmin qaydalara görə rus xalqına, həmçinin Rusiya imperiyasında yaşayn qeyri-rus millətlərə, eləcə də bir sıra müxalifət hərəkatlara və siyasi partiyalara bəzi azadlıqlar verildi. O zaman "Müvəqqəti qaydaların" qüvvəyə minməsinə qədər fəaliyyət göstərmiş ittifaqlar və cəmiyyətlər yenidən qeydiyyatdan

[82] Tautietis. "No Baku". Rīga, laikraksts "Mūsu Laiki". 1907. gads 21. februāris, № 43, 2–3 lpp.

Muhſu Laiki.

Jisadd kattu deenu, iſnemot ſwedideenas un augſtako ſwehku deenas.

2. gada-galjſumo.

Redakſija, eſpedijſija un drukatawa atrodas Rigā, Elisabetes eelā Nr. 16, starp Suworowa un Marijas eelam.

Nr. 43. Treſchdeen, 21. februari (6. martā). 1907.

Bakı latışlarının təşkilati və ictimai-mədəni fəaliyyəti barədə latışca məqalə çap olunmuş "Müsu Laiki" qəzetinin üz səhifəsi. Riqa, 21 fevral 1907-ci il, № 43.

keçməli idilər. Bu tələblərlə bağlı "Latışlar İttifaqı" Bakıda fəaliyyət göstərən gürcü, yəhudi, polyak, ukrayna və digər milli icmalarla bərabər, 1906-cı ildə təşkilatlarını yenidən rəsmiləşdirdilər.

"Kaspi" qəzetinin 17 iyun 1906-ci ildə çıxmış sayında məlumat verilir ki, Bakı şəhəri və ətraf rayonların rəisi, general mayor Mixail Yevqenyeviç Konevski 7 iyun 1906-cı il tarixli Əmri ilə Taras Şevçenko adına *"Prosvita"* Ukrayna İcmasının və Bakı Latış Cəmiyyətinin nizamnamələrini təsdiq edərək onları yenidən hüquqi qeydiyyata almaq barədə göstəriş verib (bu zaman təşkilat "Latışlar İttifaqı" adı ilə deyil, Bakı Latış Cəmiyyəti kimi rəsmiləşdirilib).

Bakı Latış Cəmiyyətinin ofisi keçmiş *Kamenistıy* – indiki Bəşir Səfəroğlu küçəsindəki 223 saylı binada qərar tutmuşdu (sözgəlişi deyək ki, həmin bina tanınmış rus arxitektoru Adolf Vasilyeviç Eyxlerin (1869–1911) layihəsi əsasında 1901-ci ildə məktəb üçün tikilib).

1906–1910-cu illərdə Bakı Latış Cəmiyyətinin sədri Vilis Hertels olub. 1911-ci ilin noyabr ayından Cəmiyyətə Ernests Freys rəhbərlik edib. Zənnimizcə, Cəmiyyətin fəaliyyətinin konstruktiv istiqamətdə qurulması üçün çalışmış tanınmış latış xadimlərinindən (həm də iş adamlarından) bir neçəsini burada xatırlamaq yerinə düşərdi. O zaman Bakı Latış Cəmiyyətinin sədr müavini olaraq Ananiys Trumenkalns çalışıb. O, burada Xəzər Dəniz Gəmiçiliyi Səhmdar Cəmiyyətinin aksioneri və *"Ventyur"* adlı gəminin kapitanı olub. Cəmiyyətin katibi Antons Freybergs, xəzinədarı Yanis Bergmanis, onun köməkçisi isə Yanis Ozols idi. A. Freibergs həm də *"Elektriçeskaya sila"* Bakı Səhmdar Cəmiyyətinin aksioneri kimi tanınmışdı.

On nəfərdən ibarət Bakı Latış Cəmiyyətinin İdarə heyətinin aşağıda göstərilən üzvləri də o zaman icimaiyyət arasında yaxşı tanınmış şəxslər idi: 1. Yanis Buşs. 2. Krişyanis Grasis. 3. Martinş Kulis. 4. Martinş Lerhs. 5. Rudolfs Lusis. 6. Karlis Reynvalds. 7. Peteris Rotsens. 8. Yuris Sedlenieks. 9. Peteris Vegis. 10. Adolfs Vitolinş.

Bakı Latış Cəmiyyətinin təşkilati və mədəni fəaliyyəti o illərdə Azərbaycanda buraxılan dövri və qeyri-dövri mətbuat vasitələrində işıqlandırılıb. Bunu o dövrün "Şərqi-rus", "*Kaspi*", "*Bakinets*", "*Bakinskiy raboçiy* " qəzetlərində çap edilmiş məqalələr, həmçinin "*Bakinskiye Qubernskiye Vedomosti*", "*Bakinskiy sputnik*", "*Yejeqodnik. Baku i eqo rayoni*", "*Ves Baku*" kimi informasiya və sorğu xarakteri daşıyan nəşrlərdə yer almış publikasiyalar əyani şəkildə göstərir.

БАКИНСКОЕ
Латышское Общество
Въ субботу, 27 февраля с. г.,
въ артистическомъ клубѣ
СПЕКТАКЛЬ
съ участіемъ
ТАНЦАМИ.
Начало въ 8½ час. вечера.
Конецъ въ 5 часовъ утра.
Играетъ будетъ струнный оркестръ.
Плата за входъ обязательная.
ПРАВЛЕНІЕ.
B. L. B.
Sestdeen Februara 27 d. 1910 g.
Artistu klubâ
(pee Gubernatora dahrsa)
Teatra izsahde
AR SEKOSCHU-DEJU.
Israhdis: 3 z. jeku eugu: „Onkuls".
Sahkoma 8½ wak. beigas 5 no rihta.
Spehlea stihgu orkestrs.
Ee-cjas maksa parastâ.
B. L. B. WALDE.
№ 47 ГОДЪ XXX Суббота, 27-го февраля 1910 г.
Каспій

Bakı Latış Cəmiyyətinin 27 fevral 1910-cu ildə Bakıda Artistlər klubunun zalında keçirdiyi musiqili səhnə tamaşasının rus və latış dillərində çap edilmiş afişası ve bu tamaşa haqqında anons dərc olunmuş "Kaspi" qəzetinin 27 fevral 2010-cu il tarixli sayının üz səhifəsinin görüntüsü.

Yeri düşmüşkən, bəzən latış ictimai-mədəni cəmiyyətləri və qarşılıqlı yardım kassa təşkilatları daxilində solçu sosial-demokrat və bolşevik partiyaları və onların mətbu orqanları ilə əməkdaşlıq edən, həm də fəhlələrin sosialist hərəkatında iştirak edən müxtəlif latış qrupları da olub.

Sonda qeyd etmək istərdik ki, tarixçi alim, professor Musa Qasımlının "Xarici dövlətlər və Azərbaycan (aprel işğalından SSRİ yaradılana qədərki dövrdə diplomatik-siyasi münasibətlər)" monoqrafiyasının "Azərbaycanın Litva, Latviya və Estoniya ilə münasibətləri" bölümündə Baltik mühacirlərinin

etnik vətənlərinə qayıtmaları ilə bağlı onların Bakıda fəaliyyət göstərmiş cəmiyyətlərinin 1920–1921-ci illərdə burada gördüyü bəzi işlər barədə bir qisim bilgilər verilib.[83]

Qədim Litva–Azərbaycan mədəniyyət körpüləri

Litva ilə qədim mədəni əlaqələrimizdən danışmazdan öncə, özəlliklə vurğulamaq istərdik ki, Azərbaycan–Litva dövlətlərarası münasibətlərinin tarixi XV əsrdən hesablanır. Ağqoyunlu (1468–1503) və Səfəvi dövlətləri (1501–1736) XV əsrin ikinci yarısı və XVII əsrin əvvəllərində bir sıra Avropa ölkələri, o cümlədən əvvəlcə Böyük Litva Knyazlığı (1236–1569), sonralar Böyük Litva Knyazlığı və Polşa Krallığının 1569-cu ilin iyulunda imzaladıqları Lüblin uniyasına əsasən birgə yaratdıqları Reç Pospolita unitar dövləti ilə (1569–1795) rəsmi əlaqələr qurmuşdular (həmin unitar dövlət polyakca *Rzeczpospolita Obojga Narodow,* litvaca *Abiejų Tautų Respublika* – yəni, "Hər İki Xalqın Respublikası" adlanırdı: – *M. H.).*

Buna baxmayaraq Azərbaycan–Litva mədəni əlaqələrinin tarixi XIX əsrin 2-ci rübündən hesablanır. Bu əlaqələrin kökləri XVIII əsrin axırlarında və XIX əsrin əvvəllərində Rusiya sərhədlərinin zorla genişləndirilməsi nəticəsində, digər ölkələr kimi həm də Litvanın və Azərbaycan xanlıqlarının Rusiya imperiyasının tərkibinə qatıldığı dövrə gedib çıxır. Buna rəğmən xalqlarımız arasındakı bilavasitə mədəni əlaqələr XX əsrin əvvəllərinə kimi məhdud xarakter daşıyıb (bunun bir sıra səbəblərini bu kitabın "Talelərinə qürbət biçilmiş Baltik övladları" yarımfəslində açıqlamışıq).

Litva–Azərbaycan mədəni əlaqələrinin ilk qaynaqlarının yaranmasında öncə Böyük Litva Knyazlığının və sonralar Reç Pospolita unitar dövlətinin müxtəlif etnik kökənli vətəndaşlarının varisləri – tatar, karaim, eston, latış, polyak, rus, ukrayna, belarus, alman, sorb, ingilis, fransız xalqlarının xadimləri körpü rolunu oynayıblar. Odur ki, bu xalqlarla əlaqələrimizin tarixini araşdıran zaman, Azərbaycan–Litva mədəni əlaqələrinin də qədim izlərini bu müstəvidə görmək mümkündür.

Şərqşünaslığın inkişafında, həmçinin XIX əsrdə Litva–Azərbaycan mədəni əlaqələrinin dolayısı ilə qurulmasında Vilnüs Universitetinin müxtəlif millətlərdən olan qeyri-litvalı professorları və məzunları önəmli rol oynayıblar. Bununla bağlı, mədəni əlaqələrimizin ilk pöhrələrinin boy atması üçün töhfələr vermiş bir sıra məzunların – İqnati Petraşevski (1796–1869), Adam Mitskeviç (1798–1855), Osip Senkovski (1800–1858), Aleksandr Xodzko (1804–1891),

[83] Musa Qasımlı. Xarici dövlətlər və Azərbaycan (aprel işğalından SSRİ yaradılana qədərki dövrdə diplomatik-siyasi münasibətlər). Bakı, "Qanun", 1998, səh. 103–110

Lyudvig Şpitsnagel (1807–1827), Anton Muxlinski (1808–1877) kimi məşhur şərqşünasların və yazıçıların gördüyü mühüm işləri göstərmək mümkündür.

Həmin işlərə misal olaraq qeyd etmək istərdik ki, Nizaminin "İskəndərnamə" poemasından bəzi parçaların ilk dəfə fransız dilinə tərcümə edilməsi[84] (L. Şpitsnagel və F. Şarmua. Sankt-Peterburq. 1829-cu il), O. Senkovski tərəfindən 1824-cü ildə "Gözəl taxta kukla" Azərbaycan nağılının ruscaya tərcümə olunması,[85] həmçinin onun 1842-ci ildə *"Biblioteka dlya çteniya"* jurnalında "Koroğlu" dastanından bir hissəni rusca dərc etdirməsi, daha sonra 1842-ci ildə O. Senkovskinin "Şirvan dövlətinin süqutu" adlı macəra povestinin çap olunması,[86] "Koroğlu" eposunun ingiliscəyə (A. Xodzko. *"Specimens of the popular poetry of Persia..."*, London, 1842) və fransız dilinə (Jorj Sand və A. Xodzko. Paris. 1853.[87]) çevirilməsi, Nəsiminin şerlərinin polyakcaya tərcümə edilməsi (A. Xodzko. 1889), A. Muxlinski tərəfindən Litva tatarları və karay türkləri haqqında 1857–1862-ci illərdə aparılmış elmi çalışmalar,[88] İ. Petraşevskinin Osmanlı türkcəsinə tərcümələri ("Qırx Vəzirin hekayətləri". S. Peterburq, 1842–1845) və digər bu kimi ədəbi-mədəni faktlar məhz Vilnüs Universiteti şərqşünaslıq məktəbi məzunlarının fəaliyyəti ilə əlaqədardır.

Yeri gəlmişkən nəzərə çatdırmaq istərdik ki, hələ XIX əsrin birinci rübündə Vilnüs Universitetində fəaliyyət göstərmiş gizli tələbə dərnəkləri (Filomatlar və Filaretlər), eləcə də Vilnüsdə yaradılmış liberal ziyalı təşkilatları (Şubravslar cəmiyyəti) fəalları tərəfindən Şərq mədəniyyətinə güclü və romantik bir maraq oyanmışdı ki, bu da öz növbəsində bu yönəkli elmi fəaliyyətin inkişafına güclü təkan vermişdi (Bu təşkilatların fəalları sırasında Adam Mitskeviç, İoaxim Lelevel, Tomaş Zan, Yan Çeçot və bir sıra digər məşhur xadimlər olublar).

Xüsusilə vurğulamaq istərdik ki, XIX əsrdə Azərbaycan–Litva mədəni əlaqələrinin təşəkkül tapması prosesində o dövrdə Litvada yaşayıb fəaliyyət göstərmiş bir sıra polyak xadimləri mühüm xidmətlər göstəriblər. Onların içərisində Vilnüs Universitetinin məzunları – məşhur şair, dramaturq, esseist, tərcüməçi və inqilabçı xadim Adam Mitskeviçi, eləcə də tanınmış şərqşünas, şair və diplomat Aleksandr Xodzkonu xüsusilə qeyd etmək istərdik. A. Mitskeviç və A. Xodzko görkəmli şərqşünas alim, Peterburq universitetinin professoru Mirzə Cəfər Topçubaşovla (1790–1869) dostluq və yaradıcılıq əlaqələri saxlayıblar.

[84] Jan Reychman. Ludwik Spitznagel jako tlumacz Nizamiego. Przegląd Humanistyczny. Wydawnictwa Uniwersytetu Warszawskiego. ISSN 0033-2194. Tom 8 (1964), Nr. 5 (44), s. 67–79; Рауф Исмаилов. Азербайджанско-французские литературные связи. Баку, изд. "Языцы", 1983, стр. 40–60.

[85] Деревянная красавица. Собрание сочинений Сенковского. Том первый. Санкт-Петербург, 1858. стр. 236–255.

[86] Ibid. стр. 317–504.

[87] Эльмира Фараджуллаева. Жорж Санд и Восток. Автореферат диссерт. на соиск. уч.степени к.ф.н. Баку, 1997.

[88] Антон Осипович Мухлинский. "Исследование о происхождении и состоянии литовских татар". СПб., 1857. Антон Осипович Мухлинский. "Очерк о караимах в Польше". 1862.



Vilnüs Universitetinin məzunları. 1. Adam Mitskeviç. 2. Osip Senkovski. 3. Aleksandr Xodzko

M. C. Topçubaşov A. Mitskeviçi ilk dəfə fars dilinə tərcümə etmiş müəllifdir. Bu, polyak şairinin məşhur "Krım sonetləri" silsiləsindən olan "Gözləv çöllərindən dağların görünüşü" əsərinin 1826-cı ildə edilmiş tərcüməsi ilə bağlıdır. A. Xodzkonun M. C. Topşubaşovla yaxınlığı isə onun Azərbaycan tarixinə və mədəniyyətinə olan marağını artırmış və nəticədə o, ədəbiyyatımız üçün bir sıra dəyərli xidmətlər göstərmişdir.

A. Xodzkonun və A. Mitskeviçin xalqımızın tarixi və ədəbiyyatı ilə əlaqələri haqqında həm Azərbaycan, Litva və Belarus, həm də polyak və rus ədəbiyyatşünaslığında geniş bəhs edilib.

1842–1849-cu illərdə Vilnüsdə məşhur nəşriyyatçı-tipoqraf Yosef Zavadskinin mətbəəsində polyak dilində nəşr edilən "Rubon" ədəbi jurnalının IX cildində (1849) "Zaqafqaziya tatarlarının bir neçə xalq nəğməsi. Toplayanı və Bakılı Abbasqulu xanın köməyi ilə tərcümə edib izah edəni – Tadeuş Lada Zablotski" başlığı altında Azərbaycan ədəbiyyatıdan bəzi nümunələr dərc edilmişdir.[89] Bunların arasında M. P. Vaqifin "Ey Vidadi, gərdişi-dövrani-kəcrəftarə bax!" misralı mənzum məktubu (qəzəli) da yer alıb. Bu əsərləri o zaman Qafqazda sürgünlük həyatı yaşayan polyak şairi, etnoqraf və tərcüməçi Tadeuş Lada Zablotski (1811–1847) dostu Abbasqulu ağa Bakıxanovun yardımı ilə tərcümə edib çapa hazırlamışdı. Tərcümələr polyak şairinin ölümündən sonra dərc edilib. Bu publikasiya barədə ədəbiyyatşünas alimlər Murtuz Sadıqov (1929–1997) və Gülər Abdullayevanın araşdırmalarında ətraflı məlumatlar verilib.[90]

[89] Kilka pieśni gminnych zakaukaskich Tatarów zebrał i za pomocą Abhas Kuli Chana Bakińskiego wytłumaczył i objaśnił Tadeusz Łada Zabłocki. Wilno. Rubon, t. 9. 1848, s.111.

[90] М. Садыхов. "Очерки русско-азербайджанско-польских литературных связей XIX века". Баку, 1975; Г. Абдуллабекова. "Азербайджанско-польские литературные связи XIX–XXI веков". Баку, 2012.

Baltik ölkələri və Azərbaycan xanlıqları Rusiya imperiyasına birləşdirildikdən sonra həm də bəzi azərbaycanlı xadimlərin bu ölkələrə səfərlər edib yerli xalqların tarixi və mədəniyyəti ilə yaxından tanış olmaları üçün yeni imkanlar yaranır. Bu fikri söyləməyə imkan verən faktlardan biri olaraq görkəmli tarixçi, yazıçı və tərcüməçi Abbasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm" (1841) əsərində onun 1833–1835-ci illərdə bir çox ölkələrə səyahətə çıxması, o cümlədən Liflandiyada (1918-ci ildən Estoniya və Latviya), Litvanyada və Lehistanda olması, eləcə də bu ölkələrdə bir sıra təcrübəli dövlət adamları, məşhur alim və sənətkarlarla görüşməsi barədə yer almış bilgiləri göstərmək olar.[91]

1. M. C. Topçubaşov

2. M. Kazım bəy

3. A. Bakıxanov

Kazan universitetinin ən adlı-sanlı professorlarından biri, şərqşünas akademik Mirzə Kazım bəy (1802–1870) dəfələrlə Litvada olub, Vilnüs Universitetində çalışan bir sıra şərqşünas alimlərlə görüşüb və elmi müzakirələr aparıb. Onun Litva və Polşa dövlətlərinin tarixinə dair apardığı dəyərli araşdırmalardan biri Qısıl Orda xanı Toxtamışın Böyük Litva Knyazı və Polşa kralı Yagelloya (1348–1434) ünvanladığı məktubun ruscaya tərcümə etməsi və yazdığı şərhlərlə bağlıdır. M. Kazım bəy bu barədə ilk dəfə 7 fevral 1838-ci ildə alman əsilli şərqşünas alim, Sankt Peterburq Akademiyasının akademiki Boris Andreyeviç Dorna (1805–1881) yazdığı məktubunda göstərib:

"...Keçən yaz Moskvada olduğum vaxt knyaz Obolenski mənə Toxtamış xanın Polşa kralı Yagelloya göndərdiyi məktubun faksimilesini gətirmişdi. Məktub uyğur dilində yazılıb. Onun tatarca necə səsləndiyini müəyyənləşdirmək, habelə bu məktubu rus dilinə çevirmək məni çox maraqlandırırdı. Lakin tərcümənin özü də ortaya bir sıra problemlər çıxardı. Mən bu qədim və maraqlı ədəbi abidəyə şərhlər yazmaq, onun haqqında ayrıca məqalə işləyib hazırlamaq

[91] Ş. Qurbanov. Əsərləri. II cild (XIX əsrdə Azərbaycan-rus ədəbi əlaqə-nin inkişaf mərhələləri). Bakı, 1970, s. 100–101.

və bütün bunları İmperator Elmlər Akademiyasının təntənəli yığıncağına təqdim etmək qərarına gəldim. Məqaləni hansı dildə yazmaq məsələsi üzərində uzun müddət baş sındırandan sonra, nəhayət, rus dilini seçdim, çünki məlumat və faktlar bilavasitə Rusiyanın həmin dövrdəki tarixinə aiddir..." [92]

Mirzə Kazım bəyin göstərilən mövzuda işlədiyi 85 səhifədən ibarət geniş həcmli türkoloji tədqiqat oçerki 1841-ci ildə Rusiya Xalq Maarif Nazirliyinin jurnalında çap olunub.[93]

Daha bir azərbaycanlı müəllif – tanınmış dövlət xadimi, yazıçı və diplomat Yusif Vəzir Çəmənzəminli (1887–1943) Litva tarixini tədqiq edib və "Litva tatarlarının tarixi" adlı geniş həcmli tarixi oçerk yazıb. Müəllif bu tədqiqatı 1919-cu ildə Krımın Ağməscid – indiki Simferopol şəhərində kitab şəklində çap etdirib. Göstərilən tədqiqat işi tarixi-etnoloji istiqamətdə aparılıb və əsərin adından da göründüyü kimi Litva tatarlarının tarixinə həsr olunub.

Əsər 9 fəsil və xülasədən ibarətdir. Zənnimizcə, həmin fəsillərin adları belə, tədqiqatın əsas tərəflərini yaxından təsəvvür etmək üçün imkan yaradır: I. Litvanyada birinci tatar mühacirləri. II. Knyaz Vitovt zamanı. III. Litvanyada tatar axınının sonrakı davamı. IV. Litvanyada tatarların üçüncü Siqizmund ulusundan əvvəlki halları. V. Üçüncü Siqizmund zamanı sıxıntıları. VI. Yeni Poloniya qanunları və tatar. VII. Rus qanunları. VIII. Litvanya tatarlarının sayı. IX. Litvanya tatarlarının məişətinə dair. X. Xülasə.[94]

Müəllif bu mövzuda tədqiqat işini aparmaqda məramını kitaba yazdığı müqəddimədə belə açıqlayıb:

"Böyük Avropa müharibəsi bir çox millətlərə zərbələr vurduğu kimi, Litvanya tatarlarına da toxundu və əsrlərdən bəri Litvanyada, Lehistanda və Volında gəlmə olan tatarlar torpaqlarını və məskənlərini tərk etməyə məcbur oldular. Bu gün bu tatarların bir çoxunu Krımda görürüz: generallar, zabitlər, hüquqşünaslar, doktorlar, məmurlar və bir çox sənətçilər. Əvvəlcə vətənlərindən yay və qılıncdan başqa tişa bir şey götürməyən tatarlar, bu gün (tişdan) elm və fünun ilə təchizli olaraq geri dönür.

Lakin çox yazıq, ana dillərini qeyb etmişlər. Bizim islamlıq və türklük borcumuz: Litvanyalı qardaşlarımızı hörmət ilə əski vətənlərinə qəbul etmək və onlara türk dili öyrətmək. Bu bizim həpimizin müqəddəs vəzifəmizdir. Krım tatarı münəvvər sinfinə çox möhtac olduğu üçün zəruri ehtiyacı bir parça dəf edərlər, zənnindəyiz.

Bu kaç səhifəlik risalə ilə əgər Litvanya tatarlarina dair rəğbətləri qazanan məlumat verə bilərsəm, məqsədimə müvəffəq oluram..."

[92] Vilayət Quliyev. "Qüdrətli şərqşünas" (məqalə). Bakı, "Azərbaycan" jurnalı, 1983, № 4, səh. 181.

[93] М. А. Казем бек. "Исследования об уйгурах". Журнал МНП, СПб 1841, часть XXXI, отд. II, стр. 37–122.

[94] Yusif bəy Vəzirov (Çəmənzəminli). "Litva tatarları tarixi". Bakı, "Nurlan", 2006, 83 səh.

Yazıçı müqəddimənin sonunda qeyd edir ki, əsəri yazarkən yeganə məxəz olaraq Sankt Peterburq universitetinin professoru A. Muxlinskinin 1857-ci ildə rusca çap olunmuş *"Issledovaniye o proisxojdenii i sostoyanii litovskix tatar"* kitabından istifadə edib.

Yusif Vəzirin ötən əsrin 30-cu illərində yazıb tamamladığı "Studentlər" romanında da Litva tatarları (tatar murzaları), slavyan-tatar qarışıqlığı ilə bağlı bir sıra ictimai-siyasi fikirlər vardır.

"Studentlər" bioqrafik romandır. Onun baş qəhrəmanı Rüstəm bəy surətində avtobioqrafik cizgilər çoxdur. Müəllif Rüstəm bəyin simasında həm də özünün mürəkkəb həyat yolunu əks etdirib. Əsərin birinci cildi 1911–1913-cü illəri, ikinci cildi isə 1917-ci il hadisələrini əhatə edir. Roman həm də Cümhuriyyətə qədərki elitanın necə formalaşdığını və regiondakı siyasi-ideoloji proseslərin necə getdiyini göstərən qiymətli bir əsərdir. Yusif Vəzir Rüstəm bəyin dili ilə öncə "türk" ilə "Turan" ideayasını eyniləşdirir, "Türk-tatar aləmini hürr, müstəqil, müntəzəm və mütərəqqi bir dövlət şəklində təsəvvür edir". Daha sonra isə baş qəhrəman bu ideyadan uzaqlaşır.

Romanın birinci cildinin 28 aprel çevrilişindən əvvəl yazılmış variantında əks olunmuş millətçi ideologiya, müstəqil türk dövlətləri məramı, türk xalqlarının mədəni və siyasi birliyi – Turan ideyası, Yusif Vəzirin "Litva tatarlarının tarixi" oçerkində düzənlədiyi türkçülük və türk birliyi amacı ilə yaxından uzlaşır.


ИЗСЛѢДОВАНІЕ
О ПРОИСХОЖДЕНІИ И СОСТОЯНІИ
ЛИТОВСКИХЪ ТАТАРЪ

1. Y. Vəzir Çəmənzəminli. 2. Professor A. Muxlinski. 3. A. Muxlinskinin rusca "Litva tatarlarının mənşəyi və durumu haqqında araşdırma" kitabının görüntüsü. Sankt Peterburq, 1857.

Söz düşmüşkən onu da qeyd etmək istərdik ki, Litva tatarları haqqında Azərbaycanda 1925–1927-ci illərdə digər araşdırmalar da aparılıb və Azərbaycanı Tədqiq və Araşdırma Cəmiyyətinin xəbərlərində rus dilində dərc olunub.

1926-cı ildə bu Xəbərlərdə mənşəcə Litva tatarı olan publisist, arxeoloq və etnoqraf Cəmil Aleksandroviç-Nasıfinin (1883– ?) "Litva tatarları" adlı qısa tarixi-etnoqrafik oçerki[95] və görkəmli türkoloq alim, akademik Aleksandr Samoyloviçin (1880–1938) "Litva tatarları və ərəb əlifbası" başlıqlı məqaləsi[96] çap olunub. 1927-ci ildə isə Xəbərlərdə C. Aleksandroviç-Nasıfinin daha bir araşdırması – "Litva tatarları türk Şərqinin bir hissəsi kimi" mövzusunda məqaləsi işıq üzü görüb.[97]

Rusiya Şərqşünaslığı və ekspansiv siyasət

Yuxarıda təqdim olunmuş misallardan göründüyü kimi, XIX əsr Litva–Azərbaycan ədəbi və mədəni əlaqələrinin başlıca xətləri, ilk növbədə müxtəlif millətlərdən olan müəlliflərin, həmçinin Vilnüs Universitetində təhsil almış və ya çalışmış şərqşünasların fəaliyyət və yaradıcılığından keçir.

Haşiyə çıxaraq qeyd edək ki, Avropanın qədim təhsil mərkəzlərindən biri olan Vilnüs Universiteti (1579) XIX əsrin 30-cu illərinə qədər bu elm ocağında hökm sürmüş çoxmillətli Reç Pospolita vətəndaş cəmiyyətinə xas olan sağlam mənəvi iqlimlə, habelə yüksək demokratik dəyərlər şkalası, güclü anti-çar əhval-ruhiyyəsi və üsyankar ictimai durumla Rusiyanın digər İmperator universitetlərindən köklü surətdə fərqlənirdi. Universitetin bir sıra müəllimləri və gizli tələbə dərnəklərinin polyak, litva, ukrayna və belarus əsilli üzvləri vətənpərvərlik duyğularına bağlılıq, mütərəqqi ideyalara sədaqət və milli azadlıq ideallarına inam hisslərini daşıyır və təbliğ edirdilər. Həmçinin Şərq tarixi və fəlsəfəsi ilə bağlı burada mütərəqqi ruhlu böyük ideyalar generasiya olunur və yeni-yeni konseptual baxışlar yaranırdı.

Lakin buna baxmayaraq, Vilnüs Universitetinin Şərqşünaslıq mərkəzi geniş anlamda Rusiya Şərqşünaslığının tərkib hissəsi olaraq qalırdı. Həm də ki, universitetin azad ruhlu, mütərəqqi fikirli professor və tələbələri Polşa və Litvada 1830–1831-ci illərdə Rusiya imperiyasına qarşı olmuş xalq üsyanlarında iştirak etdiklərinə görə, çar I Nikolayın əmri ilə Universitet 1832-ci ildə bağlanmışdı, çara loyal olmuş alimlər isə Peterburq universitetinə və digər ali məktəblərə keçmişdilər.

Beləliklə, deyə bilərik ki, XIX əsr Azərbaycan–Litva ədəbi-mədəni əlaqələrinin təşəkkül tapıb inkişaf etməsində Rusiya şərqşünaslarının rolu danılmazdır.

[95] Дж. Александрович-Насыфи. "Литовские татары". Краткий историко-этнографический очерк. Баку, Известия Общества обследования и изучения Азербайджана, 1926, № 2, с. 77–95.

[96] А. Н. Самойлович. "Литовские татары и арабский алфавит". Баку, Известия Общества обследования и изучения Азербайджана, 1926, № 3, стр. 3–7.

[97] Дж. Александрович-Насыфи. "Литовские татары, как часть тюркского Востока". Баку, Известия Общества обследования и изучения Азербайджана, 1927, № 4. стр. 147–164.

Bununla bərabər mütləq şəkildə vurğulanmalıdır ki, Litva–Azərbaycan mədəni əlaqələrinin genişlənməsinə Rusiya şərqşünasları tərəfindən verilmiş töhfələr və müsbət təkanlarla yanaşı, XIX–XX əsrlərdə həmin proseslərdə mənfi məqamlar da yox deyil. Bu barədə danışmazdan öncə, Rusiya Şərqşünaslığının başlanğıc mərhələsi və mahiyyəti barədə bir neçə yorum vermək istərdik.

Rusiya imperiyasında elmi Sərqşünaslığın yaradılması istiqamətində ilk addımlar XVIII əsrin II rübündə atılıb. Bu, 1724-cü ildə Sankt-Peterburqda Rusiya Elmlər Akademiyasının yaradılması və 1728-ci ildən başlayaraq Akademiyanın xətti ilə nəşr edilən "*Sankt-Peterburqskiye vedomosti*" qəzetində Şərq ölkələri (o cümlədən Türkiyə və İran) haqqında məlumatların, orijinal çalışmaların və tərcümələrin dərc edilməsi ilə bağlı olub.[98]

Lakin İmperiyada Şərqşünaslığın yaranmasına dövlət tərəfindən verilən dəstək Rusiyanın Şərq ölkələrinə bəslədiyi hörmət və elmi maraqlardan irəli gəlmirdi, həm də qədim və zəngin Şərq mədəniyyətindən əxz etmək məqsədi güdmürdü. Rusiya bu ölkələri cəhalətdə yaşayıb geridə qalmış xalqların arealı kimi tanıtmaq və özünü onların xilaskarı kimi təqdim etmək siyasəti yürüdürdü.

O dövrün böyük zəkaları, hətta Rusiya İmperator universitetlərində çalışan bir sıra şərqşünas alimlər bu cür siyasətin elmi cəhətdən böyük zərərini görür və bundan narahat olaraq öz tənqidi fikirlərini ictimaiyyətə bildirməkdən çəkinmirdilər. Məsələn, dünya və Rusiya Şərqşünaslıq elminin korifeylərindən biri olaraq tanınmış böyük Azərbaycan türkü, akademik Mirzə Kazım bəy Rusiyaya Şərq ölkələrindən gətirilmiş türk, fars və ərəbdilli əlyazmaların ciddi tədqiqat obyektinə çevrilmədiyindən təəssüflə söz açırdı. Çar hökumətinin Şərqin elmi baxımdan öyrənilməsinə göstərdiyi laqeyd münasibətə alim hətta sərt reaksiyalar verirdi: – "Nə üçün rus alimləri İslam dinini, onun təriqətlərini, fəlsəfi təlimlərini tədqiq etmirlər? Nə üçün heç kəs Quranın yüksək səviyyəli tərcüməsini çap etmək barəsində fikirləşmir? Nə üçün bizdə ərəblərin, farsların və türk xalqlarının tarixi yazılmır? Nə üçün heç kəs bizi qismən də olsa, Şərq şairlərinin əsərləri ilə tanış etmək fikrinə düşmür?"[99]

Mirzə Kazım bəy Avropa ölkələrinin bu sahədəki xidmətlərini yüksək qiymətləndirir və göstərirdi ki, öz geosiyasi mövqeyinə və imkanlarına görə əslində birincilik çələngi Rusiyanın olmalı idi. Ürəyi Şərq mədəniyyəti və Türk dünyası üçün çırpınan bu nəhəng şəxsiyyət Şərqin öyrənilməsinə daha yüksək elmi və humanist ölçülərlə yanaşaraq yazırdı: "Şərqə dair tədqiqatların zəruriliyini bizdən sivilizasiyanın yüksək vəzifələri tələb edir..."[100]

[98] Очерки по истории Русского востоковедения. Москва, издательство Восточной литературы, 1959, стр. 3.
[99] Vilayət Quliyev. Qüdrətli şərqşünas (məqalə). AYB-nin "Azərbaycan" jurnalı, Bakı, 1983-cü il, Nr. 4, səh. 179.
[100] İbid. Səh. 179.

Bu yerdə, Avropada Şərqşünaslığın ayrıca elm sahəsi olaraq bir sıra Şərq ölkələrinin bəzi Avropa dövlətləri tərəfindən fəth edilib koloniyalara çevrilməsi nəticəsində meydana gəlməsini xatırlatmaq istərdik. Elə Rusiya imperiyasında da Şərqşünaslıq elminin qafqazşünaslıq, türkologiya (həmçinin azərbaycanşünaslıq), dağıstanşünaslıq (geniş anlamda), iranşünaslıq, kürdşünaslıq, ərəbşünaslıq kimi sahələri bu dövlətin əsrlər boyu yürütdüyü imperiya siyasəti, müstəmləkəçilik sistemini genişləndirib möhkəmləndirmək istiqamətində atdığı geosiyasi addımlar, XVII–XX əsrlərdə Qafqazda, İranda, Krımda, Türküstanda, Osmanlı imperatorluğu ərazilərində, Balkanlarda və digər yad ellərdə apardığı işğalçı müharibələr və həmin əraziləri zəbt edib Rusiya imperiyasına birləşdirmək səyləri nəticəsində yaranıb. Çünki ilhaq edilmiş ərazilərdə yaradılan hərbi-inzibati strukturların, sərhəd xidmətinin, rabitə və nəqliyyat vasitələrinin, məhkəmə və nəzarət sisteminin, ticarət faktorlarının fəaliyyətini normal məcrada təmin etmək, xammal və istehsal sənayesində yerli əhalinin əməyindən istifadə etmək üçün onların tarixini, dilini, dinini və etnoqrafiyasını öyrənmək lazım gəlirdi. Məhz o zaman Rusiya müstəmləkə sisteminin dövlət bürokratiyasında çalışmaq üçün məmur kadrları hazırlayan ilk şərqşünaslıq elmi müəssisələri təsis olundu.

XIX əsrin II yarısından etibarən bu təcrübə çar Rusiyasının hərbi məktəblərində də tətbiq olundu və Hərbi şərqşünaslıq adlandırılmağa başlandı. Bu tendensiya 1917-ci il oktyabr çevrilişindən sonra bolşeviklər Rusiyasında da artan istiqamətdə davam etdirildi. Bunu faktlarla illüstrasiya edən reallıqlardan birini – 1920-ci il fevral ayının 1-dən başlayaraq Rusiya Fəhlə və Kəndli Qızıl ordusunun M. Frunze adına Hərbi akademiyası (1918–1998) Baş ştabının nəzdində 40 nəfər dinləyicidən ibarət Şərqşünaslıq şöbəsinin fəaliyyətə başlamasını səciyyəvi misal kimi göstərmək mümkündür. Bu barədə Respublika İnqilabi hərbi şurasının (1918–1934) sədri, Qırmızı ordunu yaradanlardan biri olan Lev Trotski (1879–1940) xüsusi əmr imzalamışdı (29.01.1920, № 137). Həmin əmrə əsasən, sözügedən Hərbi akademiyada digər Şərq dilləri ilə yanaşı, Türk dili (2 dialekti), Fars dili (2 dialekti), Ərəb dilinin əsasları, İslam hüququnun qısa kursu, Ölkəşünaslıq, Yaxın Şərqin, həmçinin Orta və Uzaq Şərqin hərbi coğrafiyası və statistikası, Ticarət hüququ və Şərq ölkələri ilə diplomatik əlaqələr tarixi və habelə başqa fənnlər tədris edilirdi.[101]

Beləliklə, demək olar ki, Rusiyada Şərqşünaslıq, ilk növbədə onun apardığı ekspansiv siyasətin praktiki nəticələrini müstəmləkə sisteminə uyğunlaşdırıb möhkəmləndirməyə xidmət edən elm sahəsi kimi yaranıb inkişaf etmişdir.

[101] Павел Вячеславович Густерин. Восточный факультет Военной академии РККА имени М. В. Фрунзе. Издатель – LAP LAMBERT Academic Publishing. Германия, 2014. ISBN 978-3-659-37302-2.

Bu fikri, imperator I Pyotr dövründə başlanmış işğal siyasətinin imperatriça II Yekaterina (1729–1796) tərəfindən davam etdirilməsi nəticəsində XIX əsrin 1-ci rübündə Azərbaycanın iki yerə bölünüb ilhaq olunmasından sonra Rusiya elminin qafqazşünaslıq sahəsində aparılan siyasət barədə də demək olar. Bunu tarixi faktlar sübut edir. O vaxt II Rusiya–İran savaşında imzalanmış Türkmənçay müqaviləsinə (1828) əsasən ermənilərin kütləvi surətdə Azərbaycana köçürülməsi başlandı. Təkcə 1829–1830-cu illərdə Qafqaza İrandan 40 000, Türkiyədən isə 84 600 erməni köçürüldü ki, onlar əsasən Naxçıvan, Qarabağ və İrəvanda yerləşdirildi.

Azərbaycanlıların soyqırımı haqqında Azərbaycan Prezidentinin 26 mart 1998-ci il tarixli Fərmanında göstərildiyi kimi, "İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına "bəraət qazandırmaq məqsədilə" erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş geniş miqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi".

Fərmanda sözügedən proqramların həyata keçirilməsinə Rusiyanın qafqazşünas mütəxəssisləri də cəlb olunurdu. Nə qədər qəribə görünsə də, Azərbaycan tarixini çox vaxt məhz onu işğal etmiş Rusiya tərəfinin akademik təmsilçiləri – rus alimləri və onlara züy tutan erməni müəllifləri, Rusiyanın müstəmləkə siyasətini elmi cəhətdən dəstəkləyən tədqiqatçılar "yazırdılar".

Təbii ki, erməni müəlliflərini çıxmaqla, biz o dövrdə azərbaycanlıların etnogenez və məskunlaşma tarixini, dövlətçilik ənənələrini və etnokulturoloji dəyərlərini araşdırmış qafqazşünas alimlərin hamısının elmi işlərin şübhə altına almaq, onları xalqımızın keçmişinə qarşı qərəzli mövqe tutub tarixi faktları təhrif etdiklərinə görə qınamaq fikrində deyilik. Lakin bu sahədə aparılmış bütün tədqiqatların obyektivliyini aksioma kimi qəbul etmək də düzgün olmazdı.

Hər közərən işıq ulduz olmaz

Eynilə Azərbaycan–Baltik mədəni əlaqələri sahəsində həm Azərbaycan, həm də Baltik xalqları müəlliflərinin gördükləri bütün işləri birmənalı dəyərləndirmək çətindir.

Təəssüf ki, həm 19-cu, həm də 20-ci əsrdə əlaqələrimizin inkişaf etdirilməsi və Azərbaycan dəyərlərinin Baltik ölkələrində tanıdılması sahəsində vicdanla külüng çalmış, mədəni münasibətlər tariximizdə silinməz izlər qoymuş xadimlərlə yanaşı Rusiya müstəmləkəçilik siyasətinin, "vahid və bölünməz Rusiya" ideyasının tərəfdarları, rus mürtəce millətçiliyinin məsləkdaşları, "Böyük Ermənistan" utopiyasının və "erməni soyqırımının" havadarları, proletar internasionalizmi və bolşevizm ideologiyasının bayraqdarları, marksizm-leninizm təliminin təbliğatçıları, stalinsayağı "xalqlar dostluğu"nun quruculları və Azərbaycan milli ideologiyasının əleyhdarları da olublar.

Bu baxımdan desktruktiv elmi fəaliyyəti ilə seçilmiş şəxslərdən kökəncə Vilnüs regionu polyakı olan rus şərqşünası, Vilnüs Universitetinin məzunu (1819), XIX əsrin 1-ci yarısında Rusiyada türk və Azərbaycan mədəniyyətinin yayılmasına töhfələr verməklə yanaşı, ziddiyyətli çalışmaları ilə tanınmış məşhur professor Osip (Yozef) Senkovskini göstərmək olardı. Biz bu fikri deyərkən, ilk növbədə onun qondarma erməni tarixinə və "Böyük Ermənistan" ideyasına xidmət edən *"Nekotoriye somneniya kasatelno istorii qruzinov"* (1838) adlı əsərini nəzərdə tuturuq. Belə ki, əsərdə təsdiq edilir ki, guya qədimdə Böyük Ermənistanın şimal sərhədləri Kür çayının sağ sahili boyunca uzanırdı, Kürün o biri tərəfindəki Gürcüstan ərazilərinin böyük qismi isə Tiflis də daxil olmaqla, Böyük Ermənistanın tərkib hissəsi olub.

Daha sonra bu tezisi açıqlayan neqativ misallar qismində həm marksist-filosof və bolşevik xadimləri, həm də istedadlı yazar-publisistlər kimi tanınmış litva və latış müəllifləri – Yuozas Vareykisin (1894–1939), Yustas Paletskisin, Pyatras Svirkanın, Antanas Ventslovanın, Augusts Arays-Bertsenin (1890–1921) və Karl İlmerin (1891–1919) Azərbaycan mövzulu əsərlərini, həmçinin sol təmayüllü latış sosial demokratları Paul Berzin və Amaliya Drugisin, 26 Bakı komissarından biri olaraq tanınmış latış bolşeviki Eyjens Bergsin (1892–1920) fəaliyyətini göstərmək mümkündür.

Bu tezislə bağlı daha bir real faktı təqdim etmək istərdik ki, sözügedən latış proletar yazıçısı və şairi, inqilabi xadim A. Arays-Bertse 1912–1914-cü illərdə Bakıda Egerman adı ilə yaşayıb, burada qeyri – leqal fəaliyyət göstərən bolşevik təşkilatları ilə əlaqələr quraraq gizli mətbəə açıb, fəhlələr arasında inqilabi çevriliş ideyaları təbliğ edən siyasi ədəbiyyat yaymaqla məşğul olub. Bu yönlü fəaliyyətinə görə 1913-cü ildə həbs olunaraq Bayıl türməsinə salınıb. A. Arays-Bertse "Qandallanmış qollar" başlığı altında silsilə şerlərinin böyük hissəsini və 5 pərdədən ibarət "Günəşin doğması" adlı pyesini məhz Bayılda həbsdə olarkən yazıb (Arays – *Arājs* onun ədəbi təxəllüsüdür). O, 1914-cü ildə Bakıdan Sibirə sürgün olunub. Lakin bütün həbslərə və sürgünlərə baxmayaraq, sonralar qeyri-leqal yolla Riqaya qayıdıb, gizli inqilabi fəaliyyətini davam

etdirib, Latviya K(b)P MK-nə üzv seçilib (1919), hətta bir müddət marionet Sovet Latviyası (1918–1920) hökumətində Xalq sosial təminat Komissarı vəzifəsində çalışıb. 1921-ci ildə isə müstəqil Latviya Respublikasının təhlükəsizlik xidməti tərəfindən həbsə atılıb və Riqa həbsxanasında dünyasını dəyişib.

Elə misallar da var ki, özündə eyni zamanda həm müsbət, həm də mənfi cəhətləri sanki, bir simbioz bəslənmə olaraq daşıyır. Məsələn, litvalı publisist və marksist-filosof Y. Vareykis Bakı şəhər Soveti sədrinin müavini olaraq 1921–1923-cü illərdə Azərbaycan SSR-də fəaliyyət göstərib. 1911-ci ildən Rusiya Sosial demokratlar partiyasının üzvü olan Y. Vareykis mətin bolşevik, alovlu inqilabçı, partiya və dövlət xadimi kimi tanınıb. O, Azərbaycan kommunist partiyasının IV və V qurultaylarında Mərkəzi komitənin üzvü seçilib. Cümhuriyyət dövrü xadimlərinin hərtərəfli zərərsizləşdirilməsində və Bakıda sovet quruluşunun möhkəmləndirilməsində Azərbaycan K(b)P MK-nın I katibi S. M. Kirovla çiyin-çiyinə göstərdiyi coşğun fəaliyyəti ilə fərqlənib. (Azərbaycan "xalq düşmənlərinin" darmadağın edilməsində S. Kirovun oynadığı xüsusi rol barədə Litva qəzetlərində də dərc olunmuş bir sıra publikasiyalarda bəzi məlumatlar yer alıb.[102]).

Y. Vareykis sovetləşdirilmiş Azərbaycanın partiya mətbuatında bir sıra ideoloji və siyasi-publisistik yazılarla çıxış edib. Onun *"Bakinskiy raboçiy"* qəzetində 22 avqust 1922-ci ildə çap edilmiş *"İstoriçeskoe znaçenie Bakinskoy kommuni"* başlıqlı məqaləsində ehtiva olunmuş fikirlər, sözün həqiqi mənasında, 1918-ci ilin yazında Bakı Xalq Komissarları Sovetinin sədri Stepan Şaumyan (1878–1918) başda olmaqla, Bakı kommunası cinayətkar qüvvələrinin Azərbaycan xalqına qarşı törətdiyi qırğınların "səbəbləri" ilə bağlı Bolşevik və Daşnaksütun partiyaları tərəfindən irəli sürülən uydurma hərbi-siyasi yanaşmaların təkrarı və təsdiqidir.

Bununla belə, o zaman bu litvalı xadimin adı bakılılar arasında həm də müsbət ampulada hallanırdı. Belə ki, hələ 1903-cü ildə Bakı şəhər duması şəhərdə elektrik tramvay xəttinin tikintisi barədə qərar qəbul etməsinə baxmayaraq, bu layihə 1922-ci ildə məhz Y. Vareykisin təşəbbüsü ilə SSRİ-də salınan ilk tramvay xətti olaraq həyata keçirilməyə başlandı. Buna görə Bakı sakinləri onu o zaman zarafatla və ya rəğbətlə Yuozas Tramvaykis adlandırırdılar (bu haqda Litva Yazıçılar İttifaqı rus sektorunun ilk sədri olmuş yazar və publisist, partiya mətbuatı xadimi kimi tanınan Pavel Gelbax (1914–2009) Bakı ilə bağlı xatirələrini mənimlə 1985-ci ildə Vilnüsdə bölüşərkən belə danışırdı).

Bu cür nümunələrin sayını artırmaq olardı. Ancaq məsələ nümunələrin miqdarında deyil. Çünki imperiya siyasəti və qırmızı terrorun o cür "trubadurları" müasir Baltik dövlətlərində 5-ci kolonların təmsil olunduqları qurumlardan

[102] Sergejus Kirovas. Kaunas, "Lietuvos aidas", 1940 metų liepos 2 d., Nr. 310

1. Litvalı bolşevik xadimi Y. Vareykis. 2. Bakıda ilk tramvay xəttinin istismara verilməsi. 3 fevral 1924-cü il.

başqa heç yerdə xatırlanmır, əsərləri çap olunmur, dərsliklərdə adlarına rast gəlinmir. Təbii ki, yuxarıdakı örnək və yorumları verməkdə məqsədimiz bir daha vurğulamaqdır ki, Azərbaycan dəyərlərinin Baltik ölkələrində yayımlanması ilə bağlı mədəniyyətlərarası dialoq çərçivəində tədbirlər keçirib ictimai diskursda çıxışlar edərkən tərəflərin ədəbi irsini və mədəni dəyərlərini təmsil edən müəlliflər seçiminə tarixin ən yeni dövründə bu ölkələrin siyasi quruluşunda baş vermiş dəyişikliklər, mövcud geosiyasi reallıqlar və çevik mədəniyyət siyasəti prizmasından yanaşmaq lazımdır...

Yaxın keçmişə qədər Azərbaycan–Baltik mədəni əlaqələri mövzusunda tədqiqatlar aparmış bir sıra müəlliflərin əsərlərində çox sayda qeyri-adekvat dəyərləndirmələr, zahiri parıltılar, təmtəraqlı deyimlər, saxta təhlillər və uydurma nəticələr vardır. Heç şübhəsiz ki, SSRİ xalqları mədəniyyətlərini marksizm-leninizm təliminə əsasən bir-birinə calamaq və ədəbiyyatları bolşeviklərin oraq-çəkici ilə biçilmiş standartlar çərçivəsində bir-birinə yaxınlaşdırmaq tapşırığına uyğun gələn, eləcə də sosialist realizmi metodunun qondarma tələblərinə cavab verən o əsərlərdəki parıltının zülmətin bağrını yarıb belini bükmək üçün heç bir gücü yoxdur.

Bu məqamda el arasında məşhur olan "Hər oxuyan Molla Pənah olmaz" ata sözünə paralel olaraq xatırladığım "Hər közərən işıq ulduz olmaz" deyimi yerinə düşür...

Şərqlə Qərbin qovuşuğunda Litva izləri

Litvalılar Şərq mədəniyyətinə və fəlsəfəsinə tarixən böyük maraq göstəriblər. Bunun bir sıra səbəbləri var. Həmin səbəblərdən biri Litva dilinin latış dili ilə bərabər Hind-Avropa dilləri ailəsinin Balt qrupuna aid olmasıdır (bu qrupa

həmçinin prus, yotving (yatvyag), kurş, jemgal (zemgal), sel (selon) ölü dilləri daxildir).

Məlum olduğu kimi, qədim sanskrit dili də Hindistanın klassik dillərindən biri olaraq Hind-Avropa dilləri ailəsinə aiddir (bu dildəki yazılı abidələrin 3500 ilə yaxın yaşı vardır). Sanskrit və Litva dilləri arasında dilin qrammatik quruluşu, fonetik sistemi və morfoloji strukturu baxımından yaxınlıqlar sezmək mümkündür. Bu dillərdə oxşar lüğət vahidləri, hətta bəzi cümlələr belə vardır.

Həmçinin qədim baltların xristianlığa qədərki dini inancları – Bütpərəstlik (paqonizm) ilə qədim hindlilərin politeist (çoxtanrılı) inancı olan Vedizm arasında kosmogonik bənzərliklər də mövcuddur. Odur ki, litvalılar (eləcə də latışlar) Vedizm sistemi və Vedaların sanskrit dilində yazılmış qədim dini kitabları ilə (*"Rigveda", "Yacurveda", "Samaveda" və "Atharvaveda"*), habelə Hinduizm və bu dinin sosial sisteminə aid Brahmanlar zümrəsi ilə həmişə yaxından maraqlanıb, Vedi tanrılarının panteonlarını və qədim Hindistanın dini məbədlərini mütəmadi ziyarət ediblər.

Litvalılar müxtəlif dövrlərdə Şərqlə etik, estetik və metafizik münasibətlərini çözələmək, mifoloji əlaqələrini, oxşar folklor süjetlərini, motiv və obrazları üzə çıxarmaq məqsədi ilə sanskrit dilində yaradılmış Hind eposlarına (*"Mahabharata", "Ramayana"*) mənbə olaraq müraciət ediblər (Hinduizm fəlsəfəsinin mənbəyi sayılan dini-fəlsəfi abidə *"Bhagavadgita"* 1940-cı ildə sanskrit dilindən litvacaya tərcümə olunub və 1947-ci ildə Almaniyanın Detmold şəhərində çapdan buraxılıb). Onların bir qismi isə hind mədəniyyətinin fəlsəfi mahiyyətini mənimsəmək yolu ilə öz qədim dünyagörüşlərinin əsaslarını, insan və həyat haqqındakı ilkin fəlsəfi təsəvvürlərinin sərhədlərini aşkarlamağa çalışıblar. Bəzi Litva filosof və mütəfəkkir yazıçıları öz əsərlərində Buddizm dini-fəlsəfi təliminin incəliklərini mənimsəmək və bu təlimin mənəvi dirilmə ilə bağlı doqmasının ruhunu Litva milli oyanış hərəkatlarının məğzinə hopdurmaq məqsədi güdüblər.

Beləliklə nəzərə çatdırmaq istərdik ki, litvalılar etnik mənşələrini araşdırmaq, dillərinin etimoloji köklərini, xristianlığaqədərki inanclarının ilkin mənbəyini öyrənib incələmək və ən qədim hind-avropalıların Şərqdən Qərbə köç yollarını təyin etmək üçün həmişə Şərqə maraq göstəriblər və Şərqi Asiya ölkələrinə can atıblar. Bu səylər XIX əsrin axırlarında daha güclü xarakter alıb. Çünki həmin dövrdə Litva milli dirçəliş hərəkatı başlanmışdı ki, o zaman modern Litva millətinin formalaşması prosesinin həlledici mərhələsi gerçəkləşirdi.

Məşhur Litva filosofu və pedaqoqu Stasis Şalkauskis (1886–1941) daha sonralar bu mövzuya bir daha qayıdaraq Şərq və Qərb etnokulturoloji dəyərlər sisteminin sintezi əsasında XX əsrdə Litva milli-mədəni dirçəlişinə stimul vermək barədə fəlsəfi əsərlər yazıb.

Şərq mövzusunda yazıb-yaratmış digər litvalı müəlliflərdən – Kaunas universiteti Humanitar elmlər fakültəsinin dosenti, Litvada peşəkar misirşünaslığın banisi kimi tanınmış Mariya Rudzinskayte-Artsimaviçiene (1885–1941), şair-simvolist, esseist, tərcüməçi və diplomat Yurgis Baltruşaytis (1873–1944), dramaturg, publisist, filosof və ictimai xadim Vilhelmas Storostas-Vidunas (1868–1953), yazıçı, jurnalist və səyyah, antropoloq alim, Kəlkətə (Kəlküttə) universitetinin fəxri doktoru Antanas Poşka (1903–1992) bu sahədə silinməz izlər qoyublar.

Litvalılar Şərqlə Qərbin qovuşuğunda və İpək yolunun üstündə yerləşən, qoca Şərqin qapısı və aynası olaraq hər iki sivilizasiyanın təsiri altında inkişaf edən Azərbaycanın möhtəşəm, özəl mədəni dəyərlərinə də həmişə yaxından maraq göstəriblər. Litva ədəbi fikrinin bir sıra təmsilçiləri – Yuozas Paukştyalis (1899–1981), Antanas Mişkinis (1905–1983), Aleksis Xurginas (1912–1990), Gediminas Yokimaytis (1920–1986), Vatsis Reymeris (1921–2017), Linas Broga (1925–2005), Yokubas Sklyutauskas (1925–2004) və digər yazarlar XII əsrdə bütün Şərq mədəniyyətinə, eləcə də dünya bədii fikrinin inkişafına güclü təsir göstərmiş Azərbaycan poeziya məktəbi və onun Xaqani Şirvani, Nizami kimi dünya şöhrətli təmsilçilərinin yaradıcılığına həsr olunmuş çalışmalar yazıblar və bu dahilərin poeziyasından Litva dilinə tərcümələr ediblər.

Vilnüs universitetinin dosenti, litvalı ədəbiyyatşünas və pedaqoq Pyatras Ujkalnisin (1907–1984) Vilnüsdə 1969–1972-ci illərdə litvaca nəşr edilmiş "Rudəkidən Donelaytisə qədər" adlı iki cildliyində[103] Azərbaycan ədəbiyyatının klassik dövrünə həsr edilmiş materiallar da geniş yer alıb. Bu ikicildlik ali məktəblərin filologiya fakültələrinin tələbələri üçün dərs vəsaiti olaraq yazılıb. Kitabda folklorumuzun "Kitabi-Dədə Qorqud" və "Koroğlu" dastanları barədə edukoloji qeydlər, ədəbiyyatımızın Xaqani, Nizami, Nəsimi, M. Füzuli, M. P. Vaqif, M. V. Vidadi kimi klassikləri haqqında ətraflı məqalələr çap edilib və onların yaradıcılığından bəzi nümunələr təqdim olunub.

Səyyah və entomoloq araşdırmaçı Konstantinas Arris (1874–1941) 1897-ci ildən etibarən müəyyən fasilələrlə 25 il Buxarada yaşayıb, 1897–1909-cu illərdə Türküstanın müxtəlif bölmələrinə ekspedisiyalar təşkil edib, İranın, həm də Cənubi Azərbaycan təbiətinin, tarix və etnoqrafiyasının öyrənilməsi sahəsində tədqiqatlar aparıb. 1933–1934-cü illərdə Kaunasda "Sakalas" nəşriyyatında onun "Orta Asiyaya mənim ekspedisiyam" adlı iki hissədən ibarət kitabı çap olunub.

1920-ci ilin sentyabrında Komintern tərəfindən Bakıda təşkil edilmiş Şərq xalqlarının I qurultayı və burada qəbul edilmiş qərarlar Litva ictimaiyyətinin diqqətindən də kənarda qalmadı. O vaxt Kaunasda siyasət, elm və mədəniyyət

[103] Petras Užkalnis. "Nuo Rudaki iki Donelaičio". I–II tomai, Vilnius, 1969–1972 m.

Mədəni əlaqələrimizi zənginləşdirən Litva müəllifləri: 1. Y. Paukştyalis. 2. V. Steponaytis. 3. Y. Sklyutauskas.

nəşri olaraq çap olunan *"Varpas"* jurnalının 1921-ci ilin 4 – 6-cı saylarında Litva hərbi xadimi, tarixçi, naşir, polkovnik-leytenant Vitautas Steponaytisin (1893–1957) "Şərq xalqlarının Qurultayı" adlı analitik məqaləsi dərc olunub. Sovet dövründə qurultay materalları bolşevik ideologiyası baxımından araşdırılıb təqdim edilirdi və Bakı qurultayının Şərq xalqlarının milli oyanış, azadlıq hərəkatında böyük rol oynadığı vurğulanırdı. Litvalı müəllif isə məqaləsində tarixi hadisələrə həqiqətin gözü ilə baxır, qurultayın əsl mahiyyətini açıqlayır, reallıqları ortaya qoyuraq hadisələri düzgün qiymətləndirir. O, bu Qurultayı bolşeviklər Rusiyasının Şərqdəki – o cümlədən Türküstandakı ekspansiv siyasətinin növbəti ideoloji mərhələsi kimi dəyərləndir.

İncəsənət tarixçisi və diplomat Yurgis Baltruşaytis (1903–1988) iki cildlik "Ümumdünya incəsənət tarixi" kitabında[104] (Kaunas. 1934–1939-cu illər) tipoloji və müqayisəli struktur təhlili metodu əsasında Orta əsrlər mədəniyyətini, Şərq və Qərbin incəsənət üslublarını araşdırıb və bu zaman orta əsrlər Azərbaycan incəsənəti haqqında bir sıra mülahizələr söyləyib.

Dahi rəssam və bəstəkar Mikaloyus Konstantinas Çürlyonis (1875–1911) Şərq və Qərb sivilizasiyalarının sintezi zəminində bəşəriyyətin inkişafı tarixində yeni mərhələ haqqında düşünüb, o mərhələnin gerçəkləşdirilməsinin mənəvi-fəlsəfi yollarını arayıb və bunu öz yaradıcılığında əks etdirib. Onun rəsm əsərlərində Orta və Uzaq Şərqə aid simvolizm səciyyəli lövhələrlə yanaşı, insanlığın fövqəltəbii duyumları və gələcəyə mistik baxışları ilə bağlı ümumiləşdirmələr fırça ilə tablolarda transformasiya edilən zaman, qlobal dirçəliş məkanı və zülmətdən qurtuluş simvolu olaraq seçilmiş azad ruhlu Qafqaz dağları mövzusu

[104] Jurgis Baltrušaitis. "Visuotinė meno istorija". Kaunas, I t. 1934. 309 psl; II t. 1939. 340 psl.

və buradakı xalqların qədim dünya görüşlərinə dair kosmogonik təsəvvürlər də yer alıb.

Yeri gəlmişkən qeyd edək ki, Xalq şairi Bəxtiyar Vahabzadə (1925–2009) M. K. Çürlyonisin "Dünya daşqını" (1904), "Sükut" (1904), "Zodiak nişanları" (1907), "Su ilanının sonatası" (1908), "Ulduzların sonatası" (1908), "Piramidaların sonatası" (1908) adlı silsilə əsərlərindəki Azərbaycan etnomədəniyyətinin və fəlsəfi fikir dünyasının bəzi çalarlarını çox böyük incəlilkə duyub, bununla bağlı daxili refleksiya və fəlsəfi düşüncələrini Litva rəssamının əsərlərinin təsiri ilə 1983-cü ildə yazdığı "Sükut lövhəsi" şeirində[105] ustalıqla tərənnüm edib.

Daha sonra, Litva–Azərbaycan mədəni əlaqələrinin genişlənməsi və Azərbaycan dəyərlərinin tanıdılması istiqamətində izlər qoymuş xadimlərdən şair, tərcüməçi, ədəbiyyatşünas Moteyus Gustaytisi (1870–1927) və Xalq yazıçısı Antanas Vienuolis-Jukauskası (1882–1957) göstərmək mümkündür. Ədəbi və mədəni əlaqələrimiz tarixində digər litvalı yaradıcılar da – tanınmış publisist və ictimai xadim, 1903–1943-cü illərdə ABŞ litvalılarının *"Žvaigždė"* qəzetinin naşiri və redaktoru olmuş xanım Yule Pranaytite (1881–1944), jurnalist, redaktor və ictimai xadim Matas Şalçyus (1890–1940), publisist və redaktor Stasis Vaynoras (1909–1964) mənalı izlər qoymuşlar. Onlar müxtəlif illərdə Azərbaycanı ziyarət edərək buradan aldıqları zəngin təəssüratları litvaca nəşr olunmuş kitablarında və publisistik əsərlərində əks etdiriblər.

XX əsrin 1-ci yarısında Azərbaycan mövzulu əsərlər yazmış Litva yazarları. 1. Yule Pranaytite. 2. A. Vienuolis-Jukauskas. 3. Matas Şalçyus.

Y. Pranaytenin "Avropaya və Asiyaya səfərdən" adlı səyahət təəssüratları toplusunda (Filadelfiya. 1914-cü il)[106] Azərbaycana həsr edilmiş iki yazı – "Kaspi" və "Bakı" adlı oçerklər yer alıb. M. Şalçyusun "Dünyanın 40 ölkəsində

[105] Bəxtiyar Vahabzadə. "Axı, dünya firlanır" (şeirlər, poemalar və tərcümələr). Bakı, "Yazıçı", 1987. – 208 s.

[106] Julė Pranaitytė. "Iš kelionės po Europą ir Aziją". JAV, Filadelfija, 1914 m.

qonaq qaldığım xalqlar" adlı 6 cildlik kitabında[107] (Kaunas, 1935–1936-cı illər) Cənubi Azərbaycan haqqında tarixi və coğrafi məlumatlar verilib, azərbaycanlıların dili, məişəti, mətbəxi və mədəniyyəti barədə etnoqrafik bilgilər təqdim olunub.

S. Vaynoras isə 1938-ci ildə yazdığı "Neft səltənətinə səyahətlər" başlıqlı silsilə publisistik yazıları çərçivəsində Azərbaycanın keçmişindən bəhs edən "Qafqaz əfsanələri",[108] "Emmanuel Nobel – Rusiya Prometeyi",[109] "Qara şəhər"[110] və "1918–1920-ci illərdə Qafqazda nə baş verib"[111] adlı olduqca maraqlı səfər reportajlarını və tarixi oçerklərini elə həmin ildə Kaunasda *"Lietuvos aidas"* rəsmi dövlət qəzetində dərc etdirib. Bu oxunaqlı əsərlərdə Azərbaycanın təbiəti, coğrafi mühiti, etnokulturoloji dəyərləri, iqtisadiyyatı, neft sənayesinin tarixi və ölkənin geosiyasi əhəmiyyəti barədə, 1917–1920-ci illərdə Rusiya, İngiltərə, Almaniya, Türkiyə və başqa dünya dövlətlərinin Bakı nefti uğrunda apardıqları mübarizə, o dövrdə burada getmiş mürəkkəb ictimai-siyasi proseslər, baş vermiş taleyüklü tarixi hadisələr və epoxal dəyişikliklər haqqında mühüm məlumatlar vardır. Oçerklərdən aydın görünür ki, müəllif istedadlı və geniş erudisiyalı qələm sahibi kimi, XIX əsrin ikinci yarısı XX əsrin birinci rübünə aid Azərbaycan tarixi ilə yaxından maraqlanmış, qədim mədəniyyətini öyrənmiş, nəticədə indi də əhəmiyyətini itirməmiş çox sanballı əsərlər yaratmışdır.

Amma bununla bərabər təəssüflə qeyd etmək istərdik ki, S. Vaynorasın ayrı-ayrı oçerklərində (göstərilən silsiləyə 20-dən artıq oçerk daxildir) erməni-türk münasibətlərinə və Türkiyənin 1918–1920-ci illərdə Qafqazda yürütdüy siyasətə aid bəzi qeyri-adekvat məlumatlar da yer alıbdır...

Əlaqələrimizin karaim kökənli telləri

Litva–Azərbaycan, həmçinin Polşa–Azərbaycan qədim elmi-mədəni əlaqələrinin dinamikasına və ümumən Avropada şərqşünaslıq elminin inkişaf mərhələlərinə nəzər salarkən XX əsrin I rübündən başlayaraq bu sahədə mühüm işlər görmüş şərqşünas karaim alimlərin, eləcə də türkoloq tədqiqatçıların fəaliyyəti xüsusilə diqqəti çəkir. Bununla bağlı hətta deyərdik ki, bu əlaqələr çərçivəsində və Avropada şərqşünaslığın inkişaf mərhələləri müstəvisində karaim kökənli Litva–Polşa alimlərinin yaradıcılığı və çalışmaları xusisi bir kəsim təşkil edir.

[107] Matas Šalčius. "Svečiuose pas 40 tautų". Kaunas, 6 t. 1935–1936 m.
[108] St. Vainoras. "Naftos kelias. Kaukazo legendos". Kaunas, "Lietuvos aidas", 1938 m. rugpjūčio 30 d., № 388.
[109] St. Vainoras. "Emanuelis Nobelis – Rusijos Prometėjus". Kaunas, "Lietuvos aidas", 1938 m. rugsėjo 2 d., № 394.
[110] St. Vainoras. "Naftos kelias. Juodasis miestas". Kaunas, "Lietuvos aidas", 1938 m. rugsėjo 3 d., № 396.
[111] St. Vainoras. "Kas dėjosi Kaukaze 1918–1920 m.". Kaunas, "Lietuvos aidas", 1938 m. rugsėjo 7 d., № 404.

Biz bunu deyərkən ilk növbədə, tanınmış karay türkü, görkəmli şərqşünas alim, 1928–1961-ci illərdə Vilnüsdə yaşayıb ictimai və elmi-pedaqoji fəaliyyət göstərmiş məşhur professor Hacı Sürəyya Xan Şapşalı (1873–1961) nəzərdə tuturuq (o, rus mənbələrində Serqey Markoviç Şapşal kimi tanınıb). Sözgəlişi, onun soyadının mənşəyi haqda qısa açıqlama verməyi məqsədəuyğun sayırıq. Belə ki, "Şapşal" türklərin ilk məskəni və vətəni sayılan ulu Altay dağlarında yüksələn, uzunluğu 130 km-ə yaxın və Şapşal adlanan dağlar silsiləsinə daxil olan zirvələrdən birinin adıdır.

S. Şapşal, həmçinin 1928–1940-cı illərdə Litva və Polşa karay türklərinin Haxanı (Haxamı) olaraq genişmiqyaslı dini fəaliyyət göstərib. Haxan – İudaizmin karaim məzhəbi olan Karaimizmin dini ierarxiyasında ən yüksək rütbədir və bu rütbənin daşıyıcılarına bir qayda olaraq "Zati-Aliləri" deyə müraciət olunur. S. Şapşalın fikrincə, karaim dilindəki "Haxan" sözünün mənşəyi qədim türk hökmdarlarına verilən tutul olaraq Xəzər xaqanlığının adı ilə bağlıdır. Eləcə də onun "Hacı" adı daşıması ilə bağlı göstərmək istərdik ki, müsəlmanlar Məkkəyə həcc ziyarətinə gedib Hacı olduqları kimi, karaimlər də müqəddəs Yerusəlimi ziyarət etdikdən sonra Hacı tituluna layiq görülürlər.

Dünya karaimlərinin patriarxı və ümumən türk xalqları ilə qırılmaz etnokulturoloji tellərlə bağlı olmuş bu nəhəng şəxsiyyət şərqşünaslığın, həmçinin türkologiya sahəsinin inkişafına danılmaz töhfələr verib. O, Avropada azərbaycanşünaslığın irəliləyişi üçün də sanballı işlər görüb. Təbii ki, S. Şapşalın Azərbaycanla bağlı çoxşaxəli fəaliyyətinin başlıca cəhətləri və gördüyü əsas işlər barədə ümumiləşdirmələri onun bu yönümlü çalışmalarına məxsusi olaraq həsr edilməmiş bir məqalədə aparmaq o qədər də asan deyil. Odur ki, məşhur türkoloqun həmin istiqamətdə fəaliyyəti ilə bağlı az məlum olan işlərdən, yaxud indiyədək həm müasir Litva, həm də Azərbaycan ictimaiyyətinə məlum olmayan faktlardan bir neçəsini təqdim etməklə kifayətlənəcəyik.

Biz bunu deyərkən, ilk öncə S. Şapşalın Azərbaycan istiqlalını yaşatmaq üçün xaricdə gördüyü vacib işləri nəzərdə tuturuq. O işlərlə bağlı ilk dəfə bilgilər verərkən, 1920–1939-cu illərdə anneksiya edilib Polşanın yurisdiksiyası altında olmuş Vilnüs regionunda S. Şapşalın yaratdığı Vilnüs Türkoloji Dərnəyi (*polyakca – Kolo Turkologow w Wilnie)* barədə tarixi faktı və S. Şapşalın Prometey hərəkatının (1926–1939) iştirakçısı olmasına dəlalət edən bəzi məqamları ön plana çəkmək istərdik. Belə ki, S. Şapşal onun rəhbərliyi ilə XX əsrin 30-cu illərində fəaliyyət göstərmiş Vilnüs Türkoloji Dərnəyinin xətti ilə Azərbaycan tarixi və mədəniyyətini tanıdıb yaymaq, sözügedən dərnəyin Ümumsiyasi məktəbinin dinləyiciləri *(polyakca – Sluchaczy Szkoly Nauk Politycznych)* arasında Azərbaycan Cümhuriyyəti barədə bilgiləri təbliğ etmək, həmçinin o dövrdə Avropa ölkələrində müxtəlif dillərdə çap olununan qəzet

və jurnallarda ("Prometey", "Qurtuluş", "İstiqlal" və s.) Azərbaycan siyasi mühacirlərinin (M. Ə. Rəsulzadə, M. B. Məmmədzadə və b.) bolşevizmə qarşı və sovet əsarəti altında olan xalqların azadlıq problemlərinə dair dərc olunmuş məqalələrini polyak dilinə tərcümə edərək Litvada və Polşada yaymaq sahəsində dəyərli işlər görüb.

Göstərilən Türkoloji dərnəyin üzvləri və həmçinin Vilnüs ədəbiyyat həvəskarları arasında fəal təbliğ olunan kitablardan biri Məmməd Əmin Rəsulzadənin (1884–1955) "Milli Azərbaycan nəşriyyatı" seriyasından 1928-ci ildə İstanbulda ərəb əlifbası ilə nəşr etdirdiyi "İstiqlal uğrunda" şeirlər toplusu idi. İstiqlalı yaşadan mühacirət poeziyasının səciyyəvi nümunələrindən – Əhməd Cavadın, Gültəkinin (Əmin Abid Əhmədov), Nafe Şükrinin (Əmin Abidin xanımı), Umgülsüm Sadıqzadənin (yazıçı Seyid Hüseynin xanımı), Sənanın, Əli Ustanın, Əli Yusifin, Məsud Səfvətin, Azərizadənin, İsmayıl Zöhdinin və digər müəlliflərin azadlıq eşqi və mübarizə ruhu tərənnüm olunan şerlərindən ibarət olan bu məşhur toplu böyük türkoloq S. Şapşalın fəaliyyəti nəticəsində o illərdə Azərbaycan türkcəsindən tərcümə edilərək Vilnüsdə oxunur və müzakirə olunurdu.

Arxiv materialları təsdiq edir ki, S. Şapşal Azərbaycan siyasi mühacirət hərəkatının lideri M. Ə. Rəsulzadə ilə XX əsrin 20–30-cu illərində ictimai-siyasi əməkdaşlıq əlaqələri saxlayırdı (S. Şapşal 1920–1928-ci illərdə İstanbulda yaşayıb işləyib). M. Ə. Rəsulzadənin mühacirət həyatının Polşa dövründə bu əlaqələr həm birbaşa, həm də qəzet və jurnallarda M. Ə. Rəsulzadə ilə birgə çalışan əməkdaşlar vasitəsi ilə saxlanılırdı. Bu fikri əsaslandıran faktlardan biri olaraq M. Ə. Rəsulzadənin 1933-cü ildə S. Şapşala yazdığı bir məktubu və onun surətini aşağıda ilk dəfə təqdim edirik:


1

Mehmet Emin Resul-zade
„İstiklâl" gazetesi başmuharriri

14/IV/33 Varşova.

Çox muhterem Beyefendi!

Geçenlerde bir kaç gün için, burada bulunan azerbaycanlı Hamit Beyden sihhat ve afiyette olduğunuzu duyunuz, memnun olmuştum; Bu defa bir kaç tatil gününü Vilnüsa'da geçirmek üzere seyahata çıkan işdaşlarımızdan, vatandaşımız Ali Ağertekin Beyi hürmetle zati âlilerine tandım ve bilvasıta cahdan selam ve hürmetlerimi tecdid ederim efendim.

Hürmetkârınız: M. E. Resulzade

"Çox möhtərəm Sürəyya Bəyəfəndi! Bu yaxınlarda bir neçə gün burada olmuş azərbaycanlı stajçı Həmid bəydən Sizin sağ-salamat və gümrah yaşadığınızı eşidib çox məmnun oldum. Bu dəfə bir neçə tətil gününü Vilnüsdə keçirmək üçün səyahətə çıxan əməkdaşlarımızdan biri, vətəndaşımız Əli Azərtəkin bəy vasitəsilə Zati-Alilərinizə ürək dolu salamlarımı və hörmət hisslərimi çatdırıram.

Hörmətkarınız, Məmməd Əmin Rəsulzadə, "İstiqlal" qəzetinin Baş müharriri.

Varşava, 14 aprel 1933-cü il."

M. Ə. Rəsulzadənin "İstiqlal" qəzetinin Baş redaktoru olaraq xidməti yazışmalar blankında yazdığı bu məktubda adı çəkilən Həmid bəyin Azərbaycanın mühacir şairi və publisisti Həmid Dönməz olduğunu güman edirik. Belə ki, o, bir sıra mühacirət nəşrlərində M. Ə. Rəsulzadə ilə birgə çalışıb. Adıçəkilən digər şəxs – mühacir publisist Əli Azərtəkin (1906–1967) isə kifayət qədər tanınmış ictimai xadimdir. Beləliklə, bu qısa məktubdan məlum olur ki, M. Ə. Rəsulzadənin məslək və qələm qardaşları H. Dönməz və Ə. Azərtəkin onun tövsiyyəsi ilə o zaman S. Şapşalla Vilnüsdə görüşüblər. Zənnimizcə, bu məktubun konkret məzmunu və ahəngi yazışma aparan tərəflər arasında çoxdankı səmimi münasibətlərin olmasını göstərir.

Arxiv mənbələri təsdiq edir ki, S. Şapşal onun Litva–Polşa karay türklərinin Haxanı seçilməsi ilə bağlı 1928-ci ilin yazında İstanbuldan köçüb Vilnüsə gəldikdən sonra da Türkiyə və Avropa ölkələrindəki Azərbaycan və Krım siyasi mühacirləri ilə əlaqələrini kəsmirdi. Bununla bağlı ilk dəfə olaraq daha bir yeni faktı təqdim etmək istərdik ki, həmin mühacirlər arasında Rusiya imperiyasında müsəlman qadın hərəkatının liderlərindən və müstəqil Krım dövləti uğrunda mübarizənin öncüllərindən biri kimi tanınan ictimai xadim, Türkiyədə Krım Qadınlar Cəmiyyətinin (1930) təsisçisi, jurnalist və tərcüməçi Şəfiqə xanım Qaspralı-Yusifbəyli (1886–1975) də olub.

Məlumdur ki, Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Baş naziri Nəsib bəy Yusifbəylinin (1881–1920) ömür-gün yoldaşı olmuş bu Krım tatarı əsilli xanım Türkiyədə ehtiyac və mərhumiyyətlərlə dolu mühacir həyatı yaşayıb (o zaman xarici düşmənlərlə ölüm-dirim savaşı aparan Türkiyədə yaşamaq asan deyildi). 1922–1932-ci illərdə Şəfiqə xanımın S. Şapşalla Türkiyədə və Litvada apardığı yazışmalardan görünür ki, S. Şapşal ağır günlərdə mənən onun yanında olmuş, oğlu Niyazi Yusifbəylinin (1908–1964) Litvada peşə təhsili ala bilməsi üçün səylər göstərmiş və uzaq Vilnüsdən Şəfiqə xanıma maliyyə yardımı göstərərək bu yenilməz ruhlu nəcabətli xanımın və uşaqlarının çətin həyatını müəyyən qədər yüngülləşdirməyə çalışmışdır.

1. AXC Hökumətinin Baş naziri N. Yusifbəyli 2. N. Yusifbəylinin həyat yoldaşı Şəfiqə xanım Qaspralı, oğlu Niyazi və qızı Zöhrə ilə.

Bu yazışma ilə bağlı hələlik üç fakt tapılıb üzə çıxarılıb. Bunlar Şəfiqə xanımın 16 noyabr 1922-ci il, 17 aprel 1923-cü il və 28 noyabr 1932-ci il tarixlərində S. Şapşala ünvanladığı məktublardır.[112] Həmin məktublarda Şəfiqə xanımın həyat yolunda üzləşdiyi çətinlik və ziddiyyətlərlə bərabər, Türkiyədə o zaman baş vermiş mühüm ictimai-siyasi və mədəni hadisələr, o cümlədən 1932-ci ilin sentyabr-oktyabr aylarında Türk Dil Qurumu tərəfindən təşkil olunmuş 1-ci Beynəlxalq Türk Dili Qurultayı haqqında maraqlı bilgilər yer alıb.

S. Şapşalın azərbaycanşünaslıqla bağlı fəaliyyətinə nəzər salarkən, onun folklor ədəbiyyatımızın incilərini Avropada yayımlamasını mütləq qeyd etmək lazımdır. Belə ki, onun müəllifliyi ilə hazırlanmış "İran Azərbaycanı türklərinin xalq ədəbiyyatı nümunələri" adlı kitab 1935-ci ildə Krakovda polyakca və Azərbaycan dilində çap olunub.[113] Göstərilən folklor toplusu latın əlifbası əsasında transkribasiya edilmiş şəkildə nəşr edilib. Polşa Elmlər Akademiyasının "Şərqşünaslıq İşləri Komissiyası" seriyasından buraxılmış bu kitabda S. Şapşalın 1901–1908-ci illərdə Təbrizdə yaşayıb işlədiyi dövrdə Cənubi Azərbaycanın müxtəlif yerlərini – Marağa, Türkmənçay, Culfa, Sərab, Miyana, Mərənd, Kərəc, Zəngan, Xamnə və Araz sahili boyu yaşayış məntəqələrini gəzərək yerli türklərin dilindən yazıya alıb topladığı nümunələr – 7 nağıl, 3 bayatı, 5 bayatı-gəraylı, 6 bayatı-küçəbaşı və 2 kərəmi, müxtəlif həcmli 9 xalq mahnı və təsnifləri, 60 adda atalar sözləri və zərb-məsəllər, lətifələr, 10 tapmaca, 3 atmaca, 6 dördlük, 11 şeir və 10 dübbə (vulqar şeirlər) yer alıb. Daha sonra, S. Şapşal 1920–1928-ci illərdə İstanbulda bankda tərcüməçi işləyərkən 1923-cü ildə

[112] LMA Vrublevskių bibliotekos rankraščių skyrius. Fondas 143 Šapšalas Seraja, saug. vnt. 273, 274, 637.

[113] H. Seraja Szapszal. Proby literatury ludowej turkow z Azerbajdżanu Perskiego. Polska Akademja Umiejętności. Prace komisji orjentalistycznej Nr. 18. Krakow, 1935.

burada mühacirətdə olan Məşədi İbadulla oğlu ilə görüşüb söhbətləşib və ondan bəzi folklor nümunələri əldə edərək onları da sözügedən kitaba daxil edib.

Folklor nümunələrini polyak dilinə S. Şapşal və karaim əsilli türkşünas professor Ananiaş Zayonçkovski tərcümə ediblər. Kitabda S. Şapşal tərəfindən yazılmış 9 səhifədən ibarət giriş məqaləsi və azərbaycanca-polyakca-almanca qısa lüğət də çap olunub. S. Şapşalın Azərbaycan dilinə, tarixinə və ədəbiyyatına gözəl bələd olduğunu göstərən bu folklor seçmələrindən ibarət toplu indiyədək öz dəyərini itirməyib.



1. S. Şapşal İranda Şah sarayının general-adyutant parad geyimində. 1908-ci il.
2. "İran Azərbaycanı türklərinin xalq ədəbiyyatı nümunələri" kitabının üz qabığı. Krakov, 1935-ci il.

Bu kitabın çapa hazırlanması ilə bağlı daha bir vacib faktın və elmi əlaqələr məqamının qeyd olunması zəruridir. Ədəbiyyatşünas alim, professor Vilayət Quliyev məqalələrinin birində yazır ki, S. Şapşal "İran Azərbaycanı türklərinin xalq ədəbiyyatı nümunələri" kitabını çapa hazırlayanda məsləhət üçün ilk növbədə Azərbaycan Xalq Cümhuriyyəti Daxili işlər nazirinin müavini, general-mayor, 1927–1944-cü illərdə əvvəlcə Yan Kazimir, sonra isə Lvov universitetinin professoru, elm tarixində Lvov–Peterburq şərqşünaslıq məktəbinin yaradıcılarından biri kimi tanınan Məhəmməd Sadıq bəy Ağabəyzadəyə (1865–1944) üz tutub. Sonralar türkoloq A. Zayonçovski bu münasibətlə S. Şapşala göndərdiyi 4 aprel 1932-ci il tarixli məktubda yazırdı: "Sadıq bəyə gəldikdə isə çox yerinə düşən məsləhətdir və belə bir fikrə düşdüyünüz üçün sizə təşəkkürümü bildirirəm. Əgər Sadıq bəy qurultaya (Polşa şərqşünaslarının 16–17 may 1932-ci ildə Vilnoda keçirilən II qurultayı nəzərdə tutulur – *V. Q.*) gəlsə, bu barədə onunla danışacağam".

Amma bir cəhət təəssüf doğurur ki, A. Zayonçkovskinin S. Şapşala məktublarını çap edən *"Almanax Karaimski"* məcmuəsi Sadıq bəy haqda dəqiq bilgilərə malik olmadığından onu Türküstan türkü kimi qələmə verir.[114]

Sözügedən folklor seçmələri toplusu Azərbaycanın elm dairələrinə məlum olan nəşrdir. Belə ki, görkəmli dilçi alim, Azərbaycan SSR EA-nın akademiki Məmmədağa Şirəliyev (1909–1991) və digər dilçi mütəxəssislər hələ sovet dövründə Azərbaycan dilinin dialekt və şivələrini araşdıran zaman S. Şapşalın göstərilən kitabını bibliografik göstərici olaraq tədqiqata cəlb ediblər.[115] Lakin buna baxmayaraq, zənnimizcə həmin toplu daha geniş lingvistik araşdırmalara layiqdir. Ələlxüsus, Azərbaycan dili dialektlərinin Cənub qrupuna aid Təbriz və Urmiya şivələrini müqayisəli surətdə araşdırmaq, sözügedən şivələrin tarixi inkişaf mərhələlərini tədqiq etmək, həmçinin Azərbaycan dilinin lüğət tərkibini, dilimizin qədim leksik xüsusiyyətlərini, dil əlaqələrini öyrənmək baxımından ilk növbədə dil tarixi və dialektologiya mütəxəssisləri üçün çox önəmli bir qaynaqdır. Bu qaynağın gərəkli elmi səviyyədə öyrənilməsi və araşdırmaların sanballı monoqrafiya şəklində ərsəyə gətirilməsi fikrimizcə, elmi hadisə olardı.

Bütün bunlarla bərabər, belə bir məqamı təəssüflə vurğulayırıq ki, S. Şapşalın görkəmli şərqşünas alim olaraq Dünya türkoloji araşdırmalar xəzinəsinə verdiyi qiymətli çalışmalarla yanaşı, XX əsrin əvvəllərində Cənubi Azərbaycan türklərinin azadlıq və demokratiya uğrunda apardığı mübarizə, müqavimət hərəkatı ilə bağlı ziddiyyətli ictimai-siyasi fəaliyyəti də olub (mövzuları qarışdırmamaq üçün bu barədə məqaləmizin növbəti hissəsində danışacağıq).

İndi isə mətləbə qayıdaraq yaradıcılığında digər türk dilləri ilə yanaşı, Azərbaycan dili və ədəbiyyatı haqqında çalışmalar yer almış türkoloq karaim alimləri – fərqli illərdə Litvadan Polşaya mühacir etmiş Ananiaş Zayonçkovski və Vlodzimej Zayonçkovski (1914–1982), eləcə də Aleksandr Dubinskinin (1924–2002) elmi fəaliyyətindəki bəzi məqamlara tezislər şəklində toxunmaq istəryirik.

A. Zayonçkovski və A. Dubinski karaimlərin kompakt yaşadıqları qədim Trakay şəhərində, V. Zayonçkovski isə Vilnüsdə doğulub və onların hər üçü ilk təhsilini Vilnüsdə alıb.

Məşhur türkoloq alim, Varşava universitetinin professoru (1935), Polşa Elmlər Akademiyasının akademiki (1952) A. Zayonçkovskinin yaradıcılığında Nizami irsinin öyrənilməsi və türk dillərinin tədqiqatı sahəsində aparılmış mühüm araşdırmalar diqqəti cəlb edir.

[114] Vilayət Quliyev. "Sadıq bəy Ağabəyzadənin sahibsiz məzarı". Bakı, "525-ci qəzet". 22 fevral 2016-cı il.
[115] М. Ш. Ширалиев. "Диалекты и говоры Азербайджанского языка". Баку, "Элм", 1983. 200 стр.

Litva–Polşa karaim alimləri: 1. Hacı Süreyya Xan Şapşal. 2. Ananiaş Zayonçkovski. 3. Aleksandr Dubinski

Professor V. Zayonçkovski isə Krakovdakı Yagellon universitetinin Şərq filologiyası institutu Türkologiya şöbəsinin müdiri (1973) olaraq qaqauz və tatar türkcəsinin öyrənilməsi sahəsində qiymətli tədqiqatlar aparıb, Polşada bir sıra kitablar çap etdirib. Onlardan "Qaqauz türklərinin tarixi, dili və etnografiyası" (1949), "Bolqarıstan qaqauzlarının dili və folkloru" (1966), "Rumıniyanın Dobruca bölgəsi tatarlarının dili və fokloru" (1975) kimi sanballı nəşrləri göstərmək olar.

Humanitar elmlər doktoru, Varşava universiteti Şərqşünaslıq institutunun dosenti A. Dubinski karaimlərin dili, mədəniyyəti, dini və ədəbiyyatı barədə, eləcə də tatarlar və türklər haqqında 150-dən artıq elmi məqalənin və bir neçə kitabın müəllifidir. O, uzun müddət Polşa Karay Türkləri Dini Birliyinin katibi kimi fəaliyyət göstərib. Dəfələrlə Azərbaycan və Türkiyədə olub, burada keçirilən elmi konfranslarda və ekspedisiyalarda iştirak edib.

A. Dubinski 1974-cü ildə SSRİ (Rusiya) EA-nın yaradılmasının (1724) 250 illiyi münasibəti ilə polyak dilində geniş məqalə ilə çıxış edib.[116] Müəllif həmin məqalədə digər məqamlarla yanaşı, görkəmli şərqşünas alim Mirzə Kazım bəyin Rusiya və dünya şərqşünaslığının inkişafına verdiyi mühüm töhfələri sadalayıb. A. Dubinski məqaləsində M. Kazım bəyi qeyri-adi qabiliyyətə malik şəxsiyyət və Rusiya Şərqşünaslıq elminin ilkinlərindən biri adlandıraraq belə yazıb: – "Mirzə Kazım bəy Rusiya Şərqşünaslığının tarixində təkcə pedaqoq və elm təşkilatçısı kimi silinməz izlər qoymayıb, həm də elmi çalışmaları – ilk növbədə, türk dilinin qrammatikası və Krım xanları tarixinin araşdırılması sahəsində elmi əsərlərin müəllifi olaraq tanınıb".

[116] A. Dubinski. Z dziejow wschodnoznawstwa rosyiskiego (w 250 rocznice Akademji Nauk). Przeglad orientalistyszny, 1974, № 4 (92), s. 294–295.

V. Zayonçkovski və A. Dubinski 1974-cü ildə S. Şapşal, A. Zayonçkovski və rus türkoloq professoru Nikolay Baskakovun (1905–1995) birgə redaktorluğu ilə Moskvada çap olunmuş "Karaimcə-rusca-polyakca lüğət"in[117] hazırlanmasında da yaxından iştirak ediblər.

Şapşal İran əks-inqilabının episentrində

Görkəmli Litva-Polşa ictimai-mədəni xadimi Hacı Sürəyya Xan Şapşalın Azərbaycan etnokulturolji dəyərlərinin öyrənilib yayımlanması istiqamətində gördüyü önəmli işlər haqqında danışdıqdan sonra, onun XX əsrin əvvəllərində İran Məşrutə hərəkatına qarşı apardığı siyasi fəaliyyətin üzərindən konyuktura naminə sükutla keçmək düzgün olmazdı. Baxmayaraq ki, həmin fəaliyyət ziddiyyətli səciyyə daşıyır və onun təhlili bizdə yalnız koqnitiv dissonans hissləri yaradır. Ancaq yəqin ki, bunu münasib tərzdə etmək lazımdır. Ən azından ona görə ki, o dövr Azərbaycan ədəbi və ictimai-siyasi fikrinin məşhur xadimləri S. Şapşalın həmin siyasi fəaliyyətinə baxışlarını əsərlərində ifadə edərək öz etiraz səslərini ucaltmışlar.

Öncə qeyd edək ki, S. Şapşal 1899-cu ildə Sankt-Peterburq universitetinin Şərqşünaslıq fakültəsini bitirdikdən bir müddət sonra, İranın Rusiyadakı səfiri Mirzə Rza xanın (1853–1937) təşəbbüsü, Rusiya Xarici İşlər Nazirliyinin təqdimatı və çar II Nikolayın (1868–1918) şəxsi razılığı ilə İran hökmdarı Müzəfərəddin şah Qacarın (1853–1907) böyük oğlu, Azərbaycan əyalətinin valisi və İran taxt-tacının vəliəhdi Məhəmməd Əlinin (1872–1925) rus dili müəllimi və mürəbbisi təyin olunub. O, bununla bağlı 1901–1908-ci illərdə İranda yaşayıb və işləyib. Onunla yaxın yaradıcılıq əlaqələri saxlamış məşhur rus türkoloqu N. Baskakovun yazdığına görə, S. Şapşal həmin illərdə həm də bir müddət Təbrizdəki Loğmaniyyə məktəbində müəllimlik edib.[118]

S. Şapsal Təbrizə gəldikdən sonra yerli adət-ənənələrə yaxşı bələd olması, dərin biliyi, diplomatik istedadı, yüksək əxlaqi və peşə keyfiyyətləri sayəsində həm Qacarlar sarayında, həm də Vəliəhdin yanında böyük nüfuz və etibar qazana bilmişdi. Vəliəhd Məhəmməd Əli atasının ölümündən sonra, 1907-ci ilin yanvarında Şah taxtına əyləşərək S. Şapşalı özünün müşaviri və general-adyutantı (Saray naziri) təyin etmişdi. S. Şapşal həmçinin Şahın fərmanı ilə İranın bir sıra orden və medalları ilə təltif olunmuşdu. O, Məhəmməd Əli şahı tamamilə öz təsiri altına ala bilmiş və onunla o qədər yaxınlaşmışdı ki, sözün həqiqi mənasında Şahın ailə üzvünə çevrilmişdi. Şah, hətta bəzi idarəetmə

[117] "Караимско-русско-польский словарь". 17 400 слов. Москва, издательство "Русский язык", 1974, 690 стр.

[118] Hadži Seraja Chanas Šapšalas pasišventęs tautai ir mokslui. Iš serijos "Muziejaus rinkiniai". Išleido Trakų istorijus muziejus. Spausdino UAB "Mardosų spaustuve", Vilnius, 2011, psl. 25.

məsələlərini S. Şapşala etibar etmişdi. Geniş anlamda Rusiya monarxının təmsilçisi, həm də əqidəsinə görə monarxist olması S. Şapşalı İran monarxı ilə siyasi və mənəvi cəhətdən daha da yaxınlaşdıran cəhətlərdən biri idi. Beləliklə də o, İranda gedən hadisələrə təsir edə bilmək üçün olduqca sərfəli imkan qazanmışdı. S. Şapşal bu imkandan Rusiya Xarici işlər nazirliyi Asiya departamentinin xətti ilə İrana ezam edilmiş məmur (rezident) kimi, ilk öncə Rusiyanın İrandakı imperiya maraqlarını uğurla təmin etmək, həmçinin o zaman yarımmüstəmləkə halında olan İranın daxili və xarici siyasətinə Rusiyanın təsirini daha da artırmaq üçün istifadə edirdi.

Ədəbiyyatşünas alim, professor Vilayət Quliyevin dəqiq qeyd etdiyi kimi, "Qacar sülaləsinin ən bivec hökmdarı adlandırıla biləcək Məhəmməd Əli şahın qısa müddətli hakimiyyəti dövründə (1907–1909-cu illər) İran bu ölkəyə heç bir dəxli olmayan təsadüfi adamların hakimiyyəti altına düşmüşdü". V. Quliyevin bu ümumiləşdirməsi Məmməd Əmin Rəsulzadənin Şahın S. Şapşalla münasibətləri barədəki fikirləri ilə çox uzlaşır: – "Məhəmmədəli Mirzənin ustadı Şapşal ona rus dili dərsi verirdi, qibleyi-aləmin kəlləsi isə rus dilini qəbul etmədi. Amma adam öldürmək, vətən satmaq, əhdi-peyman pozmaq, tənbəllik və zülmkarlığı öyrənib həyata keçirməyi öyrənmişdi".[119]

S. Şapşalın Təbrizdə fəaliyyət göstərdiyi illər, XX əsr İran siyasi tarixinin mühüm hissəsinə – 1905–1911-ci illərdə Cənubi Azərbaycanda azadlıq və demokratiya uğrunda aparılmış mübarizə dövrünə təsadüf edir. Məlum olduğu kimi, həmin hərəkat nəticəsində İranda konstitusiyalı monarxiya yarandı, Milli Əncüman fəaliyyətə başladı, Azərbaycan türklərinin siyasi kimlik məsələsi gündəmə gətirildi, onlar üçün məktəb açıldı, mətbuat işıq üzü gördü və ümumən Cənubi Azərbaycan idarəetmədə mühüm rol oynamağa başladı.

Amma İran burjua-demokratik inqilabı Rusiya və Böyük Britaniyanın köməyi ilə yatırıldı, Təbrizə daxil olan rus qoşunları inqilabçılara divan tutdu. Çar ordusunun polkovniki Vladimir Lyaxovun (1869–1920) komandanlığı altında İran kazak briqadası 1908-ci ilin yayında İran məclisini topa tutub dağıtdıqdan sonra, Şah tərəfindən minnətdarlıq nişanəsi olaraq bu rus polkovniki general-qubernator təyin edildi. Bu zaman Şahın sağ əli kimi tanınan S. Şapşal İran Məşrutə hərəkatına qarşı fəaliyyət göstərən əks-inqilabi qüvvələrin episentrində olub və məlum hadisələr zamanı hərbi qüvvədən istifadə edilməsində destruktiv rol oynayıb.

S. Şapşalın əks-inqilabi fəaliyyəti Azərbaycanın demokratik ruhlu yaradıcı xadimlərinin diqqətini çəkib və bununla bağlı bəzi məqamlar onların əsərlərində bu və ya digər dərəcədə öz əksini tapıb. Misallar qismində nəzərə çatdırmaq

[119] M. Ə. Rəsulzadə. Məhəmmədəli Mirzənin şərəfnaməsi. Tehran, "İrani-nov" qəzeti, 23 oktyabr 1909-cu il, № 49.

istərdik ki, S. Şapşalın o cür destruktiv addımları Üzeyir Hacıbəyovun felyeton və miniatürlərində,[120] M. Ə. Sabirin satira və taziyanələrində ("Füzuliyə bənzətmə"),[121] Əhməd Ağaoğlunun publisistik əsərlərində,[122] M. Ə. Rəsulzadənin məqalələrində[123] təsvir edilmiş və Məhəmməd Əli şah, Şeyx Fəzlullah Nuri (1841–1909) və V. Lyaxov kimi Məşrutə əleyhdarlarının fəaliyyəti ilə bir sırada tənqid olunmuşdur. Daha sonralar yazıçı Abbas Pənahi Makulu (1900–1971) "Səttarxan" romanında (1957) yaratdığı mənfi xarakterlər sırasında S. Şapşalın da obrazını təsvir etmişdir. Eləcə də ədəbi klassik Məmməd Səid Ordubadinin (1872–1950) "Dumanlı Təbriz" (1933–1938) çoxcildli tarixi romanında yer almış surətlər galeriyasında S. Şapşalın prototipini tapmaq mümkündür.

Sığınacağa çevrilmiş Şah hərəmxanası

İran məclisi dağıdıldıqdan sonra anarxiyaya bənzər hadisələr başlanmışdı. Məhəmməd Əli şah və Şapşal inqilabçılar tərəfindən total şəkildə təqib və təhdidlərə məruz qalmışdılar. Moskvada nəşr edilən liberal-burjua ruhlu *"Russkoye slovo"* qəzeti 18 iyul 1908-ci il tarixli sayında "Şahın həyatına sui-qəsd hazırlanıb" başlığı altında yazırdı: – "İran şahına, polkovnik Lyaxova və Şapşala qarşı təşkil olunmuş sui-qəsdin üstü açılıb. Onlar İrandan kənarda hazırlanmış bombalarla məhv edilməli idilər. Bombaları yerinə çatdırmaq işi beş nəfər inqilabçıya tapşırılıb. İnqilabçılar qadın paltarları geyinib İrana Astara sərhəddindən girməli idilər. Sui-qəsdlə əlaqəsi olan bir neçə şəxs həbsə alınıb".

Sözügedən hadisələrin dinamika və dramatizmini açıb göstərmək üçün qeyd etmək istərdik ki, o zaman dəfələrlə ölümlə üz-üzə qalan Məhəmməd Əli şah və S. Şapşal bir dəfə hətta qadın paltarı geyinib Şahın hərəmxanasında gizlənməyə məcbur olmuş və bu yolla canlarını qəzəblənmiş kütlənin linç mühakiməsindən xilas edə bilmişdilər. Bu faktı M. Lomonosov adına Moskva universitetinin professoru Nikolay Baskakov S. Şapşalın həyat və yaradıcılığı barədə 1992-ci ildə Vilnüsdə dərc etdirdiyi məqaləsində də qeyd edib (düşünürük ki, müəllif bu qeyri-ordinar hadisəni S. Şapşalın ona danışdığı xatirələr əsasında qələmə alıb).[124]

Beləliklə, getdikcə gərginliyin artdığı şəraitdə Şah güzəştə getməyə məcbur olur. *"Russkoye slovo"* qəzeti 26 iyul 1908-ci il tarixli sayında bu barədə yazırdı: – "Bu gün [...] məlum oldu ki, Şah Əlahəzrətləri onun ən yaxın məsləhətçisi, dostu və Vəliəhdin mürəbbisi, general-adyutant Serqey Markoviç Şapşalla

[120] Filankəs. Ordan-burdan. Sokrat təriqilə siyasi söhbət. "Tərəqqi" qəzeti, 5 noyabr 1908-ci il, № 94.
[121] Sabir. Hohhopnamə. Bakı, "Yazıçı", 1980, s.189.
[122] Əhməd Ağaoğlu. "İran və İnqilabı". İstanbul, 1941; Bakı, 2009.
[123] M. Ə. Rəsulzadə. İranın indiki siyasi vəziyyəti və ya dərəbəylik. Tehran, "İrani-nov" qəzeti, 8 noyabr 1909-cu il, № 61.
[124] Hadži Seraja Chanas Šapšalas pasišventęs tautai ir mokslui. Iš serijos "Muziejaus rinkiniai". Vilnius, 2011, psl. 26.

tamamilə ayrılmaq qərarına gəlib. Məclis və Əncümən çoxdan idi ki, onun Şaha pis təsiri olan şəxs kimi İrandan qovulmasını tələb edirdi. [...] Səkkiz il öncə Lazarev adına Şərq dilləri institunu yenicə bitirmiş S. Şapşal (qəzet səhv yazır, çünki S. Şapşal Sankt-Peterburq universitetinin Şərqşünaslıq fakültəsini qurtarıb – *M. H.*) İranın Peterburqdakı diplomatik missiyasının proteksiyası ilə İran taxt-tacı Vəliəhdinin mürəbbisi qismində ora dəvət olunmuşdu. O, vəliəhd Məhəmməd Əlini özünə çox yaxşı münasibətlərə kökləyə bilmişdi. Buna qədər hətta vurma cədvəlini bilməyən Vəliəhd Avropa ruhunda tərbiyə görmüş cavan Şapşalın qabiliyyətinə valeh olmuşdu. Məhəmməd Əli Şapşalın məsləhəti olmadan bir addım belə atmırdı və öz hakimiyyətinin ağır dəqiqələrini yaşayan zaman ancaq Şapşalın diktəsi ilə hərəkət etmişdi. İran Məclisi tarixində Parlamentin topa tutulması ilə başa çatmış son qanlı hadisələrdə Şapşal az rol oynamayıb..."

Şapşalın fəaliyyəti ayrı-ayrı müəlliflərin təqdimatında

Şapşalın İran dövrü fəaliyyətinə müxtəlif illərdə bir sıra müəlliflər tərəfindən fərqli bucaqlar altında nəzər salınıb və onun siyasi portretinin xarakterik cizgilərinin çəkilməsinə səylər göstərilib. Həm də bu zaman geniş palitra təşkil edən cürbəcür boyalardan, o cümlədən qara və qırmızı çalarlardan bol-bol istifadə olunub.

"Russkoye slovo" qəzeti 26 iyul 1908-ci il tarixli sayında kinayə ilə yazırdı: "Məhəmməd Əli şahın sarayında general-adyutant olaraq yüksək mövqe tutmuş Rusiya təbəəsi S. Şapşal çox zaman öz fəaliyyəti ilə məşhur Həbəşistan avantüristi Leontyevi xatırladır ki, o da ekvatora yaxın bir əyalətin tamtəraqlı general-qubernator titulunu daşıyırdı (jurnalist burada Rusiya hərbi və siyasi xadimi, macəra həvəskarı və afrikaşünas kimi tanınmış Nikolay Stepanoviç Leontyevi (1862–1910) nəzərdə tutaraq qeyri-adekvat və yanlış müqayisə aparıb – *M. H.*)".

Sovet şərqşünası və tarixçi professor Vladimir Aleksandroviç Qurko-Kryajin (1887–1931) S. Şapşalın Təbrizdəki elmi-pedaqoji fəaliyyətini marksizm-leninizm təliminə əsasən, "faydalı şərtlərlə iqtisadi müqavilələr hazırlamaq üçün çar Rusiyası hökuməti tərəfindən Məhəmməd Əli şahın yanına qoyulmuş konsessiyalar ovçusu və şübhəli işbaz" kimi səciyyələndirərək təqdim edib.[125]

Pavloviç təxəllüslü rus şərqşünası və publisisti Mixail Lazareviç Veltman (1871–1927) isə "1905-ci il inqilabı və Şərq" adlı elmi-tarixi oçerkində[126] S. Şapşalın fəaliyyətini analitik prizmadan belə işıqlandırıb: – "İran inqilabi

[125] Владимир Александрович Гурко-Кряжин. Краткая история Персии. Москва, издательство "Прометей", 1925.
[126] М. П. Павлович. Революция 1905 г. и Восток. Журнал "Историк-Марксист", №1, 1926 год, стр. 142–153.

hərəkatı sıx surətdə Rusiya fəhlə hərəkatı ilə bağlı idi, İran əks-inqilabı isə əksinə, öz qüvvəsini Çar taxt-tacının pyedestalından alırdı. Olduqca maraqlı haldır ki, İran Sosial-Demokrat partiyasının *(İctimaiyyun-Amiyyun)* əsasını mərhum yoldaş Nəriman Nərimanov qoymuşdu, İran əks-inqilabının başlıca təhrikçisi isə İranda özünə qarşı ümumi nifrət oyatmış rus təbəəsi S. M. Şapşal idi" (*"İstorik-marksist"* elmi jurnalı, Moskva, 1926, № 1).

Tarix elmləri doktoru, rus yazıçısı Georgi Borisoviç Fyodorov (1917–1993) daha "irəli gedərək" 1966-cı ildə Moskvada nəşr olunmuş "Yer kürəsinin üst qatı" adlı kitabında[127] S. Şapşalın 1940-cı ildən sonrakı fəaliyyətini oraq-çəkicli qızıl bayraq altında təsvir etməyə uğursuz səylər göstərib.

Bir sıra Azərbaycan müəllifləri də S. Şapşalın siyasi simasını onun İrandakı fəaliyyətinin işığında öz əsərlərində müxtəlif ədəbi üsullarla təsvir etməyə çalışıblar. M. Ə. Rəsulzadə, Əhməd Ağaoğlu, Vilayət Quliyev və b. yazarlar rezidentin xoşagəlməz siyasi addımları barədə fikirlərini "Xəzər türklərinə və yəhudi dininə mənsub olan Rus casusu", "Məhəmmədəli Mirzənin ustadı", "şahın mənfur əlaltısı", "rus irticasının təmsilçisi", "mürtəce qüvvələrin xidmətçisi", "rus intriqalarının təşkilatçısı", "İran Rasputini" kimi ritorik və kəskin epitetlərlə ifadə ediblər.

Beləliklə, S. Şapşalın İran şah sarayındakı fəaliyyəti birmənalı olmayıb və onun həyatında bir sıra ziddiyyətli izlər qoyub. Lakin bu fəaliyyət uzun illər onun bioqrafiyasında əks olunmayıb. Özü isə tərcümeyi-halını yazarkən o illərin üzərindən sükutla keçib. Əslində S. Şapşalın Məşrutə inqilabına qarşı fəaliyyətini və faciəvi hadisələrdə iştirakının qeyri-qanuni cəhətlərini aydınlaşdıran faktlar "tamamilə məxfi" qrifi altında uzun müddət Rusiya arxivlərində gizli saxlanılıb. Yalnız XX əsrin 90-cı illərində Rusiyada bir sıra arxiv fondları üzərindən məxfilik götürüldükdən sonra, S. Şapşala aid mənbələr də üzə çıxarılıb.

S. Şapşalın İrandakı fəaliyyəti ilə bağlı aparılmış bir sıra başqa tədqiqatlar da mövcuddur. Həmin tədqiqtlar professor Nikolay Baskakovun,[128] Vilnüs Universitetinin professoru, tarixçi alim Vigintas Bronyus Pşibilskisin,[129] Litva diplomatı, humanitar elmlər doktoru Halina Kobetskaytenin,[130] Trakay tarix müzeyi Karaim bölməsinin müdiri Alvira Zagretskaytenin,[131] Moskvada nəşr olunan *"Karaimskiye vesti"* dərgisinin baş redaktoru Oleq

[127] Георгий Федоров. Дневная поверхность. Москва, издательство "Детская литература", 1966, стр. 127–179.
[128] Николай Баскаков. Профессор С. М. Шапшал – выдающийся ученый, мудрый пастырь и хороший человек. Журнал Союза писателей Литвы "Вильнюс", ноябрь 1992 г.
[129] Vygintas Bronius Pšibilskis. Karaimų tautos patriarchas. Leidinyje "Hadži Seraja Chanas Šapšalas pasišventęs tautai ir mokslui". Vilnius, 2011, psl. 15–22.
[130] Halina Kobeckaitė. Profesorius Seraja Šapšalas mano gyvenime. Ibid., psl. 48–50.
[131] Alvyra Zagreckaitė. Seraja Šapšalas. Ibid., psl. 8–14.

Petrov-Dubinskinin[132] və digər müəlliflərin 1991–2018-ci illərdə rus, Litva və Azərbaycan dillərində çap edilmiş məqalələrində öz əksini tapıb.

Müasir Azərbaycan müəlliflərindən isə professor V. Quliyevin S. Şapşalın elmi, ictimai-siyasi və dini fəaliyyəti haqqında 2007-ci ilin noyabr-dekabr aylarında "525-ci qəzet"də dərc edilən elmi-publisistik çalışmalar silsiləsi ("Şapşal – azərbaycanşünas, yaxud qardaşlarımız karaimlər") xüsusilə qeyd olunmalıdır. 2009-cu ildə həmin çalışmalar müəllifin dövri mətbuatda müxtəlif illərdə dərc olunmuş digər məqalələri ilə bərabər ayrıca toplu şəklində Bakıda çap edilib.[133]

Şapşal öz anti-inqilabi baxışları barədə

S. Şapşalın Məşrutə hərəkatına qarşı yürütdüyü siyasətin səbəbləri onun İrandan qayıtdıqdan sonra verdiyi bir müsahibəsində çox aydın şəkildə göstərilib. Peterburqda nəşr edilən *"Birjoviye vedomosti"* qəzetinin 7 avqust 1908-ci il tarixli sayında (№ 10644) çap edilmiş "General-adyutant Şapşal Moskvada" adlı məqalədə bu barədə açıqlamalar verilib:

"Tanınmış İran xadimi, general Şapşal dünən yolüstü Moskvada dayanıb. O, jurnalistlərə verdiyi müsahibədə bildirib ki, qovulmuş İran parlamenti ölkənin həqiqətən də ehtiyac duyduğu məsələlərin mahiyyət etibarilə ifadəçisi deyildi. O, bu fikrini müfəssəl surətdə əsaslandırdı və ümidvar olduğunu bildirdi ki, yeni Parlament İranın fərqli fikir və rəylərini ifadə edən gerçək bir tribuna olacaq və hüquq normalarını həyata keçirə biləcəkdir. Şapşal belə yanaşmanı təqdim edərkən təsdiqlədi ki, onun özü Konstitusionalizmin gerçək tərəfdarıdır. Lakin düşünür ki, İran hələ o səviyyəyə gəlib çatmayıb. Buna rəğmən, artıq geri qayıtmaq mümkün deyil, – deyə Şapşal sözünü bitirib".

Şübhəsiz ki, karay türkü S. Şapşalın Məşrutə hərəkatına qarşı əks-inqilabi fəaliyyəti həm də ümumtürk həmrəyliyi baxımından mənəvi sıxıntılar yaşadan xoşagəlməz məqamlar kimi tarixə düşüb və yəqin ki, bu, heç bir zaman unudulmayacaq (atalar demişkən, qazan qarası gedər, üz qarası getməz). Bununla yanaşı, S. Şapşalın bütün türk dünyası qarşısında, o cümlədən Azərbaycan tarixi, dili və mədəniyyəti, azərbaycançılıq ideologiyası və İstiqlal məfkurəsi qarşısında göstərdiyi xidmətlər də tarixin səhifələrinə həkk olunub. Düşünürəm ki, bu xidmətlər öz milli mahiyyəti və dəyəri, bəşəri əhəmiyyəti və ictimai-siyasi çəkisinə görə onun İrandakı siyasi fəaliyyətindən qat-qat yüksəkdə durur və sözügedən mənfi məqamları arxa plana atır. Zənnimcə, elə buna görə 1909-cu

[132] О. В. Петров-Дубинский. "С. М. Шапшал (Эдиб-Ус-Султан) – учитель Валиахда Мохаммеда-Али, генерал-адъютант Мохаммед-Али-шаха". Ведущий российский академический научный журнал «Восток/Oriens», 2007 г., № 5, с. 64–78. Издан Институтом востоковедения РАН.
[133] Vilayət Quliyev. "Son illərin yazıları". Bakı "Ozan", 2009-cu il. 600 səh.

ildə S. Şapşalın adını kəskin epitetlərlə hallandıran M. Ə. Rəsulzadə 1933-cü ildə ona Polşadan yazdığı məktubda "çox möhtərəm Sürəyya Bəyəfəndi", "Zati-Aliləri Şapşal" deyərək dərin hörmət və ehtiramla müraciət edib, milli İstiqlalı mühacirətdə yaşatmaq və Prometey hərəkatına daha geniş vüsət vermək üçün türk dünyasının bu Böyük oğlu ilə əməkdaşlıq əlaqələri saxlayıb...

Ay-ulduz rəmzi altında İstiqlal savaşı

28 aprel işğalının ilk günündən bolşeviklər Azərbaycanda qanlı üsullara əl ataraq totalitar rejimin amansız cəza-repressiya maşınını işə saldılar. Müstəqilliyin süqutundan sonra Cümhuriyyət baniləri və dövlət xadimlərinin bir qismi xarici ölkələrə mühacirət etməyə məcbur oldu. Bir qismi isə erməni və bolşevik terrorunun qurbanı oldu. Bəzi ictimai-siyasi xadimlər və milli ideologiyamızın tribunları da təqiblərə məruz qalaraq mühacir həyatına məhkum olundular, Türkiyə, Fransa, İsveçrə, Almaniya, Polşa, Litva, Rumıniya və digər ölkələrə üz tutub burada sığındılar. Bu mühacirlər arasında Cümhuriyyətin dövlət idarəçiliyində çalışan Litva tatarları da vardı.

Cümhuriyyət mühacirləri xaricdə də siyasi əqidələrindən dönmədilər və ömürlərini Azərbaycanın istiqlal məfkurəsi yolunda sərf etdilər. Onlar mühacirətdə istiqlal savaşını həm də mədəniyyət siyasəti yolu ilə aparırdılar. Bu baxımdan onların çox zəngin mədəni və siyasi publisistik irsi vardır. Bu irsin əsas hissəsi Rusiyanın imperialist və işğalçı siyasətini ifşa edən nəşrlərdən, Azərbaycan mədəniyyətini, dövlətçilik tarixini, Cümhuriyyət ideyalarını təbliğ edən publikasiyalardan ibarətdir ki, bunların bir qismi Litva tatar xadimlərinin ictimai-siyasi və mədəni fəaliyyəti ilə bağlıdır.

Bu fəaliyyət barədə danışmazdan öncə vurğulamaq istərdik ki, görkəmli Litva tatarı, ictimai-siyasi və mədəni xadim, hüquqşünas Leon Kriçinski 1935-ci ildə dərc etdirdiyi bir elmi-tarixi araşdırmasında göstərir ki, Cümhuriyyətin quruculuq işlərində və dövlət idarəçiliyində 20-dən artıq Litva tatar xadimi çalışıb. Amma nədənsə bir sıra Azərbaycan alimlərinin Cümhuriyyət və mühacirət dövrü ilə bağlı tədqiqat və kitablarında onlar Polşa tatarları kimi təqdim olunurlar.

Burada tarixə qısa bir ekskurs edək: sözügedən tatar xadimlərin əksəriyyəti Böyük Litva Knyazlığı tatar nəsillərinin xələfləri idi. Belə ki, Böyük Litva Knyazlığının ən ünlü hökmdarı Böyük knyaz Vitautas (1350–1430) tatar və karay türklərinin əcdadlarını hələ 1397-ci ildə Krımdan Litva Knyazlığının ərazilərinə köçürmüşdü. Litva Knyazlığının onlara dövlət münasibətini əks etdirən belə bir faktı göstərmək istərdik ki, Böyük Litva knyazı və sonralar Polşa kralı olan Kazimier Yagello (1427–1492) Litva karaimlərinə 1441-ci ildə

Magdeburg hüququ *(almanca – Magdeburger Recht)* vermişdi. Dövlət idarəçiliyində və orduda xidmət edən Litva tatarları isə boyar zümrəsinə layiq görülürdü. Həm də, Krım xanlığından (1441–1783) xan, bəy titullu soyların təmsilçiləri olaraq Litvaya köçmüş və ya köçürdülmüş tatarlara birbaşa Litva Knyazlığının boyar rütbəsi verilirdi. O zamam müasir Ukrayna, Belarus və Rusiyanın bir sıra torpaqları bu Knyazlığın tərkibində idi. Yalnız 1569-cu ildə Litva və Polşa birləşmiş Reç-Pospolita dövlətini yaradılıb.

İndi isə qayıdaq Cümhuriyyətin Litva tatar xadimlərinə. Onlardan – Cümhuriyyət ordusunun Baş qərargah rəisi, general Matsey Sulkeviç, Ədliyyə nazirinin müavini Olgerd Kriçinski və onun qardaşı, AXC Hökuməti İşlər idarəsi dəftərxanasının direktoru, eyni zamanda İşlər idarəsi Xüsusi şöbəsinin rəisi və "Azərbaycan Cümhuriyyəti hökumətinin xəbərləri" nəşrinin redaktoru Leon Kriçinskinin Azərbaycandakı fəaliyyəti müəyyən dərəcədə araşdırılıb və müxtəlif nəşrlərdə işıqlandırılıb.

Cümhuriyyətin görkəmli xadimləri olaraq tanınmış Litva tatarları: 1. AXC Ordusunun Baş qərargah rəisi general Matsey (Süleyman bəy) Sulkeviç. 2. Olgerd Nayman Kriçinski. 3. Leon Nayman Kriçinski.

Bununla yanaşı, Cümhuriyyətin dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, ticarət, rabitə, ordu və sair sahələrdə xidmət etmiş Litva tatarları nəsillərindən olan bir sıra qulluqçular da vardır ki, onların fəaliyyəti yetərincə öyrənilmədiyindən bu barədə hələlik bilgilər ya çox azdır, ya da heç yoxdur. Odur ki, bu boşluğu qismən də olsa aradan qaldırmaq üçün həmin qulluqçulardan bəziləri haqqında qısa bioqrafik məlumatları aşağıda təqdim edirik:

Cümhuriyyətin Dövlət nəzarəti nazirliyi dəftərxanasının direktoru Muxarski, Xarici işlər nazirliyi dəftərxanasının direktoru İsmayıl Xuramoviç, bu dəftərxananın direktor müavini Konstantin Sulkeviç, Xarici işlər nazirliyi

Diplomatiya şöbəsinin əməkdaşı Fatma (Yuliya) xanım Qiyasbəyova, bu Nazirliyin Beynəlxalq müqavilələrin qeydiyyat-uçot və saxlanması şöbənin rəis müavini Ceyran (Helena) xanım Suleymanoviç, Ticarət və sənaye nazirliyinin İdarə rəisi Aleksandr Poltorjitski, Yollar nazirliyinin əməkdaşı Yakubovski, Hökümətin İşlər idarəsi dəftərxanasının əməkdaşları Leyla xanım Sulkeviç və Saleh bəy Toxtamış, Ədliyyə nazirliyinin qulluqçuları – Helena xanım Sulkeviç (Qanunvericilik şöbəsi) və Məryəm (Helena) xanım Bayraşevskaya (həbsxanalar şöbəsi), eləcə də Mariinski qadınlar gimnaziyasının müfəttişi Sara xanım Xuramoviç Litva tatarlarından olublar.

Fərəh verən haldır ki, Cümhuriyyətin milli himninin hazırlanması ilə bağlı Nazirlər kabinetinin 1920-ci il yanvarın 30-da elan etdiyi müsabiqədə o zaman Bakıda çalışan Smolski soyadlı bir mühəndis Litva tatarı da iştirak edib.[134]

Qeyd etdiyimiz kimi, XI ordu aprelin 28-də Bakıya girdikdən sonra burada çox gərgin və olduqca təhlükəli bir vəziyyət yarandı. Cümhuriyyətin dövlət idarəçiliyində çalışan bir qisim Litva tatar xadimlərinin də həbs olunub ölümə göndərilməsi riski onların başı üzərində Damokl qılıncı kimi asılmışdı. Çox əfsus ki, general Matsey Sulkeviç o dövrün qanlı repressiyalarından qurtula bilmədi. O, XI Ordunun Hərbi İnqilabi Şurasının yanında Xüsusi şöbənin 438 saylı həbs orderi ilə 1920-ci il mayın 8-də həbs olundu və Cümhuriyyət ordusunun qurucularından biri olaraq, əks-inqilabi fəaliyyətdə və bolşeviklər hakimiyyətinə qarşı düşmənçilikdə ittiham edilib mayın 15-də güllələndi.

Lakin qalan Litva tatarlarının bir qismi bolşeviklərin ölüm caynağından çətinliklə xilas olub riskli yollarla tarixi vətənləri Litvaya qayıda bildilər (onların çoxusunun vətənə dönməsində Cümhuriyyətdəki Litva konsulu Vintsas Kreve əvəzsiz rol oynayıb).

Bir sıra Litva tatar xadimləri 1920-ci ilin may-avqust aylarında Bakıdan Kaunasa qayıtdıqdan sonra öz doğma yurdlarında – keçmiş Rusiya imperiyası Vilenski quberniyasının (1795–1915) mərkəzində – müstəqil Litvanın paytaxtı Vilnüsdə qərar tutdular və Litva dövlət qurumlarında xidmətə başladılar. Məsələn, sabiq Cümhuriyyət xadimləri Leon Kriçinski və Konstantin Sulkeviç Litva Respublikası prezidenti vəzifəsini icra edən Aleksandras Stulginskisin (1885–1969) 14 avqust 1920-ci il tarixli Sərəncamı ilə Litvanın Ədliyyə nazirliyində dövlət qulluğuna qəbul edilir, sonra isə onların hər ikisi Litvanın Ədliyyə naziri Vintsas Karoblisin (1866–1939) 9 sentyabr 1920-ci il tarixli Əmri ilə Vilnüs şəhər məhkəməsində müstəntiq vəzifəsinə təyin olunur.

1921–1922-ci illərdə Cümhuriyyətin Bakını tərk edən digər sabiq Litva tatar qulluqçularının çoxusu da Polşaya yox, Kaunasa qayıdıblar (Aleksander Yakubovski, Alibek Alibekov, Fatma Qiyasbəyova və b.).

[134] Rocznik Tatarski. Tom II. Zamość, 1935, str. 88.

Lakin 9 oktyabr 1920-ci ildə Vilnüs regionu Polşa tərəfindən yenidən zəbt olunub ilhaq edildi və çoxlu Litva tatarı burda Polşanın yurisdiksiyası altında yaşayıb fəaliyyət göstərməyə məcbur oldu (polyakca *Wilenszczyzna* – adlanan Vilnüs regionu 1920–1939-cu illərdə Polşanın işğalı altında olub).

Litva–Polşa tatarları o zaman həyata keçirilməsi çox çətin olan bir məqsədlə yaşayırdılar. Bu, Rusiyanın işğal etdiyi türk-tatar torpaqlarında müstəqil Tatar dövlətini qurmaqla bağlı idi. Onlar tarixdə bir dəfə bu arzunun gerçəkləşməsinin bir addımlığında durmuşdular. Belə ki, 1917-ci il Oktyabr çevrilişindən sonra – noyabr ayında Krımda 1-ci Krım Tatar qurultayında paytaxtı Bağçasaray olmaqla Krım Xalq Cümhuriyyətinin yaradılması elan edilib. Cümhuriyyət, ictimai-siyasi və dini xadim Noman Çələbi Cihanın (1885–1918) sədrliyi ilə 1918-ci ilin yanvarına qədər yaşayıb. Daha sonra, tatar xalqının dəyərli oğlu Matsey Sulkeviçin rəhbərliyi altında 1918-ci il iyunda Krım Hökuməti yaradılıb. Lakin bu Hökumət Krım Tatar qurultayını çağırıb Krım-tatar dövlətinin qurulmasını elan etməyə macal tapmayıb və dekabrda xarici qüvvələrin ekspansiyası nəticəsində süquta uğrayıb. Krım-tatar hökümətinin fəaliyyətində və Krım-tatar dövlətinin yaradılmasında iştirak etmiş bir sıra tatar xadimləri bu süqutdan sonra Bakıya gələrək AXC quruculuğu işlərinə qatıldılar.

1920–1930-cu illərdə Litva–Polşa tatarlarının liderləri tatar xalqı tarixinin öyrənib yayımlanması, etnokulturoloji dəyərlərin qorunması, milli şüurun, vətənpərvərlik hisslərinin möhkəmləndirilməsi, türk xalqları ilə əlaqələrin gücləndirilməsi, mədəni millətçilik, türkçülük, azadlıq və dövlətçilik ideyalarının yayımlanması istiqamətində fəaliyyət göstəriblər. Bu baxımdan onların atdığı addımlar o dövr Azərbaycan siyasi mühacirət liderlərinin fəaliyyəti ilə mahiyyət və ideya yaxınlığı təşkil edirdi. Təsadüfü deyil ki, bir-birilərini yaxşı tanıyan tatar xadimləri və Cümhuriyyət mühacirləri öz aralarında əlaqə saxlayır və birgə tədbirlər təşkil edirdilər.

Azərbaycan siyasi mühacirlərindən M. Ə. Rəsulzadə, Xəlil bəy Xasməmmədov (1875–1947), Ə. Topçubaşov, onun oğlu Ələkbər bəy Topçubaşov (1896–1977), Cümhuriyyət ordusunun alay komandiri, hərbi xadim, polkovnik Vəli bəy Yadigarov (1897–1971), publisist Əli Azərtəkin,[135] tanınmış yazar-publisist Mirzə Bala Məmmədzadə (1898–1959)[136] və digər xadimlər həm Kriçinski qardaşları ilə, həm də 1928-ci ildən etibarən Vilnüsdə yaşayıb fəaliyyət göstərmiş karay türklərinin öndəri Sürəyya Şapşalla yazışmalar apararaq ictimai-siyasi və yaradıcılıq əlaqələri saxlayıblar.

[135] Əli Azərtəkinin gizli təxəllüslərindən biri Əli Mirzədir.

[136] M. B. Məmmədzadənin ədəbi təxəllüslərindən biri Azəridir və onun bəzi publisistik yazıları Litvada bu təxəllüs altında polyakca yayımlanıb.

1. M. Ə. Rəsulzadə.

2. Ə. Topçubaşov.

3. X. Xasməmmədov

Bu əlaqələrə örnək olaraq, istiqlal savaşının ideoloqu M. Ə. Rəsulzadənin 1932-ci ildə Leon Kriçinskinin redaktorluğu ilə Vilnüsdə polyakca nəşrə başlayan *"Rocznik tatarski"* ("Tatar salnaməsi") məcmuəsinin ilk sayı üçün yazdığı "Əleyküm salam" adlı təbrik məqaləsini,[137] X. Xasməmmədovun Polşa siyasətçisi və dövlət xadimi, millət vəkili, Prometey hərəkatının aparıcı simalarından olan Tadeuş Holuvkonun (1889–1931) xatirəsinə həsr etdiyi və *"Rocznik tatarski"* toplusunda dərc edilmək üçün L. Kriçinskiyə göndərdiyi *In Memoriam* səpkili yazını (T. Holuvko 29 avqust 1931-ci ildə Ukrayna Millətçilər Örgütü tərəfindən həyata keçirilmiş terror aktı nəticəsində öldürülüb),[138] V. Yadigarovun "Tatar salnaməsi"nin I cildində çap olunmuş "Polşa ordusunun Mustafa Axmatoviç adına tatar süvari polku. 1919–1921-ci illər" adlı hərbi-tarixi oçerkini,[139] M. Ə. Rəsulzadənin 1933-cü ildə Varşavadan Vilnüsə S. Şapşala ünvanladığı məktubu, "İstiqlal" qəzetinin əməkdaşları Həmid Dönməzin və Əli Azərtəkinin Vilnüs səfərləri, işgüzar görüşləri, ata-oğul Topçubaşovların Vilnüsə L. Kriçinskiyə yazdığı Paris məktubları Cümhuriyyət dövrünə aid mühüm faktları özündə əks etdirən və tariximizin qaranlıq səhifələrinə işıq salan mötəbər mənbələrdir.

Bununla yanaşı, O. Kriçinskinin Azərbaycan və Qafqaz Konfederasiyası əlaqələri mövzulu bir neçə çalışmasını – "Azərbaycan müstəqilliyinin 15 illiyinə",[140] "Fətəli xan Xoyskinin ölümünün 15 illiyinə"[141] və "Qafqaz Konfederasiyası ideyasının tarixinə dair"[142] adlı məqalələri də Cümhuriyyət tarixi və naməlum hadisələr barədə bilgilər ehtiva edən dəyərli qaynaqlar kimi təqdim etmək olar.

[137] Mamed Emin Resul-Zade. "Aleyhim Selam!". Wilno, "Rocznik tatarski", 1932, str. 206–208.
[138] Halil-Bej Has-Mamed. "Ku pamięci Tadeusza Holowki". Wilno, "Rocznik tatarski", 1932, str. 334–335.
[139] V. J. "Pulk Tatarski ulanow imienia Mustafy Achmatowicza (1919-1921)". "Rocznik tatarski", 1932, str. 152–164.
[140] "Тоpцы Кавказа – Kafkasya Dağlıları" jurnalı, 1933-cü il, № 37. səh. 12–14 (rus və Azərbaycan dillərində).
[141] "Şimali Kafkasiya – Северный Кавказ" jurnalı, 1935-ci il, № 14.

1. "Rocznik tatarski" məcmuəsi.

2. Tadeuş Holuvko.

3. Vəli bəy Yadigarov.

Litva–Polşa tatarlarının göstərilən fəaliyyəti ilə bağlı 1990-cı illərdən başlayaraq Litvada, Azərbaycanda, Polşada və Rusiyada bir çox müəlliflər tərəfindən bir sıra araşdırmalar aparılıb, kitablar nəşr olunub. Bu sahədə tədqiqatlar aparmış alimlərdən Kazan universitetinin professoru Dilarə Usmanovanın, M. Römeris adına Vilnüs universitetinin professoru Adas Yakubauskasın, mühacirətşünas tədqiqatçı Nəsiman Yaqublunun, ədəbiyyatşünas professor Vilayət Quliyevin və bir sıra digər müəlliflərin monoqrafik işlərini və elmi-publisistik məqalələrini qeyd etmək lazımdır.

Buna baxmayaraq, bu mövzuya aid bir sıra vacib faktlar və mühüm informasiya mənbələri, siyasi-publisistik və ədəbi-tarixi yazılar, o cümlədən Litva tatar xadimlərinin Cümhuriyyət dövrü fəaliyyəti ilə bağlı onlara qarşı NKVD-MQB-KQB strukturları tərəfindən qaldırılmış cinayət işlərindəki bəzi məlumatlar indiyədək aparılan araşdırmalardan kənarda qalıb. Belə vəziyyət bu yönlü tədqiqat işləri üzərinə bir daha qayıtmaq və bəzi çalışmaları həmin nöqteyi-nəzərdən tamamlamaq zərurəti doğurur.

Beləliklə, XX əsrin 20–30-cu illərində Azərbaycan siyasi mühacirlərinin Krım, İdil, Ural, Şimali Qafqaz və Türküstan türkləri ilə bərabər azadlıq uğrunda göstərdikləri misilsiz fəaliyyəti, Litva–Polşa tatar xadimlərinin Milli tatar məfkurəsi naminə gördükləri cahanşümul işləri Ay-ulduz rəmzi altında aparılmış İstiqlal savaşının taleyüklü mərhələsi tək, ünlü Krım-tatar xadimi

[142] "Şimali Kafkasiya – Северный Кавказ" jurnalı, 1935-ci il, № 9. s. 11–13.



Varşavadakı Şərq institunun müsəlman nəşrlərinin redaktorları. Soldan: Barashi Baytuqan (1899–1986) ("Severnıy Kavkaz"), Vassan-Girey Cabaqi (1882–1961) ("Przeglad İslamski"), Leon Kriçinski ("Rocznik Tatarski"), M. Ə. Rəsulzadə ("İstiqlal") və Ayaz İshaki (1878–1954) ("Yana Milli Yul"). 1932-ci il.

İsmayıl bəy Qaspıralının (1851–1914) "Dildə, fikirdə, işdə birlik" manifestini təcrübədə əks etdirən birgə mübarizə tarixinin parlaq səhifələri kimi səciyələndirmək olar...

Prezidentlərin yüksək diqqətindəki qədim əlaqələrimiz

Beynəlxalq ictimai əlaqələrdə və dövlətlərarası münasibətlərdə yüksək səviyyəli qarşılıqlı anlaşmalar əldə etmək üçün xalqların bir-birinin tarix və mədəniyyəti ilə yaxından tanış olması faktoru getdikcə aktual mahiyyət kəsb edir. Bu mənada beynəlxalq ictimai əlaqələri ictimai diplomatiyanın (və ya xalq diplomatiyasının) bir forması saymaq olar. İctimai diplomatiya, əsasən iki yöndə – kommunikativ və mədəni diplomatiya siyasəti istiqamətlərində həyata keçirilir ki, onun məqsədlərindən biri ölkələr və xalqlar arasında bilavasitə təmas nöqtələrini tapıb ölkənin siyasəti və dəyərləri haqqında daha çox bilgilər verməkdir. Zənnimizcə, möhkəm təmas nöqtələrinə arxalanıb ikitərəfli beynəlxalq əlaqələrin bəzi tezislərini tərəflərə məqbul şəkildə reallaşdırmaq işində xalqlar arasındakı qədim mədəni əlaqələr müstəsna rol oynayır. Çünki bu əlaqələr, ilk növbədə hər iki xalqın tarix və mədəniyyətinin ayrılmaz tərkib hissəsidir.

Digər tərəfdənsə ictimai diplomatiya güvənli, faydalı və davamlı beynəlxalq əlaqələrin inkişafına xidmət edən daşıyıcı seqment olaraq, həm də ölkələrin

bir-biri ilə yüksək səviyyəli rəsmi əlaqələr qurmaq səyləri ilə də uzlaşır. İctimai diplomatiya ilə mədəniyyət diplomatiyası arasında çox sayda oxşar məqamların olduğunu nəzərə alaraq mədəni irsimizi Baltik ölkələrində yaymaq işinə ictimai diplomatiya (və ya mədəniyyət diplomatiyası, mədəniyyət siyasəti) prizmasından nəzər salmaq və dövlət rəsmiləri tərəfindən bu yöndə yürüdülən siyasəti nümunələr əsasında şərh etmək yerinə düşər.

Öncə qeyd edək ki, Azərbaycanın Estoniya, Latviya və Litva ilə ikitərəfli dövlətlərarası münasibətləri müstəvisində 2006-cı ildən indiyədək baş tutmuş rəsmi dövlət səfərləri zamanı ən yüksək siyasi səviyyədə aparılan danışıqlarda mədəniyyət diplomatiyası amilindən xalqlarımızın qədim ictimai-ciyasi və mədəni əlaqələri kontekstində böyük məharətlə istifadə olunub. Bu amillə bağlı vacib məqamlar və örnəklər Litva prezidenti Valdas Adamkusun Azərbaycana (iyun 2006), Azərbaycan prezidenti İlham Əliyevin Litvaya (sentyabr 2007), həmçinin Latviyaya (yanvar 2011), Latviya prezidenti Andris Berzinşin Azərbaycana (aprel 2013) rəsmi dövlət səfərləri zamanı onların şərəfinə verilmiş rəsmi ziyafətlərdə etdikləri çıxışlarında paradigmatik anlamda əks olunub.

Latviya və Azərbaycan prezidentləri Andris Berzinş və İlham Əliyev. Bakı, 25 aprel 2013-cü il.

Azərbaycanın Latviya ilə ikitərəfli dövlətlərarası münasibətlərində bu ölkələrin prezidentlərinin qarşılıqlı etimad və tərəfdaşlıq əlaqələrinə güclü stimul vermək istiqamətində xalqlarımızın qədim ictimai-mədəni əlaqələrindən etibarlı körpü kimi istifadə etmələri ilə bağlı müddəanı əməli şəkildə nümayiş etdirən bəzi örnəklərə müraciət edək.

2013-cü ilin aprel ayında Latviya prezidenti Andris Bersinşin Azərbaycana rəsmi dövlət səfəri zamanı Bakıda onun şərəfinə verilmiş rəsmi ziyafətdə Azərbaycan Respublikasının prezidenti İlham Əliyev öz çıxışında belə bir tarixi məqamı vurğulayır:

"Azərbaycan ilə Latviya arasında əlaqələrin tarixi kökləri vardır. XX əsrin əvvəllərində Bakıda Latış Cəmiyyəti fəaliyyət göstərirdi. Cəmiyyətin yüzə yaxın tanınmış üzvü var idi. Latviyanın məşhur yazıçıları Ernests Birznieks-Upitis, Pavils Rozitis, Yanis Vaynovskis, Augusts Bertse, rəssam və yazıçı Yanis Yaunsudrabinş, diplomat Antons Balodis, Bakı Opera teatrının dirijoru, dahi latış bəstəkarı Yazeps Medinş, memar Ervins Paumbats və başqaları bu cəmiyyətdə təmsil olunurdular. 2013-cü ilin mart ayında Bakıda Cəmiyyətin fəaliyyətinin yenidən bərpa edilməsini həmin ənənənin davamı kimi yüksək qiymətləndiririk".

Latviya prezidenti Andris Berzinş cavab çıxışında prezident İlham Əliyevin məruzəsindəki həmin önəmli faktlara səmimi münasibətini bildirir, keçmiş tariximizdəki ümumi məqamları xalqlarımız arasındakı müasir əlaqələrin inkişafı ilə uzlaşdırır, Latviya azərbaycanlılarının ölkənin vətəndaş cəmiyyətindəki fəaliyyəti, Latviyanın tərəqqisi naminə onların verdikləri iqtisadi və mədəni töhfələr haqqında dəyərli fikirlər səsləndirir:

"Mən, indi fəaliyyəti bərpa olunmuş Bakı Latış Cəmiyyətini salamlamaqdan qürur duyuram. Cəmiyyətə dinamik inkişaf arzu edərdim. İstərdim ki, bu Cəmiyyət XX əsrin əvvəlində yüzdən çox fəal latışın bir araya gəlməsi tarixindən ilham alsın. Eləcə də Latviyada iki mindən çox azərbaycanlı yaşayır ki, onların xalq təsərrüfatı və mədəniyyət sahəsindəki əməyi ölkəmizdə yüksək qiymətləndirilir. Azərbaycanlılar da Latviyanı özünə yaşayış məkanı seçən digər insanlar kimi, dövlət və ictimaiyyət üçün vacib ortaq məsələləri müzakirə etdiyimiz Milli Azlıqlar Şurasında layiqincə təmsil olunublar".

Mədəniyyət diplomatiyası faktorundan Azərbaycan–Litva münasibətlərini daha da istiləşdirmək üçün istifadə edilməsinin gözəl nümunəsi olaraq Prezident İlham Əliyevin 2007-ci ilin sentyabrında Litvaya ilk rəsmi dövlət səfəri zamanı onun şərəfinə Litva prezidenti Valdas Adamkusun adından verilən rəsmi ziyafətdə etdiyi nitqindən bəzi fikirləri səciyyəvi misal kimi təqdim etmək istərdik:

"... Litva və Azərbaycan xalqları arasındakı əlaqələr sabit və genişdir. Ötən əsrin əvvəllərində Bakıda yaşayan litvalılar Azərbaycanın ictimai həyatında fəal rol oynamışlar. Litva ədəbiyyatının klassiki, Azərbaycanda dərc olunmuş əsərlərin müəllifi Vintsas Kreve-Mitskəviçyus o dövrdə Bakı universitetinin professoru olmuş, Azərbaycan Xalq Cümhuriyyətinin quruculuğu işlərində fəal çalışmış və Litvanın Azərbaycandakı ilk konsulu işləmişdir. Həmin dövrdə xalqlarımız arasında ədəbi-mədəni əlaqələr də genişlənmişdir".

Azərbaycan prezidenti İlham Əliyev onun şərəfinə Litva prezidenti Valdas Adamkusun adından verilən rəsmi ziyafətdə nitq söyləyən zaman. Vilniüs, Prezident sarayı, 13 sentyabr 2007-ci il.

Hər iki ölkənin dövlət başçısının nitqlərinin dinlənildiyi həmin tədbirdə bilavasitə iştirak etdiyim üçün Azərbaycan prezidentinin çıxışının yaratdığı müsbət reaksiyanı yaxşı xatırlayıram. Onda prezident İlham Əliyevin çağdaş Azərbaycan–Litva dövlətlərarası münasibətlərini yeni məzmun və keyfiyyət səviyyəsinə qaldırmaq məsələsinə xalqlarımızın qədim ədəbi və mədəni əlaqələrinə, dövlətlərarası münasibətlərimizin 1918–1920-ci illərdə qoyulmuş təməlinə istinadən yanaşması, həm də bu əlaqələrin o taleyüklü dövründə ictimai-siyasi, diplomatik və mədəni sahələrdə əldə edilmiş ortaq dəyərləri ön plana çəkməsi, Litva dövlətinin rəhbərliyində, ölkənin siyasi və mədəni elitasında çox müsbət rezonans yaratmışdı.

Prezidentin nitqində Litva–Azərbaycan tarixi, ictimai-siyasi və ədəbi-mədəni əlaqələri kontekstində irəli sürülmüş tezisdə adı hallanan V. Kreve-Mitskəviçyusla Azərbaycanı birləşdirən çoxşaxəli tellər barədə faktlar kitabın əvvəlindəki "Xalqlarımızı əbədi yaxınlaşdıran Litva xadimi" fəslində geniş təqdim olunduğundan, indi bu böyük mütəfəkkirin Azərbaycanla bağlı irsinin tədqiq edilib yayımlanmasına yalnız mədəniyyət siyasəti rakursunda qısaca toxunmaq istərdik.

Litvada gerçəkləşən mədəniyyət siyasətimiz

Litva mədəniyyətində 2002-ci, 2007-ci, 2012-ci və 2017-ci illər Vintsas Krevenin yubiley illəri kimi qeyd olundu. Göstərilən illərdə V. Krevenin anadan olmasının 120, 125, 130 və 135 illik yubileyləri münasibətilə Litva

Azərbaycanlıları Cəmiyyətinin təşkilatçılığı ilə bu ölkədə keçirilmiş silsilə tədbirləri, həm də Azərbaycan mədəniyyət siyasətinin reallaşdırılması və mədəni irsimizin yayımlanmasının kreativ üsullarından biri kimi səciyyələndirmək olardı.

Cəmiyyət sözügedən yubiley tədbirlərini "Litva–Azərbaycan mədəniyyətlərarası dialoqu" layihəsi çərçivəsində LR Seyminin Konstitusiya zalında, Kaunasdakı Litva yazıçıları muzeyində, V. Krevenin Vilnüsdəki mənzil muzeyində, həmçinin yazıçının Subartonis kəndindəki ev muzeyində, Litva paytaxtındakı Milli İcmalar Evində, Mərkəzi zabitlər evində, Varena rayonu kitabxanasında, V. Kreve adına Merkine qəsəbə gimnaziyasında, Varena rayonu *"Merkio kraštas"* qəzetinin redaksiyasında keçirib. Bununla yanaşı Cəmiyyətin təşəbbüsü ilə "Vilnüs–Bakı: mədəniyyət körpüləri" mövzusunda beynəlxalq elmi konfranslar, musiqili-ədəbi axşamlar, dəyirmi masalar təşkil olunub, kitab sərgiləri və nadir tarixi sənədlərdən ibarət ekspozisiyalar sərgilənib.

Göstərilən tədbirlər Litva parlamentinin Elm, təhsil və mədəniyyət komitəsi, Litva Elmlər Akademiyası, LR Mədəniyyət nazirliyi, LR Elm və Təhsil nazirliyi, Litva ədəbiyyatı və folkloru institutu, Litva Yazıçılar Birliyi, Litva Respublikası Hökuməti yanında Milli azlıqlar və mühacirət departamenti, Vilnüs şəhər bələdiyyəsi, Varena rayonu bələdiyyəsi, YUNESKO-nun Litva Milli Komissiyası, habelə digər ictimai-mədəni qurumlarla və QHT təşkilatları ilə birgə gerçəkləşdirilib.

Tədbirlər zamanı Azərbaycanın memarlıq abidələri, İçəri şəhər, Zərdüşt səcdəgahları, Novruz ənənələri, Qafqaz Albaniyasının kilsə və monastrları, İslam məbədləri, milli geyimlər, yeməklər və musiqi alətləri, xalq musiqisi və rəqsləri, ədəbiyyat və incəsənət inciləri barədə süjetlər, Qarabağ tarixinə aid slaydlar, həmçinin ölkəmizin rəngarəng təbiət təsvirlərindən ibarət video görüntülər nümayiş etdirildi. Muğam sədaları altında, tanınmış Litva teatr aktyorları və bədii qiraət ustaları Tomas Vaysieta (1933–2018), Dalya Mixelyaviçyute, Virginiya Koxanskite və Yuozas Şalkauskasın ifasında Nizami, Xaqani, Mirzə Şəfi Vazeh, Hüseyn Cavid, Səməd Vurğun, Abdulla Şaiq, Rəsul Rza və Bəxtiyar Vahabzadənin yaradıcılığından litva dilinə tərcümə olunmuş nümunələr səsləndi, V. Krevenin Azərbaycan mövzulu əsərlərindən parçalar oxundu.

Bununla bərabər, həmin tədbirlərdə 1917–1920-ci illərdə Azərbaycanda getmiş coşqun ictimai-siyasi proseslər, bolşevk-daşnak hərbi qüvvələri tərəfindən azərbaycanlılara qarşı törədilən qətliamlar (1918-ci il mart-aprel soyqırımı, Şamaxı, Quba qırğınları və s.), Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və onun Baltik dövlətləri ilə siyasi əlaqələri, 28 aprel çevrilişi və Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğal edilməsi barədə litvalı politoloq və tarixçilərin çıxışları dinlənildi. İctimaiyyətə bu hadisələrə aid arxiv sənədlərindən,

mətbuat materiallarından, foto görüntülərdən və tarixi kitablardan ibarət sənədli ekspozisiyalar təqdim olundu. Tədbirlər zamanı həmçinin V. Krevenin yaradıcılığında yer almış tarixi, ədəbi və ictima-siyasi faktlardan istifadə olunmaqla Ermənistan–Azərbaycan, Qarabağ münaqişəsinin qaynaqları və səbəbləri barədə bilgilər verildi. Özü də, bu məlumat və şərhlərin mühüm bir qismi V. Krevenin "Azəristan ölkəsi" əsəri və "Bolşeviklər" sənədli oçerki, həmçinin onun epistolyar irsi əsasında təqdim olundu.

Merkine qəsəbəsi V. Kreve adına gimnaziyanın müəllim və şagirdləri "Vilnüs–Bakı: mədəniyyət körpüləri" beynəlxalq konfransın iştirakçıları arasında. Vilnüs, LR Seyminin Konstitusiya zalı, 26 oktyabr 2012-ci il.

Sözügedən tədbirlərə Litva Elmlər Akademiyasının akademikləri, Litva ədəbiyyatı və folkloru institunun alimləri, Litva Yazıçılar İttifaqının rəhbərləri, Litva EA Tarix institunun elmi əməkdaşları, Vilnüs Universitetinin professorları, digər elmi-mədəni, pedaqoji və ictimai-siyasi qurumların nümayəndələri, LR Xarici İşlər və Mədəniyyət nazirliklərinin rəsmiləri, millət vəkilləri, Azərbaycan, Rusiya, Macarıstan, Türkiyə, Ukrayna, Gürcüstan, Moldova dövlətlərinin Litvada akkreditə olunmuş diplomatları, beynəlxalq ictimai təşkilatların, Litvanın KİV və QHT təmsilçiləri qatılmışdılar. Tədbirlərdə orijinal məruzələr edildi, maraqlı diskussiyalar aparıldı və bunlar Ölkə mediası tərəfindən geniş işıqlandırıldı. Mətbuatda 30-dan artıq məqalə, reportaj, müsahibə və icmallar dərc edildi. Tədbirlər barədə 2002–2013-cü illərdə ümumi baxış müddəti 75 dəqiqə olan 5 qısametrajlı sənədli film yaradıldı və Litva milli televiziyasının efirində nümayiş etdirildi.

Qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, V. Krevenin fəaliyyətinin

Bakı dövrü, onun burada xalqımızın qədim tarixi və milli-mənəvi dəyərlərindən yararlanaraq yaratdığı gözəl sənət nümunələri Azərbaycan və Litva arasında uzanan bir möhtəşəm körpü kimi bu gün də xalqlarımız arasındakı qarşılıqlı anlaşma ənənələrinin genişlənib zənginləşməsinə və yeni tarixi şəraitdə inkişaf edən Azərbaycan–Litva ictimai-siyasi və mədəni münasibətlərinin optimallaşdırılmasına xidmət edir, iki müstəqil xalqın bir-birinə daha da yaxınlaşmasına səmərəli təsirini göstərməkdə davam edir...

Kreativ ideyalar və akademik tədbirlər

Qeyd edək ki, V. Kreve ilə bağlı göstərilən tədbirlərə bənzər mədəni və ictimai-siyasi layihələr Vilnüslə yanaşı, Tallin, Riqa, Tartu və digər Baltik şəhərlərində diaspor təşkilatlarımız tərəfindən vaxtaşırı təşkil olunur. O cür layihələrin bir qismi xalqımız üçün böyük önəm daşıyan 28 May Respublika günü, eləcə də 18 oktyabr Müstəqilliyin bərpa edilməsi günü münasibəti ilə keçirilən bayram tədbirləri, habelə Qarabağ həqiqətlərinin yayımlanması, 31 Mart Azərbaycanlıların soyqırımı günü, 20 Yanvar ümumxalq hüzn günü və 26 Fevral Xocalı qətliamı ilə bağlı baş tutan anım törənləri zamanı gerçəkləşdirilir. Bu fikrimizi əsaslandıran bir neçə örnəyin üzərində dayanaq.

2008-ci ilin mayında Tallin şəhər Ratuşasında Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik, Prezident Heydər Əliyevin 85 illik, müstəqil Estoniya Respublikasının 90 illik və "Aydan" Estoniya–Azərbaycan Mədəniyyət Mərkəzinin 20 illik yubileylərinə həsr edilmiş beynəlxalq konfrans keçirilib. Tədbirdə ümumilikdə 150-dək qonaq iştirak edib. Estoniya Respublikasının sabiq prezidenti Arnold Rüütel, Estoniya *Riigikogu* – Parlamentinin vitse-spikeri Yuri Ratas, Parlamentin üzvü Andres Herkel, Estoniya–Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Eldar Əfəndiyev, Estoniyanın Milli azlıq məsələləri üzrə nazir müşaviri Aleksandr Aydarov, Azərbaycanın Latviyadakı səfirliyinin I katibi İsmayıl Əsədov, Türkiyə, Gürcüstan və Böyük Britaniya diplomatları, Latviyanın Cəmiyyətə inteqrasiya məsələləri üzrə naziri Oskars Kastens, Tallin şəhərinin vitse-meri Kaya Yappinen, paytaxtın *Lasnamäe* və *Kristiine* rayonlarının icra başçıları, digər dövlət və bələdiyyə məmurları qonaqlar arasında olublar.

Tədbiri Vitse-spiker Yuri Ratas açdı. Eldar Əfəndiyev Estoniya–Azərbaycan əlaqələrindən danışdı. Oskars Kastens, Andres Herkel, Kaya Yappinen və digərləri tədbirdə çıxış etdilər.

Sonra Azərbaycan Respublikası Milli Məclisinin deputatı Aydın Mirzəzadənin çıxışı və tarixçi alim, professor Musa Qasımlının Azərbaycan Xalq Cümhuriyyətinin tarixi barədə məruzəsi dinlənildi. Daha sonra Azərbaycan

1. Latviya parlamentinin üzvü, Latviyanın Cəmiyyətə inteqrasiya məsələləri üzrə naziri (2006–2009) Oskars Kastens. 2. Estoniya ictimai-siyasi xadimi və Azərbaycan diasporunun təmsilçisi Eldar Əfəndiyev. 3. Estoniya prezidenti Arnold Rüütel (2001–2006).

Demokratik Respublikasının 90 illiyinə, prezident Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş sənədli filmlər göstərildi. Tədbir çərçivəsində həmçinin "Heydər Əliyev və Azərbaycan diasporu", "Azərbaycan Demokratik Respublikası" mövzulu sərgilər təşkil olunmuşdu (sərgilər ertəsi gün Estoniya parlamentində də nümayiş olunub). İsveçdən tədbirə qonaq qismində qatılan azərbaycanlı bəstəkar Aydın Ziyadlı və Ayan Ziyadxanovanın ifasında Azərbaycan klassik musiqi əsələri səslənibdi.

Yubiley tədbirləri çərçivəsində 2008-ci ildə estonca cap olunmuş "Kitabi-Dədə Qorqud" eposunun və Cəfər Məmmədovun "Estonlar Azərbaycanda XIX əsrin sonu XX əsrin əvvəllərində" kitabının rus, eston və Azərbaycan dillərində buraxılmış nəşrlərinin təqdimatları keçirildi.

2008-ci ilin mayında həmçinin Riqada Azərbaycan Cümhuriyyətinin yaradılmasının 90 illik yubileyi qeyd olundu. Azərbaycanın Latviyadakı Səfirliyi yubiley şərəfinə qəbul təşkil etdi. Tədbirə "Ocaq" Latviya–Azərbaycan mədəniyyət mərkəzinin fəalları da qatılmışdılar. Səfir Tofiq Zülfüqarov siyasətçiləri, diplomatları, ictimaiyyət nümayəndələrini və ümumiyyətlə Azərbaycanın dostlarını salamlayaraq AXC tarixindən danışdı. O, Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin qurulmasında Latviyanın rolunu yüksək qiymətləndirdi.

Bu mərasim çərçivəsində "Ocaq" Latviya–Azərbaycan mədəniyyət mərkəzinin sədri, Riqa klassik gimnaziyasının direktoru Roman Əliyevin 2008-ci

ildə Riqada latış dilində buraxılmış "Azərbaycan tarixinin labirintləri ilə" adlı kitabının[143] təqdimatı olub.

Göstərilən kitab Azərbaycan tarixinin ən qədim keçmişindən 1920-ci ilin aprelində dövlət müstəqilliyini itirməsinə qədərki dövrü əhatə edir (əsərdə həm də 1918-ci ildə yaradılmış müstəqil Latviya və Azərbaycan respublikaları arasındakı tarixi paralellər vurğulanır).

1. "Azərbaycan tarixinin labirintləri ilə" kitabının görüntüsü. Riqa, 2008-ci il. 2. Kitabın müəllifi, "Ocaq" Latviya–Azərbaycan mədəniyyət mərkəzinin sədri və Riqa klassik gimnaziyasının direktoru Roman Əliyev.

Bu kitab latış oxucuları üçün az məlum olan uzaq Azərbaycan tarixinə aid faktların yalnız soyuq xülasəsindən ibarət deyil. Belə ki, müəllif Azərbaycan xalqının zəngin tarixi, onun çətin və kəşməkeşli dönəmləri, xalqın taleyi haqda bəzi tarixi bilgiləri yığcam, cəlbedici və mənalı ümumiləşdirmələr formasına salaraq, onlara analitik və fərdi yaradıcılıq prizmasından yanaşır, müvafiq illüstrasiyalarla müasir edukoloji üslubda və latışların düşüncə tərzinə uyğun şəkildə oxuculara təqdim edir. Əsər mövzunun universal istiqamətdə işlənilməsi baxımından müxtəlif sorğulu və səviyyəli oxucular üçün nəzərdə tutulub. Həm rəvayət və inanclara hörmətlə yanaşan şəxslər, incəsənət və ədəbiyyat həvəskarları, həm də elm adamları və politoloqlar Azərbaycanla bağlı onları maraqlandıran bir sıra suallara burada aydın cavablar tapa bilərlər. Azərbaycan tarixinin vacib dövrləri və aspektləri təsvir edilmiş belə bir kitabın Riqada diasporamız tərəfindən latışca nəşr edilməsi faktı öz-özlüyündə, ilk növbədə Azərbaycan həqiqətlərinin Latviyada yayımlanmasına, həm də Latviya–Azərbaycan ictimai-mədəni əlaqələrinin müasir dövrdə akademik baxımdan zənginləşdirilməsinə verilmiş qiymətli töhfədir.

[143] Romāns Alijevs. Pa Azerbaidžānas vēstures labirintiem. Rīga, Izdevniecība "RETORIKA A", 2008, m. b., 148 x 210, ciets iesējums 200 lpp. ISBN 978-9984-791-51-7.

26 may 2010-cu ildə Riqada "Latviyada yaşayan azərbaycanlıların cəmiyyətə inteqrasiyasında diasporun rolu" mövzusunda konfrans keçirildi. Konfransı "Ocaq" Latviya–Azərbaycan mədəniyyət mərkəzi Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi ilə birgə təşkil edilmişdi.

"Ocaq" Latviya–Azərbaycan mədəniyyət mərkəzinin və Latviya Təhsil nazirliyinin məşvərət şurasının sədri, Latviya Respublikası Prezidenti yanında milli azlıqlar üzrə məşvərət şurasının üzvü R. Əliyev tədbiri giriş sözü ilə açaraq konfransın əhəmiyyətindən danışdı.

Azərbaycanın Latviyadakı səfiri T. Zülfüqarov tədbir iştirakçılarını salamlayaraq konfransın işinə uğurlar arzuladı. Latviya Seyminin deputatı Boris Tsileviç Azərbaycanın iqtisadi və humanitar inkişafından, Ermənistanın Azərbaycan ərazilərinin 20 faizini işğal etməsindən, qaçqın və məcburi köçkünlərin problemlərinin həllindən söhbət açdı. O, Azərbaycanın sürətli inkişafını iqtisadi resursların düzgün istiqamətə yönəldilməsinin və xalqın rifahı naminə görülən işlərin nəticəsi kimi dəyərləndirərək dedi ki, biz Azərbaycanın Avropaya inteqrasiyasını daim dəstəkləyirik.

B. Tsileviç vurğuladı ki, Latviya azərbaycanlıları Avropa İttifaqının siyasəti ilə bağlı bizim QHT təşkilatları ilə apardığımız müzakirələrdə fəallıq göstərirlər, bu da Azərbaycanın Avropa ilə əlaqələrin möhkəmlənməsində, Qarabağ münaqişəsi həllinin sürətləndirilməsində rol oynaya bilər.

Deputat Oskars Kastens isə çıxışında 20 may 2010-cu ildə Avropa Parlamentinin qəbul etdiyi qətnaməyə diqqət çəkərək bildirib ki, bu sənəd Azərbaycanın Aİ ilə əməkdaşlığı baxımından mühüm əhəmiyyət kəsb edir. Deputat Aİ-da təmsil olunan Latviya deputatlarını Azərbaycanın mövqelərini daha fəal dəstəkləməyə çağırdı. O, Latviya azərbaycanlılarının həm Latviya Seymi və Azərbaycan MM deputatları ilə, həm də digər müvafiq qurumlarla əməkdaşlığının vacibliyini qeyd etdi.

Latviya Ədliyyə Nazirliyinin nümayəndəsi İrina Vasilyeva "Ocaq" cəmiyyətinə onun ölkənin ictimai-siyasi, mədəni həyatında fəallığına və keçirdiyi bu cür ciddi tədbirlərə görə minnətdarlığını bildirdi. O, ölkədəki milli azlıqların təşkilatlarının fəaliyyəti haqqında məlumat verdi.

Riqa Dumasının təhsil idarəsinin rəisi İvars Baranovskis "Ocaq" cəmiyyətinin latışlar və digər milli azlıqların nümayəndələri ilə əlaqələrini və Azərbaycan Bazar günü məktəblərinin təşkilini yüksək qiymətləndirdi. O dedi ki, azərbaycanlı alimlər, iş adamları, tələbələr və müəllimlər milli azlıqların təhsil planının reallaşmasında və mədəniyyətlərarası dialoqun genişlənməsində Riqa Dumasına hər zaman dəstək olublar.

1. Konfransdan bir görüntü. 2. Latviyanın Müstəqillik rəmzi – Azadlıq abidəsi. Riqa, 1935-ci il.

Latviya azərbaycanlıları icmasının fəalları Eldəniz Medov, Adıgözəl Məmmədov və Aydın Əsgərov çıxışlarında bildirdilər ki, onların başlıca vəzifəsi həm latışlarla, həm də Latviya yaşayan digər xalqlarla qarşılıqlı hörmət və tolerant şəraitdə yaşamaqdır. Bunun sayəsində milli mədəniyyətimizi qoruyub nəsillərdən-nəsillərə ötürə bilərik.

4 oktyabr 2011-ci ildə Bakı Dövlət Universitetinin (BDU) Elmi kitabxanasında "Azərbaycan–Latviya: mədəni-tarixi dialoq" mövzusunda sərgi açıldı. Sərgidə Latviyanın ictimai-siyasi, mədəni həyatini, eyni zamanda Azərbaycan–Latviya mədəni, siyasi, ədəbi əlaqələrini əks etdirən kitab, jurnal, buklet və foto şəkillər nümayiş etdirildi. Tədbirdə Latviya tərəfdən bu ölkənin Azərbaycandakı səfiri Hardiys Baumanis (1967–2015), Latviya Universitetinin rektoru, fizika-riyaziyyat elmləri doktoru, akademik Martsis Auzinş, Latviya Universiteti Akademik kitabxanasının direktoru Venta Kotsere iştirak etdilər. Latviya Universitetinin nümayəndələri BDU Elmi kitabxanasına 150 nüsxə rus, ingilis və latış dillərində kitab hədiyyə etdilər.

Latviya nümayəndə heyəti habelə BDU-nun rektoru, akademik Abel Məhərrəmovla görüşdü. Görüşdə universitetlərarası qarşılıqlı maraq doğuran məsələlər müzakirə edildi. Sonra BDU və Latviya Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalandı. Müqavilə tələbə-müəllim mübadiləsini, birgə elmi simpoziumların, seminar və konfransların təşkil edilməsini və s. beynəlxalq layihələri nəzərdə tutur. İmzalanma mərasimindən sonra çıxış edən rektorlar bu sənədin gələcəkdə təhsil və elmin, habelə iki xalq arasındakı münasibətlərin daha da inkişafı baxımından əhəmiyyətli olacağını qeyd etdilər.





1. Akademik Martsis Auzinş – Latviya Universitetinin rektoru (2007–2015). 2. "Azərbaycan–Latviya: mədəni-tarixi dialoq" sərgisinin kataloqu. Bakı, oktyabr 2011-ci il.

20 oktyabr 2011-ci ildə Litva Azərbaycanlıları Cəmiyyətinin təşəbbüsü ilə LR Seymində Azərbaycanın dövlət Müstəqilliyinin bərpasının 20-ci ildönümünə həsr olunmuş beynəlxalq konfrans keçirildi. Konfransın keçirilməsi ilə bağlı Seymin İdarə heyəti 12 oktyabr 2011-ci ildə məxsusi qərar qəbul etmişdi. Tədbir Seymin ən gözəl zallardan birində – Konstitusiya zalında baş tutdu.

Konfransda LR Seymi sədrinin xüsusi nümayəndəsu, Litvanın bir sıra millət vəkilləri, həmçinin Seymin Azərbaycan Respublikası ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri, LR Hökumətinin Vitse-kansleri, LR Xarici işlər nazirliyinin və Mədəniyyət nazirliyinin rəhbər işçiləri, Azərbaycan, Ukrayna, Polşa, Latviya, Rusiya, Qazaxıstan dövlətlərinin Litvadakı səfirliklərinin nümayəndələri, Litva elmi ictimaiyyətinin təmsilçiləri, o cümlədən Ermənistan–Azərbaycan, Qarabağ münaqişəsi ilə bağlı tədqiqatlar aparan tarixçilər, etnoloq və siyasi icmalçılar, mədəniyyət xadimləri, Litva Yazıçılar Birliyinin nümayəndləri, Litva *Sajūdis* hərəkatının öncülləri, QHT sədrləri, ölkədə fəaliyyət göstərən eston, latış, karaim, belarus, rus, yəhudi, çeçen, macar, qaraçı, alman, özbək, ukrayna və digər milli icmaların liderləri, Litva KİV əməkdaşları, iş adamları, Azərbaycan və Türk icmalarının üzvləri, eləcə də digər şəxslər iştirak edirdilər. Tədbirə ümumilikdə 100 nəfərə yaxın şəxs qatılmışdı və konfrans LR Seyminin televiziyası ilə canlı yayımlandı.

LR Seyminin Azərbaycan Respublikası ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupu sədrinin müavini, Seymin Sosial və əmək məsələləri üzrə komitənin sədr müavini Arturas Melyanas konfransı açaraq təbrik sözü ilə çıxış etdi.

LR Seyminin sədri İrena Degutiene konfransa Təbriknamə ünvanlayaraq Azərbaycan xalqını və onun Litvadakı dostlarını Azərbaycan Respublikası müstəqilliyinin bərpa edilməsinin 20-ci ildönümü münasibəti ilə təbrik etdi. Konfransın əvvəlində Sədrin həmin Təbriknaməsi oxundu.

Konfransdan görüntülər (1-ci şəkildə soldan sağa): AR Diasporla iş üzrə Dövlət Komitəsinin şöbə müdiri Suraddin Hümbətov, LR Seyminin Azərbaycan Respublikası ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədr müavini Arturas Melyanas, Litva Azərbaycanlıları Cəmiyyətinin sədri Mahir Həmzəyev və Azərbaycanın Litvadakı səfirliyinin 1-ci katibi Atəş Qırxıyev. Vilnüs, LR Seymi, 20 oktyabr 2011-ci il.

Azərbaycanın Litvadakı səfirliyinin 1-ci katibi Atəş Qırxıyev Səfirliyin adından Konfrans iştirakçılarını salamladı. Sonra LR Mədəniyyət nazirinin müavini Stanislav Vidtmann təbrik çıxışı etdi. Daha sonra AR Diasporla iş üzrə Dövlət Komitəsinin əməkdaşı Suraddin Hümbətov məruzə edərək konfrans iştirakçılarını və Azərbaycanın Litvadakı dostlarını salamlayıb təbrik etdi və Seymin rəhbərliyinə konfransın keçirilməsi ilə bağlı göstərdiyi dəstəyə görə təşəkkürünü bildirdi.

Tədbirdə Litva Milli İcmalar şurasının sədri Mahir Həmzəyev, LR Mədəniyyət nazirinin müşaviri, tarixçi alim İmantas Melyanas, tanınmış publisist və radio jurnalisti Vidmantas Valyuşaytis, Mikolas Römeris adına hüquq universitetinin dosenti Ramunas Trimakas, Litva geosiyasi araşdırmalar mərkəzinin əməkdaşı, beynəlxalq icmalçı Arunas Spraunyus, Vilnüs Universiteti Beynəlxalq əlaqələr və siyasi elmlər institunun doktorantı, LR Seymi sədrinin müşaviri Laurinas Kasçyunas, Litva Tatar Cəmiyyətləri İttifaqının sədri, Mikolas Römeris adına universitetin professoru Adas Yakubauskas konfransın mövzusu ilə bağlı elmi və siyasi təhlil səpkili məruzələr etdilər.

Tanınmış Litva şairi və tərcüməçi, Azərbaycan ədəbiyyatının dostu Alfonsas Bukontas "Azərbaycan-Litva ədəbi körpüləri" mövzusunda çıxış edərək iki xalq arasında mədəni əlaqələrdən danışdı. O, Bəxtiyar Vahabzadə, İsa İsmayılzadə və Musa Yaqubun yaradıcılığından etdiyi tərcümələrdən söhbət açdı və 1945–1951-ci illərdə Litva "meşə qardaşları" hərəkatında iştirak etmiş azərbaycanlı partizan və şair Şakir Sadıqovun poeziyasından Litva dilinə çevirdiyi şeirləri oxudu.

V. Krevenin Vilnüsdəki mənzil muzeyinin direktoru Vladas Turçinaviçyus, Litva Parlamentlərarası beynəlxalq əlaqələr qrupunun katibi, istiqlalçı millət vəkili Algirdas Endryukaytis və millət vəkili Kazimieras Uoka (1951–2016) mövzu ilə bağlı aparılan müzakirələrdə çıxış etdilər.

Konfrans Litva Azərbaycanlıları Cəmiyyəti, Seymin Litva–Azərbaycan parlamentlərarası əlaqələri üzrə işçi qrupu və Litva–Azərbaycan Assosiasiyası tərəfindən birgə təşkil olunmuşdu.

Ordu torpaqları, kitab könülləri fəth edir

Yarımbaşlıqdakı bu aforizm türk-islam fəlsəfi fikrinin ünlü təmsilçilərindən olan Əbu Turxanın hikmət xəzinəsindən götürülmüş incilərdən biridir... Biz böyük mütəfəkkirin bu aforizmini kitablar haqqında aşağıda təqdim olunan mühakimələrə giriş kimi ön plana çıxardıq. Belə ki, hər bir millətin inkişafı və elmi-mədəni səviyyəsi ilk növbədə kitab mədəniyyəti və mətbuatla ölçülür. Kitab və mətbuat xalqlar arasında ədəbi-mədəni və ictimai-siyasi əlaqələrin

qurulmasında, eyni zamanda o əlaqələri əks etdirən olaylar və kulturoloji proseslər barədə bilgilərin toplanıb qorunmasında və gələcək nəsillərə ötürülməsində, mədəniyyətlərarası dialoqun genişləndirilməsində və xalqların intellektual potensialının zənginləşdirilib inkişaf etdirilməsində böyük rol oynayır.

Xalqlar və ölkələr arasında hərtərəfli əlaqələrin yaranıb inkişaf etməsinə müxtəlif tərcümələr, ədəbi-bədii, elmi-kütləvi, texniki, pedaqoji, tarixi, siyasi, fəlsəfi kitablar, incəsənət, musiqi və mədəniyyət albomları, qəzet və jurnal publikasiyaları, coğrafiya, etnografiya, iqtisadiyyat, idman, kino, turizm, xalq geyimləri və milli mətbəx barədə informativ nəşrlər, həmçinin kitabxana, muzey və sərgi kataloqları, memuarlar, soraqçalar, lüğətlər, ensiklopediyalar bilavasitə kreativ təmas formaları kimi çox mühüm təsir göstərir. Amma unutmaq olmaz ki, bu yolla xalqlar arasında yaradılan əlaqələrin mövzu genişliyi, effektivlik dərəcəsi və intensivlik səviyyəsi, ilk növbədə həmin kitabların və digər nəşrlərin o xalqların dillərində çap edilib yayımlanmasından asılıdır.

Bu baxımdan Azərbaycan–Baltik tarixi, ədəbi-mədəni və ictimai-siyasi əlaqələri müstəvisində, müstəqilliyin bərpasından sonrakı dövr ərzində Azərbaycan, eston, latış, litva, türk, polyak, karaim, tatar, ingilis və rus dillərində irili-xırdalı 100-ə yaxın kitab və digər nəşrlər Tallində, Vilnüsdə, Riqada və Bakıda işıq üzü görüb. Bu nəşrlər ən çeşidli mövzuları və sahələri əhatə edir. Onların bəziləri ilə bağlı biblioqrafik bilgiləri və təhlilləri aşağıda təqdim edirik. Tədqiqat predmeti kimi dəyərli saydığımız həmin nəşrlərdən biri litvalı fotoqraf, rəssam, səyyah və yazıçı Maryus Abramaviçyusun 2018-ci ildə Vilnüsdə litvaca çap edilmiş "Azərbaycan: səyyahın qeydləri" adlı kitab-albomudur.[144]

Nəfis şəkildə tərtib olunmuş və Azərbaycan barədə çox geniş spektrdə bilgilər təqdim edilən bu albomda 400-dən çox foto görüntü yer alıb, həmçinin çox sayda etnoloji və kulturoloji açıqlamalar, etnoqrafik və linqvistik qeydlər, tarixi, coğrafi, inzibati və iqtisadi məlumatlar verilib.

M. Abramaviçyus 13 sentyabr 1965-ci ildə Vilnüsdə anadan olub. 1991-ci ildə Vilnüs pedaqoji institutunu bitirib. 1998-ci ildən Litva Fotoqraf Sənətçiləri İttifaqının üzvüdür. 1999-cu ildən başlayaraq bir sıra ölkələrdə yaradıcılıq səfərlərində olub. Azərbaycana da səyahət edib, ölkəmizi qarış-qarış gəzib – Bakıda, Qobustanda, Sumqayıtda, Naxçıvanda, Astarada, Ələtdə, Biləsuvarda, İmişlidə, Kürdəmirdə, Gəncədə, Qazaxda, Zaqatalada, Qaxda, İsmayıllıda, Şəkidə, Şamaxıda, Qubada, Qusarda və b. yerlərdə çəkilişlər aparıb. Litvalı sənətkar Qız qalasını, Nardaranda tarixi abidələri, Suraxanıda Atəşgahı, Şabranda Çıraqqalanı, Siyəzəndə Beşbarmaq dağını, Qaxda Ləkit alban məbədini, Şəkidə Kiş kilsəsini, Qubada Soyqırımı Memorial Kompleksini və Qırmızı qəsəbəni ziyarət edib, buralarda müxtəlif dinlərə etiqad edən icmalarla görüşlər

[144] Marius Abramavičius. "Azerbaidžanas: klajūno užrašai". Vilnius, "Didakta". 2018, 175 psl. 1300 egz.

keçirib, Ağçay, İlisu, Lahıc, İvanovka, Xınalıq, Laza, Kuzun və digər kəndlərdə etnik azlıqlarla ünsiyyətdə olub, buralarda üzləşdiyi mənzərələri foto aparatının yaddaşına həkk edib.



1. "Azərbaycan: səyyahın qeydləri" adlı kitab-albomun görüntüsü. 2. Bu kitab-albomun 28 may 2018-ci ildə Klaypeda şəhər kitabxanasında keçirillən təqdimat tədbirinin afişası.

Bütün bunların nəticəsində, Maryus Abramaviçyus Azərbaycan haqqında zəngin vizual bilgilər təqdim edən, həm də çox yüksək bir missiya daşıyan yaradıcılıq işinə imza atıb, xalqlarımız arasında Azərbaycanın gözəl görüntülərindən düzənlənmiş yeni bir körpü salıb...

Azərbaycan–Baltik mədəni əlaqələrinin inkişafını daha da dinamikləşdirən kreativ ideyalar və intellektual tədbirlərlə bağlı xülasəni davam etdirərək, daha sonra bu istiqamətdə Estoniyada son 15–20 il ərzində görülən bəzi nəşr işlərini müsbət təcrübə kimi göstərmək istərdik.

Öncə, göstərilən zaman çərçivəsindən bir qədər kənara çıxaraq, Estoniyada "Ocaq" Azərbaycan Mədəniyyət Cəmiyyətinin mətbu orqanı olaraq 1989-cu il dekabrdan 1994-cü ilə qədər Tallində müəyyən fasilələrlə Azərbaycan, eston və rus dillərində nəşr edilmiş "Ocaq" qəzetinin fəaliyyətini qeyd etmək yerinə düşərdi. Bu ölkədə Azərbaycan ideyasının və Qarabağ həqiqətlərinin yayımlanmasında, o cümlədən 20 yanvar Bakı hadisələri barədə bilgilərin çatdırılmasında, kulturoloji dəyərlərimizin təqdim olunmasında, habelə Azərbaycan diasporunun daha mütəşəkkil surətdə formalaşmasında və fəaliyyətinin əlaqələndirilməsində bu qəzetin müsbət rolu olub.

"Ocaq" qəzetnin görüntüləri. Qəzetin 1990-cı il martda buraxılmış sayı 20 yanvar Bakı faciəsinə, 1994-cü il avqustda çıxmış sayı isə Azərbaycan Xalq Cümhuriyyətinin 76-cı ildönümünə həsr olunub.

Eston – Azərbaycan ictimai-siyasi və mədəni əlaqələri tarixinə nəzər saldıqda diqqəti XIX əsrin axırlarında Tartu şəhərində yaradılmış azərbaycanlı tələbələr icmasının, XX əsrin əvvəllərində isə Bakı Eston Cəmiyyətinin fəaliyyəti xüsusilə cəlb edir. Hər iki təşkilat Azərbaycan və eston xalqlarını bir-birinə yaxından tanıtmaqda mühüm işlər görüb.

Tartu azərbaycanlı tələbələr icmasının tarixi və gördüyü işlər hələ ki geniş öyrənilməyib. Bundan fərqli olaraq, Bakı Eston Cəmiyyətinin tarixi və fəaliyyəti ilə bağlı müxtəlif dövrlərdə həm Azərbaycan, həm də eston müəllifləri bir sıra araşdırmalar aparıblar. Onların arasında diaspora xadimi, Estoniya–Azərbaycan tarixi əlaqələrinin tədqiqatçısı Cəfər Məmmədovun araşdırmaları təhlilə cəlb edilmiş arxiv materialların yeniliyi və zənginliyi ilə seçilir. Onun bu sahədəki tədqiqatları "Estonlar Azərbaycanda XIX əsrin sonu XX əsrin əvvəllərində" adlı kitabda cəmlənib.

Kitab 2005–2007-ci illərdə Bakıda və Tallində rus,[145] eston[146] və Azərbaycan dillərində [147] nəşr olunub. Əsər hər iki ölkədə böyük maraqla qarşılanıb, bir neçə dəfə təkrarən nəşr edilib və müxtəlif auditoriyalarda təqdimatları keçirilib, həm də media vasitələri ilə geniş işıqlandırılıb.

[145] Джафар Мамедов. Эстонцы в Азербайджане в конце XIX – начале XX веков. Баку, и-во АГПУ, 2005, 152 стр.
[146] Cəfər Məmmədov. Eestlased Aserbaidžaanis XIX sajandi lõpul ja XX sajandi algul. Autoriõigus tõlkele eesti keelde: Silvi-Aire Villo, 2007. ISBN 978-9985-57-860-5.
[147] Cəfər Məmmədov. "Estonlar Azərbaycanda XIX əsrin sonu XX əsrin əvvəllərində". Elmi redaktoru – tarix elmləri doktoru, professor Yaqub Mahmudov. 2007. ISBN 978-9949-21-145-6.





1. Estoniya–Azərbaycan tarixi əlaqələrinin araşdırmaçısı Cəfər Məmmədov. 2–3. Eston və rus dillərində nəşr edilmiş "Estonlar Azərbaycanda XIX əsrin sonu XX əsrin əvvəllərində" adlı kitabın görüntüləri.

Diqqətəlayiq haldır ki, "Estonlar Azərbaycanda XIX əsrin sonu XX əsrin əvvəllərində" kitabının hazırlanması prosesində C. Məmmədova həm eston, həm də Azərbaycan tarixçiləri edukoloji və akademik yardım göstəriblər. Belə ki, kitabın elmi redaktorları estoniyalı alim, Tartu universitetinin məzunu, tarix elmləri doktoru Priit Raudkivi və AMEA Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudovdur, rəyçiləri isə Tartu universitetinin müəllimi, tarix elmləri doktoru Eero Mediyainen və AMEA Tarix İnstitutunun "Azərbaycanın yeni tarixi" şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Hacı Həsənovdur .

Sözügedən kitabın müəllifi Cəfər Məmmədov 1960-cı ildə Azərbaycanın Zəngilan rayonunda anadan olub. 1989-cu ildə Tallin Texniki Universitetinin iqtisadiyyat şöbəsini bitirib. 1988-ci ildə Tallində "Ocaq" Azərbaycan Mədəniyyət Cəmiyyətinin əsasını qoyanlardan biridir. 1999-cu ildən Azərbaycan–Estoniya tarixi, ictimai-siyasi və mədəni əlaqələri sahəsində tədqiqatlar aparır. Estoniya–Azərbaycan Tarixi əlaqələrini araşdırma mərkəzinin yaradıcısı və rəhbəridir. Bu Mərkəz 2008-ci ilin fevral ayında hüquqi şəxlərin Estoniya Dövlət Reyestrində qeydiyyatdan keçib (identifikasiya kodu: – 80263268).

Göstərilən Mərkəz bu günədək bir sıra maraqlı və əhəmiyyətli kreativ projelər gerçəkləşdirib. Məsələn, 2010-cu ildə AMEA Tarix İnstitutunun baş elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Nüşabə Məmmədovanın "XX əsrin əvvəllərində Avropada Azərbaycan məktəbləri" adlı rusca monoqrafiyasını Tallində çapdan buraxıb.[148] Bununla yanaşı, Bakıda yaşamış eston mühaciri, ictimai-mə-

[148] Нушаба Мамедова. "Азербайджанские школы в Европе в начале XX века". Таллин, "EGE Print", 2010 г. 152 стр. ISBN 978-9949-21-146-3.

1–2. Eston tarixçi alimləri – Priit Raudkivi və Eero Mediyainen. 3. Akademik Yaqub Mahmudov.

dəni xadim Heynrix Tomsonun (1883–1965) "Bakı xatirələri. 1914–1921-ci illər" kitabını 2012-ci və 2015-ci illərdə Tallində eston[149] və rus[150] dillərində nəşr etdirib, həmçinin onun təqdimat tədbirlərini keçirib. Xatirələri nəşrə sözügedən Mərkəzin rəhbəri Cəfər Məmmədov hazırlayıb.

Eston mühacirinin kitabına aid bir fikri tezis şəklində vurğulamaq istərdik ki, Heynrix Tomson öz xatirələrində 1914–1921-ci illərdə Bakı şəhərində şahidi olduğu və yaşadığı hadisələri təsvir edib. Müəllif həmçinin 1918-ci il mart-aprel Bakı soyqırımı ilə bağlı bəzi olaylar barədə yazıb.

1–2. H. Tomsonun eston və rus dillərində nəşr olunmuş "Bakı xatirələri. 1914–1921-ci illər" kitabının görüntüləri. Tallin, 2012–2015-ci illər. 3. N. Məmmədovanın "XX əsrin əvvəllərində Avropada Azərbaycan məktəbləri" monoqrafiyasının görüntüsü. Tallin, 2010-cu il.

[149] Cefer Memmedov (Džäfär Mämmädov). "Heinrich Thomsoni mälestused Bakuust aastatest 1914–1921". Tallinn, 2012, 105 lk. ISBN 978-9949-30-504-9.

[150] Джафар Мамедов. "Воспоминания Генриха Томсона о Баку в 1914–1921 гг.". Таллин, 2015, 136 стр. ISBN 978-9949-38-493-8.

Düşünürük ki, bu xatirələr azərbaycanlıların soyqırımı haqqında bilgilərin həm də Baltik xalqları təmsilçilərinin memuar irsi və ictimai-siyasi səpkili əsərləri vasitəsi ilə beynəlxalq ictimaiyyətə çatdıra bilən tarixi mənbələrdən biridir.

2006-cı ildə "Aydan" Estoniya – Azərbaycan Mədəniyyət Mərkəzi Estoniya Azərbaycan İcmasının tarixi və fəaliyyəti barədə Azərbaycan, eston, rus və ingilis dillərində Tallində kitab-albom nəşr edib.[151] 2013-cü ildə isə həmin kitab-albomun əlavələr olunub təkmilləşdirilmiş nəşri çapdan buraxılıb.[152] Bu nəşr Estoniya Azərbaycan İcmasının 25 illik yubileyinə (1988–2013) həsr olunub. Yüksək poliqrafik səviyyədə və nəfis tərtibatda nəşr edilmiş bu kitab-albom tanınmış diaspora xadimi Niyazi Hacıyevin təşəbbüsü və "Aydan" Estoniya – Azərbaycan Mərkəzinin dəstəyi ilə ərsərə gəlib.

Kitab-albomda Azərbaycan İcmasının 25 illik fəaliyyəti, qədim Estoniya – Azərbaycan mədəni əlaqələri və dövlətlərarası münasibətləri barədə bir neçə kulturoloji məqalə çap olunub. Bununla yanaşı burada geniş ictimaiyyətə məlum olmayan informativ materiallar, nadir foto görüntülər və arxiv sənədlərinin surətləri də yer alıb. Bu maraqlı nəşr Estoniya – Azərbaycan mədəni və ictimai-siyasi əlaqələri salnaməsində artıq özünə məxsus layiqli yer tutub.

"Estoniya Azərbaycanlıları İcması" kitab-albomunun üz qabığının görüntüsü. Tallin, 2006-cı il.

[151] Estoniya Azərbaycanlıları İcması. Eesti Azerbaidžaani Kogukond. The Azerbaijani Community in Estonia. Tallinn, Trükitud "Merkest OÜ", 2006, 80 lk. ISBN 9949-13-500-1.

[152] Eesti Azerbaidžaani Kogukond: 1988 – 2013. The Azerbaijani Community in Estonia. Tallinn, Trükitud "Digra OÜ", 2013, 120 lk. ISBN 978-9949-30-968-9.

2009-cu ildə eston dilində "Azərbaycanlılar" *("Aserbaidžaanid")* kitabı işıq üzü görüb[153] və həmin ilin aprelində Tallində onun təqdimatı keçirilib. Nəşrin müəllifləri Azərbaycan diasporunun fəalları Sərvinaz Gürsoy-Kərimova və Sənəm Əliyevadır. Kitabı estoncaya İta Serman çevirib.

1. Estonca nəşr edilmiş "Azərbaycanlılar" kitabının görüntüsü. Tallin, 2009-cu il.
2. Qurban Səidin "Əli və Nino" romanının estonca nəşrinin görüntüsü. Tərcümə edəni Anneli Pekkonen. Tallin, 2014-cü il.

Estonlar üçün əlavə dərs vəsaiti kimi nəzərdə tutulan bu kitab Estoniya Respublikası Təhsil nazirliyinin tədris proqramına əsasən hazırlanıb və Nazirliyin sifarişi ilə Estoniya İnteqrasiya Fondu tərəfindən çap olunub. Nazirliyin "Estoniyada yaşayan millətlər" layihəsi çərçivəsində gerçəkləşən bu nəşr Azərbaycanı estonlara tanıtmaq məqsədi güdür. Kitaba Azərbaycanın dövlətçilik tarixi, mədəniyyəti, adət-ənənələri, musiqisi, görkəmli şəxsiyyətləri, mətbəxi, təbiəti barədə bilgilər daxil edilib. Nəşrdə həmçinin 1918-ci il mart soyqırımı, 20 Yanvar və Xocalı faciələri, Qarabağ münaqişəsi haqqında məlumatlar öz əksini tapıb. Kitab kitabxana və məktəblərə pulsuz paylanıb.

Azərbaycan-Baltik ədəbi-mədəni əlaqələrinin intibah dövrü müstəqilliyin bərpasından sonra başlayıb. Təsadüfi deyildir ki, bu dövrdə Baltik xalqlarının ədəbiyyatında və publisistikasında Azərbaycan mövzulu bir sıra yeni əsərlər

[153] Rahvused Eestis. Aserbaidžaanid. Autor: Särvinaz Kärimova, Sänäm Äliyeva ja Ita Serman (vene keelest tõlkinud Ita Serman; toimetanud Aire Kirs; kujundanud Maaja Kukerman; fotod: Särvinaz Kärimova). Tallinn, Integratsiooni Sihtasutus, 2009. 55 lk. ISBN/ISSN 978-9949-17-029-6.

meydana gəlib. Bu mövzuda yazılmış ədəbi-publisistik kitabların işıq üzü görməsini əlaqələrimizin yeni ədəbi-tarixi mərhələsi kimi təfsir etmək olar.

Estoniya-Azərbaycan ədəbi əlaqələri tarixində sözügedən yeni mərhələnin başlanğıcını həm eston, həm də Azərbaycan yazarları və publisistləri qoyublar. Burada müasir eston yazarlarından ikisini təqdim etmək və qısaca onların Azərbaycan mövzulu əsərləri barədə danışmaq istərdik.

Bu kontekstdə əlaqələrimizin son 20 illik dövrünü əhatə edən fəaliyyət məkanında diqqəti çəkən müəlliflərdən biri tanınmış eston ictimai-siyasi və mədəni xadimi Andres Herkeldir. Siyasətçi A. Herkel 1999–2019-cu illərdə Estoniyanın millət vəkili – *Riigikogunun* üzvü olaraq, Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Estoniya nümayəndə heyəti sədrinin müavini və AŞPA-nın Monitorinq Komitəsinin Azərbaycan üzrə həmmərüzəçisi kimi Azərbaycan ictimaiyyətinə kifayət qədər yaxşı tanış olan şəxsdir. Odur ki, biz onun yalnız yaradıcılıq fəaliyyəti ilə bağlı və geniş ictimaiyyətə az məlum olan bəzi bilgiləri aşağıda təqdim edirik.

A. Herkel Tartu Universitetinin məzunudur (1985). Burada psixologiya və tarix elmləri üzrə təhsil alıb. Görkəmli eston tarixçisi, tərcüməçi, şərqşünas alim və buddoloq tədqiqatçı Linnart Mallın (1938–2010) elmi fəaliyyətinin təsiri altında şərqşünaslıqla məşğul olmağa başlayıb. 1998-ci ildə Tartu Universitetində "Qədim Hind abidələrində mifoloji psixologiya" mövzusunda magistr işini müdafiə edib. Klassik sanskrit dili ilə maraqlanır. Həm də dəst-xətti və təxəyyülü ilə seçilən yazar-publisist kimi tanınıb. Şeir və esselər də yazır. 1997–2012-ci illərdə estonca bir sıra kitabları nəşr olunub. Bir neçə ədəbi ödülün sahibidir.



1. Estoniya ictimai-siyasi xadimi, yazıçı-publisist Andres Herkel. 2. A. Herkelin "Azərbaycan məktubları" kitabının üz qabığının görüntüsü. Tallin, 2010-cu il.

A. Herkel Azərbaycanı və onun mədəniyyətini yaxından tanıyan eston ziyalısıdır. O, həm də qədim dövr Azərbaycan ədəbiyyatının bilicisidir. Bunu onun 2008-ci ildə „Kitabi-Dədə Qorqud"un eston nəşrinə yazdığı giriş məqaləsindən aydınca görmək olar. Bunlarla yanaşı, A. Herkel 2010-cu ildə Tallində estonca nəşr edilmiş "Azərbaycan məktubları" *("Aserbaidžaani kirjad")* adlı iki hissədən ibarət kitabın müəllifidir.[154] Bu kitab həm də müstəqillik dövrü eston ədəbiyyatında Azərbaycan mövzusunun təzə ideya istiqamətində işlənməsi baxımından diqqətəlayiqdir.

Azərbaycan mövzulu əsərlərin müəllifi kimi tanınmış daha bir müasir eston yazarı – Kersti Kivirüütdür. O, 28 may 1975-ci ildə Estoniyanın şərqindəki *Tartumaa* (və yaxud *Tartu maakond*) tarixi vilayətində dünyaya gəlib. 2008-ci ildə Tartu Universitetinin Tarix fakültəsini bitirib.

K. Kivirüüt yaradıcılığında Azərbaycan mövzusu təsadüfən peyda olmayıb. O, tələbəlik illərindən başlayaraq XX əsr Azərbaycan tarixini və mədəniyyətini, o cümlədən Cümhuriyyət dövrünü yaxından öyrənməyə başlayıb. Bu, əsasən onun Bakı Eston Cəmiyyətinin fəaliyyətinə, habelə 1918–1922-ci illər Estoniya–Azərbaycan dövlətlərarsı münasibətləri tarixinə göstərdiyi akademik maraq və apardığı elmi araşdırmalarla bağlı olub. Belə ki, Tartu Universitetinin Tarix fakültəsinin magistr dərəcəsini almaq üçün 2007-ci ildə "Robert Puurun Azərbaycandakı fəaliyyəti" mövzusunda elmi iş yazıb (xatırladaq ki, R. Puur Bakı Eston Cəmiyyətinin sədri və daha sonra Estoniya dövlətinin Azərbaycan SSR-dəki konsulu olaraq fəaliyyət göstərib). İşin elmi rəhbəri Tartu Universitetinin müəllimi, tarix elmləri doktoru Eero Mediyainen olub.

K. Kivirüüt 2017-ci ildə – Estoniya Respublikasının, eləcə də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi ərəfəsində bu mövzuya qayıaraq "Küləklər şəhəri" *("Tuulte linn")* adlı tarixi roman yazıb.[155] Bu roman elə həmin ildə Estoniyada bədii ədəbiyyat sahəsində respublika müsabiqəsinin qalibi olub və "Bestseller 2017" ədəbi ödülünə layiq görülüb.

Roman 2018-ci ildə Tallində kitab şəklində buraxılıb. Sevindirici haldır ki, kitab tez bir zaman ərzində Azərbaycan dilinə tərcümə edilib və 2019-cu ildə Bakıda çap olunub. Əsəri dilimizə Estoniyada yaşayan həmvətənimiz, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin məzunu, ictimai-mədəni xadim Sənəm Əliyeva çevirib.[156]

[154] Andres Herkel. "Aserbaidžaani kirjad". Tallinn, Kirjastus "Varrak", 2010, 238 lk. ISBN 978-9985-3-2146-1.
[155] Kersti Kivirüüt. "Tuulte linn". Tallinn, "Pilgrim", 2018, 160 lk. ISBN 978-9949-621-31-6.
[156] Kersti Kivirüüt. "Küləklər şəhəri". Roman. Bakı, TEAS Press nəşriyyat evi, 2019, 188 s. ISBN 978-9952-313-91-8. Eston dilindən Sənəm Əliyeva tərcümə edib.

"Küləklər şəhəri" romanında Azərbaycanda bolşevik hakimiyyətinin qurulması ərəfəsində burada baş verən hadisələrdən və o dövrdə Bakıda yaşayan əcnəbilərin həyatından, onların istəklərindən bəhs olunur. Yarımçıq qalmış işlərini həyata keçirmək üçün sonrakı illərdə yenidən Bakıya can atan insanlar burada öz cənnətlərini axtarıb tapmağa çalışırlar. Kitabda Azərbaycanın müasir tarixində yer almış bəzi məqamlar da işıqlandırılıb. Əsərdə həmçinin azərbaycanlı Rüfətlə eston qızı Annelinin sevgi hekayəsinə geniş yer verilib. Macəra janrında işlənmiş romanın süjeti dramatik hadisələr üzərində qurulub.

Romanın ilk təqdimatı 2018-ci ilin mayın 14-də Tartu yaxınlığındakı Vana Kuuste qəsəbə məktəbində keçirilib. Sözgəlişi deyək ki, yazıçı Kersti Kivirüüt yeni kitablarının ilk təqdimatını vaxtilə çalışdığı bu məktəbdə reallaşdırır.

27 may 2018-ci ildə isə Tallin şəhərində "Xalq kitabı" *("Rahva raamat")* satış şəbəkəsinin kitab mağazasında romanın növbəti təqdimatı baş tutub. Təqdimat Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunub. Tədbirdə Azərbaycan icmasının fəalları və qonaqlarla yanaşı, kitab mağazasının daimi müştəriləri də iştirak ediblər. Tallin şəhərindəki Azərbaycan həftəsonu məktəbinin şagirdləri eston və Azərbaycan dillərində romandan hissələr səsləndiriblər. Sonra əsər əsasında hazırlanmış slaydlar təqdim edilib.



1. Yazıçı K. Kivirüütün "Tuulte linn" ("Küləklər şəhəri") kitabının estonca nəşrinin üz qabığı. 2. "Küləklər şəhəri" kitabının azərbaycanca nəşrinin üz qabığı.

Romanın müəllifi Kersti Kivirüüt və onu Azərbaycan dilinə tərcümə etmiş Sənəm Əliyeva tədbirdə çıxış ediblər. Müəllif əsəri Azərbaycanın gözəlliyinə və bu ölkənin tarixinin faciəli səhifələrinə həsr etdiyini söyləyib. Bildirib ki, romanı həm də məşhur norveçli arxeoloq, səyyah və yazıçı Tur Heyerdalın (1914–2002)

Yazıçı K. Kivirüüt (sağda) və kitabın Azərbaycan dilinə tərcüməçisi Sənəm Əliyeva "Küləklər şəhəri" romanının təqdimatında. Tallin, 27 may 2018-ci il.

"Odinin arxasınca. Keçmişimizin izlərilə"[157] adlı əsərindən ilhamlanaraq yazıb. Estoniyalı yazıçı öz çıxışında Qarabağ müharibəsinə və bu müharibənin ən dəhşətli faciəsi Xocalı qətliamına toxunaraq deyib:

"Düzdür, romanın qəhrəmanları – eston qızı və azərbaycanlı oğlandır, onların yaşadığı macəra dolu məhəbbət hekayəsi də çox maraqlıdır. Lakin mənim üçün bu əsərin qəhrəmanı Qarabağ qaçqını olan Əhməddir, mən onun dili ilə sülh mesajı vermək istəmişəm".

Dominant mədəniyyətə inteqrasiya və qarşılıqlı zənginləşmə

Beləliklə, yuxarıda qeyd edilənlərə əsasən belə nəticəyə gəlmək olar ki, Baltik ölkələrindəki bir sıra diaspora təşkilatları fəaliyyətlərinin məzmunca kreativ mərhələsinə qədəm qoyublar. Bəzi Azərbaycan cəmiyyətlərində toplanmış iş təcrübəsi göstərir ki, qədim əlaqələr kontekstində və mədəniyyətlərarası dialoq çərçivəsində təşkil olunan tədbirlər Azərbaycan mədəni irsinin daha anlaşıqlı şəkildə yayımlanmasına, həmvətənlərimizin etnokulturoloji istiqamətli tarixi yaddaşlarının hifz olunmasına və bilgilərinin genişlənməsinə xidmət etməklə yanaşı, həm Baltik xalqları, həm də bu ölkələrdəki çoxmillətli ictimaiyyətin digər nümayəndələri tərəfindən Azərbaycan dəyərlərinin daha təbii və yaddaqalan tərzdə qəbul edilib qiymətləndirilməsi üçün müstəsna imkanlar açır.

[157] Thor Heyerdahl og Per Lilliestrøm. Jakten på Odin. På sporet av vår fortid. J. M. Stenersens Forlag AS. 2001. ISBN 82-7201-316-9 (ruscaya tərcüməsi – "В погоне за Одином. По следам нашего прошлого", 2008).

Litva prezidenti Valdas Adamkus onun adından Azərbaycan prezidenti İlham Əliyevin şərəfinə təşkil edilmiş rəsmi ziyafətdə nitq söyləyən zaman. Vilnüs, Prezident sarayı, 13 sentyabr 2007-ci il.

Azərbaycan mədəni irsinin Baltik ölkələrində göstərilən səpkidə yayımlanması və mədəniyyətlərarası dialoqun genişləndirməsi istiqamətində indiyədək həyata keçirilmiş orijinal tədbirlər bu ölkələrin elm və mədəniyyət dairələri, ictimai və siyasi elitası tərəfindən tam dəstək alaraq diqqət mərkəzində olub. Bununla bağlı, 2007-ci ilin sentyabrında prezident İlham Əliyevin Litvaya ilk rəsmi dövlət səfəri zamanı Azərbaycanın dövlət başçısının şərəfinə təşkil edilmiş rəsmi ziyafətdə Litva prezidenti Valdas Adamkusun söylədiyi nitqdən aşağıdakı fikirlər diqqəti cəlb edir:

"...Litva və Azərbaycan arasındakı münasibətlərin son illərdə intibah dövrünü yaşadığını və xalqlarımız arasında getdikcə daha yaxın əlaqələrin qurulmasını görəndə, bir-birimizi daha yaxşı tanıyaraq daha da yaxın olmaq səylərimizi müşahidə etdikdə ürəkdən sevinirəm. Xalqlarımız arasındakı qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi üçün Litvadakı Azərbaycan diasporu çox səylər göstərir, fəal mədəni və akademik fəaliyyəti ilə bu işi daha da şövqləndirir. Sizin ölkənizin qədim tarixi və milli-mənəvi sərvətləri ilə litvalıları tanış etmək məqsədilə həyata keçirilən tədbirlər eyni zamanda, bizim ölkəmizin mədəniyyətini də mənəvi cəhətdən zənginləşdirir..."

Vurğulamaq istərdik ki, Litva Prezidentinin çıxışında qeyd olunan tədbirlər eyni zamanda həmvətənlərimizə Baltik xalqları mədəniyyətlərinin tarixini,

onun özünəməxsus xüsusiyyətlərini öyrənmək üçün əlverişli şərait yaradır, həm də assimilyasiya olunmadan dominant mədəniyyətə inteqrasiya etmək, titul millətlə və burada məskunlaşmış digər etnoslarla qarşılıqlı hörmət və anlaşma ruhunda harmonik münasibətlər qurub birgəyaşayışı təmin etmək üçün gözəl imkanlar açır.

Harmonik münasibətlərin qurulması istiqamətində çox əhəmiyyətli bir definisiyanı da konstatasiya etmək vacibdir ki, Azərbaycan və Litva arasında tərəfdaşlıq əlaqələrinin inkişaf etdirilməsi ilə bağlı dövlət başçıları İlham Əliyev və Valdas Adamkusun 2007-ci ildə Vilnüsdə imzaladıqları birgə Bəyannamədə digər müddəalarla yanaşı, "...Azərbaycan və Litva dillərinin öyrənilməsində və ədəbiyyatların yayılmasında, habelə elm, ədəbiyyat və incəsənət xadimləri arasında təmasların inkişaf etdirilməsində əməkdaşlıq etmək, dinlər və sivilizasiyalar arasında dialoqa şərait yaratmaq, həmçinin harmonija, anlaşma, bir-birini yaxşı tanımaq və insan istedadının inkişafı üçün hər iki ölkədə mövcud olan xristianlıq, islam və digər mədəniyyət və dinlər arasında əlaqələri və anlaşmanı genişləndirmək" kimi mühüm tezislər təsbit olunmuşdur.

Bu tezislərin praktiki baxımdan gerçəkləşdirilməsinə aid müsbət təcrübə qismində 2003–2005-ci illərdə YUNESKO-nun Estoniya, Latviya, Litva, Azərbaycan Milli Komissiyalarının təşkilatçılığı və Baltik azərbaycanlıları cəmiyyətlərinin tərəfdaşlığı ilə Vilnüsdə, Riqada, Tallində və Bakıda həyata keçirilmiş iki beynəlxalq layihəni qeyd etmək yerinə düşər. "Qafqaz: sivilizasiyalararası dialoq" və "Nağıl körpüləri" adlı həmin layihələr mahiyyət etibarilə müasir Avropa Birliyinin xarici siyasət konsepsiyasının sərhədlərsiz Avropa və yeni qonşuluq münasibətləri proqramı ilə uzlaşan, eyni zamanda Azərbaycan və Baltik ölkələri arasında mədəni əməkdaşlıq strategiyasını daha məzmunlu və dinamik tərzdə həyata keçirməyi stimullaşdıran tədbirlərdir.

Azərbaycan və Baltik xalqları arasında mədəni əməkdaşlıq strategiyasına aid belə bir postulatı önə çəkmək istərdik ki, Diaspora təşkilatlarının xarici ölkələrdə milli dəyərlərimizin təbliği və beynəlxalq mədəni əlaqələrin genişləndirilməsilə bağlı fəaliyyəti Azərbaycan dövlətinin mədəniyyət siyasətinə daxil edilməli və xarici siyasət konsepsiyasının tərkib hissəsini təşkil etməlidir. Zənnimizcə, hazırda belə bir mədəniyyət doktrinasının hazırlanıb araya gətirilməsinə ehtiyac vardır...

Bu gün Azərbaycan–Baltik dövlətlərarası münasibətlərində tərəflərin səyləri nəticəsində konstruktiv fəaliyyət və səmərəli imkanlar məkanı yaradılıb, enerji tərəfdaşlığı əlaqələri formalaşıb, iqtisadi layihələrin reallaşdırılmasına qarşılıqlı maraqlar vardır, ölkələrimiz arasında Avropa və Şimali Atlantika qurumlarına inteqrasiya sahəsində əməkdaşlıq münasibətləri mövcuddur. Çağdaş dövrdə bu məkanı həm də Diaspora təşkilatlarının xətti ilə konkret mədəni

tədbirlərlə doldurmağa səylər göstərilir. Bir də ki, Diaspora qurumları təbii sərvətlərimizin dünya bazarına çıxarılmasından, eyni zamanda milli-mənəvi dəyərlərimizin yayımlanması, xarici ölkələrdə azərbaycançılıq ideologiyasının kök atması üçün rasional şəkildə istifadə etməyi təklif edirlər.

Fikrimizcə, təxminən 200 illik bir tarixə söykənən və sağlam köklərdən qaynaqlanan Azərbaycan–Baltik ədəbi-mədəni və ictimai-siyasi əlaqələri həm xəlqi mahiyyəti və milli qayələri təcəssüm etdirmək baxımından, həm də mütərəqqi ideyaları və bəşəri mövzuları ehtiva etmək nöqteyi-nəzərindən, hazırda getdikcə artan qlobal miqrasiya böhranı şəraitində ziddiyyətlər və qarşıdurmalar dövrünü yaşayan Şərq-Qərb münasibətlərində əməkdaşlıq əlaqələri qurmaq və qarşılıqlı anlaşma ruhunu yaşatmaq üçün yaxşı örnək ola bilər. Çünki, əsrlərin sınağından çıxmış bu qədim əlaqələr özündə dünyanın müxtəlif mədəni qütbləri arasındakı ünsiyyət məsafələrini qısaltmağa yaradıcı istiqamətdə rəvac verə bilən və beynəlxalq münasibətlərdə qarşılıqlı etimad iqlimini yaratmağa qadir olan münbit bir zəmin daşıyır...

Vilnüs – Riqa – Tallin – Bakı
Aprel 2008 – Dekabr 2021-ci illər.

III FƏSİL

QORQUD MÜDRİKLİYİ VƏ MİRZƏ CƏLİL YANĞISI BALTİK MƏDƏNİ MƏKANINDA

İsa HƏBİBBƏYLİ
AMEA-nın vitse-prezidenti,
Filologiya elmləri doktoru, akademik,
Əməkdar elm xadimi

QORQUD MÜDRİKLİYİ VƏ MÜASİRLİK

"Kitabi-Dədə Qorqud" Baltik xalqlarının dillərində" kitabına ön söz[158]

"Kitabi-Dədə Qorqud" dastanları Azərbaycan ədəbiyyatının möhtəşəm abidəsidir. Ümumtürk ədəbiyyatı miqyasında da "Dədə Qorqud" dastanları xüsusi çəkiyə malikdir. Fikrimizcə, "Kitabi-Dədə Qorqud" dastanları dünya epos sənətinin zirvəsində dayanır. Şifahi xalq ədəbiyyatı nümunəsi kimi "Dədə Qorqud"u tərəzinin bir gözünə, digər xalqların dastanlarını isə o biri gözünə qoysaq, Azərbaycan oğuznaməsi yenə ağır gələr. Dünya dastanı təcrübəsində daha çox salnamə, yaxud səyahətnamə motivləri üstünlük təşkil etdiyi halda, "Kitabi-Dədə Qorqud" eposu böyük ədəbiyyat örnəyi kimi maraqlı, cazibədar həyat hadisələrini və qəribə insan talelərini bədii surətdə əks etdirir.

"Dədə Qorqud" dastanlarının nəsr hissəsi orijinal bədii təhkiyə üslubunda yaradılmış, bənzərsiz süjetə və obrazlara malik mükəmməl bir əsərdir. "Dədə Qorqud" dastanlarının nəsri bir çox hallarda yüksək poetik səviyyədə olan, obrazlı düşüncədən yoğrulmuş mənsur şeir təəssüratı yaradır. Bununla belə, dastan üçün çox zəruri olan nəsrlə şeirin növbələşməsi tənasübündə qoşa qanaddan biri olan "Dədə Qorqud" şeiri də tam orijinal sənət nümunəsidir. "Kitabi-Dədə Qorqud" dastanlarındakı poetik nümunələr dünya dastan şeirinin şah əsərləridir. Qorqud Atanın şeirləri dünya ədəbiyyatında vəznli sərbəst şeirin ən qədim və ən kamil mümunəsidir. Şeirlə nəsrin növbələşməsi prosesi də "Kitabi-Dədə Qorqud" dastanlarında çox ahəngdar şəkildə, üzvi sintez halında baş vermişdir. Dünya epos mədəniyyətində şeirlə nəsrin, təsvir və tərənnümün bu qədər yüksək səviyyədə bir-birini tamamladığı əsərləri barmaqla saymaq olar.

[158] Mahir Həmzəyev. "Kitabi-Dədə Qorqud" dastanları Baltik xalqlarının dillərində. Elmi redaktoru və müqəddiməninin müəllifi – akademik İsa Həbibbəyli. Bakı, "Elm və təhsil", 2017, 116 səh. ISBN 978-9952-8176-6-9.

İdeya baxımından da "Kitabi-Dədə Qorqud" dastanları zəngin mənəviyyat xəzinəsidir. Dastanda mərdlik, vətənpərvərlik, qəhrəmanlıq, insana sevgi, ata-övlad münasibətləri yüksək bədii səviyyədə ifadə olunmuşdur. Bu mənada "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının zəngin və bütöv mənəvi simasını dünyaya təqdim etdi. Eyni zamanda, bu dastanda öz əksini tapmış böyük əxlaqi-mənəvi dəyərlər dünyanın digər xalqlarının da ən yaxşı keyfiyyətlərini özündə əks etdirir. Dastanı oxuyan hər bir kəs, hansı coğrafiyada yaşamasından asılı olmayaraq, öz xalqına məxsus olan ali insani dəyərlərin "Kitabi-Dədə Qorqud" dastanlarında ibrətamiz həyat hadisələrinin və təsirli obrazların simasında bədii səviyyədə əks etdirildiyinin şahidi olur. Bu mənada "Kitabi-Dədə Qorqud" dastanları dünya miqyasında həmişə aktual səslənən idealları və müasir çağırışları, əbədi dəyərləri özündə əks etdirən böyük epos nümunəsi kimi mühüm əhəmiyyətə malikdir.

"Kitabi-Dədə Qorqud" dastanları forma orijinallığı ilə də, ideya-məzmun baxımından və müasirlik işığında da dünya xalqları üçün cəlbedici, təsirli və əhəmiyyətlidir. "Dədə Qorqud" dastanlarına beynəlxalq miqyasda ardıcıl olaraq böyük maraq göstərilməsinin əsas səbəbi bu qədim və məşhur abidənin bədii forma cəhətdən orijinallığı, ideya etibarilə zənginliyi və müasirliyi ilə üzvi surətdə əlaqədardır. Görkəmli alman şərqşünası Fridrix Fon Ditsin 200 il bundan qabaq üzə çıxarıb elm aləminə, geniş oxucu auditoriyasına təqdim etdiyi "Kitabi-Dədə Qorqud" dastanları indi artıq dünyanın əksər ölkələrində yer kürəsinin müxtəlif xalqları tərəfindən böyük maraqla oxunur və rəğbətlə qarşılanır. Azərbaycan şifahi xalq ədəbiyyatının bu şah əsəri ötən iki əsr ərzində ingilis, rus, alman, fransız, ərəb, ispan, fars dillərinə tərcümə edilərək dünyada yayılmış və böyük şöhrət qazanmışdır. "Kitabi-Dədə Qorqud" dastanlarının odisseyası Azərbaycan ədəbiyyatının dünya şöhrətinə daha geniş üfüqlər açmaqda davam edir.

Bu mənada "Dədə Qorqud" dastanlarının Baltik xalqlarının da dillərinə tərcümə olunması, geniş yayılması, həmin ölkələrdə bu dastan haqqında tədqiqatların meydana çıxması əhəmiyyətli hadisələrdir. Bununla belə, etiraf etmək lazımdır ki, bir çox başqa xalqlarla müqasiyədə "Dədə Qorqud" dastanlarının Baltik ölkələrindəki "həyatı" haqqında çox az məlumata malik idik. Azərbaycan diasporunun tanınmış nümayəndəsi, Litva Azərbaycanlıları Cəmiyyətinin sədri Mahir Həmzəyevin "Kitabi-Dədə Qorqud" Baltik xalqlarının dillərində" adlı tədqiqat əsəri mövcud boşluğu aradan qaldıran, bu istiqamətdə geniş elmi bilikləri Azərbaycan cəmiyyətinə çatdıran qiymətli elmi-tədqiqatdır. Bu araşdırmalarda Mahir Həmzəyev böyük zəhməti, məsuliyyətli işi və

yüksək professionallığı ilə əsl vətəndaş-ziyalı səviyyəsində çıxış edir. Onun axtarışları sayəsində "Kitabi-Dədə Qorqud"un Baltik ölkələrindəki həyatı ilə bağlı nə varsa, bütün təfərrüatları və detalları ilə geniş ictimaiyyətə çatdırılır. Bunlar Azərbaycan Qorqudşünaslığının qiymətli Baltik səhifələridir. Mahir Həmzəyev Azərbaycan Qorqudşünaslıq elminin layiqli Baltik təmsilçisidir. Onun tədqiqatlarının işığında "Dədə Qorqud"un Baltik "səyahəti"nin böyük və sanballı salnaməsi yaradılır.

"Kitabi-Dədə Qorqud" Baltik xalqlarının dillərində" kitabında bu möhtəşəm eposu Litva, latış və eston dillərinə tərcümə edən yazıçılar, dastanın müxtəlif nəşrlərinə tanıtma yazıları yazan tədqiqatçılar, illüstrasiyalar çəkən rəssamlar haqqında verilmiş məlumatlar və fotomateriallar Azərbaycan ədəbiyyatının Baltik respublikalarındakı dostları ilə yaxından tanışlıq üçün geniş imkan yaradır. Bununla Mahir Həmzəyev ölkələrimiz arasındakı ədəbi-mədəni və elmi əlaqələrin real salnaməsini yaratmışdır.

Azərbaycanın tanınmış yaradıcı ziyalısı M. Həmzəyev Baltik respublikalarının arxivləri və muzeylərində ölkəmizlə bağlı saxlanan zəngin irsə dərindən bələddir. Onun çoxillik zəhməti səyəsində çoxcəhətli Azərbaycan-Litva əlaqələrinin zəngin sənədləri və materialları üzə çıxarılaraq tədqiq edilmiş və hər iki ölkənin ictimaiyyətinə təqdim olunmuşdur. Azərbaycan ədəbiyyatı örnəklərinin Litva dilinə tərcümə edilərək yayılması istiqamətində M. Həmzəyevin böyük xidmətləri yüksək qiymətləndirilməyə layiqdir.

Azərbaycan xalq nağıllarını dərin müdrikliyi və ecazkarlığı ilə birlikdə ilk dəfə olaraq Litva dilində Mahir Həmzəyev səsləndirmişdir. Nizami Gəncəvinin yaradıcılığı ilə Litva ictimaiyyətinin daha geniş şəkildə tanış ola bilməsi də soydaşımızın bu böyük sənətkarın əsərlərini orijinala uyğun şəkildə Litva dilinə çevirməsi ilə əlaqədardır. Abdulla Şaiq, Bəxtiyar Vahabzadə, Rəşad Məcid, Elçin Hüseynbəyli və başqa yazıçı və şairlərin əsərləri də Mahir Həmzəyevin tərcüməsində Litva oxucularının mütaliəsinə daxil olmuşdur. Zəngin yaradıcılıq təcrübəsi və hər iki dili dərindən bilməsi Mahirin tərcümələrinin yüksək bədii səviyyədə alınmasını təmin edir. Onun Litva xalqının həm klassik, həm də müasir yazıçı və şairlərindən Azərbaycan dilinə etdiyi tərcümələr də ölkəmizdə Baltik xalqları ədəbiyyatı ilə tanışlıq baxımından layiqli bələdçilik funksiyasını uğurla yerinə yetirir.

İctimai-siyasi ədəbiyyatı da qarşılıqlı surətdə Azərbaycan və Litva dillərinə tərcümə etməsi ilə M. Həmzəyev geniş imkanlara malik olan yaradıcı ziyalı qismində çıxış edir. Qarabağ münaqişəsi ilə əlaqədar Litvada yaranan ədəbiyyatı Azərbaycan dilinə çevirmək və çap etdirmək Mahir Həmzəyevin vətəndaşlıq borcuna məsuliyyətli münasibətinin bariz ifadəsidir.

Böyük demokrat ədib Cəlil Məmmədquluzadənin hekayələrini və "Kamança" pyesini Litva dilində bütün milli koloriti və ümumbəşəri dəyərləri ilə bir yerdə oxuculara çatdırması Mahir Həmzəyevin professional bir tərcüməçi kimi mühüm uğurudur. O, Azərbaycan tənqidi realizminin və "Molla Nəsrəddin" ədəbi məktəbinin banisi Cəlil Məmmədquluzadənin əsərlərini Litva dilinə çevirməklə bu Baltik ölkəsində Azərbaycan haqqında gerçək həqiqətlərin dairəsini daha da genişləndirmişdir. [...]

...Dədə Qorqud miladdan sonrakı başlanğıc dövrlərin, "Molla Nəsrəddin" isə XX əsrin müdrikliyinin klassik nümunəsidir. Cəlil Məmmədquluzadə - Molla Nəsrəddin yeni tarixi epoxada Dədə Qorqud sözünün yaxın və uzaq hədəflərini müasir dövrün adamlarının dilində xalqa çatdırır. Bu mənada "Kitabi-Dədə Qorqud" dastanlarının Baltik ölkələrindəki taleyini dərindən öyrənib Azərbaycan xalqına çatdıran Mahir Həmzəyevin litvalı yazıçı İrena xanım Aleksayte ilə birlikdə C. Məmmədquluzadənin əsərlərini də Litva dilinə tərcümə etmələri əslində ayrı-ayrı xalqların əlyazmalarının vahid amala xidmətinin parlaq nümunəsidir.

Bu qiymətli tədqiqat əsəri M. Həmzəyevin ölkəsini Baltik respublikalarında daha yaxından tanıtmaq baxımından da çox böyük imkanlara malikdir. "Kitabi-Dədə Qorqud" Baltik xalqlarının dillərində" kitabı rus və ya ingilis dillərinə tərcümə edilərək nəşr olunarsa, Baltik respublikaları ilə dostluq və qarşılıqlı əməkdaşığın daha da inkişaf etdirilməsinə də böyük töhfə vermis olardı.

M. Həmzəyevin "Kitabi-Dədə Qorqud" Baltik xalqlarının dillərində" kitabı Qorqudşünaslıq elminə sanballı töhfədir. Bu, Azərbaycan Qorqudşünaslığına layiqli Baltik ərməğanıdır.

"Kitabi-Dədə Qorqud" dastanlarına həsr olunmuş tədqıqat əsərinin meydana çıxması və C. Məmmədquluzaənin "Nigarançılıq" kitabının nəşri Litvada Azərbaycan ədəbiyyatının və mədəniyyətinin inkişafına sanballı xidmət deməkdir. Hər iki xalq üçün əhəmiyyətli olan bu gərəkli missiyanın həyata keçirilməsində, ilk növbədə Azərbaycan ziyalısının fəal iştirakı təqdirəlayiq hadisədir. Eyni zamanda, Azərbaycan oxucusunun, xüsusən də ölkə ədəbi-elmi ictimaiyyətinin az tanıdığı, məqalədən-məqaləyə rastlaşdığı litvalı həmkarları və geniş mənada Baltikyanı tədqiqatçılar və naşirlərlə tanışlıq baxımından da "Kitabi-Dədə Qorqud" dastanlarının Baltik səyahətnaməsi mühüm əhəmiyyətə malikdir.

"Kitabi-Dədə Qorqud" Baltik xalqlarının dillərində" kitabı janrına görə müasir elmi publisistika nümunəsidir. Kitabdakı axtarış yönlü araşdırmalarında M. Həmzəyev tədqiqatçı, təqdimatlarda isə publisist kimi çıxış edir. Bu elmi-publisistik kitab oxucu auditoriyasının genişləndirilməsinə meydan açır.

Azərbaycan ziyalısı Mahir Həmzəyevlə Litva yazıçısı və tərcüməçisi İrena Aleksaytenin yaradıcılıq əməkdaşlığı geniş mənada Azərbaycan–Litva əlaqələrinin salnaməsində qalan əhəmiyyətli səhifələrdir. Bu qarşılıqlı etimadın və əməkdaşlığın əhəmiyyətinə aid daha bir parlaq nümunədir.

Mahir Həmzəyevin Litvada apardığı çoxcəhətli iş və yaradıcılıq fəaliyyəti təkcə XXI əsrin diaspor nümayəndəsi üçün yox, ümumiyyətlə ziyalı üçün örnək sayılmağa layiqdir.

Uğurlar arzulayıram...

Bakı, 13 fevral 2017-ci il.

"KİTABİ-DƏDƏ QORQUD" BALTİK XALQLARININ DİLLƏRİNDƏ

2017-ci ilin fevralında Bakıda "Elm və təhsil" nəşriyyatında Mahir Həmzəyevin "Kitabi-Dədə Qorqud" Baltik xalqlarının dillərində" monoqrafiyası çapdan çıxıb. Kitabın elmi redaktoru və ön sözün müəllifi Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Nizami adına Ədəbiyyat institutunun direktoru, akademik İsa Həbibbəylidir.

M. Həmzəyev Azərtac-a müsahibəsində qeyd edib ki, bu monoqrafiya Azərbaycan və Baltik ölkələri ədəbiyyatşünaslığında bu mövzuya həsr edilmiş ilk tədqiqat işidir. Kitaba "Kitabi-Dədə Qorqud"un Litva, latış və eston dillərinə tərcümələri ilə əlaqədar müəllifin apardığı ədəbiyyatşünaslıq və linqvistik araşdırmaların nəticələri, eposun öyrənilməsinə dair Estoniya və Latviya müəlliflərinin ən mühüm mədəniyyətşünaslıq işlərinin təhlili və dəyərləndirilməsi, habelə tərcümələrlə bağlı Baltik ölkələri ədəbiyyatçılarının rəyləri barədə analitik icmallar daxil edilib.

M. Həmzəyev vurğulayıb ki, monoqrafiyanın əsas məqsədi Azərbaycan folklorunun bu möhtəşəm və qiymətli abidəsi haqqında 1940-cı ildən başlayaraq Baltik ölkələrinin ədəbi və elmi nəşrlərində dərc edilmiş elmi-publisistik materialların toplanması, təhlili və ümumiləşdirilməsi olub. O, həmçinin bildirib ki, monoqrafiyaya nadir biblioqrafik faktlar və eposun 1978–2013-cü illərdə eston, latış və litva dillərinə tərcümələrinin tədqiqi sahəsində tapıntılar daxil edilib.

Azərbaycan xalqının etnik və mədəni irsinin qədim abidəsi olan "Kitabi-Dədə Qorqud" eposunun Baltik xalqlarının dillərində nəşr edilməsi çoxəsrlik Azərbaycan–Baltik mədəni əlaqələri tarixində parlaq ədəbi-mədəni hadisə olmasına diqqət çəkən M. Həmzəyev vurğulayıb ki, monoqrafiyada göstərilən tərcümə və araşdırmalar, Baltik xalqlarının akademik dairələrinin nümayəndələri tərəfindən eposun öyrənilməsi, onun eston, latış və litva dillərində nəşrləri, habelə epos haqqında Baltik ölkələrində nəşr edilmiş əsərlər, heç şübhəsiz, "Kitabi-Dədə Qorqud"un dünya xalqlarının mənəvi dəyərləri xəzinəsinə daxil olmasını əks etdirən zəngin elmi salnamənin orijinal və qiymətli səhifələridir.

Akademik İsa Həbibbəylinin bu kitaba ön söz kimi yazdığı "Qorqud müdrikliyi və müasirlik" adlı məqaləsində qeyd edilir ki, Azərbaycan xalq ədəbiyyatı abidəsi olan "Kitabi-Dədə Qorqud" qəhrəmanlıq eposunun Baltik xalqlarının dillərinə tərcümə edilməsi və həmin ölkələrdə bu eposla bağlı aparılmış tədqiqatlar mühüm hadisədir. İ. Həbibbəyli daha sonra yazır ki, M. Həmzəyev eposun tərcümələrini öyrənir və həmin ölkələrdə aparılmış tədqiqatların mühüm nəticələrini Azərbaycanın geniş ictimaiyyətinə təqdim edir. Bu nəticələr, eyni zamanda, Azərbaycan qorqudşünaslığının qiymətli Baltik səhifələridir.

Azərbaycan Dövlət İnformasiya Agentliyinin (Azərtac-ın) veb-saytı, 25 avqust 2017-ci il.

MİRZƏ CƏLİLİN ƏSƏRLƏRİ LİTVA DİLİNDƏ

Azərbaycan ədəbiyyatının klassiki, tənqidi realizmin və satirik mətbuatın banisi C. Məmmədquluzadənin əsərləri XX əsrdə başqa dillərdə kitab halında əsasən rusca və farsca nəşr edilib. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra yazıçının əsərlərinin dünya ölkələrində nəşr olunması sahəsində səmərəli addımlar atılmaqdadır. Ədəbiyyatşünas akademik İsa Həbibbəylinin təşəbbüsü ilə C. Məmmədquluzadənin dram və nəsr əsərlərindən, felyetonlarından seçmələr, tədqiqatçının ön sözü və təqdim etdiyi fotomateriallarla birlikdə Rusiyada (1999), Pakistanda (2004), Misirdə (2008), Macarıstanda (2012) və Gürcüstanda (2016) kitab halında çap edilərək bu ölkələrin ictimaiyyətinə çatdırılıb və böyük maraq doğurub.

Mirzə Cəlilin əsərlərindən bəzi nümunələr Litva oxucusuna ilk dəfə 70 il öncə təqdim olunub. O zaman onun "Quzu" və "Qurbanəli bəy" hekayələrini ədəbiyyatşünas alim Yanina Jekayte Litva dilinə tərcümə edib və 1952-ci ildə Vilnüsdə Dövlət bədii ədəbiyyat nəşriyyatı tərəfindən buraxılan "Azərbaycan hekayələri" toplusunda çap olunub.[159]

Böyük demokrat ədibin əsərləri Litva dilində kitab halında ilk dəfə 2016-cı ildə işıq üzü görüb.[160] „Nigarançılıq" adlı bu kitabın buraxılmasının təşəbbüsçüsü və ön sözün müəllifi akademik İsa Həbibbəylidir. Onun kitaba yazdığı "Cəlil Məmmədquluzadə – Molla Nəsrəddin – Mirzə Cəlil" adlı müqəddimədə böyük demokrat ədibin bioqrafiyasının əsas məqamları, çoxsahəli fəaliyyətinin vacib istiqamətləri və əsərlərinin mühüm ideya-bədii xüsusiyyətləri litvalı oxuculara çatdırılıb.

Kitabın annotasiyasında Mirzə Cəlilin xalq həyatını real əks etdirdiyi, insanların azad və ləyaqətlə yaşamasına mane olan halları satira atəşinə tutduğu xüsusi qeyd edilib. Kitabın üzündə "Molla Nəsrəddin" jurnalının 1906-cı ildə çıxmış birinci sayına alman mənşəli karikaturaçı rəssam Oskar Şmerlinqin (1863–1938) çəkdiyi "Sizi deyib gəlmişəm, ey müsəlman qardaşlarım" rəsm əsəri verilib.

Mirzə Cəlilin əsərlərini Litva dilinə litvalı yazışı və mütərcim İrena Aleksayte və ədəbiyyatşünas Mahir Həmzəyev birgə tərcümə ediblər.

Akademik İ. Həbibbəyli bu kitab haqqında 2017-ci ildə çap olunmuş məqaləsində yazır:

[159] Azerbaidžaniečių apsakymai. Vilnius, Valst. Grožinės literatūros leidykla, 1952, 511 psl.

[160] Džalilas Mamedguluzadė. "Nerimas". Apsakymai ir pjesė. Iš azerbaidžaniečių kalbos vertė Irena Aleksaitė ir Mahiras Gamzajevas. Vilnius, 2016 m. 165 psl. Tiražas 300 egz. ISBN 978-609-95862-0-5.



C. Məmmədquluzadənin Litva dilində nəşr edilmiş "Nigarançılıq" kitabının görüntüləri.

"Vilnüsdə 2016-cı ildə çap olunmuş Cəlil Məmmədquluzadənin "Nigarançılq" adlı kitabı təkcə Litvada deyil, bütövlükdə Baltik respublikalarında bu görkəmli Azərbaycan yazıçısının nəşr olunmuş birinci kitabıdır.

Kitaba C. Məmmədquluzadənin maraqlı hekayələrindən biri olan "Nigarançılıq" hekayəsinin adı verilmişdir. [...] Kitaba C. Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları" povestindən "Bir yüngülvari" adlanan parçanın, "Poçt qutusu", "Kişmiş oyunu", "Dəllək", "Pirverdinin xoruzu", "Fatma xala", "Qurbanəli bəy", "Quzu", "Nigarançılıq", "Konsulun arvadı", "Xanın təsbehi", "Qəssab", "Zırrama", "Rus qızı", "Saqqallı uşaq", "Buz", "Hamballar", "Bəlkə də qaytardılar", "İki ər" hekayələri, "Niyə məni döyürsünüz" felyetonu və "Kamançа" pyesinin tərcümələri daxildir.

Qiymətli nəşrdə yer almış "İzahlar" təqdim olunan əsərlərin milli koloritini və süjet xəttini dərindən başa düşməyə imkan yaradır. "Nigarançılq" kitabına daxil edilmiş fotoşəkillər və karikaturalar C. Məmmədquluzadəni və "Molla Nəsrəddin" jurnalını Litva oxucusunun daha yaxından tanımasına xidmət edir. Oskar Şmerlinqin, Əzim Əzimzadənin və Elturanın karikaturaları C. Məmmədquluzadənin əsərlərini və XX əsrin əvvəlləri Azərbaycan mühitini tanıtmaq üçün düşünülmüş açar funksiyasını yerinə yetirir.

C. Məmmədquluzadənin əsərlərinin Litva dilinə tərcümə edilməsində Mahir Həmzəyevlə birlikdə görkəmli yazıçı və tərcüməçi xanım İrena Aleksaytenin də zəhməti yüksək qiymətə layiqdir. İ. Aleksayte Maksim Qorki adına Ədəbiyyat institutunun istedadlı məzunlarından biri olaraq daha çox rus dilinə və ya əksinə, ruscadan Litva dilinə tərcümələri ilə məşhurdur. Onun

tərcüməçilik fəaliyyətində Litva satirik-yumoristik ədəbiyyatının rus dilinə çevrilməsi xüsusi yer tutur. Rus dilindən Litva dilinə tərcümə etdiyi əsərlərdə də realist-satirik ədəbiyyatın özünəməxsus payı vardır. Beləlikə o, satirik-yumoristik əsərlərin "dilini" dərindən mənimsəmiş, bu istiqamətdəki tərcümələri ilə rəğbət qazanmışdır. Bu mənada İ. Aleksaytenin Azərbaycanda satirik ədəbiyyatın böyük banisi C. Məmmədquluzadənin əsərlərinin tərcüməsi işinə cəlb edilməsi düzgün seçimdir və bu iş faydalıdır. Hiss olunur ki, C. Məmmədquluzadənin əsərlərindən bir neçəsini tərcümə etməklə bərabər, xanım İ. Aleksayte dilin daşıyıcısı kimi tərcümə edilmək üçün nəzərdə tutulmuş bütün bədii nümunələrin Litva dilində çevrilmiş son variantını nəzərdən keçirərək müvafiq iş aparmışdır.

Litva Ədəbi tərcümələr ittifaqı sədrinin müavini kimi İrena xanım ölkədə bədii tərcümə işinin təşkili sahəsində də səmərəli fəaliyyət göstərir. Onun Avropa ölkələrində, Litvada, Rusiyada, Polşada, Ukraynada tərcümə məsələlərinə həsr edilmiş beynəlxalq konfranslardakı məruzələri onu həm də tərcümə nəzəriyyəçisi kimi tanıdır. Bir sözlə, Litva Yazıçılar İttifaqının üzvü İrena Aleksayte Litvanın tərcümə ustasıdır.

C. Məmmədquluzadənin "Nigarançılıq" kiabının Litva dilinə tərcümə edilməsi və Vilnüsdə yüksək poliqrafik şəkildə çap olunması Azərbaycan Respublikasının Litvadakı səfirliyinin dəstəyi ilə həyata keçirilib. Azərbaycan–Litva əlqələrinin daha da inkişaf etdirilməsi sahəsində daha bir əhəmiyyətli addım olan bu dəyərli kitabın nəşri üçün göstərilən dəstəyə, aparılan təşkilatçılıq işinə görə səfir Həsən Məmmədzadəyə dərin minnətdarlığımı bildirirəm.

"Kitabi-Dədə Qorqud" dastanlarının sintaktik quruluşu, təhkiyə üslubu ilə C. Məmmədquluzadənin əsərlərinin dil xüsusiyyətləri arasında ciddi bir yaxınlıq vardır. Ədibin hekayələri sanki satirik risalələrdir. "Dədə Qorqud" dastanlarındakı Qalın Oğuz elinin müqəddəsliyi ideyası ilə C. Məmmədquluzadənin "Anamın kitabı" dramındakı azərbaycançılıq idealının bədii təcəssümü bir-birini üzvi surətdə tamamlayır. Hətta Vətən torpaqlarını qorumaq və möhkəmləndirmək, mənsub olduğu xalqı daha işıqlı sabahlara aparmaq məqamında Dədə Qorqudla Molla Nəsrəddin – Cəlil Məmmədquluzadə eyni zirvədə birləşir".[161]

Vilnüs – Bakı, 2016–2022-ci illər.

[161] İsa Həbibbəyli. „Qorqud müdrikliyi və müasirlik". Bakı, "525-ci qəzet", 3 iyun 2017-ci il, № 98, səh. 16–17.

LİTVADA M. CƏLİLİN KİTABININ TƏQDİMATI

2017-ci il martın 10-da Avropanın qədim təhsil ocaqlarından biri olan Vilnüs Universiteti (1579) kitabxanasının P. Smuglyaviçyus adına zalında Litvadakı Səfirliyimizin dəstəyi ilə ədəbi klassik C. Məmmədquluzadənin Litva dilinə tərcümə edilmiş "Nigarançılıq" adlı kitabın təqdimatı keçirildi.

Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyasının Humanitar elmlər bölməsinin akademik-katibi Teymur Kərimli, Litva Elmlər Akademiyasının prezidenti Valdemaras Razumas, Vilnüs Universitetinin rektoru Arturas Jukauskas, Litva Respublikası Seyminin İnsan hüquqları komitəsinin rəhbəri, Litva–Azərbaycan Parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri Valeriyus Simulik və bu Qrupun sədr müavini Mantas Adomenas, millət vəkili Kyastutis Masyulis, Litva ictimai-mədəni xadimləri, Vilnüs Universitetinin professor və müəllimləri, KİV nümayəndələri iştirak etdilər.

Təqdimatın moderatoru və kitabın tərcüməçilərindən biri olan Mahir Həmzəyev tədbiri giriş sözü ilə açaraq böyük ədib C. Məmmədquluzadənin həyat və yaradıcılığı barədə bilgilər verdikdən sonra sözü Azərbaycanın Litvadakı fövqəladə və səlahiyyətli səfiri Həsən Məmmədzadəyə verdi.

"Nigarançılıq" kitabının təqdimat görüntüləri. Vilnüs Universitetinin P. Smuglyaviçyus zalı. 10 mart 2017-ci il.

"Nigarançılıq" kitabının təqdimat görüntüləri. Vilnüs Universitetinin P. Smuglyaviçyus zalı. 10 mart 2017-ci il.

Səfir Həsən Məmmədzadə öncə tədbir iştirakçılarını salamladı və kitabın ərsəyə gəlməsində əməyi olanlara təşəkkürünü bildirdi. Sonra Səfirliyin əsas fəaliyyət istiqamətlərindən birinin ölkələr arasında mədəni əlaqələrin qurulmasına yönəldiyini bildirən diplomat, kitabın nəşri ilə bağlı akademik İsa Həbibbəylinin təşəbbüsünə böyük məmnunluqla qoşulduğunu vurğuladı və bu gün ölkələr arasında ikitərəfli münasibətlərdə yeni səhifənin açıldığını qeyd etdi.

XX əsr Azərbaycan ədəbiyyatının klassiki C. Məmmədquluzadənin kitabının təqdimatının Vilnüs Universitetində keçirilməsindən şad olduğunu bildirən rektor Arturas Jukauskas, həm də uzun illər görüşməyən şəxslərin bu təqdimatda bir araya gəlməsindən məmnunluğunu ifadə etdi.

Vilnüs Universiteti kitabxanasının baş direktoru İrena Kriviene 450 ilə yaxın yaşı olan bu qədim elm məbədində C. Məmmədquluzadənin kitabının təqdimatının keçirilməsinin yaddaqalan bir tədbir olduğunu vurğuladı. O, həmçinin müxtəlif millətlərdən olan müəlliflərin əlyazmaları və kitabları toplanmış qədim kitabxana fonduna ədəbi klassik Mirzə Cəlilin "Nigarançılıq" kitabının daxil olmasından xüsusi məmnunluq duyduğunu bildirdi.

Daha sonra akademik Teymur Kərimli təqdimat iştirakçılarını AMEA-nın rəhbərliyi adından salamladı və Vilnüsdə ilk dəfə olmasına baxmayaraq, özünü doğma insanların əhatəsində hiss etdiyini söylədi. Azərbaycan ədəbiyyatının

qədim və zəngin ənənələri olduğunu qeyd edən akademik, Nizaminin, Füzulinin, M. F. Axundovun və digər klassik ədiblərimizin öz əsərləri ilə bəşəriyyətin mədəniyyət xəzinəsinə dəyərli töhfələr bəxş etdiyini dilə gətirib bildirdi ki, cəhalətə, xurafata və dini mövhumata, savadsızlığa və despotizmə qarşı mübarizə aparan Mirzə Cəlil əsərləri ilə tək Azərbaycan xalqının deyil, Şərq və dünya xalqlarının da tərəqqisinə, inkişafına xidmət göstərib.

T. Kərimli qeyd etdi ki, hazırda akademik İ. Həbibbəyli C. Məmmədquluzadənin "Poçt qutusu" hekayəsini dünyanın 25 dilində ön söz, foto və illüstrasiyalarla birgə çapa hazırlayır.

Litvanın Türkiyə və Azərbaycandakı keçmiş səfiri Halina Kobetskayte 1952-ci ildə sinif yoldaşının ona litvaca "Azərbaycan hekayələri" kitabını hədiyyə etdiyini, Cəlil Məmmədquluzadənin hekayələri ilə ilk dəfə məhz bu kitab vasitəsilə tanış olduğunu danışdı. O, türk dilindən tərcümə edilmiş çox sayda kitablar oxumasına baxmayaraq, özünün Litva dilinə tərcümə etdiyi ilk kitabın da Azərbaycan ədəbiyyatından olduğunu vurğuladı. Diplomat kitaba illüstrasiyaların əlavə edilməsini müsbət qiymətləndirərək bildirdi ki, bu illüstrasiyalara baxanda C. Məmmədquluzadənin dünyada cərəyan edən hadisələrdən tam xəbərdar olması insanı çox təəccübləndirir.

Daha sonra çıxış edən jurnalist və media icmalçısı Tomas Çivas Mirzə Cəlilin hekayələrinin Litva dilinə tərcümə edilməsini böyük mədəni hadisə kimi dəyərləndirdi və kitabı çox maraqla oxuduğunu bildirdi.

Sonda Mahir Həmzəyev Azərbaycan və Litva arasındakı ədəbi əlaqələrin tarixindən söz açdı. Litva yazıçıları əsərlərinin Azərbaycan dilinə tərcümə edilib oxunduğunu, həmçinin bizim yazarların da əsərlərinin litvalıların ürəklərinə yol tapdığını qeyd etdi. O, C. Məmmədquluzadənin Litvada və Polşada yaşayan müsəlmanlara xitabən yazdığı "Halva" adlı kiçik felyetonunu Litva dilində oxudu.

Təqdimat Litvanın televiziya kanallarında işıqlandırıldı, kitab haqqında informasiya agentlikləri və internet portalları məqalələr dərc etdilər.

Xüsusilə qeyd etmək istərdik ki, Litvada bütün böyük kitabxanalara, bir sıra ədəbiyyatşünaslara, yazıçılara, ədəbi tərcümə mütəxəssislərinə, tədqiqatçı kulturoloqlara və kitabsevərlərə paylanılan bu kitab Litva oxucuları tərəfindən çox maraqla qarşılanıb və yüksək qiymətləndirilib.

Vilnüs, 10 mart 2017-ci il.

İrena ALEKSAYTE
Litva Yazıçılar Birliyi İdarə heyətinin üzvü,
Litva Respublikası Mədəniyyət nazirliyi və Ədəbi tərcüməçilər ittifaqının müqəddəs Hieronim mükafatı laureatı

MİRZƏ CƏLİLİN HEKAYƏLƏRİ VƏ LİTVA ƏDƏBİYYATI: ƏDƏBİ PARALELLƏR

Cəlil Məmmədquluzadənin hekayələrini Litva dilinə Mahir Həmzəyevlə birgə böyük məmnunluqla tərcümə etdim. Bu əsərlər xalis ədəbiyyatdır. [...] Tərcümə zamanı istər-istəməz C. Məmmədquluzadənin əsərlərini və o vaxtkı Azərbaycan mədəniyyətinin ümumi vəziyyətini, XIX əsrin axırları və XX əsrin əvvəllərindəki Litva həyatı ilə müqayisə etməyə başladım. Həm Azərbaycan, həm də Litva çar Rusiyasının tərkibində olublar və bu, ölkələrimizi ağır nəticələrə gətirib çıxarıb. Sonralar hər iki ölkədə milli şüur formalaşmağa başlayıb, peşəkar ədəbiyyat yaranıb və inkişaf edib. Bu baxımdan C. Məmmədquluzadənin yaradıcılığını peşəkar Litva ədəbiyyatının təşəkkül tapması prosesi ilə müqayisə etmək olar.

Aradan uzun illər keçdikdən sonra, zaman İmperiyanın ucqarlarında məskunlaşan və dirçəliş dövrünü yaşayan millətlərin sosial və siyasi problemlərini aşkarlayıb üzə çıxardı. Və bunu o vaxt məhz yazıçılarımız öz əsərlərində ən gözəl şəkildə açıqlayıb təqdim etdilər.

Bir satirik yazıçı və publisist olaraq C. Məmmədquluzadənin yaratdığı bəzi hekayələr ("Niyə məni döyürsünüz?", "Nigarançılıq", "Bəlkə də qaytardılar"), XIX əsrin sonları Litva milli dirçəliş hərəkatı ideoloqlarından biri olmuş bəstəkar, Litva dövlət himninin müəllifi, nasir, şair, publisist, və *"Varpas"* qəzetinin redaktoru Vintsas Kudirkanın bir sıra əsərləri ilə ("Litva körpüsünün xatirələri", "Naçalniklər", "Senzura məsələsi üzrə", "Canavarlar") yaxından səsləşir.

XIX əsrin axırı XX əsrin əvvəlləri Litva ədəbiyyatının məşhur təmsilçisi, nasir və ictimai xadim Yonas Bilyunasın "Oxladım" əsərində olduğu kimi, C. Məmmədquluzadənin "Buz" hekayəsində də mənfi duyğular vasitəsilə əxlaqi, mənəvi təcrübənin əldə edilməsi məsələsi qaldırılıb.

Litva milli oyanış hərəkatının öncüllərindən biri, ədəbi klassik, demokrat yazıçı və maarifpərvər xadim Yuliya Jemaytenin "Ərə getməyin xoşbəxtliyi", "Gəlin" adlı əsərlərində və Azərbaycan ədibinin "Fatma xala", "İki ər" adlı hekayələrində qadınların o zamankı vəziyyəti və acınacaqlı taleyi ilə bağlı problemlər bu və ya digər dərəcədə oxşar vətəndaş yanğısı ilə qələmə alınıb.

Litva ədəbiyyatında ilklərdən biri olaraq şəhər mədəniyyəti, siyasi və sosial bərabərsizliklə bağlı mövzuları işləmiş tanınmış şair və solçu inqilabi xadim Yulyus Yanonisin (1869–1917) əsərlərində olduğu kimi, C. Məmmədquluzadənin yaradıcılığında da eyni motivləri sezmək olar ("Konsulun arvadı", "Xanın təsbehi" və s.).

Təbii ki, fərqlər də vardır. C. Məmmədquluzadənin yaradıcılığındakı ən mühüm fərqlərdən biri müəyyən adətlərin daşıyıcıları, əxlaq normaları və yaşam tərzinin təmsilçiləri olan insanlar haqqında geniş səhnələrin verilməsidir ("Poçt qutusu", "Dəllək", "Pirverdinin xoruzu", "Quzu" və s.). Belə bir hala o zamankı Litva ədəbiyyatında tez-tez rast gəlinmir.

Mirzə Cəlil dərindən dərk etmişdi ki, qəflət yuxusunda mürgü döyənləri oyatmaq, mütləq təhsilə və elmə səsləmək lazımdır. Belə ki, milli oyanış epoxasında dərin yuxu içində yatmaqda davam edən insan heç cürə normal yaşaya bilməz (məsələn, "Niyə məni döyürsünüz?" hekayəsi).

Qeydlərimi C. Məmmədquluzadənin Litva dilində nəşr edilmiş "Nigarançılıq" adlı kitabına akademik İsa Həbibbəylinin yazdığı giriş məqaləsindən götürdüyüm sözlərlə bitirmək istərdim:

"Bu toplu Mirzə Cəlilin Litva oxucularına təqdim olunan ilk kitabıdır. Ümidvaram ki, oxucular və geniş ədəbi ictimaiyyət onun əsərlərini müsbət rəylə qarşılayacaq".

P.S: İrena Aleksayte bu məqaləni Mirzə Cəlilin litvaca nəşr edilmiş "Nigarançılıq" kitabının 2017-ci ilin mart ayında Vilnüs Universitetində keçirilmiş təqdimat mərasimi münasibəti ilə yazıb.

Vilnüs, mart 2017-ci il.

Bakı, "Ədəbiyyat qəzeti", 8 mart 2019-cu il, № 9.

Halina KOBETSKAYTE
Humanitar elmlər doktoru, Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü, Litva Respublikasının Azərbaycanda və Türkiyədəki sabiq səfiri

İRƏLİ GEDƏRKƏN ARXAYA DA BAXMAĞI UNUTMA

Türk xalqına mənsub olaraq, kiçik yaşlarımdan kitaba böyük maraq göstərdiyim üçün, kitab mağazalarında türk dillərindən tərcümə olunmuş hər hansı bir kitab görünən kimi, təbii ki, onu nə qədər mümkünsə tez əldə etməyə tələsirdim.

Mənim kitaba olan bu hədsiz sevgim barədə sinif yoldaşlarım da xəbərdar idilər və onlar mənə doğum günüm münasibətilə həmişə kitab hədiyyə edərdilər. İndi – məktəb illərindən çox-çox zaman keçdikdən sonra, sinif yoldaşlarımın imzaları ilə qeyd olunmuş həmin kitabları vərəqləmək mənə böyük məmnunluq bəxş edir. Bu zaman həm sənə o kitabları bağışlayan insanları xatırlayır, həm də müxtəlif illərdə xüsusi maraq göstərdiyin məşğuliyyəti – sevimli hobbini xronoloji ardıcıllıqla yada sala bilirsən.

Bax, elə götürək məktəb rəfiqəm İrena Sabulitenin mənə 1952-ci ildə hədiyyə etdiyi "Azərbaycan hekayələri" toplusunu. Bu kitab elə həmin ildə Vilnüsdə litvaca buraxılıb. Və mən ilk dəfə Mirzə Cəlilin "Quzu" və "Qurbanəli bəy" hekayələrini bu kitabda oxumuşam. Onda ibtidai məktəb şagirdi idim. Bu topludan sonra qalaq-qalaq kitabları oxuduğuma baxmayaraq, düşünürəm ki, sonralar mənə türk xalqları ədəbiyyatından tərcümələr etməyə yəqin ki, bu kitab rəvac verib.

Tale elə gətirdi ki, Litva dilinə tərcümə etdiyim ilk kitab da elə məhz azərbaycanlı yazıçının – Mehdi Hüseynin "Düşmənçilik" povesti oldu. Azərbaycan ədəbiyyatına olan marağım sonralar da azalmadı və sevinirəm ki, bu gün litvalıların kitab rəfində M. Hüseynin kitabı ilə yanaşı, Səməd Vurğun, İlyas Əfəndiyev, Yusif Səmədoğlu, Rüstəm İbrahimbəyov, Anar və Elçin Hüseynbəylidən tərcümə etdiyim əsərlər də düzülüb.

Tərcümə etdiyim bu müəlliflər müasir dövrə aid yazıçılardır. Lakin onların hamısının bədii söz sənəti milli ədəbiyyat tarixinin ən müxtəlif qatlarından qaynaqlanır. O tarixin pillələrində özünəlayiq yüksək yer tutmuş ən parlaq ədəbi simalardan biri isə Cəlil Məmmədquluzadədir.







H. Kobetskaytenin Azərbaycan ədəbiyyatından tərcümə etdiyi bəzi kitabların görüntüləri. 1. M. Hüseyn. "Düşmənçilik". 2. İ. Əfəndiyev. "Dağlar arxasında üç dost". "Söyüdlü arx". 3. Y. Səmədoğlu. "Qətl günü".

Cəlil Məmmədquluzadə və onun Azərbaycan ədəbiyyatının inkişafına göstərdiyi möhtəşəm təsir haqqında danışarkən, tanınmış fransız intellektualları – tədqiqatçı-kulturoloq, ədəbiyyatşünas alim Antuan Kompanyon və ünlü yazıçı Jan-Pol Sartrın (1905–1980) fikirlərinə istinadən demək istərdim ki, modernist yaradıcı şəxs gözü bağlı halda qabağa cuman yox, irəli hərəkət edərkən həm də daima arxaya baxmağı unutmayan kəsdir.

Yuxarıda adlarını çəkdiyim yazıçılar modern Azərbaycan ədəbiyyatının elə təmsilçiləridir ki, irəli addımlayanda geriyə baxmaqdan da çəkinmirlər, bir az obrazlı desək, avtomobili qabağa sürərkən onun arxa görüntü güzgüsünə baxmağı unutmurlar. Bunu deməklə mən yalnız onu vurğulamaq istəyirəm ki, onlar öz yaradıcılığının qaynaqlarını tanıyıb-bilən və dəyərləndirən sənətkardırlar. Odur ki, biz onların yaradıcılığı haqqında danışarkən, bu sənətkarların hansı ədəbi mühitdə yetişdiklərini də həmişə nəzərə almalıyıq. Qədim Azərbaycan ədəbiyyatında əsrlər boyu poetik janrın üstünlük təşkil etdiyini nəzərə alsaq, Cəlil Məmmədquluzadəni bu və ya digər anlamda haqlı olaraq müasir Azərbaycan nəsrinin banilərindən biri saymaq olar. O, ədəbi məkanın dərin qatlarına işləmiş elə şaxəli bir kökdür ki, üstündə həmişə çox sayda qollu-budaqlı ağaclar boy atır, yeni-yeni pöhrələr göyərir.

Mən Antuan Kompanyonun adını yuxarıda təsadüfən çəkmədim. Çünki, onu mütaliə edərkən gözümə dəymişdi ki, bu fransız tədqiqatçısının irəli hərəkət etmək üsulu ilə bağlı yazdığı həmin fəlsəfi fikir, ondan çox-çox əvvəl, həm də daha obrazlı şəkildə, Azərbaycan və digər Şərq xalqları şifahi xalq ədəbiyyatının məşhur personajı – gözəl yumoristik və satirik miniatürlərin,

duzlu-məzəli lətifələr və geniş yayılmış nağılların qəhrəmanı kimi tanınmış Molla Nəsrəddin tərəfindən deyilib.

Nəsrəddin obrazının ayrılmaz rəmzlərindən biri onun eşşəyidir ki, ya Nəsrəddin haqqındakı hekayətlərin baş surəti, ya da onun yol yoldaşı olaraq təsvir edilir. Və Nəsrəddin eşşəyinin üstündə adətən tərsinə oturmuş halda gedir. Onun bu cür yol getməsi çox sayda heykəllərdə də təcəssüm olunub ki, bu, çoxlarını təəccübləndirir və hətta bəzən çaş-baş salır. Amma yaxşıca götür-qoy etdikdən sonra, belə bir qənaətə gəlirsən ki, bu, məhz müasir fransız kulturoloqlarının yazdıqları irəliyə hərəkət-tərəqqi formulunu simvolizə edir. Molla Nəsrəddin keçmişi itirməmək və ya unutmamaq, həm də keçmişin məkanında vacib həyatverici məxəzləri aşkarlayıb bəhrələnmək üçün eşşəyini tərsinə minib qabağa sürür. Onun varlığa məhz belə baxışı və yanaşması, bu məşhur xalq sevimlisinin müdriklik dünyasının əsasını təşkil edir.

Göstərilənlərlə bağlı qeyd etmək istərdim ki, mən Molla Nəsrəddini xatırlayarkən, Mirzə Cəlilin Azərbaycan mədəniyyəti tarixində oynadığı böyük rol haqqında da danışmağa, sadəcə borcluyam. Axı, məhz o, 1906-cı ildə Tiflisdə eyni adlı nəşri – "Molla Nəsrəddin" satirik jurnalını buraxmağa başlayıb və bu məşhur dərgini müəyyən fasilələrlə 1931-ci ilə qədər yaşadıb çap etdirib. Molla Nəsrəddində olduğu kimi, Mirzə Cəlilin də əsas silahı söz idi. Nəsrəddin söz sayəsində hər bir situasiyadan – ən çətin vəziyyətlərdən belə qalib çıxır. O, sözdən həmişə virtuozcasına istifadə edir – bəzən yüngülvari məsxərəyə qoymaqla, bəzən də xəncər tək saplamaqla.

Nəsrəddinin əsas tənqid hədəfi – insan cəhaləti və onun dünyagörüşündəki məhdudluqdur. Mirzə Cəlil də məhz bu mənfi keyfiyyətləri həm jurnalında, həm də hekayələrində tənqid atəşinə tutub. O, həm də güldürür və güldürə-güldürə düşünməyə məcbur edir. Və sevindirici haldır ki, 2016-cı ildə İrena Aleksayte və Mahir Həmzəyevin Mirzə Cəlil yaradıcılığından ustalıqla etdikləri tərcümələr sayəsində, indi biz onun hekayələrini Litva dilində də oxumaqdan həzz alırıq.

İl yarım öncə İran əsilli Amerika yazarı və rəssamı, Kolumbiya universitetinin məzunu Payam Şərifi Vilnüsdə fəaliyyət göstərən Müasir incəsənət mərkəzində, əvvəlcə Tiflisdə, sonralar Təbrizdə və Bakıda nəşr olunmuş "Molla Nəsrəddin" satirik jurnalı barədə mühazirələr oxudu. O, bu zaman qeyd etdi ki, XX əsrin əvvəllərində azərbaycanlıların bir qismi yazıb-oxumağı bilmədiklərinə görə, jurnalın naşiri həyat gerçəkliklərinə olan əsas baxışlarını rəsmlərlə – özü də müxtəlif mövzulu karikaturaların köməyi ilə ifadə edib. Həm də

ki, jurnalın nəşr olunduğu müddət ərzində Azərbaycanda əlifba bir neçə dəfə dəyişdiyindən ərəb, latın və yaxud kiril hərfləri əsasında yaradılmış əlifbanı yazıb-oxuya bilən adamlar, bir müddət sonra yenidən savadsız vəziyyətə düşürdülər. Odur ki, əsas informasiyanı oxuculara müxtəlif rəsmlər və karikatura təsvirləri vasitəsi ilə ötürməklə naşir çox uğurlu bir ifadə üsulunu seçib. Və tədqirə layiq haldır ki, Cəlil Məmmədquluzadənin Litva dilində buraxılmış kitabına illüstrasiya kimi sözügedən jurnaldan götürülmüş rəsmlər də daxil edilib.

Jurnalın məzmununu tədqiq edərkən və ya sadəcə olaraq karikaturalara baxarkən, Mirzə Cəlilin ümumi məlumatlılığı, dünya hadisələrinin hansı kontekstdə baş tutması barədə bilgili olması, mənfi mahiyyətli hədəfləri satiranın iti oxları ilə amansızcasına oxladığına baxmayaraq, tənqid etdiyi bir sıra obyektlərə hüsn-rəğbətlə yanaşması adamı heyrətə gətirir.

Onun hekayələrinin və jurnalda yer almış karikaturaların bir sıra qəhrəmanları öz istək və iradələrinin əksinə olaraq "qaynayan siyasət qazanında" peyda olublar. Yazıçının əsərlərinin kiçik və ya böyük qəhrəmanlarının o "qazanda" nə cür "qaynadıqlarını" və bu zaman özlərini necə hiss etdiklərini Mirzə Cəlil böyük siyasətə baş vurmadan öz yaradıcılığında çox nadir bir ustalıqla təsvir etməyə nail olmuşdur. Ona görə də o "qazanda", fərqi yoxdur – eyni, oxşar, yaxud da tamamilə fərqli bir siyasətin "qaynamasından" asılı olmayaraq, həmin qəhrəmanlar bizim üçün də maraq kəsb edirlər. Əgər yürüdülən siyasət amansız olubsa, onda onun ağrı-acısı hər bir insana hansı coğrafi məkanda yaşamasından asılı olmayaraq, eyni dərəcədə şiddətlə toxunur (misallardan biri olaraq "Bəlkə də qaytardılar..." adlı hekayəni göstərmək olar). Çünki insani keyfiyyətlər – həm zəiflik, həm də nəciblik – hər yerdə və hər zaman bir-birinə bənzəyir...

Bu yerdə qeyd edək ki, daha sonralar – XX əsrin əvvəllərində yaşamış ədəbi qəhrəmanlar nəsli də dəfələrlə "qaynayan siyasət qazanına" düşüblər, fərqli ideoloji platformaların kəsişdiyi məkanda yaşamağa məcbur olaraq öz həyat problemlərini həll etməyə düçar olublar. Odur ki, həm də bu baxımdan Mirzə Cəlil yaradıcılığı hələ öz aktuallığını itirməyib. Xüsusən də Molla Nəsrəddin hikmətinin o düsturu ki, irəliləmə ilə bağlıdır: – geriyə rasional baxış irəliyə düzgün hərəkət etməyə təminat verir...

P.S: Məqalə C. Məmmədquluzadənin litva dilində nəşr olunmuş "Nigarançılıq" (*"Nerimas"*) adlı hekayələr kitabının 2017-ci il martın 10-da Vilnüs Universitetində keçirilmiş təqdimat mərasimində Litva karay türklərinin tanınmış xadimi Halina Kobetskaytenin etdiyi məruzə əsasında hazırlanıb.

Bakı, "525-ci qəzet", 29 aprel 2017-ci il, № 75.

IV FƏSİL

"KİTABİ-DƏDƏ QORQUD"UN BALTİK ÇEVİRMƏNLƏRİ

KƏLBƏCƏRDƏN LİTVAYA UZANAN DƏDƏ QORQUD YOLUNUN BƏLƏDÇİSİ

Azərbaycana böyük rəğbət bəsləmiş və milli mədəniyyətimizin Litvada tanıdılması sahəsində bir sıra mühüm xidmətlər göstərmiş nəcib insan, əsl ziyalı və nadir istedad sahibi olan litvalı şair Sigitas Geda (1943–2008) təəssüf ki, ölkəmizdə nə yazıçı, nə də tərcüməçi kimi yaxşı tanınmır. Odur ki, onun həyat və yaradıcılığı haqqında bəzi məqamları təqdim etməyi lazım bilirik.

Müasir Litva ədəbiyyatının klassiki Sigitas Gedanın şəxsiyyəti ilk növbədə qədim Azərbaycan ədəbiyyatının xaricdə tanıdılması baxımından – "Kitabi-Dədə Qorqud" eposunun Litva dilinə tərcüməçisi kimi mədəniyyətimiz üçün böyük önəm daşıyır (epos Litva dilinə ədəbiyyatşünas Vaqif Arzumanlı ilə birgə tərcümə edilib və 1978-ci ildə Vilnüsdə *"Vaga"* nəşriyyatında çapdan buraxılıb).



1. Şair, dramaturq və tərcüməçi Sigitas Geda. 2. "Kitabi-Dədə Qorqud"un Litva nəşri.

S. Geda Litva ədəbiyyatı tarixinə (XX əsrin son rübü – XXI əsrin əvvəlləri) özünəməxsus dəst-xətti və bənzərsiz yaradıcılıq yolu olan qüdrətli poeziya ustası, dramaturq, esseist, ədəbi tənqidçi və tərcüməçi olaraq daxil olub. O, 4 fevral 1943-cü ildə Litvanın Lazdiyay rayonunun Pateray kəndində dünyaya göz açıb. 1966-cı ildə Vilnüs Universitetinin Litva filologiyası fakültəsini bitirib. "İzlər" (*"Pėdos"*) adlı ilk şeirlər toplusu da 1966-cı ildə işıq üzü görüb. Həmin ildən başlayaraq Litvada 50-dən artıq kitabı çıxıb. Ona hələ sağlığında ikən canlı klassik, XX əsr Litva ədəbiyyatının ən elitar simalarından birisi olmaq

şərəfi nəsib olub. Başqa sözlə, hələ sağlığında özünə "poeziya məbədi" ucaldıb. Ədəbiyyat sahəsində Litvanın ən nüfuzlu ödüllərinin sahibidir. 1985-ci ildə ədəbiyyat üzrə Litva SSR-nin dövlət mükafatına, 1994-cü ildə mədəniyyət və incəsənət üzrə Litva Respublikasının milli mükafatına, 1998-ci ildə isə Baltik Assambleyasının ədəbi mükafatına layiq görülüb. 2002-ci ildə həmçinin ədəbiyyat üzrə Nobel mükafatına namizəd olub.

S. Geda yaradıcılığının mühüm bir qolunu Litva ədəbiyyatında indiyədək analoqu olmayan genişmiqyaslı və fundamental tərcüməçilik fəaliyyəti təşkil edir. Belə ki, o, bədii tərcümə sahəsində yeni bir məktəbin əsasını qoyaraq ədəbi tərcümənin inkişafında xüsusi rol oynayıb. Dünya xalqları ədəbiyyatından davamlı olaraq etdiyi vacib tərcümələrlə Litva ədəbiyyatını nəzərəçarpan dərəcədə zənginləşdirib. O, 30-dan artıq kitab tərcümə edib. Bu kitablar çox geniş bir coğrafiyanı – həm Qərb, həm də Şərq xalqları ədəbiyyatından götürülmüş əhəmiyyətli seçmələri əhatə edir.

S. Geda italyan ədəbiyyatından Aligyeri Dantenin şeirlərini, ingilis ədəbiyyatından Uilyam Şekspirin sonetlərini və Alan Aleksandr Milnenin nəsr seçmələrini, fransız ədəbiyyatından Şarl Pyer Bodler və Jan Nikolas Artur Rembonun poetik əsərlərini, alman və Avstriya ədəbiyyatından Novalis, Georg Trakl və Rayner Maria Rilkenin lirik seçmələrini, amerikalı şair və nasir Edgar Lee Mastersin epitafiyalar toplusunu *("Spoon River Anthology")*, polyak ədəbiyyatından Adam Mitskeviç, Konstanti İldefons Galçinski və Çeslav Miloşun kitablarını, rus ədəbiyyatından Marina Svetayeva, Korney Çukovski, Serqey Yesenin və İosif Brodskinin poeziyasını, eston ədəbiyyatından Yaan Kaplinskinin poeziya toplusunu doğma dilinə çevirib.

Şərq xalqları ədəbiyyatından isə klassik yapon poeziyasını (haykular və tankalar), qədim hind (sanskritdilli) ədəbiyyatından Pandit Bilhananın (XI əsr) sevgi şeirlərindən oluşan toplusunu, kürd ədəbiyyatından folklor seçmələrini, karay türklərinin ədəbiyyatından Simon Firkoviçin (1897–1982) şeirlərini, gürcü ədəbiyyatından Tariel Çanturiya poeziyasından seçmələri, erməni ədəbiyyatından Vahan Davtyanın poeziya toplusunu və erməni rahibi, yazıçı, filosof Qriqor Narekatsinin "Kədərli mahnılar kitabı"nı, farsdilli poeziyadan Ömər Xəyyamın rübailərini Litva dilinə tərcümə edib.

O, bununla yanaşı dünyanın ən böyük dini sivilizasiyalarına aid sakral kitabları da – "Əhdi-Ətiq"dən "Süleymanın Ezgilər Ezgisi"ni, Bibliyadan "Zəburlar kitabı"nı, ömrünün son illərində isə müqəddəs "Quran"ı Litva dilinə çevirərək nəşr etdirib.

S. Gedanın adı Litvanın ən yeni dövr tarixi səhifələrinə həm də vətənpərvər ruhlu cəfakeş sənətkar, azadlıq nəğməkarı və milli istiqlal şairi kimi yazılıb. Belə ki, o, 80-ci illərin sonunda başlanmış Litva milli dirçəliş hərəkatının öncüllərindən olub. Həmçinin, 3 iyun 1988-ci ildə Vilnüsdə fəaliyyətə başlamış Litva Xalq Cəbhəsi – *Sajūdis* təşkilatının yaradılması ilə bağlı ideyanı irəli sürmüş 35 nəfər məşhur Litva elm və incəsənət xadimlərindən ibarət təşəbbüs qrupunun üzvü olub. S. Geda *Sajūdis* hərəkatının xətti ilə 1989-cu ildə Litvadan SSRİ Ali Sovetinə xalq deputatı seçilib. Litva *Sajūdis* hərəkatı ümumxalq hərəkatın ideya bayrağı və beyin mərkəzi olaraq 11 mart 1990-cı ildə Litvanı Dövlət müstəqilliyinin bərpa olunmasına gətirib çıxarıb. Həmin dövrdə S. Geda Litva milli-azadlıq hərəkatına mühüm töhfələr verib, yaradıcılığında ifadə etdiyi milli idealları və tutduğu xalis ziyalı mövqeyini xalqın azadlıq uğrundakı mübarizə yolunda ortaya qoyub, istiqlal naminə savaşda xalqın önündə gedərək sənətkar borcunu şərəflə yerinə yetirib və bir sıra tarixi uğurlara imza atıb.

Qeyd etmək istərdim ki, ötən əsrin 80–90-cı illərində mənə S. Geda ilə yaxın dostluq münasibətləri qurmaq və yaradıcılıq əlaqələri saxlamaq şərəfi nəsib olub. Həmin əlaqələr çərçivəsində onunla görüşlərimiz zamanı "Kitabi-Dədə Qorqud"un tərcüməsi ilə bağlı dəfələrlə müzakirələr aparmış və fikir mübadiləsi etmişik. Mən S. Gedanın bədii tərcümə sahəsindəki fitri istedadının güclü nəfəsalmasını daxilən yaxından hiss etmişəm, onun olduqca zəngin yaradıcılıq təcrübəsi və geniş erudisiyasının şahidi olmuşam. Məhz o zaman məndə belə bir fikir yarandı ki, bu ədəbiyyat fədaisi "Kitabi-Dədə Qorqud"un tərcüməsinə yalnız istedad, bacarıq və biliyinə arxayın olaraq yanaşmayıb, dastanın Litva dilinə çevrilməsini həm Litva oxucuları, həm də türk mədəniyyəti qarşısında çox məsuliyyətli və şərəfli yaradıcılıq işi kimi öhdəsinə götürüb.

S. Geda "Kitabi-Dədə Qorqud"un tərcüməsinə başlamazdan öncə, Dədə Qorqud ellərinin qədim yurd yerləri ilə daha yaxından tanış olmaq üçün Azərbaycana təkrar səfərə gəlib (o, ilk dəfə Azərbaycanda və Gürcüstanda 1964–1966-cı illərdə olub, o vaxt Bakıda keçirilmiş Ümumittifaq tələbə-elmi konfransında Vilnüs Universitetinin Tarix-filologiya fakültəsinin tələbəsi olaraq iştirak edib). Eposun böyük hissəsini elə Azərbaycanda – qartallar yurdu qədim Kəlbəcərdə tərcümə edib.

S. Gedanın tərcümə prosesində yaşadığı duyğular, Azərbaycanın qədim keçmişi ilə bağlı təxəyyülündə baş qaldıran assosiativ refleksiyalar, yürütdüyü bədii fikir və poetik mühakimələr, qəlbindən keçən etnoloji və dini-fəlsəfi

düşüncələr onun 1992-ci ilin dekabrında Vilnüsdə litvaca çap etdirdiyi "Qafqaz səyahətlərim" adlı essesində öz parlaq bədii inikasını tapmışdır:

"...Bütün türklərin qədim eposu "Kitabi-Dədə Qorqud"u tərcümə edən zaman Türkiyə sərhəddindən çox da uzaq olmayan Kəlbəcərdə yaşayırdım ("Qorqud" bir sıra türk ləhcələrində "Korkut" kimi anılır ki, bu da bu adın Litva dilindəki tələffüzü ilə tamamilə səsləşir...). Günortadan sonra çimmək üçün dağlara qalxırdım, orada sanki mərmərdən hazırlanmış tabutun içi ilə axan Tərtər şırıldayırdı... Ətrafdakı açıq rəngli çay daşlarından yığıb çimmək üçün özümə qədim yunan vannasına bənzər yer düzəltmişdim. Orada rahatca uzanıb çayın üzərində salınmış və Makedoniyalı İsgəndər dönəmini xatırladan qədim tağbənd daş körpülərə baxırdım. Bu yerlərdən keçərək Şərqin ucsuz-bucaqsız çöllərinin sanki aralanmış nəhəng cəhəngləri tərəfindən tədricən sümürülüb udulan və beləliklə hər dəfə getdikcə gözdən itə-itə Hindistana qədər addımlayan qədim yunan və ya Roma qoşunlarının yürüşünü təsəvvürümə gətirirdim... Və bəzən mənə elə gəlirdi ki, hətta İsa peyğəmbər gəzən zaman əgər ayağını təsadüfən haradasa yaralamışdısa, həmin yer Qafqaz dağları olmalı idi...

Müqəddəs Yevangiliya da büsbütün Qafqazdadır.

Bəlkə də biz İsrailə can atmadığımız üçün kürdlər elə burada yaşayırlar...".[162]

Yeri düşmüşkən qeyd edək ki, "Qafqaz səyahətlərim" essesi S. Gedanın ən çox oxunan əsərlərindən biri olduğundan müəllifin sonralar buraxılmış kitablarında da çap edilib.[163]

S. Geda onu Azərbaycanda əhatə edən mühit və insanlardan aldığı zəngin təəssüratları, duyğu və assosiativ yozumları böyük ustalıqla "şeirləşdirmiş" və yaradıcılıq səfərindən qayıtdıqdan bir neçə il sonra – 1981-ci ildə çap etdirdiyi "Snayginas gölündə çiçəklənən alça ağacı" adlı kitabındakı "Qafqazda yazılmış şeirlər"[164] başlıqlı lirik silsilədə tərənnüm etmişdir. Göstərmək lazımdır ki, şair hələ 1964-cü ildə "Qafqazdan qayıdış" adlı fəlsəfi şeirlər silsiləsini yaratmışdı. Odur ki, onun Azərbaycan mövzulu lirik əsərləri Qafqaza həsr etdiyi poetik silsilənin vacib vektorunu təşkil edir.

S. Gedanın Azərbaycan ədəbiyyatı ilə yaradıcılıq əlaqələrinə aid daha bir neçə ədəbi faktı açıqlayıb vurğulamaq istərdik ki, o, "Kitabi-Dədə Qorqud"dan savayı, Xalq şairləri Səməd Vurğun və Rəsul Rza poeziyasından bəzi nümunələri[165] ("Şair nə tez qocaldın sən?", "Mən tələsmirəm", "Dostuma məktub" və b. şeirlər) öz tərcüməsində 70-ci illərdə Litva oxucularına təqdim edib. S. Geda

[162] Sigitas Geda. "Kelionės į Kaukazą". Vilnius, "Šiaurės Atėnai", 1992 m. kovo 4 d. Nr.48 (143), psl. 8.
[163] Sigitas Geda. Žydintys lubinai piliakalnių fone : septynių vasarų dienoraščiai (1992–1998). Vilnius, LR Seimo leidykla "Valstybės žinios", 1999 m. psl. 56–60. ISBN 9986-18-056-2.
[164] Sigitas Geda. "Žydinti slyva Snaigyno ežere". Vilnius, "Vaga", 1981 m., psl. 103–107.
[165] Vilnus, visuomeninis-politinis dienraštis "Tiesa", 1976 m. gruodžio 29 d. Nr. 306.

həmçinin Litva–Azərbaycan ədəbi-mədəni əlaqələri haqqında məqalələrin,[166] S. Vurğunun 1980-ci ildə Vilnüsdə litvaca çap olunmuş "Şərqin qapısı" adlı poeziya toplusu barədə ədəbi resenziyanın[167] və 1909–1920-ci illərdə Bakıda yaşayıb-yaratmış Litva ədəbi klassiki Vintsas Kreveyə həsr etdiyi fəlsəfi qeydlərin müəllifidir. Azərbaycan tarixinə, ədəbiyyatına və mədəniyyətinə ömrünün sonuna kimi maraq və məhəbbət göstərən ədəbiyyat aləminin bu nəhəngi etnokultoroloji dərərlərimizi Litvada yaymaq sahəsində olduqca faydalı işlər görüb...

S. Geda 12 dekabr 2008-ci ildə vəfat edib və Vilnüsdəki Antakalnis Fəxri xiyabanında dəfn olunub. 2018-ci ilin sentyabr ayında Vilnüsün Yustinişkes mikrorayonunda S. Gedanın adını daşıyan alleyanın açılışı olub.

[166] Sigitas Geda. "Azerbaidžanietis rašo lietuviškai". Vilnius, "Literatūra ir menas", 1976 m. rugpjučio 28 d. Nr. 35.
[167] Literatūros panorama – 80. Vilnius, "Vaga", 1981, psl. 261–263.

FOLKLORUMUZUN ŞAH ƏSƏRİNİN LATIŞ MÜTƏRCİMİ

"Kitabi-Dədə Qorqud" eposu latış dilində indiyədək ayrı-ayrı illərdə iki dəfə nəşr olunub. Folklorumuzun bu şah əsərini ilk dəfə 1993-cü ildə Riqada *"Liesma"* nəşriyyatı çap edib.[168]

Dastanın latış dilinə tərcüməsinin müəllifi ünlü latış ədibi Uldis Berzinşdir (1944–2021). Mən bu sənətkarın adının qarşısında onun həyatda haqlı olaraq daşıdığı bir çox titulları bilərəkdən yazmadım. Halbuki ona aid bir sıra epitetləri – çağdaş latış ədəbiyyatının korifeyi, görkəmli şair, gözəl esseist, poliqlot və virtuoz tərcüməçi, şərqşünas alim (türkoloq, iranşünas, ərəbşünas) və tanınmış linqvist araşdırmaçı olmasını, Latviyanın Zinaida Lazda[169] və Aleksandrs Çaks[170] adına poeziya ödüllərinə, Baltik Assambleyası və Spidola ədəbi mükafatlarına layiq görülməsini, həmçinin Latviya dövlətinin ən yüksək ordeni Üç Ulduzdan tutmuş Latviya Elmlər Akademiyasının fəxri akademikinə qədər bir sıra digər fəxri adları, mükafat və titullarını sadalayıb yazmaq olardı.



1. Latış şairi və tərcüməçi Uldis Berzinş. 2. "Kitabi-Dədə Qorqud"un latış dilində nəşrinin görüntüsü.

Amma düşünürəm ki, ədəbiyyatımızın böyük dostu və ustad tərcüməçi kimi tanınan U. Berzinşi Azərbaycan mədəni ictimaiyyətinə geniş təqdim etməyə ehtiyac yoxdur. Çünki o, çoxdandır ki, Latviya və Azərbaycan arasında davamlı olaraq çalışan etibarlı və möhtəşəm bir mədəniyyət körpüsünün

[168] Mana vectēva Korkuda grāmata. Rīga, "Liesma", 1993, 246 lpp. ISBN 5-410-00699-2.
[169] Məşhur latış şairi və ictimai xadimi Zinaida Lazdanın (1902–1957) şərəfinə təsis edilmiş ədəbi mükafat.
[170] Latış şairi və yazıçı Aleksandrs Çaksın (1901–1950) şərəfinə təsis edilmiş ədəbi mükafat. Əsl soyadı Çadaraynisdir.

qurucusu olaraq ədəbi-mədəni əlaqələrimizin ən yüksək dəyərləri pilləsinə ucalıb. Həm də Latviya–Azərbaycan mədəni əlaqələri müstəvisində yarım əsrdən artıq Azərbaycan ədəbiyyatının Böyük elçisi missiyasını məsuliyyətlə həyata keçirərək xalqımızın mədəniyyətinə şərəflə xidmət edib.

U. Berzinş Latviyada doğulub Avropa dəyərləri mühitində formalaşsa da, bütün mənalı ömrünü əsasən Şərq mədəniyyətinə həsr edib. O, 17 may 1944-cü ildə o zaman Hitler Almaniyasının işğalı altında olan və Reyxkomissarlığın Ostland inzibati ərazi dairəsinə daxil edilən Latviyanın paytaxtı Riqada dünyaya gəlib. 1962–1964-cü illərdə Peteris Stuçka adına Latviya Dövlət Universitetində latış filologiyası fakültəsində təhsil alıb.

U. Berzinş "Kitabi-Dədə Qorqud" eposu ilə ilk dəfə gənclik illərində – 1968–1971-ci illərdə Andrey Jdanov adına Leninqrad Universiteti Şərqşünaslıq fakültəsinin Türk filologiyası şöbəsində oxuyarkən tanış olub. Daha doğrusu, onu dastanla rus şərqşünas alimi, türkoloq və tərcüməçi Virineya (Viktoriya) Qarbuzova (1914–2002) tanış edib. V. Qarbuzova 1946-cı ildən sözügedən Universitetin Şərqşünaslıq fakültəsinin müəllimi və orta əsrlər Türkiyə ədəbiyyatı üzrə aparıcı mütəxəssisi kimi, U. Berzinşlə o vaxt əlavə məşğələlər aparıb (o, 1979-cu ildən həm də bu Universitetin Türkologiya kafedrasının professoru olub). Məhz o dövrdə U. Berzinşdə "Kitabi-Dədə Qorqud" abidəsinə böyük maraq oyanıb və o, dastanı latış dilinə tərcümə etmək fikrinə düşüb. Odur ki, U. Berzinş eposu hələ tələbəlik illərindən tərcümə etməyə başlayıb və müəyyən fasilələrlə tərcümə prosesini 20 ilə başa çatdırıb. Dastandan ilk tərcüməni – "Duxa Qoca oğlu Dəli Domrulun boyu"nu 1969-cu ildə dərc etdirib. Bu boy həmçinin hələ sovet dönəmində Latviya televiziyasında səhnələşdirilib və tamaşaçılar tərəfindən maraqla qarşılanıb.[171]

U. Berzinş "Kitabi-Dədə Qorqud"dan savayı, həmçinin Rəsul Rzanın "Rənglər" silsiləsini,[172] Əkrəm Əylislinin "Adamlar və ağaclar" trilogiyasını[173] latışcaya çevirərək nəşr etdirib. Azərbaycan poeziyasından seçmələr onun tərcüməsində "Poeziya günü"[174] və "Biz od-atəşin bir parçasıyıq"[175] adlı toplularda dərc olunub. O, Mikayıl Müşfiq, Səməd Vurğun, Məmməd Araz, Ramiz Rövşən, Vaqif Səmədoğlu, Fikrət Qoca, Vaqif Nəsib, İsa İsmayılzadə, Ələkbər Salahzadə, Çingiz Əlioğlu, Məmməd İsmayıl və Pərvinin[176] əsərlərini bədii tərcümə yolu ilə latış mədəniyyəti dünyasına gətirib, Mirzə Ələkbər Sabirdən

[171] Уалис Берзиньш: "Намерен сделать сумасшедшую попытку перевести "Кяпяняк ганаддары". Баку, новостной портал www.day.az , 20 января 2013 г. Адрес публикации: http://news.day.az/culture/378723.html
[172] R. Rza. "Krāsas". Rīga, "Liesma", 1972, 118 lpp.
[173] E. Eilisli. "Cilvēki un koki". Rīga, "Liesma", 1977.
[174] Dzejas diena. Rīga, "Liesma", 1971 (No azerbaidžāņu dzejas – lpp. 254–285).
[175] Mēs esam uguns daļa. (Azerbaidžāņu dzejas izlase). No azerbaidžāņu valodas tulkoto Uldis Bērziņš. Priekšvārds E. Eilisli. Sastādījis A. Babajevs. Ilustrējis mākslinieks Aleksandrs Stankevičs. Rīga, "Liesma", 1977, 182 lpp.
[176] Pervīna Nuralijeva. "Çarəsiz yalan". Hekayə. Rīga, Tuvojas festivāls "Prozas lasījumi 2013".

iqtibas edərək qəsidələr yazıb[177] və Azərbaycanla bağlı digər önəmli yaradıcılıq işləri görüb.

U. Berzinşin tərcümə etdiyi "Biz od-atəşin bir parçasıyıq" poeziya toplusunun və "Quran"ın latışca nəşrinin görüntüləri.

U. Berzinş yalnız Azərbaycan mədəniyyətinə deyil, həm də geniş türk dünyası dəyərlərinə bağlı bir sənətkar kimi tanınıb. O, latış şairi Peters Bruverislə birgə Türkiyə şairlərinin poeziya toplusunu, Maris Çaklays, Yanis Ropkelnis və Nora Kalna ilə birlikdə türkmən ədəbiyyatının klassiki Məhtimqulunun (1733–1813) əsərlərini, türk şairi Fazıl Hüsnü Dağlarcanın iki şeir kitabını, Kıbrıs türk ədəbiyyatından Fikrət Dəmirağın şeirlərini latış dilinə çevirərək çap etdirib. Həmçinin tatar və çuvaş türk yazarlarının əsərlərini doğma dilinə çevirib.

Bütün bunlarla yanaşı, U. Berzinş digər dünya xalqları ədəbiyyatından – Qərb və Şərq yazıçılarının əsərlərindən, keçmiş SSRİ xalqları ədəbiyyatından, eləcə də qutsal kitablardan – "Tövrat" və "İncil"dən latışcaya etdiyi çox sayda tərcümələrin müəllifidir. Bu tərcümələrdən Sədi Şirazinin məşhur "Gülüstan" əsərini,[178] Bibliyadan çevirdiyi bir sıra əski Ahit kitabları – 150 dini nəğmədən (mədh və dualardan) ibarət Psalmlar (Zəburlar) toplusunu, həzrəti Əyyubun, müqəddəs Yunusun və Ekklesiastın (Qüds kralı Koheletin) sakral kitablarını, həzrəti Süleymanın müdrik kəlamlar toplusunu və s. kitabları göstərmək olar. 2011-ci ildə isə U. Berzinşin tərcüməsində müqəddəs "Quran" latışca nəşr olunub yayımlanıb.[179]

Uldis Berzinş 24 mart 2021-ci ildə Riqada vəfat edib.

[177] Uldis Bērziņš. Poētisms baltkrievs (Dzeja). Rīga, "Liesma", 1984, lpp. 26.
[178] Saadi. "Rožu dārzs". Rīga, "Liesma", 1983.
[179] Korāns. Tulkojis U. Bērziņš. Mākslinieks Juris Petraškevičs. Rīga, "Neptuns", 2011, 596 lpp. ISBN 978-9984-807-5.

EPOSUN ESTON TƏRCÜMƏÇİLƏRİ CÜTLÜYÜ

"Kitabi-Dədə Qorqud" eposu eston dilində 2008-ci ildə Tallində işıq üzü görüb.[180] Dastanı eston dilinə tanınmış tərcüməçi Anneli Pekkonen və Estoniyada yaşayan ziyalı həmvətənimiz Vidadi Məmmədov birgə tərcümə ediblər. Tərcümənin təşəbbüskarı, işin təşkilatçısı, kitabın tərtibatçısı və xüsusi redaktoru V. Məmmədovdur. Epos bu tərcüməçilərin özəl *"Kiil"* nəşriyyatı tərəfindən buraxılıb.

Mütərcimlər eposun tərcüməsi üzərində tələsmədən, estonlara məxsus xüsusi bir təmkinlə, işə böyük qayğı və məsuliyyətlə yanaşaraq uzun illər müştərək çalışıblar. Bu, V. Məmmədovun Estoniyada rusca buraxılan *"Vesti – Nedelya plyus"* həftəliyinə hələ 2000-ci ildə verdiyi "Əlində qılınc yox, musiqi aləti tutmuş qəhrəmanı xoşlayıram" başlıqlı müsahibədə də qeyd olunub. Boris Tux adlı estoniyalı yazıçı və jurnalistin apardığı bu müsahibədə V. Məmmədov göstərir ki, "...hazırda Anneli Pekkonen ilə birgə "Dədə Qorqud" eposunun estoncaya tərcüməsi üzrərində işləyirik. Dastan 12 boydan ibarətdir. Həm nəsrlə, həm də nəzmlə qoşulub. Böyük qismi nəsrlə, baş qəhrəmanın monoloqları və digər deyimlər isə nəzmlə yazılıb. 1300 ilə yaxın yaşı var. Dastanın yubileyi YUNESKO-nun əlamətdar tarixlər təqviminə salınıb. Qorqudun Bakıda düzənlənmiş 1300 illik yubiley tədbirinə bütün türkdilli dövlətlərin başçıları qatılmışdı. Eposun nadir xüsusiyyəti ondan ibarətdir ki, onun baş qəhrəmanı əli yalın qılınclı böyük sərkərdə deyil, qopuzundan ayrılmayan ulu xalq tərənnümçüsüdür...".[181]

Beləliklə, bu müsahibəyə istinadən demək olar ki, "Kitabi-Dədə Qorqudun" estoncaya çevrilib nəşrə hazırlanması ilə bağlı yaradıcılıq layihəsi uzun bir müddət ərzində – 2000–2008-ci illərdə gerçəkləşdirilib. Görünür ki, tərcüməçilər bəzən hər cümlənin, hər misranın üzərində saatlarla, hətta günlərlə işləyiblər.

Tərcümənin Estoniyanın oxucu dairələrində yayımlanması ilə əlaqədar belə bir ədəbi faktı da göstərmək lazımdır ki, mütərcimlər dastandan iki boyun tərcüməsini hələ əsərin kitab şəklində buraxılmasına qədər ədəbi mətbuatda eston oxucularına təqdim ediblər. Belə ki, dastanın "Dirsə xan oğlu Buğac xan boyu" və "Basatın Təpəgözü öldürdüyü boy" başlıqlı iki qolu ilk dəfə Estoniyada çıxan

[180] Dädä Gorgudi raamat (eeposed). Tõlkinud Annely Pekkonen ja Vidadi Mamedov. Eessõna: Andres Herkel. Järelsõna: Annely Pekkonen. Illustreerinud Fexreddin Seyfeddinoğlu. Kujundanud Merle Moorlat. Tallinn, "Kirjastus Kiil", 2008, 270 lk. ISBN 978-9949-15-611-5.
[181] Видади Мамедов: "Мне нравится герой, у которого в руке не меч, а музыкальный инструмент". Таллин, еженедельник "Вести – Неделя плюс", 4 августа 2000 г., № 31.



1. "Kitabi-Dədə Qorqud" un eston nəşrinin üz qabığı. 2. Estoniyalı tərcüməçi Anneli Pekkonen.

"Vikerkaar" adlı jurnalın 2004-cü ildə çıxmış 12-ci sayında çap olunub.[182] Estoniya Yazıçılar İttifaqının aylıq ədəbi-mədəni nəşri olaraq 1986-cı ildən Tallində nəşr edilən bu jurnalda boyların tərcüməsi "Qorqud atanın kitabından parçalar" sərlövhəsi altında verilib. Jurnalda həmçinin dastan haqqında Anneli Pekkonenin yazdığı "Qədim əsrlərin oğuzları. Qorqud atanın kitabının dərk olunması" başlıqlı tanıtım məqaləsi də yer alıb.[183] Elmi-populyar məzmunlu bu məqalə bir sıra qorqudşünas alimlərin əsərlərinə istinadən hazırlanıb. Müəllif məqalədə oxucunu darıxmağa qoymur, tarixi faktlar və konkret araşdırmalar əsasında danışır, təhlilləri məntiqi və obyektivdir.

"Kitabi-Dədə Qorqud"un nəşri ilə bağlı, şübhəsiz ki, bizi ilk növbədə maraqlandıran sual budur ki, dastan eston dilinə necə tərcümə olunub?! Tərcüməçi V. Məmmədovla eposun estonca nəşri, eston dilinə tərcümənin spesifik xüsusiyyətləri, qarşıya çıxan çətinliklər və tapılan çıxış yolları barədə 2016-cı ildə apardığımız yazışmaların birində o, suallarımızı belə cavabladı:

"Dastanı eston dilinə çevirməzdən əvvəl tərcüməni hansı oxucu dairəsi üçün edəcəyimiz barədə fikirləşdik. Əlbəttə, ən asan yol eposun estonca sadələşdirilmiş mətnini hazırlamaq idi. Belə olan halda, sonsuz sayda ədəbiyyat toplamaq, qalaq-qalaq kitabları vərəqləmək, saysız-hesabsız tədqiqat əsərlərini oxuyub müqayisələr aparmaq və daha nələr, nələr üstündə baş sındırmaq lazım gəlməzdi. Lakin biz akademik tərcümə strategiyasını seçdik. Çalışdıq ki, dil baxımından zəngin bədii-poetik palitrası ilə seçilən abidəni estoncaya tam dolğunluğu və obrazlı dillə çevirək. Tərcümə zamanı deyimlərdəki (söyləmələr,

[182] Isa Gorgudi raamat. Katkendeid. "Lugu Dirsä-khaani pojast Bugatš-beist". "Lugu sellest, kuidas Basat tappis Täpägözi". Aseri keelest tõlkinud Annely Pekkonen ja Vidadi Mamedov. Tallinn, Eesti Kirjanike Liidu ajakiri "Vikerkaar", 2004, № 12, lk. 15-41. ISSN 0234-8160.

[183] Annely Pekkonen. "Oguuside aastasada". Sissevaade "Isa Gorgudi raamatusse". *Ibid.*, lk. 41–52.

oxşamalar və s.) intonasiya və ritmlərin, heca sayının və qafiyələrin saxlanılmasına xüsusi diqqət yetirdik. Bu, əlbəttə ki, çox çətin bir iş idi və buna tam nail olmaq zənnimcə, qeyri-mümkündür.

Ümumiyyətlə, nəzərdən qaçırmaq olmaz ki, "Kitabi-Dədə Qorqud"un mətni ilk baxışdan asan göründüyü qədər də çətindir. Xüsusən də, başqa dilə çevirmək üçün. Üstəlik, eston dilinin müstəsna dərəcədə özünəməxsusluqları vardır ki, bu da şübhəsiz, tərcüməni asanlaşdıran faktorlardan deyil. Misal üçün qeyd edək ki, eston dilində ismin 14 halı vardır. Həm də ki, bu dildə xeyli sayda diftonqlar, hətta bir sözdə 4, 5 və yaxud 6 saitin birləşik yazılıb tələffüz edildiyi leksik vahidlər vardır. Odur ki, şeirləri eston dilinə tərcümə edən zaman heca sayını saxlamaq və yaxud Azərbaycan poeziyasına xas olan daxili qafiyələri qorumaq cəhdi həmişə uğurla nəticələnmir. Amma biz çalışdıq ki, "Kitabi-Dədə Qorqud"u eston dilinə Oğuz-türk ellərinin atası Dədə Qorquda layiq səviyyədə çevirək".

Dastanın akademik tərcümə strategiyası

Qeyd edək ki, A. Pekkonen həm istedadlı ədəbiyyatşünas və tərcüməçi, həm də ana dilimizin bilicisi olaraq Azərbaycan ədəbiyyatına və etnokulturoloji dəyərlərinə çox yaxın bir ziyalıdır. Bu, onun "Kitabi-Dədə Qorqud"u estoncaya uğurla tərcümə etməsi ilə yanaşı, həm də kitaba yazdığı geniş və dərin məzmunlu sözardından (estonca – *Järelsõna*) aydınca görünüb təsdiqlənir. Sözardının məzmun və mahiyyəti sübut edir ki, A. Pekkonen Azərbaycan və dünya qorqudşünasları tərəfindən eposun müfəssəl öyrənilib yayımlanması sahəsində indiyədək Avropa xalqlarının dillərinə edilmiş tərcümələrlə, ən müxtəlif səpkilərdə və kəsimlərdə aparılmış elmi araşdırmalarla, çeşidli təhlillərlə, həmçinin bu sahədə hazırlanmış mühüm akademik nəşrlər və digər tədqiqat işləri ilə yaxından tanışdır.

A. Pekkonen sözardını hazırlayan zaman ünlü tərcüməçilər və nüfuzlu qorqudşünaslar – Bakı univestetinin professoru Samət Əlizadə,[184] ədəbiyyatşünas professor Azad Nəbiyev,[185] folklorşünas professor Xalıq Koroğlu,[186] folklorşünas alim Bəhlul Abdullayev,[187] tarixçi, folklorşünas və türkoloq professor Mehmet Fahrettin Kırzıoğlu, İstanbul Universitetinin Fəxri doktoru Orhan Şaik Gökyay,[188] şərqşünas alim Henrix Fridrix fon Dits, italyan

[184] S. Əlizadə. Tarixin yenilməz kitabı. Kitabi-Dədə Qorqud. Bakı, 1999.

[185] A Nəbiyev. Qəhrəmanlıq eposumuzun ölməz abidəsi. Kitabi-Dədə Qorqud dastanı. (tərtib edəni Məmməd Əliyev). Bakı, "Çaşıoğlu", 2000. 340 s.

[186] Х. Короглы. Азербайджанский героический эпос. В книге: Х. Короглы, А.Набиев. Баку, "Языгы", 1996.– 395 с.

[187] Bəhlul Abdulla. "Kitabi-Dədə Qorqud"da rəng simvolikası. Kitabi-Dədə Qorqud. Bakı, "Çaşıoğlu", 2004. 144 s.

[188] "Dede Korkut". İstanbul, 1938.

şərqşünası – türkşünas, iranşünas və ərəbşünas tədqiqatçı Ettore Rossi,[189] ingilisdilli türkoloq alim, Oksford Universitetinin professoru Geoffrey Levis,[190] şərqşünas rus akademikləri Vasili Bartold [191] və Viktor Jirmunski,[192] folklorşünas rus professorları Eliazar Meletinski[193] və Serqey Neklyudov,[194] Rusiya Elmlər Akademiyası Şərqşünaslıq institunun əməkdaşı, türkoloq və qorqudşünas alim Tatyana Anikeeva[195] və digər müəlliflərin "Kitabi-Dədə Qorqud"un tədqiqatı ilə bağlı işləyib ortaya qoyduqları qaynaqlardan yaradıcı surətdə bəhrələnib. Odur ki, 33 səhifəlik həmin sözardını heç bir tərəddüd etmədən dastan barədə elmi səviyyədə hazırlanmış əhatəli araşdırma kimi qəbul etmək olar.

Dastanın eston nəşri "Kitabi-Dədə Qorqud"un söz lüğətinə aid çox geniş spektri əhatə edən 122 adda şərh və izahlarla təmin olunub. Çox anlaşıqlı və hərtərəfli əsaslandırılmış şəkildə təqdim edilmiş bu izahlar eposun tərcüməçiləri tərəfindən yazılıb. İzahları əsaslandıran mənbələrdən məlum olur ki, A. Pekkonen və V. Məmmədov onları hazırlayarkən 20 müəllifdən artıq qorqudşünasın və ilahiyyat üzrə alimin tədqiqat işlərinə əsaslanıblar. Bunun nəticəsi olaraq işin səviyyəsindən aşkar görünür ki, izahlar böyük məsuliyyətlə və xalis peşəkarlıqla hazırlanıb. V. Məmmədovun öz sözləri ilə desək, "onlar çox ciddi şəkildə çalışıblar ki, eston oxucusu əsəri oxuyarkən onun "Bu nə deməkdir?" sualı cavabsız qalmasın".

V. Məmmədovun fikrincə, "Kitabi-Dədə Qorqud"un tərcüməsi həm də çox önəmli bir etnik-siyasi amala xidmət edir. Belə ki, dastanla tanış olan daha bir xalq – estonlar bizim Qafqaz aborigenlərindən olduğumuzu biləcəklər".[196]

[189] Rossi, Ettore. Kitabi Dede Qorqut. Racconti epico-cavallereschi dei Turchi Oguz tradotti e annotati. Città del Vaticano, 1952. 364 s.

[190] Geoffrey Lewis, ed. (1974). The Book of Dede Korkut. Harmondsworth, UK: Penguin Books.

[191] Книга моего деда Коркута. Огузский героический эпос. Перевод академика В. В. Бартольда. Москва–Ленинград, издательство Академии Наук СССР, 1962 г. (серия Литературные памятники).

[192] В. Жирмунский. Огузский героический эпос и "Книга Коркута". // Книга моего деда Коркута. Огузский героический эпос // Пер. акад. В. В. Бартольда. Сост. В. М. Жирмунский и А. Н. Кононов. М. Л. Изд. АН СССР, 1962.

[193] Е. М. Мелетинский. "Введение в историческую поэтику эпоса и романа". Москва, "Наука". 1986. 318 стр.

[194] С. Ю. Неклюдов. Историч. взаимосвязи тюрко-монгольских фольклорных традиций и проблема восточных влияний в европейском эпосе. Типология и взаимосвязи средневековых литератур Востока и Запада. М., 1972.

[195] Т. А. Аникеева. Устные элементы в турецкой народной повести (к вопросу об устной и книжной традиции в турецкой народной повести). Altaica IX: Сб. ст. и материалов. М., ИВ РАН, 2004;
Т. А. Аникеева Элементы древнетюркской картины мира (на примере огузского героич. эпоса "Китаб-и дедем Коркут"). Тюркологический сборник. 2003–2004; Тюркские народы в древности и средневековье. Ин-т востоковедения; С. – Петерб. филиал. М., Вост. лит., 2005.

[196] Tuncay. "Dədə Qorqud"un tərcüməsi siyasi amala da xidmət edir". Estoniyada yaşayan həmyerlimiz Vidadi Məmmədovla müsahibə. Bakı, "Ayna", 12 aprel 2008-ci il, № 30, səh. 7.

Bənzər dəyərlərə söykənən fəaliyyət

Tərcüməçilərin yaradıcılığı ilə bağlı vurğulamaq istərdik ki, A. Pekkonen və V. Məmmədov uzun illərdir ki, Estoniyanın ədəbi-mədəni və ictimai həyatında öz dəst-xətti olan və az-az rast gəlinən fəal cütlük – tandem olaraq iştirak edirlər. Onları yaradıcılıq cəhətdən ilk növbədə bir-birinə yaxınlaşdıran mənəvi amillərdən biri – fin əsilli Anneli xanımın Estoniya vətəndaşı olaraq Azərbaycana bəslədiyi hörmət hissləri, dilimizə və ədəbiyyatımıza olan yaradıcılıq marağı, azərbaycanlı Vidadi bəyin isə ana dilimizlə yanaşı, eston dili və mədəniyyətinə göstərdiyi yüksək diqqət, həqiqi vətəndaş və əsl ziyalı münasibətidir.

Bununla yanaşı onları həyatda ideya və məslək silahdaşlarına çevirən bir çox ortaq dəyərlər, oxşar ictimai baxışlar, əqidə birliyi və digər mənəvi ümumiliklər vardır. Bu ümumiliklər bu tandemin milli və ümumbəşəri dəyərlərə eyni bucaq altında göstərdikləri sayğını, müstəqil Azərbaycan və Estoniyanın mədəni tərəqqisi naminə gördükləri birgə işləri əhatə edir, həm də onların demokratik ideallara, seçim və fəaliyyət azadlığına, vətəndaş cəmiyyəti quruculuğunun baza prinsiplərinə eyni platformadan yanaşmalarını əks etdirir.

Burda bir lirik haşiyə çıxıb göstərmək istərdik ki, bu tandemin yaradıcılıq münasibətləri öncə əsrarəngsiz ədəbiyyat dünyasından və gözəl poetik duyğular məkanından kök ataraq rişələnib. Məmnunluq hissi ilə qeyd edək ki, bir müddət sonra həmin münasibətlər onların arasında qarşılıqlı sevgi hisslərini yaradıb, Vidadi bəylə Anneli xanımın qəlblərini bir-birinə bağlayıb, yaradıcılıq yolları kimi həyat yollarını da birləşdirib. Və onlar əl-ələ verərək həyatın mürəkkəb və çətin yollarına çıxıblar. Gün gəldi ki, bu cütlüyün qəlbi övlad sevincinə büründü – Sevinc və Humay adlı iki gözəl qız övladını böyütdülər...

A. Pekkonenin Azərbaycan ədəbiyyatı ilə yaradıcılıq əlaqələrinin digər qütblərini və əhatə dairəsini göstərmək məqsədi ilə qeyd etmək istərdik ki, o, "Kitab-Dədə Qorqud" eposundan əlavə, məşhur detektiv yazıçı Çingiz Abdullayevin 3 kitabını – "Mənim gözəl alibim",[197] "Vahimələr tuneli"[198] və "Özün üçün bir dünya yarat"[199] adlı kriminal romanları 2008–2010-cu illərdə ruscadan eston dilinə tərcümə edib. Həmçinin Qurban Səidin "Əli və Nino" romanını estoncaya çevirərək 2014-cü ildə Tallində nəşr etdirib.[200] Yeri düşmüşkən,

[197] Tšingiz Abdullajev. "Minu võrratu alibi" (romaan) Tõlkinud Annely Pekkonen; toimetanud Mae Taal; kujundanud Merle Moorlat. Tallinn, "Kirjastus Kiil", 2008. – 191 lk. ISBN 978-9949-158-38-6.

[198] Tšingiz Abdullajev. "Vaimude tunnel" (romaan). Tõlkinud Annely Pekkonen; toimetanud Mae Taal; kujundanud Merle Moorlat. Tallinn, "Kirjastus Kiil", 2008. – 136 lk. ISBN 978-9949-158-37-9.

[199] Tšingiz Abdullajev. "Pimesikumäng". Vene keelest tõlkinud Annely Pekkonen; toimetanud Mae Taal; kujundanud Vidadi Mamedov. Tallinn, "Kirjastus Kiil", 2010. – 178 lk. ISBN 978-9949-213-12-2.

[200] Kurban Said. Ali ja Nino (romaan). Tõlkinud Annely Pekkonen; kujundanud Angelika Schneider; toimetanud Mae Taal. Tallinn, "Tammeraamat", 2014. – 348 lk. ISBN 978-9949-526-52-9.

Ç. Abdullayevin tərcüməçi Mae Taal tərəfindən çevrilmiş daha bir kitabı – "Demək olar, ağıla sığmayan qətl" [201] romanı 2010-cu ildə eston dilində işıq üzü görüb. V. Məmmədov isə bütün bu kitabların nəşr olunması işində tərtibatçı və xüsusi redaktor qismində iştirak edib.

"Kitabi-Dədə Qorqud"un eston tərcüməsinin həmmüəllifi olan Vidadi Məmmədovun həyat və fəaliyyəti haqqında bəzi bilgiləri təqdim edərək qeyd edək ki, o, 3 sentyabr 1959-cu ildə Füzuli rayonunun Veysəlli kəndində doğulub. Hələ SSRİ dönəmindən – 1984-cü ildən Estoniyada yaşayır. Bu ölkənin vətəndaşıdır. 1990-cı ildə Tallin Texniki universitetini bitirib, iqtisadçı-mühəndisdir. Estoniyada Azərbaycan diasporunun tanınmış xadimlərindən biridir. 1988-ci ildə burada ilk Azərbaycan diaspora təşkilatını – "Ocaq" Cəmiyyətini yaradan təşəbbüs qrupunun üzvü, həmçinin 1989-cu ilin dekabrından 1994-cü ilə qədər Tallində müəyyən fasilələrlə nəşr edilən "Ocaq" qəzetinin redaktoru olub, 1998-ci ildən isə Estoniyada fəaliyyət göstərən *"Balti – Kaukaasia"* Xeyriyyə cəmiyyətinə rəhbərlik edib.

Dilçi-araşdırmaçı və tərcüməçi Vidadi Məmmədov.

V. Məmmədov eyni zamanda uzun illərdir ki, Azərbaycan–Estoniya ədəbi-mədəni əlaqələrini genişləndirib inkişaf etdirmək üçün konkret işlər görür və uğurlu layihələr həyata keçirir. Onun imza atdığı mühüm işlərdən biri 2000-ci ildə "Eston Dili Fondu" (*"Eesti Keele Sihtasutus"*) tərəfindən Tallində buraxılmış müxtəsər "Azərbaycan-eston lüğəti"dir.[202] V. Məmmədov ədəbi-mədəni əlaqələrimiz tarixində ilk dəfə olaraq hazırlanıb çap edilmiş bu qiymətli və vacib lüğətin müəllifi kimi Estoniyada yaxşı tanınır.

[201] Tšingiz Abdullajev. Peaaegu uskumatu mõrv. Tõlkinud Mae Taal; kujundanud Vidadi Mamedov. Tallinn, "Kirjastus Kiil", 2010. – 189 lk. ISBN 978-9949-213-13-9.

[202] Aseri-eesti sõnaraamat. Azəri-eston lüğəti. Autor: Vidadi Mamedov. Tallinn. "Eesti Keele Sihtasutus", 2000. – 303 lk. ISBN 9985-9260-5-6.

1–2. "Azərbaycanca–estonca lüğət" və "Estonca–azərbaycanca sözlük" nəşrlərinin görüntüləri.

Geniş istifadəçi dairəsi üçün nəzərdə tutulan və 12 min sözdən ibarət olan bu lüğətin ərsəyə gəlməsində müəllifə çox vacib akademik yardım göstərənlər arasında A. Pekkonen və eston şairi Li Seppel olublar. V. Məmmədov 2000-ci ildə Estoniyanın *"Vesti – Nedelya plyus"* həftəliyinə verdiyi müsahibədə bu məqamı belə vurğulayıb: "Lüğətin üzərində işləyərkən, bir mərhələdə ağır yaradıcılıq böhranına düşmüşdüm. Və o zaman bu işi kənara atmaq istəyirdim. Amma dostlar köməyə gəldilər... Anneli Pekkonen mənə böyük yardım göstərdi. Qiymətli məsləhətlər verən şəxslər arasında şair Li Seppel və başqaları vardı... Lüğətin ərsəyə gətirilməsi üç ilə yaxın vaxt çəkdi...".[203]

Görünür, həm də bu məqama görədir ki, V. Məmmədov sözügedən nəşrə yazdığı müqəddimədə "lüğətin hazırlanmasında əvəzsiz köməyi olmuş, Azərbaycan dili və ədəbiyyatının böyük pərəstişkarı Anneli Pekkonenə [...] və əməyi keçən digər şəxslərə öz dərin minnətdarlığını bildirmişdir".

Çox önəmli haldır ki, V. Məmmədov göstərilən akademik işlə kifayətlənməmiş və bu sahədə fəaliyyətini davam etdirərək 2006-cı ildə daha bir lüğəti – 12 mindən artıq leksik vahidi ehtiva edən "Estonca–azərbaycanca sözlük"[204] nəşrini hazırlayaraq "Eston Dili Fondu"nun xətti ilə Tallində çap etdirib.

Bununla belə, A. Pekkonen və V. Məmmədovun indiyədək əldə etdikləri ədəbi yaradıcılıq uğurlarının ən önəmlisi şübhəsiz ki, "Kitabi-Dədə Qorqud"un eston dilinə birgə tərcümə işidir.

[203] Видади Мамедов: Мне нравится герой, у которого в руке не меч, а музыкальный инструмент. Таллин, еженедельник "Вести – Неделя плюс", 4 августа 2000 г., № 31.

[204] Eesti–aserbaidžaani sõnaraamat. Estonca–azərbaycanca sözlük. Autor: Vidadi Mamedov. Tallinn. "Eesti Keele Sihtasutus", 2006. – 503 lk. ISBN 9789-9857-9174-5.

V FƏSİL

LİTVAYA GEDƏN NİZAMİ YOLU

LİTVAYA GEDƏN NİZAMİ YOLU...

Azərbaycan ədəbiyyatının dünyaca ünlü klassiki Nizami Gəncəvinin Litva ədəbi-mədəni məkanına gedən yolu uzun və çətin olub. Bu iki əsas səbəbə görə baş verib. Əvvəla, Nizaminin əsərləri Litva yazılı ədəbiyyatından yaşca az qala iki dəfə böyükdür. Sonra da, Litva ədəbiyyatı tarix boyu ona yaxın qonşuları tərəfdən təhlükəli şəkildə sürüşüb hərəkət edən iki böyük yad dil kütləsinin arasındakı kiçik boşluqda güclə sağ qala bilib və uzun illər özünün həyatverici kökləri olan kənd mühiti və xalq mahnılarından uzaqlaşmaqdan qorxub. XIX əsrin lap sonuna qədər Litva ədəbiyyatının başlıca qayğısı ana dilini qoruyub yaşatmaq və milləti yox olmaqdan xilas etməkdən ibarət idi. Nizami yaradıcılığını araşdırıb Litva dilinə tərcümələr etmək imkanları isə çox-çox sonralar yaranıb.

Bununla belə, Litvada Nizami yaradıcılığı ilə tanışlıq və onun ədəbi irsinin öyrənilməsinə göstərilən maraq XIX əsrin əvvəllərindən başlanıb. Bu işdə o zaman dahi sənətkarın alman, ingilis, fransız və rus dillərinə tərcümə olunmuş əsərləri və Avropanın ən qədim elm ocaqlarından biri olan Vilnüs Universitetində 1810-cu ildə Şərqşünaslıq mərkəzinin açılması əsas rol oynayıb. Təsadüfü deyil ki, Nizaminin əsərlərinin fransız dilinə tərcümə edilməsi tarixi Litva ilə bağlıdır. Belə ki, ilk dəfə "İskəndərnamə"dən bəzi parçaları fransız dilinə XIX əsrin 20-ci illərində Lyudvig Şpitsnagel (1807–1827) tərcümə edib. L. Şpitsnagel Vilnüs Şərqşünaslıq mərkəzinin yetişdirməsidir. O, 1807-ci ildə Vilnüsdə anadan olub və burada gimnaziyanı bitirib, sonra Vilnüs Universitetində oxuyub. 1823-cü ildən təhsilini Sankt-Peterburg İmperator Universitetində davam etdirib. Burada hələ Vilnüs Universitetində oxuduğu zaman tanış olduğu fransız şərqşünası Fransua Şarmuadan (1793–1868) dərs alıb. 1827-ci ildə vəfat edən L. Şpitsnagelə "İskəndərnamə"dən etdiyi tərcümənin çapını görmək nəsib olmayıb. B. Şarmua tələbəsinin erkən ölümündən sonra həmin tərcüməni tamamlayıb və 1829-cu ildə Nizami haqqında çapdan çıxmış kitabında nəşr etdirib.

Litva elm və mədəniyyət xadimləri arasında Nizaminin yaradıcılığı barədə ictimai diskursda ilk dəfə kulturoloji mülahizələr və ədəbi dəyərləndirmələr təqdim edən müəlliflərdən biri, 1919–1920-ci illərdə Litva dövlətinin Cümhuriyyətdəki ilk konsulu olaraq çalışmış Vintsas Kreve-Mitskəviçyus olub.

Vintsas Kreve XX əsr Litva ədəbiyyatının ən məşhur klassik yazıçılarından biridir, həm də ədəbiyyatşünas və dilçi alim, pedaqoq və ictimai-siyasi xadim kimi tanınıb.

V. Kreve 1909–1920-ci illərdə Bakı 1-ci realnı məktəbində rus dili və ədəbiyyatı müəllimi işləyib. Həmin illərdə burada pedaqoq işləyən böyük yazıçı Abdulla Şaiqlə dostluq və yaradıcılıq əlaqələri saxlayıb. A. Şaiq 1957-ci ildə V. Kreve haqqında yazdığı xatirələrində qeyd edir ki, o, sıradan bir ədəbiyyat müəllimi deyildi, dərin bilikli və ədəbiyyatın müxtəlif sahələri üzrə geniş dünyagörüşlü bir ədəbiyyatşünas idi, Şərq ədəbiyyatına, həmçinin Nizaminin, Şota Rustavelinin, Sədinin yaradıcılığına yaxından bələd idi.

V. Kreve hələ o illərdə Nizaminin ədəbi irsini tədrisə cəlb edərək, şagirdlərinə onun haqqında danışır və poeziyasından tez-tez misallar gətirirdi. V. Krevenin şagirdlərindən Abdulla Şahbazov, Hadı Əliyev və Qulaməli Həsənov litvalı müəllimi barədə 1957–1958-ci illərdə yazdığı xatirələrində göstərirlər ki, o, Nizaminin poemalarını çox sevir və Nizami dövrü Azərbaycan mədəniyyətini yüksək dəyərləndirirdi. V. Kreve yeri gəldikcə Nizamini Qərb klassikləri ilə müqayisə edirdi. O, Nizami sənətinin Bayron poeziyasına, "Leyli və Məcnun" poemasının "Romeo və Cülyetta" faciəsinə təsirindən danışır, bunların arasında paralellər aparırdı. V. Kreve şagirdlərinə danışırdı ki, dahi alman şairi Göte Nizaminin əsərlərinə heyran olmuş və özünün məşhur "Qərb-Şərq divanı"ndakı ayrı-ayrı şeirləri onun yaradıcılıq dühasına ithaf etmişdir. Vurğulamaq lazımdır ki, o vaxt V. Krevenin irəli sürdüyü bu ədəbi tezis sonralar Dünya nizamişünaslığında təsdiq olundu və öz həqiqi qiymətini aldı.

Əhəmiyyətli haldır ki, V. Kreve sonralar da – 1922–1954-cü illərdə Kaunas, Vilnüs və Pensilvaniya universitetlərinin professoru olaraq Dünya ədəbiyyatı tarixindən oxuduğu mühazirələrdə, Şərqin düşüncə və həyat tərzi, fəlsəfə, inanc və dünyagörüşü sistemləri, bədii sözə və estetik gözəlliyə münasibət barədə danışarkən Nizami yaradıcılığına xüsusi yer ayırmışdır.

Nizami haqqında litvaca ilk publikasiyalar XX əsrin 30-cu illərində Kaunasda dərc olunub. 1934-cü ildə burada işıq üzü görmüş "Litva Ensiklopediyası"nda Nizami barədə biblioqrafik məlumatlar yer alıb. 1937-ci ildə isə Kaunasda buraxılan *"Skautų aidas"* jurnalının 3-cü sayında Nizaminin "Sirlər xəzinəsi" poemasından götürülmüş "İsanın hekayəti" dərc olunub. "İnci kimi dişlər" başlığı altında verilmiş bu publikasiyada təəssüf ki, tərcümənin müəllifi göstərilməyib.

1940-cı ilin iyununda müstəqil Litvanın SSRİ-nin tərkibinə inkorporasiya edilməsindən sonra Nizami ədəbi irsinin Litvada tədqiq olunub yayımlanması işinin sovet mərhələsi başlanır. O dövrdə litvalılar da digər sovet xalqları kimi Nizaminin 800 illik yubileyini qeyd etməyə hazırlaşırdı. Yubiley qabağı, – 1940–1941-ci illərdə Litva ədəbi jurnallarında Nizaminin həyat və yaradıcılığı barədə bir sıra materiallar dərc olundu. 1940-cı ildə *"Kultūra"* jurnalının iyun-avqust sayında "Nizaminin 800 illik yubileyi" adlı redaksiya məqaləsi çap edildi. Məqalədə həm də Nizaminin Azərbaycan ədəbiyyatına mənsubluğu Litva ədəbiyyatşünaslığında ilk dəfə belə qeyd olunub:

"...Nizami əsərlərini fars dilində yazdığına görə uzun illər onu İran şairi kimi qələmə veriblər. Lakin indi Azərbaycan xalqı doğma şairini öz Vətəninə qaytarmışdır".

O dövrdə Kaunasda nəşr olunan *"Raštai"* ədəbi-bədii jurnalında da Nizami yaradıcılığına aid iki publikasiya verilib. Jurnalın 1940-cı ildə çıxmış 2-ci sayında şairin yubileyi münasibətilə redaksiya məqaləsi yer alıb, 1941-ci ilin 1-ci sayında isə görkəmli şərqşünas alim, professor Yevgeni Bertelsin "Dahi Azərbaycan şairi" adlı əsərindən parçalar çap olunub.

Lakin məlum olduğu kimi, 1941-ci ildə Böyük Vətən müharibəsinin başlanması Nizaminin 800 illik yubiley tədbirlərini keçirməyə imkan vermədi.

1946-cı ilin noyabrında Litva SSR Yazıçılar İttifaqının sədri Pyatras Svirka başda olmaqla, Litva yazıçıları Antanas Vienuolis-Jukauskas, Yuozas Paukştyalis və Albinas Jukauskasdan ibarət nümayəndə heyəti Azərbaycana tanışlıq səfərinə gəlir. Bu zaman onlar həm də Nizami dühası ilə yaxından tanış olurlar. Bakıda Nizami haqqında söhbətlər, Gəncədə şairin türbəsinin ziyarəti Litva yazıçılarına unudulmaz təsir bağışlayır. Bunu onların səfər təəssüratları altında 1946–1947-ci illərdə yazdığı əsərlərdən hiss etmək olar.

Məsələn, P. Svirka "Azərbaycanda" adlı tarixi oçerkində Nizamini "erkən renessans dövründə bütün Yaxın Şərqə ən mütərəqqi ideyaları şəfəqləndirən möhtəşəm mayak adlandırır". A. Vienuolis isə onu XII əsr Azərbaycan və Şərq ədəbiyyatının nəhəng və əzəmətli şairi kimi səciyyələndirir və Nizaminin bədii irsini bugünkü Azərbaycan poeziyasının ilham mənbəyi olmasını vurğulayır.

A. Jukauskas Nizami sənətini onun yaşadığı dövr ilə müqayisə edərək belə dəyərləndirir:

"Orta əsrlərdə Azərbaycan mədəniyyəti artıq yüksək pilləyə qalxmışdı. Azərbaycan XII əsrdə bütün Şərq mədəniyyətinə təsir göstərmiş bir poeziya

Litva yazıçıları Bakıda Nizami ədəbiyyat muzeyində və Gəncədə Nizaminin türbəsində. Noyabr, 1946-cı il.

nəhəngini – şair Nizami Gəncəvini Dünya ədəbiyyatına bəxş etmişdir. Nizami öz poeziyasında Şərqin və Qərbin ən mütərəqqi ideyalarını tərənnüm edərək birləşdirmiş, erkən renessans dövründə insan təfəkkürünü yeni istiqamətlərdə yönəltməyə çalışmışdır".

Y. Paukştyalis "Dahi nəğməkarın yurdunda" adlı oçerkini Nizamiyə və onun doğma şəhəri Gəncəyə həsr edib. O, bu əsərdə Nizami dühasına diqqət çəkərək öz münasibətini bu cür ifadə edir:

"Nizami XII əsr Şərq poeziyasının dahi şairidir. Ölməz poemalar müəllifi olan Azərbaycan ədəbi klassiki özünün Şərq və Qərb ideyaları ilə zəngin yaradıcılığında yüksək humanizm ideallarından bəhs etmiş və ölkəsində erkən renessansın inkişafına təkan vermişdir".

Litva oxucularına sovet dövründə Nizami sənəti haqqında ilkin edukoloji bilgilər və maraqlı ədəbi təhlillər təqdim edən müəlliflərdən biri də tanınmış şair və tərcüməçi Aleksis Xurginasdır (1912–1990). O, Nizaminin 800 illik yubileyi ilə bağlı 1947-ci ilin iyununda Bakıda keçirilmiş Ümumittifaq elmi konfransında iştirak edib, burdakı çıxışında yubileylə bağlı Litvada aparılan hazırlıq işlərindən danışıb və Azərbaycana gəlişi ilə "dahi sənətkarı bir daha kəşf etdiyini" söyləyib. A. Xurginas həmçinin konfrans günlərində Nizaminin bir qəzəlini Litva dilinə tərcümə edib və bu tədbirin sonunda keçirilmiş ədəbi axşamda oxuyub. Əfsus ki, həmin qəzəl indiyədək heç bir yerdə çap olunmayıb.

A. Xurginas Nizami konfransı və şairin yaradıcılığı barədə düşüncələrini Vətəninə qayıtdıqdan sonra Litva mətbuatında nəşr etdirdiyi məqalələrində

ifadə edib. O, 1947-ci ilin iyun ayında "Tiesa" gündəliyində çap olunmuş "Nizami və onun dövrü" adlı məqaləsində XII əsr Azərbaycan ədəbiyyatı və mədəniyyətindən, Nizaminin "Xəmsə"sindən bəhs edir və şairin gənclik illərindən danışır. A. Xurginasın "Dahi şairin Vətənində" adlı daha bir bu mövzulu məqaləsi Litva Yazıçılar İttifaqının *"Pergale"* ədəbi jurnalının 1947-ci ildə çıxmış 5-ci sayında dərc edilib.

Bununla yanaşı, A. Xurginas "Xəmsə"dən etdiyi bir neçə tərcüməni də 1947-ci ilin iyul-oktyabr aylarında Litva dövri mətbuatında – *"Tiesa"* və *"Tarybų Lietuva"* qəzetlərində, eləcə də *"Jaunimo gretos"* gənclər jurnalında çap etdirib. Bu tərcümələr "Sirlər xəzinəsi"nə daxil olan "Kərpickəsən qocanın bir cavanla hekayəti" və "Zalım şahla düz danışan qocanın hekayəti" adlı hissələrdən, eləcə də "İqbalnamə"dən götürülmüş "İskəndərin Şimala çatması və Yəvuc səddini bağlaması" başlıqlı parçadan ibarətdir.

A. Xurginas dahi şairə "Nizami" adlı bir şeir də həsr edib. Şeir ilk dəfə müəllifin 1947-ci ildə Kaunasda Dövlət bədii ədəbiyyat nəşriyyatında buraxılan "Günəşin cığırlarıyla" *(„Saulės taku")* adlı poeziya toplusunda çap olunub.

1947-ci ilin sentyabrında Nizaminin Bakıda və Gəncədə keçirilmiş 800 illik yubiley tədbirlərində Litva yazıçıları Antanas Ventslova, Yonas Dovidaytis və Antanas Mişkinisdən ibarət nümayəndə heyəti də iştirak edib. Həmin günlərdə Litva mətbuatında yubiley haqqında bir sıra publikasiyalar çap olunub. Şair, tərcüməçi və ədəbiyyatşünas A. Ventslova bu tədbirdə etdiyi çıxışında belə məqamları vurğulayıb:

"...Nizaminin əsərlərindəki poetik qüdrət, fəlsəfi dərinlik, humanist ideallar məni valeh edir. Azərbaycan xalqı 800 il bundan əvvəl, yəni bir çox Qərbi Avropa xalqları barbarlıqdan yenicə çıxmağa başladıqları bir zamanda Nizami kimi dahi bir şairi yetişdirməsi ilə fəxr etməyə haqlıdır.

Nizaminin "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun" poemaları Dantenin "İlahi komediyası"ndan, Servantesin "Don Kixot"undan və Şekspirin cahanşümul əsərlərindən öncə yazılmışdır. Bu isə Azərbaycan xalqının qədim və yüksək mədəniyyətinə canlı sübutdur".

A. Ventslova Gəncədən qayıtdıqdan sonra "Böyük Azərbaycan şairi Nizami" adlı məşhur oçerkini yazdı. Əsər *"Pergale"* ədəbi jurnalının 1947-ci ilin 8-ci sayında, həmçinin ədibin 1958-ci ildə çapdan çıxmış "Zaman və yazıçılar" kitabında, 1975-ci ildə buraxılmış "Dövrün rüzgarı" toplusunda və digər nəşrlərdə dərc olunub.

Yazıçı Y. Dovidaytis Nizami poeziyası və onun 800 illik yubileyi barədə fikirlərini "Nizaminin yubileyi ərəfəsində düşüncələr" və "Şair Nizaminin

yubileyi" adlı iki məqalədə düzənləyərək 1947-ci ilin oktyabrında *"Tiesa"* qəzetində və *"Literatūra ir menas"* həftəliyində çap etdirib.

Şair, nasir və tərcüməçi A. Mişkinis isə Nizaminin yubileyi və onun yaradıcılığı haqqında təəssürat və düşüncələrini 1947-ci ildə yazdığı "Böyük insan" və "Uzaq səfər" adlı şeirlərində tərənnm edib. Bu şeirlər həm Litva ədəbi nəşrlərində, həm də A. Mişkinisin 1960-cı ildə Vilnüsdə buraxılmış poeziya toplusunda çap olunub.

1947-ci il oktyabrın 13-də Vilnüs Dövlət dram teatrında Litva Yazıçılar İttifaqının təşkilatçılığı ilə Nizamiyə həsr edilmiş yubiley axşamı keçirildi. Tədbirdə yazıçılardan A. Ventslova, Y. Dovidaytis, A. Xurginas, A. Mişkinis, Yonas Şimkus və Vatsis Reymeris Nizami poeziyası və onun Azərbaycandakı yubiley tədbirləri barədə çıxışlar etdilər, Nizamidən etdikləri tərcümələri və şairə həsr etdikləri şeirlərini oxudular.

XX əsr Litva ədəbiyyatının nəhəng simalarından biri, ədəbiyyatşünas akademik, şair, nasir və dramaturq Vintsas Mikolaytis-Putinas tədqiqatlarında yeri gəldikcə Nizaminin yaradıcılığına istinad edib. Məsələn, o, 1947-ci ildə yazdığı "Əlişir Nəvai və onun Vətəni" adlı məqalədə, özbək şairinin əsərlərinin mənbələrini araşdırarkən, dönə-dönə Nizami "Xəmsə"sinin bədii dəyərindən və Ə. Nəvainin yaradıcılığına təsirindən bəhs edir.

1966-cı ildə Nizaminin 825 illiyi münasibətilə də Litvanın bir sıra qəzet və jurnallarında şairin həyat və yaradıcılığına dair redaksiya məqalələri və ensiklopedik məlumatlar çap olundu.

Baltik xalqları ədəbiyyatşünaslığında Nizaminin yaradıcılığı ilə bağlı aparılmış elmi araşdırmalar içərisində litvalı ədəbiyyatşünas, Vilnüs Universitetinin dosenti Pyatras Ujkalnisin (1907–1984) "Nizami Gəncəvi" oçerki xususi maraq kəsb edir. Oçerk P. Ujkalnisin ali məktəb tələbələri üçün dərs vəsaiti olaraq 1969–1972-ci illərdə Vilnüsdə iki cilddə litvaca çap edilmiş "Rudəkidən Donelaytisə qədər" adlı monografiyasında yer alıb. Müəllif oçerkdə "Xəmsə"ni bütünlükdə araşdırıb təhlil edib. O, elmi müddəalara müasir nizamişünaslıq mövqeyindən yanaşaraq, tədqiqatı orta əsr Şərq və Azərbaycan mədəniyyəti kontekstində aparıb, həm də Nizaminin utopik-fəlsəfi ideallarına münasibət bildirib və bir sıra anlatmalar təqdim edib. P. Ujkalnis şairin fəlsəfi görüşlərindən bəhs edərkən yazır:

"Bizə Nizaminin fəlsəfi və estetik məsələlərə həsr etdiyi xüsusi bir traktatı məlum deyil. Lakin onun bədii əsərləri göstərir ki, Nizami orta əsrlər fəlsəfəsinə çox yaxın olub. Şairin feodalizm quruluşunda sosial məsələlərdən bəhs etməsi xüsusilə maraqlı və qiymətlidir".

Litvada Nizami sənətinə üz tutub əsərlər yazan müəlliflərdən biri də yazıçı, dramaturq və ədəbiyyatşünas Yokubas Sklyutauskasdır. Həm də

Litva–Azərbaycan ədəbi əlaqələrinin tədqiqatçısı kimi tanınan Y. Sklyutauskas ötən əsrin 50–60-cı illərində bir neçə dəfə Bakıya gəlib. Burada ədəbi klassik Abdulla Şaiqlə və bir sıra digər Azərbaycan ziyalıları ilə görüşüb, Nizami ədəbiyyat muzeyini ziyarət edib, sonralar "Nizami" adlı oçerk yazıb və bu əsər onun 1982-ci ildə Vilnüsdə nəşr edilən kulturoloji məqalələrdən ibarət "Qızıl köklər" adlı toplusunda çap olunub. Y. Sklyutauskas Nizamiyə həsr etdiyi oçerki bu sözlərlə bitirir:

"Azərbaycan xalqının dahi nəğməkarının muzeyini ziyarət etdikdən sonra, bir daha əmin oldum ki, feodalizm cəmiyyətində yaşayıb-yaratmış Nizaminin baxışları bizim dövrə yönəlmişdi, onun bədii sözünün qüdrəti və ideyalarının əzəməti zamanın axarında itərək yox olmayıb".

Nizami ədəbi irsinin Baltik ölkələrində tanıdılması ilə bağlı Azərbaycan alimləri də bir sıra uğurlu tədqiqatlar aparıblar. Bu sahədə XX əsrin 70-ci illərindən başlayaraq mühüm işlər görmüş alimlərdən biri, Azərbaycan–Baltik ədəbi əlaqələrinin tədqiqatçısı, ədəbiyyatşünas professor Vaqif Arzumanlıdır. Professorun bu mövzu ilə bağlı həm Baltik ölkələrində, həm də Azərbaycanda bir sıra araşdırmaları çap edilib və bu işlərin böyük qismi onun 1997-ci ildə Bakıda "Elm" nəşriyyatında işıq üzü görən "Nizami Gəncəvinin dünya şöhrəti" adlı monografiyasında yer alıb.

İndiyədək Nizami poeziyasının Baltik xalqlarının dillərində yayımlanması sahəsində ən möhtəşəm işi litvalı tərcüməçi Linas Broga görüb. Bu, ilk növbədə, onun "Leyli və Məcnun" poemasını Litva dilinə çevirməsi ilə bağlıdır.



1. Nizaminin "Leyli və Məcnun" poemasının litvaca nəşrinin üzqabığı. Vilnüs, 1985-ci il.
2. Poemanın Litva dilinə tərcüməçisi Linas Broga. 3. Nizami poeziyasının tərcüməçisi, Litva şairi Aleksis Xurginas.

Poema 1985-ci ildə Vilnüsdə kitab şəklində 14 min nüsxə ilə nəşr olunub. L. Broga kitaba poema ilə yanaşı, Nizamidən tərcümə etdiyi 5 qəzəli, 8 rübaini və 2 qəsidəni də daxil edib. O, "Leyli və Məcnun"un tərcüməsinə həm də 10 səhifədə müfəssəl izahatlar hazırlayıb, xususi lüğət tərtib edib və elmi tədqiqat səviyyəli geniş bir sözardı yazıb. Müəllif onu belə ibrətamiz fikirlərlə tamamlayır:

"Əsl sənət, əsl gözəllik – həqiqi bir dəyərdir və başqaları ilə bölüşəndə tükənmir. Odur ki, Nizaminin poetik sərvəti biz litvalılara da məxsusdur. Hərçənd bu sərvəti əxz etmək asan deyil. Nizami kimi nəhəng bir şairi orijinaldan layiqincə tərcümə etmək üçün biz hələ çox işlər görməliyik".

"Leyli və Məcnun"un Litva tərcüməsi barədə litvalı şair-tərcüməçi Alfonsas Bukontasın filolog araşdırmaçı Mahir Həmzəyevlə birgə yazdığı „Şam kimi, sən də öz xəzinənlə yan" başlıqlı resenziya Vilnüsdə *„Pergale"* ədəbi jurnalının 1985-ci ildə çıxmış 12-ci sayında çap edilib.

Nizami yaradıcılığı Azərbaycan xalqına xidmət etməklə yanaşı, digər xalqlar üçün də böyük əhəmiyyət daşıyır. 1991-ci ildə Azərbaycanda və digər ölkələrdə Nizami Gəncəvinin anadan olmasının 850 illiyi münasibətilə yubiley tədbirləri keçirilməli idi. Bu yubiley şərəfinə 1991-ci il UNESCO-nun təşəbbüsü ilə "Nizami ili" elan edilmişdi. Lakin o zaman həm Azərbaycanda və digər sovet respublikalarında, həm də bəzi Şərqi Avropa ölkələrində gedən gərgin proseslər, geosiyasi durum, hökm sürən dərin iqtisadi böhran, inflyasiya və devalvasiyalar, silahlı münaqişələr, Qarabağ müharibəsi, SSRİ daxilində getdikcə güclənən mərkəzdənqaçma meylləri, 1991-ci il Avqust qiyamı və Belovej razılığı – bir sözlə Sovet İttifaqının və sosialist düşərgəsinin dağılması prosesləri Nizaminin 850 illik yubileyini dünya miqyasında və layiqli səviyyədə keçirməyə imkan vermədi.

Buna baxmayaraq mütəfəkkirin yubileyi Azərbaycanda və UNESCO-nun nəzdində müəyyən səviyyədə qeyd olundu, həmçinin bəzi ölkələrdə sadə yubiley tədbirləri keçirildi. Bu baxımdan bir nizamisevər kimi mən də şanslı olmuşam. Müstəqil Litvada Nizami Gəncəvinin 850 illik yubileyini ictimai diskursda qeyd etmək mənim və bir sıra litvalı sənət dostlarımın payına düşüb. O dövrdə mən Litva kitabsevərlər cəmiyyəti Vilnüs şəhər təşkilatının məsul katibi olaraq çalışırdım. Və bu təşkilatın nəzdində ölkənin kiçik qrafika sənəti sahəsində çalışan bir sıra rəssamları və kitab nişanı kolleksionerlərini birləşdirən məşhur ictimai təşkilat – Litva "Ekslibris" kitabsevərlər klubu fəaliyyət göstərirdi. Tanınmış Litva rəssamı, həm də Azərbaycan mədəniyyətinin yaxın dostu Alfonsas Çepauskas bu klubun sədri idi. 1990-cı ilin 13–14 oktyabr günlərində "Ekslibris" klubu və Vilnüs şəhər kitabsevərlər təşkilatının birgə təşkilatçılığı

ilə Litva paytaxtında ekslibrisçilərin IV Beynəlxalq seminarı keçirildi. Seminarda Litva ekslibris ustaları ilə yanaşı, Latviyadan, Estoniyadan, Belarusdan, Ukraynadan və Rusiyadan dəvət olunmuş bir çox sənət adamları da iştirak edirdilər. Seminar təşkilatçıları son panel iclasında tədbir iştirakçılarını 1991-ci ildə Nizami Gəncəvinin anadan olmasının 850 illik yubileyinə həsr olunmuş Beynəlxalq ekslibris müsabiqəsinin keçirilməsi barədə qərarın layihəsi və müsabiqənin şərtləri ilə tanış etdilər. Müzakirələrdən sonra müsabiqənin keçirilməsi ilə bağlı müvafiq sənədlər qəbul olundu, təşkilat komitəsi və münsiflər heyəti yaradıldı. Bu sənədlər, eləcə də müsabiqəyə dəvətnamələr həm seminar iştirakçılarına təqdim edildi, həm də digər ölkələrdə fəaliyyət göstərən kitabsevərlər təşkilatlarına və peşəkar ekslibrisçilərə göndərildi. Beləliklə beynəlxalq ekslibris müsabiqəsi başlandı. Vilnüsdə qərar tutmuş Təşkilat komitəsinə 1990-cı il dekabrın sonlarından başlayaraq həm Litvada, həm də digər ölkələrdə yaşayan rəssamların Nizaminin 850 ilik yubileyinə həsr etdikləri ekslibris əsərləri daxil olmağa başladı. Əfsus ki, 1991-ci il Vilnüs yanvar qırğını və daha sonra Litvada baş verən digər dramatik hadisələr, faciəvi olaylar, "Yedinstvo" interfront təşkilatı tərəfindən mülki obyektlərə edilən basqınlar, aparılan hərbi əməliyyatlar, Milli radio və televiziya yayımları şirkətinin, qəzet və jurnal redaksiyaları binalarının, nəşriyyat və mətbəələrin, həmçinin mədəniyyət evləri və digər maarif təşkilatları ofislərinin Sovet ordu hissələri tərəfindən zəbt edilməsi halları sözügedən Beynəlxalq müsabiqəni uğurla başa çatdırmağa mane oldu. Bununla belə, müsabiqə işlərindən bir neçəsini – ukraynalı rəssam Volodimir Taran və litvalı qrafika ustası Algirdas İndraşyusun dahi Azərbaycan şairinə həsr etdikləri ekslibrislərin görüntülərini aşağıda nümunələr qismində təqdim edirik.

Nizami Gəncəvinin 850 illik yubileyi ilə bağlı 1991-ci ildə Litvada keçirilən Beynəlxalq ekslibris müsabiqəsinin iştirakçıları – ukraynalı rəssam Volodimir Taran və litvalı qrafika ustası Algirdas İndraşyusun dahi Azərbaycan şairinə həsr etdikləri ekslibrislərin görüntüləri.

Daha sonra Nizami ədəbi irsinin Litvada yayımlanması ilə bağlı qeyd edək ki, 11 mart 1990-cı ildə bu ölkədə müstəqilliyin bərpasından sonrakı dövrdə – 2001, 2005, 2009, 2020-ci illərdə buraxılan ensiklopedik nəşrlərdə, Şərq-Qərb mədəniyyətlərarası dialoquna aid araşdırma kitablarında, elmi-populyar məcmuələrdə və lirik əsərlərdən ibarət toplularda dahi şairin yaradıcılığı haqqında məqalə və resenziyalar, əsərlərindən bəzi tərcümələr çap olunub.

2015-ci ildə isə Litva Rus dram teatrında Nizaminin "Yeddi gözəl" əsəri əsasında Yonas Vaytkusun rejissorluğu ilə eyniadlı musiqili tamaşa səhnələşdirilib. Tamaşa rus dili ilə yanaşı Litva dilinə tərcümə edilərək qaçan titrlər vasitəsilə təqdim olunub. Hərçənd bu tamaşa istisna olunmaqla, müstəqillik dövründə görülmüş digər işlərin böyük qismi yeni faktlar deyil, sadəcə 1990-cı ilə qədər Litvada işıq üzü görmüş publikasiyaların təkrarıdır.

Ümumən, Nizami sənətinin Litvada tanıdılması vektorunda indiyədək görülmüş bir çox işləri, həm çoxəsrlik Litva–Azərbaycan ədəbi əlaqələri tarixində çoxdan öz layiqli yerini tutmuş ədəbi faktlar kimi, həm də dahi sənətkarın poetik irsinin dünya xalqlarının mənəvi dəyərlər xəzinəsinə daxil olmasını əks etdirən zəngin salnamənin qiymətli səhifələri tək dəyərləndirmək mümkündür.

Qeydlərimi Edvardas adlı bir litvalı oxucunun "Leyli və Məcnun" poemasının Litva tərcüməsi haqqında 2007-ci ildə dərc edilmiş məqaləsindən belə ritorik bir mülahizə ilə tamamlamaq istərdim:

"Poemanı oxudum və öz-özümə dedim, – əsərləri əsrlərin sınağından çıxmış, minlərlə, daha doğrusu milyonlarla oxucunun hisslərindən və qəlbindən keçmiş, onları daim vəcdə gətirmiş və zövqünü formalaşdırmış Azərbaycan xalqının bu nəğməkarı və filosofu barədə hər hansı bir tənqidi fikir söyləməyə zərrəcə də olsun haqqım varmı? Yox, mənim belə bir haqqım yoxdur və onun az qala kosmik uzaqlıqdan gəlib bizə çatmış poeziyasına yalnız heyran qala bilərəm.

Bu poeziyaya XXI əsrin yüksəkliyindən nəzər salaraq, onu bu günün praqmatik baxış prizmasından dəyərləndirib nəsə deyə bilərəmmi? Ola bilsin, deyə bilərəm. Amma bu günün hansısa bir filisterin baxışı və fikirləri, Nizami kimi əbədi bir ədəbiyyat nəhəngi üçün hər hansı bir əhəmiyyət kəsb edə bilərmi?!"

Bəli, Poeziya dünyasının dahisi Gəncəli Nizaminin irsi ölməzdir, əbədiyaşardır! Litvaya gedən Nizami yolunda, onun poeziya işığında sizinlə yenidən görüşmək ümidi ilə...

P.S: *Oçerk, dahi şair Nizaminin 880 illik yubileyi münasibətilə 2021-ci ildə Bakıda keçirilən Nizami Gəncəvi Beynəlxalq Forumunda M. Həmzəyevin etdiyi məruzə əsasında hazırlanıb.*

Vilnüs – Bakı, 24–25 noyabr 2021-ci il.

ESTONİYADA ƏDƏBİYYATIMIZIN ZƏRİF VƏ ƏZƏMƏTLİ SƏSİ

Azərbaycan xalqının zəngin etnokulturoloji dəyərləri tarixin bütün mərhələlərində müxtəlif dünya xalqlarının maraq mərkəzində olub. Bir çox xalqların Azərbaycan mədəni sərvətlərinə yaxından maraq göstərib dərin hörmətlə yanaşması onları xalqımıza mənən daha da yaxınlaşdırıb. Həmin xalqların ziyalı təmsilçiləri bənzərsiz Azərbaycan dəyərlərini öz vətənlərində tanıtmaq naminə xalqlarımız arasında müxtəlif dövrlərdə anlaşma və etimad körpüləri missiyasını daşıyıblar.

Eston və Azərbaycan xalqları arasında belə mədəni əlaqələri qurub-yaşadan ünlü şəxsiyyətlər arasında ədəbiyyatımızın böyük dostu və təbliğçisi, tanınmış eston şairi Li Seppel xüsusi yer tutur. O, yarım əsrdən çoxdur ki, eston və Azərbaycan ədəbiyyatları arasında körpü rolunu oynayır, eləcə də xalqlarımızın ədəbi-mədəni əlaqələri tarixinə neçə-neçə qiymətli səhifələr yazaraq fəaliyyətini bugünədək davam etdirir.



1.Eston şairi və tərcüməçi Li Seppel. 2. L. Seppelin ata-baba yurdu – Estoniyanın Haapsalu kurort şəhəri.

Li Seppeli xalqımıza sayğılarla yanaşan, ədəbiyyatımızı və ümimiyyətlə türk xalqlarının bədii söz sərvətini ürəkdən sevib tərcümə edən istedadlı bir sənətkar kimi Azərbaycanda tanıyanlar az deyil. Bununla belə, Estoniya torpağında uzun illər türk xalqları ədəbiyyatını geniş miqyasda tanıtdırıb sevdirən bu gözəl şairi və tərcüməçini mühüm bir rasional faktora görə əhatəli təqdim etməyi özümə mənəvi borc sayıram.

Qorqud atanın rəvac verdiyi mənəvi yaxınlıq

Etiraf edim ki, məndə Li Seppel haqqında yazmaq həvəsini "Kitabi-Dədə Qorqud"-un 2008-ci ildə Tallində estonca çap edilmiş nəşri oyatdı. Belə ki, bu nəşrlə bağlı tədqiqatlar apararkən, ilk baxımdan dastanın eston dilinə tərcüməsi ilə bilavasitə əlaqəsi olmayan, amma zənnimcə, dolayısı ilə kifayət qədər mühüm əhəmiyyət daşıyan pərdəarxası bir məqamla üzləşdim. Həmin məqam Li Seppelin dastanın eston dilinə tərcüməçiləri Anneli Pekkonen və Vidadi Məmmədova verdiyi qiymətli məsləhətlər, ötürdüyü peşə bilgiləri və ümumən tərcümə zamanı onlara etdiyi edukoloji himayəçiliklə bağlıdır. Və heç də təsadüfü deyil ki, bunun hamısı onun çoxillik və zəngin tərcüməçilik təcrübəsindən qaynaqlanırdı.

Qeyd edək ki, istedadlı mütərcimlər A. Pekkonen və V. Məmmədov indiyədək Estoniya mediasına verdiyi bəzi müsahibələrində və həmçinin məqalələrində Li Seppelin onlara türk xalqlarının dillərindən tərcümə sahəsində verdiyi yaradıcılıq məsləhətləri və göstərdiyi akademik yardımın əhəmiyyəti barədə bir neçə dəfə açıqlamalar verərək öz minnətdarlığını bildiriblər...

"Kitabi-Dədə Qorqud"un estonca nəşrinə yazılmış ön sözün müəllifi, tanınmış eston ictimai-siyasi xadimi və yazarı Andres Herkel isə onda Azərbaycan ədəbiyyatına dərin maraq oyadanlardan birinin məhz Li Seppel olduğunu yazılarında dəfələrlə vurğulayıb...

Azərbaycan və Baltik xalqları ədəbi əlaqələrinin araşdırıcısı, professor V. Arzumanlı da 2009-cu ildə Bakıda dərc etdirdiyi "Kitabi-Dədə Qorqud" eston dilində" adlı məqaləsində belə bir məqamı vurğulayır ki, "son 30–40 ildə Estoniyada Azərbaycan ədəbiyyatı nümunələrinin orijinaldan tərcüməsi sahəsində ədəbiyyatımızın dostları Li Seppelin və [...] şair Andres Ehinin xidmətləri çox böyükdür. İstər Bakıda, istərsə də Tallində ədəbiyyatımızın estoniyalı dostları ilə görüşlərimiz zamanı mən dəfələrlə onların qədim folklor abidəmizə bəslədikləri sonsuz marağın şahidi olmuşam. Amma işlərinin çoxluğu, fərdi yaradıcılıq planları onların bu işlə bilavasitə məşğul olmasına imkan verməmişdir..."[205]

Tartudan Bakıya uzanan ədəbi meridianlar

Li Seppel 30 aprel 1943-cü ildə Estoniyada – Baltik dənizinin sahilində yerləşən qədim Haapsalu kurort şəhərində dünyaya gəlib. 1967-ci ildə Tartu Dövlət Universitetinin Eston filologiyası fakültəsini bitirib. Tanınmış eston dilçi alimi, poliqlot və şərqşünas tədqiqatçı Pent Nurmekundun (1936–1996)

[205] Vaqif Arzumanlı. "Kitabi-Dədə Qorqud" eston dilində. Bakı, "Ədəbiyyat qəzeti", 17 aprel 2009-cu il, s. 7.

tələbəsi olub. Fakültənin son kurslarında oxuyanda – 1965–1967-ci illərdə Azərbaycan və digər türk dillərini öyrənmək üçün Bakı və Moskva universitetlərinin Filologiya və Şərqşünaslıq bölmələrində təcrübə keçib.

Li Seppel Bakıda oxuduğu illərdə dilimizi öyrənməklə yanaşı, həm universitet tələbələri, həm də ədəbi-mədəni ictimaiyyət arasında özünə bir çox dostlar qazanıb. Elə o vaxtdan qəlbində ədəbi dəyərlərimizə böyük rəğbət və məhəbbət hissləri oyanıb, Azərbaycan ədəbiyyatından ən yaxşı nümunələri eston dilinə tərcümə etmək istəyi yaranıb. O, 1971-ci ildə Tallində Azərbaycan mətbuatına verdiyi müsahibədə iftixar hissi ilə Azərbaycan dilini və mədəniyyətini öyrənməsindən danışır: "Mən sizin dilinizi öyrənməklə böyük bir xalqın mədəniyyət xəzinəsinin açarını əldə etmişəm. Nəinki təkcə sizin, eləcə də digər türkdilli xalqların..."[206]

Azərbaycan dövrü, sözün əsl mənasında, Li Seppelin yaradıcılığından qırmızı xətt kimi keçir. O, uzun illər Azərbaycan yazıçıları ilə yaradıcılıq əlaqələri saxlayıb, ədəbiyyatımızdan eston dilinə çoxsaylı tərcümələr edərək Estoniyada ədəbiyyatımızın tanıdılması sahəsində bir sıra vacib işlər görüb.

Li Seppelin Azərbaycan ədəbiyyatından etdiyi ilk tərcümələr nəsr nümunələrindən ibarətdir. Maraqlıdır ki, o tərcümələr içərisində Xalq yazıçısı İlyas Əfəndiyevin 1970-ci ildə Tallində çap edilmiş "Söyüdlü arx" romanı[207] Estoniya–Azərbaycan ədəbi əlaqələrində orijinalın dilindən edilmiş ilk böyük həcmli tərcümə olaraq tarixə düşüb. Li Seppel digər yazarlarımızın – Anarın, Firuz Sadıqzadənin hekayələrini də tərcümə edib. Onun tərcüməsində 1975-ci ildə Anarın "Dantenin yubileyi" povesti,[208] 1989-cu ildə isə "Beşmərtəbəli evin altıncı mərtəbəsi" romanı[209] estonca nəşr edilib.

Eston oxucuları Li Seppelin tərcümələri sayəsində həmçinin müasir Azərbaycan poeziyasının tanınmış simaları Fikrət Qoca, Fikrət Sadıq, Əlisa Nicat, İsa İsmayılzadə, Arif Abdulla, Ələkbər Salahzadə, Səyavuş Məmmədzadə, Hamlet İsaxanlı və digərlərinin şeirləri ilə tanış olmaq imkanı əldə ediblər.

Bir fikrə özəlliklə diqqət çəkmək istərdim ki, Li Seppel Azərbaycan ədəbiyyatının iki klassik təmsilçisi – Səməd Vurğun və Rəsul Rzanın yaradıcılığına həmişə böyük rəğbətlə yanaşıb. Hər iki sənətkarın əsərlərini eston dilinə ilk dəfə orijinaldan məhz Li Seppel tərcümə edib. Bu tərcümələrlə bağlı göstərmək istərdik ki, S. Vurğunun məşhur "Azərbaycan" şeiri Li Seppelin tərcüməsində 1970-ci ildə eston poeziya həvəskarlarına təkrarən təqdim olunub. Yeri gəlmişkən, Tartu Universitetinin professoru Serqey İsakovun yazdığına görə,

[206] Vaqif Arzumanov. Mənim tanıdığım Li Seppel. Ədəbi məqalə. Bakı, "Ulduz" jurnalı, 1987, № 11, s. 54.
[207] Iljass Äfändijev. Pajuarõkk (jutustus). Aserbaidžaani keelest tõlkinud Ly Seppel. Tallinn, "Eesti Raamat", 1970.
[208] Anar. Dante juubel (jutustus). Aserbaidžaani keelest tõlkinud Ly Seppel. Tallinn, "Perioodika", 1975. – 56 lk.
[209] Anar. Viiekorruselise maja kuues korrus (romaan). Aserbaidžaani keelest tõlkinud Ly Seppel. Tallinn, "Eesti Raamat", 1989. – 222 lk.

1. İ. Əfəndiyevin "Söyüdlü arx" romanının eston nəşri. 2. Anarın eston dilində nəşr edilmiş "Dantenin yubileyi" və "Beşmərtəbəli evin altıncı mərtəbəsi" kitablarının görüntüləri.

bu əsər estonca ilk dəfə 1950-ci ildə naməlum müəllifin tərcüməsində dərc olunub, ikinci dəfə isə 1963-cü ildə şair-tərcüməçi Erix Kumar tərəfindən eston dilinə çevrilib.[210]

Li Seppel həmçinin S. Vurğuna "Gözəllik ağaclarının kökləri vardır səndə" adlı gözəl bir esse həsr edib. 1972-ci ildə Estoniyanın *"Noorus"* jurnalının 8-ci sayında çap olunmuş bu essesində S. Vurğunun şair və vətəndaş obrazını yaddaqalan çalarlarla canlandırmaq üçün müxtəlif bədii təsvir və ifadə vasitələri ilə yanaşı, öz tərcüməsində "Azərbaycan" şeirinin bəndlərindən də istifadə edib.[211]

Rəsul Rza poeziyasının bədii tükənməzliyi ilə üz-üzə

Xalq şairi Rəsul Rzanın şeirləri eston dilinə ötən əsrin 50-ci illərin əvvəlindən tərcümə olunmağa başlanıb və ilk dəfə Estoniya SSR Yazıçılar İttifaqının *"Looming"* jurnalında dərc edilib. Lakin qeyd etdiyimiz kimi, onun poeziyasından estoncaya ilk dəfə birbaşa tərcümələr məhz Li Seppelin adı ilə bağlıdır. R. Rza poeziyasından götürülmüş həmin seçmələr 1971-ci ildə şairin Tallində *"Eesti Raamat"* nəşriyyatı tərəfindən buraxılmış "Tükənməzlik" *("Ammendamatus")* adlı kitabında toplanıb.[212] Kitaba R. Rzanın 45 seçilmiş şeiri, o cümlədən məşhur "Rənglər" silsiləsi daxil edilib.

Bu poeziya toplusu eston oxucuları tərəfindən böyük rəğbətlə qarşılanıb və Li Seppel kitabın uğurlu tərcüməsinə görə 1972-ci ildə Estoniya SSR-in

[210] S. Issakov. Eesti–aserbaidžaani kirjandussuhete ajaloost. Tallinn, "Keel ja Kirjandus",1978, № 6, 356 lk.
[211] L. Seppel. Sinus kinni on ilupuu juur. Tallinn, "Noorus" 1972, nr. 8, lk. 13–16.
[212] Rässul Rza. Ammendamatus. Aserbaidžaani keelest tõlkinud Ly Seppel. Tallinn, "Eesti Raamat", 1971. – 64 lk.

Yuxan Smuul adına ədəbiyyat mükafatına layiq görülüb. "Tükənməzlik" şeirlər toplusunun nəşri o zaman Estoniyada həqiqətən ədəbi hadisəyə çevrilmişdi. Tanınmış eston şairi və rəssamı Aleksander Suuman (1927–2003) yazırdı: "Bizim şair Li Seppel böyük şair Rəsul Rzanın ecazkar şeirlərini eston dilinə çox gözəl çevirmişdir. Estoniya SSR-in Dövlət mükafatına layiq görülmüş həmin tərcümələr bizim respublikanın oxucularına R. Rza yaradıcılığının dərin qatları ilə tanış olmaq və bununla da şairin Vətənini, xalqını yaxından tanımaq imkanı yaratmışdır".[213]

1. Rəsul Rza. *2. Aleksander Suuman.* *3. Eugen Kapp.*

Yeri gəlmişkən qeyd edək ki, görkəmli eston bəstəkarı Eugen Kapp (1908–1996) Rəsul Rzanın lirik şeirləri əsasında vokal silsilə bəstələyib. *Mezzo-soprano* səs tembrli ifaçılar üçün nəzərdə tutulmuş həmin silsilə "Ağlar söyüdün yarpaqları" adlı romansla başlayır. E. Kapp R. Rza poeziyasının fəlsəfi dərinliyinə və şeirlərinin bənzərsiz lirik çalarlarının incəliyinə valeh olduğunu vurğulayıb: "Bu gözəl şairin lirikası əsrarəngsiz cazibə qüvvəsi ilə insan qəlbini özünə əsir edir və mən bu lirikanı musiqi ilə ifa etməyə çalışmışam".

"Tükənməzlik" toplusunun nəşrindən sonra R. Rzanın poetik yaradıcılığında yer almış sərbəst şeirlərin deyim tərzi və özünəməxsus intonasiya çalarları barədə Li Seppel yazır:

"Estonlar qonşu latışların ədəbi korifeyi – şair Yanis Raynisi (1865–1929) hələ axıradək öyrənməyiblər. Amma biz artıq [...] türk şairi Fazil Hüsnü Dağlarcanın yaradıcılığı ilə tanışıq. Eləcə də katalon şairi Salvador Espriunun (1913–1985) şeirləri və Rəsul Rzanın "Rənglər"i ilə. Türk xalqlarının poeziyasında verlibr şeir formasına gəlincə, yalnız üç adı çəkməklə kifayətlənəcəyəm – Nazim

[213] Bakı, "Ulduz" jurnalı, 1987, № 11, səh. 56.

Hikmət, Dağlarca və Rəsul Rza. Bunların üçü də gözəl sərbəst şeir yaradıcılarıdır. Lakin kimsə, nəyə görəsə, hələ də təsdiq etməyə çalışır ki, sərbəst şeir sistemi türk dilləri üçün guya qəbul edilməzdir. Düzdür, digərləri ilə müqayisədə Azərbaycanda belə fikir söyləyənlər azdır. Ancaq özgə yerlərdə, məsələn, Türkmənistanda, Qazaxıstanda və başqa ölkələrdə bu məsələ ətrafında danışıqlar hələ də davam etməkdədir".[214]

Hələ tələbəlik illərindən Rəsul Rzanın novator poeziyasına və onun parlaq sənətkar şəxsiyyətinə böyük hörmət bəsləyən Li Seppel sonralar həmin hisslərini SSRİ Yazıçılar İttifaqının *"Literaturnaya qazeta"* həftəliyinin 25 iyul 1979-cu il tarixli sayında çap olunmuş "Mən sizin bağda gəzirəm" başlıqlı açıq məktubunda çox səmimi şəkildə ifadə etmişdir:

"Salam, Rəsul müəllim!

Bu əhvalat on dörd il əvvəl Bakıda, bahar yağışları dönəmində olub. Mən artıq bir il idi ki, Azərbaycan Dövlət Universitetində türk dili sahəsində biliyimi təkmilləşdirir və səylə Azərbaycan dilini öyrənirdim. O vaxt gənc tələbə şair dostlarım mənə öz müəllimləri – Sizin haqqınızda sayğı və həyəcanla danışırdılar. Onlar bilirdilər ki, poeziyanızı eston dilinə tərcümə etmək barədə ciddi düşünürəm və bir gün xəbər verdilər ki, bizi bağa qonaq dəvət etmisiniz. O zaman mənə elə gəlirdi ki, artıq Şərq adətlərinə bələdəm və buna görə də düşünürdüm ki, böyük vəcdlə mədh edilməyə layiq, şan-şöhrət qartallarının müşayiət etdiyi bir şəxslə görüşə gedirəm.

Sən demə, heç bir qartal-filan yox imiş. Bunun əvəzinə isə dostluq duyğuları, təmənnasız məhəbbət və Şərq qonaqpərvərliyi ilə qarşılandım. Həm də diqqət, təvazökarlıq, Avropa erudisiyası və bəşəri hikmətlə üzləşdim".

Rəsul Rza Li Seppelin məktubuna böyük sayğı ilə cavab yazaraq ona eston–Azərbaycan ədəbi əlaqələrinin genişləndirilməsi sahəsində gördüyü işlərə görə dərin minnətdarlığını bildirmişdi. Xalq şairimizin həmin məktubu da *"Literaturnaya qazeta"* həftəliyinin 30 yanvar 1980-ci il tarixli sayında dərc edilib.

Sonda belə bir qənaəti açıqlamaq istərdik ki, Rəsul Rzanın "Tükənməzlik" poeziya toplusunun, o cümlədən "Rənglər" silsiləsinin estonca nəşri birbaşa Azərbaycan dilindən edilmiş parlaq tərcümə nümunəsi olmaqla bərabər, həm də Li Seppelin indiyədək tərcümə yaradıcılığında qazandığı ən böyük uğurlardan biridir.

[214] Расул Рза. Краски. Азербайджанская литература на иностранных языках. Электронная информационная база данных перевода с азербайджанского языка. Баку, www.translit.az 2009 г., стр. 32; Анар. "Литература, искусство, культура Азербайджана". I том. Баку, издательский дом "Letterpress", 2010, стр. 333. ISBN 978-9952-452-15-0.

Türk xalqlarının mədəniyyət elçisi

Li Seppel Azərbaycan ədəbiyyatı ilə yanaşı, həmçinin digər türk xalqlarının dilindən – türk, özbək, qazax, türkmən, tatar və başqırd ədəbiyyatından estoncaya çox sayda tərcümələr edib. O, həmin tərcümələrin bir qismini həyat yoldaşı – tanınmış eston şairi və gözəl tərcüməçi Andres Ehinlə (1940–2011) birgə ərsəyə gətirib. Həmin tərcümələrin böyük hissəsi Türkiyə ədəbiyyatının payına düşür. Li Seppel 30-a yaxın türk yazarının poeziya və nəsr əsərlərinin estoncaya tərcümələrinin müəllifidir. O, uzun illərdir ki, bu sahədə mütəmadi olaraq çalışır və diqqətçəkən uğurlu işlərə imza atır. Belə ki, türk şairi, yazıçı və dramaturq Nazim Hikmətin seçilmiş şeirlərini ehtiva edən "Bir qırmızı alma" adlı kitab,[215] yazıçı, publisist və dramaturq Əziz Nesinin seçilmiş felyetonları,[216] şair Fazıl Hüsnü Dağlarcanın şeirlərindən ibarət "Dörd qanadlı quş" adlı nəşr,[217] türk ədəbiyyatı tarixinin ən böyük filosof şairlərindən olan Yunus Əmrənin "Başlanğıc və axır mənəm" adlı poeziya toplusu,[218] kürd kökənli türk yazıçısı Yaşar Kamalın "İlanı öldürsələr" romanı[219] Li Seppelin tərcüməsində Tallində işıq üzü görüb.

Siyahını davam etdirib qeyd edək ki, 1997-ci ildə Tallində L. Seppel və A. Ehinin tərcümə etdiyi "XX əsr türk poeziyası" antologiyası nəşr olunub.[220] Estoniyanın populyar və oxunaqlı "Yaradıcılıq kitabxanası" *("Loomingu Raamatukogu")* seriyasından buraxılan bu antologiyaya tanınmış 12 türk müəllifinin – Ahmet Haşim, Nazim Hikmət, Ercüment Behzat, Necip Fazıl Kısakürek, Cahit Sıtkı Tarancı, Fazıl Hüsnü Dağlarca, Orhan Veli Kanık, Oktay Rifat, Melih Cevdet Anday, Cahit Külebi, Ahmet Arif və Turgut Uyarın şeirləri daxil edilib.

2010-cu ildə isə L. Seppelin və A. Ehinin tərcüməsində daha bir antologiya – "XX əsrin II yarısı türk poeziyasından seçmələr" toplusu eston poeziya həvəskarlarının ixtiyarına verilib.[221] Bu topluda şair və yazarlardan Cevat Çapan, Özdemir İnce, Cemal Süreya, Gülten Akın Cankoçak, Bejan Matur və digər türk müəlliflərinin yaradıcılığından seçmə şeirlər yer alıb.

[215] Nazim Hikmet. See punane õun. Valitud luuletusi. Türgi keelest tõlkinud Ly Seppel, A. Kaalep. Tallinn, "Eesti Raamat", 1965. – 107 lk.

[216] Aziz Nesin. Hull pääses lahti. Valik fõljetone. Türgi keelest tõlkinud Ly Seppel. Tallinn, "Perioodika", 1968. – 72 lk.

[217] Daglarca Fazil Hüsnü. Nelja tiivaga lind. Luuletused. Türgi keelest tõlkinud Ly Seppel (järelsõna – T. Melikov), Tallinn, "Perioodika", 1969. – 64 lk.

[218] Yunus Emre. Olen algus ja lõpp. Luuletused.Türgi keelest tõlkinud Ly Seppel ja Andres Ehin. Järelsõna – A. Ehin. Tallinn, "Eesti Raamat", 1986. – 78 lk.

[219] Y. Kemal. Madu maha tappa! Türgi keelest tõlkinud (ja järelsõna) Ly Seppel. Tallinn, "Perioodika", 1995. – 71 lk.

[220] XX sajandi türgi luulet. Isahirve öö. Türgi keelest tõlkinud Ly Seppel ja Andres Ehin. Järelsõna – Andres Ehin. Tallin, "Perioodika", 1997. – 64 lk. ISBN 5797906104.

[221] Lind tulemäe kohal. Valik XX sajandi teise poole türgi luulet. Türgi keelest tõlkinud Ly Seppel ja Andres Ehin. Tallinn, "Kultuurileht", 2010. – 52 lk. ISBN 978-9949-42-863.



Eston dilində "XX əsr türk poeziyası" antologiyası və N. Hikmətin "Bir qırmızı alma" toplusunun görüntüləri.

Məşhur türk yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı Orxan Pamukun "Qar" romanı da Li Seppelin tərcüməsində Tallində nəşr olunub[222] və o, bu əsərin türk dilindən edilmiş uğurlu tərcüməsinə görə 2007-ci ildə Estoniya Dövlət Mədəniyyət Fondunun *(Eesti Kultuurkapital)* mükafatına layiq görülüb.

2013-cü ildə Orxan Pamukun daha bir əsərini – "Mənim adım qırmızı" romanını Li Seppel oxuculara eston dilində təqdim edib.[223]

Onu da qeyd edək ki, Li Seppel 1974-cü ildə istedadlı türkmən şairi Gurbannazar Ezizovun "Bəyaz süd kimi bahar sabahı" başlıqlı şeirlər kitabını,[224] 1979-cu ildə rusdilli türkmən yazıçısı Rahim Esenovun "Turanın göz yaşları" adlı romanını[225] (Anatoliy Şalaşovla ortaq yazılıb), 1986-cı ildə Qazax akını, xalq yazıçısı və ictimai xadim Fariza Onğarsınovanın poeziya toplusunu eston dilinə çevirib nəşr etdirib[226] və eston ədəbiyyatının türk dillərindən edilmiş tərcümələr xəzinəsini xeyli zənginləşdirib.

Li Seppel dili türk xalqlarının bulqar qrupu dillərinə aid olan başqırd (başqurd) ədəbiyyatından da tərcümələrə imza atıb. Belə ki, onun A. Ehinlə birgə çevirdikləri başqırd xalq qəhrəmanı və el şairi Salavat Yulayevin (1754–

[222] Orhan Pamuk. "Lumi". Tõlkinud Ly Seppel. Tallinn, kirjastus "Pegasus", 2007. ISBN 978-9949-425-37-2.

[223] Orhan Pamuk. "Minu nimi on Punane". Türgi keelest tõlkinud Ly Seppel (toimetaja Tene Hook; järelsõna: Andres Ehin; kujundaja Jan Garshnek). Tallinn, "Pegasus", 2013. – 519 lk. ISBN 978-9949-505-319.

[224] Gurbannazar Ezizov. "Kevadhommiku valge piim". Luuletused. Turkmeeni keelest tõlkinud Ly Seppel. Tallinn, "Eesti Raamat", 1974. – 48 lk.

[225] Rahim Essenov, Anatoli Salašov. "Turaani pisarad" (romaan noorsoole). Vene keelest tõlkinud Andres Ehin, Ly Seppel. Tallinn, "Eesti Raamat", 1979. – 300 lk.

[226] Fariza Ongarsõnova. Lõõsalaulud. Luuletused. Kasahhi ja vene keelest tõlkinud Ly Seppel. Tallinn, "Eesti Raamat", 1984. – 56 lk.

1800) şeirləri Estoniya başqırdlarının "Agidel" mədəniyyət cəmiyyətinin təşəbbüsü ilə 2014-cü ildə Tallində nəşr olunmuş kitabda yer alıb.[227]

Qeyd edək ki, Li Seppel türk dilləri ilə yanaşı rus və fin ədəbiyyatından da çoxsaylı tərcümələr edib. Eston oxucuları onu həm də estonca yazdığı gözəl əsərlərin müəllifi kimi tanıyır və sevirlər. Şairin ilk kitabı 1965-ci ildə, o, hələ Tartu Universitetinin tələbəsi ikən nəşr olunub və oxucu auditoriyasının diqqətini çəkib. İndiyədək bu xanım yazarın 10-a yaxın poeziya toplusu və uşaqlar üçün yazdığı bir neçə kitabı çap edilərək oxucuların mühakiməsinə verilib.

Oda sitayişə və qayaüstü rəsmlərə ehtiramla yazılmış misralar

Li Seppelin əsərlərində torpağa və Vətənə, doğma dilə, dinə, ədəbi ənənələrə və digər etnokulturoloji eston dəyərlərinə mənsubluqdan doğan milli ruh və vətəndaşlıq duyğuları, Skandinaviya xalqlarının mədəniyyətinə yaxınlıqdan yaranan düşüncə tərzi, yanaşma və inikaslar üstünlük təşkil edir. Eyni zamanda, onun poeziyasında türk xalqları ədəbiyyatına xas olan bir sıra çalarları da sezmək mümkündür. Ədibin həmçinin Azərbaycan şairlərinin əsərlərini eston dilinə tərcümə edərkən poeziya xəzinəmizin geniş imkanlarından yaradıcı surətdə bəhrələnməsi də diqqətdən qaçmır.

Şübhəsiz ki, Azərbaycan, eləcə də digər türk xalqları ədəbiyyatına mənsub olan zəngin təşbehlər sistemi və deyim üsulları Li Seppelin yaradıcılığına təsir göstərib, əsərlərinin bədii üfüqlərini genişləndirib və onun lirikasındakı hiss-həyəcan, iztirab, fikir və arzuların tərənnüm tərzini xeyli zənginləşdirib.

Mübaliğəsiz demək olar ki, bu xanım yazarın ədəbi yaradıcılığındakı bəzi bədii tapıntılar məhz ədəbiyyatımızdan etdiyi önəmli tərcümələrlə bağlıdır. Bunu Li Seppelin 1974-cü ildə Tallində çap olunmuş "Od ətrafında kölgələr haləsi" *("Varjuring ümber tule")* adlı poeziya kitabında xüsusilə aydın sezmək mümkündür.[228]

Bu topluya şairin 85 şeiri daxil edilib. Bunların arasında bir sıra türkdilli xalqlara həsr olunmuş şeirlər, o cümlədən Azərbaycan mövzusunda yazılmış əsərlər də vardır. Maraqlıdır ki, həmin əsərlərdən biri eston oxucularına türk dilində başlıqla – "Seni kim düşünüyor" – təqdim olunub.

[227] Salavat Julajev. 260 aastat Salavat Julajevi sünnist / Салават Юлаев. 260-летие Салавата Юлаева (koostaja Fljuza Hairullina; Salavat Julajevi luuletuste tõlge eesti keelde: Andres Ehin, Ly Seppel; Salavat Julajevi luuletuste tõlge vene keelde: B. Turganov, G. Šafikov; Mustai Karimi näidendi "Salavat" tõlge eesti keelde: Ilnur Hairullin, Mustai Karimi näidendi "Salavat" tõlge vene keelde: J. Kozlovski; eessõnad: Urve Tiidus, Inga Gvozdikova). Tallinn, 2014, 203 lk. ISBN 978-9949-173-07-5.

[228] Ly Seppel. "Varjuring ümber tule". Tallinn, Kirjastus "Eesti Raamat", 1974. – 110 lk.

Vurğulamaq istərdik ki, bu nəşr Estoniyada ilin ən yaxşı poeziya kitabı adına layiq görülüb və Li Seppel 1975-ci ildə bu kitab üçün ikinci dəfə Y. Smuul adına ədəbiyyat mükafatı ilə təltif edilib.

Kitab Azərbaycan tədqiqatçılarında həm mövzu, həm də bədii tərtibatı baxımından böyük maraq doğurur. Nəşrin üz qabığında Qobustan qayaüstü rəsmlərindən görüntülər verilib. Bu rəsmlər içərisində daş üzərində quş, heyvan işləmələri, ov səhnəsi cizgiləri də vardır. Amma bunlarla müqayisədə insan və kollektiv rəqs təsvirləri üstünlük təşkil edir ki, biz onlarla kitabın içində də qarşılaşırıq. Qədim insanların assosiativ olaraq Atəşpərəst məbədlərində – Odlar yurdunun sönməyən müqəddəs od yerlərində təsvir edilməsi dərin rəmzi məna daşıyır, kitabın məzmunu və ideya istiqaməti ilə tamamilə uzlaşır, geniş anlamda desək, Li Seppelin Azərbaycana sənətkar baxışları və etnokulturoloji yanaşmaları ilə ilahi və daxili bir ahəngdarlıq təşkil edir. Kitabın adında da məhz o cür yanaşma və assosiativ düşüncələr öz poetik təcəssümünü tapıb.





Eston şairi Li Seppelin "Od ətrafında kölgələr haləsi" kitabından görüntülər.

Zənnimizcə, "Od ətrafında kölgələr haləsi" poeziya toplusunda yer almış Azərbaycan mövzulu şeirlər, Li Seppelin yurdumuza, xalqımızın tarixinə, qədim Atəşpərəstlik etiqadına və ən qədim yaşayış məskənlərindən biri olan Qobustana, həm də bunların timsalında digər milli dəyərlərimizə bəslədiyi dərin sayğını əks etdirən gözəl və qiymətli poeziya nümunələridir. Bu əsərlər həm eston ədəbiyyatında, həm də mədəni əlaqələrimiz tarixində böyük əhəmiyyət daşıyan ədəbi faktorlardan sayıla bilər.

İşıq axınında seçilən kövrək nur teli

Beləliklə, Li Seppelin tərcümələri və orijinal poetik əsərləri eston ədəbiyyatına yeni bədii incilər - tərənnüm və ifadə tərzi, təşbeh və metaforaların rəngarəngliyi, şərqsayağı lirik duyğular dünyası və xüsusi bir Azərbaycan zənginliyi gətirib desək, yanılmarıq. Li Seppel, sözün həqiqi mənasında, Azərbaycan və digər türk xalqları ədəbiyyatının Estoniyadakı zərif və əzəmətli səsi, xoş məramlı Səfiridir. O, xalqımızın və ədəbiyyatımızın böyük dostu olaraq Azərbaycanda sevilən, yurdumuza hər gəlişinə sevindiyimiz əsl ziyalıdır. Təsadüfü deyil ki, bir sıra Azərbaycan yazıçı və şairləri – Anar, Fikrət Qoca,[229] Fikrət Sadıq, Abbas Abdulla, Vaqif Arzumanlı və başqa müəlliflər Li Seppel şəxsiyyətinə böyük rəğbətlə yanaşaraq onun haqqında yazdıqları məqalə, oçerk və şeirlərində bu eston şairini sevə-sevə təsvir və tərənnüm ediblər



1. Eston şairi və tərcüməçi Andres Ehin. *2. Şair və publisist Fikrət Sadıq.*

Li Seppel eston və Azərbaycan xalqları arasındakı qədim əlaqələrin həm layiqli varisi və davamçısı, həm də müasir dövrdə yeni məzmunlu əlaqələrimizin istedadlı yaradıcısıdır. O, xalqlarımızın qarşılıqlı anlaşma ənənələrini zənginləşdirib təcəssüm edən bədii söz ustası, ədəbi və mədəni əlaqələrimizi böyük istedadla yaradıb yaşadan bənzərsiz bir sənətkardır. Eynilə 1969-cu il avqustda Estoniyada səfərdə olarkən şair Fikrət Sadığın ona həsr etdiyi bir lirik şeirində deyildiyi kimi, "o, dost ellərimiz arasındakı işıq axınındakı bir nur telidir". F. Sadıq bu şeirini "Sevgi yağışı" adlı poeziya kitabındakı "Eston mahnısı" şeirlər silsiləsinə daxil edib.[230]

[229] Fikrət Qoca. "Ulduzlu düşüncələr". Şeirlər və poemalar. Bakı, "Yazıçı", 1978, səh. 31–32.
[230] Fikrət Sadıq. "Sevgi yağışı". Şeirlər və lirik poemalar. Bakı, "Gənclik", 1970, səh. 54–55.

Li Seppelin sənətkar şəxsiyyəti və onun tərcümə yaradıcılığı haqqındakı düşüncə və qeydlərimizi gözəl şair F. Sadığın həmin duyğulu şeiri ilə bitirmək istərdik:

Eston şairi Li Seppelə

Sən gedəndə
Bir dalğa apardın –
şeirli,
Bir bulaq apardın –
nəğməli,
Bir yamac apardın –
laləli,
Li!

Sarı cildli,
Eston dilli,
Bir kitabı vərəqlədim.
Gördüm Mirzə Cəlili.
Səni xatırladım, Li!

Kitablar qovuşdurar
Bir dost elə,
Bir dost eli.
Bu işıq axınında
Sən də kövrək nur teli,
Səni xatırladım, Li!

Vilnüs – Tallin – Bakı, yanvar – aprel 2017-ci il.

"ŞƏRQİN QAPISI" KƏHRƏBA VƏ GÖLLƏR DİYARINDA

Səməd Vurğun poeziyası Litva dilində

Yaradıcılığı Azərbaycan–Litva ədəbi əlaqələri tarixində özünəməxsus yer tutan Səməd Vurğunun poeziyası ilə Litva oxucusu doğma dilində ilk dəfə 1946-cı ildə tanış olub. Bu, yazıçı və şair Antanas Ventslovanın S. Vurğundan tərcümə etdiyi məşhur "Azərbaycan" şeirinin həmin ildə Litva Yazıçılar İttifaqının *"Literatūra ir menas"* həftəliyində çap edilməsi ilə əlaqədardır.[231]

Bu tanışlıqdan sonra S. Vurğunun şeirlərini digər Litva şairləri – Aleksis Xurginas,[232] Albinas Jukauskas,[233] Yudita Vayçyunayte,[234] Sigitas Geda [235] tərcümə edərək müxtəlif illərdə ədəbi dərgilərdə və dövri mətbuatda dərc etdiriblər. Şairin "Fərhad və Şirin", "Xanlar" dramları 1946–1947-ci illərdə Litva teatr səhnələrində oynanılıb.[236]

Səməd Vurğun müxtəlif millətlərdən olan yazıçı həmkarları ilə birgə. Sağdan birinci: S. Vurğunun litvalı dostu – şair, nasir və tərcüməçi Antanas Ventslova.

Buna baxmayaraq S. Vurğunun əsərləri 1980-ci ilə kimi Litva dilində ayrıca kitab şəklində çap olunmamışdı. Məhz həmin ildə ilk dəfə şairin "Şərqin qapısı" *("Rytų vartai")* adlı seçilmiş lirik şeirlər toplusu poeziya, kəhrəba və göllər diyarı kimi tanınmış Litvada geniş oxucu dairələrinə təqdim olunub.[237]

[231] Vilnius, "Literatūra ir menas", 1946 m. gruodžio 20 d.
[232] Vilnius, "Literatūra ir menas", 1951 m. balandžio 8 d.
[233] Vilnius, "Pergalė", 1966, Nr. 3.
[234] "Poezijos pavasaris – 72". Vilnius, "Vaga", 1972, 110 psl.
[235] Vilnius, dienraštis "Tiesa". 1976 m. gruodžio 29 d.
[236] V. Arzumanovas. "Kūrybos broliai". Vilnius, "Mintis", 1976, psl. 11.
[237] Samedas Vurgunas. "Rytų vartai". Vilnius, "Vaga", 1980, 125 psl.

Yeri gəlmişkən, qeyd edək ki, bu şeirlər toplusu əsası 1974-cü ildə Vilnüsün *"Vaga"* nəşriyyatında qoyulan *"Žvaigždynas"* poetik seriyasından buraxılıb. "Şərqin qapısı"nın çapına qədər bu seriyadan Aleksandr Tvardovskinin, Avetik İsahakyanın, Oyars Vatsietisin, Debora Vaarandinin, Yevqeni Vinokurovun və digər tanınmış poetik söz ustalarının tərcümə kitabları çap edilib.

"Şərqin qapısı" kitabına S. Vurğunun 1976-cı ildə Azərbaycan Dövlət Nəşriyyatında çap olunmuş seçilmiş əsərlərinin birinci cildindən götürülmüş 52 şeiri salınıb. Şeirləri Litva dilinə tanınmış şair və istedadlı mütərcim Yonas Yakştas çevirib.



1. S. Vurğunun litvaca buraxılmış "Şərqin qapısı" kitabının üz qabığı.
2. Litvalı şair və tərcüməçi Yonas Yakştas.

Öncədən qeyd edək ki, Y. Yakştas tərcümə zamanı şerlərin mətninə maksimum səviyyədə sadiq qalıb və əsas qayəni saxlaya bilib. Zənnimizcə, bu cür dəqiq poetik çevirmələr həm də şeirlərin uğurla hazırlanmış sətri tərcümələr əsasında tərcümə olunması ilə bağlıdır. Orijinalın dilindən edilmiş sətri tərcümələri Azərbaycan və digər türk xalqları ədəbiyyatlarının Litva dilinə gözəl tərcüməçisi kimi tanınmış karaim əsilli ədəbiyyatşünas alim Halina Kobetskayte hazırlayıb. Kitabda getmiş "Azərbaycan nəğməkarı Səməd Vurğun" sərlövhəli ön sözün müəllifi professor Vaqif Arzumanlıdır.

Kitab S. Vurğunun çoxvektorlu zəngin lirik yaradıcılığının başlıca motivlərini ehtiva etmək baxımından uğurla tərtib olunub. Topludakı şeirlər Litva oxucusuna xalq şairimizin lirik əsərlərinin yüksək səviyyəsi ilə tanış olmağa, geniş poetik üfüqlərinə ətraflı nəzər salmağa, sənətkarın doğma Vətənə, onun tarixinə və təbiətinə sonsuz məhəbbətini, insana və insanlığa yüksək sayğısını, dərin inam hisslərini yaxından duymağa imkan verir. Topluya S. Vurğun lirikasının səciyyəvi

xüsusiyyətlərini daşıyan xrestomatik əsərlər – "Yadıma düşdü", "Dağlar", "Kür çayı", "Mən tələsmirəm", "Hərəkət", "Həyat fəlsəfəsi", "Rəssamın son əsəri", "Körpünün həsrəti", "Qafqaz", "Nizami", "Dünya", "Bənövşə" və digər bu qəbildən olan şeirlər daxil edilib və oxuculara şairin poetik sözlə yaratdığı lirik lövhələrin fərqli və parlaq rənglərini əks etdirən gözəl örnəklər kimi təqdim olunub.

Bununla bərabər, bizi maraqlandıran əsas məsələ toplunun necə tərcümə edilməsidir. Yəni, tərcümənin keyfiyyəti oxuculara S. Vurğun yaradıcılığının yüksək sənətkarlıq səviyyəsi ilə tanış olmağa nə dərəcədə imkan verir? Bu sualı "Şərqin qapısı" kitabı haqqında bir sıra litvalı müəlliflərin ölkənin ədəbi nəşrlərində çap etdirdikləri resenziya və icmallarda ehtiva olunmuş ədəbi-tənqidi fikirlərin yığcam xülasəsini verməklə və həmin fikirlərə münasibətimizi bildirməklə cavablandırmaq istərdik.

Həmin məqalələrdən birinin müəllifi ünlü şair və tərcüməçi Sigitas Gedadır. Yeri gəlmişkən, qeyd edək ki, S. Geda Azərbaycan ədəbiyyatını yaxından tanıyan və Litvada sevə-sevə tanıtdıran yazarlardan biri olub. O, "Kitabi-Dədə Qorqud"dan başqa, S. Vurğunun, R. Rzanın, A. Şaiqin və başqa Azərbaycan söz ustalarının əsərlərini müxtəlif illərdə öz tərcüməsində Litva oxucusuna təqdim edib. Şair həmçinin, gürcü, yapon, yunan, yəhudi, erməni, hind və Çin ədəbiyyatından çoxsaylı tərcümələrin müəllifi kimi tanınıb. Onun ən mühüm yaradıcılıq işlərindən biri "Quran"ın Litva dilinə tərcüməsidir. Bu tərcümələr ədibə Şərq şeirinin texnikası, ruhu və rəngarəngliyi ilə yaxından tanış olmaq, istedadını daha da cilalamaq imkanı yaradıb. Odur ki, S. Gedanın "Şərqin qapısı" kitabı haqqında yazdığı "Prometeyi necə qoparmalı?!" adlı məqaləni[238] Litva poeziyasının görkəmli təmsilçilərindən birinin və eyni zamanda çox yüksək səviyyəli peşəkar və nüfuzlu mütərcimin mülahizələri kimi qəbul etmək lazımdır. Müəllif 1980-cı ildə Litva dilində buraxılmış poeziya kitablarının illik xülasəsini təqdim edərkən yazır:

"...Keçən il çapdan çıxmış poeziya tərcümələri arasında Azərbaycan şairi S. Vurğunun "Şərqin qapısı" adlı şeirlər toplusu zəif səslənir. ...Həm də, əgər şair haqqında əsas bioqrafik faktlar və mücərrəd xarakterli bir neçə qeyd nəzərə alınmazsa, bu toplu həddən artıq ümumiləşdirilib unifikasiya edilmiş kitab təəssüratını bağışlayır. O cür mücərrəd mülahizə və qeydləri bir çox şairlər haqqında demək mümkündür. Bu kitabdan Azərbaycan poeziyası və şairin yaradıcılığı haqqında yeni heç bir məlumat əldə etmirik. Hətta qəribədir ki, toplunun sonunda verilmiş izahlar lüğətində bizə hələ məktəb partası arxasında keçirdiyimiz illərdən tanış olan bir sıra sözləri oxuyuruq: – aşıq, ceyran, qəzəl, Quran, Nizami, qəlyan, piyalə və s."

[238] Literatūros panorama – 80. Vilnius, "Vaga", 1981, psl. 261.

Daha sonra S. Geda qeyd edir: "Yonas Yakştas birinci dəfə deyil ki, tərcümə edir. Ancaq Azərbaycan poeziyasını Litvada təmsil edən bu ilk topludakı əsərlərin bir çox bəndləri ruhsuz və miskin şəkildə səslənir. Dəfələrlə deyilmiş, çeynənmiş köhnə qafiyələr, uğursuz poetik inersiyalar və leksik ştamplar kimi görünür. O cür qafiyələr hər bir orta səviyyəli tərcümədə ola bilər, amma S. Vurğunda yox! Əsası budur ki, toplunu oxuyub qurtarandan sonra inana bilmirsən ki, bu, məşhur Şərq lirikası ustadının kitabıdır..."

S. Geda öz mülahizələrini tərcümə ilə bağlı bəzi misallarla əsaslandırır. Buna səciyyəvi nümunə olaraq "Həyat fəlsəfəsi" şeirinin tərcüməsi haqqındakı fikirləri təqdim etmək istərdik. Öncə şeirin aşağıda göstərilən bəndinə fikir verək:

Dünyaya bir şöhrət yaranmışıq biz,
Günəş çökməmişdir qaranlığa diz.
Qoy ölsün yamanlıq, o xain iblis!..
Yaxşılıq çağırsın hər qəlbin neyi,
Qurtaraq zəncirdən Prometeyi...[239]

Bu bəndin sonuncu misrası ("Qurtaraq zəncirdən Prometeyi...") Litva dilinə "Qoy qoparılsın (!) Prometey qayadan..." şəklində tərcümə olunub. İlk baxışdan səhvsiz görünən bu tərcümə barədə S. Geda belə yazır: "...Bizə hələ orta məktəb yaşlarından məlumdur ki, Prometey Zevsin əmri ilə bir dağa zəncirlənmişdi. Onsuz da böyük əzab-əziyyətlər içində dəhşətli ağrılar yaşayan Prometeyi qayadan çəkib qoparsaq, onda onun halı necə olar?!"

S. Vurğunun Litva dilinə belə zəif tərcümələri haqqında digər tanınmış litvalı mütəxəssis, ədəbiyyatşünas və tərcüməçi Arvidas Valyonisin tənqidi fikirləri də mövcuddur.

Bununla yanaşı, bir sıra müəlliflər "Şərqin qapısı" toplusunun tərcüməsini uğurlu sayaraq onu mütərcimin müvəffəqiyyətli işlərindən biri kimi qiymətləndiriblər. Onlardan biri, – şair və tərcüməçi Vitautas Skripka (1943–2013) kitab haqqında yazdığı və 1981-ci ildə Litva Yazıçılar İttifaqının *"Pergalė"* ədəbi jurnalında dərc etdirdiyi "Xalqı üçün yaradıb" adlı resenziyada[240] göstərir:

"...S. Vurğun Litva dilində necə səslənir? Qeyd etmək lazımdır ki, tərcüməçi Y. Yakştas böyük və məsuliyyətli bir yaradıcılıq işinin öhdəsindən layiqincə gəlib. S. Vurğunun poeziyası vicdanla və poetik hissiyatla tərcümə olunub. Əgər hardasa bir beyt və yaxud hansısa bənd o qədər də şərqsayağı səslənmirsə, bunun günahı heç də tərcüməçidə yox, ilk növbədə, bizim poeziyanın incə ruhunda və ona xas olan həssaslıqdadır...".

[239] Səməd Vurğun. Seçilmiş əsərləri. I cild, Bakı, 1976, səh. 56.
[240] Vytautas Skripka. "Kūręs savo liaudžiai". Vilnius, "Pergalė", 1981, Nr. 4, psl. 177–178.

Çox qəribə və başlıcası isə məntiqsiz bir müddəadır, elə deyilmi?! Müəllif burada təkcə oxucunu yox, həm də özünü çaş-baş salıb. Ona bu labirintdən çıxmağa kömək edək. Əvvəla, müəllif irəli sürdüyü müddəanı ehtimal formasında yürüdür və fikirlərini əyani misallarla əsalandırmır. Sonra isə orijinala layiq səslənməyən tərcümələrə səbəb olaraq Litva poeziyasının incə ruhunu, onun həssaslığını "günahlandırmaqla", V. Skripka dolayısı ilə doğma dilinin bədii imkanlarını qismən inkar edir. Həm də ki, məqalə müəllifinin fikrincə, topluda "təbii və mənalı" tərcümələr vardır (V. Skripka buna səciyyəvi misal olaraq "Kür çayı", "Azərbaycan", "Dağlar" və digər şeirləri göstərir). Axı, əgər belələri varsa, deməli, "şərqsayağı" səslənməyən şeirləri də eyni ruhda və eyni minvalla uğurla tərcümə etmək olardı...

Yeri gəlmişkən, S. Vurğunun Vətən himninə çevrilmiş "Azərbaycan" şeiri Litva dilinə iki dəfə – 1946-cı və 1970-ci illərdə A. Ventslova və A. Jukauskas tərəfindən tərcümə olunub. "Şərqin qapısı"nda getmiş tərcümə artıq üçüncü tərcümə variantı olaraq bəzi müqayisələr aparmaq və təhlillər etmək üçün imkanlar yaradır... Həm də "Azərbaycan"ın tərcüməsi üzərində ona görə bir qədər geniş dayanmaq istərdik ki, bu şeir şairin şah əsərlərindən biridir. S. Vurğun özü bu haqda belə deyib:

"Azərbaycan" şeiri [...] mənim bütün həyatımı, bütün həyat proqramımı ifadə edir. Mən nə qədər yaşayıb-yaratsam belə, bu kiçik şeirdə verdiyim motivlərin bir çox başqa əsərlərimdə də ifadə olunduğunu görəcəksiniz...".[241]

"Azərbaycan" şeirinin A. Ventslova tərəfindən edilmiş tərcüməsi bu şeirin şair Adelina Adalisin (1900–1969) rus dilinə etdiyi tərcüməni xatırladır. A. Ventslova da A. Adalis kimi şeiri on iki hecalı sillabik-tonik vəzndə[242] tərcümə edib. Litvalı şair də S. Vurğun yaradıcılığının manifest əhəmiyyətli çağırışlarını ehtiva edən iki bəndi – "Mən bir uşaq, sən bir ana..." və "Fəqət səndən gen düşəndə..." misraları ilə başlanan bəndləri tərcümə zamanı ixtisar edib. A. Jukauskasın tərcüməsində isə həmin bəndlər saxlanılıb və olduqca gözəl tərcümə olunub. A. Jukauskas tərcümə zamanı səkkiz hecalı ölçünü də saxlayıb, şeirin ritmini, intonasiya və qafiyə sistemini (aaa, bbb) orijinalın mətninə adekvat olaraq qoruyub. Bu tərcümədə "Azərbaycan" şeirindəki dərin duyğular dünyası, zəngin kolorit və yüksək emosional təsir qüvvəsi çox aydın hiss olunur. Odur ki, A. Jukauskasın tərcüməsi orijinalın ruhuna daha yaxın və daha güclüdür. Bu yerdə xüsusilə vurğulamaq istərdik ki, göstərilən səbəblərə görə "Azərbaycan" şeiri Litvada 1972-ci ildə keçirilən ənənəvi "Poeziya baharı" festivalı zamanı məhz A. Jukauskasın tərcüməsində Litvanın bir çox mərkəzi və rayon qəzetlərində dərc edilib.

[241] Səməd Vurğun. "Tərcümə yaradıcılığı". Bakı, "Ədəbiyyat və incəsənət", 8 mart 1958-ci il.
[242] Misrada vurğulu və vurğusuz hecaların eyni qaydada növbələşməsi hesabına yaranan şeir vəzni.

Y. Yakştas da bu şeirin Azərbaycan dilindəki mətninə tam sadiq qalmağa çalışıb, lakin orijinaldan fərqli olaraq on hecalı ölçüyə üstünlük verib. Həm də tərcümədən hiss olunur ki, mütərcim Litva dilində "Azərbaycan"ın milli koloritini və poetik hərarətini qoruyub saxlamaq üçün böyük səylər göstərib. Lakin təəssüf ki, Y. Yakştasın bu səylərinin nəticəsi A. Ventslova və A. Jukauskasın tərcümələri ilə müqayisədə bərabər poetik tonda və rakursda səslənmir.

"Şərqin qapısı" şeirlər kitabının tərcümə səviyyəsi barədə Vilnüsdə *"Literatūra ir menas"* həftəliyində 1980-ci ildə dərc edilmiş başqa bir resenziyada – hüquqşünas və şair Gintautas Stankaytis tərəfindən yazılan "Azərbaycan sazı Litva kanklesinin[243] avazı ilə səslənir" adlı məqalədə də[244] ziddiyyətli fikirlər səslənir, qeyri-adekvat ümumiləşdirmələr və şişirdilmiş təriflər təqdim olunur...

Ümumiyyətlə, Y. Yakştasın bu yaradıcılıq işi A. Jukauskasın və S. Gedanın S. Vurğundan etdiyi tərcümələrlə müqayisədə o qədər də qəlbə yatımlı, cazibəli və axıcı deyil. Düşünürük ki, bu, öz növbəsində bizə S. Vurğunun lirik şeirlərinin gələcəkdə bir daha Litva dilinə tərcümə edilməsinə zərurətin olması barədə fikir söyləməyə tam əsas verir...

P.S: Məqalə, S. Vurğunun "Şərqin qapısı" kitabı barədə M. Həmzəyevin Bakıda və Vilnüsdə 1980–1981-ci illərdə dərc olunmuş ədəbi resenziyaları əsasında yenidən işlənmişdir.

Bakı, "Ədəbiyyat və incəsənət", 12 dekabr 1980-cı il, № 50.
Vilnüs, "Literatūra ir menas", 14 mart 1981-ci il, № 11.

[243] Kankles – Litva xalq musiqisinin ifası zamanı geniş istifadə edilən simli musiqi alətidir.
[244] Gintautas Stankaitis. "Sazas skamba kanklių balsu". Vilnius, "Literatūra ir menas", 1980 m. lapkričio 7 d.

BÖYÜK ŞAİRİN 80 İLLİK YUBİLEYİNƏ EHTİRAMLA

Dünyanın bir çox ölkələrində olduğu kimi, kəhrəba və göllər diyarı Litvada da Azərbaycan ədəbiyyatının klassiki Səməd Vurğun poeziyasının çoxlu pərəstişkarı vardır. S. Vurğunun şeirləri Litva dilinə 1946-cı ildən başlayaraq tərcümə olunur. S. Vurğun sənəti haqqında litvalı müəlliflər müxtəlif illərdə bir sıra məqalələr, esselər və resenziyalar yazıb dərc etdiriblər.

1986-cı ildə həm Azərbaycanda, həm də Vətənimizin hüdudlarından kənarda S. Vurğunun anadan olmasının 80 illik yubiley tədbirləri keçirilib. Bu gözəl yubiley münasibəti ilə, müasir Litva kiçik qrafika sənətinin tanınmış nümayəndəsi, rəssam Alfonsas Çepauskas S. Vurğun yaradıcılığına bəslədiyi ehtiram və məhəbbəti ona həsr etdiyi ekslibrisdə – kitab nişanında təsvir edib.



1. S. Vurğuna həsr edilmiş ekslibrisin görüntüsü. 1986-cı il. 2. Ekslibrisin yaradıcısı – litvalı rəssam A. Çepauskas

A. Çepauskas əsasən kiçik qrafika ilə bağlı təsviri sənət sahəsində çalışır. İndiyədək Riqa, Tallin, Moskva, Lvov, Minsk, Qorki və digər şəhərlərdə, eləcə də bəzi xarici ölkələrdə onun yaratdığı ekslibrislərdən ibarət bir sıra fərdi sərgilər keçirilib. O, hazırda Litvanın bağçılar cəmiyyətinin mətbu orqanı olaraq Vilnüsdə nəşr olunan *"Mūsų sodai"* adl aylıq jurnalda bədii redaktor olaraq çalışır, həm də Litva SSR Könüllü kitabsevənlər cəmiyyəti Vilnüs şəhər "Ekslibris" klubunun sədridir.

Rəssamın Səməd Vurğuna həsr etdiyi ekslibrisi "Azərbaycan gəncləri" qəzetinin oxucularına təqdim edirik. Qeyd edək ki, əsər ilk dəfədir mətbuatda dərc olunur.

Bakı, "Azərbayan gəncləri" qəzeti, 20 noyabr 1986-cı il, № 137

Sigitas GEDA (1943–2008)
Litva şairi, dramaturq, tərcüməçi, tənqidçi və esseist,
Litva Respublikasının mədəniyyət və incəsənət üsrə milli mükafatı laureatı,
Baltik Assambleyasının ədəbi mükafatı laureatı

AZƏRBAYCANLI LİTVACA YAZIR

Azərbaycanın gənc ədəbiyyatşünası Vaqif Arzumanovun adı Litvada yaxşı tanınır, – bu yerdə „indi" sözünü də əlavə etmək lazımdır. Belə ki, təxminən on üç il öncə Bakıda keçirilən tələbə elmi konfransında mən onunla tanış olarkən onun özü də Litva haqqında indi olduğu qədər bilgili deyildi. Həmin konfrans SSRİ xalqlarının ədəbi əlaqələrinin öyrənilməsinə həsr edilmişdi. Burada oxunan məruzələr konfransın gənc iştirakçıları üçün məruzəçilərə olduğu qədər vacib deyildi. Adətən, gənclər üçün belə konfranslar, ilk növbədə bir-biri ilə həvəslə tanış olub əlaqələr qurmaq baxımından böyük önəm və məna kəsb edirdi. Ola bilsin, sözügedən konfrans o vaxtkı tələbə V. Arzumanova da Litvaya, onun tarixinə, dilinə və mədəniyyətinə maraq göstərmək üçün stimul vermişdi.

Bir ildən sonra V. Arzumanov Vilnüs Universiteti tələbələrinin elmi konfransına qatıldı, sonra Vətənində müəllim işlədi, daha sonra Vilnüsdə aspiranturada oxudu. 1976-cı ildə isə onun Litvaya göstərdiyi uzunmüddətli marağın nəticəsi olaraq, Litva və Azərbaycan arasındakı mədəniyyət və dostluq əlaqələrinə həsr olunmuş "Yaradıcılıq qardaşları" *("Kūrybos broliai")* adlı oçerklər toplusu Vilnüsdə litvaca işıq üzünü gördü.[245]

Müəllif kitaba yazdığı ön sözdə deyir: "Qoy oxucular bilsinlər ki, onların əlində tutduqları bu kitab Litva dilində yazılaraq dünyaya gəlib..."

Kitabın dəyərləndirilməsinə məhz elə bu faktdan başlamaq istərdim: gəlin bir anlığa təsəvvür edək ki, bizim özümüzə uzaq Azərbaycan dilində oxşar bir şey yazmaq lazımdır... Odur ki, bu kitabın litvaca dünyaya gəlməsi öz-özlüyündə məxsusi bir haldır.

Bu məsələdə daha bir hal həlledici əhəmiyyət kəsb edir – ədəbi klassikimiz Vintsas Krevenin xatirəsi Azərbaycanda, Bakıda əbədiyaşardır. Yaxşı əkilmiş

[245] Vagifas Arzumanovas. „Kūrybos broliai". Vilnius, „Mintis", 1976, 95 psl.

toxum məhv olmur, cücərir. Xalqlar onların arasında qardaşlıq, nur və yaradıcılıq körpüləri salmış insanları unutmurlar... Eynilə, məsələn Bolqarıstanda litvalı doktor Yonas Basanaviçyus (1851–1927) və ya Litvada sorb əsilli poliqlot Yurgis Zauerveynas unudulmayan kimi. Yeri düşmüşkən, böyük beynəlmiləlçi Y. Zauerveynas hələ 1889-cu ildə Leypsiqdə çap olunmuş „Mirzə Şəfinin Şərq-Qərb Divanı" adlı kitabında Azərbaycan şairi Mirzə Şəfini Litvanın adından şeirlə təbrik edib:

...Təbrik edənlərin sıralarında
Səni təbrik edir əziz Litva da...

Kitabı oxuyarkən müəlliflə birgə daha dərin tarixi kökləri axtara-axtara gəlib litvalıların tatarlarla əlaqələri barədə yazılı mənbəyə – Azərbaycan yazıçısı Yusif Vəzir Çəmənzəminlinin hələ 1919-cu ildə nəşr edilmiş "Litva tatarlarının tarixi" kitabına çıxırıq... Xalqlarımızın qədimdən bu günə qədər davam edən əməkdaşlıq əlaqələri ilə bağlı bütün belə faktları, digər adları və materialları oxucunun özü kitabda tapa bilər.

Müəllifin dilləri öyrənmək, kitab üçün material toplamaq və tarixləri tutuşdurub yoxlamaqla bağlı böyük zəhmətlə gördüyü işlər artıq arxada qalıb. Hazırda onu "Azərbaycan–Baltik ədəbi əlaqələri" mövzulu doktorluq dissertasiyası üzərində apardığı iş maraqlandırır. Gördüyümüz kimi, artıq onun elmi tədqiqat sahəsinin sərhədləri xeyli genişlənib. V. Arzumanovu qabaqda tarix və ədəbiyyatın hələ öyrənilməmiş yeni-yeni qatları gözləyir... Biz isə indiyə qədər yalnız yaxın qonşularımızla maraqlanmışıq. Bu sahədə litvalı tədqiqatçılardan Kostas Korsakas, Kyastutis Nastopka, Vitautas Kubilyus, Regina Mikşite tərəfindən görülmüş elmi araşdırmaları xatırlaya bilərik ki, bu işlərdə litva və latış, balt və polyak, litva və slavyan xalqlarının ədəbiyyat modelləri nəzərdən keçirilib tutuşdurulur, paralellər aparılır. Bir də, linqvistik əlaqələrin tədqiq olunduğu *"Baltistica"* dərgisini[246] və litvalı akademik Vitautas Majyulisin "Balt və digər Hind-Avropa dillərinin əlaqələri" adlı əsərini göstərə bilərik. Bunların hamısı çox böyük bir elmi problemin müxtəlif aspektləridir. Mədəni əlaqələrin qarşılıqlı təsiri və problemləri ilə bağlı mövzular ölkəmizdə getdikcə daha aktual şəkildə qaldırılır. Bu cür elmi işlərin işığında biz həm də özümüzə yenidən nəzər salmaq imkanı əldə edirik.

V. Arzumanovun da elmi araşdırmalarının ən yaxın müddətdə balt və türk xalqları mədəni əlaqələrinin ortaq probleminə çevriləcəyi şübhəsizdir. Lakin bu oçerklər kitabında həmin əlaqələrin ortaq probleminə uzaq müşahidə

[246] "Baltistica" – Balt dillərinin tədqiqi üzrə beynəlxalq dilçilik jurnalıdır. Əsası 1965-ci ildə qoyulub. Vilnüs Universitetinin "Balt dilləri" kafedrası tərəfindən hazırlanıb nəşr olunur. Jurnalda yer alan məqalələr, resenziyalar və məlumatlar litva, latış, ingilis, alman, fransız və rus dillərində çap edilir.

1. Azərbaycan–Baltik ədəbi əlaqələrinin tədqiqatçısı, professor Vaqif Arzumanlı. 2. "Yaradıcılıq qardaşları" ("Kūrybos broliai") kitabının görüntüsü. Vilnüs, 1976-cı il.

nöqtəsindən baxaraq məhz böyük bir elmi plan kimi təqdim edilən əhatəli ümumiləşdirmələr çatışmır. Sözün düzü, bu kitab geniş oxucu auditoriyasına ünvanlanıb və müəllif bütün sovet ədəbiyyatşünaslığında qaldırılıb müzakirə olunan bir çox məsələləri burada heç həll etmək məqsədi də güdmür. Bundan savayı, müəllifin fəaliyyəti kifayət qədər çoxşaxəlidir – o, yalnız ədəbi əlaqələrin tədqiqatçısı və Bakı Universitetinin müəllimi deyil, həm də ədəbiyyatımızın səmimi dostu və tərcüməçisi, Litva ədəbiyyatının Azərbaycandakı, Azərbaycan ədəbiyyatının isə Litvadakı təbliğatçısıdır. Onu yalnız poeziya və nəsr deyil, həm də incəsənət və musiqi maraqlandırır. İndi bizim eqoistcəsinə düşünüb ehtiyat etməyə ciddi əsasımız var. Belə ki, bəs V. Arzumanov qonşularımız latış və eston xalqları ilə azərbaycanlıların mədəni əlaqələrinin araşdırılması işinə qatılanda necə olacaq? Onda onun bizə olan diqqəti azalmayacaq ki? Bu yerdə bizə, müəllifin Litvaya, onun təbiətinə, xalqına və mədəniyyətinə dərindən bağlılığını etiraf edən sözlərini xatırlamaq qalır:

"Bu bir həqiqətdir ki, insan daxili aləmində hər zaman öz xalqının kiçik portretini gəzdirir. Lakin mən qəlbimdə doğma Azərbaycanımla yanaşı Litvanın da kiçik portretini daşıyıram..."

Gəlin kitabın müəllifinə həmin portretin getdikcə daha parlaq rənglərə boyanmasını arzulayaq.[247]

Vilnüs, "Literatūra ir menas" həftəliyi, 28 avqust 1976-cı il, № 35.

[247] S. Gedanın bu resenziyasını Litva dilindən Mahir Həmzəyev tərcümə edib.

ANARIN VƏ RƏŞAD MƏCİDİN NOVELLALARI LİTVA DİLİNDƏ

60-cılar nəslinin Baltik ölkələrində vuran nəbzi

Son yarım əsr Azərbaycan ədəbiyyatının ən ünlü simalarından olan Xalq yazıçı Anar ötən əsrin məşhur 60-cılar ədəbi nəslinin ustad yaradıcılarından biri olaraq Baltik ölkələrinin mədəni ictimaiyyətində çoxdan tanınır, əsərləri eston, latış və litva dillərinə tərcümə olunaraq burada yayımlanır ("Dantenin yubileyi" və "Beşmərtəbəli evin altıncı mərtəbəsi" əsərlərinin eston dilindəki nəşrləri barədə öncəki məqalələrdə yazmışıq). O, həmçinin bu günədək Baltik xalqlarının 60-cı illər ədəbi nəslinin bir sıra ünlü təmsilçiləri – qələm qardaşları ilə dostluq və yaradıcılıq əlaqələrini davam etdirir. Bu mənada Anarı cəsarətlə Azərbaycan ədəbiyyatının 60-cılar nəslinin həm də bu ölkələrdə döyünən ürəyi və vuran nəbzi adlandırmaq olar...

Anar litvalı oxucuların qəlbinə hələ ötən əsrin 70-cı illərində "Mən, sən, o və telefon" hekayəsi ilə yol tapıb və o zamandan Litva ədəbi məkanına Azərbaycan ədəbiyyatının yeni nəfəsini gətirib.

Ədib göstərilən hekayəni 1967-ci ildə yazıb. Əsər indiyədək müxtəlif ölkələrdə bir çox dillərdə işıq üzü görüb. O cümlədən, Litva dilinə tərcümə olunaraq Litva Yazıçılar İttifaqının *"Nemunas"* jurnalının 1974-cü ildə Kaunasda çıxmış 7-ci sayında dərc edilib.[248] Hekayəni rus dilindən litvalı publisist Yuozas Lingis çevirib. Əsər ölkədə maraqla qarşılanıb və onun haqqında burada yazılmış bir sıra qeydlərdən göründüyü kimi, hekayədə cisim və hadisələr arasındakı əlaqələrin assosiativ inikası olaraq yaradılmış telefon (telefon nömrəsinin) mənəvi obrazı orijinallığı ilə Litva oxucusunun diqqətini çəkib, onun zövq və təxəyyül dünyasına yeni naxışlar bəxş edib...

Bununla yanaşı Litvanın bir neçə ədəbi-bədii nəşrlərində müxtəlif illərdə Anarın ədəbi yaradıcılığı haqqında məqalələr də çap olunub. Bunlardan biri – *"Nemunas"* jurnalının 1982-ci ildə buraxılan 3-cü sayında çap olunmuş ədəbi məqalə Anarın nəsr əsərləri ilə bağlı araşdırılan məsələlərin genişliyi və dərinliyi, həmçinin yüksək analitik səviyyəsi ilə seçilir.

2003-cü ildə Litvanın *"Kultūros barai"* mədəniyyət və incəsənət jurnalının 7-ci nömrəsində Anarın litvaca daha bir əsəri – "Qırmızı limuzin" novellası çap olunub. Əsəri Litva dilinə tanınmış tərcüməçi və ədəbiyyatşünas, ünlü ictimai-mədəni xadim və diplomat Halina xanım Kobetskayte tərcümə edib.

[248] Anaras. "Aš, tu, jis ir telefonas". Apsakymas. Iš rusų kalbos vertė Juozas Lingys. Kaunas, "Nemunas", 1974 m. Nr. 7

1. Yazıçı, naşir və jurnalist Rəşad Məcid. 2. Xalq yazıçısı Anar, sənətşünaslıq doktoru, professor Zemfira Səfərova və Mahir Həmzəyev Litva Azərbaycanlıları Cəmiyyətinin ofisində. Vilnüs, 16 may 2005-ci il.

Böyük nəsrə aparan yolun Litvadan keçən hissəsi

Daha bir Azərbaycan müəllifi – tanınmış yazıçı, şair və publisist Rəşad Məcidin yaradıcılığı Litvadakı diasporumuzun dəstəyi ilə 2008-ci ildən bu ölkədə yayımlanmağa başlayıb.

R. Məcidin müasir ədəbi mühitdə rezonans doğurmuş əsərlərindən biri 2003-cü ildə işıq üzü görmüş "10 sentyabr" adlı məşhur hekayəsidir. Filologiya elmlər doktoru Vaqif Yusifli yazır ki, "10 sentyabr" hekayəsi məhz bu günün reallığını gözlərimiz qarşısında canlandırır. Hekayənin qəhrəmanı keçid dövrünün ağrı-acılarını öz taleyində yaşayan müasirimizdir. [...] Hekayə təhkiyə tərzi etibarilə maraqlıdır, oxucunu ələ ala bilir, novellaçılıq üslubu ilə seçilir. Ancaq bu hekayənin ən önəmli cəhəti həqiqəti heç bir yalan demədən, ona heç bir boya vurmadan olduğu kimi təsvir etməkdir".

Xalq yazıçısı Anar isə bu hekayəni "Rəşad Məcidi böyük nəsrə apara biləcək yolun uğurlu başlanğıcı hesab edir".

Fərəhli haldır ki, Litva Yazıçılar İttifaqının *"Literatūra ir menas"* ədəbi-bədii həftəliyinin 4 iyul 2008-ci il tarixli sayında Rəşad Məcidin "10 sentyabr" hekayəsi nəşr edilib.[249] Əsəri Litva dilinə litvalı ədəbiyyatşünas Edita Ratkuviene və Mahir Həmzəyev çeviriblər. Qəzetdə Rəşad Məcidin həyat və yaradıcılığı barədə ensiklopedik məlumatlar da yer alıb.

[249] Rešadas Medžidas. "Rugsėjo 10-oji". Apsakymas. Vilnius, "Literatūra ir menas", 2008 m. liepos 4 d. Nr. 27. Iš azerbaidžaniečių kalbos vertė Mahiras Gamzajevas ir Edita Ratkuvienė.

Rəşad Məcidin 2003-cü ildə yazdığı "10 sentyabr" hekayəsi öz aktuallığını, ədəbi və ictimai dəyərini qoruyub saxlayan əsərlərdəndir. Əsər günümüzdə həm Azərbaycan cəmiyyətində, həm də dünyanın ayrı-ayrı ölkələrində müşahidə olunan, müxtəlif xalqlarda özünü göstərən anti-Amerika ovqatını əks etdirir. Hekayə litvaca dərc ediləndən sonra onun haqqında mediada fərqli fikirlər dərc edildi. Əsər Avropa Birliyinin və NATO hərbi blokunun üzvü olan Litvada maraqlı hekayə kimi qiymətləndirilsə də, birmənalı qarşılanmadı. Amma siyasi reallığı bədii reallığa çevirən bu hekayədə Litva oxucusu Rəşad Məcidin böyük ustalıqla yaratdığı əsl azərbaycanlı xarakteri ilə – "gündəlik çörək pulunu taksi xidmətindən çıxaran" baş qəhrəmanla yaxından tanış ola bildi.

Sonda "10 sentyabr" hekayəsinin müxtəlif dillərə tərcümələri ilə bağlı diqqətəlayiq bir ədəbi fakta toxunmaq istərdik. 2010-cu ildə "Mütərcim" nəşriyyatı Bakıda bu hekayənin türk, ingilis, rus, macar, ukrayna, rumın, polyak, litva, özbək və gürcü dillərinə olunmuş tərcümələrini ehtiva edən "10 sentyabr" toplusunu çap edib.[250]

15 sentyabr 2010-cu ildə Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda bu toplunun təqdimatı keçirildi. Təqdimat mərasimində Xalq şairi Fikrət Qoca hekayənin xarici dillərə tərcümə olunmasını yüksək qiymətləndirdi və Rəşad Məcidi yeni kitab münasibəti ilə təbrik etdi. "Dünya ədəbiyyatı" dərgisinin baş redaktoru Səlim Babullaoğlu, AYB katibi Arif Əmrahoğlu, "Ulduz" jurnalının Baş redaktoru Elçin Hüseynbəyli də müəllifi bu əhəmiyyətli olayla bağlı təbrik etdilər.

[250] Rəşad Məcid. "10 sentyabr". "Dünya ədəbiyyatından – Books" seriyasından. Bakı, "Mütərcim", 2010, 119 səh.

"QARA ÇÖRƏYİN AĞ ÜZÜ" VİLNÜSDƏ

Litvanın *"Lietuvos žinios"* respublika qəzetinin 26 fevral 2010-cu ildə çapdan çıxmış sayında tanınmış publisist, "İnam" plüralizm mərkəzinin rəhbəri Vahid Qazinin "Qara çörəyin ağ üzü" adlı essesi dərc edilib. Esse dünyaca ünlü siyasətçi, görkəmli ictimai-mədəni xadim, 1988-ci ildə Litva Xalq Cəbhəsi – *Sąjūdis* hərəkatının qurucularından biri, 1990–1992-ci illərdə müstəqil Litvanın ilk dövlət başçısı, 1996–2000-ci illərdə Litva Seyminin sədri olmuş, 2004-cü ildən isə Avropa Parlamentinin deputatı olaraq fəaliyyət göstərmiş professor Vitautas Landsbergisə həsr olunub.

Esseni Litva dilinə Mahir Həmzəyev və litvalı filoloq Edita Ratkuviene çeviriblər. Publikasiyada V. Qazinin həyat və yaradıcılığı barədə ensiklopedik bilgilər də verilib.

1. Yazıçı, publisist Vahid Qazi. 2. Litvalı filoloq və tərcüməçi E. Ratkuviene

1909-cu ildən nəşr edilən *"Lietuvos žinios"* gündəliyi Litvanın qədim və nüfuzlu qəzetlərindən biridir. Geniş oxucu auditoriyası olan bu qəzet hazırda 20 min tirajla yayımlanır. Qəzetin populyar internet versiyası da mövcuddur və V. Qazinin essesi həmin portalda da yerləşdirilib. Həmçinin Litvanın *www.alfa.lt* və *www.balsas.lt* internet qəzetləri də esseni öz səhifələrində dərc ediblər.

Əsər Litva oxucuları tərəfindən maraqla qarşılanıb. Ümumən essinin litvaca nəşr edilməsini müasir Azərbaycan bədii publisistikasının Avropa ölkələrində yaxından tanıdılıb yayımlanması istiqamətində atılan gərəkli və uğurlu addımlardan biri olaraq dəyərləndirmək olar.

"Qara çörəyin ağ üzü" essesi 2009-cu ildə yazılıb və V. Qazinin uğurlu qələm işlərindən biri kimi tanınaraq qəbul edilib. Esse məşhur "Yaddaş

ləpirləri" silsiləsinə daxildir və müəllifin müxtəlif kitablarında, o cümlədən 2011-ci ildə Bakıda nəşr edilmiş "Yaddaş ləpirləri. Demokratiya yazıları" toplusunda yer alıb.

Vahid Qazinin öz təbirincə desək, onun bu kitabında "toplanan esselərin, məqalələrin izinə düşüb dünyanın dörd bir yanına getmək olar. Amma apardığı yol axırda gətirib eyni ünvana çatdıracaq səni. Bu dalğa səni Bosniyadan Cənubi Afrikaya, Krımdan Polşaya, Ukraynadan Qırğızıstana, Özbəkistandan Amerikaya aparıb eyni sahilə çıxaracaq. Ağdamdan Ağdərəyə, Şuşaya yön alıb yenə eyni yerə gələcəksən. Bu ünvan, bu sahil, bu yer – azadlıq dəlisi insandır. Sənsən, əziz oxucu..."

LİTVA ENSİKLOPEDİYASINDA AZƏRBAYCAN YAZARLARI BARƏDƏ

Ümumdünya Litva Ensiklopediyasının 2011–2012-ci illərdə buraxılmış XX və XXI cildlərində Azərbaycan ədəbiyyatının bir sıra görkəmli təmsilçiləri barədə məqalələr yer alıb. Bu cildlərdə 11 yazarımız – M. Ə. Sabir, C. Məmmədquluzadə, A. Səhhət, O. Sarıvəlli, M. Rzaquluzadə, S. Rəhimov, R. Rza, N. Rəfibəyli, X. Rza Ulutürk, S. Rüstəmxanlı və Anar haqqında məqalələr dərc edilib.

Həmin məqalələrdə yazıçılarımızın həyat və yaradıcılığı barədə ensiklopedik məlumatlar, Azərbaycan ədəbiyyatının və tərcümə sənətinin inkişafı üçün onların verdiyi vacib töhfələr və milli söz sənətimizə gətirdikləri ədəbi yeniliklər haqqında yığcam ümumiləşdirmələr ehtiva olunub.

Bununla yanaşı, oxuculara göstərilən ədiblərin Litva ədəbiyyatı və litvalı müəlliflərlə yaradıcılıq əlaqələri barədə faktlar, həm də əsərlərinin Litva dilinə tərcümələri haqqında bilgilər təqdim edilib.

Məqalələri Litva Azərbaycanlıları Cəmiyyətinin sədri, Litva–Azərbaycan mədəni və ictimai-siyasi əlaqələrinin tədqiqatçısı Mahir Həmzəyev hazırlayıb.

Qeyd edək ki, Ümumdünya Litva Ensiklopediyası universal xarakterli fundamental bir nəşrdir. 2001-ci ildən başlayaraq Vilnüsdə "Elmi və Ensiklopedik nəşrlər" mərkəzi tərəfindən Litva dilində buraxılır. Ensiklopediyanı 25 cilddə nəşr etmək nəzərdə tutulub. İndiyədək onun 21 cildi çap olunub. Bir cild təqribən 800 səhifədən ibarətdir. Ensiklopediyada ümumiyyətlə 130 min məqalənin, illüstrasiya olaraq 24 min şəklin və 650 ədəd xəritə görüntüsünün yerləşdirilməsi planlaşdırılıb. Gələcəkdə onun mətninin elektron daşıyıcıları və internet vasitələrilə də yayılması nəzərdə tutulub.

Ümumdünya Litva Ensiklopediyası səciyyə etibarilə ingilislərin *Britannica*, polyakların *Wielka Encyklopedia Powszechna* və almanların *Brockhaus* ensiklopediyalarını xatırladır. Format, struktur və məqalələrin həcmi baxımından isə daha çox *Brockhaus* ensiklopediyasına yaxındır.

Bakı, AR Diasporla iş üzrə Dövlət Komitəsinin saytı, 7 yanvar 2013-cü il.

PƏRVİNİN HEKAYƏLƏRİ LİTVA VƏ LATIŞ DİLLƏRİNDƏ

Litvanın *"Šiaurės Atėnai"* ədəbiyyat və incəsənət həftəliyinin 6 iyul 2012-ci ildə çapdan çıxmış sayında AYB üzvü, gənc nasir Pərvin Nurəliyevanın "Samir üçün" adlı hekayəsi dərc edilib.

Hekayəni Litva dilinə Mahir Həmzəyev və litvalı filoloq Edita Ratkuviene çeviriblər. Qəzetdə müəllifin həyat və yaradıcılığı barədə məlumatlar da yer alıb.

Pərvinin "Çarəsiz yalan" hekayəsini isə görkəmli latış ədibi, tərcüməçi və şair Uldis Berzinş 2013-cü ildə tərcümə edib və həmin ilin dekabrında Riqada keçirilmiş Proza Festivalı çərçivəsində gənc latış yazarı Zane Bruverenin təqdimatında tədbir iştirakçılarına oxunub.

HƏMVƏTƏNİMİZİN ROMANI VİLNÜSDƏ

Litvada yaşayan azərbaycanlı fırça ustası, Azərbaycan Rəssamlar İttifaqının üzvü Adilə Əfəndi həm də rusdilli şair və yazar kimi tanınıb.[251] 2014-cü ildə Bakıda onun ilk nəsr kitabı – *"Akkord"* adlı rusca romanı nəşr edilib.[252]

25 may 2015-ci ildə Litva Rəssamlar İttifaqının Vilnüsdəki *"Arka"* qalereyasında bu romanın təqdimatı keçirilib. Tədbir Azərbaycan Respublikasının Litvadakı Səfirliyinin dəstəyi ilə baş tutub.

Azərbaycanın Litvadakı səfiri Həsən Məmmədzadə və Adilə Əfəndi "Akkord" kitabının təqdimat mərasimi zamanı.

Təqdimat mərasimində Türkiyənin Litvadakı səfiri Aydan Yamancan, ölkənin tanınmış mədəniyyət və incəsənət xadimləri, media təmsilçiləri iştirak ediblər.

Azərbaycanın Litvadakı səfiri Həsən Məmmədzadə mərasimi açaraq iki ölkə arasındakı mədəni əlaqələrdən danışıb. O, romanın Azərbaycan və Litva xalqlarının gənc övladlarının məhəbbətindən bəhs etdiyini diqqətə çatdıraraq, əsərin xalqlarımızı biri-birinə daha yaxından tanımasına töhfə verəcəyinə ümidvar olduğunu bildirib.

[251] A. Əfəndi 28 iyun 1961-ci ildə Bakıda rəssam ailəsində anadan olub (atası – tanınmış rəssam Qorxmaz Əfəndiyevdir). 1979-cu ildə Əzim Əzimzadə adına Bakı rəssamlıq məktəbini bitirib. 1981-ci ildən Vilnüsdə yaşayır. 1981–1988-ci illərdə Vilnüs Rəssamlıq Akademiyasında təhsil alıb. Qrafika fakültəsini bitirib. Azərbaycan Rəssamlar İttifaqının üzvüdür. 1991-ci ildən əsərləri sərgilənir. 1991–2018-ci illərdə Vilnüsdə, Klaypedada, Bakıda, Moskvada, Ankarada fərdi sərgiləri təşkil olunub. 2007–2017-ci illərdə Litva – Azərbaycan mədəniyyət və musiqi əlaqələri sahəsində həyat keçirilmiş bir neçə projenin kuratoru olub. Litva – Azərbaycan mədəniyyətlərarası dialoqunun və ictimai-mədəni əlaqələrimizin inkişaf etdirilməsi üçün töhfələr verib.

[252] Адиля Эфенди. "Аккорд". Роман. Баку, "Мутарджим", 2014, 196 стр. ISBN 978-9952-28-182-8.

Təqdimat tədbirinə qatılmış Litva mədəniyyət xadimləri (soldan): opera solisti Sigute Trimakayte, rejissor Albertas Vidjyunas, aktrisa Eleonora Koriznayte, kitabın müəllifi Adilə Əfəndi, sənədli kino rejissoru Agne Martsinkəviçyute və yazıçı Herkus Kunçyus. Vilnüs, "Arka" qalereyası, 25 may 2015-ci il.

Litvanın tanınmış kino aktrisası Eleonora Koriznayte roman haqqında qısa bilgilər verdikdən sonra əsərdən bəzi hissələri öz ifasında iştirakçıların diqqətinə çatdırıb.

Çıxış edənlər Adilə Əfəndinin ilk romanını yüksək qiymətləndiriblər və bundan sonra da onun əsərlərinin litvalı oxuculara təqdim ediləcəyinə ümidvar olduqlarını bildiriblər.

Bunlara əlavə olaraq qeyd etmək istərdik ki, *"Akkord"* romanının həmçinin Azərbaycanda təqdimat mərasimi olub. Tədbir 17 mart 2015-ci ildə Bakı Kitab Evində Litva Respublikasının Azərbaycandakı Səfirliyinin dəstəyi ilə keçirilib. Bu təqdimat zamanı çıxış edənlər müəllifin Litva ilə mövcud olan sıx əlaqələrini vurğulayaraq, romanda həm də müasir Litva həyatı və mədəni irsi ilə bağlı məqamlara diqqət yetirildiyini deyd ediblər.

ELDAR NƏSİBLİNİN ŞEİR ÇƏLƏNGİNDƏ LİTVA ÇİÇƏKLƏRİ

Bizi vaxtsız tərk etmiş görkəmli şair, publisist və tərcüməçi Eldar Nəsibli Sibirelin (1952–2010) anadan olmasının 65 illiyi 2017 ci ildə sanballı tədbirlərlə qeyd edilib. Şairin ildönümü münasibətilə "Yazıçı" nəşriyyatının buraxdığı "Seçilmiş əsərləri"nin Qazax şəhərindəki Ədəbiyyat muzeyində təqdimatı keçirilib.

Məni Eldar ilə onun qardaşı – tələbə yoldaşım, filoloq və şair dostum Vəli Nəsibli (Xramçaylı) tanış edib. Ötən yüzilliyin 80-ci illərində E. Nəsibli Sibirel ilə dostluq və yaradıcılıq əlaqələri saxlamış, bir müddət yazışmalar da aparmışıq. Axırıncı dəfə 2001-ci ildə Bakıda bir tədbirdə ayaqüstü görüşmüşdük. Təbii ki, o vaxt nə Eldar, nə də mən bilmirdik ki, bu, bizim son görüşümüz olacaq... Çox təəssüf... Geniş qəlbli insan, milli təfəkkürlü həssas şair, sözün həqiqi mənasında, dəyərli və sadiq dost, millət təəssübkeşi və doğma torpağa qırılmaz tellərlə bağlı Vətən oğlu, olduqca sağlam düşüncəli bir ziyalı idi...

Kaunas gözəlləri haqqında duyğulu xatirələr

Eldar Nəsiblinin gözəl əsərləri arasında diqqətimi çəkən belə bir lirik şeir var: "Rəşad Məcid, yadındamı o günlər"... Həmin şeir 2002-ci ildə yazılıb və aşağıdakı bəndlə başlanır:

Rəşad Məcid, yadındamı o günlər?!
O günlər ki, bir qızılgül qoxurdu
Şənimizə Kaunaslı gözəllər,
"Cip-cip, cip-cip" – cücələrim oxurdu...

Bu əsər tanınmış söz ustası və qələm sahibi Rəşad Məcidin 2004-cü ildə Bakıda işıq üzü görmüş "10 sentyabr" adlı kitabının "Kənar gözlə" başlıqlı bölümündə də yer alıb. Şeirin yaranmasına rəvac vermiş bəzi yaradıçılıq məqamlarına və yazılma tarixçəsinə aydınlıq gətirmək üçün 2017-ci ilin aprel ayında Rəşad bəyə məktubla müraciət edib açıqlamalar verməsini xahiş etdim.

Sağ olsun Rəşad bəy, cavabı gecikdirmədi. Sözügedən şeirlə bağlı ondan ertəsi gün nostalji hisslərlə aşılanmış və gənclik illərinin qanadlı romantik duyğularının nəfəs aldığı açıqlama və şərhlər aldım:

"Mahir bəy, gecə məktubunuzu oxudum, xatirələr məni 30 il əvvələ apardı. O illərdə mən gənc bir oğlan idim. "Elm və həyat" jurnalında korrektor işinə

düzəlmişdim. Eldar Nəsibli də jurnalın məsul katibi idi. Yadıma düşür ki, sizin adinizi ilk dəfə Eldarın dilindən eşitmişəm! Bəlkə elə Kaunasa getdiyimiz ərəfədə eşitmişəm!

"Elm və həyat" jurnalı "Bilik" Cəmiyyətinin orqanı idi. Yaddaşım məni yanıltmırsa 1986-cı, ya da 1987-ci ildə Kaunasda "Bilik" Cəmiyytinin konfransına qatılmışdıq. Eldar Nəsibli, mən, "Bilik" Cəmiyətindən İsmət muəllim və Pedaqoji institutdan Oruc Qüdrətov. Deyəsən hec Vilnüsdə ləngimədik, təyyarədən düşüb birbaşa Kaunasa getdik. Dediyim kimi, onda gənc oğlan idim, dil-dil ötürdüm, iki kaunaslı gənc qızla tanış olmuşdum və qızları otelə dəvət etmişdim. Məktəbli qızlar idi bəlkə, hər halda cox gənc idilər. Azərbaycan barədə söhbət açdıq! Məlum oldu ki, bizim haqqımızda bilgiləri "Cücələrim" mahnısından ibarətdir! Və bizim xahişimizlə qızlar "Cücələrim" mahnısını oxuyurdular. Eldar cox sevinirdi. Hətta dediyi bu sözlər yaxşı yadımdadı: "Qoy Tofiq Mütəllibova zəng vurum ki, Rəşad kaunaslı gözəllərə sizin sözlərinizə yazılmış mahnını oxutdurur!" Tofiq müəllim o zaman "Azərbaycan gəncləri" qəzetində poeziya şöbəsinin müdiri idi.

Konfransla bağlı başqa detallar elə çox yadımda qalmayıb. Amma qayıdanda bir hadisə oldu ki, onu tez-tez xatırlayıram! Deməli biz avtovağzala gəldik ki, Kaunasdan avtobusla Vilnüsə gedək. Mən orda bir kök, kilolu taksi sürücüsü ilə tanış oldum. Sən demə o, Minskdən imiş, bu tərəflərə sərnişin gətiribmiş, indi geri qayıdırdı. Mən onunla danışdım və bizi Vilnüs hava limanına gətirdi. Yol boyu da xeyli söhbət etdik.

Üstündən bir il keçmişdi, biz yenə həmin heyətdə bu dəfə Minskdə "Bilik" Cəmiyyətinin konfransına getmişdik. Gecə çatdıq. Səhər bazar günü idi. Danışdıq ki, tezdən cıxaq "Polşa bazarı" deyilən yerə gedək. Otelin qarşısında taksiyə əl elədik. Oturandan sonra sürücünün gövdəli kürəyi mənə tanış gəldi. Yada saldım, məlum oldu ki, Minskdə ilk qabağımıza çıxan bu taksi sürücüsü ötən il bizi Kaunasdan Vilnüsə gətirən sürücü imiş! Dünyanın kicikliyinə misal cəkmək istəyəndə o hadisə yadıma düşür. Allah Eldara rəhmət eləsin! Onunla baglı xoş xatirlərim var. Sizə də təşəkkür edirəm ki, xatırlatdınız!.."

Qazaxdan Klaypedaya uzanan poetik trayektoriya

E. Nəsibli Sibirel 1982-ci ildə Lvov şəhərində keçirilmiş Ümumittifaq poeziya festivalında Azərbaycan ədəbiyyatının gənc nəslinin istedadlı təmsilçisi olaraq iştirak edib. Onun dediyinə görə, bu tədbirdən sonra Baltik xalqlarının ədəbiyyatına xüsusi maraq göstərməyə başlayıb. O, həm də Litva ədəbiyyatı ilə yaxından maraqlanırdı. Tanınmış Litva şairləri Alfonsas Maldonis, Yonas Yakştas, Alfonsas Bukontas, Yustinas Martsinkyaviçyusun yaradıcılığı və

ələlxüsus, Litva folklorunun poetik nümunələri onun diqqətini yaxından çəkmişdi. Mən onu litvalı şair və publisist, Litva Yazıçılar İttifaqının ədəbi-bədii nəşri – *"Literatūra ir menas"* həftəliyinin məsul katibi Antanas Stanyaviçyus ilə tanış etmişdim və onlar bu tanışlıqdan sonra yaradıcılıq əlaqələri qurmuşdular. Bunun nəticəsi olaraq, E. Nəsibli litvalı qələm dostunun poeziyasından bəzi tərcümələr etmiş, A. Stanyaviçyus isə E. Nəsiblinin şeirlərini Litva dilinə çevirmişdi (Həmin şeirləri mənim Litva və Azərbaycan dillərində hazırladığım sətri tərcümələr əsasında çevirmişdilər – *M. H.*). A. Stanyaviçyus bir müddət sonra yaşayış yerini dəyişərək Vilnüsdən Klaypeda şəhərinə köçdü və Eldarla əlaqələri həmin şəhərdən davam etdirdi.

1. Şair Eldar Nəsibli.



2. Litvalı şair, naşir və publisist Antanas Stanyaviçyus.

A. Stanyaviçyusun şeirlərindən bir neçəsi "Ədəbiyyat və incəsənət" həftəliyində (25 noyabr 1983-cü il, № 47) çap edilib. Əsərlərin işıq üzü görməsi üçün E. Nəsibli Sibirelin qələm qardaşı, şair, publisist və tərcüməçi, o vaxtlar həmin həftəlikdə poeziya şöbəsinin müdiri olaraq çalışan Davud Nəsib (1942–2003) öz xeyir-duasını vermişdi.

Ecazkar poeziya diyarı

E. Nəsiblinin "Dünya gözəldir", "Sevirəm desən...", "Bu gecə bir mənəm, bir də ki, qələm" adlı şeirləri isə Litvanın o vaxtkı gənclər qəzeti – *"Komjaunimo tiesa"* gündəliyində dərc olunub (20 iyul 1984-cü il, № 139). Bu şeirlərlə ilgili M. Həmzəyevin hazırladığı təqdimat "Ecazkar poeziya diyarı" *("Nuostabaus krašto poezija")* adlı tanıtma məqaləsində verilib. Məqalənin əvvəlində Qazax mahalı həm Eldar Nəsiblinin ata-baba yurdu, həm də böyük istedadlar

və şairlər diyarı kimi Litva oxucularına təqdim edilib. Bu diyarda Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Mehdi Hüseyn, İsmayıl Şıxlı, Səməd Vurğun, Osman Sarıvəlli, Hüseyn Arif, Nüsrət Kəsəmənli kimi məşhur şair və yazıçıların, digər tanınmış söz və sənət ustalarının yetişdiyi vurğulanıb. Sonra isə Litvanın poeziya pərəstişkarlarına E. Nəsiblinin həyat və yaradıcılığı, şeirlərinin poetik xüsusiyyətləri haqqında yığcam bilgilər verilib, onun çap edilmiş kitabları və tərcümə fəaliyyəti haqqında məlumatlar təqdim olunub, əsərlərinin rus və Ukrayna dillərinə çevrilməsi ilə bağlı bəzi faktlara toxunulub.

Ədəbi yaddaşı genişləndirən çiləntilər

Düşünürəm ki, Eldar Nəsiblinin kitablarının çap edilməsi, poetik irsinin öyrənilməsi, ələlxüsus media və sosial şəbəkələr vasitəsilə əsərlərinin, sözlərinə yazılmış mahnıların yeni nəsillərə çatdırılması sahəsində edukoloji fəaliyyətlə yanaşı, həm də onun müxtəlif səbəblərə görə tədqiqatlardan kənarda qalmış ədəbi, publisistik və epistolyar irsinə aid naməlum faktların axtarılıb üzə çıxarılması və bir yerə toplanması, müfəssəl araşdırılması xüsusi əhəmiyyət kəsb edir.

Zənnimcə, dəyərli sənətkarımızın digər xalqların ədəbiyyatından etdiyi tərcümələr, həm də onun öz şeirlərinin başqa dillərdəki publikasiyaları, xaricdəki qələm dostları ilə apardığı yazışmalar, mühüm ədəbi hadisələrlə bağlı ictimai diskursda səslənmiş, lakin çap olunmamış müşahidə və qeydləri, müxtəlif şəxslərə imzasıyla hədiyyə etdiyi kitablarında xatirə olaraq yazdığı dedikasiyalarda yer almış maraqlı fikirlər və digər bu kimi kölgədə qalmış ədəbi faktlar E. Nəsibli Sibirel yaradıcılığının yeni çalarlarını açmağa imkan yaradan önəmli məqamlar kimi onun ədəbi-mədəni irsinin ayrılmaz hissəsini təşkil edir.

Qənaətimiz belədir ki, E. Nəsibli Sibirelin etdiyi bədii tərcümələr sayəsində həmçinin Litva – Azərbaycan ədəbi-mədəni əlaqələri üfüqlərinin genişləndirilməsi və xalqlarımızın qarşılıqlı anlaşma ənənələrinin zənginləşdirilməsi istiqamətində nəcib işlər görülüb, xeyirxah addımlar atılıb.

Bakı, "525-ci qəzet", 17 oktyabr 2017-ci il, № 188.

"SEHRBAZLAR DƏRƏSİ" LİTVADA

Xalq yazıçısı, akademik Kamal Abdullanın 2006-cı ildə Bakıda nəşr olunmuş "Sehrbazlar dərəsi" romanı[253] oxucuların və ədəbi tənqidçilərin geniş marağına səbəb olub. Sufi dərvişlərin həyatından bəhs edən və mistik əhvalatların baş verdiyi roman paralel dünyalar arasındakı ahəngdən, atası Cəlladbaşını axtaran Karvanbaşının taleyin hökmü ilə Sehrbazlar dərəsinə gəlib çıxmasından, burada ömr edən Ağ dərvişin və hər iki dünyada yaşayan Səyyah sehrbazın çağırdığı ruhla Karvanbaşının sonu faciəylə bitən sirli görüşündən bəhs edən mistik roman müxtəlif dillərdə və müxtəlif ölkələrdə çap edilməklə dünya oxucusunun da diqqətini çəkib.[254] Bu diqqətin nəticəsi olaraq indiyə qədər "Sehrbazlar dərəsi" romanı Fransa, ABŞ, Rusiya, Türkiyə, Yaponiya, İran, Qazaxıstan və digər ölkələrdə işıq üzü görüb.



1. K. Abdullanın litvaca nəşr olunmuş "Sehrbazlar dərəsi" kitabının görüntüsü.
2. Romanın tərcüməçisi L. Lapinskiene.

Əsər Litva dilinə də tərcümə edilib və 2013-cü ildə Vilnüsdə *"Edukologija"* nəşriyyatı tərəfindən çap olunub.[255] Romanı Litva dilinə əsərin rusca nəşrindən[256] Litva dili və ədəbiyyatı üzrə tanınmış mütəxəssis Lione Lapinskiene tərcümə edib. O, kitaba "Çoxrəngli Azərbaycan xalçası üzərində səyahət..." adlı ön söz də yazıb və bu yazısında romanı "ilmə-ilmə xalçaya" bənzədib...

[253] Kamal Abdulla. Sehrbazlar dərəsi (roman). Bakı, "Mütərcim", 2006-cı il, 224 səh.
[254] http://kamalabdulla.az/1641/sehrbazlar-deresi-romani/
[255] Kamalas Abdulla. "Stebukladarių slėnis". Romanas fantazija. Iš rusų kalbos vertė Lionė Lapinskienė. Vilnius, "Edukologija", 2013., 171 p. ISBN 978-9955-20-815-0.
[256] Камал Абдулла. "Долина кудесников". Роман-фантазия. Перевод с азербайджанского Людмилы Лавровой. Санкт-Петербург, "Златоуст", 2010., 252 с. ISBN 978-5-86547-582-8.

Avropada mədəniyyətlərin qovuşuğunda ucalan səsimiz

"Sehrbazlar dərəsi"nin Litva nəşrindən sonra bu ölkənin bir sıra ədəbi-mədəni və akademik qurumlarında onun bir neçə təqdimat mərasimi keçirilib.

Romanın ən əzəmətli təqdimat mərasimi və imza günü 2013-cü il fevralın 23-də Vilnüsdə *"Edukologija"* nəşriyyatının xətti ilə təşkil olunub. K. Abdullanın və Bakı Slavyan universiteti Tükologiya kafedrasının baş müəllimi Namiq Qafarovun da qatıldığı bu mərasimlərdə Litva Edukoloji Universitetinin rektoru, Litva Elmlər Akademiyasının (LEA) sabiq vitse-prezidenti, akademik Algirdas Gayjutis, dilçi alim, LEA Litva dili institunun direktor müavini, Litva Edukoloji Universitetinin professoru, akademik Grasilda Blajiene, litvalı linqvist mütəxəssis, humanitar elmlər doktoru, Litva Edukoloji Universitetinin professoru Vidas Kavalyauskas, Litva dili və ədəbiyyatı müəllimi, ədəbi tərcüməçi Lione Lapinskiene, Litva Azərbaycanlıları Cəmiyyətinin sədri M. Həmzəyev, həmçinin bir sıra jurnalistlər, edukoloqlar və tələbələr çıxış ediblər. Mərasimlərdə müəllifə kitabını imzalatmaq istəyən oxucuların çoxluğu xüsusilə diqqət çəkib.

Həqiqətən ədəbi hadisəyə çevrilmiş bu təqdimat və imza mərasimləri həmin günlərdə Vilnüsdə 14-cü dəfə keçirilən məşhur Beynəlxalq kitab yarmarkası tədbirləri çərçivəsində təşkil olunmuşdu. Təqdimatın çox yüksək təşkilati səviyyəsi, tədbirdə hökm sürən mədəni müxtəliflik ab-havası, iştirak edən ölkələrin geniş coğrafiyası barədə təsəvvür yaratmaq üçün qeyd edək ki, Vilnüs Beynəlxalq kitab yarmarkası Baltik ölkələrində bu qəbildən olan ən böyük tədbirdir. 2000-ci ildən başlayaraq hər il keçirilən bu yarmarka çox möhtəşəm və böyük bir kitab satışı sərgisi olaraq həmçinin bilik, elm, maarif və mədəniyyət mövzularına həsr edilmiş ən mühüm foruma, böyük ictimai diskussiya məkanına çevrilir. Yarmarka həm Litva, həm də bütün region üçün böyük önəm daşıyan bir festival kimi yadda qalır. Bu beynəlxalq tədbir eləcə də Baltik ölkələrində kitaba marağın artmasını, düşünən insanların çoxaldığını təsdiq edir. Yarmarka Litva Respublikası Prezidentinin himayəsi ilə keçirilir. Mədəni proqramlar isə Litva Mədəniyyət nazirliyinin dəstəyi ilə reallaşdırılır. Üç gün davam edən yarmarkada 400-ə yaxın tədbir keçirilir. Tədbirlərə 70 minədək insan qatılır. Yarmarkada həm Litvadan, həm də dünyanın bir çox dövlətlərindən yüzlərlə naşir və müəllif iştirak edir.

"Sehrbazlar dərəsi"nin təqdimat mərasimlərinin baş tutduğu 14-cü Vilnüs Beynəlxalq kitab yarmarkasında 16 xarici ölkədən 40 nəfərdən artıq tanınmış yaradıcı şəxs iştirak edirdi. Belə ki, 1988-ci ildən Niderlandda siyasi mühacir həyatı yaşayan və niderlandca yazıb yaradan İran kökənli yazıçı və şair Kader Abdullah, isveçrəli məşhur alim və yazıçı, tibb elmləri doktoru, Cenevrə

Beynəlxalq Vilnüs kitab yarmarkasından bir görüntü.

Litva Respublikasının prezidenti D. Gribauskayte Beynəlxalq Vilnüs kitab yarmarkasında.

universitetinin professoru Alayn Golay, italyan yazıçısı və tanınmış teleaparıcı Alberto Andjela, Kasablankada yaşayan Hindistan əfqanları kökənli ingilisdilli yazıçı və səyyah Tahir Şah, alman yazıçısı və publisisti Sabine Ebert, basketbol üzrə məşhur ispan məşqçisi, "Ancelinanın çarşafları" romanının müəllifi Yoan Plaza, alman əsilli İrlandiya yazıçısı Robert Gervart, Böyük Britaniya yazıçıları Austen İvereyg və Roderik Gordon, Cənubi Koreyalı yazıçı Hayl Ci, tanınmış fransız rəssamı və yazıçı Aleksandr Kleriss, polşalı ədəbiyyatşünaslar, tarixçilər, komiks rəssamları, şair, yazıçı və dramaturqlar – Belostok universitetinin professoru Kşıştof Buxovski, Krakov Yagellon universitetinin məzunu Yeji Pilx, Barbara Gruşka-Zıx, Mixal Slomka, Mixal Jeçnik və bir sıra digər əcnəbi müəlliflər yarmarkaya qatılmışdılar. Tədbirin fəaliyyəti və gedişi 150 nəfərdən artıq

yerli və xarici media təmsilçiləri – jurnalist, teleaparıcı, operator, fotoqraf və digər mütəxəssislər tərəfindən işıqlandırılırdı.

Yarmarkada iştirak edən əcnəbi yazıçılardan yalnız K. Abdulla Litva Respublikası Seyminin sədri Vidas Qedvilas tərəfindən Parlamentə dəvət almışdı. Görüşdə K. Abdulla ilə birgə Litvanın sabiq millət vəkili, tanınmış teatr rejissoru və ictimai-mədəni xadim Yulyus Dautartas və ədəbi tərcüməçi L. Lapinskiene iştirak edirdilər. Seymin sədri ilə olduqca səmimi şəraitdə keçən söhbət zamanı K. Abdullanın yaradıcılığı, həmçinin Azərbaycan ədəbiyyatı, Litva–Azərbaycan mədəni əlaqələri barədə geniş və maraqlı fikir mübadiləsi aparıldı. K. Abdulla Litvada kitaba böyük maraq olduğunu hər an müşahidə etdiyini bildirdi. O, Bakı Slavyan universiteti tələbələrinin toxuduğu Azərbaycan bayrağını və "Sehrbazlar dərəsi"nin litvaca nəşrini imzası ilə Parlament sədrinə hədiyyə etdi.

Yazıçı Kamal Abdulla Litva Respublikası Seyminin sədri Vidas Qedvilas ilə görüş zamanı.

Vilnüs şəhərinin meri Arturas Zuokas ilə baş tutmuş başqa bir görüşdə də yazıçı K. Abdulla böyük maraq və səmimiyyətlə qarşılandı.

Qədim etnoqrafik regionda "Sehrbazlar dərəsi"ni tanıtım tədbirləri

Romanın digər təqdimat tədbirləri isə Litvanın tarixi və qədim etnografik məkanlarından biri olan Aukştaytiya regionunun paytaxtı Panevejis şəhərində təşkil olunmuşdu.

K. Abdullanın bu regiona səfəri onun Panevejis şəhər bələdiyyəsində rəsmi qəbul edilməsi mərasimindən başlandı. Şəhərin meri Vitaliyus Satkyaviçyus qonağı sayğı ilə salamlayıb ona şəhərin qədim tarixi və bu günü barədə maraqlı

bilgilər təqdim etdikdən sonra dedi: "Şəhərimizi ziyarət etdiyinizə görə sevinc hissləri yaşayırıq. Ümidvarıq ki, bu səmimi dostluğumuz şəhərlərimizin əməkdaşlıq münasibətləri səviyyəsinə ucalacaq, eləcə də mədəniyyət, maarif, idman və iqtisadiyyat sahələrində yaxın və işgüzar əlaqələr qurmağa imkanlar yaradacaq".

Oxucularla ilk görüş və kitabın təqdimatı, əsası 1922-ci ildə qoyulmuş və Litva ədəbiyyatının məşhur klassiki, yazıçı, dramaturq, ictimai-siyasi xadim Gabriele Petkeviçayte-Bitenin (1861–1943) adını daşıyan Panevejis dairəsi ictimai kitabxanasında baş tutdu. Təqdimatın aparıcısı və Panevejis teatrının aktyoru "Sehrbazlar dərəsi" əsərindən parçalar ifa etdlər. K. Abdulla çoxsaylı oxucuların suallarını cavablandırdı.

Sonrakı ədəbi tədbir Panevejis şəhərində 2000-ci ildən fəaliyyət göstərən və əsası ünlü Litva rəssamı və bədii şüşə ustası Remigiyus Kryukas tərəfindən qoyulmuş məşhur *"Glasremis"* bədii şüşə studiyasında gerçəkləşdirildi.

Daha sonra, həm də bir sıra dram əsərlərinin müəllifi olan K. Abdulla ilə Yuozas Miltinis adına Panevejis şəhər dram teatrında xüsusi görüş keçirildi. Görüşdə onunla dramaturgiya və səhnə yaradıcılığı barədə dərin maraq oyadan söhbətlər aparıldı.

Söhbət əsnasında Panevejis teatrının məftunedici fəaliyyətini və burada səhnələşdirilən əsərlərin önəmini vurğulayan K. Abdulla Donatas Banyonis, Algimantas Masyulis, Vatslovas Bledis, Bronyus Babkauskas, Gediminas Karka, Eugeniya Şulgayte-Karkiene, Stasys Petronaytis, Regina Zdanaviçyute kimi ünlü rejissor və aktyorların teatrın səhnəsində qoyduqları parlaq izlər barədə fikirlərini bölüşdü. Tədbir zamanı yazıçının Estoniyada səhnələşdirilən pyesləri barədə verilən bilgilər yerli teatr xadimlərinin, o cümlədən teatrın direktoru Romualdas Vikşraytisin diqqətini çəkdi.

1. Baş rejissor Yuozas Miltinisin Panevejis şəhər teatr binasının qarşısında qoyulmuş heykəli. 2. Məşhur teatr və kino aktyoru, SSRİ Xalq artisti Donatas Banyonis. 3. Litvanın Xalq artisti, aktyor Algimantas Masyulis

Yeri gəlmişkən demək istərdik ki, bünövrəsi hələ 1-ci müstəqil Litva Respublikası dövründə – 1938-ci ildə qoyulmuş Panevejis dram teatrı həm keçmiş SSRİ-də, həm də xarici ölkələrdə Litva milli ənənələrini və etnokulturoloji dəyərlərini qoruyub davam etdirən, azadlıq ideyalarını səhnədə yaşadan möhtəşəm sənət ocağı və mədəniyyət mərkəzi kimi məşhurlaşıb. Teatrın yaranması və ən uğurlu fəaliyyət illəri qüdrətli yaradıcı bir şəxsiyyətin – bənzərsiz sənət ustası, teatrın baş rejissoru olmuş SSRİ Xalq artisti Yuozas Miltinisin (1907–1994) adı və gördüyü mühüm işlərlə bağlıdır. Təsadüfü deyil ki, 1995-ci ildən etibarən bu teatr məbədgahı onu yaradan və dünyada məşhur edən əfsanəvi Baş rejissor və bədii rəhbər, aktyor və gözəl pedaqoq Y. Miltinisin adını daşıyır...

Kamal Abdulla yaradıcılığı Litva mediasında

"Sehrbazlar dərəsi"ni Litvada tanıtım tədbirləri təkcə böyük oxucu auditoriyası tərəfindən rəğbətlə qarşılanmadı, eyni zamanda bu roman və ümumən Kamal Abdulla yaradıcılığı bəzi mərkəzi qəzetlərin mövzusuna çevrildi.

1989-cu ildən Vilnüsdə çap olunan məşhur *"Respublika"* qəzeti romanın Litva dilinə tərcüməçisi Lione Lapinskiene ilə o günlərdə maraqlı müsahibə dərc etdi. "Ədəbiyyat üçün humanist dəyərlər gərəkdir" başlıqlı həmin müsahibə qəzetin 22 fevral 2013-cü il tarixli sayında "Mədəniyyət yenilikləri" rubrikasında çap olunub.[257] Müsahibəni litvalı şair və tərcüməçi, Litva Ədəbi tərcüməçilər ittifaqının Dominikas Urbas adına mükafatı laureatı Tomas Taşkauskas götürüb.

Müsahibədə yer almış bir fikri vurğulamazdan öncə qeyd etmək istərdik ki, K. Abdulla romanın tərcüməsi ilə bağlı xüsusi olaraq Litva oxucularına sözardı ünvanlayıb. O, yazır ki, "İnsan özündə başqa bir insana qarşı intiqam və ya nifrət hisslərini daşımamalıdır. Hər bir insanı yalnız Sevgi idarə etməlidir. Biz yaşadığımız dünyada aramızdan pisliyi hökmən qovub yox etməliyik – qarşımızda duran məqsəd bundan ibarət olmalıdır...".

L. Lapinskiene göstərilən müsahibədə roman müəllifinin bu fikrini davam etdirərək oxuculara ritorik sualla müraciət edir: "Bəs buna necə nail olmalıyıq?" Və sonra da bildirir ki, "bu suala cavabı "Sehrbazlar dərəsi"nin səhifələri üzərindən sətir-sətir səyahət edən zaman tapa bilərsiniz..."

Əsər haqqında həmçinin Litva Yazıçılar İttifaqının *"Literatūra ir menas"* həftəliyinin 26 aprel 2013-cü ildə çıxmış sayında "Qisasın dirəndiyi dalan" adlı geniş ədəbi məqalə dərc edilib.[258] Məqaləni yuxarıda adı çəkilən Tomas Taşkauskas yazıb.

[257] "Literatūrai reikia humanistinių vertybių". Pokalbis. Vilnius, dienraštis "Respublika", 2013 vasario mėn. 22 d.
[258] Tomas Taškauskas. "Neapykantos akligatvis". Vilnius, "Literatūra ir menas", 2013 m. balandžio 26 d. № 17.

Bunlardan əlavə, *"Literatūra ir menas"* qəzetinin göstərilən sayında K. Abdullanın daha bir əsəri – "Korneliyusun ölümü" adlı hekayəsi işıq üzü görüb.[259] Əsər yazıçının Litva ilə bağlı zəngin etnokulturoloji təəssüratların təsiri altında yaranıb. Hekayənin qəhrəmanı "Şəhər universitetinin böyük möhürünün qoruyucusu" – litvalı qoca professor Korneliyusdur. K. Abdulla "Səhvlərimizin qrammatikası" silsiləsindən yazdığı bu hekayəni litvalı dostu, linqvist alim Vidas Kavalyauskasa ithaf edib. Hekayəni Litva dilinə ruscadan Lione Lapinskiene çevirib.

Yeri gəlmişkən göstərmək istərdik ki, ədəbiyyatşünas alim, filologiya elmləri doktoru Tehran Əlişanoğlu bu əsər haqqında "Nədən Korneliyusun ölümü?" adlı resenziya yazıb.[260] 2015-ci ildə yayımlanmış resenziyada hekayə ilə bağlı orijinal refleksiyalar və ədəbi düşüncələr əks olunub, tarixi paralellər və müqayisəli təhlillər aparılıb, həm də maraqlı ümumiləşdirmələr edilib.

Avropanın coğrafi mərkəzinə qayıdış

Vurğulamaq lazımdır ki, Kamal Abdulla adı Litvanın həm ictimai-siyasi fikir məkanı, həm də mədəniyyəti və akademik dairələri üçün yad deyil. O, hələ Litva müstəqilliyinin bərpasının ilk illərində bir neçə dəfə bu ölkədə olub, bir sıra görüş və tədbirlərdə Azərbaycan ziyalılarını təmsil edib, yaradıcı əlaqələr qurub. O dövrdə mən də Kamal Abdullanın sədri olduğu Azərbaycan Mədəniyyət fondu İdarə heyətinin üzvü olaraq Litva ilə qurulmaqda olan yeni məzmunlu mədəni əlaqələrin müstəqillik dövrünün mədəniyyət siyasəti doktrinasına uyğun məcrada inkişafı üçün çalışırdım. SSRİ-ni sarsıdan 1991-ci ilin avqust qiyamından sonra Baltik ölkələrinin müstəqilliyi dünyanın demokratik dövlətləri tərəfindən *de jure* tanınan günlərdə Kamal Abdullanın Litva xalqına və hökumətinə ünvanladığı təbrik teleqramı isti qarşılanmış və teleqramın mətni Litvanın rəsmi dövlət qəzeti *"Lietuvos aidas"* gündəliyinin 31 avqust 1991-ci ildə çıxmış sayında dərc olunmuşdu.

Fikrimizcə həmin tarixi sənədi bu yazımızda təqdim etmək yerinə düşərdi:

"Vilnüs şəhəri, M. K. Çürlyonis küçəsi, 18
Litva Azərbaycanlıları "Odlar yurdu" Cəmiyyətinin sədri Mahir Həmzəyevə

Əziz həmvətənlər!

Litva Respublikası müstəqilliyinin beynəlxalq ictimaiyyət tərəfindən tanınması, demokratiya və ədalətin tam qələbə çalması münasibətilə Azərbaycan ziyalıları və Azərbaycan Mədəniyyət Fondu adından Litva xalqına və Litva hökumətinə ən səmimi təbriklərimizi yetirməyi sizdən rica edirik.

Əminik ki, qələbə çalmış Demokratiya və əldə edilmiş Azadlıq Respublikanızda yaşayan hər bir ailəyə sülh, xoşbəxtlik və mehribanlıq gətirəcək. Litva xalqına ən xoş arzularımızı bildiririk.

Hörmətlə – professor Kamal Abdullayev, Azərbaycan Mədəniyyət Fondunun sədri.
Bakı, 28 avqust 1991-ci il."

Burda bir haşiyə açaraq qeyd etmək istərdik ki, o zaman Azərbaycan hələ dövlət müstəqilliyini bərpa etməmişdi və digər Baltik ölkələri ilə yanaşı Litvanın da dövlət müstəqilliyini hələ tanımamışdı.

İndisə bir daha qayıdaq "Korneliyusun ölümü"nə. K. Abdullanın Litva mövzulu bu hekayənin qəhrəmanı Korneliyus ağlasığmaz bir kəşfə – dünyanın bütün elmi dairələrində qəbul edilən çox böyük bir nailiyyətə imza atır. Belə ki, o, "Yer üzünün mərkəzinin dəqiq təyin edilməsi" düsturunu ortaya qoyur və bunun dünyanın bütün elm mərkəzlərində, universitet və kilsə kafedralarında "Korneliyus meyarı" adlandırılmasına nail olur. Həm də Yer üzünün mərkəzinin məhz Litvada qərar tutduğuna bütün dünyanı inandıra bilir. Korneliyus bu meyarı yavaş-yavaş həm xristian, həm müsəlman, həm də buddist alimlərin beyninə yeridib onların təqdirini qazanır. Onun irəli sürdüyü meyar çox sadə olaraq nəinki mantiyalı elm adamları, hətta geniş əhali üçün də anlaşıqlı idi.

"Korneliyus meyarı" eyni zamanda bizə Fransa Milli coğrafiya institutu əməkdaşlarının Avropa qitəsinin coğrafi mərkəzini təyin etmək məqsədi ilə apardıqları elmi araşdırmaları xatırladır. Buna qədər həmin mərkəzin gah Belarusda, gah Ukraynada, gah da Polşada olduğu təxmin edilirdi. 1989-cu ildə fransız alimləri mərkəzin koordinatlarını dəqiqləşdirərək bəyan etdilər ki, Avropanın coğrafi mərkəzi Vilnüsdən 26 kilometr şimalda yerləşən Purnuşkes və Bernotay kəndlərinin arasında yerləşir. 1997-ci il mayın 24-də həmin yerdə coğrafi mərkəzi qeyd edən daş abidə qoyulub.

Göstərilən fakta istinadən paralellər aparıb bu qənaətə gəlirik ki, "Korneliyus meyarı" ideyası Avropanın Litvadakı coğrafi mərkəzindən yaradıcı şəkildə qaynaqlanıb... Hər necə olsa da, yazıçı Kamal Abdulla "Sehrbazlar dərəsi"nin tərcüməsi üzərindən bir daha Avropanın coğrafi mərkəzinə – onun yaxşı tanıdığı kəhrəba və göllər diyarı gözəl Litva ölkəsinə qayıdıb.

Ümidvarıq ki, Litva oxucusu yazıçının yeni əsərlərinin tərcüməsini və onun bu dost ölkəyə növbəti qayıdışını gözləyir...

Bakı – Vilnüs – Bakı. 2013–2022-ci illər.

[259] Kamalas Abdulla. "Kornelijaus mirtis". Vilnius, "Literatūra ir menas", 2013 m. balandžio 26 d. № 17.
[260] Tehran Əlişanoğlu. "Nədən Korneliyusun ölümü?" Bakı, mədəniyyət portalı Kulis.az. 7 sentyabr 2015-ci il.

VI FƏSİL

LİTVA DİLİNDƏN TƏRCÜMƏLƏRƏ YAZILAN ÖN SÖZLƏR

HEYDƏR ƏLİYEV: AZƏRBAYCAN LİTVA YOLU İLƏ GETMƏLİDİR

H. Əliyevin Azərbaycanda naməlum müsahibəsi yayımlanıb

Dünyaca ünlü siyasətçi Heydər Əliyevin 1990-cı ildə Litva jurnalisti Rita Milyuteyə verdiyi müsahibə ilk dəfə azərbaycanca işıq üzü görüb. "Azərbaycan Litva yolu ilə getməlidir" başlıqlı bu müsahibə AYB-nin "Ədəbiyyat qəzeti"nin 9 may 2014-cü il tarixli sayında dərc edilib.

Litvalı jurnalist müsahibəni Heydər Əliyevdən 22 noyabr 1990-cı ildə Naxçıvanda götürüb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı ilin noyabrın 17-də, həm Naxçıvan, həm də bütün Azərbaycan üçün taleyüklü qərarların qəbul edildiyi tarixi Sessiyasından sonra jurnalist R. Milyute xüsusi olaraq bura gəlib və Ali Məclisin o vaxtkı sədri Heydər Əliyevdən müsahibə alıb.

Müsahibə Vilnüsdə litvaca buraxılan "Respublika" qəzetinin 7 dekabr 1990-cı il tarixli sayında çap edilib.

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev. 2. Litva jurnalisti Rita Milyute.

Müsahibədə Naxçıvan Muxtar Respublikasının adındakı "Sovet Sosialist" sözlərindən imtina olunub çıxarılması, həmçinin muxtar qurumun qanunverici orqanı – Ali Sovetin adında dəyişiklik edilməsi, 1918–1920-ci illərdəki AXC-nin üçrəngli dövlət bayrağının sözügedən Sessiyanın qərarına əsasən Naxçıvan Muxtar Respublikasının rəsmi bayrağı olaraq qəbul edilməsi barədə yer almış mühüm tarixi bilgilər hələ o zaman Litva oxucularına təqdim olunub.

Bununla yanaşı, Ali Məclisin sədri müsahibədə Azərbaycan SSR-nin SSRİ-dən çıxmasının labüdlüyünü qeyd edib, Azərbaycanın yaxın gələcəkdə Litva kimi azadlıq yolunu seçməsinin əhəmiyyətini özəlliklə nəzərə çatdırıb,

müstəqil Azərbaycan dövlətinin və demokratik dövlətçilik ənənələrinin bərpa edilməsini o zaman qarşıda duran ən vacib milli məqsəd kimi vurğulayıb.

Müsahibədə həmçinin 1990-cı il 20 Yanvar qanlı hadisələri, azadlıq yoluna qədəm qoymuş Azərbaycan xalqına qarşı Kreml tərəfindən düşünülüb təşkil edilmiş bu təcavüzün konkret günahkarları və onların yerli cinayətkar əlaltıları barədə dəqiq məlumatlar verilib, Ermənistan–Azərbaycan, Qarabağ münaqişəsi və azərbaycanlıların deportasiya edilməsi haqqında fikirlər bildirilib, o vaxtkı Litva Respublikası Parlamentinin fəaliyyəti ilə bağlı mülahizələr yer alıb və digər əhəmiyyətli siyasi məsələlər ehtiva olunub.

Qeyd edək ki, 1990–1993-cü illərdə Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olaraq milli Azərbaycan ideyasının əməli işdə gerçəkləşdirilməsi və Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi istiqamətində gördüyü mühüm işlər barədə real bilgilərin hələ o zaman xarici mətbuatda əks etdirilməsi və Azərbaycan həqiqətlərinin Baltik ölkələrində yayımlanması baxımından bu müsahibənin həm də retrospektiv kəsimdə ictimai-siyasi və tarixi əhəmiyyəti vardır

6 psl. Politika 1990 m. gruodžio 7 d., penktadienis

BUVEŲS POLITINIO BIURO NARYS, KGB ATSARGOS GENEROLAS GEIDARAS ALIUEVAS:

"Azerbaidžanas turi eiti Lietuvos keliu"

H. Əliyevin müsahibəsinin dərc edildiyi "Respublika" qəzetinin görüntüsü. Vilnüs, 7 dekabr 1990-cı il.

Daha bir məqama diqqət çəkmək istərdik ki, Heydər Əliyevin göstərilən müsahibəsi indiyədək Litvadan savayı digər bir ölkədə və başqa dildə çap olunmayıb. Publikasiya Litva Azərbaycanlıları Cəmiyyətinin təşəbbüsü ilə üzə çıxarılıb və Mahir Həmzəyevin tərcüməsində Azərbaycanda ilk dəfə 2014-cü ildə dərc edilib.

Bakı, AR Diasporla iş üzrə Dövlət Komitəsinin saytı, 13 may 2014-cü il.

Bakı, www.litdiaspora.az portalı, 13 may 2014-cü il.

SUİLANLARI KRALİÇASI ƏGLE

Litva xalq nağılının azərbaycanca nəşrinə ön söz

"Suilanları kraliçası Əgle" – ən məşhur Litva xalq nağıllarından biridir. Nağılın çox sayda fərqli versiyaları mövcuddur. İlk dəfə nağıldan bir parça 1837-ci ildə nəşr edilib. Suilanı (və yaxud koramal) xristianlığa qədərki Litva mifologiyasında həm də dənizlər Hökmdarı kimi təqdim olunur. Suilanı ən qədim balt qəbilələrinin ilkin etiqadlarını təcəssüm edən və bütpərəstlik dövründən indiyədək qalmış bədii obrazlardan biri olaraq həm yazılı, həm də şifahi Litva xalq ədəbiyyatında sevgi ilə tərənnüm və təsvir edilir, xalq arasında xöşbəxtlik və toxunulmazlıq rəmzi kimi qəbul olunub.

Nağılın süjeti və qədim əsatirlərlə mövzu yaxınlığı

Nağılın süjeti mürəkkəb deyil, lakin çox sayda arxetip motivlərlə zəngindir. Yer üzərində yaşayan torpaq qızı Əgle göldə bacıları ilə çimərkən sürünüb onun köynəyinin qoluna girmiş suilanına – dənizin dibindəki yeraltı dünyada yaşayan xtonik varlığa ərə gedəcəyinə söz verir. Atası onu ər evinə köçürür və Əgle yeraltı dünyada peyda olur. Bu hadisədən doqquz il keçir. Əgle onun qarşısında qoyulmuş ən mürəkkəb şərtləri yerinə yetirdikdən sonra ata-baba yurduna baş çəkmək üçün ərindən icazə ala bilir və uşaqları – üç oğlu və bir qızı ilə bərabər müvəqqəti olaraq yerin üstünə qayıdır

Amma, Əglenin ər evinə – suilanının sarayına qayıtmasını istəməyən qardaşları onun qızını sorğu-suala tuturlar. Hədə-qorxu və təzyiq altında sürən istintaqdan sonra qız uşağından suilanını dənizin dibindəki sarayından sahilə necə tovlayıb çıxarmağın yolunu öyrənə bilirlər. Suilanı sahildə görünən kimi qardaşlar onun üzərinə dəryazla atılaraq doğrayıb öldürürlər. Ərinin ölümündən dərdə-qəmə batıb iztirablar yaşayan Əgle oğlanlarını palıd ağacına (Ajuolas),[261] göyrüş ağacına (Uosis)[262] və tozağacına (Bərjas),[263] qızını da ağcaqovaq ağacına (Drəbule),[264] özünü isə küknar ağacına (Əgle)[265] döndərir.

Nağıldakı əfsanəvi arxetiplər, adət-ənənələr, öldürülən tanrıların canlanması ilə bağlı miflər digər xalqların folklorundakı əfsanə və mərasimlərlə müqayisə olunduqda daha yaxın və anlamlı görünür. Görkəmli Litva etnoqrafı, balt qəbilələri mifologiyasının tədqiqatçısı, ilahiyyatçı alim Norbertas Velyusun (1938–1996) qənaətinə görə, məhz bu oxşarlıq "Suilanları kraliçası Əgle"ni qədim Misir, Finikiya və yunan əsatirlərində təsvir olunan əfsanəvi tanrılara – Persefona və Hades, Adonis və Astarta, Attis və Kibela, Oziris və İzida, eləcə də Dionis kimi mifoloji obrazlara yaxınlaşdırır,[266] həm də nağıldakı mifik olayları mahiyətən digər xalqların oxşar əfsanə və əsatirlərinə bağlayır...

Milli identikliyin dərin köklərinə işıq salan əsər

"Suilanları kraliçası Əgle" nağılı milli identikliyin dərin qatlarına işıq salan dəyərli bir əsərdir. Bu əsər əfsanəyə dönmüş ən qədim Litva nağıllarından biri olaraq Litva xalqının duyum və təsvir dünyasının təşəkkül tapmasında həlledici rol oynayıb. Qeyd etdiyimiz kimi, nağıl Litva şifahi xalq ədəbiyyatının xristianlığa qədərki dövrünə aiddir və onun əsasında duran mifologemotik arxaiklik, həmçinin litvalıların balt mənşəli etiqad və mərasimləri ilə qarşılıqlı əlaqələri bəzi tədqiqatçılara "Suilanları kraliçası Əgle" nağılını millətin soykökünü üzə çıxaran və milli şüurun inkişafını açıb göstərən Litva milli dastanı kimi təqdim etmək fikrini yürütməyə əsas yaradıb. Ona görə də təsadüfi deyil ki, sənətkarlar bu nağıldan və yaxud onun motivlərindən milli özgürlük göstəricisi, milli

[261] Ajuolas – Litva dilində palıd ağacı deməkdir, kişi adı kimi də işlədilir.
[262] Uosis – Litva dilində göyrüş ağacı deməkdir, kişi adı kimi də işlədilir.
[263] Bərjas – Litva dilində tozağacı deməkdir, kişi adı kimi də işlədilir.
[264] Drəbule – Litva dilində ağcaqovaq ağacının adıdır. Həm də qadın adı kimi istifadə edilir. Bu ağacın adı Litva dilindəki "drəbeti" – yəni, əsmək, titrəmək sözündən götürülüb. Ağac xəfif bir küləkdən əsim-əsim əsdiyinə görə, qorxaqlıq, əğciyərlik, dözümsüzlük təcəssüm edən bir surət, rəmz kimi xalq arasında qəbul olunub.
[265] Əgle – Litva dilində küknar (şam) ağacı deməkdir. Həm də Litvada qız uşaqlarına tez-tez verilən populyar qadın adıdır. Nağılın sonunda Əgle özünü həmişəyaşıl küknar ağacına döndərir ki, bu da həyatın əbədiyaşarlığına edilən bir işarədir.
[266] "Suilanları kraliçası Əgle" nağılının başqa xalqların mifologiyası ilə mövzu yaxınlığını qeyd etmək məqsədi ilə burada qədim Misir, Finikiya və yunan əsatirlərində təsvir olunan əfsanəvi tanrılar misal kimi göstərilib.

identikliyin istinad nöqtəsi kimi yararlanıblar və dəfələrlə bundan Litva yazılı ədəbiyyatında, musiqi və incəsənət əsərlərində istifadə ediblər.

Nağılın əfsanə xarakterli strukturuna və simvollarına istinad edərək, litvalıların milli identiklik əlamətlərini, milli kimlik xüsusiyyətlərini üzə çıxartmaq səyləri və soykökü təyin etmək cəhdləri ilk dəfə 1-ci müstəqil Litva Respublikasının mövcud olduğu dövrdə, yəni, 1918–1940-ci illərdə edilib. Litva dilinin dünya dilçiləri tərəfindən qəbul olunmuş qədim tarixinə söykənərək və köhnə danışıq dilinə, eləcə də xalq nağıllarına əsalanaraq məhz həmin illərdə litvalılar ilk milli ədəbi dastan yaratmağa və bu sahədəki boşluğu doldurmağa cəhdlər göstəriblər.

Vilnüs Universiteti Şərqşünaslıq mərkəzinin dosenti Valdas Yaskunasın fikrincə, ölüb yenidən cana gələn əsatiri tanrılarla bağlı mərasimlər və onların iç dünyasını təsvir edən "Suilanları kraliçası Əgle" nağılı əfsanəvi qatlardan, eyni zamanda dramatik Litva tarixindən, onun tarixi şəxsiyyətlərinin taleyindən xəbər verən milli allegoriyaya – litvalıların mücərrəd baxışlarını konkret obrazlarda ifadə edən hekayətə çevrilib. Nağılın əsas qəhrəmanları, Əgle (Küknar) – həmişəyaşıl ağac, onun əri Jilvinas isə xtonik dünyanın varlığı timsalında vaxtaşırı köhnə dərisindən sıyrılıb çıxan suilanı olaraq xalqın daima yeniləşib dəyişən tarixini özündə təcəssüm edən surətlər tək təfsir edilib. Bu qəhrəmanlar arasındakı sıx münasibətlər min illər boyu insanlarla mənəvi dünya arasındakı qırılmaz əlaqələrin mövcudluğuna işarədir.

Nağıl məşhur Litva rəssamı Kazis Şimonisin (1887–1978) romantik ruhda yaratdığı rəsmlərlə illüstrasiya olunaraq ilk dəfə tam şəkildə 1924-cü ildə

çap edilib. Bu rəsmlər özündə o illərdə milli düşüncənin oyadıcısı, milli şüurun mühərriki elan edilən milli özdəşlik ideyasını parlaq şəkildə əks etdirir və milli identiklik haqqında xalq hekayətlərinin yaranmasına vizual şəkildə yardım edirdi. Rəssam bu səhnələri çəkərkən Litva xalq incəsənəti xəzinəsindən seçib götürdüyü ornamentlərlə bəzədilən və nağılın əsas vizual illüstrasiya elementini təşkil edən vinyetkadan istifadə edib. Bu ornamentlər arasında ağacdan yonulmuş tərtibat elementləri, ağac üzərində kəsmə və oyma üsulu ilə yaradılmış şəbəkələr, taxtadan çalın-çarpaz şəkildə, şöləsaçan günəş formasında düzəldilmiş dekorasiyalar, simmetrik ləçəklənmiş saçaqlı güləbənzər fiqurlar, eləcə də dekorativ-tətbiqi sənətin digər bəzək elementləri üstünlük təşkil edir. Xalq sənətinin üslubi özəlliklərini geyimlərində, zahiri görünüşlərində əks etdirən idealizə edilmiş insan fiqurları bu ornamentlərin yanında yerləşdirilib, ikonoqrafiya detalları isə burada geniş bir təsvir spektrini – bahadırlardan tutmuş sadə lirizmə qədər uzanan çoxrəngli bir zəngin zolağı əhatə edir.

Suilanları kraliçası Əgle. Litvanın Palanga şəhərindəki Botanika bağında 1960-cı ildə qoyulmuş bürünc heykəl. Müəllif – litvalı skulptor Robertas Antinis (1898–1981).

Bu gün "Suilanları kraliçası Əgle" nağılının ilk tam nəşrindən 100 ilə yaxın bir zaman keçməsinə baxmayaraq, Litvada elə bir adam tapmaq çətindir ki, bu nağılı oxumamış və ya eşitməmiş olsun. Çağdaş dövrdə nağıla yeni baxış – litvalıların milli düşüncə konsepsiyasında və milli özünəməxsusluq ikonoqrafiyasında əsrlər boyu əmələ gəlmiş dəyişiklikləri öyrənmək üçün nadir imkan

yaradır. Bununla belə, bu cür baxış XX əsrdə yalnız Litvada yox, habelə bir çox digər dünya xalqlarının milli mentalitetində yaranan dəyişiklikləri tutuşdurub müqayisə etməyə, xalqların milli özgünlük keyfiyyətləri və bu keyfiyyətlərin onların inkişaf tarixinə göstərdiyi təsir kontekstində ətraflı fikir mübadiləsi və araşdırmalar aparmağa imkan verir. Bu isə öz növbəsində, qloballaşan dünyamızda xalqların düşüncə tərzinin dəyər köklərini daha aydın təyin etmək üçün gözəl imkan yaradır.

Sonda qeyd edək ki, sözügedən Litva nağılı Azərbaycan dilində ilk dəfə 1940-cı ildə "Pioner" jurnalında "Koramallar şahzadəsi Küknar" (əslində "Suilanları kraliçası Əgle") başlığı ilə çap olunub. 2005-ci ildə əsər yenidən tərcümə olunaraq Bakıda və Vilnüsdə azərbaycanca nəşr edilib.[267]

[267] "Suilanları kraliçası Əgle". Litva xalq nağılı. Bakı, "Ədəbiyyat qəzeti", 29 iyul 2005-ci il, № 30; Əsər həmçinin YUNESKO-nun Litva Milli Komissiyası tərəfindən nəşr edilən "Nağıl körpüləri" toplusunda azərbaycanca çap olunub. Vilnüs, 2005-ci il. 52 səh. ISBN 9955-9746-6-4. Litva dilindən Mahir Həmzəyev tərcümə edib.

LİTVA ƏDƏBİYYATINDA "MEŞƏ QARDAŞLARI" MÖVZUSU

A. Potsyusun "On fransız sözü" hekayəsinin tərcüməsinə ön söz

Algirdas Potsyus (1930–2021) müasir Litva ədəbiyyatının yaşlı nəslinə mənsub olaraq geniş oxucu auditoriyasının rəğbətini qazanmış ədiblərdən biridir. O, artıq altmış ildən çoxdur ki, Litva ədəbiyyatında əsasən novella janrında yaradan gözəl sənətkar kimi tanınır. Əsərlərinin bədii üslubu klassik Litva nəsrinin ən yaxşı ənənələri əsasında formalaşıb. Litva ədəbiyyatında böyük mövzuları, müxtəlif yönəmli vacib olayları kiçik misallarla, yığcam nümunələrlə təsvir edib ümumiləşdirən və böyük ustalıqla təqdim edən lakonik ədəbi üslubun yaradıcılarındandır. Hekayə və povestləri rasional quruluşu, qısa təhkiyyə üsulu və təmkinli nəql manerası, aydın və sərrast cümlələrin düzümü ilə seçilir. Əsərlərinin fabulasını təşkil edən hadisə və əhvalatlar mübtəlalıqla və yaxud açıq-aydın ehtiraslarla şərh olunub təqdim edilmir, həyəcanlı hisslər və coşğun emosiyalar zahiri təfərrüatların arxasında gizlədilir.

A. Potsyus 28 avqust 1930-cu ildə Litvanın Majeykyay rayonunun Ketunay kəndində dünyaya gəlib. Seda qəsəbə orta məktəbini bitirdikdən sonra 1950–1952-ci illərdə Klaypeda Müəllimlər institutunun Litva dili və ədəbiyyatı şöbəsində təhsil alıb.1952–1954-cü illərdə Klaypeda və Şyaulyay şəhər radiostansiyalarında redaktor və radio müxbiri olaraq fəaliyyət göstərib. 1955-ci ildə Vilnüsə başqa vəzifəyə keçirilib və Litva SSR Radioinformasiya İdarəsində ədəbi verilişlər bölməsinin redaktoru təyin olunub. 1956-cı ildən etibarən *"Švyturys"* gənclər jurnalının bədii ədəbiyyat şöbəsində işləyib. 1958-ci ildən Litva Yazıçılar İttifaqında müxtəlif vəzifələrdə çalışıb: 1958–1963-cü illərdə nəsr üzrə məsləhətçi, 1963– 1981-ci illərdə İdarə heyətinin katibi, 1981–1986-cı illərdə isə İttifaqın Sədr müavini olub.

A. Potsyus həm də ictimai-siyasi xadim kimi fəaliyyət göstərib. 1960–1989-cu illərdə Sov. İKP-nin sıralarında olub. Sonralar Litva demokratik əmək partiyasının üzvü olub və 1992-ci ilin okyabrında bu partiyanın xəttilə Litva Seyminə seçkilərdə iştirak edib və millət vəkili seçilib. 1992–1996-cı illərdə LR Seyminin Maarif, elm və mədəniyyət komitəsinin üzvü olaraq Parlamentdə çalışıb.

Litvalı nasirin əsərləri 1953-cü ildən çap olunmağa başlayıb. İlk kitabı – "Ujgiryay kəndində səhər" adlı hekayələr toplusu 1955-ci ildə Vilnüsdə işıq üzü görüb. İndiyədək litvaca 20-yə yaxın kitabı çapdan çıxıb. Müəllifin "İflas" əsəri əsasında 1967-ci ildə Litva kino studiyasında "Böyüklərin oyunları" adlı iki hissədən ibarət kinonovella (tragikomediya) yaradılıb.

1. Litva yazıçısı A. Potsyus. 2. Azərbaycanlı Litva "meşə qardaşı" – partizan Şakir Sadıqov (1919–1951)

A. Potsyus ədəbiyyat üzrə çeşidli ödüllərin sahibidir. Onun kitabları 1967, 1980, 1982 və 1985-ci illərdə Litvanın ədəbi ödüllərinə layiq görülüb. 1980-cı ildə A. Potsyusa Litva SSR-nin əməkdar mədəniyyət xadimi fəxri adı verilib. 1982-ci ildə isə "Yuvadan uçmuşlar" kitabına görə Litva SSR Dövlət mükafatına layiq görülüb. Əsərləri bir sıra xarici dillərdə dərc edilib.

A. Potsyus Sovet dövründə milli ədəbiyyatda ən ziddiyyətli, mürəkkəb və olduqca həssas mövzuları qələmə almış sənətkardır. Belə ki, o, 1944–1953-cü illərdə Litvanın azadlığı və dövlət müstəqilliyi uğrunda bu ölkədə SSRİ-yə qarşı aparılmış siyasi müqavimət hərəkatı və partizan müharibəsi ilə bağlı tarixi hadisələri – Litva "meşə qardaşları" mövzusunu ilk dəfə bədii yaradıcılıq müstəvisində işləyərək Litva sovet ədəbiyyatına gətirmiş yazıçı kimi tanınıb.

İkinci dünya müharibəsindən sonra Litvanın SSRİ tərəfindən dübarə işğal edilməsinə qarşı bu Baltik ölkəsində getmiş mürəkkəb ictimai-siyasi proseslər, ideoloji qarşıdurmalar, müstəqillik uğrunda aparılmış silahlı mübarizə, xalq müqavimətini qırıb ölüm girdabında boğmaq məqsədilə NKVD-MQB-KQB strukturları tərəfindən həyata keçirilmiş siyasi və sosial təmizləmələr, həbslər, güllələnmə və sürgün edilmələr, eləcə də həmin illərdə Litvada baş vermiş digər faciəli toqquşma və dramatik hadisələr yazıçının 1963-cü ildə Vilnüsdə çapdan çıxmış "Burulğan" adlı kitabındakı hekayələrin ("On fransız sözü", "Yuodgirisin sonuncu rolu", "Burulğan", "Saçı ağarmış qardaş", "Ot daşımı" və s.), eləcə də sonralar işıq üzü görmüş digər əsərlərinin ("Xaçsız məzarlar", "Meşə adası", "Xanım Amnistiya" və b.) süjetini təşkil edir.

A. Potsyus bu əsərlərini XX əsrin 50-ci illərinin axırı – 60-cı illərinin əvvəllərində SSRİ-də siyasi və ictimai-mədəni həyat sahələrində "Xruşşov mülayimliyi" adı altında həyata keçirilmiş islahatlar dövründə yaranmış nadir fürsətlərdən

istifadə edərək yaza bilib. Bununla bərabər, müəllif sözügedən dramatik və faciəvi olayları sakit epik tonda və pərdəli şəkildə təqdim edir, onlar haqqında çox ehtiyatla və həssaslıqla danışır, ədəbi qəhrəmanların ən kiçik mükalimələrinə və hisslərinin rəngarəngliyinə diqqəti cəlb etmək yolu ilə onların daxili aləminin alt qatlarına nüfuz edir. Xüsusilə vurğulamaq lazımdır ki, yazıçı "meşə qardaşları" mövzulu hekayələrində ideoloji aksentləri və əsl qayəni nəzərə çarpmayan şəkildə – "səs-küy çıxarmadan" yerbəyer edir və həmişə müəllif təhkiyəsi ilə qəhrəmanların hərəkət və danışıqları arasında təhlükəsiz məsafə saxlayır.

Onun Litva "meşə qardaşları" mövzusunda yazdığı əsərlər sosialist realizmi nəsrinin mükəmməl nümunələri sayılmaqla bərabər, eyni zamanda 60–70-ci illər Litva sovet ədəbiyyatının bədii kəşfləri kimi dəyərləndirilir. Sovet senzurası şəraitində yaradılmış həmin əsərlər sözügedən dramatik olayları aktuallaşdırmaq, onları Litva tarixinin və ictimai-siyasi fikrinin vacib tərkib hissələri kimi təqdim etmək, yaranmış siyasi və ideoloji ziddiyyətlərin əsl səbəblərini üstüpərdəli bir şəkildə və çeşidli dil vasitələrilə qabarıqlaşdırmaq, milli-mənəvi dəyərlərin həyatiliyini, işıqlı sabaha inamın və dövlətçilik ənənələrinin yaşarlığını, xalq azadlıq ideyalarının ölməzliyini və müstəqillik səylərinin davamlılığını cəmiyyətin geniş dairələrinə çatdırmaq, tarixi yaddaşı hifz etmək və hürriyyətə ümidi yaşatmaq baxımından son dərəcə mühüm əhəmiyyət kəsb edir. Odur ki, A. Potsyusun "meşə qardaşları" mövzusunda yaratdığı hekayələr Litva sovet ədəbiyyatının xrestomatik əsərləri, həmin dövrdə bu yöndə inkişaf etmiş söz sənətinin özəlliklərini ehtiva edən səciyyəvi ədəbi refleksiyalar və klassik nəsr nümunələri kimi qəbul olunub.

A. Potsyusun Litva "meşə qardaşları" mövzusunda yaratdığı əsərlərdən biri – "On fransız sözü" (1963) adlı hekayəsilə bağlı qeyd etmək istərdik ki, biz onu ilk dəfə hələ 1985-ci ildə Azərbaycan dilinə tərcümə etmişdik. Lakin, o zaman nə "Ədəbiyyat və incəsənət" həftəliyi, nə də "Ulduz" jurnalı hekayəni dərc etmədi. Yalnız, tanınmış publisist və istedadlı qələm sahibi Şakir Yaqubovun əhəmiyyətli yardımı sayəsində hekayə bir müddət sonra – 1987-ci ilin əvvəllərində "Azərbaycan gəncləri" qəzetində ixtisarla da olsa çap olundu. Həmin publikasiyada ixtisarlardan savayı, qəzetin redaksiyası tərəfindən ideoloji xarakterli bəzi dəyişikliklər də edilmişdi. Odur ki, "On fransız sözü" hekayəsinin tərcüməsi üzərində yenidən işlənərək əsərin tam variantı 2013-cü ildə "525-ci qəzet"in vasitəsilə oxuculara təqdim olunub.[268]

[268] Algirdas Potsyus. „On fransız sözü". Hekayə. Bakı, „525-ci qəzet", 17 dekabr 2013-cü il, № 231, səh. 7–8. Litva dilindən Mahir Həmzəyev tərcümə edib.

CAZ MUSİQİSİNİ XATIRLADAN NOVELLALAR MÜƏLLİFİ...

D. Muşinskasın novellalarının tərcüməsinə ön söz

Danielyus Muşinskas çağdaş Litva ədəbiyyatının tanınmış nümayəndələrindən biridir. O, 1951-ci ilin noyabrın 4-də Litvanın Telşyay şəhərində dünyaya göz açıb. 1969-cu ildə 1 saylı Telşyay şəhər orta məktəbini, 1974-cü ildə isə Vilnüs Universitetinin Litva dili və ədəbiyyatı fakültəsini bitirib. 1974–1975-ci illərdə Telşyay rayonunun Trişkyay məktəbində müəllimlik edib.



1. Litva yazıçısı D. Muşinskas. 2. D. Muşinskasın novellaları çap edilmiş "Ulduz" jurnalı. 2013-cü il, № 12.

1976–1988-ci illərdə *"Jaunimo gretos"* gənclər jurnalının mədəniyyət şöbəsinin müdiri olub. 1989–1994-cü illərdə Litva Yazıçılar İttifaqının *"Pergalė"* ədəbi-bədii jurnalının məsul katibi vəzifəsində çalışıb (bu jurnal 1990-cı ildən *"Metai"* adı ilə buraxılır – *M. H.*). 1994–2015-ci illərdə isə *"Metai"* ədəbi-bədii jurnalının Baş redaktoru işləyib. O, 1996–2001-ci illərdə həm də dövlət qulluğunda – Litva jurnalistlərinin Etika inspeksiyasında çalışıb.

D. Muşinskasın ilk kitabı – "Səhər açılınca" adlı hekayələr toplusu 1979-cu ildə Vilnüsdə işıq üzü görüb. Indiyədək 10-dan artıq kitabı çıxıb. O, ədəbiyyat üzrə çeşidli ödüllərin sahibidir. Kitabları 1988, 1999, 2006, 2007 və 2010-cu illərdə Litvanın bir sıra ədəbi mükafatlarına layiq görülüb.

D. Muşinskas əsasən novella janrında yazan istedadlı nasir kimi oxucuların sevimlisinə çevrilib. Ədib yaratdığı əsərlərdə fabulaya yox, daxildə cərəyan edən humanist fikirlərə və epik təhkiyələrə, lirik refleksiyalara və incə ruhlu

cümlələrin gözəlliyinə söykənən orijinal və bənzəri olmayan lakonik Litva novella modeli yaradıb. Hətta kiçik həcmli nəsr əsərləri bəzən mənsur şeirlər kimi səslənir. Tanınmış Litva ədəbiyyatşünası, humanitar elmlər doktoru Yurate Sprinditenin təbirincə desək, "D. Muşinskasın novellaları musiqi ritmi və daxili döyünmələri, azad improvizasiya dalğaları və lirik ricətləri ilə çox vaxt caz musiqisini xatırladır..."

Litva nasirinin novellalarında həmişə narahat və qərarsız insanın mənəvi aləminin alt qatları özünəməxsus şəkildə əks olunur. Onun əsərlərində böyük hadisələr, onların inkişafı verilmir, geniş obraz və xarakterlər yaradılmır, adi qəlblərin asta-asta döyündüyü hərgünkü sakit həyat mənzərələri qələmə alınır və müxtəlif obrazlar vasitəsilə daxili düşüncələr immitasiya olunur.

Yazıçı hər gün üzləşdiyimiz varlıqları bəzən poetikləşdirsə də, gündəlik qayğıları, həyatın reallıqları ilə bağlı acınacaqlı səhnələri çox vaxt illüziyalardan uzaq təqdim edir. O, hamıya və hər şeyə, o cümlədən tarixin indiki dövründə firavan yaşayış "qura bilməyən", hətta yaxşı həyatla bağlı xülyalarını təsəvvüründə belə canlandıra bilməyən aciz və ilk baxışdan əhəmiyyətsiz görünən insana da öz yaradıcılığında böyük diqqət göstərir.

Yazarın açıqladığı həyat həqiqətlərində bəzən dramatik məqamlar da sezilir. Amma əsərlərində təsvir olunan müasirimiz hər şeyə qalib gələ bilən azman insan və xarüqələr yaradan bahadır deyil, əksinə, həmin varlıq bəzən yuxusuzluqdan əziyyət çəkən və yaxud qorxulu yuxular görə-görə iztirablar yaşayan, həmçinin çox vaxt varlığın əsas dilemmasına – olum və ya ölüm sualına cavab axtarmağa çalışan adi bir insandır. Odur ki, onun bir sıra əsərlərində müqəddərat və ölüm barədə fəlsəfi öyüdləri də oxumaq mümkündür.

D. Muşinskas müasir insanın iç dünyasını və həssas qəlbinin sirli guşələrini öz novellalarında yeni bədii üsullarla və zəngin, nəfis ədəbi dildə ustalıqla "çılpaqlaşdırıb" təsvir edir. Onun bəzək-düzəksiz təqdim etdiyi ruhi-mənəvi görüntülər sanki dilə gələrək bizim hər birimizə bu sualları verir: – Biz necə varıq? Necə varıqsa, doğrudanmı, elə olmalıyıq? Hara gedirik?

D. Muşinskasın əsərləri fransız, italyan, ingilis, rus, xorvat, polyak, latış, eston və digər xarici dillərdə dərc edilib. Onun 2006-cı ildə Vilnüsdə Litva dilində işıq üzü görmüş "Dağ mühafizi" adlı novellalar kitabından bir neçə novellanı orijinaldan çevirib 2013-cü ildə oxuculara təqdim etmişik.[269]

D. Muşinskasın əsərləri ilk dəfədir ki, Azərbaycan dilinə tərcümə olunub.

Bakı, "Ulduz" jurnalı, 2013-cü il, № 12.

[269] Danielyus Muşinskas. Novellalar: 1. "Litvada qürub". 2. "Axıra qalanlara heç nə düşmür". 3. "Aclar tox yatacaqlar". 4. "Çılpaqlar yaraşıqlı görünəcəklər". 5. "Qurbağa udmuş". Bakı, "Ulduz" ədəbi-bədii jurnalı, 2013-cü il, № 12. Litva dilindən Mahir Həmzəyev və Arifə Arifqızı tərcümə ediblər.

LİTVA LİRİK NƏSRİNİN VƏ AVROPA NOVELLA FORMASININ BANİSİ

Y. Bilyunasın hekayələrinin tərcüməsinə ön söz

Görkəmli Litva yazıçısı Yonas Bilyunas (1879–1907) XIX əsrin sonu XX əsrin əvvəlləri Litva ədəbiyyatının təmsilçilərindən biridir. O, gözəl nasir, istedadlı publisist və fəal ictimai-mədəni xadim kimi tanınıb. Litva ədəbiyyatında lirik-psixoloji üslubun – Litva lirik nəsrinin banisidir. Y. Bilyunasın nəsr dili və bədii üslubu Litva ədəbiyyatında yeni ədəbi məktəb yaradıb.

O, 1879-cu il aprelin 11-də Litvanın Anikşyay rayonunun Nyuronis kəndində doğulub. 1891–1899-cu illərdə Liepaya gimnaziyasında təhsil alıb. Gimnaziyada oxuyarkən ictimai-siyasi fəaliyyətə başlayıb, gizli siyasi özək təşkil edib, sonralar daha da irəli gedərək siyasi vərəqələr yazıb və tələbələr arasında yayıb. Litva sosial-demokratlar partiyasının fəaliyyətində iştirak edib.



1. Litva yazıçısı Yonas Bilyunas. 2. Y. Bilyunasın "Brisyusun aqibəti" kitabının görüntüsü.

1900-cü ildə Tartu universitetinin tibb fakültəsinə daxil olub. Rusiya çarına qarşı tələbə nümayişlərində iştirak etdiyi üçün 1901-ci ildə universitetdən xaric edilib. 1901–1902-ci illərdə özəl dərslər vermək yolu ilə çörək pulu qazanıb. Həmçinin həmin illərdə bir sıra Litva qəzetləri və jurnalları üçün (*"Vilniaus žinios", "Lietuvos ūkininkas", "Varpas"*) məqalələr yazıb.

1903-cü ildə Leypsiq Ali ticarət məktəbində təhsil almağa başlayıb, həm də ədəbiyyatla yaxından maraqlanıb. 1904-cü ildə Sürix universitetinin ədəbiyyat fakültəsində oxuyub. Burada özünün ən mühüm əsərlərindən birini – "Səadət nuru" adlı hekayəsini qələmə alıb.

Lakin mübariz tələbə Leypsiqdə oxuyarkən vərəm xəstəliyinə tutulub. Xəstəliyi şiddətləndiyindən 1905-ci ildə Litvaya qayıdıb və müalicə olunmaq üçün bir qədər sonra Polşanın cənubundakı Zakopane kurort şəhərinə gedib. Yay aylarında isə Litvada yaşayıb. Lakin, müalicəsi ilə bağlı göstərilən səylər müsbət nəticə verməyib. Y. Bilyunas 8 dekabr 1907-ci ildə Polşanın Zakopane şəhərində vəfat edib və burada da dəfn edilib. 1953-cü ildə nakam yazarın nəşi Vətənə gətirilib və Litvanın Anikşyay rayonunda torpağa tapşırılıb.

Y. Bilyunas ilk milli yazıçıdır ki, Litva ədəbiyyatının qısa janrının çoxşaxəli təhkiyə üsullarını Avropa novellası formasına salıb. O, ilk dəfə olaraq novellalarında etik refleksiyaları əsərin daxili vaqiələrini təlatümə gətirən hal kimi hadisələrin mərkəzinə çəkib, minimal bədii üslub vasitələrilə daxili və gizli mənaların məkanını elə açıqlayıb ki, bu məkanda əsərin əsas tezisi ilə bağlı əlavə düşüncələrə və duyğuların eqzaltasiyasına – coşub vəcdə gəlməsinə gərək qalmır.

Y. Bilyunas Litva ədəbiyyatında ilk dəfə olaraq fəhlə sinfi və onun düşüncə tərzinin inkişaf edib dəyişməsi mövzusunu işləyib. İlk qələm təcrübələrində – "İlk tətil" (1903), "İşsiz" (1904) və digər hekayələrində zəhmətkeşlərin sosial baxımdan istismar olunması, etiraz motivləri üstünlük təşkil edir. Sonrakı əsərlərində – "Neman çayı ilə" (1905) və "Qəmli hekayət" (1907) novellalarında psixoloji problemlər qoyulub, incidilən və bədbəxt insanın taleyi mənəvi ağrıları ilə təsvir edilib, hisslər dünyası açıqlanıb.

Y. Bilyunas demokratik müddəaların idealist tərəfdarıdır. Ədibin düşüncəsinə görə, əgər öz əqidənə hörmət edirsənsə, "insan hisslərinin və vicdanın necə olmasından asılı olmayaraq, onları sıxışdırmamaq və boğub əzməmək" prinsipinə əməl etməlisən. Odur ki, əsərlərində humanist ideyalar üstünlük təşkil edir, novellaları insan qəlbinin incəliklərinə bələd olması və zərif duyğuların poetik təsviri, özünəxas lirizmi, elegiya tərzində əhval-ruhiyyə ifadə edən düşüncələr, fərəh və kədər duyğularının bədii inikası olaraq mükəmməl üslubu ilə seçilir. Müəllifin mənəvi və əxlaqi mövqeyini aydın şəkildə əks etdirən və birinci şəxsin adından danışan təhkiyəçi obrazı hekayələrdə ön planda çıxış edir. Təhkiyəçi subyektivdir. Onun lap yaxında olması hiss olunur və bəzən təhkiyəçinin özü belə bədii obraz simasında çıxış edir. Y. Bilyunasın yaradıcılığında tərcümeyi-halı ilə bağlı hadisələr də təsvir edilib.

Y. Bilyunasın novellarında təsvir olunan obyektlər arasında kənd və kənd adamları xüsusi bir yer tutur. Təsvir edilən obrazların bəziləri həyatda heç kəsə lazım olmayan, incidilmiş və kənara atılmış insanlardır. Refleksiyalar və düşüncələr dışlanmış insanların düşdüyü vəziyyətlərdən doğur. Əsərlərində iki zaman müstəvisi – çağdaş dövr və xatirələrlə bağlı keçmiş zaman təbii vəhdət təşkil edir. Ətrafdakı məkan nişanları çox ifadəli surətdə təqdim olunur. Hekayələrindəki incə lirizm Y. Bilyunasın dərin humanizmindən – onun insanları başa düşmək, anlamaq və həmdərd olmaq istəyindən doğur.

Y. Bilyunasın bədii irsi Litva nəsrinin inkişafına böyük təkan verib və özündən sonrakı yazarların yaradıcılığına ciddi təsir göstərib. Onun bir neçə novellası – "Brisyusun aqibəti", "Oxladım", "Səadət nuru", "Qəmli hekayət", "Yonyukas" və s. əsərləri Litva uşaq və gənclər ədəbiyyatının qızıl fonduna daxil edilib.

Y. Bilyunasın əsərləri eston, latış, rus, isveç, belarus, alman, tacik, esperanto, polyak və başqa dillərə çevrilib. Novellaları Azərbaycan dilinə ilk dəfə 2015-ci ildə tərcümə edilərək ön sözlə bərabər "Ulduz" jurnalında çap olunub.[270]

[270] Yonas Bilyunas. Hekayələr. 1. "Səadət nuru". 2. "Oxladım". 3. "Brisyusun aqibəti". Bakı, "Ulduz" ədəbi-bədii jurnalı, 2015-ci il, № 3. Hekayələri Litva dilindən Mahir Həmzəyev tərcümə edib.

KEÇMİŞDƏKİ AĞRILAR VƏ GƏLƏCƏKLƏ BAĞLI ÜMİDLƏR

R. Mehdiyevin litvaca çap olunmuş "Azərbaycanın keçmişdəki itkiləri və gələcəyinin strateji görünüşü" adlı kitabına ön söz

Cəsarətlə demək olar ki, indiyədək Litva oxucusunun müasir Azərbaycan ictimai-siyasi fikrinin inkişaf tendensiyaları ilə yaxından tanış olmaq üçün imkanları kifayət qədər olmayıb. Doğrudur, müasir dövrdə dünyanın istənilən bir məkanı haqqında məlumat əldə etmək böyük problemlər yaratmır. Amma bununla yanaşı, dəqiq bilgilər və hərtərəfli təhlillər ehtiva olunmuş məlumatlar əldə etmək müqayisəolunmaz dəyər olaraq qalır, həm də ki, həmin dəyər oxuculara Litva dilində təqdim olunduğu üçün əhəmiyyəti daha böyükdür. Bu baxımdan Azərbaycan Milli Elmlər Akademiyasının akademiki Ramiz Mehdiyevin "Azərbaycanın keçmişdəki itkiləri və gələcəyinin strateji görünüşü" adlı kitabının 2015-ci ildə Vilnüsdə Litva dilində nəşr olunması bu ölkədə heç də tez-tez təkrar olunan bir hadisə deyil.

Kitaba müəllifin 2000 və 2012-ci illərdə Bakıda işıq üzü görmüş iki əsəri – "Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri" tarixi oçerki və "XXI əsrdə Azərbaycan ideyası kreativ millət kontekstində" adlı sosial-siyasi və fəlsəfi essesi daxil edilib.

Birinci əsər Azərbaycanın yaxın keçmişində olmuş dramatik olayların təhlilinə həsr edilib. İkinci yazıda isə müəllif Azərbaycanda gələcəkdə daha da çiçəklənməkdə olan dövlət və yetkin vətəndaş cəmiyyəti yaratmağın imkanları barədə analitik düşüncələrini təqdim edir. Bəri başdan qeyd edək ki, hər iki əsərdə ehtiva olunan fikirlər Litva üçün o qədər də yad deyil.

"Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri" oçerkində oxucu Bakıda və Vilnüsdə törədilmiş qanlı Yanvar hadisələri arasında mahiyyət əlaqələri və heyrətamiz oxşarlıqlar görə bilər. O zaman ərazi bütövlüyünü müdafiə edən və Sovetlər zindanından qurtulmağa çalışan Azərbaycan 1990-cı ilin yanvarında şiddətli konvulsiyalar içində can verməkdə olan imperiyanın amansız zərbəsinə "qardaş" respublikalar arasında birincilər sırasında məruz qalıb.

1990-cı ilin yanvarında Bakıda törədilmiş qırğın 1991-ci il yanvarın 13-də Vilnüsdə baş verən qanlı faciənin sanki proloqu olub və imperiyanın aqoniyalar içində son çırpıntılarından birinə çevrilib. Bir dəfə dişi qana batmış Sovet imperiyası artıq dayana bilməzdi. Və təbii ki, o, xalqların milli azadlıq mübarizəsinə qarşı yalnız nifrət və qəddar silahlı qüvvələri ilə çıxa bilərdi...

Öncəki illərdə Budapeşt, Praqa, Tbilisidə insanların gələcəyə ümidlərini tankların tırtılları altında əzdiyi kimi... Odur ki, 1990-cı ilin yanvarında SSRİ rəhbəri Mixail Qorbaçovun Vilnüsə səfərindən dərhal sonra, Kreml Azərbaycanın müstəqillik uğrunda hərəkatını müvəqqəti də olsa, zor gücünə dayandırmağa nail oldu. Kreml yalan, saxtakarlıq və informasiya blokadası yolu ilə Qərbin demokratik ölkələrini inandıra bildi ki, Sovetlərin 50 min hərbçidən ibarət vəhşi Ordasını Bakıya guya burdakı rusları qorumaq və erməni qırğınlarının qarşısını almaq niyyəti ilə yürüdüb.

Bunun ağ yalan olduğunu hətta Ermənistan Xalq Cəbhəsinin 20 yanvar 1990-cı ildə açıqladığı bəyanat da təsdiqləyir: "Bu, respublikada yaşayan ermənilər qorumaq üçün deyil, əslində Sovet hakimiyyətinin mövcudluğuna təhlükə yaradan ciddi vəziyyəti aradan qaldırmaq məqsədilə edilib. Bizim fikrimizcə, bu hadisələr Azərbaycan Respublikasının suveren hüquqlarının pozulması kimi qiymətləndirilməlidir...".[271]

Lakin M. Qorbaçovun məftun etdiyi Qərb dövlətləri o zaman hələ Kremlin təbliğatına inanırdı. Beləliklə də, müstəqillik və ərazi bütövlüyü uğrunda mübarizə meydanında Azərbaycan tamamilə tək qalmışdı. Təəssüf doğuran hal budur ki, Litvada həm o dövrdə, həm də daha sonralar Qarabağ hərəkatı ilə Litva Xalq Cəbhəsi – *Sąjūdis* hərəkatının fəaliyyəti arasında qeyri-adekvat paralellər gətirilərək geniş surətdə yayımlanırdı. Odur ki, həm də buna görə Litva ictimaiyyətində Qarabağ ermənilərinin niyyətləri barədə milli dirçəliş, cəmiyyətin demokratikləşməsi və onların müstəqilliyə can atması ilə bağlı ictimai-siyasi qənaət hökmran idi. Halbuki Qarabağın erməni separatçılarının təşkilatı əslində M. Qorbaçovun yenidənqurma siyasəti və millətlərin öz müqəddəratını təyin etmək hüququ pərdəsi arxasında gizlənərək Azərbaycan ərazisinin bir hissəsini zəbt etmək və onu Ermənistana birləşdirmək məqsədi ilə yaradılmışdı. *Sąjūdis* təşkilatı isə, məlumdur ki, Qarabağ hərəkatından fərqli olaraq, qarşısına Polşada, Belarusda və ya Rusiyadakı litvalıların yığcam yaşadıqları torpaqları qoparıb Litvaya birləşdirmək məqsədini qoymamışdı.

Bakı və Vilnüs Yanvar hadisələri sanki klonlaşdırılmış qırğınlara bənzəyir. Çünki bu hadisələrdə çox böyük oxşarlıqlar var: Biz həm Bakı, həm də Vilnüs küçələrində barrikadalar gördük. Belə ki, İkinci Dünya müharibəsindən sonra Moskva ilk dəfə olaraq silahsız insanlara qarşı ağır hərbi texnikadan istifadə etdi. Qanlı hadisələrin eyni mərkəzdən idarə olunması və ümumi bir ssenari üzrə gerçəkləşdirilməsi də açıq-aydın görünürdü; Litvada milli maraqların

[271] Газета Народного Фронта Латвии "Атмода" (на русском языке). Рига, 5 февраля 1990 г. № 6, стр. 7.

xəyanətkarları burokaviçyuslar və yermolaviçyuslar idisə, Azərbaycanda vəzirovlar və mütəllibovlar idi.

Təcavüzün məzmun və mahiyyəti, ideoloji paralellər və uydurma səbəbləri də bir-birinə bənzəyirdi: Vilnüsdə Sovet ordusunun yeridilməsini israrla tələb edən "SSRİ vətəndaşlarını müdafiə komitəsi" və *"Yedinstvo"* kimi interfront təşkilatlar yaradıldığı zaman, Bakıya, rusları qorumaq və erməni qırğınlarının qarşısını almaq pərdəsi altında ordu yeridilmiş və vəhşicəsinə hərbi zor işlədilmişdi.

Olmazın qəddarlıqla həyata keçirilmiş hərbi əməliyyatlarda və həm də bununla bağlı atılmış digər addımlarda daha bir sıra ümumi məqamlar da yer alıb. Dəyişməz qalan yalnız imperiyanın ölüm mələyinin öldürücü baxışı, Ana Vətənin susmayan harayı, ağrı və əzablarla dolu fəryad səsləri, xalqlarımızın kömək diləyən çağırışları, Qərb dünyasının isə bu faciəyə kar və kor qalması, onların sanki laqeydlik mamırı ilə örtülüb daşa dönmüş ağrıduymaz ürəkləri idi...

Bəli, çox ağrılı itkilərimiz olub, amma o hadisələrdən ötmüş iyirmi beş ildən artıq bir zaman ərzində biz get-gedə daha dərindən anlamışıq ki, 20 yanvar və 13 yanvar Azərbaycan və Litva üçün böyük qələbə günləridir. Həmin günlərdə Azərbaycanın və Litvanın silahsız vətəndaşları Bakıda və Vilnüsdə nümayiş etdirdikləri böyük mənəvi güc, əzm və qətiyyət sayəsində bütün dünyaya sübut etdilər ki, həqiqət və istiqlaliyyətə qovuşmaq istəklərinin qarşısı alınmazdır və xalqlarımız öz azadlığını müdafiə etməyə, müstəqil dövlətlərini qurmağa tam hazırdırlar. Buna görə də Litvanın Xalq şairi Yustinas Martsinkyavicyusun sözləri ilə desək, litvalılar hər ilin 13 yanvarında həlak olmuş qəhrəman oğul və qızlarının müqəddəs xatirəsi önündə ehtiramla baş əyir, bir daha onları əbədi azadlıq bayrağına bükürlər. Bəlkə də Vilnüs və Bakı Yanvar hadisələri və həmin qələbə günləri olmasaydı, sovetlər imperiyası çökməyəcəkdi. O zamansa bugünkü Avropa və bütün dünya da tamamilə başqa cür görünəcəkdi.

R. Mehdiyevin "Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri"oçerki Bakının Qara yanvarına daha dərindən nəzər salmağa imkan verir. Müəllif addımbaaddım bu hadisələrin qaynaqlarını üzə çıxarır və səbəblərini açıqlayır, nəticədə, insanlıq və bəşəriyyətə qarşı törədilmiş bu cinayətin təkcə icraçılarının deyil, həm də sifarişçilərinin adlarını çəkir. Faciənin səbəb və nəticələrini geniş araşdıran R. Mehdiyev, onun tarixi, dini, milli amillərini, həmçinin Qafqazla bağlı geosiyasi aspektlərini müəyyən edib birbəbir çözələyir, Bakı yanvar hadisələrinin Qarabağ münaqişəsi ilə birbaşa əlaqəsini və başqa tarixi gerçəklik-

lər arasındakı yerini əsaslandırılmış şəkildə təyin edir. Əsər qırğının günahsız qurbanlarının xatirəsinə sanki bir rekviyem, gələcək nəsillərə isə xitab kimi səslənən "Qanlı yanvarın ibrət dərsləri" fəsli ilə başa çatır.

Litva və Azərbaycanın ən yeni tarixləri arasındakı bir sıra paralellərə baxmayaraq, məsafəcə uzaq, lakin mənən yaxın – Litva xalqı ilə dostluq münasibətlərində olan Azərbaycan xalqının o zaman yaşadığı ağrılı hadisələr barədə litvalılar hələ də çox mətləbləri bilmirlər. Buna görə də inanıram ki, R. Mehdiyevin kitabı onlara Azərbaycan xalqının tarixi taleyini, Azərbaycan torpaqlarında davam edən münaqişənin köklərini və mahiyyətini, ölkədə keçmişdə yaşanmış qanlı olayların və bu gün də davam edən dramatik hadisələrin əsl səbəblərini daha yaxşı anlamağa imkan verəcək.

Kitabdakı digər əsərdə – "XXI əsrdə Azərbaycan ideyası kreativ millət kontekstində" adlı sosial-siyasi və fəlsəfi essedə akademik R. Mehdiyev "Ölkə ictimaiyyəti hansı istiqamətdə inkişaf etməlidir?" sualına cavabın axtarışı ilə məşğuldur. Bu sualı cavablandırmaq üçün R. Mehdiyev çox sayda əlaqəli mövzuları araşdırıb müzakirə edir. Həmin mövzuların zənginliyi essenin ayrı-ayrı bölmələrinin başlıqlarında da öz əksini tapıb: "Modernləşdirmə və innovativ iqtisadiyyat", "Kreativ zümrə cəmiyyətin hərəkətverici qüvvəsidir", "Milli kreativ elitanın formalaşması", "Milli identiklik", "Vahid vətəndaş milləti" və s.

R. Mehdiyev bu essenin əsas qayəsini formalaşdırarkən yalnız dünyanın tanınmış mütəfəkkirlərinə istinad etmir, eyni zamanda onların bəzi mülahizələri ilə polemikaya da girir. Bilgili Litva oxucusu əsərdə həm ona yaxşı tanış olan, həm də yeni adlara rast gələcək: D. Harrison, D. Bell, E. Toffler, S. F. Hantinqton, R. Florida, Y. Q. Volkov, A. N. Okara və başqaları. Əminliklə demək olar ki, həm akademik R.Mehdiyevin özünün, həm də onun xatırlatdığı mütəfəkkirlərin fikirlərinin sintezi ona XXI əsr azərbaycançılıq ideyasının mahiyyətini və onun əsas məzmununu aydınca ifadə edib təqdim etməyə imkan yaradıb.

R. Mehdiyev liberal Qərb demokratiyası və vətəndaş cəmiyyəti ideyasını şübhə altına almamasına baxmayaraq, Azərbaycan üçün spesifik üçüncü bir yol təklif edir. Onun fikrincə, ölkənin innovativ müasirləşməsi üçün milli ideya, güclü lider və yaradıcı insanlar sinfi lazımdır. Müəllifin sözlərinə görə, bu cür insanların mühüm fərqləndirici xüsusiyyətləri onların yaradıcı potensialı və mənəvi dəyərlərə olan diqqətidir. Akademikin qənaətincə, kreativlik hər hansı bir ictimai təbəqənin üstünlüyü deyil və ola da bilməz – belə bir potensial ən aşağı təbəqədən tutmuş ziyalılara qədər hər kəsdə vardır və hər kəs onu aşkar edə bilər. Odur ki, cəmiyyətin bütün qrupları yaradıcı prosesdə öz yerlərini tapa bilər və tapmalıdır.

R. Mehdiyev yazır ki, "Kreativ insanlardan yaradıcı təfəkkür, yeni ideyalar və orijinal qərarlar irəli sürmək, yeni texnologiyaları mənimsəmək bacarığı tələb olunur". Kreativ insanlara isə açıq ictimai məkan, yeni ideyaların generasiya edilməsi üçün əlverişli yaradıcı mühit gərəkdir. Buna görə də, onun fikrincə, ölkənin təbii ehtiyatları təkcə iqtisadi inkişaf üçün deyil, həm də intellektual və elmi potensialın yaradılmasına xidmət etməlidir.

Bu gün Azərbaycanda tərəddüd etmədən danışırlar ki, essedə təklif olunan modernləşdirmə layihəsinin faktiki olaraq alternativi yoxdur. R. Mehdiyevin ideyaları burada yalnız ictimai və siyasi elmlər çərçivəsində təqdim olunan maraqlı düşüncələr, aktual və perspektivli fikri ifadələr kimi deyil, həm də ölkənin müəyyən bir siyasi təcrübəsinin mümkün istiqamətləri kimi dərk edilir. Fəlsəfi baxımdan həmin ideyaları Aristotelin sözləri çox gözəl əks etdirir. Şagirdlərinin, "Uğurlara necə nail olmaq olar?" – sualına bu qədim yunan mütəfəkkiri belə cavab verir: "Arxada qalanları gözləməklə yox, qabaqda gedənlərə çatmaq yolu ilə...".

Məlumdur ki, bugünkü Litva liberal bir Qərb dövləti olaraq ölkənin və cəmiyyətin inkişafının bir qədər fərqli modelini, həm də müəyyən anlamda fərqli dəyərlər sistemini seçib. Lakin kreativ sinif ideyasının hələ 1968-ci ildə Parisin Latın kvartalına yad olmadığını və daha sonralar Amerika ziyalılarının düşüncələrində öz təcəssümünü tapdığını nəzərə alsaq, R. Mehdiyevin bəzi fikirlərinin maraqlı mülahizə və müşahidələr üçün yeni üfüqlər açacağına ümid etmək olar.

Zənnimizcə, litvali müəlliflər – Litva EA-nın akademikləri Antanas Tilanın və Antanas Buraçasın, gənc siyasi analitik, sosial elmlər doktoru Laurinas Kasçyunasın kitab haqqında yazdığı maraqlı resenziyalar və dəyərli rəylər, təqdim etdikləri aktual şərhlər, təhlil və ümumiləşdirmələr R. Mehdiyevin əsərlərini Litva oxucularına daha da yaxınlaşdırmağa kömək edir. Həmçinin professor Vitautas Landsbergisin Bakı yanvar hadisələrinin 20-ci ildönümü ilə bağlı 2010-cu ildə yazdığı və sözügedən kitabda çap edilmiş "Azərbaycanın faciəsi" adlı analitik məqaləsi də indiyədək bu faciə haqqında yazmış litvalı müəlliflərin müşahidə və qeydlərinin dürüst və məntiqi yekunu olaraq bu məqsədə xidmət edir. Belə ki, həmin məqalə ideoloji və siyasi baxımdan əksər hallarda R. Mehdiyevin "Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri" oçerkinin məzmunu ilə üst-üstə düşür. Rəyçilərə və məqalənin müəllifinə onların yazılarının kitaba daxil edilməsinə razılıq verdikləri üçün səmimi minnətdarlığımı bildirirəm...

Düşünürəm ki, kitabın Litva dilinə tərcümə edilib yayımlanması vektorunda qarşıya qoyulan məqsəd həm müasir Avropa İttifaqının sərhədlərsiz Avropa və "Şərq tərəfdaşlığı" siyasətinin konsepsiyasına, həm də Litva ilə Azərbaycan arasındakı çoxşaxəli əməkdaşlıq münasibətləri strategiyasına tamamilə uyğun gəlir. Kitabın məzmunu və nəşri həmçinin geniş anlamda, Azərbaycan etnokulturoloji siyasəti ilə Avropa və dünya dövlətlərinin mədəni inkişaf tendensiyaları arasında, eləcə də fərqli dəyərlərin qarşılıqlı təsir prosesləri çərçivəsində mövcud olan mühüm əlaqələri qabarıqlaşdırıb ön plana çəkir.

İnanırıq ki, R. Mehdiyevin Litva dilinə ilk dəfə tərcümə edilən əsərləri litvalılara Azərbaycan türklərinin tarixi, etnokulturoloji dəyərləri və milli mentalitet xüsusiyyətləri ilə daha yaxından tanış olmaq üçün geniş edukoloji imkanlar yaradacaq, Litva–Azərbaycan ictimai-siyasi əlaqələrini möhkəmləndirəcək, xalqlarımızın daha sıx mənəvi yaxınlığına xidmət edəcək, onların əsrlər boyu davam edən qarşılıqlı anlaşma ənənələrini zənginləşdirəcəkdir.

Arzu edirəm ki, akademik R. Mehdiyevin kitabı tədricən inkişaf etməkdə olan Litva azərbaycanşünaslığının kitab rəfində tezliklə öz yerini tutsun, Litva oxucusu isə Azərbaycan yaşlı ziyalı nəslinin intellektual təmsilçisinin yaradıcılığı ilə tanış olub layiqincə dəyərləndirə bilsin.[272]

Vilnüs, 8 noyabr 2014-cü il.

Litva, "Voruta" internet qəzeti, 4 avqust 2015-ci il.
Litva, "Trakų žemė" həftəliyi, 4 avqust 2015-ci il.
Bakı, "525-ci qəzet", 19 yanvar 2019-cu il, № 12.

[272] Ön sözü Litva dilindən Mahir Həmzəyev tərcümə edib.

E. HÜSEYNBƏYLİ YARADICILIĞINDA AĞ VƏ QARA

E. Hüseynbəylinin litvaca çap olunmuş "Boz eşşəyin məktubları" kitabına ön söz[273]

Elçin Hüseynbəyli Azərbaycanın populyar yaziçi-dramaturqu və publisistidir. O, 1961-ci il dekabrın 23-də Azərbaycan Respublikasının Cəbrayıl rayonunda doğulub. 1989-cu ildə E. Hüseynbəyli M. Lomonosov adına Moskva Dövlət Universitetinin jurnalistika fakultəsini fərqlənmə diplomu ilə bitirib. Bakıya qayıtdıqdan sonra uzun illər müstəqil mətbuatda çalışıb. Sonralar aktiv jurnalistikadan çəkilib, çünki özünün dediyi kimi "jurnalistika iqtisadi qurumlardan çox asılı vəziyyətə düşmüşdü və ondan alət kimi istifadə edirdilər".

Təbii ki, E. Hüseynbəyli publisistikadan əl çəkməyib və daha çox bədii yaradıcılıqla məşğul olmağa başlayıb. Onun publisistik əsərləri "Cənab XXI əsr" kitabında (2005) toplanıb. Bu ad rəmzi məna daşıyır, çünki E. Hüseynbəyli bir yazıçı kimi XXI əsrdə formalaşmağa başlayıb, halbuki ədəbiyyata Azərbaycanın milli dirçəlişi dövründə və müstəqilliyi ərəfəsində gəlib.

E. Hüseynbəyli 20-dən çox kitabın müəəlifidir. Onların arasında "Balıq adam" (2004), "On üçüncü həvari – 141-ci Don Juan" (2007), "Şah Abbas" (2008), "Metro vadisi" (2009), "Yovşan qağayılar" (2005 və 2013), "Azıx" (2013), "Aişə" (2013) və sair romanlar vardır. Onun "Fanatlar", "İki nəfər üçün oyun", "Labirint", "Axırı sakitlikdir", "İmperator ", "Adəm və Həvva", "Qaçaq qocalar" kimi pyesləri Azərbaycan teatrlarında oynanılmaqdadır. Yazıçının son romanı "Yenə iki od arasında" adlanır və Qarabağ tarixinə həsr olunub.

O, bir sıra yerli və beynəlxalq ədəbi ödüllərə layiq görülüb. Əsərləri ingilis, rus, fransız, ərəb, gürcü, alman, polyak, ukrayna, fars və s. dillərə çevrilib, Türkiyə, qazax, tatar və özbək türkcələrinə uyğunlaşdırılıb. Litva dilinə tərcümə olunmuş bir neçə hekayəsi 2013–2016-cı illərdə *"Metai", "Literatūra ir menas", "Šiaurės Atėnai"* və *"Nemunas"* ədəbi-bədii nəşrlərində dərc edilib.

Elçin Hüseynbəyli oxuculara daha çox hekayələri ilə tanışdır. Onun ilk hekayələri "Gənclik" və "Ulduz" jurnallarında çıxıb və son illər sonuncu nəşrin baş redaktoru olub. Tənqidçilər qeyd edirlər ki, hələ ötən əsrin 90-cı illərində

[273] Ön sözü Mahir Həmzəyev və Halina Kobetskayte birgə yazıblar.

Yazıçı E. Hüseynbəylinin hekayələrinin çap olunduğu Litva ədəbi nəşrlərinin görüntüləri.

onun həm hekayə, həm də publisistik yaradıcılığında "təbii çılğınlıq və çeviklik özünü büruzə verirdi. Ədəbi prosesdə fərqlənmək istəyi və orijinallığı isə yazıçının öz üslubu və təhkiyəsi olduğunu göstərirdi..."

Müasir Azərbaycan ədəbiyyatının məşhur söz ustalarından olan yazıçı Anar E. Hüseynbəylinin yaradıcılığına həsr etdiyi məqaləsində onu yeni nəsil ədəbiyyatının layiqli təmsilçisi kimi dəyərləndirərək vurğulayıb ki, "...Elçinin timsalında ədəbiyyatımızda istedadlı, maraqlı, bənzərsiz, orijinal bir nasir yetişmişdir. Onun əsərlərində sürrealizm, əfsunlu realizm elementləri də var, mifik təfəkkür də, folklora bağlılıq da və bunların sintezi süni deyil, yazıçının daxili dünyasından keçirilmiş bir sintezdir."

Elçin Hüseynbəyli erməni işğalı altında olan bölgədə anadan olduğuna görə Qarabağ mövzusu da ona çox doğmadır. Ona görə də yazıçının əsərlərində gerçəkliklə səsləşən dramatizm özünü göstərir. Amma yazıçının yaradıcılığında birbaşa müharibədən danışılmır. Bu əsərlərdə daha çox həyəcan, müharibədən əziyyət çəkmiş insanların əzabı, vətən həsrəti, öz yurdlarına qayıtmaq ümidi əksini tapır. Onu da qeyd etmək lazımdır ki, öz soydaşlarının hiss və duyğularına həssaslıqla yanaşan yazıçı ermənilər aşağılamır, amma onlardan incikliyi də unutmur.

Müsahibələrinin birində yazıçı doğulduğu Cəbrayıl rayonunun Mahmudlu kəndində keçirdiyi uşaqlığından danışır. Gördüyümüz kimi, yazıçının mentalitetinə lirizm və romantika məxsusdur. Baxmayaraq ki, müəllif uşaqlığı ilə çoxdan vidalaşıb, amma uşaqlığının keçdiyi kənd barədə uşaq sadəlövhlüyü ilə elə səmimi danışır ki, ona valeh olursan və ədalətsizliklə üzləşən insan

qəlbinin kövrəkliyini duymaya bilmirsən. Bu emosional qat E. Hüseynbəylinin yaradıcılığının özəlliyidir və ona bir açardır. Ünlü ədəbi tənqidçi Vaqif Yusifli təsadüfən qeyd etmir ki, Qarabağ mövzusunda yazdığı hekayələrdə insanın savaşla qarşıdurması dominantlıq təşkil edir. Və həmin insan ya işğal altında olan, susuz qalan, çiçəkləməyən armuda görə kədərlənir, ya kimsəsiz qalmış qoyun və eşşəyin dərdini çəkir, yaxud da nəyin bahasına olur-olsun doğma yurdunda dəfn olunmağa can atır.

Yazarın Qarabağ mövzusunda yazdığı hekayələri "Ağ-Qara" kitabına (2014) nahaqdan salınmayıb. Kitabın adını izah edən müəllif yazır ki, "kitabın adı təsadüfi seçilməyib. Ağ-qara yazıçının ovqatını əks etdirir. "Ağ hekayələr"i oxuyanda adamın bir gözü ağlayır, biri gülür, "qara hekayələr"i oxuyanda isə adamın ürəyindən qara qanlar axır. Hər bir halda bu yazılar doğma Qarabağ haqqındadır: onun indiki ağrı-acıları, xoş xatirələri ilə birgə". Ən başlıcası isə, həm "ağ", həm də "qara" hekayələrdə sönməz bir ümid işığı yanır ki, Qarabağdan qovulmuşlar nə vaxtsa mütləq doğma yurdlarına qayıdacaqlar...

Bu kitaba Elçin Hüseynbəylinin öncələr Litvada nəşr olunan, eləcə də ilk dəfə çevrilən hekayələri daxildir və onların bəziləri bayaqdan bəhs etdiyimiz mövzuya həsr olunub: "Boz eşşəyin məktubları", "Gözünə gün düşür", "Qocanın axdığı gün", "Qaracanın qara başı", "Qoca və Araz".

Müharibə ilə birbaşa bağlı olmasa da, E. Hüseynbəyli başqa hekayələrində də Qarabağ mövzusuna toxunur. Məsələn, "Şimallı gəlin". Doğrudan da bu hekayələri oxuyarkən bir gözün ağlayır, o biri isə gülür. Bu effekt təkcə əsərlərin mövzusu, qəhrəmanların xarakteri ilə bağlı deyil, həm də müəllifin təhkiyəsi ilə bağlıdır.

Elçin Hüseynbəylinin ilk hekayələri əyani şəkildə nümayiş etdirdi ki, onlar Azərbaycan ədəbiyyatında mövcud olan təhkiyəçilikdən çox fərqlənir. Həmin təhkiyəçilikdə hadisələr ardıcıllıqla göstərilir və bir-biri ilə sıx əlaqədədir. Amma yeni nəslin təmsilçisi olan ədibin hekayələri yığcam cümlələrlə yazılır, sanki teleqraf cümlələridir və atılıb-düşürlər. Ona görə də mətn, sanki kəsilə-kəsilə gedir, yaxud titrəyir. Müəllif hekayələrini kino dilinə salır, montaj edir. O, müxtəlif "kadrları" bir-birinə yaxınlaşdıraraq oxucuya düşünmək, hadisələri təkbaşına izləmək imkanı yaradır. Müəllif öz kino təcrübəsini oxucularla da bölüşür. Məsələn, "Şimallı gəlin" hekayəsində o, istehzayla oxucuya xatırladır ki, belə bir süjetə hansısa bir filmdə rast gəlib. Ümumən, istehza və özünü istehza müəllifin üslubu üçün xarakterikdir. O, oxucunu hadisələri müəlliflə birgə, özü də kənardan, izləməyə dəvət edir. "Sevgi oyunları"nda, "O gözəllər ki, vardı" hekayələrində olduğu kimi. Müəllif qəhrəmanın komik hərəkətilə ciddi

hərəkətini eyniləşdirməkdən çəkinmir. Bu, oxucuya təhtəlşüur düşünmək, oxu prosesini sürətləndirmək, hətta təhkiyəçiyə gülmək imkanı verir. Qəhrəmanlara və oxuculara məhəl qoymayan yazıçı nəinki onların arasında, hətta özü ilə obraz arasında məsafə saxlayır, sanki göstərmək istəyir ki, onun qəhrəmanları başqa dünyada, ən azı başqa bir məkanda və zamanda yaşayırlar. Müəllifin bu istəyi üzündən qəhrəmanların bəziləri həddən artıq rasional görünür, bəzən süni təsir bağışlayır, ziddiyyət təşkil edirlər və məlum hadisələr təkrar olunur.

Orijinalda yazıçının dilində bəzi kobud ifadələrə rast gəlinir. Bir regiona aid dialektdən istifadə olunur ki, onlar da tərcüməyə yatmır. Buna axmayaraq E. Hüseynbəylinin hekayələri Litva oxucularının qiraət palitrasına zəngin çalar qatır.

Son 25 ildə, demək olar ki, Azərbaycan və Orta Asiya ölkələri yazarlarından heç kimin bədii əsəri Litva dilinə tərcümə edilməyib. Nə orijinal Litva ədəbiyyatında, nə də tərcümə olunmuş əsərlərdə Qarabağ mövzusu ilə bağlı heç nə yoxdur. Tək-tük yazılara rast gəlmək olar ki, onlarda da insan faciəsinə milli prizmadan baxılmır. E. Hüseynbəyli isə bu mövzulardan qaçmır. Bu istehzalı münasibət "Qara çadralı qadın", "Şimallı gəlin", "Nənəm, babam və kommunizm" hekayələrində də var. "Şimallı gəlin" hekayəsində müəllif azərbaycanlı oxuculara üzünü tutub deyir ki, "bu, bir azərbaycanlı kimi" sizə xüsusən lazımdır. Yazarın hekayələrini oxuyarkən, qismən də olsa, Azərbaycan ədəbiyyatından xəbər tutur və xalqın hazırkı durumunu təsəvvür edirik.

Qeydlərimizi tanınmış ədəbiyyatşünas və tənqidçi Vaqif Yusiflinin sözlərilə tamamlamaq istərdik: "Ədəbiyyatda istedad başlıca amildir, ancaq istedadlı olduğunu sübut eləmək üçün bir az da cəsarətli olmaq lazımdır və Elçin Hüseynbəylidə bu cəsarət dozası qədərincədir. Bu cəsarət ona imkan verib ki, layiq olduğu yeri tutsun və yazılarında da daxili azadlığını, sərbəst söz demək missiyasını qoruyub saxlasın..."[274]

Bakı, "525-ci qəzet", 31 mart 2018-ci il, № 56.
Bakı, "Kaspi" qəzeti, 31 mart 2018-ci il, № 56.

[274] Ön sözü Litva dilindən Mahir Həmzəyev tərcümə edib.

VII FƏSİL

QARABAĞ DÜYÜNÜ LİTVA DİSKURSUNDA

QARABAĞ HƏQİQƏTLƏRİNİN ƏDƏBİ-PUBLİSİSTİK ÜSULLARLA YAYIM YOLLARI

Azərbaycan diasporunun qarşısında duran ən ümdə və vacib fəaliyyət, sözsüz ki, Azərbaycanla bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırmaqdır. "Sovetlər Birliyinin dağılması ərəfəsində Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları irəli sürməsi, sonradan bu iddiaları müharibə həddinə çatdırması və bütün bu hərəkətlərlə yanaşı, dünya ictimaiyyətində Azərbaycan əleyhinə mənfi rəy formalaşdıraraq münaqişə ilə bağlı bütün günahları Azərbaycanın üzərinə yıxması Azərbaycan xalqını bu mübarizəyə qoşulmağa vadar etdi".[275]

Bunu nəzərə alaraq, Litva Azərbaycanlıları Cəmiyyətinin fəaliyyət istiqamətlərindən biri Ermənistan–Azərbaycan, Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri, tarixi faktları və xalqımızın haqq səsini həm də bədii və publisistik yollarla Litva ictimaiyyətinə çatdırmaq, akademik layihələr çərçivəsində səmərəli təbliğat və maarifləndirmə tədbirləri həyat keçirmək, kreativ üsullarla ictimai fikri doğru istiqamətdə formalaşdırmaq, Ermənistanın işğalçı siyasətini ifşa edərək onu qınaq hədəfinə çevirməkdir. Eyni zamanda bu mövzunu daima ictimaiyyətin diqqətində saxlamaq, Litva xalqını bu münaqişəyə biganə qalmamağa çağırmaq, problemin beynəlxalq hüquq normaları əsasında və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində ədalətli həllinin zəruriliyini təşviq etmək, həm də bu məsələdə Litva Respublikasının Seymi və Hökuməti tərəfindən siyasi dəstək almaq üçün lobbiçilik fəaliyyəti qurub konstruktiv addımlar atmaqdan ibarətdir.

İndiyədək Cəmiyyət tərəfindən bu istiqamətdə bir sıra konkret işlər görülüb. Həmin işlərin böyük qismi litvalı oxucuları Azərbaycan ədəbiyyatı və incəsənəti ilə tanış etmək, Litva–Azərbaycan ədəbi-mədəni əlaqələrinin üfüqlərini genişləndirmək və xalqlarımızın mədəniyyətlərarası dialoqunu inkişaf etdirməklə yanaşı, Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri və onun indiki ağrı-acılarını ədəbi-publisistik üsullarla və tərcümələr vasitəsilə Litva ictimaiyyətinə çatdırmaq məqsədini güdür.

Cəmiyyətin təşəbbüsü ilə 2006-cı ildə Litvada Qarabağ münaqişəsi barədə olayları işıqlandıran litvalı müstəqil jurnalistlər qrupu yaradılıb. Səkkiz nəfərdən ibarət bu qrup Azərbaycanın ədalətli mövqeyini düzənləyib müdafiə etmək üçün Litvanın media qovşağında təbliğat savaşına cəlb olunub.

Vurğulamaq istərdik ki, müstəqilliyin bərpa olunmasından sonrakı dövr Litva və Azərbaycan mediasında xeyli sayda Qarabağ mövzulu müxtəlif

[275] T. Haciyev. "Azərbaycan diasporu əsassız erməni iddialarına qarşı". Bakı, Trend informasiya agentliyinin saytı. Publikasiyanın yer aldığı link: https://az.trend.az/azerbaijan/society/1775315.html. 29 oktyabr 2010-cu il.

publikasiyalar işıq üzü görüb. Ən fərqli janrlarda yazılmış bu publikasiyaların müəllifləri arasında Vitautas Landsbergis, İmantas Melyanas, Tomas Çivas, Gintaras Visotskas, Riçardas Lapaytis, Vitaliyus Karakorskis, Donatas Valançyauskas, Arvidas Banyulis, Aydanas Praleyka, Vidmantas Valyuşaytis, Aras Lukşas, Laurinas Kasçyunas, Antanas Tila, Kestutis Oginskas, Rita Milyute, Paulyus Vaytekunas, Ramunas Trimakas, Tomas Srebalyus, Yuras Pojela, Egidiyus Vareykis, Arunas Valinskas, Andryus Burba, Antanas Raşimas, Algimantas Liekis, Lyaonas Yurşa kimi litvalı qələm sahibləri vardır.

Bu gün arqumentlərə söykənən tam bir əminliklə konstatasiya edə bilərik ki, müasir Litva–Azərbaycan ictimai-siyasi, kulturoloji və publisistik əlaqələrinin başlıca qolunu Qarabağ münaqişəsi mövzulu müxtəlif janrlı əsərlər və tərcümələr təşkil edir. Düşünürük ki, yaxın gələcəkdə yuxarıda göstərilən litvalı müəlliflərin bu mövzulu əsərlərindən götürülmüş seçmələrdən ibarət ayrıca bir tərcümə kitabının nəşr edilib Azərbaycan ictimaiyyətinə təqdim olunması diqqətəlayiq hadisə olardı...

Hələlik isə, Qarabağ mövzulu həmin əsərlərin bir qismini, habelə onların bəziləri haqqında yazılmış annotasiya, resenziya və icmalları Litva, polyak və rus dillərindən Azərbaycan dilinə tərcümə edərək, səciyyəvi misallar qismində kitabın bu Fəslində xronoloji ardıcıllıqla təqdim edirik...

LİTVALI MÜƏLLİFİN AZƏRBAYCANLILARIN SOYQIRIMI BARƏDƏ ƏSƏRİ

Litvalı tarixçi, etnoloq, siyasi şərhçi və konfliktoloq İmantas Melyanas "Azərbaycan xalqının soyqırımı (1905–1994)" mövzulu sənədli tarixi oçerk yazıb. Litva dilində yazılan əsər Vilnüsdə buraxılan *"Genocidas ir rezistencija"* adlı elmi jurnalda 2009-cu ildə çap olunub.[276] Jurnal 1997-ci ildən başlayaraq Litva dövlət elmi-tədqiqat müəssisəsi – Litva Əhalisinin Soyqırımını və Müqavimət hərəkatını Araşdırma mərkəzi tərəfindən nəşr olunur. Bu əsər təkcə Litvada deyil, həmçinin bir çox xarici ölkələrdə böyük nüfuza malik olan bu elmi jurnalda Azərbaycanlıların soyqırımı haqqında dərc olunmuş ilk elmi-tarixi publikasiyadır.

1. "Azərbaycan xalqının soyqırımı (1905–1994)" adlı sənədli tarixi oçerkin dərc edildiyi "Genocidas ir rezistencija" elmi jurnalının üz qabığının görüntüsü. 2. Litvalı tarixçi alim İmantas Melyanas.

Oçerk müəllifinin məqsədi Litva oxucularını bəşəriyyət tarixinin daha bir qara və faciəli səhifəsi ilə tanış etməkdir. İ. Melyanas maksimum səviyyədə obyektivliyə nail olmaq üçün Litvadakı erməni diasporunun nümayəndələrinə sözügedən hadisələrlə bağlı onlarda olan materialları əldə etmək məqsədi ilə müraciət edib. Burada erməni diasporunun təqdim etdiyi nəşrlərlə yanaşı fransız, ingilis, alman, litva, türk və rus mənbələrindən də istifadə olunub.

Litva Yəhudiləri İcması Şurasının üzvü, Litva Xalqları İnformasıya Palatasının idarə heyətinin sədri, Litva–Azərbaycan Assosiasiyasının həmtəsisçisi

[276] Imantas Melianas. "Azerbaidžaniečių tautos genocidas (1905–1994)". Vilnius, „Genocidas ir rezistencija", 2009 m. Nr. 1 (25), psl. 132–150.

Vitaliyus Karakorskis oçerk haqqında fikirlərini Azərbaycanın bir sıra KİV təmsilçiləri ilə bölüşərkən bildirmişdir ki, "bu oçerk erməni–azərbaycanlı, erməni–türk münasibətlərinə yox, Azərbaycan xalqının soyqırımı mövzusuna həsr olunub. Əsərdə deyilir ki, Ermənistanın bu qanlı münaqişəni beynəlxalq hüququn norma və prinsipləri əsasında həll etmək, işğal altındakı ərazilərdən çıxmaq və dəyən ziyanı ödəmək istəməməsi, həmçinin Azərbaycan xalqına qarşı soyqırım törətdiyini etiraf etməməsi, ilk növbədə onun özünün qonşu ölkələrlə münasibətlərinin normallaşmasına imkan vermir. Bu isə Qafqazda öz destruktiv geosiyasi məqsədlərini gerçəkləşdirən Rusiyanın "dondurulmuş münaqişələr" və onun tərəflərinin taleyi ilə manipulyasiya etməsinə imkanlar yaratmaqda davam edir".

Oçerkin yazılması işində litvalı tarixçi alimə Litva Azərbaycanlıları Cəmiyyəti və Baltik Azərbaycanlıları Konqresi elmi və praktik müstəvidə dəstək veriblər. Xüsusilə vurğulamaq lazımdır ki, Konqresin sədri, Latviyada yaşayan tanınmış iş adamı Ulduzxan Əhmədov bu layihəyə 2008-ci ilin mart ayından səxavətlə himayəçilik edib və onun gerçəkləşməsi üçün mühüm yardımlar göstərib. Bununla yanaşı, oçerkin işıq üzü görməsi üçün Cəmiyyət bir sıra siyasi və inzibati maneələri, o cümlədən bəzi ermənipərəst Litva dövlət qulluqçuları və hökumət məmurları tərəfindən süni surətdə yaradılan çətinlikləri dəf etməli olub.

Latviya Azərbaycanlıları "Azəri" Cəmiyyətinin sədri, Baltik Azərbaycanlıları Konqresinin prezidenti Ulduzxan Əhmədov (Riqa).

Qeyd edək ki, Türkiyədə, Yaxın Şərqdə və Qafqazda gedən siyasi proseslərə aid tarixi təhlilləri və politoloji araşdırmaları ilə tanınan tarixçi alim İmantas Melyanas Litva, Rusiya, ABŞ, Polşa, Belarus və Ukrayna mediasında vaxtaşırı Türkiyə və Qafqaz dövlətləri ilə bağlı publikasiyalarla çıxış edir...

Bakı, AR Diasporla iş üzrə Dövlət Komitəsinin saytı, 23 iyun 2009-cu il.

ERMƏNİ TERRORU HAQQINDA FİLM LİTVA SAYTINDA

Ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri soyqırımı və terror aktlarından bəhs edən "Erməni terroru" sənədli filmi Litvanın *www.slaptai.lt* saytında DVD-Video formatda yerləşdirilib.

Bu təbliğat aksiyası Litva Azərbaycanlıları Cəmiyyətinin təşəbbüsü və dəstəyi ilə baş tutub. Film bir həftə ərzində göstərilən saytda nümayiş olunub.

Xatırladaq ki, 2003-cü ildə ANS *(Azerbaijan News Service)* TV-də yaradılan bu film, həmçinin 31 mart 2009-cu ildə Azərbaycanlıların soyqırımı günü ilə bağlı Vilnüsdəki Genosid muzeyində keçirilmiş anım tədbirində göstərilib. Tədbirdə filmin ingilis və rus dillərindəki 150 ədəd DVD diski iştirakçılara və qonaqlara paylanıb.

Filmin ssenari müəllifi və rejissoru Sevda Həsənovadır. Filmdə digər müəlliflərin çəkdiyi görüntülərlə yanaşı, Azərbaycanın Milli Qəhrəmanı, Qarabağ müharibəsinin şəhidi, jurnalist Çingiz Mustafayevin (1960–1992) lentə aldığı məşhur videomateriallardan da istifadə olunub.

Azərbaycan Dövlət İnformasiya Agentliyinin (Azərtac-ın) veb-saytı, 9 aprel 2009-cu il.

SOYQIRIMI HƏQİQƏTLƏRİ ENSİKLOPEDİYASINDAN TƏRCÜMƏLƏR

Ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımı həqiqətlərini tarixi faktlara söykənən sənədlər əsasında Litva ictimaiyyətinə çatdırmaq, elmi, siyasi, ictimai-mədəni dairələrdə obyektiv rəylər yaratmaq məqsədi ilə Azərbaycan Milli Elmlər Akademiyası İnsan hüquqları institutunun hazırladığı "Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri (XIX–XXI əsrlər)" müxtəsər xronoloji ensiklopediyasından bir sıra parçalar Litva dilinə tərcümə olunub.

31 Mart – Azərbaycanlıların soyqırımı günü ərəfəsində sözügedən ensiklopediyadan tərcümə olunmuş həmin parçalar Litva mediasında yer alıb. Litva, rus və ingilis dillərində hazırlanmış materiallar və soyqırımı faktları ilə bağlı

1. "Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri (XIX–XXI əsrlər)" ensiklopediyanın görüntüsü. 2. Quba, 1918-ci il Soyqırımı qurbanlarının məzarlığı.

görüntülər *www.slaptai.lt* internet saytında yerləşdirilib. Xalqımıza qarşı aparılmış etnik təmizləmələr, terror və kütləvi qırğın faktlarının əks olunduğu şəkilli məqalələr həmçinin Kaunasda nəşr edilən *"XXI amžius"* qəzetində dərc olunub.

Xronoloji ensiklopediyanın digər parçalarının üzərində aparılan tərcümə işləri də yaxın günlərdə başa çatacaq. Ensiklopediyadan götürülmüş parçaları Litva dilinə naşir, jurnalist Gintaras Visotskas və Litva Azərbaycanlıları Cəmiyyətinin sədri Mahir Həmzəyev tərcümə ediblər.

Azərbaycan Dövlət İnformasiya Agentliyinin (Azərtac-ın) veb-saytı, 30 mart 2010-cu il.

V. LANDSBERGİS 20 YANVAR TƏCAVÜZÜ HAQQINDA

Dünyaca ünlü siyasətçi və məşhur Litva dövlət xadimi, istiqlalçı millət vəkili Vitautas Landsbergis 20 yanvar təcavüzünün 20-ci ildönümü ilə bağlı "Azərbaycanın faciəsi" adlı analitik məqalə yazıb. Məqalə 19 yanvar 2010-cu ildə Litvanın *www.bernardinai.lt* internet qəzetində litvaca işıq üzü görüb.

Qeyd edək ki, V. Landsbergis 1988–1990-cı illərdə Litva Xalq Cəbhəsi – *Sajūdis* təşkilatının sədri, 1989–1990-cı illərdə SSRİ Ali Sovetinin deputatı olub. O, 1990-cı il martın 11-də Litva Respublikası Ali Sovetinin sədri seçilib və elə həmin gün Litvanın dövlət müstəqilliyinin bərpa olunması haqqında tarixi Aktı qəbul etmiş parlament iclasının ilk sessiyasına sədrlik edib.

1990–1992-ci illərdə Litva Respublikasının müvəqqəti Konstitusiyasına əsasən ölkənin ən səlahiyyətli rəhbəri olaraq *de-fakto* Litva dövlət başçısı vəzifəsini yerinə yetirib. 1990–1991-ci illərdə SSRİ ilə aparılan danışıqlarda dövlət nümayəndə heyətinə başçılıq edib. 1990–1992-ci illərdə Baltik dövlətləri Şurasının həmsədri olub, 1993–2003-cü illərdə Litva Konservatorlar partiyasının sədri, 2003-cü ildən isə bu partiyanın siyasi komitəsinin sədri kimi fəaliyyət göstərib, 1996–2000-ci illərdə LR Seyminin sədri seçilib, 2000–2004-cü illərdə LR Seyminin üzvü olaraq Litvanın AŞPA-dakı nümayəndə heyətinə və Baltik Assambleyasına daxil olub.

2004–2014-cü illərdə Litvadan Avropa Parlamentinə deputat seçilib və eyni zamanda AP-nin Qafqaz dövlətləri ilə əlaqələr üzrə nümayəndə heyətinin sədr müavini kimi fəaliyyət göstərib.

V. Landsbergis 1991-ci ildə Norveç xalqının sülh mükafatına layiq görülüb, həmçinin, bir sira Avropa ölkələrinin ən yüksək dövlət mükafatları ilə təltif olunub.

Azərbaycan və Avropa Parlamenti arasında əlaqələrin gücləndirilməsi, Litva və Azərbaycan xalqları arasında dostluq münasibətlərinin inkişafı və möhkəmləndirilməsi, humanitar sahədə əməkdaşlığın genişləndirilməsində göstərdiyi xidmətlərinə görə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət idarəçilik akademiyası Elmi şurasının 6 aprel 2012-ci il tarixli qərarı ilə Vitautas Landsbergisə Akademiyanın "Fəxri Doktoru" adı verilib.

1988–1993-cü illərdə V. Landsbergisin Qarabağ münaqişəsinə və Ermənistan–Azərbaycan münasibətlərindəki bəzi geosiyasi faktorlara münasibəti birmənalı olmayıb. Odur ki, bu baxımdan onun 20 Yanvar faciəsi barədə yazdığı məqalə mühüm siyasi əhəmiyyət kəsb edir. Göstərilənləri nəzərə alaraq, aşağıda V. Landsbergisin "Azərbaycanın faciəsi" məqaləsini təqdim edirik.

Vitautas LANDSBERGİS

AZƏRBAYCANIN FACİƏSİ

İyirmi il öncə, 1990-cı ilin yanvarın 20-də Azərbaycana və azərbaycanlılara böyük fəlakət üz verdi. Onda yaxşıca düşünülmüş provokasiyalardan və etnik qaçqınların bir-biri ilə kor-koranə toqquşmalarından məharətlə istifadə edən sovet ordu hissələri silah və zor işlətdilər, Bakının meydan və küçələrində qurulmuş barrikada müdafiəçilərini, etiraz aksiyalarının silahsız iştirakçılarını güllə-baran etməyə və hərbi texnika ilə basıb əzməyə başladılar. Əgər indi ictimai televiziya həmin görüntüləri təkrarən göstərsəydi görərdik ki, o kadrlar bu hadisələrdən əvvəl törədilmiş 9 aprel 1989-cu il Tbilisi qırğınını və 20 Yanvardan bir il sonra baş vermiş 13 yanvar 1991-ci il Vilnüs qanlı faciəsini lap yaxından xatırladır. Sanki 20 il əvvəl Bakı bu qanlı hadisələr zəncirində "perestroykanın" şərtiliyini və İmperiyanın dəyişməzliyini sübut edən əlaqələndirici bir halqa idi.

Sovet İttifaqı Cənubu Qafqazın iki xalqını – ermənilərlə azərbaycanlıları və hətta onların demokratik-azadlıq hərəkatlarını belə qızışdırıb aralarına nifaq sala bildi. Baltik ölkələrinin xalq hərəkatları Ermənistan və Azərbaycan xalq cəbhələrini, həmçinin Qarabağ komitəsini barışdırmaq üçün 1990-cı il fevralın ilk günlərində Riqada bir sıra səylər göstərdilər (mən özüm də orada iştirak etmişəm). Amma danışıqlar olduqca ağır gedirdi, KQB provokatorları isə mürgü döymürdülər.

Lakin burada 1989–1990-cu illərin qovuşuğunda Azərbaycandakı durumu müfəssəl surətdə xatırlamaq yerinə düşərdi. Onda SSRİ-nin Azərbaycanla İran arasındakı sərhəd xəttində 70 kilometrdən artıq bir zolaqda dirəklər uçurularaq tikanlı məftillər sökülmüşdü, xalq sərhədin o biri tayında yaşayan azər qardaşlarıyla ünsiyyət saxlaya bilirdi.

Şəhərlər bir-birinin ardınca "sovetlərin", yəni kommunistlərin hakimiyyətindən azad olurdu, 1990-cı il fevral seçkiləri yaxınlaşırdı və müstəqillik tərəfdarı olan Xalq cəbhəsinin həmin seçkilərdə qələbə çalması heç kəsdə şübhə doğurmurdu... Ancaq İmperiya bunun qabağını almaq üçün zərbəni öncədən

20 Yanvar təcavüzü ərəfəsində – Azərbaycanı ikiyə bölən dirəklər uçuruldu, tikanlı məftillər söküldü. Güneyli quzeyli qardaşlar heç bir maneə olmadan görüşüb qucaqlaşdılar. SSRİ – İran sərhədi, 31 dekabr 1989-cu il.

hazırlamışdı. Belə ki, azərlərlə ermənilər arasında yalnız Dağlıq Qarabağ uğrunda gedən münaqişədən yox, həm də bu münaqişə nəticəsində qaçqın düşmüşlərin və qisas almaq üçün alışıb-yanan zərərçəkənlərin fəlakətindən öz məqsədi üçün istifadə etdi. Hər iki xalq tələyə düşdü. Azərbaycanın yenicə şəfəqlənən azadlıq səhəri isə Bakı 50 minlik nəhəng sovet ordusu tərəfindən sanki bir düşmən şəhəri tək "fəth" olunarkən darmadağın edildi və qan girdabında boğuldu.

Budapeşt, Praqa... İndiyədək hər yerdə eyni cür olub və bu dəfə də qızıl ulduzlu tanklar barrikadaları basıb darmadağın etdilər, müdafiəçilər yerlə yeksan olundu. Bu cür yolla "sovet hakimiyyəti bərpa edilirdi".

Vilnüs isə o günlərdə hələ ki, öz həlledici saatını gözləyirdi və həmin vaxt bir ildən sonra gəlib bizi haqladı.

"Faciə" dedikdə, biz çox vaxt sözlərin necə şərti məna daşımasını başa düşməliyik. Çünki qırğınları Moskvada düşünüb hazırlayanlar və "yerlərdə" onu icra edənlər üçün həmin hadisələr, əlbəttə ki, faciə deyildi. Amma onlar üçün bir qədər sonra SSRİ adlanan xalqlar həbsxanasının çökməsi əsil "ümumdünya faciəsinə" çevrildi. Əslində, Bakıda və digər yerlərdə yaxınlarını itirmiş və ya şikəst olmuş insanlar üçün o hadisələr söz yox ki, çox böyük bir fəlakət oldu. Bu hadisələrin qatilləri isə o zaman "bədbəxt" olardı ki, törətdikləri qırğınlar üçün cavab verməli olsunlar. İndiyədək ermənilərlə münasibətlərdə qızışdırılan münaqişələr kimi, həmin faciə də Azərbaycanın müstəqilliyi yolunda ona vurulan ağır zərbə və zaman itkisi idi. Üstəlik, o cür zərbələrə müharibəni, çevrilişləri, çox sayda insan tələfatını və ərazi itkilərini, bir milyondan artıq "daxili qaçqını" əlavə etmək lazımdır.

Litva özünü o cür aqibətdən qoruyub uzaqlaşdıra bildi, hərçənd, bizim üçün də o cür taleyə gətirib çıxaran oxşar yol hazırlanmışdı. Ona görə də biz gərək dost Azərbaycan xalqının faciəsini unutmayaq, ələlxüsus da 20 Yanvarın ildönümü yad edilən gündə.

Vilnüs, www.bernardinai.lt internet qəzeti, 19 yanvar 2010-cu il.
Bakı, AR Diasporla iş üzrə Dövlət Komitəsinin saytı, 26 yanvar 2010-cu il.
Bakı, www.mediaforum.az portalı, 27 yanvar 2010-cu il.

QARABAĞ DANIŞIQLARI MÜHARİBƏDƏN BAŞQA HEÇ NƏ VƏD ETMİR

Müstəqil Litvanın ilk dövlət başçısı (1990–1992), Avropa Parlamentinin üzvü və Avropa Parlamentinin Cənubi Qafqaz dövlətləri ilə əlaqələr üzrə nümayəndə heyəti sədrinin müavini (2004–2014) Vitautas Landsbergis hazırda müstəqil dövlətlər olaraq Avropa Şurasının üzvü olan keçmiş SSRİ respublikalarında Avropa ictimai-siyasi fikrinin və açıq vətəndaş cəmiyyəti təsisatlarının bərqərar olmasının vacibliyi və sivil dövlət quruculuğu yolunda əsas azadlıqlar və insan hüquqları sahəsində demokratik islahatlar keçirilməsinin zəruriliyi barədə mediada və Avropa İttifaqı institutlarında vaxtaşırı çıxışlar və ictimai çağırışlar edən nüfuzlu siyasi xadim kimi tanınıb.

Professor V. Landsbergis 2012–2014-cü illərdə bir neçə dəfə Azərbaycanda işgüzar səfərdə olub və bu zaman Bakıda Azərbaycan Respublikasının prezidenti İlham Əliyev tərəfindən qəbul edilib. Həmin görüşdə digər məsələlərlə yanaşı Azərbaycan ilə Avropa Parlamenti arasında əməkdaşlığa dair bir sıra məqamlarla bağlı fikir mübadiləsi aparılıb.

Litvanın ilk dövlət başçısı V. Landsbergis Azərbaycan prezidenti İ. Əliyevlə görüşdə. Bakı, may 2013-cü il.

V. Landsbergis həmçinin 6–8 may 2013-cü ildə AR Diasporla iş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Nizami Gəncəvi Beynəlxalq mərkəzi və Madrid klubu tərəfindən Bakıda keçirilmiş Cənubi Qafqaz Forumunda iştirak edib və burada etdiyi məruzəsində Cənubi Qafqaz bölgəsində geosiyasi durum, həlli uzadılmış münaqişələr, Avropa İttifaqı – Cənubi Qafqaz əməkdaşlığı və Şərq partnyorluğu siyasətinin açdığı yeni imkanlar barədə danışıb.

V. Landsbergisin Avropa İttifaqına inteqrasiya prosesləri müstəvisində postsovet məkanı ölkələri ilə siyasi əlaqələrin və iqtisadi münasibətlərin normal məcraya salınmasına yönəlmiş fəaliyyətini səciyyələndirən faktorlardan danışarkən göstərmək lazımdır ki, onun çıxışlarının mühüm hissəsi Gürcüstan və Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi bucağı altında Cənubi Qafqazın siyasi və iqtisadi baxımdan vahid və sabit region kimi formalaşdırılması məsələsinə həsr olunub. O, ictimai-siyasi publisistik yazılarında Cənubi Qafqaz dövlətlərinin siyasi baxımdan Avropa İttifaqına yaxınlaşdırılmasını və onların Avroatlantik təhlükəsizlik və əməkdaşlıq strukturlarına inteqrasiya edilməsini regionda Rusiyanın imperiya iddialarını neytrallaşdırmaq və bu ölkələri Kremlin "göbəyindən tam kəsib uzaqlaşdırmaq" üçün taleyuklü əhəmiyyəti olan proseslər kimi vurğulayıb.

Litvanın sabiq dövlət başçısı Gürcüstan və Azərbaycan ərazilərinin qonşu dövlətlərin təhriki ilə işğal edilməsini və regiondakı dondurulmuş münaqişələrin uzun müddət həll olunmamasını strateji məqsədlərə tam çatmaq üçün ciddi maneə törədən hərbi və geosiyasi faktorlar kimi öz fəaliyyətində daim diqqət mərkəzində saxlayır. O, Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması üçün aparılan danışıqları da izləyir və bu barədə mülahizələr yürüdür, rəy və şərhlər verir.

Litva siyasətçisi ATƏT-in Minsk qrupu çərçivəsində Qarabağ münaqişəsinin həlli ilə bağlı gedən danışıqları yarıtmaz sayır, qrupun üzvü olan dövlətləri münaqişənin nizamlanmasında nəticənin olmamasında tənqid edir, Ermənistanın ATƏT-lə hesablaşmamasını və tövsiyələrinə təpki ilə yanaşmasını Minsk qrupunu özünü doğrultmayan və siyasi arenada sözü keçməyən bir qurum olmasını təsdiq edən faktlar kimi dəyərləndirir. O, hətta məqalələrinin birində "Qarabağ münaqişəsilə bağlı aparılan danışıqların müharibədən başqa heç nə vəd etmədiyini" bildirib.

ATƏT-in Minsk qrupunun bu vaxtadək heç bir nailiyyət qazanmadığını, erməni təcavüzünə son qoymaq və Azərbaycan torpaqlarının işğaldan azad etmək üçün bu Qrupa üzv olan ABŞ, Fransa və Rusiya dövlətlərinin qeyri-konstruktiv mövqe tutduqlarını və beləliklə Qarabağ danışıqlarının dalana

dirəndiyini təəssüflə vurğulayan V. Landsbergis münaqişənin həllinə Avropa İttifaqının daha yaxından cəlb edilməsini qənaətbəxş sayır və bu yolda Avropanın Parlament diplomatiyasını gücləndirməyi təklif edir, Dağlıq Qarabağın statusu ilə bağlı məsələnin həlli yollarının axtarılmasında Avropa Şurası və Avropa İttifaqı təsisatlarının fəal iştirakını təbliğ edir.

Təcrübəli siyasətçi və söz sahibi kimi tanınmış V. Landsbergis Avropa İttifaqı təsisatlarının sədrləri ilə indiyədək tez-tez görüşlər keçirib və Qarabağ münaqişəsinin həllinin mümkün variantları ətrafında müzakirələr aparıb, Avropa Parlamenti rəhbərlərinə ardıcıl surətdə müraciətlər və təkliflər edib, onlara müxtəlif sorğular göndərib, əldə edilmiş nəticələr və alınmış cavablar barədə geniş ictimai dairələri media vasitəsilə məlumatlandırıb. V. Landsbergisin bu istiqamətdə göstərdiyi siyasi fəaliyyət həmçinin Avropa Parlamentinin rəsmi sənədlərində öz əksini tapıb. Qarabağ münaqişəsi ilə bağlı yazdığı çoxsaylı publisistik yazılar onun kitablarında da yer alıb. V. Landsbergisin 2009-cu ildə Vilnüsdə litvaca çapdan çıxmış "Avropa Parlamentində – VI" adlı kitabında digər ictimai-siyasi yönlü materiallarla yanaşı, müəllifin sözügedən mövzuda yazışmaları da dərc edilib.

Qafqaz dövlətləri, o cümlədən Azərbaycanın Avropa İttifaqına inteqrasiyasının sürətləndirilməsi ilə bağlı V. Landsbergisin Avropa məkanında göstərdiyi siyasi fəaliyyətin mühüm bir vektoru nüfuzlu Avropa Xalq Partiyasının (AXP) xətti ilə istiqamətlənir. O, AXP-nin fəal xadimlərindən biridir.

Əsası 1976-cı ildə qoyulmuş AXP demokratik prinsiplərə əsaslanan sağ mərkəzçi siyasi təşkilat olaraq Avropa dəyərlərinin formalaşmasında aparıcı rol oynayır. AXP-nin 73 kollektiv üzvü vardır və sıralarında 39 Avropa ölkəsində demokratik prinsiplər əsasında fəaliyyət göstərən sağ mərkəzçi təmayüllü siyasi təşkilatları – konservatorlar, xristian-demokratlar və bu ideologiyaya yaxın olan bir sıra digər millətçi partiyaları birləşdirir. Avropa İttifaqının 14 Komissarı, o cümlədən Avropa Komissiyasının keçmiş prezidenti Joze Manuel Barrozo AXP-nin üzvləridir. Hazırda Avropa Parlamentinin ən böyük deputatlar qrupu 265 deputata malik olan AXP qrupudur. Avropa Şurası Parlament Assambleyasında isə AXP-nin 218 üzvdən ibarət fraksiyası vardır. AXP ATƏT və NATO Parlament Assambleyalarında da geniş siyasi qruplarla təmsil olunur. Müasir AXP deputatlar qrupunun mövqeyi Avropanın əsas beynəlxalq təşkilatlarında hər hansı məsələ ilə bağlı qərarların qəbul edilməsi zamanı həlledici rol oynayır. AXP hesab edir ki, Avropa qitənin bütün ölkə və regionlarının azad vətəndaşlarını birləşdirməlidir, yəni "Avropa hamı üçündür". Partiyanın məqsədi çiçəklənən və dinc gələcəyə malik Avropa qurmaqdır.

Aşağıda AR Prezidenti yanında Dövlət idarəçilik akademiyasının Fəxri doktoru, professor V. Landsbergisin 2008–2009-cu illərdə Avropa Komissiyasının prezidenti Joze Manuel Barroza ilə Qarabağ münaqişəsi ilə bağlı apardığı yazışmasını, eləcə də 2012-ci ilin fevral ayında Avropa Parlamentində Avropa Xalq Partiyası tərəfindən təşkil olunan "Avropa Birliyi–Azərbaycan: tərəfdaşlıq üçün yeni üfüqlər" adlı konfransda etdiyi çıxışını və həmin ilin aprelində Avropa Parlamentində Azərbaycanla bağlı hazırladığı məruzədən bəzi parçaları təqdim edirik.

AR Prezidenti yanında Dövlət idarəçilik akademiyasının Fəxri doktoru V. Landsbergis. Bakı, 2012-ci il.

Bu publikasiyalar V. Landsbergisin siyasi-publisistik əsərlərindən ibarət 2009–2012-ci illərdə Vilnüsdə litva dilində çapdan çıxmış "Avropa Parlamentində – VI" və "Avropa Xalq Partiyasında, Avropa Parlamentində" adlı kitablardan götürülüb.

V. LANDSBERGİSİN AVROPA KOMİSSİYASININ PREZİDENTİ JOZE MANUEL BARROZOYA MƏKTUBU

Cənab Prezident!

Dondurulmuş münaqişələr nə qədər ki, dondurulmuş şəkildə qalacaq, onlar heç zaman yaxşılığa doğru dəyişməyəcək. Ermənistan–Azərbaycan dondurulmuş müharibəsində Avropa Komissiyasının təşəbbüsü ilə, heç olmasa, uzaq bir ümidə yeni pəncərə açıla bilər. Belə ki, əgər, Avropa Komissiyası Ermənistanla Azərbaycanın gələcəkdə Avropa İttifaqına üzv qəbul edilməsinin mümkünlüyü nöqteyi-nəzərindən bu dövlətlərin Dağlıq Qarabağ probleminə necə yanaşacaqları ilə bağlı fəaliyyət planının tutulması işinə başlasaydı, bu, böyük bir nailiyyət olardı.

Qoy belə bir fikir heç olmasa, ideya kimi mövcud olsun. Əgər, 10–20 ildən sonra ermənilərin və azərbaycanlıların AİB vətəndaşları olacaqları bilinsəydi, onda Qarabağ ərazisinin və oranın sakinlərinin "status" problemi necə həll olunardı? AİB-nin üzvü olan dövlətlərin tamamilə açıq daxili sərhədlərinin haradan cızılması onda böyük təfavütmü kəsb edərdi? Belə sərhədlər prinsipi habelə azərbaycanlıların həyat adasına – Azərbaycandan tamamilə ayrılmış və indi həm də blokadaya alınmış, yenidən birləşdirilməsinə isə ümidin qalmadığı Naxçıvan regionuna da aid olunardı...

Cənab Prezident, Sizə alternativ təklif kimi təqdim etməyə çalışdığım bu idealist ideyanın qəbul olunmadığı halda, Qarabağ münaqişəsi ətrafında gedən bütün bu laqqırtılar müharibədən başqa heç nə vəd etmir...

Doğrudurmu ki, Azərbaycan *"Nabukko"* projesinin iştirakçısı kimi fəaliyyət göstərmir və bu projeyə qatılmaq üçün heç dəvət də almayıb? Gerçəkdənmi Avropa bunu Azərbaycana təklif etməyib?

Hörmətlə,
Vitautas LANDSBERGİS
Avropa Parlamentinin üzvü

30 oktyabr 2008-ci il.

Bakı, "525-ci qəzet", 16 aprel 2012-ci il, № 64.

J. M. BARROZONUN V. LANDSBERGİSƏ CAVAB MƏKTUBU

Hörmətli cənab Landsbergis!

Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mənə oktyabrın 30-da göndərdiyiniz məktuba görə Sizə təşəkkür edirəm. Bu uzunsürən münaqişədə Avropa Komissiyası sülhün qorunmasını fəal surətdə dəstəkləyir və bu yolla Cənubi Qafqaz regionunda sülhün bərqərar olmasına, tərəqqi və sabitliyin möhkəmlənməsinə töhfələr verir.

Avropa Komissiyası 1994-cü ildə atəşkəsdən sonra ATƏT-in xətti ilə aparılan sülh danışıqlarını dəstəkləyir və biz düşünürük ki, ATƏT-in Minsk qrupu və ələlxüsus onun həmsədrləri – ABŞ, Rusiya və Fransa dövlətləri – münaqişəni sülh yolu ilə həll etmək üçün münasib format təşkil edirlər. Son həftələr bizə gəlib çatan ruhlandırıcı xəbərlər ümid verir ki, yaxın gələcəkdə sülh əldə oluna bilər.

Mən, Ermənistan və Azərbaycanın Aİ-na üzv qəbul etmək perspektivi ilə əlaqədar və bununla da regionda sərhədləri praktiki olaraq əhəmiyyətsiz etməklə bağlı Sizin təklifinizə diqqət yetirdim, amma bu dövlətlərin Aİ-na üzv qəbul olunması perspektivi gündəmdə durmur. Ermənistan və Azərbaycan Avropanın yeni qonşuluq siyasət proqramında iştirak edirlər. Bu proqram isə münasibətləri gücləndirmək üçün möhkəm əsas yaradır və həmin dövlətlərə islahatlar həyata keçirmək sahəsində yardım göstərməyə imkan verir. Sözügedən proqram hazırda Şərq partnyorluğu təşəbbüsü əsasında mahiyyətcə daha da dərinləşdirilir.

Komissiya əmindir ki, Dağlıq Qarabağ münaqişəsinin həll olunması üçün ən yaxşı üsullardan biri hər iki tərəfin qarşılıqlı etibarın gücləndirilməsi tədbirlərinə cəlb olunmasına yardım göstərməkdən, insanların qarşılıqlı münasibətlərinə konkret əməkdaşlıq yönümündə yaşayış yerlərində dəstək verməkdən ibarətdir. Komissiyanın bu cür fəaliyyəti ATƏT-in Minsk qrupunun məqsədlərinin gerçəkləşdirilməsini yüngülləşdirə bilər. Ermənistan və Azərbaycan 2006-cı ildə Avropanın yeni qonşuluq siyasət proqramı üzrə qəbul edilmiş beşillik plana uyğun olaraq öz fəaliyyətlərini davam etdirməlidir. Bu fəaliyyət və habelə daha demokratik, şəffaf və plüralizmə əsalanan əsl vətəndaş cəmiyyətinin qurulması münaqişənin sülh yolu ilə həll olunması işinə şübhəsiz ki, töhfələr verərdi.

Avropa Komissiyası dekabrın 3-də Avropa Şurasına və Avropa Parlamentinə Şərq partnyorluğu ilə bağlı təkliflərdən ibarət kommunikat təqdim edib. Bu qurumlara Avropanın yeni qonşuluq siyasəti proqramında iştirak edən Şərq dövlətləri ilə həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlıq əlaqələri qurmaq təklif olunur ki, bu da Avropanın yeni qonşuluq siyasətinin gücləndirilməsinə və daha uzaq məqsədlər güdən addımların atılmasına gətirib çıxarardı. Avropa Şurası və Avropa Parlamenti kommunikatı təsdiq etdikdən sonra, həmin təkliflər regionda durumun yaxşılaşdırılmasına və xüsusilə də, Cənubi Qafqazın ümumi inkişafına maneə olan münaqişənin həllinə xidmət edərdi.

Azərbaycanla energetik əməkdaşlıq məsələsinə gələndə isə Sizi əmin etmək istərdim ki, neft və qazın Mərkəzi Asiyadan və Cənubi Qafqazdan Qərb bazarına alternativ yollarla nəql edilməsi ilə bağlı bizim irəli sürdüyümüz təkliflər ətrafında aparılan müzakirələrdə Azərbaycan da iştirak edir.

Səmimiyyətlə – Sizin Joze Manuel BARROZO

21 yanvar 2009-cu il.

Bakı, "525-ci qəzet", 16 aprel 2012-ci il, № 64.

NABUKKO AVROPANIN XƏZƏR XƏYALININ ZİRVƏSİNDƏ DURMALIDIR

V. Landsbergisin 2012-ci ildə Brüsseldə AP-dəki konfransda çıxışı

Sabahınız xeyir, hörmətli qonaqlar, həmkarlar, xanımlar və cənablar!

Sizi həm öz adımdan, həm də Avropa İttifaqının Azərbaycanla və Cənubi Qafqazın digər dövlətləri ilə əməkdaşlıq əlaqələri üzrə Avropa Parlamenti nümayəndə heyətinin adından salamlamaq və Azərbaycanı bu gün Avropa Parlamentində və ümumi Avropada qərar tutması münasibətilə təbrik etmək istərdim. Hamınıza azərbaycanca "Salam!" deyirəm...

Xatırlayıram ki, 1993-cü, bəlkə də 1994-cü ildə AŞPA-da "Avropanın sərhədləri" məsələsi müzakirə olunan zaman konstatasiya etməyə çalışırdılar ki, Qafqaz Avropa deyil. Bu, o vaxt avropalı cənablara uzaq problemləri asan izah etmək və onlar üçün baş ağrıtmamaq imkanı yaratmış olardı.

Amma şükürlər olsun ki, bu, baş tutmadı. Belə ki, AŞPA ağıllı mövqe tutdu və təsdiq etdi ki, Qafqaz da Avropadır. Nəticədə biz Cənubi Qafqaz dövlətlərini, o cümlədən Azərbaycanı Avropanın ailəvi foto görüntüsündə sezdik.

Keçmiş Rusiya imperiyası ilə hər hansı bir şəkildə bağlı olmuş subyektlər üçün bu, asan anlaşılan fikirdir. Bu fikir böyük klassik ədəbiyyat diyarı Rusiyanın modern poeziya yaradıcısı Serqey Yeseninin gözəl Şahanəsinin Vətəninə – Xəzərin nefti sayəsində Avropanın zəngin sərvətlər məkanına çevrilmiş ölkəyə də aiddir. Bu, həmin ölkədir ki, nefti cənab Nobelə uğurlar gətirib və gələcəkdə onun adını daşıyacaq humanitar dünya mükafatlarına geniş imkanlar yaradıb...

Odur ki, Azərbaycan yenidən Rusiyanın müstəmləkəsinə yox, getdikcə Avropa həyatının tərkib hissəsinə çevrilməliydi. Bu yol Azərbaycanın seçdiyi yoldur... Azərbaycan bu yolda ağrılı günlər yaşayıb və böyük itkilər verib. Lakin bu yol ölkəni fərəhləndirici Avrovizion mahnı müsabiqəsində ev sahibliyi etməyə gətirib çıxarıb və Aİ-nın Şərq qonşuluğu siyasəti xətti ilə geniş iqtisadi inteqrasiya addımları atmağa və getdikcə daha sıx siyasi əməkdaşlıq əlaqələri saxlamağa imkanlar yaradıb.

Avropanın Xəzər xəyalının zirvəsində *Nabukko* durmalıdır, özü də antik dövrün böyük hökmdarı kimi yox, məhz qaz kəmərinin müasir Babil kralı olaraq durmalıdır. Heç vacib deyil ki, bu kəmər nə vaxt nəzəriyyədən reallığa çevriləcək. Axı, həyat davam edir və bu layihə Azərbaycan xalqı üçün "Avropa

perspektivini" açır. Bu işin bütünlüklə reallaşmasına və Azərbaycan üçün onun son gözəl nəticələrinin olacağına ölkənin Avropa İttifaqındakı dostları səmimi-qəldən inanırlar.

Kimin xoşuna gəlsə də, gəlməsə də – "Avropa perspektivi" "Avroasiya perspektivi" deyil. Odur ki, həm Azərbaycan, həm də Aİ artıq seçim ediblər.

Biz, Aİ olaraq, orada iki qonşu dövlət və qardaş kimi yaşamalı xalqlar arasında baş vermiş böyük faciədə – dondurulmuş münaqişədə Azərbaycana – yəni özümüzə yardım etməkdən üz çevirməyimizi boynumuza almalıyıq. Mənim üçün tam aydındır ki, Aİ və onun bəyan etdiyi perspektivli təklif Qafqazın bu dalan vəziyyətdən çıxması üçün yeganə yoldur.

Nə zaman ki, biz – Aİ olaraq kifayət qədər həddi-buluğa çatacağıq və Qafqaz üçün praqmatik "Avropa sülhünü" təklif edəcəyik, məhz onda zülmət tunelinin sonunda işıq görünəcək. O zülmət tuneli kin və qisas hissləri ilə doludur, qaranlığı yox etmək üçün gərək hamımız həmin işıq naminə birgə çalışaq. Belə ki, qəlblərdə və yer üzündə yalnız sülh olmalıdır, bundan savayı digər bir prioritet yoxdur! Və bizim konfrans məhz bu istiqamətdə heç olmazsa kiçik bir addım atmalıdır.

Avropa Xalq Partiyasının konfransı.
Avropa Parlamenti, Brüssel, 8–9 fevral 2012-ci il.

Bakı, "525-ci qəzet", 2 may 2013-cü il, № 77.

AZƏRBAYCAN – AVROPA MÜNASİBƏTLƏRİ HƏR İKİ TƏRƏF ÜÇÜN VACİBDİR...

V. Landsbergisin 2012-ci ildə Strasburgda keçirilmiş konfransdakı çıxışından parçalar

...Azərbaycan Respublikası 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra təyini-müqəddərat yolunda sonrakı mühüm addımlarını atıb. Həmin addımlar ölkəni keçmiş metropoliyadan əsl müstəqilliyə gətirib çıxarıb və həmçinin Avropa seçimini etməyə xidmət edib.

Azərbaycan hələ XIX əsrdə Avropanın energetika məsələlərində başlıca rol oynayıb. Həmin vəziyyət indi, xüsusilə Avropanın öz müstəqilliyini qorumaqla bağlı narahatlıq keçirdiyi bir dövrdə dübarə təkrar olunur.

Rusiya, İran və Ermənistan arasında qeyri-əlverişli vəziyyətdə sıxışdırılmış Azərbaycan üçün avropayönlü dövlət müstəqilliyini gücləndirməkdən ötrü Avropa, Avropa İttifaqı üçünsə energetika təhlükəsizliyini təmin etməkdən ötrü Azərbaycan lazımdır. Beləliklə, Azərbaycanın və Avropa İttifaqının müstəqilliyinin gücləndirilməsi üst-üstə düşən birgə maraq olaraq tərəflərin qarşılıqlı şəkildə bir-birinə yaxınlaşması üçün möhkəm əsasa çevrilir.

Bu cür gözəl tərəfdaşlıq əlaqələri prioritet məqsəd daşımalıdır. İşğal edilmiş ərazilər məsələsi isə *force majeure* faktoruna görə sonrakı məqsəd olmalıdır. Çünki, hazırda Rusiya və Ermənistan bu məsələdə yaxın partnyordurlar.

Avropa Parlamenti,
Strasburg, 18 aprel 2012-ci il.

Bakı, "525-ci qəzet", 2 may 2013-cü il, № 77.

LİTVA PARLAMENTİNDƏ XOCALI KONFRANSI

25 fevral 2011-ci ildə Vilnüsdə, LR Seyminin Konstitusiya zalında Xocalı qətliamının 19-cu ildönümü münasibəti ilə "Azərbaycan–Ermənistan, Qarabağ münaqişəsi" mövzulu beynəlxalq konfrans keçirilib. Konfrans "Xocalıya ədalət" kampaniyasının Litva üzrə əlaqələndiricisi Yeva Lukoşyaviçyute, Litva Azərbaycanlıları Cəmiyyəti, Litva–Azərbaycan Assosiasiyası və Seymin Litva–Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Mantas Adomenasın birgə təşkilatçılığı ilə baş tutub. Azərbaycan Səfirliyi konfransın tərəfdaşı qismində tədbirə dəstək verib.

Konfransdan görüntü (soldan sağa): Azərbaycanın Litvadakı səfiri Naira Şahtaxtinskaya, Litva–Azərbaycan parlamentlərarası əlaqələr qrupunun sədr müavini Mantas Adomenas, Litva Milli İcmalar Şurasının sədri M. Həmzəyev və h.e.d., professor Egdunas Raçyus.

Konfransda Azərbaycanın Litvadakı səfiri Naira Şahtaxtinskaya, Gürcüstanın Litvadakı səfiri Georgi Kerdikoşvili, LR Seyminin sədr müavini Çeslovas Vitautas Stankyaviçyus, millət vəkilləri və Seymin Litva–Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri – Mantas Adomenas, Pyatras Luomanas və Andryus Burba, millət vəkili və Seymin İqtisad komitəsinin üzvü Rimantas Stankyaviçyus, Seymin vitse-kansleri Gedeminas Aleksonis, Seymin Beynəlxalq əlaqələr departamenti direktorunun müavini Rimantas Stankyaviçyus, Protokol şöbəsinin əməkdaşı Benyaminas Pyatraytis, LR Mədəniyyət nazirinin müşaviri İmantas Melyanas, Litva Milli İcmalar Şurasının sədri Mahir

Həmzəyev, Vilnüs Universiteti Beynəlxalq əlaqələr və siyasi elmlər institutunun Asiya və Afrika ölkələri üzrə tədqiqatlar mərkəzinin rəhbəri, humanitar elmlər doktoru, professor Egdunas Raçyus, "Xocalıya ədalət" kampaniyasının Litva üzrə əlaqələndiricisi Yeva Lukoşyaviçyute, Litva ali məktəb tələbə və məzunlarının Politoloqlar klubu İdarə heyətinin sədri Gintautas Reklis, Litva gənclər təşkilatları şurası İdarə heyətinin üzvü Paulyus Miejyalis, hərbi jurnalist Riçardas Lapaytis, politoloq və siyasi şərhçi, Litvanın *www.balsas.lt* internet qəzetinin aparıcı jurnalisti Tomas Çivas, Azərbaycan diasporunun fəalları, burada təhsil alan azərbaycanlı tələbələr, bir sıra ictimai-mədəni xadimlər, yaradıcı təşkilatların nümayəndələri iştirak ediblər.

Vilnüs, LR Seyminin Konstitusiya zalı, 25 fevral 2011-ci il.

XOCALI QƏTLİAMI İLƏ BAĞLI LİTVA MİLLƏT VƏKİLLƏRİNİN AVROPA PARLAMENTİNƏ MÜRACİƏTİ

Bu ilin fevralın 25-də yad dövlətlərin silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölməsində yerləşən Xocalı şəhərinə soxulmasının və burada əksəriyyəti qadın, qoca və uşaqlardan ibarət 613 nəfər dinc şəhər sakinini vəhşiliklə qırmaqlarının 20 ili tamam olur.

Litva xalqı Azərbaycan xalqının ağrısını yaxşı başa düşür və təəssüflə qeyd edir ki, keçmiş Yuqoslaviya dövlətinin ərazisində müharibə cinayətləri törətmiş şəxslərin əməllərinin siyasi və hüquqi baxımdan dəyərləndirilməsindən fərqli olaraq Xocalı qətliamının təqsirkarları indiyə qədər cəzalandırılmayıblar.

Xocalı qətliamının 20-ci ildönümü ilə bağlı anım günündə, məhv edilmiş əhalinin doğmalarının və həmçinin bu fəlakətə məruz qalanların dərdinə şərik olduğumuzu bildiririk və onlara səmimi-qəlbdən baş sağlığı veririk, bütün Azərbaycan xalqına isə həmrəylik duyğularımızı ifadə edirik.

Biz – Litva Respublikası Seyminin üzvləri, hazırda davam edən münaqişəyə diqqəti cəlb edərək vurğulayırıq ki, Avropa Parlamentində 20 may 2010-cu il tarixində qəbul edilmiş 2216 saylı Rezolyusiyanı əhəmiyyətli sənəd kimi qiymətləndiririk və bu sənəddə təcavüzkarın hərəkətlərinə verilmiş mənəvi və siyasi dəyərləndirmələrə tərəfdar olduğumuzu izhar edirik və həmin sənəddə təsbit edilmiş prinsipial müddəaların yerinə yetirilməsi üçün dəstək verdiyimizi bildiririk.

İnanırıq ki, Xocalı qətliamına Avropa Parlamentində siyasi qiymət veriləcək və bu qanlı hadisələr Avropa tarixi hafizəsinin tərkib hissəsi kimi qəbul olunacaqdır.

Sizinlə birlikdə ümidvarıq ki, Avropa Parlamentinin sözügedən Rezolyusiyasının tələbləri yerinə yetiriləcək və bu yolla tarixi ədalət bərpa olunacaq, qonşu xalqların münaqişəsi isə keçmişin tutqun və üzüntülü səhifələri kimi xatırlanacaqdır.

Litva Respublikası Seyminin üzvləri:

1. Emanuelis ZİNGERİS
2. Egidiyus VAREYKİS
3. Rimantas SİNKYAVİÇYUS
4. Vityanis Povilas ANDRYUKAYTİS
5. Arunas VALİNSKAS
6. Vitautas GALVONAS
7. Arturas MELYANAS
8. Gintaras SONGAYLA
9. Arminas LİDYAKA
10. Ritas KUPÇİNSKAS
11. Valentinas STUNDİS
12. Kazimieras UOKA
13. Mantas VARAŞKA
14. Gediminas NAVAYTİS
15. Daynyus BUDRİ.
16. Aureliya STANSİKİENE
17. Pyatras AUŞTRYAVİÇYUS
18. Pyatras LUOMANAS
19. Andryus BURBA
20. Arune STİRBLİTİ
21. Kazimieras KUZMİNSKAS

Vilnüs, 25 fevral 2012-ci il.

P.S: Müraciət Litva Azərbaycanlıları Cəmiyyəti və Litva–Azərbaycan Assosiasiyasının təşəbbüsü, ictimai-siyasi və təşkilati dəstəyi ilə qəbul edilib.

Vilnius, www.balsas.lt xəbərlər portalı, 25 fevral 2012-ci il.
Vilnüs, www.slaptai.lt xəbərlər portalı, 25 fevral 2012-ci il.

Vitaliyus KARAKORSKİS
Litva Yəhudiləri İcmasının Şura üzvü,
Litva–Azərbaycan Assosiasiyasının həmtəsisçisi,
Litva Jurnalistlər Cəmiyyətinin S. Lozoraytis adına mükafat laureatı

QARABAĞDA ERMƏNİSAYAĞI "TƏYİNİ – MÜQƏDDƏRAT"



Belə başlıq altında Litvanın aparıcı xəbər portallarından biri olan *www.balsas.lt* internet qəzetində 2011-ci il iyunun 2-də və 9-da Litva Azərbaycanlıları Cəmiyyətinin sədri Mahir Həmzəyevin iki hissədən ibarət məqaləsi yer alıb. Bu publikasiyalar Qarabağ münaqişəsi ilə bağlı erməni təbliğat mərkəzinin Litvada həyata keçirmək istədiyi fitnəkarlığın ifşa edilməsinə həsr olunub.

Bu yazıların nəşr edilməsi erməni təbliğat qüvvələrinin Baltik ölkələrində apardıqları kələkbaz işlərin məzmun və mahiyyətini litvalılara aşkarlamaq məqsədini güdməklə yanaşı, həm də Qarabağ ətrafında yaradılmış stasus-kvonun bundan sonra da saxlanılması üçün Ermənistanın səy və məkrli manevrlərinin iç üzünün açılması istiqamətində Litvadakı Azərbaycan diasporu tərəfindən vaxtında atılmış növbəti tutarlı addımdır.

2011-ci ilin aprel-may aylarında Ermənistan Vahid milli liberal partiyası *(МИАК)* Qarabağ münaqişəsinin tarixi barədə erməni versiyası ilə Litva ictimaiyyətini tanış etmək və eyni zamanda Litvanın siyasi qüvvələrini "Dağlıq Qarabağ Respublikasının "müstəqilliyini" tanımağa təşviq etmək üçün bir siyasi layihə həyat keçirib. Bu layihə çərçivəsində Litva Seyminin deputatları, Parlamentin fraksiya və komitə rəhbərləri, hökumət idarələrində çalışan dövlət qulluqçuları, siyasi partiyaların sədrləri, habelə tanınmış politoloqlar və Litvanın digər tanınmış ictimai-siyasi xadimləri МИАК təmsilçisi Arsen Ayriyanın "Dağlıq Qarabağ – həqiqət və faktlar" başlıqlı müraciətini alıblar. Bu müraciətə erməni təbliğatçıları rus və ingilis dillərində Dağlıq Qarabağın "tarixi ilə tanışlıq oçerki"ni də əlavə ediblər. Müraciət erməni təbliğat mətnlərinin əksəriyyətinə xas olan saxta ruhda tərtib edilib. Mətnin müəllifləri Litva millət vəkilləri və digər siyasətçilərdən təkidlə xahiş edirdilər ki, onlar Dağlıq Qarabağ Respublikasının müstəqilliyinin tanınması naminə mübarizəyə qoşulsunlar.

Bu, heç də təsadüfi deyil. Əvvəla, məlum olduğu kimi, 2011-ci ildə Litva ATƏT-də sədrlik edir. Sonra xatırlatmaq yerinə düşər ki, 2010-cu ilin dekabr ayında Litva Seymində Dağlıq Qarabağ münaqişəsinin dinc yolla tənzimlənməsinə dair Qətnamə layihəsi qeydiyyata alınıb. Sənəddə bildirilir ki, Ermənistan işğal etdiyi Azərbaycan ərazilərini tərk etməlidir. Təsadüfi deyil ki, Ermənistan düzüb-qoşduğu uydurma əhvalatlar və saxtalaşdırılmış tarix yolu ilə Litva parlamentinin üzvlərini və ölkə ictimaiyyətini aldadıb çaşdırmaq və həqiqətdən uzaqlaşdırmaq istəyir. Ermənistanın Xarici işlər nazirliyi və erməni siyasətçiləri, bu ölkənin QHT-ləri və erməni diasporu son vaxtlar var qüvvələrilə çalışırlar ki, sözügedən Qətnamə Litva Seymində müzakirə edilməsin və bu məsələ Parlamentin gündəliyindən həmişəlik çıxarılsın. Ancaq, erməni yalanlarının ömrü çox qısa oldu.

Mahir Həmzəyevin məqaləsində yuxarıda qeyd edilən siyasi saxtakarlığın təşəbbüsçülərinə tarixi mənbələrə əsaslanan yetərli cavab verilib. Məqalədə köçmən ermənilərin indi yaşadıqları regionun tarixi, onların İrəvan və Qarabağ xanlıqları ərazilərinə gətirilmələrinin xronologiyası, Azərbaycan torpaqlarında etnik-demoqrafik vəziyyətin əvvəlcə çar Rusiyasının, sonra isə SSRİ-nin dəstəyi ilə ermənilərin xeyrinə süni şəkildə dəyişdirilməsi qısaca şərh edilib. Həmçinin əsaslandırılmış dəlillər və təkzibedilməz tarixi faktlar əsasında sürrealist "Böyük Ermənistan" ideyasının yırtıcı mahiyyəti bacarıqla açıqlanaraq Litva oxucusuna təqdim olunub.

Bundan əlavə, litvalı oxuculara Qarabağ müharibəsi haqqında real faktlar təqdim edilib və göstərilib ki, bu müharibədə Rusiya Federasiyası silahlı qüvvələrinin 366-cı alayı və əcnəbi muzdlular Ermənistan tərəfində iştirak ediblər. Müəllif əcnəbi muzdluları ilə bağlı ASALA erməni terror təşkilatı haqqında, onun SSRİ və Suriya xüsusi xidmətləri ilə əlaqələri barədə məlumatlar verib.

M. Həmzəyev Litva–Azərbaycan ədəbi-mədəni əlaqələrini, habelə 1918–1922-ci illərdə Litvanın Cənubi Qafqaz ölkələri ilə dövlətlərarası münasibətlərini tədqiq edən tanınmış mütəxəssisdir. O, göstərilən məqaləni hazırlayarkən litvalıların dünyagörüşünü və təfəkkür tərzini də nəzərə alıb.

Artıq indidən deyə bilərik ki, M. Həmzəyevin bu məqaləsindən sonra sağlam düşüncəli litvalılar Qarabağ tarixini saxtalaşdıran ermənilərin və onların havadarlarının "yaradıcılığına" daha ehtiyatla yanaşacaqlar. Litva tarixçiləri və politoloqların fikrincə, bu sanballı məqalə panerməni qüvvələri tərəfindən Litvada sovet aqitpropu üslub və ruhunda aparılan uydurma təbliğat tədbirlərinə daha bir ciddi zərbə vurub.

Bakı, AR Diasporla iş üzrə Dövlət Komitəsinin saytı, 16 iyun 2011-ci il.
Bakı, rəsmi dövlət qəzeti "Azərbaycan", 17 iyun 2011-ci il.

MİLLİ ÖZÜNÜDƏRKİN ƏN UCA ZİRVƏSİ

18 yanvar 2013-cü ildə Litva Azərbaycanlıları Cəmiyyəti və Azərbaycanın Litvadakı Səfirliyi 20 Yanvar hadisələrinin 23-cü ildönümü ilə bağlı Litva Seymində 1990-cı il Bakı və 1991-ci il Vilnüs yanvar hadisələrində həlak olmuş Azadlıq müdafiəçilərinin xatirəsinə həsr olunmuş birgə anım mərasimi keçirdi. "Bakı–Vilnüs: azadlığa gedən yolda taleyüklü yanvar hadisələri" adlı həmin mərasim Vilnüsdə LR Seyminin Konstitusiya zalında düzənlənmişdi.

"Bakı–Vilnüs: azadlığa gedən yolda taleyüklü yanvar hadisələri" birgə anım tədbirinin plakatı.

Tədbirdə Azərbaycan Respublikasının Litvadakı səfiri Həsən Məmmədzadə, müstəqil Litvanın ilk dövlət başçısı, Avropa Parlamentinin Cənubi Qafqaz dövlətləri ilə əlaqələr üzrə nümayəndə heyəti sədrinin müavini Vitautas Landsbergis, LR Seyminin vitse-spikeri Algirdas Sisas, LR Seyminin Azərbaycan Respublikası ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri Yuras Pojela, bu qrupun sədr müavini Mantas Adomenas, LR Seyminin Avropa işləri, Xarici əlaqələr, Maarif, elm, mədəniyyət, eləcə də İnsan hüquqları komitələrinin üzvləri, digər millət vəkilləri, istiqlalçı deputat Algirdas Endryukaytis, LR sabiq Daxili işlər naziri Arturas Melyanas, LR Mədəniyyət nazirinin müavini

Edvard Truseviç, LR Seyminin vitse-kansleri Gedeminas Aleksonis, Seymin Kommunikasiya departamenti Parlamentarizm tarixi və xatirələrin əbədiləşdirilməsi işləri şöbəsinin müdiri, Litva Xalq Cəbhəsi – *Sąjūdis* təşkilatının sabiq məsul katibi Angonita Rupşite, Seymin Beynəlxalq münasibətlər departamenti Parlamentlərarası əlaqələr şöbəsinin müdiri Audrone Bieliniene, bu Departamentin protokol xidmətinin baş müşaviri Benyaminas Petraytis, Litva Hökuməti kanselyariyasının şöbə müdiri Lina Saulenayte, LR Maarif və təhsil nazirliyinin şöbə müdiri Ona Çepuleniene, digər nazirliklərin və hökumət idarələrinin nümayəndələri, LR İnsan haqları üzrə Ombudsmen xidmətinin və YUNESKO-nun Litva Milli Komissiyasının təmsilçiləri, Litva *Sąjūdis* hərəkatının veteranları, 13 yanvar Vilnüs hadisələri zamanı Litva Seymini, Dövlət televiziya və radio şirkətinin binalarını, eləcə də Vilnüs televiziya qülləsini qorumuş Litva Azadlıq müdafiəçiləri, həmçinin Litva 13 yanvar şəhidlərinin ailə üzvləri, Litva 13 Yanvar təcavüzündən zərərçəkənlər cəmiyyətinin üzvləri, ölkənin ictimai-siyasi və mədəniyyət xadimləri, tanınmış tarixçilər və politoloqlar, müxtəlif dini konfessiyaların təmsilçiləri, Litva azərbaycanlıları diaspor təşkilatlarının sədrləri, Litva–Azərbaycan Assosiasiyasının fəalları, digər milli icmaların rəhbərləri və QHT liderləri, kitabxana və muzey işçiləri, orta və ali məktəb müəllimləri, Litvada təhsil alan azərbaycanlı tələbələr, Litva KMV-nin təmsilçiləri iştirak ediblər.

Anım mərasiminin iştirakçıları əvvəlcə 20 yanvar Bakı və 13 yanvar Vilnüs faciələrinə həsr olunmuş sərgi ilə tanış olublar. "Bakı–Vilnüs: azadlığa gedən yolda taleyüklü yanvar hadisələri" adlı bu sərgi LR Seyminin Konstitusiya zalının foyesində təşkil edilmişdi. Məxsusi olaraq bu anım tədbiri üçün hazırlanmış stendlərdə Bakı və Vilnüs qanlı yanvar hadisələrinə aid şəkillər, mitinq və yürüşlərdən görüntülər, mövzuya aid kitab və albomlar, dövlət və hökumət qurumlarının qərarları, beynəlxalq ictimaiyyətə ünvanlanmış müraciətlər, digər mühüm sənədlərin surətləri və həmçinin Litva *Sąjūdis* Şurasının 20 yanvar 1990-cı ildə Litva SSR Elmlər Akademiyasının böyük iclas zalında keçirilən XI sessiyası zamanı Bakı 20 yanvar faciəsi ilə bağlı qəbul etdiyi tarixi Qətnamənin surəti, həmçinin Litva Azərbaycanlıları Cəmiyyəti və *Sąjūdis* hərəkatı Vilnüs şəhər təşkilatının 1990-cı ilin martında qəbul etdiyi birgə Bəyanatın surəti, o vaxt *Voice of America* və *Radio Free Europe / Radio Liberty* radioları ilə səsləndirilmiş birgə müraciətlər və digər vacib materiallar nümayiş edilirdi.

Sərginin təqdimatında Litva *Sąjūdis* Seyminin 1990–1991-ci illərdə fəaliyyət göstərmiş deputatı Mahir Həmzəyev, Litva *Sąjūdis* təşkilatının sabiq məsul katibi, məşhur ictimai-siyasi xadim Angonita Rupşite və Litvanın 13 Yanvar təcavüzündən zərərçəkənlər cəmiyyətinin sədr müavini, tanınmış Azadlıq müdafiəçisi Rimantas Olşinskas çıxış etdilər. Bu təqdimatdan sonra anım

mərasimi Konstitusiya zalında davam etdirildi, burada 20 yanvar və 13 yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Mahir Həmzəyev anım mərasimini giriş sözü ilə açaraq bildirdi ki, "bu günlər Azərbaycan və Litva xalqları Vətənin müstəqilliyi uğrunda canlarından keçmiş oğul və qızlarının xatirəsini anırlar. Azərbaycan Vətənin müdafiəsinə qalxmış qəhrəmanlarının, azadlıq mübarizlərinin xatirəsini yad edir və bütün azərbaycanlılar şəhidlərimizin qarşısında baş əyərək onların məzarlarını Vətənin azadlığı uğrunda mübarizənin, torpağı və müstəqilliyi qorumağın rəmzinə çevrilmiş milyonlarla qərənfilə qərq edirlər..".

M. Həmzəyev sonra qeyd etdi ki, "Bakını və Vilnüsü tarixə çevrilmiş bu faciəvi hadisələrin oxşarlığı birləşdirir. Sovet imperiyası həm Bakıda, həm də Vilnüsdə silahsız insanlara qarşı ağır hərbi texnikadan istifadə edib. Əfsus ki, dünya ictimaiyyəti xalqlarımızın harayını eşitməyib. Lakin xalqlarımız əmin idilər ki, 20 Yanvar və 13 Yanvar Azərbaycanın və Litvanın qələbə günləridir".

Sonra səfir Həsən Məmmədzadə çıxış etdi və 20 Yanvar faciəsi barədə geniş məlumatlar verdi. Azərbaycan xalqının dərdinə şərik olub faciə qurbanlarını yad etmək üçün gələnlərə minnətdarlığını bildirən Səfir dedi ki, 20 Yanvar tariximizin qara səhifələrindəndir. Azərbaycan xalqı Vətənin müstəqilliyi uğrunda canlarından keçmiş şəhidləri dərin kədərlə xatırlayır və onların şücaəti önündə baş əyir. H. Məmmədzadə Azərbaycanda və Litvada baş vermiş hadisələrin oxşarlığını da qeyd etdi. Səfir həmçinin vurğuladı ki, dinc əhaliyə qarşı cinayətin törədilməsində M. Qorbaçovu və Sovet imperiyasını günahlandıran dünyaca ünlü dövlət xadimi Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıdan kimi bu hadisələrə lazımi siyasi və hüquqi qiymət verilib. Qara Yanvar Azərbaycanda sovet rejiminin süqutunu göstərib. H. Məmmədzadə tədbirə qatılanların diqqətinə çatdırdı ki, Yanvar faciəsi gələcək nəsillər üçün bir örnəkdir, dövlət müstəqilliyinin nəyin bahasına başa gəldiyini göstərən bir nümunədir. Odur ki, müstəqilliyini qan bahasına əldə etmiş Azərbaycan və Litva azadlıq və müstəqillik uğrunda həlak olmuş qəhrəmanları ilə fəxr edir. Səfirin çıxışından sonra "20 Yanvar 1990-cı il" sənədli filmi göstərilib.

Tədbirdə Azərbaycan Dövlət idarəçilik akademiyasının fəxri doktoru, professor Vitautas Landsbergis məruzə edərək bildirdi ki, ötən əsrin 90-cı illərində Bakıda, Tbilisidə və Vilnüsdə terror aktları törətmiş SSRİ rəhbərliyi imperiyanı qoruyub saxlamaq, xalqların azadlıq arzularını qan içində boğmaq üçün insanlığa yaraşmayan bütün üsullardan istifadə edib. Sovet imperiyası Azərbaycanın və Litvanın müstəqilliyini avantüra və təxribat adlandırıb.

Bakıda törədilmiş faciə təsadüfü bir qanlı hadisə deyil, düşünülmüş hərbi təcavüz idi. V. Landsbergis diqqətə çatdırdı ki, Bakı və Vilnüs yanvar hadisələrini nəzərdən keçirərkən göz önündə günahsız insanların kütləvi məhvini əks

etdirən qanlı tarixi hadisələrin ümumi geniş panoraması canlanır. Azərbaycan və Litva xalqlarını birləşdirən amillərdən biri budur. Natiq dedi ki, azadlığa gedən yolu heç də asan olmayan Azərbaycan hazırda geosiyasi kontekstdə güclü bir dövlətdir, xristian və islam dünyaları arasında birləşdirici missiyanı daşıyan tolerantlıq nümunəsidir. 20 Yanvar Azərbaycan xalqının mədəni və siyasi kamilliyini nümayiş etdirib. V. Landsbergis Azərbaycanın Aİ-na inteqrasiyasını dəstəklədiyini vurğuladı. O, Bakı və Vilnüs yanvar hadisələrinə aid sənədlərdən, hərbi qatillərin əmr və göstərişlərindən, faciə qurbanlarının siyahılarından, habelə digər materiallardan ibarət birgə kitab-albomun nəşr olunmasını təklif etdi.

Müstəqil Litvanın ilk dövlət başçısı V. Landsbergis "Bakı–Vilnüs: azadlığa gedən yolda taleyüklü yanvar hadisələri" anım mərasimində çıxışı zamanı. Vilnüs, LR Seymi, 18 yanvar 2013-cü il.

LR Mədəniyyət nazirinin müavini Edvard Truseviç, LR Maarif və təhsil nazirinin səlahiyyətli təmsilçisi Ona Çepuleniene bu nazirliklərin adından çıxış etdilər. Litvanın 13 Yanvar təcavüzündən zərərçəkənlər cəmiyyətinin sədri, ictimai və mədəni xadim Pyatras Arnoldas Barisas çıxışında bildirdi ki, Litvaya müstəqillik qazanmaqda kömək edən mübariz insanlar arasında azərbaycanlılar da olublar və onlar Litvanın "13 Yanvar" xatirə medalları ilə təltif ediliblər.

Litva–Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbərləri – millət vəkilləri Yuras Pojela və Mantas Adomenas məruzə edib qeyd etdilər ki, "bu tədbir taleyüklü tarixi hadisələrin unudulmadığını, onların yaddaşlarda yaşadığını göstərir. Deməli, birgə gələcək də qurulacaqdır. Məqsədimiz xalqlarımızın qarşılıqlı etimadını və ruhən yaxınlığını möhkəmləndirməkdir. Litva Azərbaycanın Avropaya açılan yoludur".

Anım tədbiri çərçivəsində mərasim iştirakçılarına ünlü litvalı kino xadimi Leonas Glinskasın 1991-ci il Vilnüs yanvar olayları barədə "Gözləmə" *("Laukimas")* adlı sənədli lenti təqdim olundu.

Sonra, 13 yanvar 1991-ci ildə Litvanın azadlığı uğrunda həlak olmuşların Vilnüsün Antakalnis Fəxri xiyabanındakı məzarları üzərinə və onların xatirəsinə ucaldılmış abidənin önünə tədbir təşkilatçıları adından Azərbaycan milli bayrağının rənglərini əks etdirən ipək lentlərlə bəzədilmiş gül çələngləri qoyuldu. Çələnglər LR Seyminin Konstitusiya zalından Fəxri xiyabana birgə anım və ehtiram rəmzi olaraq litvalı qız və azərbaycanlı oğlan tərəfindən aparıldı.

Şəkillərdə – "13 Yanvar" xatirə medalı ilə təltif olunmuş Litva azərbaycanlıları: 1. Famil Şükürov. 2. Ilkin Dadaşov. 3. Litva dövlətinin "13 Yanvar" xatirə medalının görüntüsü.

Daha sonra çıxışlar davam etdirildi. Tanınmış tarixçi, Qarabağ münaqişəsi mövzulu araşdırmalar müəllifi İmantas Melyanas tədbirdə "Litva və Azərbaycanı azadlığa aparan yollarda bənzər ağrılar (itkilər) və eyni qələbə" başlıqlı təhlili icmalla çıxış etdi, Mahir Həmzəyevin "Litva və Azərbaycanın azadlıq uğrunda həmrəylik və tərəfdaşlıq işarələri ilə nişanlanmış birgə mübarizə yolları" adlı məruzəsi dinlənildi. Tədbir iştirakçılarının fikir mübadiləsi çay süfrəsi arxasında davam etdi.

Anım tədbirini Litva Azərbaycanlıları Cəmiyyəti, Litva–Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupu, Litvanın 13 Yanvar təcavüzündən zərərçəkənlər cəmiyyəti və Litva–Azərbaycan Assosiasiyası təşkil etmişdi. 150 nəfərə yaxın şəxsin qatıldığı bu mərasim LR Seyminin televiziyası ilə canlı yayımlanıb. Tədbirin video yazıları Seymin rəsmi saytında Litva, ingilis və rus dillərində yerləşdirilib. Sözügedən mərasimin baxış müddəti təxminən 2 saat təşkil edən video görüntülər Litvanın *"Seimas-tiesiogai"* ("Birbaşa Seymdən")

televiziya kanalı ilə 2013-cü ilin 23, 25 və 27 yanvar tarixlərində 3 dəfə təkrar olunaraq bütün ölkə miqyasında göstərilib. Mərasim barədə Litva Milli televiziyası da çəkilişlər aparıb, hazırlanmış reportajlar 2013-cü il 18 və 19 yanvarda geniş Litva ictimaiyyətinə təqdim olunub. Litvanın digər media vasitələri də tədbir haqqında anonslar, müsahibə, reportaj və publisistik yazılar dərc edib, foto və video görüntülər yayımlayıb. Bütün bunlar Litva ictimai-siyasi məkanında müsbət rezonans yaradıb.

Bununla bərabər vurğulamaq istərdik ki, Rusiyanın Litvadakı fövqəladə və səlahiyyətli səfiri Vladimir Çxikvadze Azərbaycan səfiri Həsən Məmmədzadə ilə 21 yanvar 2013-cü ildə Litva Prezidentinin sarayında baş tutmuş görüşündə anım mərasimi ilə bağlı qızğın mübahisə aparıb və hətta səfirlər sözləşiblər. Rusiya səfiri 20 yanvar faciəsi və Qarabağ münaqişəsi ilə bağlı tədbirdə yayımlanan həqiqətlərə, tədbirin ideya istiqamətinin Kreml tərəfindən Qafqazda indiyədək davam etdirilən imperiya siyasətinin ifşasına yönəldilmiş vektoruna, Avropa İttifaqının Şərq partnyorluğu siyasətinin reallaşdırılması yolunda Rusiyanın yaratdığı maneələrə qarşı iradlara, eləcə də çıxışlarda səslənmiş digər geosiyasi fikirlərə etirazını bildirib. V. Çxikvadze professor V. Landsbergisin tədbirə dəvət olunmasına mənfi münasibətini də səfir H. Məmmədzadədən gizlətməyib. Rusiya səfiri həmçinin Litva Azərbaycanlıları Cəmiyyətinin sədri M. Həmzəyevin "destruktiv" ictimai-siyasi fəaliyyətini növbəti dəfə kəskin tənqid edib, Azərbaycan və Litva dövlətləri tərəfindən Cəmiyyətə göstərilən siyasi dəstəyə görə Azərbaycan səfirinə bir daha böyük narazılığını bildirib.

Sonda qeyd edək ki, Azərbaycan xalqını müstəqilliyə aparan yolda böyük mənəvi qələbə kimi dəyərləndirilən 20 Yanvar olayları həmçinin milli özünüdərkin uca zirvəsi kimi qəbul olunmalıdır...

Vilnüs, LR Seyminin Konstitusiya zalı, 18 yanvar 2013-cü il.

QARABAĞ MÜNAQİŞƏSİNİN KÖKLƏRİ KREMLİN KULİSLƏRİ ARXASINDADIR

Diaspora xadimi Mahir Həmzəyev Litva qəzetlərinə Qarabağ münaqişəsi və Azərbaycan–Ermənistan münasibətlərinə dair geniş müsahibə verib. "Qarabağ münaqişəsinin kökləri Kremlin kulisləri arxasındadır" başlıqlı bu müsahibə Vilnüsdə katolik fransiskanlarının 2004-cü ildən litvaca nəşr edilən nüfuzlu *www.bernardinai.lt* internet qəzetinin 29 yanvar 2013-cü il tarixli sayında yer alıb. Müsahibənin ruscaya tərcüməsi isə 26 fevral 2013-cü ildə Xocalı qırğınının 21-ci ildönümü ilə bağlı Litvada rus dilində buraxılan aparıcı *www.ru.delfi.lt* portalında dərc olunub.

Litvalı jurnalist Zigmas Vitkusun apardığı analitik müsahibədə M. Həmzəyev Qarabağ münaqişəsinin kökləri və yaranma səbəbləri, bu məsələdə SSRİ-nin yürütdüyü siyasət, hələ 60-cı illərdən türklərə (eyni zamanda azərbaycanlılara) qarşı başlanan kampaniyalardan (öz tarixi torpaqlarında "gəlmə" elan olunmaları, qondarma erməni soyqırımının tanınması), Sumqayıt hadisələrində Kremlin rolu və məqsədindən danışıb. M. Həmzəyev 1918-ci ilin mart-may aylarında ermənilərin Bakıda və bölgələrdə törətdiyi qırğınlar haqqında litvalı oxuculara faktiki məlumatlar verib. Hazırda Ermənistan və Azərbaycanın qonşu dövlətlərlə münasibətləri, xüsusilə Rusiyanın Qarabağ münaqişəsinin həllində destruktiv rolu və maraqları da müzakirə mövzularından olub.

Müsahibə Litva ictimaiyyətinin geniş dairələri, o cümlədən ölkənin siyasətçiləri tərəfindən çox böyük maraqla qarşılanıb, ictimai müzakirələrdə

müsbət dəyərləndirilib. Publikasiya haqqında fikirlərini bölüşən Litva yəhudiləri icmasının Şura üzvü V. Karakorskis hesab edir ki, M. Həmzəyev növbəti dəfə erməni ekspansionizminin nəzəri doqmalarını və çoxəsrlik təbliğat təcrübəsini ustalıqla ifşa edib, Qarabağ məsələsində Litvada ikiüzlü mövqe tutan saxtakar siyasətçiləri, ermənipərəst qüvvələri və onların himayədarlarını uğursuzluğa düçar edib. O, guya türk və müsəlman xalqlarının tarixən qaniçən olması, 1918-ci ildə müstəqil Azərbaycanın yaradılmasının "Türkiyə layihəsi" olması haqqında ermənilərin təkidlə yaydığı mifləri təkzibolunmaz tarixi faktlara əsaslanaraq alt-üst edib.

Qondarma Dağlıq Qarabağ respublikasının Qərb dövlətlərində *de jure* tanınması üçün işğalçı Ermənistanın təqdim etdiyi "arqumentlərin" M. Həmzəyev tərəfindən qətiyyətlə təkzib edildiyini xüsusilə vurğulayan V. Karakorskisin fikrincə, müsahibə həm də Azərbaycanın yeni tərəfdaşlar və dostlar qazanması baxımından böyük əhəmiyyət kəsb edir.

Bakı, AR Diasporla iş üzrə Dövlət Komitəsinin saytı, 7 mart 2013-cü il.

ƏSL DOST DAR GÜNDƏ TANINAR

Litva – Azərbaycan Assosiasiyası təbliğat savaşında

Litvada ən yeni tarixin ilkin mərhələlərindən başlayaraq Azərbaycana dost münasibət bəsləyən, Azərbaycan xalqının haqq-ədalət səsinə səs verən və azərbaycanlılara dövlət müstəqilliyi uğrunda apardıqları mübarizədə tərəfdaş olan, ölkəmizin ərazi bütövlüyünü birmənalı şəkildə dəstəkləyən və xalqımızın milli-mədəni dəyərlərini Litvada sevə-sevə yayımlayan ziyalılar və tanınmış peşə sahibləri olub. 1988-ci ildən etibarən onların bir qismi Litva Azərbaycanlıları Cəmiyyəti ilə əməkdaşlıq əlaqələri saxlayır. 2006-cı ildə həmin azərbaycansevərlər Litva Azərbaycanlıları Cəmiyyətinin təşəbbüsü ilə Vilnüsdə öz təşkilatlarını yaradıblar.

Litva–Azərbaycan Assosiasiyası adlanan bu təşkilat müstəqil yuridik şəxs hüququna malik ictimai qurum olaraq 11 yanvar 2007-ci ildə Litvanın Dövlət reyestrində qeydiyyatdan keçib. Assosiasiyanın fəaliyyətində 80 nəfərə yaxın müxtəlif millətlərdən olan Litva vətəndaşları – litvalılar, yəhudilər, ukraynalılar, polyaklar, estonlar, latışlar, almanlar, tatarlar, karaimlər, özbəklər, gürcülər, çeçenlər, belaruslar, macarlar və rumınlar iştirak edirlər. Onların sırasında tarixçilər, siyasi icmalçılar, politoloqlar, konfliktoloqlar, jurnalistlər, pedaqoqlar, din təmsilçiləri, muzey və kitabxana işçiləri, millət vəkilləri, ictimai xadimlər, naşirlər, yazıçılar, rəssamlar və digər yaradıcı şəxslər vardır.

Litva–Azərbaycan Assosiasiyasının çoxşaxəli fəaliyyətinin əsas məqsəd və vəzifələrindən biri Azərbaycan həqiqətlərinin Litvada yayımlanması ilə bağlı təbliğat və təşviqat işləri aparmaqdır. Bu sahədə xüsusilə önəm verilən mühüm məsələlər – Ermənistan–Azərbaycan, Qarabağ münaqişəsi, onun geosiyasi səbəbləri, əsl mahiyyəti və nəticələri, xalqımızın əsrlər boyu məruz qaldığı haqsızlıqlar, azərbaycanlılara qarşı törədilmiş terror və soyqırım aktları, aparılmış etnik təmizləmələr barədə bilgiləri Litva ictimaiyyətinə çatdırmaq və bu baxımdan ölkədə ictimai fikrin doğru istiqamətdə formalaşmasına yardım göstərmək, erməni diasporu və lobbisinin uzun illərdən bəri apardığı fəaliyyət nəticəsində ölkədə yaranmış yanlış təsəvvürləri aradan qaldırmaq və sözügedən tarixi faciələri Litva siyasi dairələrinin müzakirəsinə çıxarmaq, həmin faktlara hüquqi və siyasi qiymət verilməsi üçün çalışmaq, Ermənistan dövlətinin işğalçı siyasətini ifşa etmək və beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normaları əsasında təcavüzkarı cəzalandırmaq üçün konkret addımlar atmaq və s. bu kimi vəzifələr yaradıldığı gündən Assosiasiyanın fəaliyyət gündəmində yer tutub.

Xüsusilə vurğulamaq istərdik ki, Assosiasiyanın xətti ilə aparılan təbliğat və maarifləndirmə işlərində əsasən akademik fəaliyyət vektoru üstünlük təşkil edir. Assosiasiyanın bir sıra fəalları qondarma erməni soyqırımının beynəlxalq aləmdə kor-koranə tanıdılmasına qarşı həm elmi-tarixi müstəvidə, həm də Rusiyanın əsrlər boyu Cənubi Qafqazda yürütdüyü imperiya siyasətini ifşa etmək kəsimində iti qələmləri ilə mübarizə aparırlar.

Assosiasiyanın təbliğat sahəsində həyata keçirdiyi tədbirlər məzmun və forma baxımından bir neçə istiqaməti ehtiva edərək həm verbal, həm də qeyri-verbal vasitələrlə aparılır. Tədbirlər keçirilən zaman təbliğat işinin müasir təcrübəsindən, qabaqcıl texnologiyalardan istifadə olunur, Litva ziyalıları potensialından yararlanmaq məqsədi ilə onlarla işgüzar əlaqələr qurulur, dünyada və postsovet məkanında baş verən dramatik olaylara adekvat informasiya üsullarının tətbiqinə üstünlük verilir. Azərbaycanlıların soyqırımı və Qarabağ münaqişəsi barədə obyektiv bilgilərin Litva ictimaiyyətinə çatdırılması işində digər xalqların da (litva, yəhudi, latış, eston, ukrayna, polyak, tatar, alman və b.) diaspor təşkilatlarının təcrübəsindən istifadə edilir. Bu işdə məhz qeyri azərbaycanlı müəlliflərin Avropa düşüncə tərzinə uyğun əsərlərinin – oçerk, məqalə, reportaj, icmal, rəy və müsahibələrin hazırlanıb yayımlanması daha inandırıcı və səmərəli təbliğat üsulu kimi tətbiq olunur. Assosiasiya bu sahədə daha optimal və ən yeni təbliğat üsullarını hazırlamaq üçün daim yaradıcılıq axtarışları aparır.

Assosiasiya 2007-ci ildən başlayaraq Litva Azərbaycanlıları Cəmiyyəti ilə birgə bu yönümdə bir sıra yaddaqalan tədbirlər həyata keçirib. Tədbirlər müxtəlif yerlərdə – o cümlədən LR Seyminin Konstitusiya zalında, Seymin Avropa İttifaqı informasiya mərkəzinin konfrans zalında, Vilnüsdəki Litva genosid muzeyində, ELTA xəbərlər agentliyinin konfrans zalında, Litva Milli İcmalar Evində, Vilnüs Tolerantlıq mərkəzində, Varena rayonunun mərkəzi kitabxanasında, Kaunasda Mayronis adına ədəbiyyat muzeyində, Vilnüsdə M. K. Çürlyonis adına Milli incəsənət məktəbində və digər yerlərdə təşkil edilib. Assosiasiyanın üzvlərindən Vitaliyus Karakorskisin, İmantas Melyanasın, Arvidas Banyulisin, Tomas Çivasın, Donatas Valançyauskasın, Aras Lukşasın, Aydanas Praleykanın, Gintaras Visotskasın Ermənistan–Azərbaycan, Qarabağ münaqişəsi mövzulu tarixi oçerkləri, sənədli məqalələri, icmal, müsahibə və digər publisistik yazıları Litva və Azərbaycan mediasında yer alıb, litvalı müəlliflərin çıxışları həm də milli radio və televiziya kanalları ilə yayımlanıb.

Assosiasiyanın İdarə heyəti üzvlərinin səyləri ilə 2009-cu ildə Vilnüsdə *"Genocidas ir Rezistencija"* adlı elmi jurnalda litvaca çap edilmiş "Azərbaycan

xalqının soyqırımı (1905–1994)" tarixi oçerki Baltik ölkələrində bu mövzuda işıq üzü görmüş ilk elmi əsər olaraq Litvada, Azərbaycanda, Ermənistanda, Rusiyada və digər ölkələrdə böyük rezonans doğurub.

Yuxarıda göstərilən litvalı müəlliflərdən bəziləri Azərbaycan Prezidentinin yanında Strateji araşdırmalar mərkəzinin xətti ilə xarici ekspertlər qismində 2010–2013-cü illərdə Azərbaycana dəvət edilib, burada Xocalı faciəsi ilə bağlı keçirilən tədbirlərdə, AMEA Tarix və İnsan hüquqları institutunda, həmçinin digər elmi və ictimai dairələrdə təşkil edilən görüşlərdə məruzələr oxuyublar, KMV ilə çıxışlar ediblər.

Assosiasiyanın prezidenti, tarixçi İmantas Melyanasın "Erməni məsələsi və ondan qaynaqlanan erməni-türk qarşıdurmasının tərkib hissələrinə baxış" adlı elmi-tarixi məqaləsi AR Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin "Analitik baxış" analitik məcmuəsinin 2010-cu ilin may ayında çapdan çıxmış sayında dərc edilib.

Assosiasiya fəallarının böyük qismi faktiki olaraq Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında birləşib Azərbaycan ideyası naminə mübarizə aparırlar.

Litva–Azərbaycan Assosiasiyası və Litva Azərbaycanlıları Cəmiyyətinin birgə məqsədyönlü fəaliyyəti nəticəsində 2006–2013-cü illərdə Litvada erməni təbliğat mərkəzinin monopoliyası dağıdılıb. Birgə təşkil edilmiş təbliğat tədbirləri, mediada aparılan maarifləndirmə işləri, hazırlanmış elmi-populyar əsərlərin ictimai-siyasi, elmi və mədəni dairələrdə yayımlanması sayəsində ölkədəki erməni lobbisinin fəaliyyətinə təsirli zərbələr endirilib.

Assosiasiya üzvlərinin Qarabağ həqiqətlərinin yayımlanması işinə verdikləri intellektual və informasiya dəstəyi nəticəsində, həm də təcavüzkarın heç bir hüquq və mənəviyyat çərçivəsinə sığmayan hərəkətlərinin geniş dairələrə çatdırılması sayəsində, bu mövzu Litva mediasında və ictimai dairələrdə daim diqqətdə saxlanılır. Bu gün ictimai diskursda Assosiasiya və Litva Azərbaycanlıları Cəmiyyətinin rəyi hesaba alınmadan heç bir ciddi Litva təşkilatı Qarabağ münaqişəsi mövzusunu gündəmə daxil etmir.

Bakı, "Olaylar" qəzeti, 11 iyul 2014-cü il, № 120.

QARABAĞLA PARLAMENT DOSTLUQ QRUPUNUN YARADILMASI AZƏRBAYCAN DİASPORUNU HİDDƏTLƏNDİRİB

1988-ci ildə Ermənistanda milli azadlıq hərəkatının başlanmasının 25-ci ildönümü ilə əlaqədar 26 fevral 2013-cü ildə LR Seyminin Konstitusiya zalında keçirilmiş beynəlxalq tədbirə qondarma Dağlıq Qarabağ Respublikasının xarici işlər naziri Karen Mirzəyan da dəvət edilmişdi.[277]

Bu tədbir çərçivəsində "Dağlıq Qarabağla parlament dostluq qrupunun" əsasının qoyulması Azərbaycan diasporunu hiddətləndirib. Litva Azərbaycanlıları Cəmiyyəti bununla bağlı ölkə ictimaiyyətinə müraciət edib. Litva Azərbaycanlıları Cəmiyyəti və Litva–Azərbaycan Assosiasiyası həmçinin LR Prezidentinə, Seymin sədrinə, Xarici işlər nazirinə birgə Bəyanat ünvanlayıblar. Cəmiyyətin sədri Mahir Həmzəyev və Assosiasiyanın prezidenti İmantas Melyanas tərəfindən imzalanan Bəyanatda bildirilir ki, Ermənistanda milli azadlıq hərəkatının başlanmasının 25-ci ildönümünə həsr edilmiş "Litva və Ermənistan: yaxın keçmişə baxış" mövzulu beynəlxalq konfrans "əslində Litvanın qondarma Dağlıq Qarabağ Respublikası ilə həmrəylik manifestasiyasına çevrilib. Bu addımın atılmasını Litva Azərbaycanlıları Cəmiyyəti və Litva–Azərbaycan Assosiasiyası rüsvayçı və qəbuledilməz hərəkət sayır".

Sənəddə həmçinin vurğulanır ki, "biz bu konfrans zamanı Seymdə qondarma Dağlıq Qarabağ Respublikasının "xarici işlər naziri"nin rəsmi çıxış etməsini və Dağlıq Qarabağ Respublikasının tərəfdarlarından ibarət millət vəkilləri qrupunun təsis edilməsi üçün şərait yaradılmasını qətiyyətlə pisləyirik, buna heç zaman dözümlü münasibət bəsləyə bilməyəcəyimizi bəyan edirik".

Daha sonra Bəyanatda deyilir: "Belə addım təkcə bizim ölkənin parlamentini hörmətdən salmır. Bu, həm Azərbaycanla, həm də Şimali Atlantika Müqaviləsi Təşkilatında (NATO) Litvanın ən mühüm müttəfiqlərindən

[277] Karen Ambartsumoviç Mirzəyan 1965-ci ildə Yerevanda doğulub. 2012–2017-ci illərdə qondarma "Dağlıq Qarabağ Respublikası"nın Xarici işlər naziri olub. Bir müddət həm də Ermənistan Respublikası Xarici işlər nazirinin müşaviri işləyib, 2019-cu ilin iyun ayından başlayaraq Ermənistan Respublikasının xüsusi tapşırıqlar üzrə Səfiri olub.

biri olan Türkiyə ilə siyasi, iqtisadi, mədəni və başqa əlaqələrə mənfi təsir göstərə bilər. Bu, Avropa İttifaqının Şərq tərəfdaşlığı siyasətinin prinsiplərinə də açıq-aşkar ziddir və bu prosesdə Litvanın vasitəçi rolunu mürəkkəbləşdirir".

Bəyanatın müəllifləri ümid edirlər ki, Litva xarici siyasətinin formalaşdırılmasına və həyata keçirilməsinə cavabdeh olan idarələr Litvanın milli mənafelərinə ziyan vurmuş bu avantürist niyyətin təşəbbüsçülərini və bu destruktiv işin müti icraçılarının fəaliyyətini lazımınca qiymətləndirəcək.

Bakı, AR Diasporla iş üzrə Dövlət Komitəsinin saytı, 28 fevral 2013-cü il.
Azərbaycan Dövlət İnformasiya Agentliyinin (Azərtac-ın) veb-saytı, 28 fevral 2013-cü il.

AZƏRBAYCAN LİTVAYA NOTA VERMİŞDİR

18 mart 2013-cü ildə Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Xələfov Litva Respublikasının ölkəmizdəki səfiri Arturas Jurauskas ilə görüşmüşdür.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən Azərtac-a bildirmişlər ki, görüşdə Xələf Xələfov Litva Seymində qondarma "Dağlıq Qarabağ Respublikası" ilə parlament dostluq qrupunun yaradılmasının Azərbaycan tərəfindən narazılıq və narahatlıqla qarşılandığını bildirmişdir.

Nazir müavini bildirmişdir ki, Azərbaycanın işğal altındakı Dağlıq Qarabağ ərazisi ilə ayrıca dostluq qrupunun yaradılması nəinki bu ölkənin qanunvericiliyinin, eləcə də beynəlxalq hüququn kobud şəkildə pozulması deməkdir. Xələf Xələfov bəzi litvalı deputatlar tərəfindən atılan bu addımın Azərbaycan ilə Litva arasında münasibətlərin mövcud vəziyyətinə uyğun gəlmədiyini, həmçinin ikitərəfli əlaqələrə kölgə saldığını təəssüflə qeyd etmişdir. Nazir müavini bu addımın Azərbaycan tərəfindən ölkənin ərazi bütövlüyünün, suverenliyinin pozulması, eyni zamanda, separatçılığın dəstəklənməsi və beynəlxalq hüquq prinsiplərinə hörmətsizlik kimi qiymətləndirildiyini bildirmişdir.

Səfir Arturas Jurauskas rəsmi Bakının narahatçılığını başa düşdüyünü, Azərbaycanın mövqeyini öz hökumətinə çatdıracağını bildirmişdir. Səfir həmçinin qeyd etmişdir ki, ölkəsinin qanunvericiliyinə görə Litva parlamentinin hər bir üzvünün təşəbbüs irəli sürmək hüququ vardır. Parlamentin bir neçə üzvünün Dağlıq Qarabağla dostluq qrupunun yaradılmasına dair təşəbbüsü Seymin və Litva hökumətinin rəsmi mövqeyini ifadə etmir.

Xələf Xələfov bu cavabın Azərbaycanı qane etmədiyini, həmin deputatların Litva Respublikasının qanunvericilik hakimiyyətini təmsil etdiklərini, xüsusi statuslu rəsmilər olduqlarını və qondarma "Dağlıq Qarabağ Respublikası" nümayəndələri ilə şəxsi əlaqə deyil, parlament səviyyəsində dostluq qrupu yaratdıqlarını bir daha səfirin diqqətinə çatdırmışdır.

Xələf Xələfov bildirmişdir ki, bütün nüfuzlu beynəlxalq təşkilatlar, eləcə də dünya birliyi Dağlıq Qarabağı Azərbaycanın ərazisi kimi tanıyır.

Nazir müavini Litva Respublikasının ölkəmizdəki səfiri Arturas Jurauskasa etiraz notası təqdim edərək, məsələnin araşdırılacağına və Litva tərəfinin bu halın aradan qaldırılması istiqamətində tədbirlər görəcəyinə ümid etdiyini bildirmişdir.

Bakı, rəsmi dövlət qəzeti "Azərbaycan", 19 mart 2013-cü il.

ERMƏNİPƏRƏST LİTVA TARİXÇİSİ TUTARLI CAVABLARLA SUSDURULDU

Məlumdur ki, Ermənistan işğal etdiyi Azərbaycan ərazisində yaratdığı oyuncaq "dövləti" beynəlxalq aləmdə *de jure* tanıtmaq üçün dəridən-qabıqdan çıxır, bu yolda hətta ən şərəfsiz üsul və vasitələrdən istifadə etməyi özü üçün qəbahət saymır. Bununla bağlı panerməni təbliğat qüvvələri və onların xaricdəki havadarları həyasızcasına tarixi uydurmalar yayımlayır, qara piardan istifadə edərək ictimai fikri özlərinə əlverişli yönümdə formalaşdırmağa çalışır, müxtəlif ölkələrdəki siyasətçiləri və medianı ən müxtəlif üsullarla ələ alaraq onları "Dağlıq Qarabağ respublikasının" tanınması istiqamətində kökləyirlər.

Bu baxımdan erməni ekspansionistlərinin Avropada törətdikləri fitnə-fəsadlar siyahısına 14 mart 2013-cü ildə daha bir biabırçı fakt əlavə olunub. Belə ki, göstərilən tarixdə Litva Respublikası Seymində 12 nəfər millət vəkili "Dağlıq Qarabağla parlament dostluq qrupunu" yaradıblar.

Bu fakt Litvadakı Azərbaycan diasporunu və xalqımızın bu ölkədəki dostlarını hiddətləndirib, onların kəskin etirazına səbəb olub. Bir sıra Litva millət vəkillərinin antiazərbaycan fəaliyyətinə son qoymaq və "dostluq qrupunu" ləğv etmək, erməni təbliğatının qarşısını almaq üçün Litva Azərbaycanlıları Cəmiyyəti və Litva–Azərbaycan Assosiasiyası birgə tədbirlər həyata keçiriblər.

Tədbirlər çərçivəsində LR Seyminin sədri Vidas Gedvilasa, Seymin Xarici işlər komitəsinin sədri Benediktas Yuodkaya, Hüquq və Hüquq qaydaları komitəsinin sədri Yulyus Sabatauskasa Seymin Nizamnaməsində müvafiq dəyişikliklərin olunması yolu ilə Parlamentlərarası dostluq qruplarının təsis qaydalarının optimallaşdırılması və qanunla nəzərdə tutulmamış "dostluq qrupunun" ləğv olunması barədə təklif və tələblər ehtiva olunmuş rəsmi müraciətlər ünvanlanıb.

Daha sonra, Seymin sədr müavini İrena Degutiene, Seymin Konservatorlar – Xristian demokratlar fraksiyasının sədri, Parlamentin İdarə heyətinin üzvü, keçmiş Baş nazir Andryus Kubilyus, Seymin Liberal Sayudis fraksiyasının sədri, sabiq Nəqliyyat naziri Eligiyus Masyulis, Seymin Xarici işlər komitəsinin sədr müavini, sabiq Xarici işlər naziri Audronyus Ajubalis, Seymin İnsan hüquqları komitəsinin sədr müavini Mantas Adomenas və digər nüfuzlu siyasətçilərlə görüşlər keçirilərək məsələ ilə bağlı müzakirələr aparılıb və ilkin nəticələr əldə edilib.

Bütün bunlarla yanaşı, Litva Azərbaycanlıları Cəmiyyəti və Litva–Azərbaycan Assosiasiyası adından kütləvi məlumat vasitələri ilə müxtəlif dillərdə bəyanatlar yayımlanıb, müsahibə və məqalələr dərc edilib. Mətbuatda çap olunmuş yazılardan litvalı tarixçi İmantas Melyanasın "Tarixçinin elmi səviyyəsi və siyasətçinin vicdan saflığı haqqında fikirlər" adlı analitik məqaləsini xüsusilə vurğulamaq istərdik. 28 mart 2013-cü ildə Litvanın *www.balsas.lt* xəbərlər portalında yer almış bu publikasiya, ermənipərəst Litva tarixçisi və millət vəkili Algis Kaşetanın 2013-cü ilin martında Litvanın *www.delfi.lt* internet qəzetində dərc etdirdiyi "1988–1991-ci illərdə Litva, Ermənistan və Dağlıq Qarabağ milli azadlıq hərəkatlarının bir-birinə oxşarlığı" başlıqlı məqaləsinə cavab olaraq yazılıb.

İ. Melyanasın məqaləsində təqdim olunan tarixi faktlar və paralellər, ictimai-siyasi müqayisələr, analitik ümumiləşdirmələr və məntiqi nəticələr Litvanın siyasət və elm adamları, həmçinin geniş ictimaiyyət dairələrinin böyük qismi tərəfindən anlamla qarşılanaraq müsbət dəyərləndirilib. Məqalə ilə bağlı Litva mediasında dərc olunmuş şərhlərdə İ. Melyanasın intellektual səviyyəsi, geniş dünyagörüşü və vətəndaş cəsarəti yüksək qiymətləndirilib. Bu məqalə ermənipərəst tarixçi A. Kaşetaya, həm də Seymdə fəaliyyət göstərən "Dağlıq Qarabağla parlament dostluq qrupu" üzvlərinə tutarlı cavab olub və nəticə etibarı ilə onları susdurub.

İ. Melyanasın publikasiyasında qaldırılan mövzuya olan geniş marağı nəzərə alaraq, məqalə Litva Azərbaycanlıları Cəmiyyətinin xətti ilə rus dilinə tərcümə olunaraq 2 iyun 2013-cü ildə *www.day.az* saytında *"Litovskiy istorik razoblaçil loj armyan i ix druzey"* başlığı altında dərc olunub.

Azərbaycan Dövlət İnformasiya Agentliyinin (Azərtac-ın) veb-saytı, 6 iyun 2013-cü il.
Bakı, "525-ci qəzet", 6 iyun 2013-cü il, № 100.

Vitaliyus KARAKORSKİS

DAĞLIQ QARABAĞLA PARLAMENT DOSTLUQ QRUPUNUN LƏĞVİ LABÜDDÜR

2013-cü ilin martında Litva Respublikası Seyminin 12 nəfər deputatı "Dağlıq Qarabağla parlament dostluq qrupu"ni yaratdıqlarını bəyan etdilər. Bu xəbərdən dərhal sonra Litva Azərbaycanlıları Cəmiyyətinin sədri M. Həmzəyev və Litva–Azərbaycan Assosiasiyasının prezidenti İ. Melyanas buna qəti etirazını bildirərək LR Seyminin rəhbərliyinə Azərbaycan təşkilatları adından birgə sorğu göndəriblər. Onlar sorğuda Litva Seyminin fəaliyyətini tənzimləyən Nizamnamədə belə bir "parlament dostluq qrupunun" yaradılmasının nəzərdə tutulmadığını göstərərək sözügedən qrupun Litva Seymində hansı hüquqi əsaslarla yaradıldığını və nə kimi statusa malik olduğunu izah etməyi tələb ediblər.

Bununla yanaşı, Azərbaycan təşkilatlarının başçıları Seymin Nizamnaməsində təsbit olunmuş tələblərə uyğun olmayan bu cür qrupların fəaliyyətinə son qoymaq üçün optimal tədbirlərin görülməsi ilə bağlı konkret təkliflər irəli sürüblər. Seymin sədri Vidas Gedvilas sözügedən sorğunun cavablandırılması və müraciətdə göstərilən təkliflərə baxılması məsələsini Parlamentin Xarici işlər komitəsinə, həmçinin Hüquq və hüquq qaydaları komitəsinə tapşırıb.

Litva Azərbaycanlıları Cəmiyyəti və Litva–Azərbaycan Assosiasiyası 2013-cü ilin iyun ayında Seymin göstərilən komitələrindən rəsmi cavab məktubları alıb. Parlamentin Xarici işlər komitəsinin sədri, iqtidarda olan Litva sosial demokrat partiyası fraksiyasının təmsilçisi, Vilnüs Universitetinin sabiq rektoru, akademik Benediktas Yodka tərəfindən imzalanmış məktubda göstərilir ki, "Dağlıq Qarabağla parlament dostluq qrupu" onun rəhbərlik etdiyi Xarici işlər komitəsi tərəfindən "parlamentlərarası əlaqələr üzrə işçi qrupu" qismində tanınmır. Belə ki, "parlamentlərarası əlaqələr üzrə işçi qrupları" yalnız *de jure* tanınmış dövlətlərin parlamentləri ilə yaradılır. Buna görə də Seymin sədri *de jure* tanınmayan Dağlıq Qarabağ Respublikasının parlamentinə göstərilən qrupun yaradılması barədə məlumat göndərməyib".

Seymin Hüquq və hüquq qaydaları komitəsinin sədri, tanınmış hüquq mütəxəssisi Yulyus Sabatauskasın imzaladığı rəsmi sənəddə isə konstatasiya olunur ki, "Dağlıq Qarabağla parlament dostluq qrupunun yaradılmasının

hüquqi əsasları LR Seyminin Nizamnaməsində təsbit olunmuş hüquqi tələblərə uyğun deyil. Belə ki, həmin tələblərə görə "parlamentlərarası əlaqələr üzrə qruplar" yalnız hüquqi baxımdan tanınmış dövlətlərin parlamentləri ilə qurula bilər. Buna görə də, həmin qrup "parlamentlərarası əlaqələr üzrə qrup" kimi qəbul edilmir və heç bir halda Litva dövlətinin rəsmi mövqeyini əks etdirmir. Seymdə parlamentlərarası əlaqələr üzrə qrupların yaradılması qaydalarının optimallaşdırılması ilə bağlı Litva Azərbaycanlıları Cəmiyyəti və Litva–Azərbaycan Assosiasiyası tərəfindən irəli sürülmüş təkliflər Seymin Nizamnaməsi təkmilləşdirilən zaman nəzərə alınacaq".

Bizim qənaətə görə, Seymin komitələrinin çıxardığı bu nəticələr və Litva azərbaycanlıları diasporuna ünvanlanmış cavablar "Dağlıq Qarabağla parlament dostluq qrupu" ilə bağlı erməni ekspansionist qüvvələrin Litvada qurduğu planların və onların Seymdəki muzdlu havadarlarının göstərdikləri səylərin faktiki olaraq iflasa uğradığını göstərir.

Xüsusilə vurğulamaq istərdik ki, 1990-cı il martın 11-də Litvanın dövlət müstəqilliyi bərpa olunduqdan sonra ötən 23 ildən artıq bir zaman ərzində ilk dəfədir ki, bu ölkənin ali qanunverici orqanı ictimai təşkilatların Seymə ünvanladığı sorğuda ifadə edilmiş tənqidi fikirlərin düzgünlüyünü və irəli sürülmüş təkliflərin əsaslı olduğunu etiraf etməyə vadar olub. Düşünürük ki, həmin təkliflər Litva Seyminin Nizamnaməsində müvafiq dəyişikliklərin edilməsinə gətirib çıxaracaq.

Qeyd olunmalıdır ki, Seymdə "Dağlıq Qarabağla parlament dostluq qrupu"nun ləğv edilməsi üçün görülən bu qəti tədbirlər Litvadakı Azərbaycan diasporunun lobbiçilik fəaliyyəti, həmçinin Azərbaycanın Litvadakı təəssübkeş dostlarının dəstəyi və əzmli addımları sayəsində mümkün olub.

Bakı, "525-ci qəzet", 2 avqust 2013-cü il.

LİTVA SEYMİNDƏ DAĞLIQ QARABAĞLA PARLAMENT DOSTLUQ QRUPUNUN GİZLİNLƏRİ

Mahir Həmzəyevlə müsahibə

Azərbaycanın XX əsrdə ikinci dəfə müstəqillik əldə etməsindən sonra əksər dövlətlər kimi Litva ilə də normal münasibətləri qurulub və ölkələr arasındakı ikitərəfli əlaqələr yüksək səviyyəyə qaldırılıb. Müstəqil Azərbaycan–Litva münasibətlərinin qurulub inkişaf etdirilməsində bu ölkədə fəaliyyət göstərən diaspor təşkilatlarımızın da müstəsna rolu var – desək yanılmarıq. Xüsusilə, bu sıraya Litva Azərbaycanlıları Cəmiyyətinin fəaliyyətini tam əminliklə aid etmək olar. Cəmiyyət 1988-ci ildə fəaliyyətə başladığı gündən Azərbaycanın haqq səsinin Litva ictimaiyyətinə çatdırılması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirib. Sevindirici haldır ki, Cəmiyyətin həyata keçirdiyi tədbirlər öz uğurlu nəticələri ilə həm Litvada, həm də Azərbaycanda yadda qalıb. Hazırda Cəmiyyət qeyd edilən istiqamətdə mühüm fəaliyyətini davam etdirir və bu gün Litvada Azərbaycana qarşı olan təxribatların, erməni diasporunun və ermənipərəst Litva ictimai-siyasi qüvvələrinin Azərbaycana qarşı dağıdıcı fəaliyyətinin qarşısının alınmasında fəallıq nümayiş etdirərək uğurlu nəticələrə imza atır.

Azərbaycan əleyhinə yönəlmiş təxribatların qarşısını almaq sahəsində Cəmiyyətin növbəti konkret işləri 2013-cü ilin fevral-mart aylarında bir daha özünü göstərib. Belə ki, göstərilən tarixdə Litva Seymində "Dağlıq Qarabağla parlament dostluq qrupu" yaradılıb ki, bu hadisəyə ilk reaksiya verən və Seymə qəti şəkildə etirazını bildirən məhz Litva Azərbaycanlıları Cəmiyyəti və onun sədri Mahir Həmzəyev olub. M. Həmzəyevlə söhbətimiz zamanı Seymdə Dağlıq Qarabağla parlament dostluq qrupunun yaradılmasının hansı zərurətdən meydana gəlməsi ilə bağlı məqamlara toxunduq, Cəmiyyət tərəfindən Litva Seyminə və Litva Respublikasının rəhbərlərinə göndərilən etiraz məktublarına, mətbu bəyanatlar və təkliflərə verilən reaksiyalara aydınlıq gətirdik. Ümumiyyətlə bu yöndə görülən bir sıra işləri və mövcud vəziyyəti araşdırdıq.

Mahir bəy, mümkünsə öncə oxuculara Litva Seymində "Dağlıq Qarabağla parlament dostluq qrupu"nun yaradılması, onun üzvləri və fəaliyyəti haqqında məlumat verərdiniz.

14 mart 2013-cü ildə Litva Respublikası Seymində həm iqtidar, həm də müxalifət partiyalarını təmsil edən 12 millət vəkili "Dağlıq Qarabağla parlament dostluq qrupu"nu yaratdıqlarını bəyan etdilər. Bu qrupa daxil olan Litva millət vəkilləri bunlardır: 1. Dalya Kuodite. 2. Alma Monkauskayte. 3. Povilas Urbşis. 4. Kyastutis Bartkyaviçyus. 5. Rima Başkiene. 6. Vitaliyus Gaylyus. 7. Pyatras Grajulis. 8. Algis Kaşeta. 9. Kyastas Komskis. 10. Dangute Mikutiene. 11. Vintse Vaydyavute Margyaviçiene. 12. Kyastutis Masyulis. Qrupun sədri Dalya Kuodite, sədr müavinləri isə Alma Monkauskayte (1961–2018) və Povilas Urbşisdir.

Beləliklə, postsovet məkanında Litva ilk ölkədir ki, Parlamentində "Dağlıq Qarabağla parlament dostluq qrupu" yaradılıb.

Litvanın Vətən birliyi (Konservatorlar) – Xristian demokratlar partiyası 2013-cü il martın ikinci yarısında sözügedən dostluq qrupundan 2 nəfər üzvünü – V. Margyaviçiene və K. Masyulisi geri çağırdıqdan sonra həmin Qrupda 10 nəfər deputat qalmışdı.

Litvanın iqtidar partiyaları dostluq Qrupunda bu deputatların timsalında təmsil olunub: – A. Monkauskayte (Sosial demokratlar partiyası), D. Mikutiene (Əmək partiyası), K. Bartkyaviçyus, P. Grajulis və K. Komskis (Qayda-qanun və Ədalət partiyası). Qeyd etmək vacibdir ki, K. Komskis LR Seyminin sədr müavinidir. D. Mikutiene isə Seymdə Səhiyyə məsələləri üzrə Komitənin sədridir.

Müxalifət partiyalar isə "Dağlıq Qarabağla parlament dostluq qrupu"nda bu millət vəkilləri ilə təmsil edilib: D. Kuodite, A. Kaşeta, V. Gaylyus (Litva Respublikası Liberallar hərəkatı partiyası), R. Başkiene (Kəndlilər və Yaşıllar ittifaqı partiyası) və P. Urbşis (Bitərəf).

Beləliklə, Qrup üzvlərinin yarısı Seymdəki iqtidar partiyalara, digər yarısı isə müxalifət partiyalara aiddir. Bir faktı da vurğulamaq istərdim ki, sosial-demokrat A. Monkauskayte Litva Sosial demokratlar partiyası rəhbərliyi tərəfindən ona dostluq Qrupunu tərk etməklə bağlı hələ ötən ildə edilmiş tövsiyyə və təkliflərə məhəl qoymayıb və ermənipərəst parlament qrupu dəstəsində qalmağı üstün tutub. Həmçinin LR Liberallar hərəkatı partiyasının liderləri tərəfindən bu Qrupda təmsil olunmuş partiya üzvlərinə edilən analoji təkliflər və təsir etmək cəhdləri də uğursuzluqla nəticələnib.

Bu, ilk növbədə o deməkdir ki, "Dağlıq Qarabağla parlament dostluq qrupu"na üzv olmaq siyasi partiyalara mənsubluq, eləcə də iqtidar və yaxud müxalifətə aid olmaq prinsipləri əsasında həyata keçirilmir, maddi və qeyri-maddi həyati maraqların gerçəkləşdirilməsi hesabına tənzimlənir. Bunu həm də belə bir faktik reallıq təsdiq edir ki, Qrupun aparıcı üzvləri millət vəkilləri D. Kuodite və A. Kaşeta tarixçidirlər, litvalıların soyqırımı və Sovet rejiminə qarşı müqavimət hərəkatı tarixinin araşdırılması sahəsində mühüm tədqiqat işləri görüblər və onlar təbii ki, Cənubi Qafqazda yaranmış vəziyyətlə də yaxşı

tanışdırlar. Həmçinin Qarabağda davam edən silahlı münaqişənin əsl səbəbkarlarının kim olduğunu da gözəl bilirlər. Hər necə olsa da, Qrupun ən fəal üzvləri "müxalifət qüvvələr düşərgəsindən" – D. Kuodite, A. Kaşeta və iqtidar təmsilçisi D. Mikutienedir. Qrupun qalan üzvləri isə statist rolunu oynayırlar və açıq-aydın görünür ki, bunu müftə etmirlər.

Qeyd edək ki, "Dostluq qrupu"nu yaradanlardan olan tarixçi Algis Kaşeta 1996-cı ildən indiyədək davamlı olaraq LR Seyminə üzv seçilir. O, bir müddət Seymin idarə Heyətində rəhbər vəzifələrdə çalışıb. Seymin Milli təhlükəsizlik və müdafiə komitəsinin üzvü, həmçinin, uzun illər Litvanın Ermənistanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri olub. 15 dekabr 2005-ci ildə Litva Parlamentində qondarma erməni soyqırımının tanınmasını təşkil etmiş əsas şəxslərdən biridir. Erməni xalqı qarşısında "xidmətlərə görə" Ermənistan Respublikasının orden və medalları ilə təltif olunub, fəxri fərmanlara layiq görülüb.

Litvada erməni təbliğat mərkəzinin fəaliyyəti hansı səviyyədədir?

Bu barədə artıq xeyli məlumatları açıqladım. Deyilənlərə əlavə olaraq qeyd edə bilərəm ki, son vaxtlar Litvada erməni təbliğat mərkəzi bir neçə il bundan öncə itirdiyi mövqeləri inadla geri qaytarmağa çalışır. 8 noyabr 2011-ci ildə Litvada Ermənistanın Səfirliyi fəaliyyətə başladıqdan sonra vəziyyət xüsusilə başqa görüntü alıb. Səfir Ara Ayvazyan təcrübəli və bacarıqlı Ermənistan diplomatı olaraq Litvadakı erməni diasporunu və erməni əsilli iş adamlarını, bəzi jurnalistləri və politoloqları, bir sıra Litva millət vəkillərini və digər ermənipərəst qüvvələri səfərbər edə bilib.[278] Bu qüvvələr Litva Seymi də daxil olmaqla ölkənin siyasi və ictimai-mədəni dairələrində, həmçinin mediasında eyni geosiyasi və ideoloji müstəvidən çıxış edirlər. Litvada yaşayan Araik Tunyan, Armen Ayrapetyan, Marat Sarkisyan və Karen Babayan kimi iş adamları başda olmaqla bu ölkədəki erməni biznesmenləri təbliğat tədbirlərinə nəzərəçarpan dərəcədə maliyyə dəstəyi verirlər. Məhz belə fəaliyyətin nəticəsi olaraq LR Seymində millət vəkilləri „Dağlıq Qarabağla parlament dostluq qrupu" yaradıblar. Bir neçə vaxtdır ki, ermənipərəst Litva siyasətçiləri və erməni diasporunun təşəbbüsü ilə Litvada keçirilən ictimai-siyasi tədbirlərə „Dağlıq Qarabağ Respublikası"nın rəhbərləri də dəvət olunurlar. Məsələn, Xocalı qırğınının 21-ci ildönümü günündə – 26 fevral 2013-cü ildə Litva–Ermənistan Forumu, Ermənistan Səfirliyi və Litva–Ermənistan parlamentlərarası işçi qrupunun təşkilatçılığı ilə Litva Seymində keçirilmiş beynəlxalq konfransda „Dağlıq Qarabağ Respublikasının Xarici işlər naziri" Karen Mirzəyana məruzə etmək üçün

[278] Ara Ayvazyan 2020-ci ilin noyabr ayında Ermənistan Respublikasının Xarici işlər naziri təyin olunub.

siyasi tribuna verilib. Həmin Konfransda „Dağlıq Qarabağ Respublikası" ilə LR Seymi arasında rəsmi şəkildə təməli qoyulmuş əlaqələri daha yaxın siyasi müstəviyə keçirmək barədə təkliflər olunub və planlar cızılıb. Lakin bu planların böyük qismi hələlik kağız üzərində qalıb...

Bunun səbəbini izah edə bilərsinizmi?

"Dağlıq Qarabağla parlament dostluq qrupu" hazırda nəzərəçarpan fəallıq göstərmir və açıq iş aparmır. Mən bunun səbəblərini, ilk növbədə Azərbaycan diasporunun etiraz tədbirlərinin effektli olmasında görürəm və həmçinin Azərbaycanın Litvadakı dostlarının apardıqları təbliğat və təşviqat işlərinin müsbət təsiri ilə izah edirəm. Bununla yanaşı, heç şübhəsiz ki, Rusiyanın Ukraynaya qarşı həyata keçirməkdə olduğu təcavüzün də Seymdəki "Dağlıq Qarabağla parlament dostluq qrupunun" fəallığının nisbi süstlüyünə təsiri vardır. Çünki, Litvada çoxları Ukraynaya təcavüzün timsalında Azərbaycan–Ermənistan, Qarabağ münaqişəsinin analoqunu sezirlər. Amma bütün bunlara baxmayaraq "Dağlıq Qarabağla parlament dostluq qrupu" vaxtaşırı yığışır və aktual məsələləri müzakirə edirlər. Bu Qrup sonuncu dəfə 7 dekabr 2013-cü il tarixində Seymdə Spitak zəlzələsinin 25 illiyinə həsr olunmuş beynəlxalq anım tədbirinin təşkilatçılarından biri olaraq çıxış edib.

Litva Azərbaycanlıları Cəmiyyəti olaraq bu ölkənin Seymində Dağlıq Qarabağla parlament dostluq qrupunun yaradılmasını necə qarşıladınız və buna qarşı hansı formada reaksiyalar bildirdiniz?

Bu hadisədən dərhal sonra mən Litva Azərbaycanlıları Cəmiyyətinin sədri kimi, İmantas Melyanas isə Litva–Azərbaycan Assosiasiyasının prezidenti olaraq bu addıma qarşı qəti etirazımızı bildirdik və Litva Seyminin rəhbərliyinə Azərbaycan təşkilatları adından birgə sorğu göndərdik. Həmin məktubda Litva Seyminin fəaliyyətini tənzimləyən Nizamnamədə belə bir "parlament dostluq qrupunun" yaradılmasının nəzərdə tutulmadığını göstərdik və Litva parlamentində sözügedən qurumun hansı hüquqi əsaslarla yaradıldığını, nə kimi statusa malik olduğunu izah etməyi tələb etdik. Bununla bərabər, Seymin Nizamnaməsinə uyğun olmayan bu cür qrupların fəaliyyətinə son qoymaq məqsədi ilə optimal tədbirlərin görülməsi üçün konkret təkliflər irəli sürdük, Nizamnamədə müvafiq dəyişikliklərin edilməsi yolu ilə Parlamentlərarası dostluq qruplarının təsis qaydalarının optimallaşdırılması və qanunla nəzərdə tutulmamış "Dostluq qrupunun" ləğv olunması barədə Parlamentə rəsmi müraciət ünvanladıq. LR Seyminin sədri Vidas Gedvilas sözügedən sorğunun araşdırılıb cavablandırılması və irəli sürülən təkliflərə Seymin müvafiq fəaliyyət reqlamenti əsasında baxılması məsələsini Parlamentin Xarici işlər, eləcə də

Hüquq və hüquq qaydaları komitələrinə tapşırdı. Onu da diqqətə çatdırım ki, Litva Azərbaycanlıları Cəmiyyəti və Litva–Azərbaycan Assosiasiyası Seymin göstərilən komitələrindən rəsmi cavab məktubları alıblar.

Sizin etirazlarınıza qarşı verilən cavab və reaksiyalar hansı qənaətə gəlməyə əsas verir?

Bizim qənaətimizə görə, Seymin komitələri tərəfindən çıxarılan nəticələr və Litva azərbaycanlıları diasporuna ünvanlanan cavablar "Dağlıq Qarabağla parlament dostluq qrupu" ilə bağlı erməni ekspansionist qüvvələrinin Litvada qurduqları planların və onların Seymdəki muzdlu havadarlarının səylərinin faktiki olaraq iflasa uğradığını göstərir.

Belə demək mümkündürmü ki, Litva Seyminin məlum "dostluq qrupu" ilə bağlı milli mövqenin ortaya qoyulmasında bu ölkədəki Azərbaycan diasporunun müstəsna rolu olub?

Əlbəttə. Seymdə "Dağlıq Qarabağla parlament dostluq qrupunun" ləğv edilməsi üçün görülən bu qəti tədbirlər Litvadakı Azərbaycan diasporunun lobbiçilik fəaliyyəti, həmçinin Azərbaycanın Litvadakı təəssübkeş dostlarının dəstəyi və əzmli addımları sayəsində mümkün olub.

Bakı, "Olaylar" qəzeti, 28–30 iyun 2014-cü il, № 111; 11 iyul 2014-cü il, № 120.

ERMƏNİPƏRƏST LİTVA DİPLOMATLARI İFŞA OLUNUR

Qarabağ münaqişəsi və Diasporun Litva mediası ilə əməkdaşlığı

Azərbaycan həqiqətləri, Qarabağ problemi, eləcə də xalqımızın başına zaman-zaman gətirilən müsibətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında, heç şübhəsiz ki, xarici kütləvi informasiya vasitələrinin rolu mühüm əhəmiyyət kəsb edir. Litva Azərbaycanlıları Cəmiyyətinin bu sahədəki fəaliyyəti, Litva mediası ilə qurduğu əlaqələr və müntəzəm olaraq ölkənin nüfuzlu kütləvi informasiya vasitələrinə çıxışı Azərbaycan barədə bu ölkədə ətraflı və düzgün təsəvvürlərin formalaşmasına imkan yaradır. Bu müsbət tendensiya yüksələn xətlə inkişaf etməkdədir.

Cəmiyyət bu yaxınlarda ermənipərəst Litva diplomatlarının Azərbaycan–Ermənistan, Qarabağ münaqişəsi ilə bağlı 2013-cü ilin iyulunda *YouTube* saytında yayılan gizli telefon danışıqlarına sərt münasibət bildirib. Belə ki, Litva Azərbaycanlıları Cəmiyyəti və Litva–Azərbaycan Assosiasiyası tərəfindən bu qalmaqallı olayların pərdəarxasının üzə çıxarılması, habelə ikibaşlı siyasət yürüdən bəzi Litva dövlət qurumları təmsilçilərinin ifşa edilməsi, Azərbaycana qarşı burada fəaliyyət göstərən panerməni təbliğat qüvvələrin zəiflədilməsi, ideoloji rəqiblərimizin neytrallaşdırılması üçün və ictimai fikrin düzgün istiqamətə yönəldilməsi məqsədi ilə bir sıra əks-təbliğat işləri, maarifləndirmə aksiyaları həyata keçirilib, o cümlədən yerli mətbuatda silsilə məqalələr dərc etdirilib.

Bu tədbirlər çərçivəsində Litvanın *www.balsas.lt* xəbər portalında 5 avqust 2013-cü ildə litvalı tarixçi və etnoloq, Litva–Azərbaycan Assosiasiyasının prezidenti İmantas Melyanasın "Əgər diplomat Dağlıq Qarabağa "Arsax" deyirsə, biz də ona diplomat yox, korazehin deməliyik" adlı tənqidi məqaləsi dərc olunub. Məqalə Litva diplomatlarının Ermənistan–Azərbaycan, Qarabağ münaqişəsi barədə apardıqları gizli telefon danışıqları ilə bağlı yaşanan qalmaqallı olaylara, həm Litvanın Macarıstandakı səfiri Renatas Yuşkanın, həm də Litva Xarici işlər nazirliyində çalışan ermənipərəst diplomatların iç üzünün açılmasına, LR Seymində qondarma Dağlıq Qarabağla parlament dostluq qrupunun yaradılması təşəbbüsünü qaldırmış ermənipərəst iş adamları və onların maliyyə dəstəyi ilə fəaliyyət göstərən muzdlu Litva millət vəkillərinin ifşa olunmasına, həmçinin "Arsax" toponimi və "Arsax əyaləti" barədə bilgilərin yayımlanmasına həsr edilib.

Vilnüsün nüfuzlu *"Lietuvos žinios"* qəzetinin 7 avqust 2013-cü il tarixli sayında digər litvalı tarixçi, Litva–Azərbaycan Assosiasiyası İdarə heyətinin üzvü Arvidas Banyulisin "Profilər: peşəkarlar və yaxud naşılar?" başlıqlı məqaləsi dərc olunub. Tarixi səpkidə yazılmış bu məqalədə müəllif SSRİ rəhbərliyi tərəfindən Ermənistan və Litva ərazilərinin müxtəlif yollarla genişləndirilməsinin, Azərbaycan torpaqlarının isə "qayçılanmasının" əsl səbəblərini araşdırıb tarixi paralellər aparır, siyasi nəticələr çıxarır və bundan qaynaqlanan geosiyasi müddəalar əsasında Azərbaycan sərhədlərinin birtərəfli qaydada ermənilərin xeyrinə dəyişdirilməsini təsdiq edən faktları inandırıcı şəkildə Litva ictimaiyyətinə təqdim edir.

"Lietuvos žinios" qəzetinin 9 avqust 2013-cü ildə buraxılmış sayında isə tanınmış ictimai-mədəni xadim, Litva Mədəniyyət nazirinin sabiq müavini, Litva–Azərbaycan Assosiasiyası İdarə heyətinin üzvü Donatas Valançyauskasın siyasi pamflet janrında yazılmış "Barokko dövrü üslubunda əhvalat" adlı əsəri çap olunub. Bu əsərdə ermənipərəst Litva diplomatı Renatas Yuşka Qarabağ münaqişəsi ilə bağlı çıxardığı hoqqalara və orta əsrlərin səlib müharibələri ruhunda açıqladığı fikirlərə görə ictimai qınaq obyektinə çevrilib.

Sonda R. Yuşkanın ermənipərəst fəaliyyəti nəticəsində Litva diplomatiyasına gətirdiyi ləkə üzündən vəzifəsindən istefa verməsi tələbi irəli sürülüb.

Bakı, AR Diasporla iş üzrə Dövlət Komitəsinin saytı, 20 avqust 2013-cü il.

ERMƏNİSTANIN YALAN VƏDLƏRİ BİZİM TƏNQİD HƏDƏFİMİZDƏDİR

Ermənistanın Avropa İttifaqının Şərq partnyorluğu siyasəti çərçivəsində rəsmi Vilnüslə apardığı ikibaşlı siyasət və məkrli oyunlar, onun Aİ-na və Transatlantik təşkilatlara inteqrasiya olunmaqla bağlı verdiyi yalan vədlər, etdiyi imitasiyalar Litvadakı Azərbaycan diasporunun həmişə ifşa obyekti olub və indi də tənqid hədəfi olaraq qalmaqdadır.

2013-cü ildə Litvadakı Azərbaycan diasporunun təbliğat fəaliyyətində bu yöndə görülən işlər xüsusilə geniş miqyas alıb. Ermənistan Parlamentinin başçıları, fraksiya və komissiya sədrləri, həmçinin bir sıra millət vəkilləri, Xarici işlər və Müdafiə nazirliklərinin rəhbərləri, digər dövlət rəsmiləri və çox sayda erməni siyasətçiləri 2013-cü ildə dəfələrlə Vilnüsə rəsmi və işgüzar səfərlər ediblər. Onlar 1 iyul 2013-cü ildən başlayaraq yarım il müddətində Aİ Şurasında sədrlik etməyə hazırlaşan Litva dövlətinin rəhbərliyini – Prezidenti, Seymin sədrini və Baş naziri "tam əmin" etmişdilər ki, Ermənistan Şərq partnyorluğu siyasi layihəsinə qatılmış dövlət başçılarının 2013-cü ilin noyabrında Vilnüsdə keçiriləcək sammitində yüksək səviyyədə iştirak edəcək, hətta bu zaman prezident Serj Sərkisyan Aİ ilə assosiativ üzvlük və azad ticarət barədə sazişlər də paraflayacaq.

Lakin bu ölkənin Rusiyanın başçılığı ilə yaradılan Gömrük ittifaqına daxil olmaq qərarına gəlməsi barədə S. Sərkisyanın 3 sentyabr 2013-cü ildə Kremldə səsləndirdiyi bəyanat hazırda Aİ Şurasında sədrlik edən Litva dövlətinin rəhbərliyi və siyasətçiləri üçün "soyuq duş effekti" yaratdı. Onlar "müstəqil dövlət" kimi çıxış edən Ermənistanın əsl sahibinin Rusiya olduğunu bir daha anladılar və məhz Rusiyanın təhriki ilə Qarabağın Ermənistan tərəfindən işğal edilməsini təsdiq edən faktlarla və geosiyasi amillərlə təkrarən üzləşməli oldular.

Buna baxmayaraq Litvanın bir sıra millət vəkilləri, siyasi şərhçiləri və media vasitələri "məzlum" Ermənistana rəhm və şəfqət hisslərini bəyan etməkdə davam etdir və guya Azərbaycanla Türkiyə arasındakı "sərt türk məngənəsində" sıxışdırılıb əzilən "biçarə" xristian Ermənistanın digər çıxış yolunun qalmaması üzündən Rusiyaya yaxından sığınmasına utanıb-qızarmadan bəraət qazandırırlar.

Litva Azərbaycanlıları Cəmiyyəti və Litva–Azərbaycan Assosiasiyası yaranmış vəziyyəti və yuxarıda göstərilən faktları nəzərə alaraq ölkədə bir sıra təbliğat işləri görüblər. Bu tədbirlər çərçivəsində *"Lietuvos žinios"* qəzetinin

16 sentyabr 2013-cü il tarixli sayında litvalı politoloq və publisist, Litva–Azərbaycan Assosiasiyasının İdarə heyətinin üzvü Aydanas Praleykanın "Ermənistan özünü Rusiyanın ağuşuna atır" adlı analitik məqaləsi dərc olunub.

Göstərilən qəzetin 21 sentyabr 2013-cü il tarixli sayında isə publisist-yazar və ictimai xadim Donatas Valançyauskasın "Ermənistan bic çoşqa kimi iki donuzun südünü əmir?" başlıqlı pamfleti yer alıb. Bu publikasiyalarda Ermənistanın Aİ ilə münasibətləri genişləndirmək baxımından ikiüzlü siyasət yürütməsi, onun müstəqil dövlət yox, əslində Rusiyanın itaətkar satelliti olması, Aİ institutlarına yalan vədlər verməsi, bir çox partnyorlarına arxadan qəfil zərbə vurması, etibarsızlığı üzündən "ipinin üstünə odun yığmağın" mümkün olmaması kimi xüsusiyyətlər, son hadisələr və faktlar əsasında açıqlanaraq şiddətli tənqid atəşinə tutulub.

Göstərilən məqalələrdə həmçinin Ermənistanın Litvadakı havadarları, o cümlədən bəzi dövlət rəsmiləri satirik gülüş və qınaq obyektinə çevrilib. Dövlətlərarası münasibətlərdə hamılıqla qəbul olunmuş beynəlxalq qaydalara riayət etməyən və dinc yanaşı yaşam prinsiplərinə məhəl qoymayan təcavüzkar Ermənistanın Aİ-nın xristian və demokratik dəyərlərinə "qatılması" üçün canfəşanlıq edən "sadəlövh" litvalı xadimlər isə məsxərəyə qoyulub. Düşünürük ki, bu publikasiylar Litva vətəndaş cəmiyyətinin düzgün istiqamətdə maarifləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Sonda qeyd etmək istərdik ki, D. Valançyauskasın "Ermənistan bic çoşqa kimi iki donuzun südünü əmir?" pamfleti Litva Azərbaycanlıları Cəmiyyətinin xəttilə Azərbaycan və rus dillərinə tərcümə edilərək Bakıda "525-ci qəzet"də və *www.day.az* portalında da dərc olunmuşdur.

Bakı, AR Diasporla iş üzrə Dövlət Komitəsinin saytı, 4 oktyabr 2013-cü il.

MOLDOVA OMBUDSMANINA TƏŞƏKKÜR MƏKTUBU

A. Qriqoriu – Moldovanın millət vəkili, ombudsman (2008–2015), Moldova Vəkillər kollegiyasının üzvü.

Litva Azərbaycanlıları Cəmiyyətinin sədri Mahir Həmzəyev və Litva–Azərbaycan Assosiasiyasının prezidenti İmantas Melyanas Moldova Respublikasının ombudsmanı xanım Aurelia Qriqoriuya təşəkkür məktubu göndəriblər. Məktubda deyilir:

"Çox hörmətli Aurelia Qriqoriu, Litva Azərbaycanlıları Cəmiyyəti və Litva–Azərbaycan Assosiasiyası Sizə yüksək ehtiramını ifadə edir və 4 iyul 2013-cü ildə Ermənistan Konstitusiya məhkəməsinin Yerevanda keçirdiyi beynəlxalq konfransdakı çıxışınız zamanı Ermənistanın Azərbaycana qarşı təcavüz edib torpaqlarını işğal etdiyini, insanlığa zidd cinayətlər törətdiyini bəyan etməklə göstərdiyiniz cəsarət və prinsipiallığınıza görə Sizə dərin təşəkkürünü bildirir.

Ümidvarıq ki, Sizin bu ədalətli addımınız hələ də təcavüzkarla bu təcavüzdən zərər çəkəni ayırd edə bilməyən Birləşmiş Millətlər Təşkilatı, Avropa İttifaqi, Avropa Şurası, ATƏT və NATO-nun rəsmiləri, eləcə də bu təşkilatlara üzv olan dövlətlər üçün bir örnək olacaqdır".

Məktubda həmçinin Aurelia Qriqoriunun Litva Azərbaycanlıları Cəmiyyəti və Litva–Azərbaycan Assosiasiyasının fəxri üzvü seçildiyi bildirilir.

Bakı, rəsmi dövlət qəzeti "Azərbaycan", 20 iyul 2013-cü il.

QARABAĞ MÜNAQİŞƏSİ BARƏDƏ KİTABIN TƏQDİMATI

21 noyabr 2013-cü ildə şərqi Avropanın qədim təhsil ocaqlarından biri olan Vilnüs Universiteti kitabxanasının Prantsişkus Smugleviçyus adına zalında hüquq elmləri doktoru Namiq Əliyevin Litva dilinə tərcümə olunmuş "Beynəlxalq hüquq və Dağlıq Qarabağ münaqişəsi" kitabının təqdimatı keçirilib. Kitab Azərbaycanın Litvadakı səfirliyinin təşəbbüsü və dəstəyi ilə nəşr edilib. Əsəri litvalı naşir və publisist Aydanas Praleyka tərcümə edib.

Tədbirdə Litva Seyminin deputatları, ölkənin ictimai xadimləri, KİV nümayəndələri, Universitetin professor-müəllim heyəti, Universitetdə təhsil alan tələbələr və Azərbaycan diasporunun təmsilçiləri iştirak ediblər.

Kitabın təqdimatından görüntülər. Azərbaycanın Litvadakı səfiri Həsən Məmmədzadə tədbirdə çıxış zamanı. Soldan – Vilnüs Universitetinin rektoru, akademik Yuras Banis.

Azərbaycanın Litvadakı səfiri Həsən Məmmədzadə tədbiri giriş sözü ilə açaraq Litva ictimaiyyətində Ermənistanın Azərbaycana qarşı təcavüzü barədə məlumat qıtlığının olduğunu vurğulayıb və kitabın nəşrini olduqca vacib hadisə kimi qiymətləndirib. O, tədbir iştirakçılarına Ermənistan–Azərbaycan, Qarabağ münaqişəsi haqqında ətraflı bilgilər verib.

Daha sonra tədbirdə LR Seyminin deputatı, Litva–Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri Yuras Pojela (1982–2016), Millət vəkili Mantas Adomenas, Vilnüs Universitetinin rektoru, akademik Yuras Banis, Mikolas Romeris adına Universitetin beynəlxalq hüquq kafedrasının dosenti Laurinas Biekşa, litvalı tarixçi və konfliktoloq İmantas Melyanas və Litva Azərbaycanlıları Cəmiyyətinin sədri Mahir Həmzəyev çıxış ediblər.

1. Litva–Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədr müavini M. Adomenas çıxış zamanı. Sağdan birinci – kitabın müəllifi professor Namiq Əliyev. 2. Kitabın təqdimatı keçirilən zalın ümumi görüntüsü.

Çıxış edənlər kitabın elmi-tarixi və edukoloji əhəmiyyətini açıqlayaraq əsərin geniş oxucu auditoriyası üçün, həm də elm və siyasət adamları, o cümlədən diplomatlar üçün maraq kəsb edəcəyini bildirdilər. Natiqlər nəşrin Qarabağ münaqişəsi tarixinin, həmçinin Beynəlxalq ictimaiyyətin bu münaqişədə tutduğu mövqenin öyrənilməsi baxımından da dəyərli mənbə olduğunu vurğuladılar.

Tədbirdə həmçinin kitabın müəllifi, Azərbaycanın Moldovadakı səfiri, professor Namiq Əliyev çıxış edib. O, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsas hüquqi aspektlərini təqdimat iştirakçılarının diqqətinə çatdırıb, münaqişənin tarixi və hazırkı durumu, habelə mümkün tənzimləmə yolları barədə məlumatlar verib.

Vilnüs, 21 noyabr 2013-cü il.

HAZIRKI OLAYLAR İNDİ VƏ YALNIZ UKRAYNADA BAŞLANMAYIB

Rusiya tərəfindən əvvəlcə Ukraynanın bir hissəsinin – Krım yarımadasının anneksiya olunması, sonra isə bu ölkənin cənubi-şərqindəki regionu bütünlüklə qoparıb zorla Rusiyaya birləşdirmək üçün indiyədək aramsız olaraq davam edən cəhdlər, yaradılmış böhran vəziyyəti və faciəli olaylar göstərir ki, Kreml özünün imperialist niyyətlərini reallaşdırmaq naminə xalqlar arasında milli zəmində açıq-açığına ədavət salmaqdan və qatı şovinist əhval-ruhiyyəni qızışdıraraq qanlı qarşıdurma yaratmaqdan çəkinmir. Rusiya başçıları artıq çoxdan yaxşı anlayıblar ki, əsasən onların təhriki ilə yaradılan və böyük fərasətlə idarə edilən etnik münaqişələr bəhanə kimi qonşu dövlətlərin daxili işlərinə müdaxilə etmək üçün çox gözəl bir vasitədir. İndiyədək bu cür bəhanələrə əsaslanıb həyata keçirilmiş müdaxilələr həmin dövlətlərin ərazilərinin "qayçılanması" ilə nəticələnib.

Bu baxımdan belə bir ehtimal vardır ki, Rusiya digər qonşu dövlətlərin torpaqlarını da, o cümlədən Azərbaycan və Litva ərazilərini də eyni məqsədlə hədəfə ala bilər. Nəinki ala bilər, hətta deyərdik ki, hal-hazırda belə bir təhlükəli addımın atılması həm nəzəri, həm də praktiki baxımdan tamamilə real şəkildə mümkünləşib. Çünki bu cür addımlar "ipə-sapa yatmayan" qonşulardan Kremlin "qisas almaq" strategiyasının səciyyəvi və kinli əlamətlərindən biridir. Biz İmperiyanın kənarlarında yaşayan xalqların hələ 1988-ci ildə müstəqilliyə qovuşmaq üçün cəhdlər göstərdikləri vaxt bunun şahidi olmuşuq. Odur ki, hazırkı qanlı olaylar məhz indi və yalnız Ukraynada başlanmayıb...

İndiki olayların məzmun və istiqamətini qabaqlar SSRİ-nin bəzi respublikalarının sovet imperiyası məngənəsindən azadlığa qurtulmaq istədiyi zaman rəsmi Moskvanın ayrı-ayrı xalqları qəsdən bir-birilə toqquşdurub gərginlik yaratmaq siyasəti, həmin respublikalarda guya "daxili səbəblərdən törəmiş" və "təbii şəkildə əmələ gəlib üzə çıxmış" separatçılığa mərkəzdən dəstək verib şövqləndirmək hərəkətləri çox gözəl izah edir. Buna aid misallar kifayət qədərdir: Qarabağ, Dnestryanı bölgə, Abxaziya və Cənubi Osetiya (Acarıstan və Qaqauziyada da vaxtında belə təşəbbüslər edilibdir), indi isə Krım və Ukraynanın cənubi-şərq bölgəsi.

Analoji model o vaxtlar Litvada da sınaqdan keçirildi. Xatırlamaq istərdik ki, 1988–1991-ci illərdə Litvanın cənubi-şərq ərazilərində baş qaldırmış pol-

yak "muxtariyyatçıları", bəzilərinin düşündükləri kimi Varşavadan yox, məhz hər yolla Moskvadan qızışdırılırdılar. Amma, o vaxtlar "separatçıların" fəaliyyət göstərdiyi ərazilər indi Ukraynanın Krım yarımadası ilə baş vermiş halda olduğu kimi açıq-açığına ilhaq olunmurdu. Belə ki, "müstəqil əyalətlər" onda ya birbaşa Rusiyanın protektoratı altına düşürdü, ya da qondarma Dağlıq Qarabağ respublikası ilə bağlı halda olduğu kimi, guya heç kəsdən asılı olmadan öz təşəbbüsü ilə hərəkət edən, əslində isə sahibi Rusiyaya köpək kimi sadiq olmaq qarşılığında qonşu dövlətin əlinə keçirdi. İndi isə açıq-açığına birbaşa anneksiya etmək addımları atılır. Yəni, təcavüskar siyasətin icrası daha da tezləşdirilib.

Buna görə də İmperiya tərkibindən qurtulmaq istəyən ölkələrə qarşı onları İmperiyada saxlamaq məqsədi ilə Mərkəz tərəfindən tətbiq edilən mexanizmi bütün təfərrüatı ilə başa düşmək indi də çox vacib əhəmiyyət kəsb edir. SSRİ-dən ayrılmaq istəyən İttifaq respublikaları (Mərkəzin işlətdiyi terminlə desək, "separatçı" respublikalar) və eləcə də muxtar respublikalar (məsələn, Tatarıstan və yaxud Çeçenistan) belə niyyətlərinə görə dərhal cavab zərbəsinə məruz qalırdılar. Bu zaman həmin ölkələrdə yaşayan milli azlıqlardan ibarət "mikroseparatçılar" təşkilatlanırdılar. Daha dəqiq desək, bu təşkilatlanma "yuxarıların" göstərişi və dəstəyi ilə həyata keçirilirdi. "Mikroseparatçı" dəstələrin özəyi isə əsasən Sov. İKP aktivindən və DTK-nın inanılmış şəxslərindən yaradılırdı.

Hansı İttifaq respublikaların tərkibində milli-ərazi və yaxud etnik-ərazi prinsipləri əsasında yaradılmış muxtar əyalətlər vardısa, Moskva həmin muxtar qurumların "xidmətlərindən" böyük fərasətlə istifadə edirdi. Azərbaycanda "bu vəzifəni" cırtdan inzibati qurum – 1923-cü ildə Mərkəzin təşəbbüsü ilə yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) yerinə yetirdi. Belə ki, DQMV 1988-ci ilin fevral ayında Azərbaycandan ayrılması barədə bəyanat verdi (əslində Dağlıq Qarabağda erməni separatizmi 1988-ci ilin fevralında yerli qanunverici orqanın "müstəqillik" barədə qərarı ilə yox, daha əvvəl başlamışdı. Bu separatizmi Moskvada yüksək partiya və hökumət vəzifələrində işləyən ermənilər də qızışdırırdılar).

Qonşu Gürcüstanda isə bu rolu başqa cırtdan qurum – 1922-ci ildə burada qurulmuş Cənubi Osetiya Muxtar Vilayəti icra etdi; bu vilayət 1989-cu ilin noyabr ayında Gürcüstandan ayrılmaq barədə qərar qəbul etdi. Ancaq bununla burada işlər bitmədi. Gürcüstanın tərkibində 1921-ci ildə təşkil olunmuş daha iki muxtar respublika – Abxaziya Muxtar Respublikası (1989-cu ilin mart ayında "müstəqillik" barədə bəyanat qəbul etdi) və Acarıstan Muxtar Respublikası (1991-ci ildə burada hakimiyyət başına Aslan Abaşidze klanı gəldikdən sonra bu muxtar respublika da tədricən Gürcüstandan uzaqlaşmağa başladı. Lakin, bu separatist sürüşmənin qarşısı 2004-cü ildə Gürcüstan prezidenti Mixail Saakaşvilinin qətiyyətli hərəkətləri sayəsində alındı) rəsmi Moskvanın onlara burada ayırdığı rolların icraçısı oldular.

Hərgah, müstəqilliyə qovuşmaq istəyən ittifaq respublikaların tərkibində muxtar qurumlar yox idisə, onda Mərkəz bu cür inzibati vahidləri burada təcili surətdə yaradırdı və demək olar ki, dərhal da onları həmin ittifaq respublikasının tabeliyindən çıxardırdı. O vaxtlar bu məqsədlə yaradılmış iki yeni "Sovet Sosialist Respublikası"nı misal göstərmək olar: 1990-cı ilin avqust ayında Moldova ərazisində Qaqauziya SSR və həmin ilin sentyabrın 2-də isə Dnestryanı Moldova SSR yaradıldı.

1990-cı ildə Moldovada yeni "suveren sovet respublikalarının" qurulmasından cəmi dörd gün sonra Litvada da buna bənzər inzibati vahid – Vilnüs diyarı polyaklarının milli muxtariyyat ərazisi yaradıldı. Lakin bu ərazi qurumu 11 mart 1990-cı ildə müstəqilliyini bərpa etmiş Litva dövlətinin tərkibində yox, – artıq o vaxt mövcud olmayan Litva SSR çərçivəsində təşkil edildi.

Daha sonra – 1991-ci ilin yanvar ayında Ukraynanın Krım əyalətində Krım MSSR-nin yaradılması barədə qərar qəbul edildi. Lakin bu "respublika" etnik maraqların təmsil olunması baxımından 1921 – 1946-cı illərdə burada mövcud olmuş Krım tatarları muxtar qurumunun *(Krım tatarcası: Qrım Muhtar Sotsialist* Şuralar *Cumhuriyyeti)* bərpa edilməsi şəklində yox, məhz bu yarımadada yaşayan ruslar üçün nəzərdə tutulub təsis edildi.

Bununla yanaşı, göstərilən misallar o demək deyildir ki, DTK təxribatçıları tərkibində muxtar ərazi vahidləri yaradılmamış ittifaq respublikalarında xalqlar arasında milli zəmində ədavət salıb münaqişəni alovlandırmırdılar. Bu fikri əsaslandırmaq üçün, XX əsrin 80-ci illərinin sonunda Baltikyanı ölkələrin müstəqilliyi uğrunda mübarizəyə qalxmış Estoniya, Litva və Latviya milli-azadlıq hərəkatlarına (xalq cəbhələrinə) qarşı əks fəaliyyət göstərmək üçün Kremlin

göstərişi ilə 1988-ci ildə Tallində, Riqada və Vilnüsdə yerli şovinist rusların və ruspərəst qüvvələrin iştirakı ilə yaradılmış "interfrontları" – mürtəce rus təşkilatlarını, 1989-cu ilin iyununda Özbəkistanın Fərqanə vadisində DTK-nın əli ilə özbəklər tərəfindən ahısqa (məhsəti) türklərinə qarşı həyata keçirilmiş talan və qırğınları, 1992-ci ilin oktyabr-noyabr aylarında osetinlərlə inquşlar arasında etnosiyasi zəmində baş vermiş silahlı qarşıdurmanı, 13–16 iyun 2010-cu ildə Qırğızıstanın Cəlalabad və Oş vilayətlərində qırğızlarla özbəklər arasında etnik qarşıdurma nəticəsində baş vermiş toqquşmaları, Qazaxıstanın şimal əyalətlərində və o cümlədən Janaozen şəhərində 2011-ci ilin dekabrında vaqe olmuş kütləvi iğtişaşları, Estoniyada və Latviyada rus əhalisinin və eləcə də rusdilli qeyri-eston və qeyri-latış xalqlarının əksəriyyət təşkil etdikləri şərq rayonlarında etnik qarşıdurmalar və daxili çaxnaşmalar yaratmaq üçün rəsmi Moskvanın son illər ərzində apardığı ciddi əlləşmələri xatırlatmaq olardı.

Burada həmçinin Estoniya ilə bağlı daha bir faktı qeyd etmək yerinə düşərdi ki, hələ 1991-ci ilin iyul ayında Kremlin təhriki ilə Estoniyanın rusdilli Narva, Kohtla-Yarve və Sillamye şəhərlərinin icra hakimiyyəti strukturları tərəfindən ölkənin Fin körfəzi və Rusiya ilə həmsərhəd olan şimal-şərq bölgəsində (əsasən İda-Virumaa vilayəti əsasında) Narvayanı SSR-nin yaradılması təklifi irəli sürülmüşdü (təbii ki, sonradan bu "suveren respublikanın" RSFSR-in tərkibinə qatılması nəzərdə tutulmuşdu). Lakin, o zaman rəsmi Tallin bu cür "təşəbbüsə" olduqca sərt münasibət bildirdi və operativ hərəkət edərək bir sıra siyasi və əks təşkilati tədbirlər həyata keçirdi. Bununla yanaşı, 18 avqust 1991-ci ildə SSRİ-də Dövlət fövqəladə vəziyyəti komitəsinin (rusca: *ГКЧП*) yaradılması və bir neçə gündən sonra bunun dövlət çevrilişi kimi dəyərləndirilməsi ilə bağlı olaylar qondarma Narvayanı SSR-nin təsis edilməsi planını o zaman tamamilə pozdu.

Təəssüflər olsun ki, burada göstərilən həqiqi hadisələr yalnız ötmüş tarixə aid olan faktlar olaraq qalmır. Belə ki, Beynəlxalq Kollektiv Təhlükəsizlik Sistemini həyasızcasına dağıdan təcavüzkar dövlətin irticaçı qüvvələri və onun yerli lakeyləri hələ ki, Azərbaycanın Qarabağ bölgəsindən, Gürcüstanın Suxumi və Sxinvali əyalətlərindən, həmçinin Moldovanın Dnestryanı ərazilərindən çıxıb rədd olmayıblar. Nəinki rədd olmayıblar, bunun əvəzinə Rusiya yaxın zamanlarda təcavüzü daha da genişləndirib "Dnestryanı respublikanı" da özünün ikibaşlı qartalının (bəli, belə bir qəribə yırtıcı quş növü mövcuddur) qanadları altına almaq əzmindədir. Hələ bunlar az imiş kimi, yuxarıda göstərilən acınacaqlı olayların siyahısına Ukraynanın Krım əyalətinin ilhaq edilməsi faktı da əlavə olundu. Bununla bərabər, hazırda Ukraynanın cənubi-şərq ərazilərinin

üstünü də ciddi təhlükə almışdır, burada günahsız insan qanlarının tökülməsinə baxmayaraq nə Rusiya hakimiyyəti, nə də onun bura göndərdiyi diversantlar və yerli irticaçı nökərlər heç cür sakitləşmək istəmirlər.

Bu yerdə yalnız baş vermiş məlum faktlar barədə yox, həm də Kreml "strateqlərinin" kabinetlərində düşünülüb ortaya qoyulan mürtəce ideyalar və bu ideyaların həyata keçirilməsi ilə bağlı gələcəkdə baş verə biləcək real təhlükələr haqqında da danışmaq lazım gəlir. Çünki, qorxulu infeksiya kimi yayılmaqda olan o ideya və niyyətlərə qarşı adekvat siyasi və iqtisadi tədbirlər görülməzsə, onda demək olar ki, bir çox dünya ölkələrinin və ilk növbədə Rusiya ilə qonşu dövlətlərin başının üstünü ağır fəlakətlər ala bilər. Və bu baxımdan ilk öncə Vladimir Putin rejiminin "Avrasiya İttifaqı" doktrinasını nəzərdən keçirmək yerinə düşərdi.

Bu doktrinanın gerçəkləşdirilməsinin siyasi-təşkilati istiqamətlərindən biri bundan ibarətdir ki, qurulması yaxın gələcəkdə nəzərdə tutulmuş Avrasiya İttifaqına (bu qurumun embrionu hazırki Gömrük İttifaqıdır) Avropa və Asiya qitələrindən mümkün qədər çox sayda dövlətlər sürünüb salınsın. Lakin, birinci növbədə o dövlətlər ki, əvvəllər nə vaxtsa ya Rusiya imperiyasına, ya da SSRİ-yə mənsub olublar. Əgər, belə namizəd dövlət artıq kifayət qədər *"domestifikasiya"* olunubsa və bir o qədər də müqavimət göstərmirsə, onda həmin dövlət gələcək Avrasiya İttifaqına gərəkli normaya çatdırılmış şəkildə, – necə deyərlər, tamamilə "komplektləşdirilmiş" formada daxil olur. Məsələn, Ermənistan, Qazaxıstan və yaxud Belarus respublikaları kimi. Yox, əgər belə deyildirsə, onda "inadcıl" dövlətlərin tərkibindəki hansısa muxtar qurum və yaxud hər hansı bir milli azlığın, ya da etnolinqvistik qrupun yığcam yaşadığı region gələcək *"Soyuza"* girmək barədə dərhal qərar qəbul edir. Şübhəsiz ki, həmin muxtar əyalət və ya etnolinqvistik region əvvəlcə müstəqillik barədə bəyannamə qəbul edir, sonra isə gələcək Avrasiya İttifaqına (bu İttifaqın, SSRİ-nin bərpa olunaraq zahirən az-maz yeniləşdirilmiş analoqu olmasını başa düşmək çətin deyildir) və yaxud Rusiya Federasiyasının tərkibinə qəbul olunması barədə "böyük ruh yüksəkliyi ilə" müraciət ünvanlayır. Qondarma "Dağlıq Qarabağ respublikası"nın isə Avrasiya İttifaqı tələsinə düşməsindən öncə, onun bu yolda aralıq dayanacağı olaraq Rusiyanın özünə yox, Kremlin vassalı olan Ermənistana aid edilməsi ehtimalı vardır.

Məhz belə bir model lap yaxınlarda Krımda tətbiq edildi. Maraqlıdır ki, Avropada kommunist sisteminin çökməsindən sonra yalnız üç Avropa dövləti – Rusiya, Ermənistan və Serbiya öz coğrafi xəritələrini qonşularının hesabına "genişləndirmək" fikrinə düşüblər. Serbiya onun üçün təyin olunmuş "şok terapiyası" seansını keçirdikdən sonra, göründüyü kimi, hazırda sağalmağa doğru gedir. Rusiya və Ermənistanı isə bu hal hələ gələcəkdə gözləyir...

Yuxarıda çəkdiyimiz misallar heç də göstərilən dövlətlərdə məskunlaşmış milli azlıqların zənn edilən qeyri-loyallığını qeyd etmək üçün nəzərdə tutulmayıb. Biz sadəcə olaraq demək istəyirik ki, milli hisslər tez duyğulanan və tez sınan hisslərdir. Və olduqca neqativ hal ondan ibarətdir ki, bəzən bu hisslərlə oynamaq istəyən daxili və xarici qüvvələr meydana gəlir. Indiyədək biz etnik münasibətlər zəminində yalnız xaricdən yaradılan təhlükələr barədə, – ilk növbədə Rusiyanın törətdiyi təhlükələr haqqında danışdıq. Lakin, belə bir təhlükə hər zaman dövlətlərin daxilində də baş qaldıra bilər. Və heç də unutmaq lazım deyil ki, Orta və Şərqi Avropanın postkommunist ölkərindəki vətəndaş cəmiyyətlərinin kamillik dərəcəsi inkişaf etmiş Qərbi Avropa dövlətlərindəki cəmiyyətlərin nail olduqları yetkinlik səviyyəsinə hələ çatmayıb. Bunun üçün bir qədər vaxt və eləcə də böyük hövsələ gərəkdir. Bunu eynilə etniklərarası münasibətlərin ahəngləşdirilməsi haqqında da demək lazımdır. Belə ki, həm Litvada və Polşada, həm də Macarıstanda, Azərbaycanda və Ukraynada, eləcə də bir sıra digər postsovet ölkələrində hazırda kifayət qədər ksenofobiya halları mövcuddur, qonşu və yaxud uzaq xalqlar barədə burada müxtəlif stereotiplər gəzib dolanır. Bu, həm milli çoxluqların, həm də azlıqların təmsilçilərinə xas olan təzahürdür (bu baxımdan hamımız bir-birimizdən çox az fərqlənirik və ya bir-birimizə çox bənzəyirik).

Milli azlıqlar barədə stereotiplərin geniş yayıldığı əsas məkan tarixdir. Məsələn, litvalıların və polyakların böyük qismi Böyük Litva Knyazlığı və Polşa Krallığı arasında 1 iyul 1569-cu ildə Lyublin şəhərində imzalanmış İttifaq (Uniya) müqaviləsi barədə anlatma və izahları qətiyyən eyni cür qəbul etmirlər. Onlar həmçinin, XX əsr ərzində bir neçə dəfə Vilnüs şəhərinin hansı dövlətə mənsub olması ilə bağlı baş vermiş dəyişilmələri də fərqli surətdə dəyərləndirirlər. Litvalıların Litva yəhudiləri ilə keçmiş münasibətləri məsələsinə gəldikdə isə, qeyd olunmalıdır ki, Almaniyanın SSRİ-yə hücum etməsindən dərhal sonra, 22–28 iyun 1941-ci ildə Kaunasda sovetlərə qarşı başlanmış üsyanı, litvalıların Litva dövlətini bərpa etmək səylərini və o zaman onların yaratdıqları Müvəqqəti Litva hökumətinin yerli yəhudi vətəndaşlara qarşı həyata keçirdiyi aksiyaları dəyər vermək baxımından litvalılar və yəhudilər arasında indi də kifayət qədər böyük fikir ayrılığı vardır.

Tarixdə belə misallar çoxdur və şübhəsiz ki, arzu olunan halda onların siyahısını davam etdirmək olardı. Lakin, əgər qondarma misallarla doldurulub "zənginləşdirilmiş" tarixin səhifələrini müxtəlif miflərdən "təmizləyib" saflaşdırmaq mümkün olsaydı, onda fərqli mövqelərin bir-birinə yaxınlaşması və münasibətlərdə antaqonizmin nəzərə çarpacaq dərəcədə azalması istiqamətində

işıqlı bir ümid yaranmış olardı. Hərçənd ki, bunun üçün müntəzəm olaraq tərbiyəvi və maarifləndirmə işləri aparılmalıdır. Ən vacibi odur ki, milli mənsubiyyətindən peşə kimi istifadə edən və yaxud onu öz biznesinə çevirən bəzi üzdəniraq xadimlərə xalqları milli zəmində qızışdırıb bir-birinin üstünə salmaq üçün yol vermək lazım deyildir. Belə xadimlər isə, qeyd etdiyimiz kimi, həm milli çoxluqların, həm də milli azlıqların arasında vardır. Odur ki, bu və ya digər bir etnik qrupu süni şəkildə iblisləşdirmək lazım deyildir və bunun üçün heç bir lüzum yoxdur.

Lakin, bu məsələdə xalqları onların yaşadıqları dövlətlərin atdığı bəzi addımlarla da eyniləşdirmək olmaz. Elə dövlətlər, daha dəqiq desək dövlətləri idarə edən rejimlər vardır ki, xalqın və o cümlədən xaricdə yaşayan həmvətənlərin milli hisslərindən sui-istifadə edirlər, etnik duyğuları qəsdən qeyri-konstruktiv məqsədlərlə indoktrinasiya edirlər. Bu baxımdan həm Litva, həm də Azərbaycan üçün ən böyük təhlükəni Rusiya və onun əlaltısı olan satellit ölkələr yaradır. Məlum olduğu kimi, Rusiya prezidenti Vladimir Putin öz fəaliyyətində dövlət siyasətinin mühüm tərkib hissəsi olaraq "Avrasiya İttifaqı" ideologiyasına əsaslanır. Bu ideologiyanın yeniləşdirilmiş versiyasının yaradıcısı olan Aleksandr Duqin isə dəfələrlə yazmışdır ki, Rusiya Litvada polyaklarla litvalıların arasında mövcud olan ixtilaflardan hər bir üsulla öz xeyrinə istifadə etməyi özünə həmişə borc bilməlidir. Təəssüflər olsun ki, Litvada indiyədək çoxları bunu başa düşmürlər.

Həmin "avrasiyaçı" qüvvələr Qarabağı Azərbaycandan qopardıqdan sonra hələ bununla kifayətlənməyiblər. Belə ki, hal-hazırda onların Rusiyada və Ermənistanda fəaliyyət göstərən təbliğat və təxribat mərkəzləri Azərbaycanın Dağıstanla və İranla həmsərhəd olan rayonlarının ərazilərni *setsesiya* etmək ssenarisinin gerçəkləşdirilməsi üzərində mütəmadi və yorulmadan iş aparırlar. "Avrasiyaçılar" bu məqsədlə həmin ərazilərdə guya müstəqil ləzgi və talış cırtdan dövlətlərinin yaradılması planlarını müntəzəm olaraq irəli sürürlər ki, sonra həmin "müstəqil dövlət qırıqlarını" Rusiyanın və yaxud Avrasiya İttifaqının (hərçənd ki, bunların hər ikisi eyni şeydir) tərkibinə inkorporasiya etsinlər. Ümidvaram ki, müxtəlif etnolinqvistik qruplara və millətlərə aid olaraq Azərbaycanda məskunlaşmış qədim həmvətənlərim İblisin bu şirniklendirici təkliflərinə aldanmayıb onun qabağında dura biləcəklər.

İblis əməllərini və onun şirnikdirici təkliflərini mən elə-belə yada salmadım. Belə ki, onun belə hərəkətlərinin bəzi nəticələri hal-hazırda Litvada apaydın göz qabağındadır. 1988-ci ildən indiyədək Litvanın milli azlıqlar siyasətində bilavasitə iştirak edən və 2009–2012-ci illərdə Litva Milli İcmalar Surasının

sədri olmuş bir şəxs olaraq tam təsdiq edə bilərəm ki, son 15 il ərzində Rusiyanın Litvadakı səfirliyi (aydındır ki, təkcə səfirliyi yox) demək olar ki, burada fəaliyyət göstərən bütün rus ictimai təşkilatlarını Rusiyanın imperiya maraqlarının təsir dairəsinə salmağa və tam ələ almağa müvəffəq olub. Bu, həmçinin onunla təsdiq olunur ki, Litva rusları artıq çoxdandır ki, etnik vətənləri Rusiyanın İçkeriyaya, Gürcüstana və ya Ukraynaya qarşı törətdiyi təcavüzkarlığa qarşı heç bir tərzlə etiraz edib səslərini qaldırmırlar. Litva *Sąjūdis* Seyminin sabiq üzvü olaraq yaxşı xatırlayıram ki, Litva xalq hərəkatının ən fəal dövründə – 1988–1991-ci illərdə Litva ruslarının nəzərəçarpan qisminin SSRİ-nin imperiya siyasətinə qarşı baxışları tamam başqa cür idi.

Ancaq, bu heç də o demək deyildir ki, biz özümüz daxildə etnik azlıqlar siyasətini yararlı surətdə formalaşdırıb həyata keçirmək baxımından hər şeyi düzgün edirik. Və etnik siyasətə aid bütün məsələləri qarışdırıb xaos yaradanlar da guya yalnız xarici ziyankar qüvvələrdən və yaxud daxili yaramazlardan ibarətdir. Doğrudur, hansısa ziyankar qüvvələr və yaxud yaramaz ünsürlər həqiqətən də mövcuddur, onlar həqiqətən də indi dağıdıcı fəaliyyət göstərirlər və bundan sonra da göstərəcəklər. Amma məsələ burasındadır ki, Litvanın öz daxilində xeyli sayda bizim hələ də tamamlaya bilmədiyimiz "ev işləri" vardır. Bu baxımdan ilk növbədə konstatasiya etmək lazımdır ki, hazırda Litva dövlətində vahid etnik siyasət yoxdur. Litvanın aidiyyatı olan ayrı-ayrı dövlət və hökumət institusiyaları çağdaş dövrdə öz aralarında razılaşdırılmamış və müddəaları bir-birindən gözəçarpan dərəcədə fərqlənən etnik siyasət aparırlar. Ümumiyyətlə, vahid etnik siyasət indiki vəziyyətdə ortaya necə qoyula bilər ki? Axı artıq beş ilə yaxındır ki, Litvada bu siyasəti formalaşdıran və həyata keçirən xüsusi dövlət qurumu – Litva Respublikası Hökuməti yanında Milli Azlıqlar və Emiqrasiya Departamenti ləğv edilib. Bununla yanaşı, hələ 1989-cu ildə qəbul edilmiş Litva Milli Azlıqlar haqqında Qanunun qüvvədə olma müddəti də 2010-cu ildə uzadılmayıb.

Bir sözlə, biz hamımız həm özümüzün, həm də özgələrin buraxdığı səhvlərdən nəticə çıxarmalı, ibrət dərsləri götürməli və elə işləməliyik ki, Litva və Azərbaycan daha heç bir zaman Rusiya təcavüzünə məruz qalan zərərdidə dövlətləri siyahısına düşməsin.

Vilnüs, www.delfi.lt xəbər portalı, 8 may 2014-cü il.
Bakı, "525-ci qəzet", 30 may 2014-cü il, № 94.
Bakı, www.davam.az xəbərlər portalı, 3 iyun 2014-cü il.

LİTVA DEPUTATININ ANTİAZƏRBAYCAN FƏALİYYƏTİ YOLVERİLMƏZDİR

2014-cü il sentyabrın ilk günlərində LR Seyminin deputatı Dalya Kuodite və Litvadan olan digər şəxslər əvvəlcə Ermənistana, oradan isə qondarma Dağlıq Qarabağ Respublikasına qeyri-qanuni səfər ediblər.

"Erməni soyqırımının" Litvadakı "peşəkar bilicisi" və təbliğatçısı

Bu səfərə çıxmış şəxlərin geniş Azərbaycan ictimaiyyəti tərəfindən kifayət qədər tanınmadıqlarını nəzərə alaraq, öncə, onların ictimai-siyasi fəaliyyətinə aid bəzi təfsilatları açıqlamağa ehtiyac duyuruq. Qeyd edək ki, Dalya Kuodite 21 yanvar 1962-ci ildə Kaunas şəhərində anadan olub. 1987-ci ildə Vilnüs Dövlət Universitetinin tarix fakültəsini bitirib. 1997–2008-ci illərdə Litva əhalisinin soyqırımını və müqavimət hərakatını araşdırma Mərkəzinin baş direktoru olaraq dövlət qulluğunda çalışıb. Məhz bu vəzifəni icra edərkən D. Kuodite qondarma erməni soyqırımı barədə "tarixi bilgilərin" Litvada yayımlanması və ictimaiyyətin "maarifləndirilməsi" istiqamətində bir sıra işlər görüb, həmçinin 2005-ci ilin dekabrında Litva Seymi tərəfindən "Osmanlı Türkiyəsində törədilmiş erməni soyqırımı barədə" Rezolyusiyanın qəbul olunması üçün „töhfələr" verib. 2008-ci ildən böyük siyasətdə bilavasitə iştirak edir. Belə ki, həmin ildən indiyədək iki dəfə Seymə deputat seçilib. D. Kuodite 2 dekabr 2009-cu ildən Seymin Litva–Ermənistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun fəal təmsilçisidir. O, 2008–2012-ci illərdə Litva Seyminin AŞPA-dakı nümayəndə heyətinin üzvü olub. 27 yanvar 2011-ci ildə AŞPA-da müxtəlif ölkələrin 28 nəfər millət vəkili tərəfindən "Dağlıq Qarabağ Respublikasında demokratik dövlət quruculuğu" başlığı altında qəbul edilmiş Deklarasiyaya Seymin adından imza atmış litvalı siyasətçidir. D. Kuodite Parlamentin Litva liberallar hərəkatı partiyası fraksiyasına daxildir və 20 noyabr 2012-ci ildən Seymdə İnsan hüquqları komitəsinin üzvü kimi çalışır. 2013-cü ilin martında Seymdə 12 nəfər millət vəkili tərəfindən yaradılmış "Dağlıq Qarabağla parlament dostluq qrupu"nun həmtəsisçisi və sədridir.

Litvada ermənipərəst qüvvələrə züytutan Baş redaktor

Qondarma Dağlıq Qarabağ Respublikasına D. Kuodite ilə birgə Ermənistanın Litvadakı səfiri Ara Ayvazyan, həmçinin Litvanın populyar *www.15min.lt* xəbər portalının Baş redaktoru, 1990–1992-ci illərdə Litva Seyminin üzvü

olmuş istiqlalçı deputat, siyasi şəhrçi və tanınmış publisist Rimvidas Valatka da səfər edib.

R. Valatka 19 dekabr 1956-cı ildə RSFSR-in İrkutsk vilayətinin İrkutsk rayonunda yerləşən Şamanka kəndində anadan olub. 1975-ci ildə Litvanın Palanga kurort şəhərində orta məktəbi bitirib. İxtisasca tarixçidir. Vilnüs Dövlət pedaqoji institunun məzunudur (1980). O, həm də təcrübəli jurnalist və naşirdir. Sovet dönəmində bir sıra qəzetlərdə, o cümlədən 1983–1987-ci illərdə Litva KP MK, Litva SSR Ali Soveti və Litva SSR Nazirlər Sovetinin *"Tiesa"* qəzetinin informasiya şöbəsində müxbir işləyib, 1987–1990-cı illərdə Litvanın Xaricdəki soydaşlarla mədəni əlaqələr üzrə *"Tėviškė"* Cəmiyyətinin mətbu orqanı olan *"Gimtasis kraštas"* həftəliyində Baş redaktorun müavini vəzifəsində çalışıb. Litvada müstəqilliyin bərpasından sonra – 1990–1991-ci illərdə *"Atgimimas"* həftəliyində Baş redaktor, 1992–2012-ci illərdə isə ən çoxtirajlı *"Lietuvos rytas"* respublika qəzetinin Baş redaktor müavini və eyni zamanda *www.lrytas.lt* internet portalının redaktoru olaraq fəaliyyət göstərib. 2012-ci ildən başlayaraq *www.15min.lt* xəbər portalının Baş redaktorudur. Bu portalda Azərbaycan dövlətinin beynəlxalq imicini aşağılamaq istiqamətində və eləcə də ərazi bütövlüyünə əks məzmunda yazılmış bir sıra publikasiyalar dərc etdirib.

Səxavətli erməni sponsoru

Bu qrupun tərkibində səfərin əsas sponsoru olan Litva erməni diasporunun təmsilçisi, özünü işbaz kimi qələmə verən Armen Ayrapetyan da olub. A. Ayrapetyan Dağlıq Qarabağ ermənisidir və 25 ildən artıqdır ki, Litvada yaşayır.

Qeyd etmək vacibdir ki, A. Ayrapetyanın atası Eduard Xristoforoviç Ayrapetyan Dağlıq Qarabağ Muxtar Vilayəti avtomobil müfəttişliyi idarəsində rəhbər vəzifədə çalışıb. Əmisi Robert Xristoforoviç Ayrapetyan ixtisasca hüquqşünasdır. O, 1950-ci ildə Dağlıq Qarabağın Hadrut rayonunda doğulub. 1973-cü ildə Yerevan Dövlət Universitetinin hüquq fakültəsini bitirib. 1991–1993-cü illərdə "Dağlıq Qarabağ respublikasının" Baş prokuroru vəzifəsini icra edib. 1993-cü ildə "DQR" Ali məhkəməsi sədrinin müavini seçilib. 1994-cü ildən etibarən "DQR" Prezident aparatında hüquq xidmətinin rəisi olub. 1997-ci ildə "DQR" Dövlət ədliyyə idarəsinin rəisi vəzifəsinə təyin olunub. 20 fevral 2004-cü ildə isə "DQR" prezidenti Arkadi Qukasyanın sərəncamı ilə "DQR" Ədliyyə naziri təyin edilib.

R. Ayrapetyan ədliyyə generalıdır. O, Litvadan gələn "vacib qonaqların" gərəkli səviyyədə qəbul edilməsində yaxından iştirak edir və belə qeyri-qanuni səfərlərə hərtərəfli dəstək verir.

Armen Ayrapetyan da ixtisasca hüquqşünasdır. 1998-ci ildə Vilnüs Universitetinin hüquq fakültəsini bitirib. Daşınmaz əmlak hüququ, əmlak müqavilələri və tikinti məsələləri üzrə sazişlərin bağlanması sahəsində ixtisaslaşıb. 2004–2009-cu illərdə vəkil yardımçısı, 2009-cu ildən etibarən isə Vilnüs şəhərində vəkil olaraq çalışır. Həm də Litvada fəaliyyət göstərən *"Mabilta"* QSC-nin Baş direktorudur. 2012-ci ilin sentyabrında Litva Respublikası Seymində yaradılmış Litva–Ermənistan Forumunun əlaqələndiricisidir. Eyni zamanda Litvanın dövlət büdcəsindən maliyyələşən İctimai radio və televiziya şirkətində Hüquq və vəkalət şöbəsinin müdiri işləyir.

Yuxarıda D. Kuoditenin fəaliyyəti barədə təqdim etdiyimiz qısa məlumatlardan göründüyü kimi, bu Litva millət vəkilinin "Dağlıq Qarabağ Respublikası"na səfəri heç də təsadüfü xarakter daşımır. D. Kuodite orada nə Qafqazla bağlı tarixi bilgilərə malik olmaması və real Qarabağ həqiqətlərini bilməməsi üzündən, nə də sadə bir naşılıq və siyasi avamlıq nəticəsində peyda olmayıb...

Litva Azərbaycanlıları Cəmiyyəti göstərilən faktlarla bağlı 3 sentyabr 2014-cü ildə Litva prezidenti Dalya Gribauskayteyə və Seymin sədri Loreta Graujinieneyə müraciət edərək Litva millət vəkili D. Kuoditenin antiazərbaycan fəaliyyətinə siyasi qiymətin verilməsini istəyib.

Mahir Həmzəyevin Litvanın dövlət başçısına müraciəti

Zati-Aliləri xanım prezident Dalya Gribauskayte!

Litva Azərbaycanlıları Cəmiyyəti adından Sizə Litva Respublikasının xarici siyasət kursunu formalaşdıran, həmin siyasi kursun məntiqi ardıcıllıqla və davamlı şəkildə həyata keçirilməsinin zəmanəti olan dövlət başçısı kimi müraciət edirəm.

Hazırda Ukraynada davam etməkdə olan faciəli olaylar kontekstində bu ölkənin ərazi bütövlüyünü dəstəkləmək, getdikcə təcavüzkarlığı artan Rusiyanın öz "oyun qaydalarını" zorla Ukraynaya qəbul etdirməsinə yol verməmək, "Donetsk və Luhansk xalq respublikaları" adlanan qondarma separatçı qurumları heç bir vəchlə tanımamaq baxımından Sizin ardıcıl olaraq yürütdüyünüz qətiyyətli siyasət indi xüsusilə böyük əhəmiyyət kəsb edir.

Litva təcavüzə məruz qalmış Ukrayna ilə bərabər, eyni yolla Rusiyadan "idxal edilmiş separatizmdən" zərər görmüş digər dövlətlərin – Azərbaycan, Gürcüstan və Moldovanın da ərazi bütövlüyünü indiyə qədər davamlı surətdə tanıyıb və məntiqi ardıcıllıqla dəstəkləyib.

Təəssüf ki, bu baxımdan Sizin diqqətinizi indi dövlətimizin xarici siyasətini diskreditasiya edən, onun məntiqi ardıcıllığını pozan və hətta deyərdim ki,

"alternativ" Litva xarici siyasəti haqqında danışmaq üçün qarşı tərəfə imkan yaradan bəzi fitnəkar Litva siyasətçilərinin məsuliyyətsiz və təxribatçı əməllərinə cəlb etməkdə israrlıyam. Mən bunu deyərkən, ilk növbədə Litva Respublikası Seyminin üzvü Dalya Kuoditenin fəaliyyətini nəzərdə tuturam. 2014-cü ilin 29 avqust – 4 sentyabr tarixlərində D. Kuoditenin Ermənistana və Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərində (işğal faktları Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının hələ 1993-cü ildə qəbul etdiyi Qətnamələrdə təsdiq olunub) yaradılmış qondarma Dağlıq Qarabağ Respublikasına qanunsuz səfər etməsini isə onun sözügedən destruktiv fəaliyyətinin "çələngi" saymaq olar.

Bu səfər zamanı Seymin üzvü D. Kuodite prezident Serj Sarkisyan və digər Ermənistan rəsmiləri tərəfindən qəbul edilmiş, eləcə də heç bir Dünya dövləti tərəfindən tanınmayan qondarma Dağlıq Qarabağ Respublikasının "rəhbərləri" ilə bir sıra görüşlər keçirib. O, həmçinin "Dağlıq Qarabağ Respublikası müstəqilliyinin" ildönümünə həsr olunmuş bayram tədbirlərində və rəsmi mərasimlərdə iştirak edib. D. Kuodite bu görüşlər zamanı Litva dövlətinin adından danışıqlar apararaq Litva və qondarma Dağlıq Qarabağ Respublikası arasında "iqtisadi-mədəni əlaqələrin genişləndirilməsi" barədə laqqırtı vuraraq boşboğazlıq edib. O, hətta orada "Qarabağ hərəkatının 25 illiyinə həsr edilmiş" medalla da təltif olunub.

Lütfkarlıqla Sizin diqqətinizə çatdırmaq istərdim ki, D. Kuodite bu "şərəfli" mükafata yalnız sözügedən səfərə və onun "uğurlu nəticələrinə" görə layiq görülməyib. Ona görə mükafatlandırılıb ki, D. Kuodite Seymdə qeydiyyatdan keçməyən "Dağlıq Qarabağla parlament dostluq qrupu"nu yaradıb və artıq çoxdandır ki, Azərbaycan dövlətinin ərazi bütövlüyünə qarşı məqsədyönlü fəaliyyət göstərir. Hərçənd ki, Azərbaycanın ərazi bütövlüyünü Litva Respublikası da daxil olmaqla, bütün dünya dövlətləri qeyd-şərtsis tanıyırlar.

Xüsusilə vurğulamaq istərdik ki, Rusiyanın Ukraynaya qarşı davam etməkdə olan təcavüz durumunda, eləcə də Ukraynanın Krım yarımadasının Rusiya tərəfindən ilhaq olunması faktının Şimali Koreya, Zimbabve və Sudan dövlətləri ilə bir sırada Ermənistan tərəfindən tanınması kontekstində və qondarma Dağlıq Qarabağ Respublikasının özü kimi digər oyuncaq qurumlara – "Donetsk və Luhansk xalq respublikalarına" dəstək verdiyi bir zamanda, D. Kuoditenin göstərilən fəaliyyəti daha təhlükəli təxribati məzmun kəsb edir.

"İdxal edilən separatizmdən" zərər çəkən ölkələrin – Ukrayna, Moldova, Gürcüstan və Azərbaycanın ərazi bütövlüyünün Litva Respublikası tərəfindən ardıcıl olaraq dəstəklənməsi müstəvisində ayrı-ayrı Litva millət vəkillərinin belə bədnam fəaliyyəti dövlətin xarici siyasətini nüfuzdan salmaq və özbaşına bu siyasətin alternativ kursunu cızmaq cəhdləri kimi görünür və dərk olunur.

Bu isə yalnız Rusiyanın və onun vassal müttəfiqi Ermənistanın maraqlarına xidmət edir.

Hörmətli Prezident, Litva Azərbaycanlıları Cəmiyyəti Sizdən Seymin deputatı D. Kuoditenin göstərilən yönümdəki fəaliyyətinə siyasi qiymət verməyi rica edir. Eyni zamanda Sizdən Seymin rəsmi internet saytında "Dağlıq Qarabağla parlament dostluq qrupu" ilə bağlı yerləşdirilmiş məlumatların oradan çıxardılması üçün siyasi yardım istəyirik. Belə ki, həmin qrup xarici dövlətlərlə parlamentlərarası əlaqələr saxlamaq statusuna malik deyildir, həmçinin Litvaya dost dövlət olan Azərbaycanın ərazi bütövlüyünə qarşı fəaliyyət göstərir və bu yolla Litva dövlətinin xarici siyasətini nüfuzdan salır.

Hörmətlə,

Mahir HƏMZƏYEV
Litva Azərbaycanlıları Cəmiyyətinin sədri

P.S: Müraciət Litva Respublikası Prezidentinin kanselyariyası vasitəsi ilə dövlət başçısına çatdırılıb. Eyni zamanda 3–4 sentyabr 2014-cü il tarixlərində Litvanın *BNS* və *ELTA* xəbərlər agentlikləri tərəfindən yayımlanıb, həmçinin ölkənin digər KMV-də – *"Lietuvos žinios"* gündəliyində, *www.kauno.diena.lt, www.balsas.lt, www.klaipeda.diena.lt, www.dienosnaujienos.lt, www.infosavaite.lt* xəbər portallarında dərc olunub.

Bakı, "525-ci qəzet", 9 sentyabr 2014-cü il, № 162.

AZƏRBAYCAN DİASPORU LİTVANIN İKİLİ STANDART SİYASƏTİNƏ QARŞI

Litvanın nüfuzlu media vasitələrindən biri olan *www.balsas.lt* xəbər portalında 11 avqust 2014-cü ildə M. Həmzəyevin "Qarabağda güclənən atəşlərin arxasında Moskvanın maraq savaşı görünür..." başlıqlı müsahibəsi yerləşdirilib.

Litvaca işıq üzü görmüş müsahibəni Litva–Azərbaycan Assosiasiyası İdarə heyətinin üzvü, tanınmış publisist, siyasi şərhçi və Litva televiziyasında müəllif proqramının aparıcısı Tomas Çivas götürüb. Müsahibədə Ermənistan dövlətinin işğalçı siyasətinə aid, eləcə də Ermənistan–Azərbaycan, Qarabağ münaqişəsinə dair bir sıra açıqlamalar və geosiyasi amillərlə yanaşı, sözügedən kontekstdə Litva Seymində vaxtaşırı atılan qeyri-konstruktiv addımlar və bəzi Litva rəsmilərinin açıqca ermənipərəst mövqe tutmaları ilə bağlı məsələlər də qaldırılıb. Belə ki, Litva Respublikası Seyminin 10 may 2012-ci il tarixli iclasının gündəminə salınmış "Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması barədə" Rezolyusiya layihəsinin millət vəkilləri tərəfindən rədd edilməsi, 2013-cü ilin martında Seymdə "Dağlıq Qarabağla parlament dostluq qrupu"nun yaradılması, həmin ilin iyul ayında ermənipərəst Litva diplomatlarının Qarabağ münaqişəsi ilə bağlı internetdə yayılan gizli telefon danışıqları və s. bu kimi faktlar ictimaiyyətin diqqətinə çatdırılıb, bu yönlü fəaliyyətin qeyri-konstruktiv səciyyəsi və siyasi zərəri açıqlanıb.

Müsahibədə Dağlıq Qarabağ probleminin həllində Litvanın bəzi rəsmi dairələrinin Azərbaycana qarşı ikili standartlar nümayiş etdirməsi məsələsi də ilk dəfə olaraq açıq şəkildə gündəmə gətirilib və faktlarla əsaslandırılaraq ölkənin ictimai diskursunda müzakirəyə çıxarılıb. Birmənalı şəkildə işarə olunub ki, Litva dövləti Avropa Birliyinin və NATO hərbi alyansının üzvü kimi Qərb ölkələri tərəfindən Ukrayna olayları ilə bağlı hazırda Rusiyaya qarşı tətbiq edilən siyasi və iqtisadi sanksiyalara fəal surətdə dəstək verməsinə baxmayaraq, Ermənistanla ikitərəfli hərbi əməkdaşlıq əlaqələrini gücləndirməkdə davam edir. Hərçənd ki, NATO hərbi bloku xeyli müddətdir Rusiyanı işğalçı əməllərinə görə qeyri-dost dövlət kimi dəyərləndirir və onunla hərbi əməkdaşlıq sahəsindəki münasibətlərdə əsaslı dəyişikliklər edir. Ermənistan isə qeyri-müstəqil bir ölkə kimi uzun illərdir təcavüzkar Rusiyanın əlaltısı və geosiyasi müttəfiqi olaraq hərəkət edir. Belə olan vəziyyətdə Litvanın Ermənistana hərbi sahədə əməli dəstək verməsi ən azından təəccüb doğurur və təzadlı hisslər oyadır. Bu fikirlər və ümumiləşdirmələr müsahibədə konkret formada ehtiva olunub.

Litva tərəfindən bu istiqamətdə ikili standartlar tətbiq edilməsi məsələsinin təfsilatları ilə daha yaxından tanış olmaq üçün qeyd etmək vacibdir ki, Litvanın Ermənistanla ikitərəfli hərbi əməkdaşlıq əlaqələri bu dövlətlər arasında 24 iyun 2002-ci ildə imzalanmış saziş əsasında həyata keçirilir. Bu sazişin imzalanmasından sonra ötən müddət ərzində Litvanın milli təhlükəsizlik durumu və geosiyasi vəziyyəti tamamilə başqa qlobal müstəviyə keçib. Litva 29 mart 2004-cü ildə NATO alyansına, 1 may 2004-cü ildə isə Avropa İttifaqına üzv qəbul olunub. Lakin buna baxmayaraq 24 iyun 2012-ci ildə Litvanın müdafiə naziri Rasa Yuknyaviçiene Yerevana rəsmi səfəri zamanı Litva ilə Ermənistan arasında ikitərəfli hərbi əməkdaşlıq haqqında yenilənmiş saziş imzaladı.

8 sentyabr 2004-cü ildə Ermənistanla Litva arasında erməni hərbçilərinin Litva Hərbi Akademiyasında təhsil alması barədə Vilnüsdə ikitərəfli müqavilə bağlanıb. Həmin müqaviləyə əsasən, Ermənistan hərbçiləri Litva tərəfindən ayrılmış vəsait hesabına Litvanın ali hərbi məktəblərində təhsil alırlar. Eyni zamanda erməni hərbi həkimləri 2008-ci ildən etibarən Litvanın ali hərbi tibb kurslarında oxuyur, erməni müdavimləri isə 2010-cu ildən bəri Litva ordusunun hərbi məktəblərində təlimatçı kurslarında təlim keçirlər. Bütün bu təhsil və təlim kursları Litva dövlətinin büdcəsi hesabına yerinə yetirilir.

Ölkələrin ikitərəfli hərbi əməkdaşlıq sazişi tərəflərin hər il razılaşdırıb imzaladıqları konkret plan üzrə həyata keçirilir. Göstərilən sazişlərə əsasən, Litva Ermənistan sülhməramlı batalyonlarının yaradılması işində, Ermənistanda serjant və zabit kadrları hazırlayan təhsil sisteminin yenidən qurulması sahəsində məsləhətçi qismində çıxış edir. Litva özünün hərbi müdafiə konsepsiyasının formalaşdırılması sahəsində əldə etdiyi təcrübəni Ermənistanla bölüşür və Ermənistan hərbçilərini birgə hərbi təlimlərdə iştirak etmək üçün Litvaya dəvət edir.

Litva və Ermənistan kibernetik təhlükəsizlik, internet hücumlarından müdafiə məsələləri, insan resurslarının idarə edilməsi, enerji təhlükəsizliyi və digər sahələrdə də əməkdaşlıq edir. Litva Ermənistanla həm də çoxtərəfli əlaqələr formatında hərbi sahədə əməkdaşlıq edir və bu ölkənin NATO ilə fərdi partnyorluq proqramının həyata keçirilməsinə dəstək verir, həmçinin Ermənistanın hərbi hazırlıq və müdafiə sisteminin NATO standartlarına uyğun qurulması üçün Alyansın rəhbərliyi altında fəaliyyət göstərən ekspertlər qrupunda çalışır.

Doğrudur, Litva Ermənistanla yanaşı bir sıra digər dövlətlərlə də ikitərəfli hərbi əməkdaşlıq sazişləri bağlayıb. Məsələn, 2000-ci ildə Ukrayna ilə, 2001-ci ildə Gürcüstan və Belarusla, 2002-ci ildə Özbəkistan və Azərbaycanla, 2006-cı ildə Moldova ilə, 2008-ci ildə Qırğızıstan və Qazaxıstanla, eləcə də daha bir neçə ölkə ilə belə müqavilələr imzalanıb. Lakin əsas məsələ burasındadır ki, Ermənistandan fərqli olaraq indi sadaladığımız ölkələr təcavüzkar siyasət yürütmürlər və qonşu dövlətin ərazilərini işğal etməyiblər.

Ermənistanın müdafiə naziri Seyran Ohanyan 2013-cü ilin aprelində Litvada rəsmi səfərdə olub. Erməni naziri o zaman Vilnüsdə Litvanın müdafiə naziri Yuozas Olekas ilə görüşərək həm ikitərəfli hərbi əməkdaşlıq əlaqələrinin gücləndirilməsi, həm də Ermənistanın NATO və Avropa Birliyi ilə partnyorluq münasibətlərinin inkişaf etdirilməsi ilə bağlı mühüm məsələləri müzakirə edib, regionlarda təhlükəsizliyin durumu və Ermənistanın beynəlxalq hərbi əməliyyatlara qoşulması barədə fikir mübadiləsi aparıb.

Səfər çərçivəsində Seyran Ohanyan Vilnüsdəki general Yonas Jemaytis adına Litva Hərbi Akademiyasının rəhbərliyi ilə də görüşüb. Bu Akademiyada sözügedən ikitərəfli hərbi əməkdaşlıq əlaqələri çərçivəsində 2013-cü ilədək Ermənistan ordusunun 25 zabiti təhsil alıb, 14 hərbçisi isə qərargah zabitlərinin hazırlanması üzrə təlim kurslarını bitirib. O zaman Litva və Ermənistanın müdafiə nazirləri Ermənistan hərbçilərinə Litvada hərbi təhsil almaq üçün göstərilən maliyyə yardımının davam etdirilməsi barədə razılığa gəliblər. Litva tərəfi yaxın gələcəkdə də Ermənistan ordusunun zabit və serjantlarını Litva Hərbi Akademiyasında, Litva ordusunun hərbi məktəbində və Litvanın hərbi tibb xidməti kurslarında təlim almağa dəvət edəcək. Bunlardan əlavə qərara alınıb ki, Estoniyanın Tartu şəhərində Baltik Müdafiə Kollecində *(Baltic Defence College)* oxuyan erməni zabitlərinin təhsil haqlarını bundan sonra da Litva tərəfi ödəyəcək.

Nazir Seyran Ohanyan göstərilən səfər zamanı həm də Litva Respublikasının Seymində olub. S. Ohanyan, Ermənistanın Litvadakı səfiri Ara Ayvazyan və onları müşaiyət edən digər Ermənistan rəsmiləri Seymin vitse-spikeri və Avropa işləri komitəsinin sədri Gediminas Kirkilasla, Seymin Milli təhlükəsizlik və müdafiə komitəsinin sədri Arturas Paulauskasla, habelə bir sıra millət vəkilləri ilə görüşərək geniş fikir mübadiləsi aparıblar. Ermənistan rəsmi nümayəndə heyəti Litva Parlamentində olarkən Seymin "Dağlıq Qarabağla parlament dostluq qrupu"nun üzvləri ilə görüşüb və "Dağlıq Qarabağ Respublikası" ilə Litva Seymi arasında yaradılmış əlaqələrin inkişaf perspektivlərini və qarşıda duran vəzifələri müzakirə ediblər.

Göstərilən fakt və təqdim olunan bilgilərlə bağlı qeyd etmək istərdik ki, Litva azərbaycanlıları bəzi Litva rəsmiləri tərəfindən Qarabağ probleminin həllində Azərbaycana qarşı ikili standartların tətbiq edilməsi ilə heç vaxt razılaşmayacaq. Odur ki, Cəmiyyət bundan sonra da bu istiqamətdə davamlı olaraq adekvat tədbirlər görmək və siyasi addımlar atmaq əzmindədir...

Bakı, "525-ci qəzet", 1 oktyabr 2014-cü il. № 178.
Bakı, "Olaylar" İnformasiya Agentliyi və "Olaylar" qəzeti, 3 oktyabr 2014-cü il.

"AZƏRBAYCANLILARA QARŞI SOYQIRIM GERÇƏKLİKLƏRİ" ƏSƏRİ LİTVA DİLİNDƏ

Akademik Ramiz Mehdiyevin "Azərbaycanın keçmişdəki itkiləri və gələcəyinin strateji görünüşü" adlı kitabı[279] Litva Azərbaycanlıları Cəmiyyətinin təşəbbüsü ilə 2015-ci ilin yanvarında Vilnüsdə Litva dilində çap edilib. Kitabın nəşri 20 Yanvar faciəsinin 25-ci ildönümünə həsr olunub.



İki hissədən ibarət olan kitabın birinci hissəsində R. Mehdiyevin "Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri" adlı tarixi oçerki dərc edilib. Bu hissədə həmçinin dünyaca ünlü siyasət və dövlət xadimi Heydər Əliyevin 20 yanvar faciəsindən sonra Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində 21 yanvar 1990-cı ildə keçirilən yığıncaqda etdiyi çıxışı və Azərbaycanlıların soyqırımı haqqında Azərbaycan Prezidentinin 26 mart 1998-ci il tarixli Fərmanı çap olunub.

Həmin hissədə həmçinin R. Mehdiyevin sözügedən tarixi oçerki barədə litvalı müəlliflər – Litva Elmlər Akademiyasının akademiki, məşhur tarixçi alim, professor Antanas Tilanın (1929–2018) resenziyası, LR Seyminin üzvü, Vilnüs Universitetinin Beynəlxalq münasibətlər və siyasi elmlər institunun dosenti, sosial elmlər doktoru Laurinas Kasçyunasın politoloji məqaləsi, həmçinin

[279] Ramizas Mehdijevas. "Azerbaidžano praeities netektys ir ateities vizija". Vilnius, Lietuvos azerbaidžaniečių bendrijos leidykla. Spaudė UAB Balto print, 2015 m. ISBN 978-609-95697-0-3.

müstəqil Litva Respublikasının ilk dövlət başçısı, 2004–2014-cü illərdə Avropa Parlamentinin Cənubi Qafqaz dövlətləri ilə Nümayəndə heyətinin sədr müavini, Azərbaycan Dövlət idarəçilik akademiyasının Fəxri doktoru, ünlü siyasətçi və ictimai-mədəni xadim, professor Vitautas Landsbergisin 20 Yanvar təcavüzü haqqında yazdığı "Azərbaycanın faciəsi" adlı məqaləsi də yer alıb.

Kitabın ikinci hissəsində oxuculara R. Mehdiyevin "XXI əsrdə Azərbaycan ideyası kreativ millət kontekstində" adlı sosial-siyasi və fəlsəfi əsəri təqdim edilib. Bu əsər haqqında tanınmış iqtisadçı alim, Litva EA-nın akademiki, monetar siyasət sahəsində nüfuzlu mütəxəssis, akademik Antanas Buraçasın yazdığı geniş həcmli elmi məqalə və "Qlobal Rəqabət Qabiliyyəti İndeksi 2013 – 2014" *(The Global Talent Competitiveness Index)* hesabatında Azərbaycanın və Litvanın tutduqları reytinqlərə aid müqayisəli göstəricilər də sözügedən hissədə dərc olunub.

Kitabı Litva dilinə Azərbaycan–Baltik mədəni əlaqələrinin tədqiqatçısı, publisist və tərcüməçi Mahir Həmzəyev və Litva filologiyası üzrə mütəxəssis Edita Ratkuviene tərcümə ediblər.

Kitabın Litva dili redaktoru Litva Elmlər Akademiyasının Humanitar və sosial elmlər bölməsinin elmi katibi Aurika Baqdonaviçiene, tərtibçisi və xüsusi redaktoru M. Həmzəyevdir. M. Həmzəyev həmçinin kitabın "Keçmişdəki ağrılar və gələcəklə bağlı ümidlər" adlı giriş məqaləsinin müəllifidir. Nəşrdə R. Mehdiyevin həyat və yaradıcılığı haqqında bilgilər də təqdim olunub.

Kitab AR Diasporla iş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Litva Azərbaycanlıları Cəmiyyəti tərəfindən 1000 nüsxədən ibarət tirajla Vilnüsdəki *"BALTO print"* mətbəəsində çap edilib.

Qeyd edək ki, akademik R. Mehdiyev 2000-ci ildə yazdığı "Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri" əsərində 20 Yanvar faciəsinin tarixi, milli, dini və geosiyasi köklərini dərindən araşdıraraq üzə çıxarıb, qanlı hadisələrin Qarabağ münaqişəsi ilə bağlı amillərini və prosesləri müxtəlif aspektlərdə geniş təhlil edərək mühüm elmi ümumiləşdirmələr aparıb.

Əsərlə tanış olan Litva siyasət adamları və tarixçilər R. Mehdiyevin kitabını 20 Yanvar qırğını tarixinin dürüst işıqlandırılması sahəsində elmi hadisə kimi qiymətləndiriblər. Onlar hesab edirlər ki, geniş tarixi kontekstdə qələmə alınmış bu əsər öz elmi-tarixi məziyyətləri ilə yanaşı, həm Azərbaycan tarixinin, həm də ən yeni dövr dünya tarixinin öyrənilməsi baxımından mühüm elmi mənbədir.

Xatırladaq ki, Litva xalqı azadlığa gedən yolda dinc əhaliyə qarşı sovet hərbi təcavüzünün nə olduğunu öz təcrübəsindən yaxşı bilir. Belə ki, 20 Yanvar hadisələrindən bir il sonra – 13 yanvar 1991-ci ildə litvalılar Vilnüs qanlı hadisələrini yaşayıblar. Hər iki xalqın eyni aqibətlə üzləşməsinə baxmayaraq, indiyədək Litva dilində 20 Yanvar faciəsini elmi-tarixi və geosiyasi planda belə yığcam və məzmunlu formada təhlil edib açıqlayan əsər yox idi. Həm də buna görə akademik R. Mehdiyevin "Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri" əsərinin Litva dilinə tərcümə edilib dərc olunmasını Litvada azərbaycanşünaslığın tərəqqisi üçün verilmiş əhəmiyyətli bir töhfə saymaq olar.

Litvalı mütəxəssislərin fikrincə, geniş oxucu dairələri R. Mehdiyevin bu əsəri ilə Litva dilində tanış olduqdan sonra Azərbaycan xalqının tarixi taleyinə daha yaxından bələd olacaq və Ermənistan–Azərbaycan münasibətlərində həm keçmişdə baş vermiş hadisələrin gerçək səbəblərini, həm də hazırda gedən mürəkkəb proseslərin əsl mahiyyətini daha dərindən öyrənmək imkanı əldə edəcəklər.

Vilnüs – Bakı, yanvar 2015-ci il.

Laurinas KASÇYUNAS
Litva Respublikası Seyminin Milli təhlükəsizlik və müdafiə komitəsinin sədri, Vilnüs Universitetinin Beynəlxalq münasibətlər və siyasi elmlər institutunun müəllimi, sosial elmlər doktoru

20 YANVAR FACİƏSİ VƏ MİLLİ İDENTİKLİK...

R. Mehdiyevin "Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri" oçerki barədə mülahizələr

Akademik Ramiz Mehdiyevin "Azərbaycanlılra qarşı soyqırım gerçəklikləri" adlı tarixi oçerki hazırda Avropanın dəyişmiş geosiyasi kontekstində şübhəsiz ki, bizim üçün mühüm əhəmiyyət kəsb edən əsərlərdəndir. Belə ki, Rusiya bu gün beynəlxalq hüquq normalarına və imzaladığı beynəlxalq saziş-lərə məhəl qoymadan, silahlı qüvvə tətbiq etməklə – hərbi güc işlətmək yolu ilə dövlətlər arasında mövcud olan sərhədləri "qayçılayıb" dəyişməyə çalışır və II Dünya müharibəsindən sonra beynəlxalq aləmdə bərqərar olmuş təhlükəsizlik arxitekturasını dağıdıb alt-üst etmək üçün hər cür addımlar atır.

R. Mehdiyevin öçerki bizlərə bir daha xatırladır ki, mübarizədə qazanılmış Azadlıq heç də boş-boşuna verilmiş bir hədiyyə deyil. Odur ki, onu hər zaman bəsləyib əzizləmək və qorumaq lazımdır. Bu əsərdə 1990-cı ilin 20 Yanvarında Azərbaycan xalqına qarşı həyata keçirilmiş dəhşətli qırğın və bu zaman baş vermiş dramatik olaylar müfəssəl surətdə yazılaraq təqdim olunub: – O zaman azərbaycanlıların onların tarixi torpaqlarından zorla qovulmasına və ölkənin ərazi bütövlüyünün pozulmasına, yəni, Dağlıq Qarabağın işğal edilməsinə qarşı dinc yolla etiraz edən əliyalın mülki əhaliyə Sovet ordu hissələri tərəfindən qəddarcasına divan tutulub. Həmin ağrılı olayların acı nəticələrini biz bü gün də görürük – Azərbaycan ərazisinin 20 faizi hələ də işğal altındadır.

Əsərin müəllifi oçerkdə təsvir olunmuş qanlı hadisələrin səbəblərinin, ələlxüsus bu qətliamın dini, Qafqaz və milli amillərlə bağlı dərin köklərinin araşdırılıb üzə çıxarılmasına və onların elmi baxımdan şərh edilib dəyərləndirilməsinə böyük diqqət yetirib. Məhz göstərilən həmin üç amildən ibarət kombinasiya Azərbaycanda 1990-cı il 20 Yanvar faciəsinin səbəblərini daha izahlı

şəkildə başa düşməyə, qətliamın miqyasının böyüklüyünü və dinc əhaliyə qarşı həyata keçirilmiş qəddarlığın qeyri-insani dərəcəsini daha yaxından duymağa və həssaslıqla dərk etməyə xidmət edir.

Litva Azərbaycan xalqına böyük ağrılar yetirmiş bu böyük faciənin nə olduğunu öz təcrübəsindən dolayı çox yaxşı bilir. Belə ki, Azərbaycanda 1990-cı il 20 Yanvar hadisələrindən bir il sonra – 13 yanvar 1991-ci ildə litvalılar da Sovet ordusunun hərbi təcavüzünə məruz qalıblar və Vilnüs qanlı hadisələrini yaşayıblar. Onda Sovet imperiyası Litva xalqını onun 1990-cı ildə əldə etdiyi Azadlıq və Müstəqillikdən məhrum etməyə çalışdı. Odur ki, Bakı və Vilnüs Yanvar hadisələri göstərir ki, Azərbaycan və Litva xalqları eyni məzmunlu faciəni yaşamış və Azadlıq uğrunda böyük şəhidlər vermiş xalqlardır. Bununla bərabər, həmin qanlı hadisələr bütün dünyaya bir daha nümayiş etdirdi ki, Azərbaycan və Litva dövlətləri xalqlarımızın iradə və qətiyyəti, cəsarəti, milli ruhlarının sarsılmazlığı, təcavüzkara qarşı silahsız müqavimət göstərmək iqtidarları, milli ləyaqətlərini, Vətənin Azadlıq və Müstəqilliyini sınaq günlərində əzmlə qorumaq naminə tankların qabağına əliyalın çıxaraq əvəzedilməz qurbanlar verə bilmələri ilə fəxr edə bilər.

Bakı və Vilnüs Yanvar hadisələrinin faciəvi konteksti bir daha aydın göstərir ki, postsovet məkanında gedən geosiyasi dəyişikliklər şəraitində yalnız o xalqlar real həyati (ekzistensial) köklərini yaşada bilərlər ki, onlar öz milli identikliklərini qoruyub saxlaya bilirlər, milli dövlət idealından uzaqlaşmırlar və sınaq günlərində həmin idealı cəsarətlə müdafiə etməyə səbatlıdırlar. Milli identiklik – postsovet dövlətlərinin əvəzedilməz bel sütunudur, onların müstəqilliklərinin başlıca dayağıdır. Axı, Rusiya Ukraynada böyük vətəndaş müharibəsini yalnız ona görə alovlandıra bilmədi ki, burada Rusiyaya loyal münasibət bəsləyən homo sovieticus kütlələri Kremlin indiyə qədər təsəvvür etdiyi kimi, heç də böyük çoxluq təşkil etmirlər, – əsl ukraynalıların sayı isə əksinə, – gözlənildiyindən qat-qat çoxdur.

Dünyaca ünlü Amerika jurnalisti Anne Elizabeth Applebaum çox dəqiq qeyd etmişdir ki, "Donbas regionu – milli dəyərlərini itirmiş insanlarla məskunlaşdırılmış ərazinin sınaq günlərində necə görünməsinə aid səciyyəvi misaldır. Hazırda bura anarxiyanın hökm sürdüyü, istənilən anda özlərini pula satmağa hazır olan muzdlu döyüşçülərlə dolu bir məkandır.

Yerli əhalinin əksəriyyəti Donbasda gedən döyüşləri yalnız passiv surətdə müşahidə etməkdə davam edirlər, onlar üçün hansı qüvvələrin qəti surətdə

üstünlük qazanmalarının heç bir fərqi yoxdur və döyüşən tərəflərdən kiminsə yerli hakimiyyətdə möhkəmlənməsi faktı ilə də artıq öncədən barışıblar.

Donbasda yaşayan əhalinin çoxusu burada təsadüfi olaraq məskunlaşmış insanlardır. Belə ki, onların konkret bir millətə və ya milli dövlətə daxili bağlılığı olmayıb, ata-babaları burada sovet hakimiyyəti məmurlarının planları və şıltaq istəkləri nəticəsində peyda olublar.

Yalnız özlərini doğma elinə müəyyən dərəcədə həsr etmiş insanlar, öz xalqının dilini, milli tarixini və ədəbiyyatını dəyərləndirən kəslər, milli mahnılar oxuyan, xalq əfsanələrini yorulmadan dinləyən fərdlər mənsub olduqları ictimaiyyət naminə faydalı işlər görə bilərlər..."

İstərdim ki, həm litvalılar, həm də azərbaycanlılar milli quruculuq işlərində və dövlətlərimizin möhkəmləndirilməsi yolunda bu jurnalistin sadaladığı o dəyərlərdən məhz bir oriyentir olaraq istifaqə etsinlər.

R. Mehdiyev 1990-cı il 20 Yanvar hadisələrinin köklərini geosiyasi aspektdə araşdırarkən qeyd edir ki, SSRİ-nin mərkəzi mətbuatı tərəfindən Azərbaycanda baş vermiş qanlı olaylar haqqında aparılmış antiazərbaycan təbliğatı və yayımlanmış dezinformasiya Qərbdə yanlış təsəvvürün yaranmasında böyük rol oynayıb. Bu isə Qərbin həmin hadisələrə passiv reaksiya verməsinə və lazımi diqqət yetirməməsinə gətirib çıxarıb. Qeyd etmək lazımdır ki, 20 Yanvar hadisələrindən cəmi ay yarım sonra – 11 mart 1990-cı ildə dövlət müstəqilliyini bərpa etmiş Litva Respublikası da o zaman Qərbin passivliyi ilə üz-üzə gəlib. Onda Litva dövləti tərəfindən onun müstəqilliyinin və qanuni hakimiyyətin *de jure* tanınması ilə bağlı beynəlxalq ictimaiyyətə edilmiş çağırışlar cavabsız qalıb. Yalnız 13 Yanvar 1991-ci il Vilnüs hadisələri Qərb ölkələrini Litvada Sovet ordu hissələri tərəfindən dinc əhaliyə qarşı hərbi qüvvənin tətbiq edilməsini pisləməyə və 1940-cı ildə Baltik dövlətlərin müstəqilliyinin məhv edilib ərazilərinin ilhaq olunmasını tanımamaqla bağlı indiyədək yürütdükləri passiv siyasəti dəyişməyə, suverenlik üçün SSRİ rəhbərliyi ilə daxili danışıqlar aparmaq barədə Litva Parlamentinə ünvanladıqları mənasız çağırışlardan imtina etməyə vadar edib.

Odur ki, R. Mehdiyevin tarixi oçerkində Qanlı Yanvarın ibrət dərslərindən danışılan zaman dəqiq vurğulandığı kimi, tarixi ədalətə yetişmək üçün Azərbaycanın 1990-cı il Yanvar faciəsinin həqiqətləri barədə Dünya ictimaiyyətini akademik istiqamətdə və peşəkar surətdə məlumatlandırma işinin həcmini daima artırmaq lazımdır. Sözügedən əsərin Litva dilinə tərcüməsi məhz belə bir mühüm məqsədə xidmət edir və bununla bərabər Sovetlər İttifaqının hərbi təcavüzünə məruz qalmış Litva və Azərbaycan xalqlarının həmrəylik hisslərini daha da gücləndirir.

Yanvar hadisələrinin səbəbləri və bu hadisələrə gətirib çıxarmış proseslərin gedişatı barədə tarixi həqiqətlərin əsaslı və geniş şəkildə Dünya ölkələrində yayımlanması, XIX–XX əsrlərdə azərbaycanlıların öz tarixi torpaqlarından deportasiya olunmaları və nəhayət, Dağlıq Qarabağın qoparılması ilə bağlı (hansı ki, bütün bunlar 1990-cı ilin Qara Yanvarına gətirib çıxarmış başlıca amillərdir) Azərbaycana qarşı törədilmiş faciəvi olaylara beynəlxalq ictimaiyyət tərəfindən düzgün siyasi və hüquqi qiymət verilməsi üçün böyük əhəmiyyət kəsb edən əsaslardır. Azərbaycanlıların soyqırım tarixi ilə bağlı bu mühüm məsələləri R. Mehdiyev öçerkində dərindən araşdıraraq üzə çıxarıb, müxtəlif aspektlərdə geniş təhlillər apararaq əsaslandırılmış elmi nəticələr təqdim edib, ələlxüsus, Rusiya ilə münasibətləri tarixi və geosiyasi kontekstlərdə çox dəqiq şəkildə işıqlandırıb.

Azərbaycanda 1990-cı ilin 20 yanvarında törədilmiş qanlı hadisələr şübhəsiz ki, hərbi cinayətdir, özü də bütün bəşəriyyətə qarşı yönəldilmiş cinayətdir. Bu cür cinayətlərin təhqiqi prosesində Cinayət məcəlləsinin zamanaşımı maddəsi heç vaxt tətbiq olunmur. Odur ki, həmin hadisələri mütləq hərtərəfli araşdırıb dəyərləndirmək lazımdır ki, günahkarlar – yəni, bu cinayəti təşkil etmiş və onun yerinə yetirilməsi üçün məsul olmuş konkret şəxslər aşkarlanıb üzə çıxarılsın və canilər real məsuliyyətə cəlb olunaraq beynəlxalq hüququn hamılıqla qəbul edilmiş qanunları qarşısında ən ciddi surətdə cavab versinlər. Doğrudur, R. Mehdiyev bu əsərində həmin cinayətkar şəxslərin bir qisminin adlarını açıqlayıb. Lakin, ədalətin zəfər çalması üçün yalnız cinayəti göstərmək və onu törədən günahkar şəxslərin adlarını aşkarlamaq kifayət etmir. Hər hansı digər bir cinayət kimi, bu cinayətin də tərkibi törədilmiş günahdan və günah üçün daşınmalı məsuliyyətdən, həmçinin vurulmuş zərərin ödənilməsindən ibarətdir. Ona görə də günahkar şəxslər konkret cinayətin törədilməsinə görə mütləq real məsuliyyətə cəlb olunmalıdırlar. Amma, qeyd etdiyimiz kimi, bunun üçün öncə 20 Yanvar hadisələri ilə bağlı hərbi cinayətlərə beynəlxalq aləmdə hüquqi qiymətin verilməsinə nail olmaq lazımdır.

20 Yanvar hadisələrinin düzgün dəyərləndirilməsi, onlar barədə daim geniş məlumatların yayımlanması, faciə həqiqətlərinin nəsildən-nəslə ötürülməsi Azərbaycanda gənc nəslin tarixi yaddaşının formalaşmasına və qorunub saxlanılmasına, onlarda əsl vətənpərvərlik ruhunun və vətəndaşlıq hisslərinin aşılanmasına, milli tarix və dəyərlər haqqında əks qüvvələr tərəfindən yayımlanan dezinformasiyalara, qərəzli təbliğata, qurama analiz və arqumentlərə, həmçinin yalan siyasətə qarşı davamlılıq keyfiyyətlərinin peyvənd edilməsi üçün misilsiz

əhəmiyyətə malik amillərdir. Həm də ki, Rusiya hələ də təbliğat müharibəsini davam etdirməkdədir. Və buna misal üçün deyə bilərik ki, Litva bu gün digər Baltikyanı dövlətlərlə bərabər sözügedən təbliğat savaşının cəbhə xəttindədir. Şübhə yoxdur ki, Rusiya bu savaşda Litva Respublikasını etibar və nüfuzdan salmaq, tarixini təhrif etmək, ölkə ictimaiyyətinin müəyyən qismini dövlətimizin strateji maraqlarına qarşı kökləmək və beləcə də postsovet məkanında öz təsir qüvvəsini qoruyub saxlamaq məqsədi güdür.

Azərbaycana qarşı aparılan informasiya müharibəsinə gəldikdə isə demək lazımdır ki, Rusiya rəsmi Bakının xarici siyasət sahəsində qəbul etmək istədiyi mühüm qərarlara öz təsirini göstərmək məqsədi ilə istədiyi zaman burada separatçılıq tendensiyalarını gücləndirib gərginlik yaratmaq üçün Dağlıq Qarabağ kartından destruktiv vasitə kimi istifadə edə bilər. Odur ki, həm litvalılar, həm də azərbaycanlılar yaxşı başa düşməlidirlər ki, əgər onların öz tarixi narrativləri olmazsa, əgər onlar öz tarixi yaddaşlarını qoruyub gələcək nəsillərə ötürmək siyasətini məqsədyönlü surətdə aparmazsa, bu işi onların əvəzinə başqaları görəcəklər. O başqalar isə adətən ölkələrimizə həmişə dost münasibət bəsləməyən geosiyasi tərəfdən və əks qüvvələrdən ibarət olur.

Beləliklə, bütün bunlar bir daha göstərir ki, R. Mehdiyevin tarixi oçerki yalnız Azərbaycan üçün deyil, həm də beynəlxalq ictimaiyyətdən ötrü mühüm əhəmiyyət daşıyan əsərdir, çünki Sovet rejiminin xalqlara gətirdiyi fəlakətləri və vurduğu saysız-hesabsız ziyanları, eləcə də Rusiya tərəfindən daima təkrar olunan təcavüzkar hərəkətlərin Avropanın əmin-amanlığı üçün yaratdığı ciddi təhlükələri daha yaxşı anlamağa gözəl imkan yaradır.

Sadə dildə desək, R. Mehdiyevin "Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri" əsəri postsovet xalqlarının öz müstəqil dövlətlərini qurmaq istəklərinə Rusiyanın necə münasibət bəsləməsi baxımından Qərb ölkələrinin indiyədək anlaya bilmədiyi məsələləri olduqca aydın şəkildə açıqlayan əyani vəsaiti – ibrət kitabını xatırladır.

Oçerkdə araşdırılmış problemlərə geosiyasi bucaq altında baxarkən, görkəmli ABŞ dövlət xadimi və dünyaca ünlü siyasi strateq Zbiqnev Bjezinskinin (1928–2017) fikirlərini xatırlamaq yerinə düşərdi. O, yazır ki, siz əgər xəritə üzərində Dağlıq Qarabağdan başlayaraq Cənubi Osetiya və Abxaziya əraziləri üzərindən keçməklə Dnestryanı regionuna kimi bir xətt cızsanız, nəticədə maraqlı görüntü əldə edərsiniz, həmin xəttin "yolu" sizə keçmiş SSRİ-nin sərhəd cizgilərini xatırladacaq.

Məhz bu münaqişələr və onlara "moderatorluq" etmək funksiyasını üzərinə götürmüş Rusiya göstərilən ərazilərdə yerləşmiş ölkələrə postsovet məkanından qurtulmağa imkan vermir. Şübhəsiz ki, xalqlar arasında milli zəmində nifaq salmaqla özünün imperialist məqsədlərinə xidmət edən Kreml istəmir ki, onu müstəqil və güclü qonşu dövlətlər əhatə etsin. Buna görə də rəsmi Moskva çevrəsində satellit "dövlətlərdən" ibarət qurşaq yaratmaq üçün hər cür səylər göstərir. Həmin Z. Bjezinski təsdiq edir ki, "Azərbaycan Ukrayna ilə birgə hazırda postsovet məkanında geosiyasi mərkəz funksiyasını yerinə yetirir." Onun fikrincə, bu mərkəzə həmişə nəzarət edəcək qüvvələr eyni zamanda bütün postsovet məkanının təhlükəsizlik sistemini nəzarət altına almış olacaqlar.

Odur ki, Azərbaycan dövlətinin siyasi və iqtisadi müstəqilliyi həm də regionda qüvvələr müvazinətini qoruyub saxlamağa xidmət edən və Rusiyanın burada dominant mövqe tutmasına imkan verməyən güclü amillərdir. Regionda yaranmış geosiyasi konyuktura baxımından Azərbaycanın indiki siyasi və iqtisadi müstəqilliyi çox nadir hadisədir. Buna görə də Azərbaycana onun dövlətçilik ənənələrinin bundan sonra da daim güclənməsini arzu etmək istərdim.

P.S: Məqalə R. Mehdiyevin sözügedən litvaca kitabında və həmçinin katolik fransiskanlarının Vilnüsdə fəaliyyət göstərən *www.bernardinai.lt* internet gündəliyində Litva Azərbaycanlıları Cəmiyyətinin dəstəyi ilə 13 yanvar 2015-ci ildə litvaca dərc olunub.

Vilnius, Interneto dienraštis "Bernardinai.lt", 2015 m. sausio 13 d.
Bakı, "525-ci qəzet", 17 yanvar 2015-ci il, № 10.

Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi

Mahir Həmzəyevdən, Vilnüs, Litva
04 aprel 2016, 22:15

Zati-Aliləri cənab Prezident İlham Əliyev!

Litva Azərbaycanlıları Cəmiyyəti Ermənistan–Azərbaycan qoşunlarının təmas xəttində Azərbaycan Ordusunun atdığı bütün addımları birmənalı şəkildə dəstəkləyir və Ordumuzun irəliləməsini alqışlayır. Ordumuza uğurlar arzulayır və bildiririk ki, istər döyüş əməliyyatlarında iştirak etməyə, istərsə də təbliğat və informasiya qovğasında Ordumuza Baltik ölkələrində hər cür dəstək verməyə, xalqımızın haqq səsini Litva ictimaiyyətinə çatdırmaq üçün əlimizdən gələni etməyə həmişə hazır olduğumuz kimi, indi də hazırıq.

Azərbaycan diasporunu, xaricdə yaşayan bütün həmvətənləri bu məsuliyyətli və həlledici tarixi mərhələdə Azərbaycan Ordusu ilə həmrəylik nümayiş etdirməyə, Ordu və onun Ali Baş Komandanı İlham Əliyevin ətrafında sıx birləşməyə çağırırıq.

Azərbaycan Silahlı Qüvvələrinin işğalçı Ermənistan ordusu ilə təmas xəttində baş verən döyüş qarşıdurması zamanı verdiyimiz itkilərlə bağlı xalqımızın yaşadığı acını ürəkdən bölüşürük. Ərazi bütövlüyümüz uğrunda şəhid olmuş hərbi qulluqçuların ailələrinə, yaxınlarına, həmçinin Zati-Aliləri Sizə və bütün Azərbaycan xalqına Litva azərbaycanlıları adından dərin hüznlə başsağlığı verir, dünyasını dəyişənlərə Allahdan rəhmət diləyir və yaralılara şəfa arzu edirik. Vətən sağ olsun! Haqq işi uğrunda mübarizədə tarixi vətənimiz Azərbaycana qələbələr diləyirik.

Hörmətlə,
Mahir HƏMZƏYEV

Litva Azərbaycanlıları Cəmiyyətinin sədri,
Litva Respublikası Hökuməti yanında Milli İcmalar Şurasının üzvü,
Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvü

Publikasiyanın yer aldığı link: http://www.president.az/articles/18334/print

LİTVA RADİOSUNDA APREL DÖYÜŞLƏRİ BARƏDƏ HƏQİQƏTLƏR SƏSLƏNDİRİLİB

2016-cı ilin aprelin əvvəllərində Qarabağda Azərbaycan–Ermənistan qoşunlarının təmas xəttində baş vermiş hadisələr Litva kütləvi məlumat vasitələrinin də əsas təhlil mövzularından biri olaraq qalır.

Litva İctimai radiosunun "Aktual problemlər studiyası"nın xətti ilə canlı efirdə yayımlanan 50 dəqiqəlik populyar analitik radio verilişi Ermənistan ordusunun Azərbaycanla təmas xəttində aprelin ilk günlərində törətdiyi hərbi toqquşmalara həsr olunub.

11 aprel 2016-cı ildə yayımlanan "Qarabağın Qordion düyünü" başlıqlı tarixi və ictimai-siyasi təhlil yönlü diskussiya verilişində Litva Azərbaycanlıları Cəmiyyətinin sədri Mahir Həmzəyev, Vilnüs Universitetinin Beynəlxalq münasibətlər və siyasi elmlər institutunun dosenti Dovile Yaknyunayte, Litva-Ermənistan Beynəlxalq Forumunun koordinatoru, hüquqşünas Armen Ayrapetyan, litvalı tarixçi, siyasi şərhçi və konfliktoloq İmantas Melyanas iştirak ediblər.

Tanınmış Litva jurnalisti, rejissor, tarixi-sənədli filmlərin yaradıcısı Rimas Brujasın apardığı verilişdə aprel hadisələri, onun tarixi kökləri və geosiyasi səbəbləri müzakirə olunub. Həmçinin Ermənistan–Azərbaycan, Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində həll olunmamasının, o cümlədən BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü ildə qəbul edilmiş 822, 853, 874 və 884 saylı qətnamələrin indiyədək yerinə yetirilməməsinin fəsadları müzakirə edilib.

Ermənistanın Azərbaycana qarşı yürütdüyü işğalçılıq siyasəti və bu siyasətin Azərbaycan xalqı və dövləti üçün acı nəticələri barədə məlumat verən diaspor xadimi Mahir Həmzəyev Azərbaycanın 20 faiz torpaqlarının hələ də erməni işğalı altında olduğunu bildirib.

O, Ermənistan–Azərbaycan, Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü təmin olunmaqla beynəlxalq hüquq normaları çərçivəsində, sülh yolu ilə həllinin təmin edilməsinin zəruriliyini vurğulayıb, dünya ictimaiyyətini bu münaqişəyə biganə qalmamağa səsləyib...

Bakı, AR Diasporla iş üzrə Dövlət Komitəsinin saytı, 19 aprel 2016-cı il.
Bakı, Trend informasiya agentliyinin www.az.trend.az saytı, 19 aprel 2016-cı il.
Azərbaycan Dövlət İnformasiya Agentliyinin (Azərtac-ın) veb-saytı, 19 aprel 2016-cı il.
Bakı, "525-ci qəzet", 20 aprel 2016-cı il.

ERMƏNİSTAN-AZƏRBAYCAN MEDİA SAVAŞI VƏ AZƏRBAYCAN DİASPORU

Dünya Azərbaycanlılarının IV Qurultayında M. Həmzəyevin çıxışı

Dəyərli Qurultay nümayəndələri və qonaqlar!

1988-ci ildə Vilnüsdə yaradılmış Litva Azərbaycanlıları Cəmiyyətinin çoxşaxəli fəaliyyətinin ən mühüm vektorunu Ermənistan–Azərbaycan təbliğat müharibəsinin Litva cəbhəsində apardığı mübarizə və davamlı media savaşı təşkil edir.

Cəmiyyət indiyədək bu istiqamətdə çoxsaylı təbliğat və təşviqat tədbirləri həyata keçirib. İnformasiya müharibəsilə bağlı Litvada həyata keçirilən tədbirlər bir neçə cəhətdən diqqəti cəlb edir. O cəhətlərin hamısı barədə mənə bu gün ayrılmış vaxt çərçivəsində danışmaq çətindir. Odur ki, bu işdə yalnız bir istqaməti qeyd etmək istərdim. Belə ki, biz Azərbaycanlıların soyqırım tarixi və Qarabağ münaqişəsi ilə bağlı məlumatların ictimaiyyətə çatdırılması işində digər xalqların – litva, yəhudi, latış, eston, ukrayna, polyak diaspor təşkilatlarının təcrübəsindən akademik müstəvidə istifadə edirik. Həm də məhz litvalı və digər avropalı müəlliflərin siyasi-publisistik çıxışlarının hazırlanıb yayımlanmasını daha inandırıcı və faydalı təbliğat üsulu kimi tətbiq edirik.

Şəkildə (sağdan birinci): Mahir Həmzəyev Qurultayda çıxış zamanı.

Cəmiyyətin təşəbbüsü ilə 2006-cı ildə Litvada Qarabağ münaqişəsi barədə olayları işıqlandıran litvalı jurnalistlər qrupu yaradılıb və Azərbaycanın ədalətli mövqeyini düzənləyib müdafiə etmək üçün Litvanın media qovşağında təbliğat savaşına cəlb olunub.

Təbliğat tədbirlərini həyata keçirən zaman çeşidli janrlardan istifadə olunur, Avropa düşüncə tərzinə yaxın ifadə vasitələrinə, müasir təbliğat konsepsiyasına uyğun çevik informasiya üsullarına üstünlük verilir. Bu sahədə daha optimal və ən yeni təbliğat üsullarını işləyib hazırlamaq üçün daim yaradıcılıq axtarışları aparırıq.

Cəmiyyət tərəfindən bu istiqamətdə görülən işlərin böyük qismi Litva, Azərbaycan, Rusiya, Ermənistan və digər ölkələrin mediası üzərindən reallaşdırılıb. Yəni, müharibə təkcə səngərlərdə deyil, həm də sərhədlərsiz informasiya məkanında aparılır. Lakin hərbi əməliyyatları informasiya savaşından fərqləndirən mühüm cəhət ondan ibarətdir ki, əməliyyatların intensivliyi azala bilər, informasiya savaşı isə hər gün və hər saat aparılır. Bu baxımdan cəmiyyət Baltik ölkələrindəki erməni diasporu və lobbisi ilə daima informasiya qarşıdurması və informasiya hücumları şəraitində fəaliyyət göstərməyə israrlıdır.

Qeyd edək ki, ötən illər ərzində bu savaşda əldə etdiyimiz mühüm uğurlarla yanaşı, itkilərimiz də olub. Elə ciddi problemlərimiz var ki, cəmiyyət onların öhdəsindən hələlik tamamilə gələ bilməyib. Ələlxüsus, bu ilin aprelində Qarabağın təmas xəttində gedən döyüşlər beynəlxalq medianın əsas təhlil mövzularından biri olaraq göstərdi ki, Rusiya ilə bərabər Qərb mətbuatı, həmçinin Litva mediası da münaqişənin qarşı tərəfi kimi Ermənistan dövlətini göstərməkdənsə, daha çox Dağlıq Qarabağ tərəfini göstərməyə meyllidir.

Gözlənilməz məqamlardan biri də o idi ki, Litva mediası aprel müharibəsi barədə informasiya mənbələri qismində bir sıra Rusiya və Ermənistan KMV-nin yayımladığı manipulyativ xəbərləri təkrarladı, Azərbaycanın Ümumdünya Mətbuat Azadlığı İndeksində 163-cü yerdə qərar tutmasını əsas göstərərək (Ermənistan 74-cü yerdədir), Azərbaycan informasiya mənbələrinə çox cüzi dərəcədə istinad etdi. Beləliklə, müəyyən dərəcədə informasiya müharibəsinin hədəfinə çevrildik. Litva mediasının manipulyativ formalar tətbiq edərək hadisələrə bu cür yanaşması indiyə qədər apardığımız informasiya müharibəsində öz diskursiv mövqeyimizi nə qədər sağlam bir zəmin üzərində düzənləyə bildiyimizi bir daha dəqiqləşdirməyə bizi məcbur edir.

Daha sonra diqqəti çəkən məqam isə budur ki, Qərb mətbuatında əvvəllər Naqorni Karabax adı ilə səslənən Azərbaycan bölgəsi indi Arsax kəlməsi ilə anılır. Bu kəlmənin Baltik ölkələrində vətəndaşlıq hüququ alması yönündə iri addımlarla irəliləməsi ilk baxışdan xırda məsələ kimi görünsə də, istədiyimiz qələbənin hələlik əldə edilməməsini göstərir.

Olayların media savaşı kəsimində bir seqmenti də ondan ibarətdir ki, dünyanın müxtəlif ölkələrində olduğu kimi, Litvada da fəaliyyət göstərən erməni lobbi və diaspor təşkilatları cəbhədəki hərbi məğlubiyyəti siyasi və mənəvi qalibiyyətə çevirməyə çalışırlar. Erməni pulu ilə qidalanan bir sıra Litva "media ekspertləri" cəbhədə döyüşən Azərbaycan əsgərlərini terrorçu İŞİD hərbi birləşmələri kimi təqdim edir və guya Ermənistana qarşı İŞİD-in mübarizə apardığını göstərirlər. Bununla da Qarabağda baş verənlərə dini çalarlar qataraq Litva xristian icmasını və ölkənin vətəndaş cəmiyyətini Azərbaycan və Türkiyəyə qarşı fəaliyyətə kökləməyə cəhdlər edirlər. Bu təbliğat fokusu hazırda Yaxın Şərq ölkələrindən Avropaya istiqamətlənmiş müsəlman miqrantları axını və Aİ ölkələrində buna qarşı artmaqda olan etirazlar əhval-ruhiyyəsi kontekstində kütləvi effektlə işləyir.

Çatışmazlıqları qətiyyən şişirtmədən etiraf etmək lazımdır ki, media savaşındakı qüvvələr nisbəti getdikcə Ermənistanın xeyrinə dəyişməkdədir. 2009–2013-cü illərdə Diasporla iş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Litvada görülmüş kəsərli təbliğat işləri nəticəsində erməni diasporunun təbliğat monopoliyasının dağıdılmasına gətirib çıxarmış media savaşında əldə edilmiş mövqeləri genişləndirməyə bu gün ələlxüsus böyük ehtiyac duyulmaqdadır.

İndi isə, diskussiyalar apardığımız Panel sessiyasının mövzusunu təşkil edən ayrı-ayrı müddəalarla bağlı bir neçə yorum vermək və dəyərləndirmələr etmək istərdim.

1. Ermənistan dövləti, erməni diasporu və lobbisinin Azərbaycana qarşı yönəlmiş informasiya müharibəsində Azərbaycan diasporunun üzərinə düşən vəzifələr.

Məncə bu müddəanın formalaşdırılmasını və sualın qoyuluşunu əsaslı şəkildə dəyişmək və problemin səbəblərini düzgün adlandırmaq lazımdır. Ermənistan–Azərbaycan qarşıdurmasının əsl köklərini – Kremlin imperiya siyasətini – informasiya müharibəsində ön plana çəkmək gərəkdir. Yoxsa, bunsuz heç cür alınmır. Çünki qalan bütün problemlər sözügedən imperiya siyasətindən qaynaqlanaraq ikinci dərəcəli xarakter daşıyır.

2. "Erməni soyqırımı" iddiaları bucağı altında Azərbaycan və türk diasporunun birgə fəaliyyət mexanizmlərinin qurulması barədə.

Türk qardaşlarımız dəfələrlə sübut ediblər ki, 1915-ci il qondarma "Erməni soyqırımı" tarixi spekulyasiyadır. Bu müddəadan aktiv surətdə istifadə etmək lazımdır. Eyni zamanda vurğulamaq vacibdir ki, pis xalqlar yoxdur və problemin kökündə həm onda, həm də indi "Böyük Ermənistan" ideyası durur. Post

sovet ölkələrində hələlik təşkilatlanmış türk diasporu yoxdur. Amma Türkiyə səfirlikləri var və türk iş adamlarının qurumları ilə işləmək olar.

3. Dağlıq Qarabağ separatçı rejiminin müstəqil dövlət kimi tanıdılması istiqamətindəki kampaniyaların qarşısını almaq üçün hansı addımları atmalı?

Bu suala cavab bu gün birmənalı deyil. Birincisi odur ki, Ermənistan bu gün sadəcə olaraq blef edir. Onun hər aldadıcı manevrinə adekvat reaksiya verərək nəzərə almaq lazımdır ki, qarşı tərəf diasporumuzun gücünün boş yerə sərf edilməsi üçün də çalışır.

Sonra isə nəzərdə saxlamaq lazımdır ki, Ermənistan tərəfindən qondarma Dağlıq Qarabağ Respublikasının "tanınması" Azərbaycanın maraqlarına xidmət etmiş olardı. Belə ki, Qarabağın Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazisi olması ilə bağlı beynəlxalq müstəvidə hələ də mövcud olan müxtəlif baxışlara son qoyardı, fərqli yanaşmaları gündəmdən çıxarardı. Bu isə öz növbəsində işğal edilmiş əraziləri qaytarmaq istiqamətində Azərbaycanın sonrakı hərəkətlərini nəzərəçarpan dərəcədə yüngülləşdirərdi. Əgər Ermənistan belə böyük səfehlik edərsə, ona mane olmaq lazım deyil.

4. Media və sosial şəbəkələrin informasiya müharibəsindəki rolu.

Xüsusilə vurğulamaq istərdik ki, bu gün təbliğat savaşı əsasən media qovşağında aparılır. Təəssüflər olsun ki, erməni lobbi və diaspor təşkilatları tərəfindən Azərbaycana qarşı aparılan media savaşını heçə endirmək, Ermənistan səfirliklərinin və erməni diaspor təşkilatlarının fəaliyyətini neytrallaşdırmaq işləri bir çox ölkələrdə olduğu kimi, Litvada da hələlik adekvat səviyyədə deyil. Bu işə mütləq mərkəzləşdirilmiş və koordinasiyalı qaydada diqqət yetirilməlidir.

Düşmənlərimiz informasiya müharibəsində həm də yeni alətlərdən – sosial şəbəkələrdən bəhrələnirlər. Biz hələ ki, sosial şəbəkələr spektrinin imkanlarından lazımınca istifadə edə bilmirik. Çünki bilikli və litvaca fikirlərini paylaşa bilən vətənpərvər bloggerlər qrupunu yarada bilməmişik.

Avropa ölkələrinin çoxunda Azərbaycan diasporunun sosial şəbəkələrdə müxtəlif dillərdə adekvat mübarizə apara bilən qruplar yaratmağa hələlik lazımi dərəcədə potensialı yoxdur (nümunə olaraq qeyd edək ki, Estoniya Azərbaycanlıları İcması tərəfindən bir zaman öncə belə qrupun təməli qoyulub). Buna görə də hələlik həmin ölkələrdə Azərbaycanın nüfuzlu dostlarının fəaliyyətindən yararlanmalıyıq, iş görmək qabiliyyətinə malik olmayan süni strukturlar yaratmamalıyıq.

Məncə, çox neqativ haldır ki, müxtəlif dillərdə davamlı əks-təbliğat tədbirləri aparmaq üçün neçə müddətdir vəsait ayrılmır. Ümumiyyətlə, diaspora

təşkilatlarının informasiya müharibəsi sahəsindəki fəaliyyətinə informativ, metodik, akademik və maliyyə dəstəyi məsələsini əsaslı şəkildə Dövlət səviyyəsində gündəmə qoymağı, hücum taktikasına uyğun mexanizmlər yaratmağı təklif edirəm. Əgər bu təklif maraqla qarşılanarsa, həmin mexanizmlərin iş prinsiplərini və yaradacağı əlavə imkanların detallarını müzakirə etməyə hazırıq.

5. Azərbaycana qarşı bəzi ölkələrdə aparılan təbliğata necə cavab verməli?

Diasporanın hazırda hələlik iki cəbhədə müharibə aparmaq imkanları çox məhduddur. Düşünürəm ki, bu işlə əsasən yaşadığımız ölkələrdəki siyasi icmalçılar məşğul olmalıdırlar. Onlarla Azərbaycan arasında işgüzar əlaqələrin qurulmasında Avropadakı Azərbaycan diasporu körpü rolunu oynaya bilər və oynamalıdır da. Amma, bu məsələdə məncə, Azərbaycan mediası da öz fəaliyyətinə yenidən nəzər salmalıdır, işini yeni çağırışlara uyğun qurmalıdır. Qarabağ münaqişəsilə bağlı tənqid hədəflərini tez-tez dəyişib, gah Qərbi, gah da ABŞ-ı günahlandırmaq perspektivi olmayan məşğuliyyətdir.

Nəhayət, hamımız, ələlxüsus bizim media başa düşməlidir ki, Qarabağ münaqişəsinə görə Rusiyaya apellyasiya etmək yalnız koqnitiv dissonans hissləri yaradır. Belə ki, Şər qüvvə ilə mübarizə apararkən İblislə müqavilə bağlamaq olmaz.

6. Azərbaycan həqiqətlərinin çatdırılmasında informasiya texnologiyalarının effektiv tətbiqi üçün vahid strategiyanın müəyyən edilməsi...

Sərhədlərsiz internet məkanı və çeşidli informasiya texnologiyaları əsrində müxtəlif ölkələrdə vahid strategiyanın müəyyən edilməsi məncə, qeyri mümkündür. Və buna ehtiyac da yoxdur. Mümkün olan bütün strategiya və texnologiyalardan Azərbaycanın mənafelərini qorumaq üçün maksimum dərəcədə istifadə etmək lazımdır. Məsələn, Qarabağ münaqişəsilə bağlı situasiyanı Qərbdə daha anlamlı izah etmək məqsədilə, Rusiya tərəfindən Ukraynanın Krım və Donbas bölgələri, Gürcüstanın Abxaziya və Sxinvali regionu, Moldovanın qondarma Dnestryanı Respublikası ilə əlaqədar yürütdüyü siyasəti müqayisə üçün tez-tez misal gətirmək lazımdır. Bax, bunu biz nə qədər sanballı şəkildə etsək, bir o qədər Qərbdə bizi dərindən başa düşərlər.

Əziz həmvətənlər, göstərilənlərlə əlaqədar məruzəmin sonunda Baltik ölkələrindəki Azərbaycan cəmiyyətləri adından daha bir təşəbbüslə çıxış etmək istərdim.

Təklif edirəm ki, qarşıda duran problemlərin operativ və əlaqələndirilmiş şəkildə həll edilməsi üçün Diasporla iş üzrə Dövlət Komitəsinin yanında Avropa

İttifaqı və NATO ölkələrində media savaşı sahəsində fəaliyyət göstərən diaspora təşkilatları ilə işləyən xususi Koordinasiya şurası təsis olunsun. Şuraya həm də erməni lobbisi ilə informasiya müharibəsi aparan Azərbaycan diasporu təmsilçiləri və peşəkar mütəxəssislər daxil edilsin. Diqqətinizə görə təşəkkür edirəm.

Fairmont Baku hotel, Nizami Gəncəvi zalı.

Bakı, 3 iyun 2016-cı il.

BAKI–VİLNÜS: AZADLIĞA GEDƏN YOLDA TALEYÜKLÜ YANVAR HADİSƏLƏRİ

20 yanvar 1990-cı ildə Azərbaycana qarşı edilmiş hərbi təcavüzün 27-ci ildönümü ilə bağlı Litvanın nüfuzlu *"Lietuvos žinios"* qəzetinin 20 yanvar 2017-ci il tarixli sayında "Bakı–Vilnüs: azadlığa gedən yolda taleyüklü Yanvar hadisələri" adlı litva dilində tarixi esse dərc olunub.

АЗАДЛЫГ

ТРАГЕДИИ БАКУ И ВИЛЬНЮСА ОРГАНИЗОВАНЫ ПО ОДНОМУ СЦЕНАРИЮ

Тоталитарным режимом совершено еще одно гнусное преступление. Год спустя после трагедии в Баку теперь уже в Вильнюсе пролита кровь ни в чем не повинных людей. Как и год назад, Президент страны оправдывает применение силы против мирного населения необходимостью защиты Конституции и законов СССР. Между тем, применение войск без согласия Верховных Советов республик на их территории, как это случилось в Баку и Вильнюсе, уже

ЛАНДСБЕРГИС! МЫ С ТОБОЙ!

же еще в начале января с. г. Дом печати был захвачен войсками, а в ночь на 13 января десантники при поддержке танков штурмом овладели зданием литовского телевидения и радио.

Идентичны и приемы, используемые центром для оправдания применения силы. С этой целью выдумываются самые невероятные версии — от многочисленных мифических боевиков, первыми открывающими огонь по войскам, до огромного количества несуществующего оружия, якобы предназначенного для

Mahir Həmzəyevin müəllifi olduğu essenin rus dilinə edilmiş tərcüməsi Baltik ölkələri, həmçinin Polşa və Ukraynada ən böyük xəbər portalı olaraq müxtəlif dillərdə fəaliyyət göstərən *www.ru.delfi.lt* saytında da yerləşdirilib.

Bakı, AR Diasporla iş üzrə Dövlət Komitəsinin saytı, 23 yanvar 2017-ci il.

QARABAĞ MÖVZULU HEKAYƏLƏR LİTVA DİLİNDƏ

Tanınmış yazıçı-dramaturq və publisist Elçin Hüseynbəylinin "Boz eşşəyin məktubları" adlı seçilmiş hekayələr toplusu 2017-ci ilin dekabrında Vilnüsdə Litva dilində nəşr olunub.[280] Kitaba müəllifin 1998–2014-cü illərdə yazdığı 16 hekayə salınıb. Bunlardan altısı – "Boz eşşəyin məktubları", "Gözünə gün düşür", "İlk öpüş", "Şimallı gəlin", "Qocanın axdığı gün", "Qaracanın qara başı" Qarabağ münaqişəsi mövzulu məşhur əsərlər sırasına daxildir.

Kitab Litva Azərbaycanlıları Cəmiyyəti tərəfindən 500 nüsxədən ibarət tirajla nəşr edilərək yayımlanıb, həmçinin ölkənin bütün böyük kitabxanalarının fondlarına təqdim olunaraq geniş oxucu auditoriyasının ixtiyarına verilib.

E. Hüseynbəylinin Litvada nəşr olunmuş "Boz eşşəyin məktubları" kitabının üz qabığının görüntüsü.

Kitabda ayrıca məqalədə yazıçının həyat və fəaliyyəti haqqında ensiklopedik məlumatlar verilib, həmçinin tərcüməçilər tərəfindən yazılmış ön söz çap edilib. "Elçin Hüseynbəyli yaradıcılığında Ağ və Qara" başlıqlı ön sözdə yazıçının Azərbaycan ədəbiyyatının inkişafına verdiyi töhfələr, milli söz sənətimizə gətirdiyi ədəbi yeniliklər haqqında təhlil və ümumiləşdirmələr təqdim olunub.

Əsərləri orijinaldan Litva dilinə karaim kökənli ictimai-mədəni xadimi və diplomat, Litvanın Azərbaycan və Türkiyədəki sabiq səfiri, AYB-nin fəxri üzvü Halina Kobetskayte və Mahir Həmzəyev tərcümə ediblər. Bu tərcümələr Litva

[280] Elčinas Huseinbeili. "Pilkojo asilo laiškai" (apsakymų rinkinys). Iš azerbaidžaniečių kalbos vertė H. Kobeckaitė ir M. Gamzajevas. Vilnius, Lietuvos azerbaidžaniečių bendrija, 2017, 148 psl. ISBN 978-609-95697-3-4.

oxucularının E. Hüseynbəyli yaradıcılığı ilə ilk tanışlığı deyil. Belə ki, 2013–2016-cı illərdə onun Litva dilinə tərcümə olunmuş səkkiz hekayəsi *"Metai"*, *"Literatūra ir menas"*, *"Šiaurės Atėnai"*, *"Nemunas"* adlı ədəbi-bədii dərgilərdə çap olunub və ölkənin ədəbi-mədəni ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanıb.

"Boz eşşəyin məktubları" hekayəsinin illüstrasiyası tanınmış latış rəssamı və qrafika ustası Lasma Puyatenin linoqravür texnikası üsulu ilə yaratdığı "Düyün" *("Resolve")* adlı əsərindən götürülüb.

"Gözünə gün düşür" adlı hekayə ilə bağlı vurğulamaq istərdik ki, yazıçı E. Hüseynbəyli 2010-cu ilin fevralında yazılmış bu əsərinin ideya və süjetinin erməni kino rejissorları tərəfindən plagiat olunduğunu və bunun əsasında onların Qarabağ müharibəsi barədə "Əgər hamı..." adlı film çəkdiyini iddia edir. Ermənistan "müəllifləri" həmin filmi 2012-ci ildə hətta "Oskar mükafatına təqdim etmişdilər və Hollivudda keçirilən "Arpa" kino festifalında lentin premyerası da keçirilmişdi. Amma buna baxmayaraq, bir sıra xarici ölkələrdə bu filmin başlıca məfkurəsinin və süjet olaraq seçilmiş olayların məzmun vektorunun Azərbaycan müəllifinə məxsus olmasını təsdiq edən konkret tədbirlərin həyata keçirilməsinə başlandı. Həmin tədbirlər çərçivəsində "Gözünə gün düşür" hekayəsi rus, gürcü, türk, fars, ərəb və ingilis dillərinə çevrildi. Beləliklə, bu xalqların geniş ictimai dairələri əsərlə tanış oldular və həqiqətin kimin tərəfində olduğunu bildilər.

Göstərilən hekayənin Vilnüsdə işıq üzü görməsindən sonra litvalı oxucular və ədəbiyyatşünaslar da əsərdən doğma dillərində bədii zövq almaqla yanaşı, həm də onun qayəsi və leytmotivi, cərəyan edən hadisələrin ana xətti ilə tanış olduqdan sonra, Ermənistan kinoçularının Azərbaycan mədəniyyətindən oğurluq etmələri haqqında deyilmiş iddiaların əsaslı olub-olmamasına əmin olmaq imkanı əldə ediblər.

E. Hüseynbəyli Litva mədəniyyəti üçün heç də yad şəxsiyyət deyil. O, yaxın keçmişdə bir neçə dəfə Litvada olub, Druskininkay və Vilnüs şəhərlərində keçirilmiş beynəlxalq tədbirlərdə Azərbaycan ziyalılarını təmsil edib. Litva ziyalıları – yazıçı, jurnalist, rəssam, muzey işçiləri və digər sənət adamlarıyla əlaqələr yaradıb. 2006-cı ilin dekabrında Vilnüsdə Prezident sarayında keçirilmiş "Zorakılığa qarşı toleransiya və islahatların uğuru" mövzulu Beynəlxalq forumda E. Hüseynbəyli Litvanın dövlət başçısı Valdas Adamkusla görüşərək onunla maraqlı fikir mübadiləsi aparıb.

"Zorakılığa qarşı toleransiya və islahatların uğuru" mövzulu Beynəlxalq forumun iştirakçıları. İlk sırada soldan üçüncü LR prezidenti V. Adamkus, dördüncü E. Hüseynbəyli. Vilnüs, LR Prezidentinin sarayı, 16 dekabr 2006-cı il.

Bu səfərlər zamanı litvalı jurnalistlərin E. Hüseynbəyli ilə Vilnüsdə apardığı müsahibələr nüfuzlu kütləvi informasiya vasitələrində yer alıb. O, Litvada keçirdiyi çoxsaylı görüşlərdən, həmçinin ölkənin ictimai-siyasi, mədəni və dini həyatından aldığı təəssüratları publisistik yazılarında ifadə edib. Bu minvalla Azərbaycan yazarının yaradıcılığında Litva mövzusu yer alıb.

E. Hüseynbəyli hər dəfə Litva Azərbaycanlıları Cəmiyyətini də ziyarət edir və diasporun fəaliyyəti ilə yaxından maraqlanır. O, öz kitablarından Cəmiyyətin kitabxanasına hədiyyələr edib. Yazıçı bu gün də Cəmiyyətin xətti ilə Litva mədəniyyət xadimləri və buradakı qələm qardaşları ilə yaradıcılıq əlaqələri saxlayır, dostluq münasibətlərini davam etdirir.

Bakı, Azərbaycan Yazıçılar Birliyinin www.ayb.az saytı, 3 mart 2018-ci il.

LİTVA KİTABLARINA KÖÇMÜŞ QARABAĞ AĞRISI

Litvalı ziyalıların bir çoxu Qarabağ hadisələrinə ürək ağrısı ilə yanaşırlar. Onların arasında jurnalist, publisit və naşir olanlar da vardır ki, bəzilərinin yaradıcılığında Qarabağ mövzusu və bu gün işğal altında inləyən bölgənin ağrı-acıları xüsusi yer tutur. Həmin müəlliflər Qarabağ münaqişəsi ilə ilgili əsərlərində tarixi həqiqətlərə və beynəlxalq hüququn hamılıqla qəbul olunmuş normalarına söykənən vətəndaş mövqeyini ortaya qoyurlar.

Bu məqalədə məqsədimiz Qarabağın azad edilməsi yolunda qələmlə mübarizə aparan vicdanlı Litva ziyalılarından üçünün – Gintaras Visotskas, Algimantas Liekis və Lyaonas Yurşanın münaqişə ilə bağlı araşdırma işlərinin qısa xülasəsini verməkdir.

Bu baxımdan, tanınmış jurnalist və naşir Gintaras Visotskasın fəaliyyəti xüsusilə diqqət çəkir. G. Visotskas 8 aprel 1966-cı ildə Vilnüsdə doğulub. 1984–1986-cı illərdə Sovet ordusu sıralarında hərbi xidmətdə olub. 1991-ci ildə Vilnüs Universitetinin Jurnalistika fakültəsini bitirib. Litvanın *"Literatūra ir menas", "Lietuvos aidas", "Atgimimas", "Respublika", "Valstiečių laikraštis"* və *"XXI amžius"* qəzetlərində çalışıb. 1994–1995-ci illərdə hərbi müxbir kimi Şimali Qafqazda fəaliyyət göstərib.

G. Visotskas 2007-ci ildə Vilnüsdə *www.slaptai.lt* ictimai-siyasi internet qəzetini və eyni adlı video studiyanı təsis edib. Həmin ildən etibarən Litva Azərbaycanlıları Cəmiyyəti onunla yaxın və işgüzar əlaqələr quraraq mühüm təbliğat layihələri həyata keçirib. O, 2014-cü ildən həm də Azərbaycanın Litvadakı Səfirliyi ilə media sahəsində əməkdaşlıq edərək bir sıra uğurlu işlərə imza atıb. Qarabağ mövzulu çoxsaylı tarixi və analitik məqalələrin, icmal və reportajların, Litva dilinə edilmiş tərcümələrin və video çəkilişlərin müəllifidir. G. Visotskasın indiyədək bu sahədə gördüyü işlərin zirvəsində 2016-cı ildə Vilnüsdə nəşr etdirdiyi "Qara bağın faciəsi" adlı kitabı durur.[281] Tarixi-publisistik janrda yazılmış bu kitabı G. Visotskas həmçinin rus dilinə tərcümə edərək 2017-ci ildə Litvada çap etdirib.[282]

G. Visotskas kitabda ilk baxışdan ritorik kimi görünən məntiqi bir sualla oxucularа müraciət edir: "Niyə Litva həmişə yadında saxlamır ki, Dağlıq Qarabağ və ətrafındakı Azərbaycana məxsus 7 rayon, yalnız Ermənistanın yox, həm də Rusiya hərbi qüvvələrinin iştirakı ilə və beynəlxalq hüquq normalarını

[281] Gintaras Visockas. "Juodojo sodo tragedija". (Azerbaidžano istorija lietuvio žurnalisto akimis). Vilnius, "Mokslotyros institutas", 2016. – 241 psl., tiražas 500 egz. ISBN 978-9986-795-74-2.

[282] Гинтарас Висоцкас. "Трагедия чёрного сада". Вильнюс, "Институт науковедения", 2017, 304 стр. ISBN 978-9986-795-78-0.

1. Litvalı publisist və naşir Gintaras Visotskas. 2. G. Visotskasın Litva və rus dillərində nəşr olunmuş "Qara bağın faciəsi" kitabının görüntüləri. Vilnüs, 2016–2017-ci illər.

ayaqlar altına atmaqla Azərbaycandan zorla qoparılıb. Nəticədə bir milyon dinc azərbaycanlı doğma ev-eşiyindən məhrum olunaraq didərgin düşüb. Axı, Qarabağı onların əlindən almaq – Litvadan Vilnüs diyarını, Latviyadan Latgale regionunu, Estoniyadan Narva torpaqlarını qoparmaq deməkdir!.."

Azərbaycan, o cümlədən Qarabağ tarixi ilə məşğul olan daha bir litvalı müəllif – tarixçi alim, professor Algimantas Liekis Litvada məhsuldar elmi fəaliyyəti ilə tanınıb. O, 16 oktyabr 1943-cü ildə Litvanın Taurage rayonunda dünyaya göz açıb. 1966-cı ildə Kaunas politexnik institunu mühəndis ixtisası üzrə bitirib. 1966–1984-cü illərdə Litvanın bir sıra qəzet və jurnallarında əməkdaş və redaktor kimi çalışıb. 1982-ci ildən tarix elmləri doktorudur. 1984–1991-ci illərdə Litva EA Tarix institutunda şöbə müdiri işləyib. 1994–1995-ci illərdə Litva Əhalisinin Soyqırımını və Müqavimət Hərakatını Araşdırma İnstitunun direktoru vəzifəsində çalışıb. 1996-cı ildən bir sıra elmi tədqiqat qurumlarına rəhbərlik edib və 2002-ci ildən "Elmi Araşdırmalar Mərkəzi"nin direktoru olub.

A. Liekis əhəmiyyətli fəaliyyəti və xidmətlərinə görə 6 fevral 2004-cü ildə Litva Respublikası Prezidentinin fərmanı ilə Böyük Litva knyazı Gediminas ordeninin Cəngavər xaçı ilə təltif olunub.

A. Liekis 13 avqust 2019-cu ildə dünyasını dəyişib və Vilnüsdəki Fəxri xiyabanda dəfn edilib.

Düşünürük ki, tarixçi alim A. Liekisin adı və imzası Azərbaycan elmi, siyasi və ictimai-mədəni dairələri üçün də maraq doğuracaqdır. Belə ki, o, Litva

1. Litvalı alim, humanitar elmlər doktoru, professor Algimantas Liekis. 2. A. Liekisin litvaca buraxılmış "XX əsrdə Qafqazda xalqların köçü" kitabının üz qabığının görüntüsü. Vilnüs, 2016-cı il.

alimləri arasında ilk dəfə böyük əhəmiyyət kəsb edən bir əsər – "XX əsrdə Qafqazda xalqların köçü" adlı monoqrafiya yazıb. Bu işi 2016-cı ildə tamamlayıb və həmin ildə kitabı Vilnüsdə litvaca nəşr etdirib.[283]

Müəllif giriş məqaləsində göstərir ki, "kitab Azərbaycan xalqının öz azadlığı və torpaqlarının qorunması naminə apardığı mübarizədən, bu yolda verdiyi şəhidlərdən və üz-üzə gəldiyi itkilər tarixindən bəhs edir". Zənnimizcə, A. Liekisin bu sözlərində həm də onun Qarabağ tarixinə baxışı və problemin həllinə yanaşması bir tezis olaraq manifestdə olduğu kimi çox dürüst ehtiva edilib.

Kitab 2016-cı ildə rus dilinə də tərcümə olunaraq nəşr olunub.[284] Tərcümə zamanı kitabın müəllifi mətnə bir sıra əlavələr edib.

"Eynəkli cənabla, təsbehli ağanın" – Rusiya və İranın 1828-ci ildə qəsbkarlıqla imza atdıqları ədalətsiz Türkmənçay müqaviləsinə və ermənilərin Azərbaycan torpaqlarına köçürülməsinə, beləliklə, gələcək Azərbaycan–Ermənistan qarşıdurmasının, eləcə də Qarabağ münaqişəsinin əsasının qoyulmasına tənqidi fikirlərini bildirərək haqq-ədalət müstəvisindən yanaşan litvalı müəlliflərdən biri də publisist Lyaonas Yurşadır. O, bu yönümlü düşüncələrini, təhlil və ümumiləşdirmələrini "Siyasətçilərin xalqların talelərini dəyişdirmiş qərarları" adlı litvaca kitabçasında təqdim edib. Litvalı publisistin bu kitabçası

[283] Algimantas Liekis. "Tautų kraustymai Kaukaze XX a.". Vilnius, "Mokslotyros institutas", 2016, 234 psl. ISBN 978-9986-795-72-8.

[284] Альгимантас Лекис. "Переселения народов на Кавказе XX в.". Геополитические причины переселения народов на Южном Кавказе в XX веке. Перевод с литовского издания "Tautų kraustymai Kaukaze XX a.". С некоторыми дополнениями. Вильнюс, "Институт науковедения", 2016, 330 стр. ISBN 978-9986-795-75-9.



1. Litvalı publisist Lyaonas Yurşa. 2. L. Yurşanın litvaca və rusca çap olunmuş "Siyasətçilərin xalqların talelərini dəyişdirmiş qərarları" adlı kitabçaları. Vilnüs, 2017-ci il.

2017-ci ildə Vilnüsdə işıq üzü görüb.[285] Və elə həmin ildə L. Yurşa kitabçanı rus dilinə tərcümə edərək burada nəşr etdirib.[286]

L. Yurşa panerməni təbliğat mərkəzinin Litvadakı qüvvələri tərəfindən indoktrinasiya edilmiş bəzi oxuculara kitabçanın elə ilk səhifəsindəcə müraciət edərək yazır:

"Bəri başdan bildirək ki, bu nəşr Dağlıq Qarabağın tarixi köklərinin Azərbaycanla bağlı olması barədə müddəanı inkar edənlərin döşünə yatmayacaq. Çünki, ermənilərin Cənubi Qafqaza köçürülməsini əks etdirən həqiqi tarixi saxtalaşdıraraq, guya onların ən qədim zamanlardan bəri məskunlaşdıqları və nə vaxtsa tərk etikləri doğma vətənlərinə qayıtmaları kimi qələmə vermək üçün yaradılmış mifləri bu kitabça tamamilə dağıdır.

Elə olmayıb axı. Əslində, ermənilər onların heç vaxt yaşamadıqları torpaqlara Rusiya imperiyası köçürüb məskunlaşdırıb. Bu səbəbdən onların Azərbaycan ərazilərinə iddia etməyə nə mənəvi, nə də hüquqi haqları yoxdur..."

Göstərilən kitablar əsasən tarixi-publisistik, politoloji və kulturoloji səpkidə yazılıb. Müsbət haldır ki, kitabların hamısı 2002-ci ildən Vilnüsdə uğurla fəaliyyət göstərən "Elmi Araşdırmalar Mərkəzi"nin xətti ilə nəşrə hazırlanıb və "Litva elmi" seriyasından buraxılıb. Nəşrlərdə həmçinin çox sayda illüstrasiyalar – şəkillər, xəritə, bayraq və poçt markaları görüntüləri yer alıb.

Bu kitabların geniş ictimai-siyasi və akademik dairələrdə tanıdılması üçün

[285] Leonas Jurša. "Tautų likimus pakeitę politikų sprendimai". Vilnius, "Mokslotyros institutas", 2017, 30 psl., tiražas 400 egz. ISBN 978-9986-795-76-6.

[286] Ляонас Юрша. "Судьбу народов изменившие политические решения". Вильнюс, "Институт науковедения", 2017, 74 стр. ISBN 978-9986-795-77-3.

2016-2019-cu illərdə Litvada bir sıra tədbirlər həyata keçirilib. 2016-cı ilin iyun ayında Litva Edukoloji Universitetində, 2017-ci ilin fevralında Vilnüsdəki Zabitlər evində, 2019-cu ilin iyununda Şyaulyay şəhərində baş tutmuş təqdimat tədbirləri göstərdi ki, Litvanın siyasi qurumlarından fərqli olaraq, ictimai-mədəni dairələrin təmsilçiləri Azərbaycan–Ermənistan, Qarabağ münaqişəsini tarixi həqiqətlərə uyğun, anlamlı şəkildə qəbul edib adekvat dəyərləndirirlər.

Azərbaycanın akademik və ictimai-mədəni qurumlarına da sözügedən nəşrlər və Litvada bu istiqamətdə görülən işlər barədə bilgilər təqdim olunub. Belə ki, 2017-ci ilin martında AMEA Mərkəzi Elmi Kitabxanasında geniş ictimaiyyətin və medianın, həmçinin G. Visotskasın və A. Liekisin iştirakı ilə litvalı müəlliflərin "Qara bağın faciəsi" və "XX əsrdə Qafqazda xalqların köçü" kitablarının təqdimat mərasimi gerçəkləşdirilib. Tədbir iştirakçıları litvalı ziyalıların Qarabağ həqiqətləri ilə bağlı politoloji və kulturoloji düşüncələri ifadə olunmuş, eləcə də münaqişə tarixinin səhifələrinə kənardan işıq salan bu kitabları maraqla qarşılayıb yüksək qiymətləndiriblər.

Sonda qeyd edək ki, A. Liekis və G. Visotskas kitabların təqdimatı ilə bağlı Azərbaycana səfər çərçivəsində həm də Qobustan dövlət tarixi-bədii qoruğunda oldular, eləcə də Quba Soyqırımı Memorial Kompleksini ziyarət etdilər. A. Liekis səfərdən qayıtdıqdan sonra Vilnüsdə kədər hissi ilə danışırdı:

"Litva və Azərbaycanın tarixi bir-birinə çox oxşayır. Həm biz, həm də azərbaycanlılar çox əzablar çəkmişik. Ancaq dünya nə bizim, nə də azərbaycanlıların tələfat və itkiləri haqqında demək olar ki, heç nə bilmir. Keçmişin yabançılar tərəfindən bizə zorla qəbul etdirilmiş traktovkasını təhrif edilməmiş və saxtalaşdırılmamış gerçək tarix ilə əvəz etmək üçün hər cür səylər göstərilməlidir".[287]

Vilnüs – Bakı, 2016 – 2019-cu illər.

Bakı, "525-ci qəzet", 23 avqust 2019-cu il, № 115.

[287] Gintaras Visockas. "Skaudi netektis: mirė istorikas Algimantas Liekis". Vilnius, portalas Slaptai.lt, 2019-08-16.

LİTVA RADİOSUNDA ERMƏNİ YALANLARI İFŞA OLUNUB

Bununla bağlı Litva ictimai radiosunun *"Ryto garsai"* verilişi üçün litvalı jurnalist Karine Urbanaviçyutenin hazırladığı reportaj 2020-ci ilin 24–26 iyul tarixlərində bir neçə dəfə efirdə yayımlanıb.

Azərbaycanın Litvadakı səfirliyindən Azərtac-a verilən məlumata görə, çoxminli Litva ictimai dairələri üçün nəzərdə tutulan reportajda Ermənistan Ordusunun 12–16 iyul tarixində Azərbaycan–Ermənistan dövlət sərhəddinin Tovuz rayonu istiqamətində həyata keçirdiyi hərbi təxribatlar və bu barədə yayımlanan erməni yalanları ifşa olunub. Verilişdə Ermənistanın Litva, Latviya və Estoniyadakı səfiri Tiqran Mkrtçyanın yalan və cəfəngiyyatla dolu verdiyi açıqlamalara Litva politoloqu, Vilnüs Universiteti Beynəlxalq münasibətlər və siyasi elmlər institunun professoru Dovile Yaknyunayte və Litva Azərbaycanlıları Cəmiyyətinin sədri, Əməkdar jurnalist Mahir Həmzəyev tərəfindən faktlarla tutarlı cavablar verilib və Azərbaycan həqiqətləri geniş auditoriyaya çatdırılıb.

Reportajda münaqişəni Azərbaycanın başlamadığı, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal olunduğu, daha dəhşətlisi ermənilər tərəfindən etnik təmizləmələrin aparıldığı qeyd olunub, işğal olunmuş Azərbaycan torpaqlarında əvvəllər 800 mindən çox vətəndaşın yaşadığı halda, indi isə 140 minə yaxın yalnız erməninin olduğu bildirilib. Həmçinin, Azərbaycanın beynəlxalq qanunlar çərçivəsində haqq və ədalətin bərpa olunması üçün öz torpaqlarını azad etmək hüququna malik olması vurğulanıb, ölkəmizin beynəlxalq ictimaiyyət və bütün dünya dövlətləri tərəfindən tanınan ərazi bütövlüyünə Ermənistanın hörmətlə yanaşması bir şərt kimi qeyd olunub.

Ekspertlər daha sonra ATƏT-in Minsk qrupunun fəaliyyətini də sərt tənqid edərək, münaqişənin nizamlanması üçün bu mexanizmə yenidən baxılması məsələsini qaldırıblar. Mahir Həmzəyev qeyd edib ki, artıq 30 ilə yaxın aparılan danışıqlar heç bir məna kəsb etmir. Qarabağın işğalı, Abxaziya, Sxinvali, Donbas və Krımın işğalından heç nə ilə fərqlənmir. Beynəlxalq hüquq və bütün dünya ölkələri, o cümlədən Litva tərəfindən qəbul olunmuş dövlətlərin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipi təcavüzkarı cilovlamaq üçün mütləq şərtdir. Ona görə də Ermənistana qarşı sanksiyalar tətbiq edilməlidir.

Reportajda əhalinin canlı itkilər verməsi məsələsi də qaldırılıb və Tovuz sakini Zərnişanın atasının ermənilər tərəfindən öldürülməsi faktı təqdim olunub.

Sonda Azərbaycan xalqının işğala məruz qalmasına rəğmən sülhsevər xalq olduğu, lakin heç bir zaman torpaqlarının Ermənistan tərəfindən işğal olunması ilə barışmayacağı bildirilib.

Azərbaycan Dövlət İnformasiya Agentliyinin (Azərtac-ın) veb-saytı, 30 iyul 2020-ci il.

İKİNCİ QARABAĞ MÜHARİBƏSİ İLƏ BAĞLI LİTVA RƏHBƏRLİYİNƏ MÜRACİƏT

Litva Azərbaycanlıları Cəmiyyəti və Litva–Azərbaycan Assosiasiyası, ikinci Qarabağ müharibəsinə Litvanın dövlət və hökumət rəhbərləri tərəfindən adekvat reaksiyanın verilməsi, qəsbkar Ermənistan dövlətinə müvafiq təsirin göstərilməsi, ona qarşı beynəlxalq sanksiyaların tətbiq edilib işğal etdiyi bütün Azərbaycan ərazilərindən heç bir qeyd-şərtsiz geri çəkilməyə məcbur edilməsi ilə bağlı onlara 5 oktyabr 2020-ci ildə beş bənddən ibarət müraciət ünvanlayıb.

Müraciət elə həmin gün Litvanın dövlət və hökumət rəhbərlərinə təqdim olunub, eyni zamanda ölkənin *"ELTA"* xəbərlər agentliyinin portalında Litva və rus dillərində dərc edilib, həmçinin sosial şəbəkələrdə bu dillərdə geniş yayımlanıb. Aşağıda müraciətin mətni təqdim olunur.

Litva–Azərbaycan Assosiasiyası və Litva Azərbaycanlıları Cəmiyyətinin
Litvanın Dövlət və Hökumət rəhbərlərinə müraciəti

Litva Respublikasının prezidenti Zati-Aliləri Gitanas Nausedaya
Litva Respublikası Seyminin sədri Viktoras Prantsketisə
Litva Respublikasının Baş naziri Saulyus Skvyarnyalisə
Litva Respublikası Seymi Xarici işlər komitəsinin sədri Yozas Byarnatonisə
Litva Respublikasının Xarici işlər naziri Linas Linkyaviçyusa

27 sentyabr 2020-ci ildə Azərbaycan və Ermənistan arasında yenidən hərbi toqquşmalar başlandıqdan sonra Litva mediasında və bir sıra siyasətçilərin açıqlamalarında bu münaqişə ilə bağlı ölkədə ictimai fikri çaş-baş salıb aldadan qəribə müddəalar yer almışdır. Buna bənzər açıqlamaların dünyanın digər ölkələrində də ictimai diskursa çıxarılması bu məsələnin mahiyyətini dəyişmir. Qeyri-dəqiq, xüsusilə də açıq-aşkar yalan məlumatların geniş miqyasda qəsdən yayımlanmasının bir çox hallarda səhv siyasi qərarların qəbul edilməsinə gətirib çıxardığını bildiyimizdən, lütfən diqqətinizi aşağıda göstərilən təməl məqamlara çəkmək istərdik:

1. Beynəlxalq hüquq baxımından Azərbaycan Respublikası, Litva Respublikası və onun NATO blokundakı bütün hərbi müttəfiqləri də daxil olmaqla mütərəqqi Dünya ölkələri tərəfindən hamılıqla tanınan dövlət sərhədləri çərçivəsində mövcuddur və bu anlamda tarixi Qarabağ bölgəsi də Azərbaycan ərazilərinin ayrılmaz tərkib hissəsidir. Buna görə də, təcavüzkar Ermənistan dövləti tərəfindən işğal olunmuş Azərbaycan Respublikasının tarixi Qarabağ bölgəsinə heç bir halda "kimsəsiz" və ya guya "mübahisəli" ərazi (hər iki anlam eyni şeydir) kimi baxılmamalıdır.

2. Tarixi Qarabağ vilayəti yalnız işğal olunmayıb, həm də qəddar etnik təmizləməyə məruz qalıb. Belə ki, Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində işğaldan əvvəl 800.000 nəfər insan (azərbaycanlı, kürd, erməni və b.) yaşayırdısa, indi burada millətcə yalnız ermənilərdən ibarət olan 140.000 nəfər əhali yaşayır, qalan 660.000 nəfər isə öz ölkələrində məcburi qaçqın olmaq zorunda qalıblar.

3. Tarixi Qarabağ əyalətində işğalçılar tərəfindən qanunsuz olaraq yaradılan və heç bir dövlət – hətta Ermənistanın özü və onun hamisi və təhrikçisi Rusiya tərəfindən rəsmi olaraq tanınmayan "Dağlıq Qarabağ Respublikası" – "DQR" adlandırılan bir oyuncaq qurum beynəlxalq hüququn subyekti kimi qəbul edilməməlidir. Həm də ki, bu qurumun adından fəaliyyət göstərən strukturlar Qarabağ bölgəsi əhalisinin mütləq əksəriyyətinin maraqlarını təmsil etmir və bunu bildikləri üçün buna heç səy də göstərmirlər. Qondarma "DQR" hərbi qüvvələri isə yalnız Ermənistan silahlı qüvvələrinin tərkib hissəsi kimi qəbul olunmalıdır.

4. Azərbaycan Ermənistandan fərqli olaraq, Ermənistan da daxil olmaqla digər dövlətlərin ərazilərinə və ya bu ərazilərin hər hansı bir hissəsinə iddia etmir və 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra heç zaman

buna cəhd də göstərməyib. Bu və göstərilən digər səbəblər üzündən Azərbaycan dövlətinin, təcavüzkarın işğal etdiyi torpaqlar da daxil olmaqla bütün əraziləri üzərindəki suverenliyini bərpa etmək səyləri, təcavüzkar Ermənistan dövlətinin işğal etdiyi tarixi Qarabağ vilayətinə yönəlik əsassız iddiaları ilə eyniləşdirilməməlidir. Qarabağ regionu əhalisinin müəyyən bir hissəsinin millətcə erməni olması məsələnin mahiyyətini dəyişdirmir – əks təqdirdə dünyanın əksər dövlətlərinin sərhədlərini dəyişdirmək lazım gələrdi, çünki sərhədlərin periferik bölgələrində adətən milli azlıqlar yaşayırlar.

5. Əgər Beynəlxalq ictimaiyyət onu təşkil edən nüfuzlu beynəlxalq təşkilatların və Litva Respublikası da daxil olmaqla bütün üzv dövlətlərin timsalında, həqiqətən də yalnız hərbi əməliyyatlara deyil, ümumiyyətlə Azərbaycan və Ermənistan arasındakı qarşıdurmaya son qoyulmasını istəyirsə, təcavüzün qurbanı olan Azərbaycan dövlətini Rusiyanın dəstəklədiyi təcavüzkar Ermənistan dövləti ilə „xoşluqla razılığa gəlməyə" inandırmağa son qoymalıdır, hərçənd bu cür çağırışlar 30 ilə yaxındır ki, davam edir. Axı, tarixi Qarabağ vilayətinin Ermənistan tərəfindən işğal olunması, Rusiya tərəfindən Moldovaya (Dnestryanı ərazilər), Ukraynaya (Krım yarımadası və Donbasın cənubi şərq hissəsi) və Gürcüstana (Abxaziya və Tsixinvali bölgələri) qarşı aparılmış analoji hərəkətlərdən heç nə ilə fərqlənmir. Beynəlxalq ictimaiyyət bunun əvəzinə elə ciddi tədbirlər görməlidir ki, təcavüzkar dövlət işğal etdiyi bütün Azərbaycan ərazilərindən qeyd-şərtsiz geri çəkilsin, həm də bu əraziləri işğal altında saxladığı müddətdə və kütləvi etnik təmizləmələr aparan zaman Azərbaycan dövlətinin məruz qaldığı itki və zərərləri ödəməyə məcbur edilsin.

Güman edirik ki, məhz belə tədbirlər Ermənistana bütün qonşuları ilə öz münasibətlərini yalnız normallaşdırmağa yox, həm də onu bir dövlət kimi çökdürən Rusiya asılılığından qurtulmağa imkan verərdi.

Hörmətlə,

İmantas MELYANAS – Litva – Azərbaycan Assosiasiyasının prezidenti
Mahir HƏMZƏYEV – Litva Azərbaycanlıları Cəmiyyətinin sədri

Vilnüs, 5 oktyabr 2020-ci il.

Bakı, "525-ci qəzet", 17 oktyabr 2020-ci il, № 134.

İKİNCİ QARABAĞ SAVAŞI İLƏ BAĞLI LİTVA RADİOSUNDA QƏRƏZLİ TƏBLİĞATIN İFLASI

Litva Milli Radiosunun (LRT) canlı efirində
28 oktyabr 2020-ci ildə M. Həmzəyevin etdiyi çıxışın xülasəsi

Salam, hörmətli LRT radiosunun dinləyiciləri. Bu verilişdə iştirak etməyə və hazırda davam edən Qarabağ müharibəsi barədə canlı efirdə fikir və xülasələrimi bölüşməyə söz vermişdim. Ancaq veriliş ərəfəsində bəzi gizli məsələlər üzə çıxdı və bu verilişdə iştirak etməyimin mənasız olduğuna əmin oldum. Hörmətli dinləyicilərə bununla bağlı aşağıdakı arqumentləri təqdim etmək istəyirəm:

1. Verilişdə iştirak edən LRT jurnalisti Anna Daukşeviç Litva Respublikası Xarici işlər nazirliyinin direktiv və tövsiyyələrinə məhəl qoymadan təcavüzkar Ermənistan dövlətinin işğal etdiyi və qanlı etnik təmizləmənin həyata keçirdiyi əraziyə, bu ərazinin qanuni sahibi Azərbaycan dövləti tərəfindən viza verilmədən, yəni qanunsuz olaraq səfər edib. O, etnik azərbaycanlıların Qarabağ bölgəsindən qovulduğu bir vəziyyətdə yalnız indi burada yaşayan və qərəzli millətçi mövqeyi tutmuş erməni milli icmasının nümayəndələrilə əlaqə qura bilərdi. Bu səbəbdən də LRT jurnalistinin problemə yanaşması və təqdim etdiyi ümumiləşdirmələr apriori olaraq obyektiv ola bilməz.

2. Əsas sual da budur ki, Litva da daxil olmaqla bütün dünya dövlətləri Azərbaycanın ərazi bütövlüyünü tanıyarkən, Litvanın dövlət mülkiyyəti olan və bu ölkənini vergi ödəyicilərinin pulu ilə saxlanılan LRT niyə göstərilən jurnalistin səfərini maliyyələşdirib? Əgər jurnalistin səfərini LRT maliyyələşdirməyibsə, bəs kim maliyyələşdirib? Məgər LRT öz jurnalistini Ukraynanın Rusiya tərəfindən işğal olunmuş ərazilərinə – Donbasa, Luqansk və ya Krıma təcavüzkar dövlətin paytaxtı Moskva üzərindən ezam edərdimi?

3. Bu verilişin aparıcısı Agne Skamarakayte məni məlumatlandırmışdı ki, verilişdə Litva ermənilər tərəfindən hüquqşünas Armen Ayrapetyan iştirak edəcək. O, LRT-nin Hüquq və vəkalət şöbəsinin məsləhətçisidir. Yeri gəlmişkən qeyd edim ki, Armen Ayrapetyan 2014-cü ilin sentyabr ayında Litva Respublikası Seyminin deputatlarını və jurnalistləri qanunsuz olaraq Yerevan üzərindən Qarabağa aparmışdı. Əldə olan məlumata görə o, LRT jurnalistinin Qarabağa indiki səfərinin təşkil olunmasında da yaxından iştirak edib. LRT jurnalistnin təcavüzkar Ermənistan dövləti üzərindən işğal olunmuş Qarabağ bölgəsinə qanunsuz səfər etdiyini və bu səfərin kim tərəfindən maliyyələşdirildiyini nəzərə alsaq, onda bu vəziyyət veriliş müəlliflərinin mövqeyinin də qərəzli – yəni ermənipərəst olması ilə bağlı fikir yürütmək üçün əsas vermirmi? Bundan sonra demək olardımı ki, verilişdə işğalçı Ermənistan tərəfinin mövqeyini yalnız bir iştirakçı təmsil edir?!

4. Göstərilən arqumentlərə əsaslanaraq bildirmək istəyirəm ki, Qarabağda total etnik təmizləmələr aparılan zaman qətlə yetirilmiş günahsız insanların xatirəsi mənə təcavüzkar Ermənistanın və onun Moskvadakı sahibləri tərəfindən yürüdülən qərəzli təbliğatın ortağı olmağa və bu dövlətlərin təcavüzkar siyasətini Litvada müdafiə edən züytutanlar dəstəsinin iştirakçısı olduğu verilişə qatılmağa imkan vermir.

Vilnüs, 28 oktyabr 2020-ci il.

Bakı, "525-ci qəzet", 29 oktyabr 2020-ci il, № 142.

VIII FƏSİL

ƏLAQƏLƏRƏ RƏVAC VERƏN TARİXİ QƏRARLAR, SƏFƏRLƏR, TƏBRİKLƏR

Latviya, Litva, Estoniya, Moldova, Gürcüstan, Ukrayna və Belarus respublikalarının dövlət müstəqilliyinin tanınması haqqında[288]

AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİNİN BƏYANATI

Azərbaycan Respublikasının Ali Soveti SSR İttifaqının suveren respublikalarının öz müqəddəratını və dövlət quruluşunu kənardan müdaxilə olmadan sərbəst təyin etmək, onların siyasi, iqtisadi, sosial və mədəni inkişafını öz arzusu ilə həyata keçirmək hüququnu təsdiq edərək öz müstəqilliyini elan etmiş Latviya, Litva, Estoniya, Moldova, Gürcüstan, Ukrayna və Belarus respublikalarının bu bəyannamələrinə tərəfdar olduğunu bildirir və onların müstəqilliyini tanıyır.

Azərbaycan Respublikası Ali Soveti respublikalarımız arasında səmərəli iqtisadi və mədəni əlaqələrin uzun illər toplanmış təcrübəsini, bu respublikaların dost xalqlarına rəğbət hissini əsas tutaraq Azərbaycanla müstəqil Latviya, Litva, Estoniya, Moldova, Gürcüstan, Ukrayna və Belarus respublikaları arasında qarşılıqlı faydaya əsaslanan əməkdaşlığın daha da inkişaf etdiriləcəyinə əmin olduğunu bildirir.

Ali Sovet öz dövlət müstəqilliyini elan etmiş respublikaları müstəqil Azərbaycan Respublikasını tanımağa və onunla hərtərəfli əlaqələr yaratmağa çağırır. Müstəqil Azərbaycan Respublikası indiyədək SSRİ-nin tərkibində olan bütün respublikalarla bir-birinin suverenliyini tanımaq, qarşılıqlı hörmət və bir-birinin işlərinə qarışmamaq şərti ilə iqtisadi əlaqələri bərpa etmək və özünün bütün öhdəliklərini ardıcıl surətdə yerinə yetirmək əzmində olduğunu və bu istiqamətdə danışıqlar aparmağa hazır olduğunu bildirir.

Azərbaycan Respublikası
Ali Sovetinin sədri **Elmira QAFAROVA**

Bakı şəhəri, 30 avqust 1991-ci il.
№ 181-XII

[288] Bəyanatın rusca qəbul edildiyini nəzərə alaraq sənədin mətni Azərbaycan və rus dillərində təqdim olunur.

Управление делами Президента Азербайджанской Республики
ПРЕЗИДЕНТСКАЯ БИБЛИОТЕКА

Заявление Верховного Совета Азербайджанской Республики
(30 августа 1991)

Верховный Совет Азербайджанской Республики, утверждая право суверенных республик Союза ССР на самостоятельное, без вмешательства извне, определение собственной судьбы и государственного устройства, свободное осуществление своего политического, экономического, социального и культурного развития, поддерживает декларации о независимости, принятые республиками Латвии, Литвы, Эстонии, Молдовы, Грузии, Украины и Белоруссии, и признает их независимость. Верховный Совет Азербайджанской Республики, исходя из накопленных за долгие годы плодотворных экономических и культурных связей между нашими республиками, из чувства уважения к дружественным народам этих республик, выражает надежду на дальнейшее развитие сотрудничества с Азербайджаном Латвии, Литвы, Эстонии, Молдовы, Грузии, Украины и Белоруссии на взаимовыгодной основе.

Верховный Совет призывает республики, провозгласившие свою государственную независимость, признать независимую Азербайджанскую Республику и установить всесторонние связи.

Независимая Азербайджанская Республика заявляет о своей решимости восстановить экономические связи, последовательно выполнять свои обязанности и готовность вести переговоры в этом направлении со всеми республиками, ныне входящими в состав СССР, при условии взаимного признания суверенитета, взаимоуважения и невмешательства в дела друг друга.

г. Баку, 30 августа 1991 г.
№ 181-XII.

Опубликовано в «Ведомостях Верховного Совета Азербайджанской Республики» (31 августа 1991 года, № 15—16 (844—845), ст. 264)

AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİ MİLLİ ŞURASININ QƏRARI[289]

Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası hər xalqın öz milli inkişaf yolunu sərbəst seçməyə və dövlət quruluşunu bərqərar etməyə ümumbəşəri hüququnu əsas götürərək, Litvanın müstəqilliyinin elan olunmasına dərin hörmətlə və tarixi ədalət anlamı ilə yanaşaraq, dövlətlərarası münasibətlərin beynəlxalq prinsiplərini rəhbər tutaraq **qərara alır:**

Litva Respublikasının dövlət müstəqilliyi tanınsın.

Azərbaycan Respublikası
Ali Soveti sədrinin müavini — Tamerlan QARAYEV

Bakı şəhəri, 6 dekabr 1991-ci il.
№ 10

АЗӘРБАЈҸАН РЕСПУБЛИКАСЫ АЛИ СОВЕТИ
МИЛЛИ ШУРАСЫНЫН
Г Ә Р А Р Ы

ПОСТАНОВЛЕНИЕ
НАЦИОНАЛЬНОГО СОВЕТА
ВЕРХОВНОГО СОВЕТА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

О признании государственной независимости
Республики Литва

Национальный Совет Верховного Совета Азербайджанской Республики исходя из общечеловеческого права каждого народа на свободный выбор пути национального развития и утверждение своей государственности, с глубоким уважением и сознанием исторической справедливости относясь к провозглашению независимости Литвы, руководствуясь международными принципами межгосударственных отношений постановляет:

Признать государственную независимость Республики Литва.

Заместитель Председателя Верховного Совета Азербайджанской Республики — Т.Караев

г.Баку, "6" декабря 1991 год
№ 10

[289] Qərarın rusca qəbul edildiyini nəzərə alaraq sənədin mətni Azərbaycan və rus dillərində təqdim olunur.

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin tanınması haqqında

LİTVA RESPUBLİKASI ALİ SOVETİNİN QƏRARI[290]

Litva Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 30 avqust 1991-ci ildə qəbul etdiyi Bəyannaməni nəzərə alaraq və xalqların öz müqəddəratını təyin etmək hüququna hörmət edərək **qərara alır:**

Azərbaycan Respublikasının dövlət müstəqilliyi tanınsın.

Litva Respublikası
Ali Sovetinin Sədri **Vitautas LANDSBERGİS**

Vilnüs şəhəri, 20 dekabr 1991-ci il.
№ I-2130

LIETUVOS RESPUBLIKOS
AUKŠČIAUSIOSIOS TARYBOS

NUTARIMAS

DĖL AZERBAIDŽANO RESPUBLIKOS NEPRIKLAUSOMYBĖS PRIPAŽINIMO

Atsižvelgdama į Azerbaidžano Respublikos Aukščiausiosios Tarybos 1991 m. rugpjūčio 30 d. Deklaraciją „Dėl Azerbaidžano Respublikos valstybinės nepriklausomybės atkūrimo" ir gerbdama laisvo tautų apsisprendimo teisę, Lietuvos Respublikos Aukščiausioji Taryba n u t a r i a:

Pripažinti Azerbaidžano Respublikos valstybinę nepriklausomybę.

LIETUVOS RESPUBLIKOS
AUKŠČIAUSIOSIOS TARYBOS
PIRMININKAS *VYTAUTAS LANDSBERGIS*

Vilnius, 1991 m. gruodžio 20 d.
Nr.I-2130

[290] Qərarın mətni Azərbaycan və Litva dillərində təqdim olunur. Litvaca dərc olunan mənbə: "Valstybės žinios" ("Dövlət Xəbərləri") toplusu, Vilnüs, 1992-01-10, № 1–3.

PREZİDENT ƏBÜLFƏZ ELÇİBƏYİN LİTVA AZƏRBAYCANLILARINA NOVRUZ TƏBRİKİ

Vilnüs, 232009, M. K. Çürlyonis küçəsi 18,
Litva Kitabsevərlər Cəmiyyəti, Mahir Həmzəyevə



Əziz həmvətənlər!

Novruz bayramının gəlişi münasibətilə Sizi və çevrənizdəki bütün soydaşlarımızı ürəkdən təbrik edirəm.

Müstəqillik yolunda ilk addımlarını atan doğma Azərbaycan Respublikamız xalqımızın ən qədim adət və ənənələrini, mənliyini özündə yaşadan müqəddəs Novruz bayramını çətin, lakin şərəfli bir zamanda qarşılayır.

Novruz bolluq, bərəkət, barış, ürəkdən kin-küdurəti silən bayramdır. Belə zəngin mənəvi dəyəri olan xalqı heç bir qüvvə öz yolundan döndərə bilməz.

Ürəyimizdə xoş arzular tutduğumuz ilk yaz günündə inanırıq ki, Azərbaycanımızın müstəqilliyi, xoşbəxtliyi yalnız dünyadakı bütün soydaşlarımızın fikir, dil və iş birliyi nəticəsində mümkün olacaqdır.

Tanrı Sizi qorusun!

Azərbaycan Respublikasının prezidenti Əbülfəz ELÇİBƏY

Bakı şəhəri, 17 mart 1993-cü il. № 8/6.

HƏMVƏTƏNLƏRİMİZİN TƏŞKİLATLANMASI YOLUNDA İLK ADDIMLAR

Azerbaycan Respublikası Prezidentinin
MÜŞAVİRİ

370066. Bakı şəhəri, İstiqlaliyyət küçəsi, 19 98-33-68 92-75-79

Vilnüs şəhəri, 232009, M. K. Çyürlönis küçəsi 18,
Litvada Azərbaycanlıların "Odlar yurdu" Cəmiyyətinin
sədri Mahir Həmzəyevə

Hörmətli həmvətənlər!

XX əsr Azərbaycan xalqının azadlıq mübarizəsi tarixinə bir çox şanlı səhifələr yazmışdır. Xalqımız milli müstəqillik uğrunda dəfələrlə üsyan bayrağı qaldırmış, bu yolda saysız-hesabsız qurbanlar və şəhidlər vermiş, əsarət və köləliklə barışmayan yüz minlərlə Vətən övladı dünyanın müxtəlif ölkələrinə mühacirət etmək məcburiyyətində qalmışdır. Onların acı taleyinə həsrət və məşəqqət, ayrılıq və göz yaşları düşmüşdür. Lakin xalqımızın mübarizəsi hədər getməmiş, Vətənimizin bir parçasında müstəqil Azərbaycan Respublikası yaranmışdır.

Azad və müstəqil Azərbaycan Respublikası mühacirət problemini özünün ümummilli problemlərindən biri sayır. Bu məqsədlə Bakı şəhərində Dünya azərbaycanlılarının qurultayını çağırmaq qərara alınmış və Azərbaycan Respublikasının prezidenti Əbülfəz Elçibəyin başçılığı altında Təşkilat komitəsi yaradılmışdır.[291]

Qurultayı çağırmaqda əsas məqsəd milli-mənəvi bütövlüyümüzü qorumaq, işdə, fikirdə, əməldə birliyə nail olmaqdır.

Əziz həmvətənlər!

Xarici ölkələrdə yaşayan soydaşlarımızın, cəmiyyət, dərnək, mərkəz, birlik və ocaqlarının nümayəndələrinin iştirak edəcəyi bu məclisdə:

– Azərbaycan mühacirətinin tarixi, müasir vəziyyəti və perspektivləri;

[291] Dünya azərbaycanlılarının qurultayının çağırılması və Təşkilat komitəsinin yaradılması haqqında Azərbaycan Respublikasının prezidenti Əbülfəz Elçibəyin Sərəncamı. Bakı şəhəri, 24 dekabr 1992-ci il. № 255.

– mühacirətin siyasi, ictimai, mədəni, iqtisadi problemləri və onların həlli yolları;

– Vətən-övlad münasibətləri;

– Azərbaycan həqiqətlərinin dünyaya yayılması və s. məsələlər müzakirə olunacaqdır (təxmini gündəlik əlavə olunur).

Qurultayda Dünya azərbaycanlılarının Milli-Mədəni Konqresinin və ya Parlamentinin seçilməsi, bir sıra mühüm sənədlərin qəbul edilməsi nəzərdə tutulur.

Əziz həmvətənlər!

Qurultayın keçirilməsi ilə bağlı təklif və arzularınızı bildirməyi, məktuba əlavə olunan sorğu vərəqəsini doldurarak bizə göndərməyi xahiş edirik.

Ana Vətəndən hərarətli salam və ehtiramla –

Hidayət ORUCOV

Azərbaycan Respublikası Prezidentinin millətlərarası münasibətlər üzrə müşaviri,
Dünya azərbaycanlılarının qurultayının keçirilməsi üzrə Təşkilat komitəsinin sədr müavini.

Bakı, 18 fevral 1993-cü il. № 8/6.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin Litva Azərbaycanlıları Cəmiyyətinin sədri Mahir Həmzəyevə təşəkkür məktubu

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

Litva Azərbaycanlıları Cəmiyyətinin sədri,
Litva Respublikasının Hökuməti yanında Milli İcmalar Şurasının üzvü
cənab Mahir Həmzəyeva

Hörmətli Mahir Həmzəyev,

Azərbaycan Respublikasının Prezidenti seçilməyim münasibətilə səmimi təbrikinizə və xoş arzularınıza görə Sizə və Litvada yaşayan bütün azərbaycanlılara təşəkkür edirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Bakı şəhəri, "29" noyabr 2003-cü il

№ I/749

Azərbaycan prezidenti İlham Əliyev, Litva prezidenti Valdas Adamkus və Litva Azərbaycanlıları Cəmiyyətinin sədri Mahir Həmzayev. Görüş prezident İ. Əliyevin Litva Respublikasına ilk rəsmi dövlət səfəri çərçivəsində bu ölkənin Prezident sarayında təşkil olunmuş rəsmi qəbul zamanı baş tutub. Vilnüs, 13 sentyabr 2007-ci il.

MİLLİ VƏ BƏŞƏRİ DƏYƏRLƏRƏ BAĞLILIQ

2 aprel 2003-cü ildə Dünya azərbaycanlıları diaspor təşkilatları rəhbərlərinin Almaniyanın Mayns şəhərində keçirilən Forumuna Litva Respublikası Hökuməti yanında Milli azlıqlar və Diaspora Departamenti tərəfindən ünvanlanan Təbriknamə (Litva dlindən tərcümə)

TAUTINIŲ MAŽUMŲ IR IŠEIVIJOS
DEPARTAMENTAS PRIE LIETUVOS RESPUBLIKOS VYRIAUSYBĖS

Azərbaycan Respublikasının Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla iş üzrə Dövlət Komitəsinin sədri cənab Nazim İbrahimova

Hörmətli Sədr,

Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə Dünya azərbaycanlıları diaspor təşkilatları rəhbərlərinin Almaniyanın Mayns şəhərində 2 aprel 2003-cü ildə keçirilən "Azərbaycan diasporu bu gün: problemlər, qayğılar" mövzulu Forumun bütün iştirakçılarını və qonaqları səmimi qəlbdən salamlayıram.

Litva Azərbaycanlıları Cəmiyyətinin son 15 ildəki uğurlu fəaliyyəti ilk növbədə azərbaycançılığın qorunub saxlanmasının gözəl nümunəsi olmaqla bərəbər, həm də Litvanın ictimai-mədəni həyatının yeni çalarla zənginləşdirilməsi, müstəqil Litva–Azərbaycan dövlətlərarası münasibətlərinin təməlinin qoyulub inkişaf etdirilməsi, xalqlarımız arasındakı hərtərəfli əlaqələrin və qarşılıqlı anlaşma ənənələrinin genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Məsafə uzaqlığına baxmayaraq sizinlə həm keçmiş, həm də gələcək taleyimizin eyniliyini yaxşı dərk edirik. Ümidvaram ki, dünyanın müxtəlif ölkələrində məskunlaşmış çoxsaylı Litva və Azərbaycan diaspor təşkilatları etnik

dövlətlərimizin nüfuzlu beynəlxalq təşkilatlara üzv olmaq səylərini əməli işlərlə dəstəkləyəcək, yaradıb-qurmaq əzmi ilə qlobal çağırışlara sinə gərərək yeni məzmunlu ümumbəşər sivilizasiyası xəzinəsinə önəmli töhfələr verəcəklər.

Forumun iştirakçılarına yüksək məramlı işlərində uğurlar diləyir, hamınıza ana dilinizin gözəlliyinin və doğma torpaqlarınızın cazibəsinin bundan sonra da mənəvi qüdrətinizin tükənməz mənbəyi olaraq qalmasını arzulayıram.

Hörmətlə,
Antanas PETRAUSKAS

Litva Respublikası Hökuməti yanında Milli Azlıqlar və Diaspora Departamentinin Baş direktoru

Vilnüs şəhəri, 31 mart 2003-cü il.

AZƏRBAYCAN VƏ ÖZBƏK ƏLAQƏLƏRİNİN LİTVADA GÖYƏRƏN ŞAXƏSİ

Vilnüsdə Özbəkistan Respublikası müstəqilliyinin ildönümünə həsr olunmuş tədbirdə Mahir Həmzəyevin təbrik çıxışı

Özbəkistanın Latviyadakı səfiri cənab Kobiljon Nazarov!
Litva Özbəkləri Mədəniyyət Mərkəzinin prezidenti hörmətli
Leyla xanım Urmanova!
Dəyərli özbək bacı və qardaşlarım, əziz qonaqlar!

Özbəkistan Respublikası dövlət müstəqilliyinin 12-ci ildönümü münasibətilə Sizi Litva azərbaycanlıları adından səmimi-qəbdən təbrik edir və şəxsinizdə özbək diasporuna, bütün özbək xalqına əmin-amanlıq, firavanlıq, davamlı tərəqqi və səadət arzulayıram! Qoy qardaş Özbəkistan dövləti getdikcə çiçəklənsin, dövlətçiliyi və müstəqilliyi əbədi olsun!

Bu bayram tədbirində mənə təbrik çıxışı üçün verilmiş xoş fürsətdən istifadə edərək Litva özbəklərini və azərbaycanlıları birləşdirən ortaq dəyərlər – etnokulturoloji köklər, türk tarixi, ədəbi-mədəni bənzərliklər və ümumi ictimai-siyasi amillər barədə qısaca danışmaq istərdim.

Bizi hər şeydən əvvəl doğma və qədim türk dilləri, türk xalqlarının şanlı keçmişi, tarixi min illərlə hesablanan dövlətçilik ənənələri, qədim İpək yolu və dini dəyərlərimiz birləşdirir.

Xalqlarımızı şifahi xalq ədəbiyyatımızın bənzərliyi, folklorumuzdakı ümumi mövzular və qəhrəmanlar – ilk növbədə məşhur el qəhrəmanı Koroğlu

Özbək icmasının sədri Leyla Urmanova

Litva özbəkləri icmasının fəalları

birləşdirir. Azərbaycanlılar üçün Alpamış və Muğanna obrazları da yad deyil. Bizim ortaq türkdilli abidəmiz – Mahmud Qaşqarlının XI əsrdə yaratdığı və türk dillərini, ləhcələrini özündə parlaq surətdə ehtiva edən "Divani-lüğətit türk" (*litvaca – "Tiurkų tarmių žodynas"*) didaktik poemamız vardır. Biz dahi Nizaminin davamçısı, özbək türkcəsində məşhur "Xəmsə"ni yaratmış böyük şair və filosof Əlişir Nəvai yaradıcılığından keçən qədim Azərbaycan–özbək ədəbi əlaqələri ilə fəxr edirik. Əcdadlarımız bir-birindən öyrəniblər – Nəvai Nizaminin, dahi Füzuli isə Nəvai yaradıcılığından əxz ediblər. Bu ədəbi ənənə bu gün də davam edir.

Litva özbəklərini və Litva azərbaycanlılarını ictimai-siyasi və mədəni anlamda həm də Litva torpağı və Litva dili birləşdirir. Bu, həmin dildir ki, özbək xalq nağılları,[292] İbn Sinanın, Əlişir Nəvainin, Aybəkin,[293] Qafur Qulamın,[294] Əsqəd Muxtarın,[295] Abdulla Qəhharın, Abdulla Qədirinin, Səid Əhmədin,[296] Pirimqul Qədirovun,[297] Timur Pulatovun,[298] Zülfiyyənin, Rəmzi Babacanın, Erkin Vahidin, Həmid Qulamın,[299] Həmid Əlimcanın, Kamil Yaşenin, Şükrullanın, Əbdülhəmid Çolpanın, Ulmas Ömərbəyovun[300] və digər özbək ədiblərinin əsərləri bu dilə tərcümə olunaraq Litvada yaşayan türk xalqlarının yeni nəsli tərəfindən indi litvalılarla bərabər litvaca oxunur.

[292] "Lakšingala devynbalsė". Uzbekų pasakos. Vilnius, "Vaga", 1983, 320 psl.
[293] Aibekas. Navoji. Romanas. Vertė Liucina Starevičiūtė. Valstybinė grožinės literatūros leidykla, Kaunas, 1948.
[294] Gafuras Guliamas. "Padauža". Apysaka. Vertė Halina Kobeckaitė. Vilnius, "Vaga", 1971.
[295] Askadas Muchtaras. "Laikas ir likimai". Romanas. Vertė Halina Kobeckaitė. Vilnius, "Vaga", 1969.
[296] Achmadas Saidas. "Horizontas". Romanas. Vertė Halina Kobeckaitė. Vilnius, "Vaga", 1980.
[297] Pirimkulas Kadyrovas. "Juodos akys". Romanas. Vertė Halina Kobeckaitė. Vilnius, "Vaga", 1972, 318 psl.
[298] Timūras Pulatovas. "Pašauk mane miške". Apysakos. Vertė Halina Kobeckaitė. Vilnius, "Vaga", 1981.
[299] Chamidas Guliamas. "Nemirtingumas". Romanas. Vertė Halina Kobeckaitė. Vilnius, "Vaga", 1984.
[300] Ulmasas Umarbekovas. "Žalioji žvaigždė". Romanas. Vertė Halina Kobeckaitė. Vilnius, "Vaga", 1975.

Özbək dilinə isə Litva ədəbiyyatından seçilmiş şeirlər və nəsr əsərləri toplusu (1951),[301] Litva hekayələri antologiyası (1952), tanınmış yazıçı və şairlərdən Pyatras Svirka ("Ana torpaq" romanı, 1964), Jemayte, Yuozas Baltuşis, Eduardas Miejelaytis ("İnsan" poeması, 1963), Yonas Avijyus, Mikolas Slutskis, Yustinas Martsinkyaviçyus ("Mindaugas" pyesi, 1978), Vitautas Pyatkyaviçyus kimi ünlü Litva qələm ustalarının kitabları tərcümə edilib.

Litva, Özbəkistan və Azərbaycan xalqlarını bir-birinə mənən yaxınlaşdıran bir sıra ictimai-tarixi ümumiliklər vardır. Bizi həm də Azadlığa aparan yollar bir-birinə duyarlı şəkildə bağlayır, tarixi ədalətin bərpa olunması və ölkələrimizin Dünyanın siyasi xəritəsinə qayıtması baxımından 11 mart 1990-cı ildə Litvada, 30 avqust 1991-ci ildə Azərbaycanda və 1 sentyabr 1991-ci ildə Özbəkistanda Dövlət müstəqilliyi barədə qəbul edilmiş tarixi deklarasiyalar xalqlarımıza bağımsız Vətən yolunu nişan verir və hamımızı yeni məzmunlu quruculuq işlərinə kökləyir.

XX əsrin sonunda xalqlarımızın həyatında baş ver vermiş taleyüklü tarixi hadisələr olmasaydı, milli azadlıq və dövlət müstəqilliyi uğrunda mücadilə aparılmasaydı, bu gün azad Litvada Özbəkistanın müstəqilliyini bayram edə bilməzdik. Odur ki, həm Litvanın, həm də etnik vətənlərimiz Özbəkistan və Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq, inkişaf etdirmək və əbədi etmək şərəfli borcumuzdur.

Zənnimcə, bu gözəl tədbir Litva özbəklərinin tarixi vətənlərinin müstəqilliyi ilə bağlı tarixi yaddaşını hifz etməklə yanaşı, həm Litva və özbək xalqları arasındakı mədəni əlaqələrin, həm də Litva–Özbəkistan dövlətlərarası münasibətlərinin möhkəmləndirilməsinə xidmət edir. Bununla bağlı qeyd etmək istərdim ki, Litva özbəkləri Litvanın etnokulturoloji dəyərlərinin Özbəkistanda yaxından tanınması üçün nə qədər çalışıb yaddaqalan töhfələr versələr, bir o qədər Özbəkistanın səsi Litvada yüksəkdən gələcək və qədim mədəniyyəti yaxından tanınacaq.

Ümidvaram ki, Litva özbəkləri bundan sonra da Litva–Özbəkistan dövlətlərarası münasibətləri salnaməsinə və mədəniyyətlərarası dialoqu tarixinə belə məzmunlu tədbirlər vasitəsilə, eləcə də digər gözəl işlər sayəsində yeni səhifələr yazacaq, sanballı töhfələr verəcəklər.

Müstəqillik bayramınız mübarək olsun, əziz dostlar!

Vilnüs, Müəllimlər evinin Böyük zalı, 5 sentyabr 2003-cü il.

[301] „Draugų balsai". Taşkentas, 1951.

LIETUVOS RESPUBLIKOS SEIMO
PIRMININKAS

LİTVA RESPUBLİKASI SEYMİNİN SƏDRİ

TƏŞƏKKÜRNAMƏ

Hörmətli Mahir HƏMZƏYEV!

Azərbaycan xalqının mədəni isrinin qorunub yayımlanması sahəsində göstərdiyiniz məzmunlu fəaliyyətə görə Sizə səmimi qəlbdən təşəkkür edirəm.

Siz bu cür dürüst və fədakar işlərinizlə yalnız öz xalqınızın milli mənəvi dəyərlərinin qorunub saxlanılmasına gözəl töhfələr vermirsiniz, həm də Litva mədəniyyətini zənginləşdirirsiniz.

Qoy doğma diliniz və mədəniyyətiniz Sizin üçün həmişə mənəvi qüdrət mənbəyi olaraq qalsın.

Çeslovas YURŞENAS
Litva Respublikası Seyminin Sədr əvəzi

Vilnüs şəhəri, 20 may 2004-cü il.

MİLLİ BİRLİK VƏ MİLLİ İDEYA DİASPORUN HƏRƏKƏTVERİCİ ÖZƏYİDİR

Litva Respublikası Prezidentinin müşaviri Halina Kobetskaytenin Dünya azərbaycanlılarının II Qurultayında çıxışı

Azərbayacan Respublikasının prezidenti Zati-Aliləri cənab İlham Əliyev!
Möhtərəm qurultay nümayəndələri və qonaqlar!

Litva prezidenti Zati-Aliləri cənab Valdas Adamkusun adından Dünya azərbaycanlılarının II Qurultayını ürəkdən təbrik edirəm. Qurultaya uğurlu iş arzulayır və Prezidentin ən səmimi və xoş diləklərini Sizə çatdırıram. Sizin simanızda bütün Azərbaycan xalqına, Azərbaycan diasporuna, Azərbaycan və azərbaycançılıq naminə önəmli işlər, uca zirvələr arzulayıram.

Bütün zamanlarda, bütün xalqlarda hadisələr və ictimai-tarixi proseslər elə cərəyan edib ki, insanlar müxtəlif səbəblər üzündən yaşam yerlərini dəyişməli olublar. Bu gün 1 milyondan artıq litvalı dövlətimizin hüdudlarından kənarda yaşayır. Onların böyük hissəsi Litvanın dövlət müstəqqilliyi uğrunda, milli azadlıq savaşında çox mühüm rol oynayıb. Litva milli təşkilatlarının fəaliyyəti sayəsində Amerikada, Almaniyada, Kanadada, Avstraliyada və başqa ölkələrdə Litvanın haqq işi barədə məlumat çatdırılır və Litva həqiqətləri bütün dünyaya yayılırdı. Sual oluna bilər ki, belə bir mühüm işi nəyə əsaslanaraq həyata keçirmək mümkün olub? İlk növbədə, ona görə ki, litvalılar xaricdə yaşasalar da, həmişə öz vətənləri ilə yaxınlıq və mənəvi bağlılıq hiss ediblər. Onlar ata-babalarının adət-ənənələrini və ana dillərini unutmamağa çalışır, assimilyasiya olunmağa müqavimət göstərir, ən başlıcası isə fəal surətdə milli

və etnokulturoloji identikliyi qoruyub saxlayıblar. Buna görə də 1990-cı ildə Litva yenidən müstəqilliyə nail olduqdan sonra xaricdə yaşayan bütün litvalılar özlərini şüurlu surətdə bütöv və vahid Litva xalqının oğul və qızları sayırlar. Heç də əbəs deyildir ki, bu gün Dünya litvalıları icmasının mərkəzi Vilnüsdə, şöbələri isə xarici ölkələrdədir. Hər üç ildən bir Vilnüsdə Dünya Litvalıları İcmasının parlamenti çağırılır. Dövlət gənc nəslin Litva dilini öyrənməsinin qayğısına qalır. Çalışır ki, onlar özlərini tam litvalı kimi hiss etsinlər. Şərait yaradır ki, diaspora bu gün öz vətənin uğurlarının və mədəniyyətinin təbliğatçısı olsun.

Digər tərəfdən isə Litvanın özündə də bir çox milli azlıqlar yaşayırlar. Dövlət onların etnokulturoloji identikliyini qoruyub saxlamaları üçün şərait yaradır. Litvadakı milli azlıqların öz təşkilatları vardır.

Qeyd olunmalıdır ki, 1988-ci ildə yaradılmış Litva Azərbaycanlıları Cəmiyyəti ilk milli təşkilatlardan biridir. O vaxtan indiyədək cəmiyyətə Litva milli azlıqlar hərəkatının öncüllərindən biri kimi tanınan hörmətli Mahir Həmzəyev uğurla rəhbərlik edir. Litva Azərbaycanlıları Cəmiyyəti müstəqilliyimizin bərpası dövründəki ağır illərdə böyük fəallıq göstərib, xalqla həmrəy olub və dövlətimizə loyal münasibət bəsləyib. Cəmiyyətin adı bu gün hörmətlə çəkilir.

Litva Azərbaycanlıları Cəmiyyəti Litva torpağında 600 il bundan əvvəl məskunlaşmış digər türk icmaları ilə sıx əlaqə saxlayır. Mən özüm Litvanın qədim türk icmalarından biri olan karaimlərin təmsilçisi kimi bu əlaqələri yaxşı bilir və onlarla fəxr edirəm. Fəxr edirəm ki, məhz mənim xalqımın nümayəndəsi, tanınmış türkoloq alim, karaim Hacı Sürəyya xan Şapşal hələ 1935-ci ildə Krakov şəhərində İran azərbaycanlılarının xalq ədəbiyyatı haqqında kitab çap etdirib. Fəxr edirəm ki, ana dilimin sayəsində Azərbaycan yazarlarından Mehdi Hüseynin, İlyas Əfəndiyevin, Səməd Vurğunun, Yusif Səmədoğlunun, Anarın, Rüstəm İbrahimbəyovun əsərlərini Litva dilinə tərcümə etmişəm.

Çox məmnunam ki, Litvanın qədim paytaxtı Vilnüsdə Litva–Azərbaycan mədəni əlaqələrini araşdıran, xalqlarımız arasında yeni əməkdaşlıq körpülərü salan hörmətli Mahir Həmzəyevlə birgə türkologiya sahəsində çalışıram. Mən bunları milli ümumilik, milli birlik ruhunun nə qədər önəmli olduğunu göstərmək üçün deyirəm. Milli birliyi qoruyub saxlamaq olduqca vacibdir və bu, eyni zamanda, hər bir dövlətin maraqlarına xidmət edir və onun üçün olduqca faydalıdır. Bu fikrin təsdiqi kimi, Litva Prezidentinin sözlərini misal gətirmək istəyirəm. Hörmətli Valdas Adamkus deyir:

Şəkildə (sağdan sola): Dünya Azərbaycanlılarının II Qurultayında iştirak etmiş Litva nümayəndə heyətinin üzvlərindən – LR Hökuməti yanında Milli Azlıqlar və Diaspora Departamentinin direktor müavini Stanislav Vidtmann, LR prezidenti V. Adamkusun müşaviri H. Kobetskayte və Litva Azərbaycanlıları Cəmiyyətinin sədri M. Həmzəyev – AYB sədri Anarla görüş zamanı. Bakı, 15 mart 2006-cı il.

"Əziz soydaşlar, qürbətdə yoldaş çiyninin və kömək əlinin nə qədər qiymətli olduğunu şəxsi təcrübəmdən bilirəm. Səmimi qəlbdən arzu edirəm ki, bir kökdən qidalanan və bir vətəndə birləşən inteqral, mehriban bir icma olasınız. Bir-birinizin işləri, uğurları ilə sevinməyi bacarın. Yaşadığınız ölkələrdə elm və iş adamlarının, yaradıcı xadimlərin inteqral hissəsi olun və yeri gəldikdə, fürsəti əldən verməyin ki, xalqımızın və ölkəmizin adı dünyada yaxşı və təmiz mənada çəkilsin".

Məncə, Prezidentin bu sözlərini taleyin gərdişi ilə qürbətdə yaşayan azərbaycanlıların hamısına eyni dərəcədə aid edə bilərik. Axı, siz hər biriniz yaşadığınız ölkələrin həyatına inteqrasiya olunmaqla və xoş işlərinizlə hər gün xalqınızın adını qaldırır, həm də etnik vətəninizə xidmət edirsiniz...

Bütün dünya azərbaycanlılarına birlik və bir-birinizlə qardaş olmanızı arzulayıram. Diqqətinizə görə təşəkkür edir və çıxışımı karaim dilində bitirmək istəyirəm:

– Kaş ki, gələn zamanlarda görüşəydik!

Bakı şəhəri, 16 mart 2006-cı il.

LİTVA RESPUBLİKASI BAŞ NAZİRİNİN BƏXTİYAR VAHABZADƏYƏ TƏBRİKNAMƏSİ

LIETUVOS RESPUBLIKOS MINISTRAS PIRMININKAS

SVEIKINIMAS

Gerbiamasis Bachtijar Vahabzadė Mahmud oglu,

Nuoširdžiai sveikinu Jus – azerbaidžaniečių literatūros klasiką, poetą ir vertėją, žinomą mokslininką ir iškilų kultūros bei visuomenės veikėją garbingo 80-ies metų jubiliejaus proga.

Lietuvos poezijos gerbėjai pažįsta Jus kaip savito stiliaus Rytų poetą, daugelio eilių ir poemų autorių, lietuvių poezijos vertėją į savo gimtąjį kalbą.

Džiaugiuosi, kad Jūsų kūryboje puikuoja ir lietuviški motyvai. Ilgamečio ir nuoširdaus darbo dėka Azerbaidžane skamba ir Lietuvos vardas, pristatomi lietuvių literatūros, kultūros ir meno pasiekimai.

Šiandien, per Lietuvos azerbaidžaniečių bendrųjų įsidamas kūrybinį bendradarbiavimą su lietuvių plunksnos broliais, kultūros asteveais, Jūs stiprinate ir plėčiate šimtametes lietuvių ir azerbaidžaniečių literatūrinių ryšių tradicijas, asmeniškai prisidedate prie mūsų tautų kultūrų dialogo, ilgamečių bendradarbiavimo tradicijų praturtinimo, Rytų ir Vakarų civilizacijų suartinimo.

Linkiu Jums stiprios sveikatos, ilgų kūrybingų metų, giedros nuotaikos ir naujų poetinių atradimų džiaugsmo.

Algirdas BRAZAUSKAS

Vilnius, 2006 m. kovo 15 d.

1. Algirdas Brazauskas – Litva prezidenti (1993–1998) və Baş naziri (2001–2006).
2. A. Brazauskasın Xalq şairi B. Vahabzadəyə ünvanladığı Təbriknamənin surəti.

Hörmətli Bəxtiyar Mahmud oğlu VAHABZADƏ!

Sizi – Azərbaycan ədəbiyyatının məşhur klassikini, şair və tərcüməçini, görkəmli elm və mədəniyyət xadimini şərəfli 80 illik yubileyiniz münasibəti ilə səmimi-qəlbdən təbrik edirəm.

Litva poeziya pərəstişkarları Sizi özünəməxsus üslublu Azərbaycan şairi, çoxsaylı şeir və poema kitablarının, dram əsərlərinin müəllifi, Litva şairlərinin doğma dilinizə tərcüməçisi kimi tanıyırlar.

Çox məmnunam ki, yaradıcılığınızda Litva mövzusu da nəfəs alıb döyünür. Uzun illər boyu gördüyünüz ilhamlı işlər sayəsində Azərbaycanda Litvanın adı da səslənir, ədəbiyyat, mədəniyyət və incəsənət sahəsində uğurlarımız Ölkənizdə təqdim olunur.

Siz bu gün də Litva Azərbaycanlıları Cəmiyyətinin xətti ilə Litva mədəniyyət xadimləri və qələm qardaşlarınızla əlaqələr saxlayır, yaradıcılıq münasibətlərini davam etdirirsiniz. Bununla da, yüzillik tarixi olan Litva–Azərbaycan ədəbi əlaqələrini genişləndirib gücləndirir, xalqlarımızın mədəniyyətlərarası dialoquna və qədim əməkdaşlıq ənənələrinin zənginləşdirilməsinə yaradıcılıq nailiyyətlərinizlə töhfələr verir, Şərq və Qərb sivilizasiyalarını bir-birinə daha da yaxınlaşdırırsınız.

Sizə həyatda möhkəm can sağlığı, xoş əhvali-ruhiyyə, uzun yaradıcılıq illəri və yeni parlaq poeziya tapıntıları sevincini arzulayıram.

Algirdas BRAZAUSKAS
Litva Respublikasının Baş naziri

Vilnüs, 15 mart 2006-cı il.

P.S: *Litva və Azərbaycan dillərində hazırlanmış Təbriknamə Dünya Azərbaycanlılarının II Qurultayı günlərində LR Baş naziri adından Bakıda Xalq şairi B. Vahabzadəyə təqdim olunub.*

PREZİDENT VALDAS ADAMKUS LİTVA AZƏRBAYCANLILARI BARƏDƏ

Litva prezidenti Valdas Adamkusun 2006-cı ilin iyununda Azərbaycana ilk rəsmi dövlət səfəri zamanı onun və xanımının şərəfinə Prezident İlham Əliyev tərəfindən verilmiş rəsmi ziyafətdə etdiyi çıxışında Litva Azərbaycanlıları Cəmiyyətinin fəaliyyəti barədə səsləndirdiyi fikirlər (çıxışdan bir parça).

"...Cənab Prezident! Məmnuniyyətlə qeyd etmək istərdim ki, Litvada dirçəliş – *Sajūdis* hərəkatının hələ ilk təşəkkül tapması dövründə, Vilnüsdə Litva Azərbaycanlıları Cəmiyyəti yaradılıb və yaradıldığı gündən indiyədək filoloq araşdırmaçı Mahir Həmzəyevin sədrlik etdiyi bu təşkilat, digər milli azlıqlarla bərabər, Litvanın dövlət müstəqilliyinin bərpa olunmasında fəal iştirak edib, Litvanın demokratik Avropa dövlətləri ailəsinə qayıtması üçün çox işlər görüb. Dövlətimizə belə loyal münasibət göstərdiklərinə görə biz Sizin soydaşlarınıza – Litvanın azərbaycanlı vətəndaşlarına minnətdarıq".

Bakı şəhəri, Yaxtklub, 8 iyun 2006-cı il.

Litva prezidenti V. Adamkus Azərbaycan Respublikasına ilk rəsmi dövlət səfərindən qayıdan zaman təyyarədə M. Həmzəyevlə səfərin nəticələri ilə bağlı söhbət edərkən. 9 iyun 2006-cı il.

LİTVA PREZİDENTİNƏ BAKI UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADI VERİLİB

9 iyun 2006-cı ildə Bakı Dövlət Universitetində Litva Respublikasının prezidenti Valdas Adamkusa bu ali təhsil ocağının fəxri doktoru adı verilməsinə həsr olunmuş mərasim keçirildi.

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Abel Məhərrəmov ali qonağı BDU-nun professor-müəllim heyəti və tələbələri adından salamlayaraq, mərasim iştirakçılarına Valdas Adamkusun tərcümeyi-halı və ictimai-siyasi fəaliyyəti barədə məlumat verdi. O, 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən yaradılmış, bu gün ali təhsilimizin flaqmanı olan Bakı Dövlət Universitetinin tarixindən, Azərbaycanda elmin, ictimai fikrin inkişafına verdiyi töhfələrdən, beynəlxalq əlaqələrindən ətraflı söhbət açdı.

LR prezidenti Valdas Adamkusa BDU-nun fəxri doktoru adı verilməsi mərasimindən görüntülər.



Daha sonra Abel Məhərrəmov Valdas Adamkusa universitetin fəxri doktoru adı verilməsi barədə Elmi şuranın qərarını oxudu, fəxri doktor diplomunu və mantiyanı ona təqdim etdi. Sonra Litva Prezidentinin portreti universitetin fəxri doktorlarının portretləri sırasına əlavə edildi.

Litva Prezidenti Valdas Adamkus ona göstərilən etimada və bu yüksək ada görə Universitetin professor-müəllim heyətinə minnətdarlığını bildirdi. Ali qonaq Bakıya rəsmi səfərindən, Azərbaycan prezidenti İlham Əliyevlə görüşündən aldığı yüksək təəssüratları mərasim iştirakçıları ilə bölüşdü. O, bu səfərdən sonra Azərbaycanla müxtəlif sahələrdə, o cümlədən elm və təhsildə də əməkdaşlıq əlaqələrini intensivləşdirmək niyyətini qeyd etdi.

Prezident Valdas Adamkus Universitetin müəllimləri ilə xatirə şəkli çəkdirdi.

DİASPORA RƏHBƏRİ PREZİDENT VALDAS ADAMKUSLA GÖRÜŞÜB

16 fevral 2007-ci ildə Vilnüsdə Milli opera və balet teatrında Litva dövlətinin bərpa olunması haqqında tarixi Aktın qəbul edilməsinin 89-cu ildönümü münasibəti ilə rəsmi qəbul və təntənəli bayram mərasimi keçirilib. Litvanın dövlət və hökumət rəsmilərinin, ictimaiyyət nümayəndələri və xarici qonaqların iştirak etdikləri bayram mərasimində Litva və Polşa respublikalarının prezidentləri Valdas Adamkus və Lex Kaçinski çıxış ediblər. Sonra tədbir iştirakçılarının şərəfinə konsert və prezident Valdas Adamkusun adından ziyafət verilib.

Prezident V. Adamkus bu təntənəli mərasimə digər ictimai-mədəni xadimlərlə yanaşı Litva Azərbaycanlıları Cəmiyyətinin nümayəndəsini də dəvət edib. Cəmiyyətin sədri Mahir Həmzəyev tədbirdə iştirak edib və burada prezident V. Adamkusla, LR Seyminin sədri Viktoras Muntyanasla, Baş nazir Gediminas Kirkilasla görüşüb, dövlət bayramı münasibəti ilə ölkə rəhbərlərini və həmçinin onların timsalında Litva xalqını Litva azərbaycanlıları adından təbrik edib.

Litva prezidenti Valdas Adamkus və Mahir Həmzəyev görüş zamanı. Vilnüs, 16 fevral 2007-ci il.

Diaspora sədri Mahir Həmzəyev prezident Valdas Adamkusla söhbətində Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin 2007-ci ilin martın 9-da Bakıda keçiriləcək 1-ci Forumu barədə məlumat verib. Litva azərbaycanlıları, Litva tatarları və Litva karay türkləri icmaları liderlərinin, eləcə də Litvanın milli azlıqlarla iş üzrə dövlət və hökumət idarələri rəsmilərinin həmin tədbirdə iştirakı ilə bağlı məsələlərə toxunub. O, Litvada yaşayan türkdilli millətlərin həyatında və onların diaspor təşkilatlarının gələcək birgə fəaliyyətində bu tarixi Forumun mühüm rolu haqqında danışıb və bunun sayəsində çoxmillətli Litva vətəndaş cəmiyyətinin daha da inkişaf etdirilməsində, eyni zamanda fəaliyyət baxımından Avropa İttifaqının bir çox vətəndaş qurumlarına da nümunə ola bilən Litva türkdilli icmaları faktorunun vacibliyini və müsbət təsir gücünü vurğulayıb.

Prezident V. Adamkus Litva–Azərbaycan və Litva–Türkiyə ictimai-siyasi və mədəni əlaqələrinin həm Litva, həm də bütünlükdə Aİ dövlətləri üçün qarşılıqlı önəm daşıyan əhəmiyyətini qeyd edib, bu münasibətlərin hərtərəfli genişləndirilib inkişaf etdirilməsi sahəsində indiyədək görülmüş vacib işlərə və göstərilən konstruktiv təşəbbüslərə görə Litva Azərbaycanlıları Cəmiyyətinə təşəkkürünü bildirib.

Bakı, "525-ci qəzet", 28 fevral 2007-ci il, № 37.

DOĞMA DİL VƏ MƏDƏNİYYƏT TÜRK BİRLİYİNİN BAŞLICA MƏNBƏYİDİR

LR Baş naziri Gediminas Kirkilasın Dünya Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I Bakı Forumuna təbrik müraciəti.

Hörmətli Prezident İlham ƏLİYEV!
Xanımlar və cənablar!

Dünya Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I Bakı Forumunun iştirakçılarını və qonaqları ürəkdən salamlayıram. Azərbaycan xalqına və dövlətinə firavanlıq, sabitlik, əmin-amanlıq və çiçəklənən həyat arzulayıram.

Əminəm ki, ölkələrimiz arasında coğrafi uzaqlığa baxmayaraq Litva–Azərbaycan əlaqələri gələcəkdə daha dinamik və hərtərfli surətdə inkişaf edəcək.

Ölkəmizdə yaşayan və dilləri, dinləri, adət-ənənələri ilə fərqlənən müxtəlif millətləri bir-birinə Litva dövləti bağlayır və demokratik vətəndaş cəmiyyətini gücləndirmək naminə ümumi bir məqsəd birləşdirir. Litva dövləti üçün ölkədə məskunlaşmış milli azlıqların identikliyini qoruyub saxlamaq və mehriban etnik münasibətləri təmin etmək tarixlər boyu həmişə mühüm əhəmiyyət kəsb edib.

Artıq 600 ildən çoxdur ki, qəlbləri və mənəvi kökləri ilə Litva torpağına bağlanmış karay və tatar türklərinin etnik icmaları ölkəmizdə yaşayıb fəaliyyət göstərir. Həmçinin məmnuniyyətlə qeyd edirəm ki, 1988-ci ildə Litva Dirçəliş hərəkatının hələ ilk təşəkkül tapması dövründə yaradılmış Litva Azərbaycanlıları Cəmiyyəti də Litvanın dövlət müstəqilliyinin bərpa olunması hərəkatında və ölkənin demokratik Avropa dövlətləri ailəsinə qayıtması işlərində fəal iştirak edib.

Ümidvaram ki, bu Forum Litva türk icmalarını birgə fəaliyyətə səfərbər edəcək, milli-mənəvi dəyərləri qoruyub yaşatmağa və bununla da çoxmillətli Litva mədəniyyətini daha da zənginləşdirməyə sövq edəcək, türkdilli icmaların

Litva vətəndaş cəmiyyətinin gələcək inkişafında, Avropa Birliyi ölkələri ilə onların tarixi vətənləri arasında yeni əməkdaşlıq körpülərinin yaradılmasında təşkilati və mədəni rolunu artıracaq.

Foruma uğurlu iş diləyir, Azərbaycan və türk diaspor icmalarına yeni yaradıcılıq düşüncələri və başladıqları işləri əzmlə davam etdirməyi arzulayıram. Qoy doğma diliniz və türk mədəniyyəti Sizin üçün həmişə mənəvi qüvvət və birlik mənbəyi olaraq qalsın.

Hörmətlə,

Gediminas KİRKİLAS
Litva Respublikasının Baş naziri

Vilnüs, Litva Respublikası Baş nazirinin Kanselyariyası, 6 mart 2007-ci il, № 36 – 1375

28 MAY RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ LİTVADAN TƏBRİK

TAUTINIŲ MAŽUMŲ IR IŠEIVIJOS
DEPARTAMENTAS PRIE LIETUVOS RESPUBLIKOS VYRIAUSYBĖS

AR XARİCİ ÖLKƏLƏRDƏ YAŞAYAN AZƏRBAYCANLILARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ CƏNAB NAZİM İBRAHİMOVA

Hörmətli Sədr,

Sizi və rəhbərlik etdiyiniz Dövlət Komitəsinin əməkdaşlarını, eləcə də Şəxsinizdə bütün Dünya azərbaycanlılarının diaspor təşkilatlarını Azərbaycanın milli bayramı – 28 May Respublika günü münasibəti ilə ürəkdən təbrik edirəm.

Azərbaycan Respublikası Müstəqillik illərində iqtisadiyyatının inkişaf etdirilməsi, xalqın rifahının yaxşılaşdırılması və Dövlət imicinin beynəlxalq aləmdə yüksəldilməsi sahəsində önəmli nailiyyətlər əldə etmişdir. Çox məmnunam ki, bu gün Litva ilə Azərbaycanı getdikcə genişlənən çoxşaxəli əməkdaşlıq əlaqələri birləşdirir və bu əlaqələrin uğurla davam etdirilməsində Litva Azərbaycanlıları Cəmiyyəti də fəal iştirak edərək öz mühüm tövfələrini verir.

Şəkillərdə: 1. Litva ictimai-siyasi xadimi Antanas Petrauskas Dünya Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I Forumunda çıxış zamanı. Bakı, 9 mart 2007-ci il. 2. Forumun logosu.

Qeyd etmək istərdim ki, mən və litvalı həmkarlarım Dünya Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin bu yaxınlarda Bakıda baş tutmuş I Forumunun iştirakçıları olaraq buradan Litvaya ən xoş təəssüratlarla və faydalı iş təcrübəsi ilə qayıtdıq.

Hörmətli Sədr, Azərbaycanın Milli bayramı münasibəti ilə Sizə və həmkarlarınıza firəvanlıq və səadət arzulayıram. Ümidvaram ki, əməkdaşlıq əlaqələrimiz daha genişlənəcək və möhkəmlənəcək.

Hörmətlə,

Antanas PETRAUSKAS
Litva Respublikası Hökuməti yanında Milli
Azlıqlar və Diaspora Departamentinin Baş direktoru

Vilnüs şəhəri, 28 may 2007-ci il.

PREZİDENT V. ADAMKUS LİTVA–AZƏRBAYCAN MƏDƏNİYYƏTLƏRARASI DİALOQU BARƏDƏ

Azərbaycan prezidenti İlham Əliyevin 2007-ci ilin sentyabr ayında Litva Respublikasına ilk rəsmi dövlət səfəri zamanı onun və xanımının şərəfinə prezident Valdas Adamkus tərəfindən verilmiş ziyafətdə Litva dövlət başçısının söylədiyi nitqdən bir parça.

Zati-Aliləri Prezident İlham Əliyev!
Hörmətli xanım Mehriban Əliyeva!

Hörmətli nümayəndə heyəti üzvləri!

Mən xanımım Alma ilə birlikdə Sizi ölkəmizdə qəbul edib, xalqlarımızın dostluğu naminə qapını üzünüzə daha geniş açа bildiyimiz üçün çox məmnunuq. Yüz ildən artıq tarixi kökləri olan və bu gün yeni əlaqə formaları, yeni təşəbbüslər sayəsində daha da möhkəmlənməkdə olan bu dostluğu mən olduqca yüksək qiymətləndiririəm.

Hörmətli cənab Prezident,

Sizin bu səfəriniz tarixi səfərdir. Azərbaycan dövlət başçısının Litvaya bu ilk rəsmi səfəri dinamik surətdə inkişaf edən yaxın tərəfdaşlıq əlaqələrimizin genişlənməsinə, şübhəsiz ki, yeni təkan verəcək. Azərbaycana ötənilki rəsmi səfərimi və bu ilin iyununda GUAM ölkələrinin Bakıda keçirilmiş zirvə görüşündə iştirakımı böyük məmnunluqla xatırlayıram. Əldə etdiyiniz iqtisadi uğurlar, xalqınızın əməksevərliyi, ölkənizin mədəniyyəti və təbiətinin gözəlliyi məni məftun etdi.

Mən füsunkar ölkənizə məftun olmuş ilk litvalı deyiləm. Litva ədəbiyyatının klassiki və Bakı universitetinin müəllimi Vintsas Kreve-Mitskəviçyus təxminən 100 il öncə yazdığı "Azəristan ölkəsi" əsərində ölkənizin gözəlliyini tərənnüm edərək litvalıları xalqınızın mədəniyyəti, mifologiyası və əfsanələri ilə tanış edib. V. Kreve-Mitskəviçyus bu gözəl əsəri yazan dövrdə bir çox litvalılar Azərbaycan Xalq Cümhuriyyətinin quruculuğu işlərində və ölkənizin ictimai-siyasi həyatında yaxından iştirak ediblər.

XX əsrdə baş verən tarixi itkilərin Litva və Azərbaycanı da ötüb keçməməsinə baxmayaraq, bu çətinliklər bizim azadlıq coşqumuzu söndürə bilməyib. İstiqlal eşqi o kəşməkəşli əsrin sonunda xalqlarımızı dirçəlişə gətirib çıxarıb və

Prezident V Adamkus və xanımı A. Adamkiene Azərbaycana səfəri zamanı İçərişəhəri ziyarət etdi, burada xalça toxunma prosesini izlədi və xalq musiqisi ifaçıları ilə görüşdü. 9 iyun 2006-ci il.

müstəqillik uğrunda savaş şəklində üzə çıxıb. Bu savaşda Azərbaycan xalqının və Litva Azərbaycanlıları Cəmiyyətinin bizə verdiyi dəstəyi heç vaxt unutmarıq...

...Ölkələrimiz arasındakı münasibətlərin son illərdə intibah dövrünü yaşadığını və xalqlarımız arasında getdikcə daha yaxın əlaqələrin yaranmasını görəndə, bir-birimizi daha yaxşı tanıyıb, daha da yaxın olmaq səylərimizi müşahidə edəndə ürəkdən sevinirəm.

Sevindirici haldır ki, son bir il ərzində dörd mədəniyyət layihəsini həyata keçirməyə nail olmuşuq. Keçən ilin payızında Azərbaycanda Litva rəssamlarının sərgisi təşkil edilib. Bu ilin baharında isə Litva tamaşaçıları Azərbaycan kino ustalarının yaradıcılığı ilə tanış olmaq imkanı əldə edə biliblər. Litva şifahi xalq ədəbiyyatının ən qədim və ən gözəl nümunələrindən biri olan "Suilanları kraliçası Əgle" nağılı və yazıçı Vintsas Kreve-Mitskəviçyusun Şərq mövzusunda yaratdığı gözəl əsərlərin bir qismi ən yaxın vaxtda Azərbaycan dilində çap ediləcək.

Xalqlarımız arasındakı qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi üçün Litvadakı Azərbaycan diasporu çoxlu səylər göstərir, fəal mədəni və akademik fəaliyyətlə bu işi daha da rövnəqləndirir. Sizin ölkənizin qədim tarixi və milli-mənəvi sərvətləri ilə litvalıları bu cür tanış etmək cəhdləri, eyni zamanda, bizim ölkəmizin də mədəniyyətini mənəvi cəhətdən zənginləşdirir...

Vilnüs şəhəri, Prezident sarayının Bəyaz zalı, 13 sentyabr 2007-ci il.

Bakı, "Xalq qəzeti", 16 sentyabr 2007-ci il, № 208.

GİNTARAS STEPONAVİÇYUSUN LİTVA AZƏRBAYCANLILARINA TƏBRİKNAMƏSİ

LIETUVOS RESPUBLIKOS SEIMO PIRMININKO PAVADUOTOJAS
DEPUTY SPEAKER OF THE SEIMAS OF THE REPUBLIC OF LITHUANIA

53 Gediminas Ave., LT-01109 Vilnius, Lithuania Tel.:+370 5 239 63 60 / 239 60 20 Fax +370 5 239 64 20
E-mail Gintaras.Steponavicius@lrs.lt

Hörmətli Litva Azərbaycanlıları İcmasının üzvləri!

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 90-cı ildönümü münasibəti ilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Məmnunam ki, Litva və Azərbaycan dövlətləri 1991-ci ildə bir-birinin müstəqilliyini tanıdılar və 1995-ci ildə diplomatik əlaqələr qurdular. O vaxtan bəri əlaqələrimizdə ümumi maraqlara söykənən təmas nöqtələri getdikcə artır, həm iqtisadi, həm də siyasi sahələrdə daha yaxından əməkdaşlıq edirik.

Litva Azərbaycanlıları İcmasının fəalları da ölkələrimiz arasındakı dövlətlərarası münasibətlərin güclənməsinə mühüm töhfələr verirlər.

Arzu edirəm ki, bundan sonra da öz etnokulturoloji dəyərlərinizi Litvada uğurla qoruyub inkişaf etdirəsiniz və litvalıların Sizi daha yaxından tanımaya bilmələru üçün hamıya aydın görünən açıq bir icma olasınız.

Hörmətlə,

Gintaras STEPONAVİÇYUS
Litva Respublikası Seymi sədrinin müavini

Vilnüs şəhəri, 28 may 2008-ci il.

VƏTƏN YOLUNU NİŞAN VERƏN ƏBƏDİ POEZİYA İŞIĞI

Xalq şairi Bəxtiyar Vahabzadənin xatirəsinə

Azərbaycan ədəbiyyatının ünlü klassiki, görkəmli elm və mədəniyyət xadimi, mənəvi intibahımızın istinad yeri və millətin ağrı yaddaşı, el ağsaqqalı və Xalq şairi Bəxtiyar Vahabzadənin vəfat etməsi haqqında hüznlü xəbər uzaq Litvaya da gəlib çatdı və bizləri dərindən kədərləndirdi...

Müxtəlif millətlərdən olan Litva poeziya həvəskarları onu özünəməxsus üsluba malik ustad şair, minillik Azərbaycan poeziyası ənənələrinin layiqli davamçısı, çoxlu şeir və poema kitablarının, dram əsərlərinin müəllifi, həm də Litva şairlərindən Eduardas Miejelaytisin, Alfonsas Maldonisin, Alfonsas Bukontasın və digər yazarların Azərbaycan dilinə gözəl tərcüməçisi kimi tanıyılar.

B. Vahabzadənin şeir və qəzəlləri müxtəlif illərdə Litva dilinə çevrilərək çap edilib. Onun yaradıcılığında həm də Litva mövzusu nəfəs alıb döyünürdü. Ötən əsrin 80-ci illərində bir neçə dəfə Vilnüsdə və Kaunasda olub. Litva təbiətinin gözəlliyini tərənnüm edən misralar, eləcə də məşhur rəssam və bəstəkar M. K. Çürlyonisin əsərlərinin mövzu və süjetləri əsasında şeir yazıb. İllər boyu gördüyü ilhamlı işlər sayəsində Azərbaycanda Litvanın, Litvada isə Azərbaycanın adı yüksəkdən səslənib, bununla da ədəbiyyat, mədəniyyət və incəsənət sahəsində Azərbaycanda qazanılmış uğurların bu Baltik ölkəsində yayımlanması üçün əlverişli imkanlar yaradıb.

Bəxtiyar müəllim Litva Azərbaycanlıları Cəmiyyətinin xətti ilə də Litva mədəniyyət xadimləri və buradakı qələm qardaşları ilə yaradıcılıq əlaqələri saxlayır, səmimi dostluq münasibətlərini davam etdirirdi. Bununla da yüz illərlə tarixi olan Litva–Azərbaycan ədəbi əlaqələrini genişləndirib gücləndirir, xalqlarımızın mədəniyyətlərarası dialoqunda və qarşılıqlı anlaşma ənənələrinin zənginləşdirilməsində ədəbi uğurlarıyla şəxsən iştirak edirdi. Həm də Azərbaycan–Baltik ədəbi münasibətlərinin inkişafına verdiyi töhfələr timsalında Şərq və Qərb sivilizasiyalarını bir-birinə yaxınlaşdırıb tanıtmaq üçün əvəzsiz işlər görürdü.

2005-ci ildə B. Vahabzadənin anadan olmasının 80 illiyi münasibətilə Litvanın Baş naziri Algirdas Brazauskasın ona ünvanladığı təbrik məktubunda şairin bu sahədə göstərdiyi fəaliyyət və qoyduğu izlər çox səmimi bir minnətdarlıqla qeyd edilib.

Bütün bunlarla bərabər xüsusilə vurğulamaq istərdik ki, Azərbaycan dilinin təmizliyi, millətin bütövlüyü və torpağın bölünməzliyi, milli-mənəvi dəyərlərin qorunub yaşadılması naminə Bəxtiyar Vahabzadənin alovlu bir ehtirasla və böyük fədakarlıqla apardığı mücadilə, milləti özünə tanıtmaq üçün mütəmadi etdiyi açıq və gizli savaşlar onu əbədiyyətə, ölümsüzlüyə qovuşdurdu. Onun zəngin poetik irsinin ürfan və bəsirət işığı xaricdə yaşayan azərbaycanlılara bundan sonra da böyük Vətən yolunu nişan verəcək, nurlu xatirəsi Azərbaycan diasporunun qəlbində hər zaman yaşayacaq.

Dünyadakı digər həmvətənlərlə birgə Litva azərbaycanlıları da xalqımıza üz vermiş ağır itkidən kədərləndiklərini bildirir və mərhumun ailəsinə, Azərbaycan ictimaiyyətinə, şairin qələmdaşlarına və B. Vahabzadə istedadının milyonlarla pərəstişkarına dərin hüznlə başsağlığı verirlər.

Dərin hüzn və ehtiramla

Mahir HƏMZƏYEV
Litva Azərbaycanlıları Cəmiyyətinin sədri,
Litva Respublikası Hökuməti yanında Milli İcmalar Şurasının üzvü.

Bakı, "525-ci qəzet", 20 fevral 2009-cu il.

AZƏRBAYCAN LİTVA ŞAGİRDLƏRİNİN GÖZÜ İLƏ

2010-cu ildə yeni dərs ilinin əvvəlində Litva Respublikasının bütün ümumtəhsil məktəblərində "Azərbaycan mənim gözlərimlə" mövzusunda beynəlxalq müsabiqə elan olunub. Müsabiqəni Litva Azərbaycanlıları Cəmiyyəti bu ölkənin Təhsil və elm nazirliyi, Litva Milli İcmalar Evi və Litva Gənclərinin turizm mərkəzi ilə birgə təşkil edib.

Müsabiqə Litva–Azərbaycan mədəniyyətlərarası dialoqu çərçivəsində tarixi Vətənimiz barədə hərtərəfli bilgilərin Litvanın yeniyetmə və gənc nəsil təmsilçilərinin arasında geniş yayımlanıb təbliğ edilməsinə həsr olunub. Onu keçirməkdən əsas məqsəd şagirdlərdə Azərbaycanın qədim keçmişinə, dövlətçilik tarixinə, mədəni irsinə, coğrafiyasına, təbiətinə maraq oyatmaq, informasiya texnologiyalarından istifadə yolu ilə onlara Azərbaycanla bağlı fikir və düşüncələrini sərbəst və yaradıcı şəkildə ifadə etmək üçün imkan yaratmaq olub.

"Azərbaycan mənim gözlərimlə" beynəlxalq müsabiqəsinin loqotipi. Vilnüs, 2010-cu il.

Litva Respublikasının Təhsil və elm naziri Gintaras Steponaviçyus bu beynəlxalq tədbirin təşkil edilməsi ilə bağlı 2010-cu ilin iyul ayında xüsusi sərəncam imzalayaraq müsabiqənin Əsasnaməsini və digər sənədləri təsdiq edib. Həmin sənədlər, eləcə də müsabiqə ilə bağlı Cəmiyyətin hazırladığı plakat, dəvətnamə və digər materiallar avqust ayında bu Nazirliyin xətti ilə ölkənin bütün ümumtəhsil məktəblərinə çatdırılıb. Müsabiqənin elan oluması haqqında məlumatlar Litva kütləvi informasiya vasitələri ilə geniş yayımlanıb. Həmçinin şagirdlərin müsabiqəyə daha fəal surətdə qatılmasını təmin etmək üçün Cəmiyyət müxtəlif həvəsləndirici tədbirlər və bədii proqramlar keçirib.

İki ay davam edən müsabiqədə Litvanın ümumtəhsil məktəblərinin 7–12-ci siniflərində oxuyan şagirdləri iştirak ediblər. Qeyd edək ki, ölkədə 1442 ümumtəhsil müəssisəsi fəaliyyət göstərir və təhsil əsasən Litva dilində aparılır. Amma burada dövlət və bələdiyyə büdcəsindən maliyyələşdirilən polyak, rus, belarus, yəhudi, alman dillərində orta məktəblər də fəaliyyət göstərir. Odur ki, müsabiqəyə litvalı yeniyetmə və gənclərlə yanaşı, milli azlıq məktəblərinin şagirdləri də qatılıblar.

Müsabiqənin şərtlərinə əsasən, şagirdlər təqdim olunmuş işləri ya müstəqil surətdə, ya da müəllimin rəhbərliyi altında müasir informasiya texnologiyalarından istifadə etməklə *PowerPoint* kompüter təqdimat proqramı əsasında hazırlamalı və Litva Gənclərinin turizm mərkəzinin ünvanına göndərməli idilər. Müsabiqədə 526 şagird və 121 müəllim iştirak edib, hər biri 15 diapozitivdən ibarət olmaqla 375 iş təqdim olunub (cəmi 5625 slayd). Bu işlər arasında əsasən Azərbaycanın qədim keçmişi və bu günü – dövlətçilik tarixi, dövlət rəmzləri, siyasi sistemi, milli ordusu, coğrafiyası və təbii sərvətləri, dili, rəvayətləri, dastanları, yazılı ədəbiyyatı, mədəniyyəti, musiqisi, milli mətbəxi, geyimləri və rəqsləri, adət-ənənələri, memarlığı, kinosu, idmanı, dünya sivilizasiyasına töhfələr vermiş görkəmli xadimləri, Qarabağ münaqişəsi, 20 Yanvar faciəsi, Xocalı qırğını, Vətənimizn müasir dünya ölkələri arasında yeri və rolu, Litva–Azərbaycan tarixi, ictimai-siyasi və mədəni əlaqələri, dövlətlərarası münasibətləri və s. mövzuda materiallar olub.

Müsabiqə işlərini xüsusi münsiflər heyəti dəyərləndirib. Dəyərləndirmə zamanı müsabiqə materiallarında yalnız Azərbaycana məxsus özəl xüsusiyyətlərin geniş açılmasına, bədiiliyə, orijinallığa, sərbəst yaradıcılıq məharətinə daha çox diqqət yetirilib. Münsiflər heyəti 10 nominasiya üzrə laureatlar təyin edib. Nəticələrə görə, 30 şagird birinci, ikinci və üçüncü yerlərə layiq görülüb. Yüksək qiymətə layiq görülmüş işlər Litvanın Təhsil və elm, Mədəniyyət nazirliklərinin, Litva Milli İcmalar Evinin və Litva Gəncləri turizm mərkəzinin saytlarında yerləşdirilib, qaliblərin və digər laureatların müsabiqə işləri bu yolla geniş ictimaiyyətə təqdim olunub.

18 dekabr 2010-cu ildə Vilnüsdəki M. K. Çürlyonis adına Milli incəsənət məktəbinin konsert zalında bu beynəlxalq müsabiqənin yekun mərasimi olub. Mərasimə Litvanın bir çox regionlarından 500 nəfərə yaxın müəllim və şagird, eləcə də valideynlər qatılıblar. Tədbirdə həmçinin Azərbaycan Respublikasının Litvadakı səfiri Naira Şahtaxtinskaya, Türkiyənin Litvadakı Səfirliyinin 1-ci katibi Şayda Hanbay, LR Təhsil və elm naziri Gintaras Steponaviçyus, Litva Seyminin İqtisadiyyat komitəsinin sədri, millət vəkili Daynyus Budris, Litva Mədəniyyət nazirinin müavini Deyvidas Staponkus, AR Diasporla iş üzrə Dövlət Komitəsinin şöbə müdiri Surəddin Hümbətov, LR Seyminin sədri

İrena Degutienenin xarici siyasət məsələləri üzrə müşaviri və xüsusi nümayəndəsi Laurinas Kasçyunas, LR mədəniyyət nazirinin müşaviri İmantas Melyanas, "Aydan" Estoniya–Azərbaycan Mədəniyyət Mərkəzinin sədri Niyazi Hacıyev, Latviya Azərbaycanlıları "Ocaq" Cəmiyyətinin sədri Roman Əliyev, eləcə də ölkənin tanınmış elm, mədəniyyət, incəsənət və siyasət xadimləri, bir sıra nüfuzlu ictimai təşkilatların rəhbərləri, milli azlıq qurumlarının nümayəndələri və başqa şəxslər iştirak ediblər.

Münsiflər heyətinin sədri Mahir Həmzəyev giriş sözü ilə çıxış edərək müsabiqənin nəticələrini açıqlayıb, sonra laureatları təbrik edib, müsabiqədə iştirak etmiş bütün şagirdlərə və müəllimlərə, eləcə də təşkilati və maliyyə dəstəyi vermiş qurumlara səmimi minnətdarlığını bildirib. O, Litvanın dövlət müstəqilliyinin 11 mart 1990-cı ildə bərpasından sonra ölkədə ilk dəfə olaraq bu cür beynəlxalq müsabiqənin keçirilməsini və onun uğurlu maarifləndirmə missiyasını olduqca fərəhverici hal sayıb. M. Həmzəyev müsabiqədən sonra Litvada Azərbaycan tarixi, mədəniyyəti və həqiqətləri barədə obyektiv məlumatlar yayaraq Vətənimizə dost münasibət bəsləyən gənc nəsil nümayəndələri sıralarının artacağına ümidvar olduğunu bildirib.

Müsabiqənin yekun tədbirində iştirak etmiş bütün şagird və müəllimlərə xatirə hədiyyələri, qaliblərə LR Təhsil və elm nazirliyinin fəxri diplomları, Litva Gəncləri turizm mərkəzinin təşəkkürnamələri, AR Diasporla iş üzrə Dövlət Komitəsinin hədiyyələri verilib. LR Təhsil və elm naziri Gintaras Steponaviçyus müsabiqəyə ən çox iş göndərmiş məktəblərə nazirliyin təsis etdiyi hədiyyələri təqdim edib.

Kaunasdakı T. Vayjgantas adına orta məktəbin şagirdləri Yurgita Milyauskayte və Ayste Makarovaya Xocalı qırğını mövzusunda yaratdıqları ən uğurlu işə görə Azərbaycanın Litvadakı Səfirliyinin xüsusi mükafatları təqdim olunub.

Müsabiqənin yekun tədbirindən görüntülər. Vilnüs, 18 dekabr 2010-cu il.

Litvanın maarif və təhsil mütəxəssisləri müsabiqənin uğurlu təşkil edildiyini qeyd edərək çox sayda şagirdin müsabiqəyə qatılmasının çox müsbət hal olmasını xüsusilə vurğulayıblar.

Müsabiqənin yekun tədbirinin rəsmi hissəsindən sonra Azərbaycan musiqisi və rəqslərindən ibarət geniş konsert proqramı təqdim olunub. Tallindən gəlmiş milli rəqs qrupunun ifası böyük maraqla qarşılanıb. Müsabiqə, onun gedişatı və nəticələri həm Azərbaycan, həm də Litva kütləvi informasiya vasitələrində geniş işıqlandırılıb.

Vilnüs – Bakı, dekabr 2010-cu il.

ŞƏRQ – QƏRB MƏDƏNİYYƏTLƏRARASI DİALOQU VƏ AZƏRBAYCAN DİASPORU

LR Baş naziri Andryus Kubilyusun Dünya Azərbaycanlılarının III Qurultayına Təbriknaməsi

Azərbaycan Respublikasının prezidenti,
Zati-Aliləri cənab İlham ƏLİYEV!
Hörmətli Qurultay nümayəndələri və qonaqlar!

Sizi və bütün Azərbaycan xalqını, dövlətiniz və Azərbaycan diasporu üçün mühüm əhəmiyyəti olan bu ali forumu – Dünya azərbaycanlılarının III Qurultayını ürəkdən təbrik edirəm.

Bu gün qeyd etmək istərdim ki, Litva ilə Azərbaycan arasındakı coğrafi uzaqlığa baxmayaraq, ölkələrimizi və xalqlarımızı dostluq telləri, humanitar və ticarət əlaqələri birləşdirir. Əməkdaşlığımız, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində uğurla inkişaf edir.

Biz yeniliklər üçün açıq olmağımızla, dünya xalqlarının işlərində fəal iştirak etməklə və eləcə də beynəlxalq siyasətin ən ciddi suallarının həllinə qoşulmaq istəyimizlə bir-birimizə bənzəyirik. Odur ki, xarici siyasət və təhlükəsizlik sahələrində müvəffəqiyyətlə əməkdaşlıq edirik. Litva, Avropa Birliyinin Azərbaycanla siyasi, iqtisadi və energetik partnyorluq münasibətlərinə qoşulub və bu gün, bu tərəfdaşlığa rəvac verir. Biz, həmçinin Avropa Birliyinin Şərqdə qonşuluq siyasətini birgə həyata keçirməklə və YUNESKO çərçivəsində yaradıcı münasibətlər qurub fəaliyyət göstərməklə də işgüzar əlaqələrimizi genişləndiririk.

Litva hazırda ATƏT-də sədrlik edən ölkə olaraq Azərbaycanın həyatına mane olan və bütün Cənubi Qafqazın aydın səmasını dumanlandıran münaqişələrin sülh yolu ilə və ədalətli şəkildə həll olunması üçün bu gün ən ciddi yolların axtarışındadır.

Xüsusilə vacibdir ki, bu günkü dialoqumuzun əsasında bizi bir-birimizə bağlayan qarşılıqlı etimad və rəğbət hissləri ilə yanaşı Litva və Azərbaycan xalqlarının qədim tarixi əlaqələri durur. XX əsrin əvvəllərində, o vaxtlar burada yaşamış litvalılar Azərbaycanın ictimai, mədəni və iqtisadi həyatında fəal iştirak ediblər. Biz hələ 1918-ci ildə, müstəqil dövlətlərimiz yaradılan dövrdə bir-birimizə ciddi şəkildə maraq göstərmiş və hətta diplomatik münasibətlər qurmaq üçün çalışmışıq.

Məmnunluq hissi ilə vurğulamaq istərdim ki, 1988-ci ildə Litva Milli Dirçəliş hərəkatı – Sayudisin hələ ilk təşəkkül tapması dövründə yaradılmış Litva Azərbaycanlıları Cəmiyyəti, digər milli icmalarla bərabər Litvanın Dövlət müstəqilliyinin bərpa olunması prosesində fəal iştirak edib və ölkəmizin demokratik Avropa dövlətləri ailəsinə qayıtması üçün mühüm xidmətlər göstərib. Və bu gün də, Litva azərbaycanlıları cəmiyyətinin təmsilçiləri, ölkəmizin milli azlıqlarının identikliyinin qorunub saxlanması və ahəngdar etnoslararası münasibətlərin yaradılması, multikultural, tolerantlı və yetkin Litva vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak edir və Milli icmalarla Hökümət institusiyaları arasında səmərəli əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsinə dəyərli töhfələr verirlər.

Əziz dostlar! Ümidvaram ki, dünyanın müxtəlif ökələrində məskunlaşmış Azərbaycan diasporunun nümayəndələri, Litva–Azərbaycan dövlətlərarası münasibətlərini daha da genişləndirmək və xalqlarımız arasında qarşılıqlı anlaşma ənənələrini zənginləşdirmək üçün qüvvə və bacarıqlarını əsirgəməyəcəklər, Şərq-Qərb mədəniyyətlərarası dialoquna yaxından qoşulacaqlar və Ümumavropa dəyərlərinin yaradılması işində daha fəal iştirak edəcəklər.

Cənab Prezident! Sizə, eləcə də bütün Azərbaycan xalqına xoşbəxtlik və firavanlıq diləyirəm, müstəqil Azərbaycan dövlətinə çiçəklənmə, bu möhtəşəm Qurultaya isə uğurlu iş arzulayıram.

Hörmətlə

Andryus KUBİLYUS
Litva Respublikasının Baş naziri

Vilnüs şəhəri, 1 iyul 2011-ci il.

Lietuvos Respublikos Ministras Pirmininkas
Prime Minister of the Republic of Lithuania

Vilnius, 2011 m. liepos 1 d.

Jūsų Ekscelencija Azerbaidžano Respublikos Prezidente Ilhamai Alijevai,

Gerbiamieji suvažiavimo dalyviai ir svečiai,

nuoširdžiai sveikinu Jus ir visą azerbaidžaniečių tautą šio svarbaus valstybei ir azerbaidžaniečių išeivijai aukšto lygio forumo – Pasaulio azerbaidžaniečių III suvažiavimo – proga.

Noriu pabrėžti, kad nepaisant geografinio nuotolio mūsų šalis ir žmones sieja draugiški ryšiai, humanitariniai ir verslo saitai. Mūsų santykiai sėkmingai vystosi ir dvišaliu pagrindu, ir tarptautinių struktūrų lygiu. Esame panašūs atvirumu naujovėms, noru aktyviai dalyvauti pasaulio bendrijos darbuose, taip pat sprendžiant tarptautinės politikos klausimus. Mes sėkmingai bendradarbiaujame užsienio politikos ir saugumo srityse. Šiandien Lietuva skatina ir palaiko Europos Sąjungos ir Azerbaidžano politinę, ekonominę ir energetinę partnerystę. Plėtojame dalykinius santykius, įgyvendindami Europos Sąjungos Rytų kaimynystės politiką, kūrybingai sąveikaujame UNESCO veikloje.

Lietuva šiandien, kaip ESBO pirmininkaujanti šalis, prisideda prie Azerbaidžano ir viso Pietų Kaukazo gyvenimą temdančių konfliktų taikių ir teisingų sprendimų paieškos.

Man malonu konstatuoti, kad pačioje Lietuvos atgimimo sąjūdžio pradžioje įsikūrusi Lietuvos azerbaidžaniečių bendrija drauge su kitomis Lietuvos tautinėmis bendrijomis aktyviai talkino Lietuvos nepriklausomybės atkūrimo darbuose ir daug nuveikė, kad Lietuva grįžtų į demokratinę Europos valstybių šeimą. Ir šiandien azerbaidžaniečių bendrijos atstovai aktyviai prisideda prie Lietuvos tautinių bendrijų etninio savitumo išsaugojimo, atviro tarpkultūrinio dialogo, vyriausybinių institucijų ir šalies tautinių bendrijų bendradarbiavimo, įgyvendinant valstybinę tautinių santykių darnumo politiką, ugdant tolerantišką, pilietiškai brandžią, daugiakultūrę Lietuvos visuomenę.

Tikimės, kad gausi pasaulio azerbaidžaniečių išeivija padės plėtoti Lietuvos ir Azerbaidžano tarpvalstybinius santykius, stiprinti mūsų tautų ryšius, palaikys Rytų ir Vakarų kultūrų dialogą, prisidės prie bendrų Europos vertybių kūrimo.

Linkiu, Pone Prezidente, Jums ir visai azerbaidžaniečių tautai laimės ir gerovės, nepriklausomai Azerbaidžano valstybei klestėjimo, o šiam garbingam suvažiavimui sėkmingo darbo.

Pagarbiai

Lietuvos Respublikos Ministras Pirmininkas Andrius Kubilius

LR Baş naziri A. Kubilyusun Dünya Azərbaycanlılarının III Qurultayına Təbriknaməsinin surəti (Litva dilində). Vilnüs, 1 iyul 2011-ci il.

LIETUVOS RESPUBLIKOS SEIMO
PIRMININKAS

LİTVA RESPUBLİKASI SEYMİNİN SƏDRİ

Azərbaycan Respublikasının Müstəqilliyinin bərpa olunmasının 20-ci ildönümünə həsr eldilmiş Konfrans iştirakçılarına

TƏBRİKNAMƏ

Bu gözəl gündə bütün Azərbaycan xalqını və onun Litvadakı dostlarını Azərbaycan Respublikasının Müstəqilliyinin bərpa olunmasının 20-ci ildönümü münasibəti ilə səmimi-qəlbdən təbrik etməkdən böyük məmnunluq duyuram.

Dövlətlərimiz arasındakı əlaqələrin getdikcə daha fəal surətdə genişlənməsindən sevinirəm və qeyd etmək istəyirəm ki, Azərbaycanın siyasi və iqtisadi istiqlaliyyəti Cənubi Qafqazın geosiyasi xəritəsində olduqca vacib önəm daşıyan faktordur.

Bu gün həm Litva Respublikası, həm də Aİ-nin digər dövlətləri Azərbaycanı Aİ-nin energetik asılılığını azaltmağa kömək edən tərəfdaş ölkə kimi görürlər. Azərbaycanın Aİ ölkələri ilə alternativ enerji marşrutlarını inkişaf etdirmək qərarını ürəkdən salamlayıram.

Litva Respublikasının Seymi Azərbaycan dövləti ilə ikitərəfli əməkdaşlıq münasibətlərini yalnız siyasi və iqtisadi sahələrdə yox, həm də mədəni əlaqələr səviyyəsində inkişaf etdirməyə hazırdır.

Biz, xalqlarımızı Vintsas Kreve kimi məşhur bir xadimin birləşdirdiyini nəzərə alaraq çalışmalıyıq ki, bu yaradıcı şəxsiyyətin hər iki ölkənin mədəni əlaqələrini yaxınlaşdırıb genişləndirmək işinə verdiyi önəmli töhfələr lazımınca qorunub saxlanılsın, onun işləri və ideyaları isə davam etdirilsin.

Bu Konfransın təşkilatçılarına, ələlxüsus Litva Azərbaycanlıları Cəmiyyətinin sədri Mahir Həmzəyevə Litva və Azərbaycan xalqları arasındakı mədəni əlaqələri yeni tarixi və ictimai-siyasi şəraitdə uğurla davam etdirdiyinə görə və yeni məzmunlu körpülər yaratmaq işinə verdiyi sanballı töhfələr üçün dərin təşəkkürümü bildirmək istəyirəm.

Hörmətlə,

İrena DEGUTİENE
Litva Respublikası Seyminin Sədri

Vilnüs şəhəri, 20 oktyabr 2011-ci il.

LİTVANIN BAŞ NAZİRİ DİASPORUMUZUN FƏALİYYƏTİNİ YÜKSƏK DƏYƏRLƏNDİRİB

19 iyul 2012-ci ildə Vilnüsdə Milli İcmalar Evində Litva Respublikası Baş naziri Andryus Kubilyusun sədrliyi ilə Litva Milli azlıq məsələləri üzrə Koordinasiya komissiyasının iclası olub. İclasda hökumət və dövlət rəsmiləri ilə yanaşı, Litva milli icmalarının sədrləri də iştirak ediblər.

Litvanın Baş naziri Andryus Kubilyus Litva Milli Icmalar Şurasının üzvləri ilə

İclasdan sonra Baş nazir A. Kubilyus başda olmaqla, LR Nazirlər kabinetinin üzvləri Litva Azərbaycanlıları Cəmiyyətinin Milli İcmalar Evində yerləşən ofisinə gələrək diaspora təşkilatımızın fəaliyyəti ilə yaxından maraqlanıblar. Onlar XIX–XXI əsrlərdə Litva–Azərbaycan mədəni əlaqələri və 1918–1922-ci illərdə Litva–Azərbaycan dövlətlərarası münasibətləri mövzusunda düzənlənmiş sərgi ilə tanış olublar. Cəmiyyətin sədri Mahir Həmzəyev Nazirlər Kabinetinin üzvlərinə Litva–Azərbaycan münasibətlərinin kökləri, xalqlarımız arasındakı mədəniyyətlərarası dialoqun tarixi, perspektivləri, ölkəmizin müasir inkişafı və Baltik ölkələri ilə əlaqələri haqqında məlumat verib.

A. Kubilyus Litva Azərbaycanlıları Cəmiyyətinin Litvanın dövlət müstəqilliyinin bərpa olunması prosesində fəal iştirak etdiyini və ölkənin demokratik Avropa dövlətləri ailəsinə qayıtması üçün mühüm xidmətlər göstərdiyini bildirib. O, qeyd edib ki, Cəmiyyətin fəalları Litva milli azlıqlarının identikliyinin qorunması, etnoslararası münasibətlərin yaradılması və vətəndaş cəmiyyətinin möhkəmlənməsində bu gün də əməli surətdə iştirak edirlər.

Litvanın Baş naziri A. Kubilyus və Nazirlər kabinetinin üzvləri Litva Azərbaycanlıları Cəmiyyətinin ofisində. 19 iyul 2012-ci il.

Baş nazir ölkəmizin diasporunun bundan sonra da Litva–Azərbaycan münasibətlərini daha genişləndirmək və xalqlarımız arasındakı humanitar əlaqələri zənginləşdirmək üçün qüvvə və bacarıqlarını əsirgəməyəcəklərinə, Şərq-Qərb mədəniyyətlərarası dialoqunda yaxından iştirak edib ümumavropa dəyərlərinin yaradılmasında daha fəal iştirak edəcəyinə ümidvar olduğunu bildirib.

Azərbaycan Dövlət İnformasiya Agentliyinin (Azərtac-ın) veb-saytı, 20 iyul 2012-ci il.

LİTVA YAZIÇILAR İTTİFAQININ YUBİLEY TƏBRİKNAMƏSİ

Azərbaycan Yazıçılar Birliyinin sədri Anar Rəsul oğlu Rzayevə

Hörmətli Sədr!
Dəyərli Qurultay nümayəndələri və qonaqlar!
Əziz həmkarlar, xanımlar və cənablar!

Litva Yazıçılar İttifaqı adından Sizi və şəxsinizdə böyük Azərbaycan yazıçıları ailəsini, dövlətiniz və xalqınız üçün böyük önəm daşıyan bu ali Forumu – Azərbaycan Yazıçılar Birliyinin XII Qurultayını səmimi-qəlbdən təbrik edirik.

Eləcə də AYB-nin yaradılmasının 80 illik yubileyi münasibəti ilə Sizlərə ən səmimi təbriklərimizi ünvanlayırıq.

Litva–Azərbaycan mədəni əlaqələrinin kökləri XIX əsrin birinci yarısına gedib çıxır. XX əsrin əvvəllərində isə ədəbi əlaqələrimizin qaynaqlarında Azərbaycanın və Litvanın iki görkəmli oğlu – ədəbi klassiklər Vintsas Kreve və Abdulla Şaiq durmuşdular.

Litvalı Vintsas Kreve məhz burada – qədim və çoxmədəniyyətli Bakıda, həmçinin Azərbaycan xalqının mədəniyyət və fəlsəfə xəzinəsindən yararlanaraq yaradıcı şəxsiyyət kimi yetişib və dünya səviyyəli bir yazıçı dərəcəsinə yüksəlib. O, XX əsr klassik Litva ədəbiyyatı xəzinəsinə daxil olmuş möhtəşəm əsərlərini də Bakıda yaradıb. Həmin əsərlər sırasında "Azəristan ölkəsi" adlı romantik hekayət xüsusilə seçilir ki, yazıçı bu əsərində Azərbaycanın bənzərsiz gözəlliyini tərənnüm və təsvir edib. Onun yaradıcılığında nəfəs alıb döyünən Azərbaycan mövzusu sayəsində litvalılar üçün Ölkənizin qədim mədəniyyəti və Xalqınızın hikmət inciləri daha yaxın və anlaşıqlı olub.

Litva və Azərbaycan yazarları həmişə bir-birinə diqqət göstərib, yaradıcılıq əlaqələri saxlayıb və bir-birlərinin ədəbi uğurlarına ürəkdən seviniblər. Tərcüməçilərimizin indiyədək gördüyü misilsiz işlər sayəsində ən gözəl Litva xalq nağılının məşhur qəhrəmanı – Kraliça Əgle hazırda Azərbaycan dilində danışır, ədəbi klassiklərdən Vintsas Kreve, Jemayte, Antanas Vienuolis, Yonas Bilyunas, Pyatras Svirka, Salomeya Neris, Yustinas Martsinkyaviçyus, ünlü şairlərdən Eduardas Miejelaytis, Alfonsas Maldonis, nəsr ustalarından Yonas Avijyus, Vitautas Bubnis, Yonas Mikelinskas, Algirdas Potsyus və bir sıra digər Litva yazarlarının əsərləri Azərbaycan dilində oxunur.

Şəkillərdə: 1. Şair və tərcüməçi Antanas A. Yoninas, 2011-2018-ci illərdə Litva Yazıçılar İttifaqının sədri, Litva Dövlət mədəniyyət və incəsənət mükafatı laureatı (2003-cü il). 2. İttifaqın binasının interyer görünüşü.

Nizami, Xaqani, Mirzə Şəfi Vazeh, Abdulla Şaiq, Hüseyn Cavid, Mehdi Hüseyn, Səməd Vurğun, Rəsul Rza, Mir Cəlal, İlyas Əfəndiyev, Nigar Rəfibəyli, Bəxtiyar Vahabzadə, Anar, Sabir Rüstəmxanlı, Yusif Səmədoğlu, Kamal Abdulla, Elçin Hüseynbəyli, Rəşad Məcid və digər yazarların yaradıcılığından tərcümə edilmiş əsərlər isə Litva oxucularını duyğulandırır.

Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsi – "Dədə Qorqud dastanları", həmçinin Azərbaycan xalq nağılları artıq çoxdandır ki, oxucuların qəlbini litvaca döyündürür.

XX əsrdə baş vermiş fəlakətli tarixi olaylar və aparılmış siyasi repressiyalar Litva və Azərbaycan yazıçılarını da ötüb keçməməsinə baxmayaraq, bu itkilər və iztirablar yazıçılarımızın Azadlığa olan sevgi atəşini söndürə bilməyib. İstiqlal eşqi 25 il öncə xalqlarımızı milli dirçəlişə gətirib çıxarıb və Müstəqillik uğrunda mübarizə şəklində püskürərək üzə çıxarıb.

Biz indi də yeniliklər üçün açıq olmağımızla və Dünya ədəbiyyatı proseslərində fəal iştirak etmək istəyimizlə bir-birimizə bənzəyirik.

Sevindirici haldır ki, dövlətlərimizin Müstəqilliyi bərpa edildikdən sonra Litva və Azərbaycan qələm qardaşlarının yaradıcılıq əlaqələri davam edir, ədəbi körpülər genişləndirilir, yazıçılararası əməkdaşlıq qarşılıqlı surətdə gücləndirilir, həmçinin Litva Azərbaycanlıları Cəmiyyətinin xətti ilə yeni məzmunlu mədəni münasibətlər qurulur, xalqlarımızın mədəniyyətlərarası dialoqunun inkişafına töhfələr verilir, qarşılıqlı anlaşma və tərəfdaşlıq ənənələri zənginləşdirilir.

Litva Yazıçılar İttifaqı adından Azərbaycan yazıçılarının Qurultayına uğurlar diləyirik. Bütün azərbaycanlı qələm qardaşlarımıza, eləcə də Azərbaycan ziyalıları icmasına ölkənin həyatında bundan sonra da fəal iştirak etməyi, xalqın müasir həyatı və gələcəyi ilə bağlı mühüm məsələləri ictimai gündəmə gətirməyi və ümumi milli fikrin formalaşdırılması proseslərinə vacib töhfələr verməyi, müstəqil dövlətin xoşbəxt gələcəyinin qurulması işlərinə yalnız ədəbi-bədii sözlə yox, həm də yaradıcı şəxsiyyət olaraq möhkəm vətəndaş mövqeyi tutmaqla dəstək verməyi arzulayırıq.

Qoy Sizin əsərləriniz canlı həyatın özülü olan büllur damcılı doğma bulaqlar kimi elə çağlayıb könüllərə süzülsün ki, xalq o əsərlərdən ana dilinə məhəbbət bəsləməyi və ehtiramla yanaşmağı öyrənsin, onun Vətən torpağına bağlılıq duyğuları coşsun. Bununla bərabər, qoy kitablarınız oxuculara bütün canlı varlıqlara bəşəri münasibətlər və yaddaşlarda əbədiləşməyə layiq dəyərlərə hörmət hisslərini aşılasın, həyatın gerçəklik və sirlərini dərk etməyə sövq etsin, insanın kimliyini və onu əhatə edən dünyanın gizlinlərini anlamağa yardım etsin.

Hörmətlə,

Antanas A. YONİNAS
Litva Yazıçılar İttifaqının sədri

Vilnüs şəhəri, 15 iyun 2014-cü il.

VİLNÜSDƏN BAKIYA TƏŞƏKKÜR MƏKTUBU

Azərbaycan Yazıçılar Birliyinin sədri
Anar Rəsul oğlu RZAYEVƏ

Hörmətli Anar müəllim!

Siz başda olmaqla, Azərbaycan Yazıçılar Birliyinin (AYB) rəhbərliyinə AYB-nin XII Qurultayına və AYB-nin yaradılmasının 80 illik yubiley tədbirinə dəvət edildiyim üçün, eləcə də Azərbaycanda şəxsimə göstərilmiş səmimi münasibətə və yüksək diqqətə görə AYB katibliyinin bütün dəyərli əməkdaşlarına dərin minnətdarlığımı bildirirəm. Həmçinin Litva Yazıçılar İttifaqı adından Qurultayda təbrik çıxışı etmək üçün mənə yaradılmış imkana görə Sizlərə təşəkkürlərimi izhar etməkdən məmnuniyyət duyuram.

AYB-nin XII qurultayının Rəyasət heyəti. Bakı, 17 iyun, 2014-cü il.

Sevindirici haldır ki, Qurultayın işində bir sıra diaspora yazarları da iştirak etdilər. Diasporun yaradıcı nümayəndələrinin Qurultaya dəvət edilməsini ilk növbədə Azərbaycan Dövləti tərəfindən Diaspora göstərilən diqqətin təzahürü kimi qəbul edir, Diaspora siyasətinin tərkib hissəsi kimi dəyərləndiririk.

Qeyd etmək istərdim ki, Qurultaydan aldığımız ən xoş təəssüratlar, daima çiçəklənməkdə olan gözəl Bakıdan apardığımız konstruktiv təkliflər və yeni yaradıcı ideyalar Avropa Birliyi ölkələrində ədəbi nailiyyətlərimizin daha fəal təbliğ edilməsi və milli-mənəvi dəyərlərimizin müasir üsullarla geniş yayımlanması istiqamətində tədbirlərin genişləndirilməsi, o cümlədən yeni məzmunlu müstəqil Litva–Azərbaycan ədəbi-mədəni əlaqələrinin inkişaf etdirilməsi ilə yanaşı, Dünya azərbaycanlı ziyalılarının Azərbaycançılıq ideyası ətrafında kulturoloji zəmində səfərbər edilməsi və diaspora yazarlarının tarixi Vətənimizlə əlaqələrinin möhkəmləndirilməsi işinə nəzərəçarpan təkan verir, Azərbaycan milli mənafelərinin xarici dövlətlərdə həm də Diaspora təşkilatları xətti ilə uğurla təmsil olunması və xalqımızın bütöv Azərbaycan iradəsinin bütün Dünyada dönməz şəkildə təsdiq edilməsi məqsədinə çatmaq üçün daha geniş milli-ideoloji imkanlar yaradır.

Hörmətli Anar müəllim, Siz həm ünlü Xalq yazıçısı və görkəmli ictimai-mədəni xadim, həm də AYB-nin təcrübəli sədri olaraq Azərbaycan diaspora ədəbiyyatı təmsilçilərinin fəaliyyətini həmişə diqqət mərkəzində saxladığınız üçün, onlara əsl vətənpərvər ziyalı və ustad sənətkar münasibəti göstərərək böyük həssaslıqla yanaşdığınıza görə Sizə minnətdarlığımızı bildiririk.

Ümidvarıq ki, Sizinlə gələcəkdə AYB-nin analoji Forumlarında iştirak edib görüşəcək, Azərbaycan ədəbiyyatının xarici əlaqələrini irəlilətmək yolunda dərin məzmunlu ünsiyyət və münasibətlərimizi davam etdirəcəyik.

Sayğılarla və Sizə uğur arzularıyla

Mahir HƏMZƏYEV
Litva Azərbaycanlıları Cəmiyyətinin sədri,
Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü,
LR Seyminin Təhsil, elm və mədəniyyət komitəsinin müşaviri,
Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvü.

Vilnüs – Bakı, 10 iyul 2014-cü il.

Bakı, "525-ci qəzet", 17 iyul 2014-cü il.

AZƏRBAYCAN DİASPORUNUN FƏALİYYƏTİ BARƏDƏ EKSPOZİSİYA

2014-cü ildə Vilnüs şəhər bələdiyyəsinin Ratuşa binasında ölkədə ilk dəfə olaraq Litva Milli İcmalar gününə həsr olunmuş təntənəli tədbir keçirilib. Mayın 21-də baş tutmuş rəsmi bayram tədbirində Dövlət və Hökumət institutlarının rəhbərləri, millət vəkilləri, xarici ölkələrin Litvadakı diplomatik korpusun təmsilçiləri, Litva milli icmalarının, həmçinin digər QHT təşkilatlarının liderləri, elm, mədəniyyət xadimləri, siyasət adamları, beynəlxalq təşkilat və fondların əməkdaşları, etnik azlıqlar siyasəti üzrə mütəxəssislər, KMV-nin nümayəndələri iştirak ediblər.

Tədbirdə Vilnüs şəhərinin meri Arturas Zuokas, LR Seyminin vitse-spikeri Pyatras Auştryaviçyus, LR Hökumətinin 1-ci vitse-kansleri Remigiyus Motuzas, LR Mədəniyyət nazirinin müavini Edvard Truseviç, Vilnüs şəhər bələdiyyəsinin Milli icmalar və inkişaf komitəsinin sədri Olqa Qorşkova çıxış edərək iştirakçıları salamladılar və milli azlıqları Milli İcmalar günü münasibəti ilə təbrik etdilər. Sonra Litva Milli İcmalar Şurasının sədri Qalina Mişkiniene Şuranın fəaliyyəti barədə məruzə etdi.

Litvanın bir sıra milli azlıq təşkilatlarının rəhbərləri, etniklərin mədəniyyət kollektivləri və incəsənət dərnəklərinin üzvləri səmərəli fəaliyyət göstərdikləri üçün, ölkədə mədəniyyətlərarası dialoqu inkişaf etdirmək, ahəngdar millətlərarası münasibətləri formalaşdırmaq, tolerantlıq ənənələrini gücləndirmək işinə verdikləri töhfələrə görə LR Baş nazirinin, LR Mədəniyyət nazirinin, Vilnüs şəhər merinin, Vilnüs şəhər Bələdiyyəsinin Fəxri diplomları ilə təltif olundular.

Tədbir iştirakçılarının qarşısında Litvanın məşhur *"Banchetto musicale"* etnoqrafik rəqs qrupu konsert proqramı ilə çıxış edib və Ratuşa səhnəsində XIII–XVIII əsrlərdə Böyük Litva Knyazlığında yaşamış müxtəlif xalqların qədim milli rəqsləri ifa olunub.

Tədbir çərçivəsində Ratuşanın sərgi zalında "Litva Milli İcmaları tarixin yollarında" adlı ekspozisiya sərgilənib. Sərgidə milli icmaların Litva ilə əlaqələrin qaynaqları, ayrı-ayrı etniklərin ölkədə məskunlaşması tarixi, onların fəaliyyəti və gördükləri mühüm işlər, etnokulturoloji irsi və Litva mədəniyyət xəzinəsinə verdikləri töhfələr barədə müxtəlif bilgilər və görüntülər ehtiva edilib.

Litvada yaşayan həmvətənlərimiz tədbirdə Litva Azərbaycanlıları Cəmiyyəti tərəfindən təmsil olunub. Belə ki, sərgidə LR Mədəniyyət nazirliyi,

Litva Milli İcmalar Evi və Milli İcmalar Şurası tərəfindən hazırlanmış "Litva Azərbaycanlıları 25 il tarix yolları ilə" başlıqlı stend nümayiş etdirilib. Stenddə XV–XVII əsrlərdə Ağqoyunlu və Səfəvi dövlətlərinin Böyük Litva Knyazlığı ilə diplomatik əlaqələri haqqında yığcam bilgilər, 1918–1922-ci illərdə Litva–Azərbaycan dövlətlərarası münasibətləri, eləcə də 1991-ci ildə Azərbaycanda müstəqilliyin bərpasından sonrakı dövrə aid sənədli icmal, Cəmiyyətin 1988–2013-cü illərdəki çoxyönümlü fəaliyyətinə dair tarixi faktlar, sənədlər və şəkillər yer alıb. Ekspozisiya Vilnüs ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanıb.

Tədbirlə bağlı qeyd etmək istərdik ki, 15 oktyabr 2013-cü ildə LR Seymi tərəfindən "Litvanın dövlət və peşə bayramları, hüzn, xatirə və xüsusi günlər haqqında Qanun"a edilmiş əlavəyə əsasən 2014-cü ildən etibarən 21 may ölkədə Milli İcmalar günü kimi qeyd olunur.

Hazırda Litvada qeydiyyatdan keçmiş 300-ə yaxın etnik azlıq təşkilatı vardır. Qeyri litvalılar əhalinin 16 % təşkil edirlər. Ən çoxsaylı etnik qruplar polyaklar (6,6 %) və ruslardır (5,8 %).

2011-ci ilin aprelində keçirilmiş əhalini siyahıya almanın nəticələrinə görə, Litvada 154 millət, o cümlədən türk xalqlarından – 648 nəfər azərbaycanlı, 2793 tatar, 241 karaim, 164 çuvaş, 157 özbək, 144 qazax, 84 başqırd, 30 türkmən, 18 qırğız və 88 osmanlı türkü yaşayır.

Bakı, "525-ci qəzet", 23 oktyabr 2014-cü il.

AZƏRBAYCAN DİASPOR XADİMİNƏ BƏDİİ SƏNƏT YARADICISI STATUSU VERİLİB

Litva Azərbaycanlıları Cəmiyyətinin sədri, Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü Mahir Həmzəyevə Litvanın Bədii Sənət Yaradıcısı statusu verilib. Bu barədə LR Mədəniyyət naziri Şarunas Birutis 2016-cı ilin mayın 23-də müvafiq Sərəncam imzalayıb.

M. Həmzəyev bu statusa Litva–Azərbaycan ədəbi-mədəni əlaqələrinin tədqiqatı və bədii tərcümə sahəsində yüksək peşəkarlıqla yaratdığı işlərə görə layiq görülüb.

O, 1983-2015-ci illərdə Litva xalq nağıllarını, Litva yazıçıları Vintsas Kreve, Yonas Bilyunas, Alfonsas Maldonis, Algirdas Potsyus, Alfonsas Bukontas, Arvidas Valyonis, A. Antanas Yoninas və Danielyus Muşinskasın əsərlərini Azərbaycan dilinə tərcümə edib.

1990–2015-ci illərdə litvalı publisistlər, siyasi şərhçilər – Vidmantas Valyuşaytis, İmantas Melyanas, Rita Milyute, Kestutis Oginskas, Laurinas Kasçyunas, Tomas Çivas, Vitaliyus Karakorskis, Donatas Valançyauskas, Arvidas Banyulis, Tomas Srebalyus və Riçardas Lapaytisin Ermənistan–Azərbaycan, Qarabağ münaqişəsinə aid Litva mediasında dərc edilmiş məqalələri, oçerk, pamflet, analitik icmal və digər siyasi-publisistik yazıları Azərbaycan dilinə çevirib.

2006–2011-ci illərdə Litva Dövlət və Hökumət rəsmilərinin – Prezident Valdas Adamkusun Azərbaycana rəsmi səfərləri zamanı etdiyi çıxışları, müstəqil Litvanın ilk Dövlət başçısı Vitautas Landsbergisin Ermənistan–Azərbaycan, Qarabağ münaqişəsi mövzulu bir sıra siyasi-publisistik məqalələrini, Litvanın Baş nazirləri Gediminas Kirkilas və Andryus Kubilyusun Dünya Azərbaycanlılarının 2007 və 2011-ci illərdə Bakıda keçirilmiş beynəlxalq tədbirlərə ünvanladıqları müraciətləri, Litvanın Türkiyədə və Azərbaycandakı sabiq səfiri, LR Prezidentinin müşaviri Halina Kobetskaytenin məruzə və məqalələrini Azərbaycan dilinə tərcümə edib.

M. Həmzəyev eyni zamanda Azərbaycan dilindən litvacaya ədəbi və publisistik tərcümələr edir. 1982–2016-cı illərdə litvalı qələm dostları ilə birgə Azərbaycan xalq nağıllarını, Nizami, Abdulla Şaiq, Bəxtiyar Vahabzadə, Gülhüseyn Hüseynoğlu, Məmməd Namaz, Eldar Nəsibli, Elçin Hüseynbəyli, Rəşad Məcid, Vahid Qazi və Pərvinin əsərlərini Litva dilinə tərcümə edib.

"Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri (XIX – XXI əsrlər)" müxtəsər xronoloji ensiklopediyasından (Bakı, "Elm", 2002) bir sıra parçaları litvalı naşir və publisist Gintaras Visotskasla bərabər Litva dilinə tərcümə edərək 2010-cu ildə Kaunasda dərc etdirib.

Prezident Heydər Əliyevin 1990-cı il 20 Yanvar təcavüzünün geosiyasi təhlilinə həsr olunmuş çıxışlarını, Azərbaycanlıların soyqırımı tarixi ilə bağlı imzaladığı rəsmi sənədləri, akademik Ramiz Mehdiyevin "Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri" və "XXI əsrdə Azərbaycan ideyası kreativ millət kontekstində" adlı tarixi, siyasi və sosial-fəlsəfi oçerklərini litvalı həmkarı Edita Ratkuviene ilə birgə Litva dilinə çevirib və 2014–2015-ci illərdə Vilnüsdə nəşr etdirib.

M. Həmzəyevin XIX–XXI əsrlərdə Litva–Azərbaycan əlaqələri, o cümlədən 1918–1922-ci illərdə Litva–Azərbaycan dövlətlərarası münasibətləri mövzusunda işlədiyi 350-dən artıq tədqiqat işi, ədəbi-tarixi, elmi-publisistik və ictimai-siyasi məqalələri 1980–2016-cı illərdə Litvada və Azərbaycanda işıq üzü görüb. Bu çalışmaların əksəriyyətində xalqlarımız arasında tarixi, ədəbi, mədəni və ictimai-siyasi əlaqələrin yaranıb inkişaf etməsi, məzmuni cəhətdən formalaşması, qədim mədəni əlaqələrimizdən müasir dövrdə xalqlararası və dövlətlərarası münasibətlərimizin intensivləşdirilməsi faktoru kimi istifaqə edilməsi və bu səpkili digər aktual mövzular Azərbaycan və Baltik dövlətlərinin istiqlal tarixində ilk dəfə olaraq müstəqillik dövrünün mədəniyyət siyasəti doktrinasına uyğun ideoloji yanaşmalar və konseptual dəyərləndirmələr əsasında yeni tədqiqat bucağı altında araşdırılıb.

Qeyd edək ki, M. Həmzəyev 1983-cü ildə S. M. Kirov adına Azərbaycan Dövlət Universitetinin (ADU) filologiya fakültəsinin qiyabi şöbəsini bitirib. "Azərbaycan–Litva ədəbi əlaqələri" mövzulu diplom işini əla qiymətlə müdafiə edib (elmi rəhbəri prof. Pənah Xəlilov). 1979-cu ildən Vilnüsdə yaşayır və çalışır. 1984–1989-cu illərdə Litva Yazıçılar İttifaqı və ADU-nun zəmanəti ilə V. Kapsukas adına Vilnüs Dövlət Universitetinin Litva filologiyası şöbəsində litvaşunaslıq ixtisası üzrə aspiranturada təhsil alıb (elmi rəhbəri prof. Vitautas Kubilyus).

M. Həmzəyev Ümumdünya Litva Ensiklopediyası Redaksiya kollegiyasının üzvüdür (2002). Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü (2006), AYB-nin "Ədəbiyyat qəzeti" redaksiya şurasının üzvüdür (2014). 2016-cı ildən isə Litva Ədəbi tərcüməçilər ittifaqının həqiqi üzvüdür.

M. Həmzəyev 1988-ci ildən Litva Azərbaycanlıları Cəmiyyətinin sədridir. 2001-ci ildən Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvüdür. O, Baltik ölkələrində Bədii Sənət Yaradıcısı statusuna layiq görülmüş ilk Azərbaycan diaspora xadimi və yaradıcı ziyalıdır.

Bakı, AYB-nin www.ayb.az portalı, 5 avqust 2016-cı il.
Bakı, "Xalq qəzeti", 10 avqust 2016-cı il. № 172.

LIETUVOS RESPUBLIKOS KULTŪROS MINISTRAS

ĮSAKYMAS

DĖL MENO KŪRĖJO STATUSO SUTEIKIMO MAHIRUI GAMZAJEVUI

2016 m. gegužės 23 d. Nr. ĮV-399
Vilnius

Vadovaudamasis Lietuvos Respublikos meno kūrėjo ir meno kūrėjų organizacijų statuso įstatymo 7 straipsnio 6 dalimi ir atsižvelgdamas į Lietuvos literatūros vertėjų sąjungos, meno kūrėjų organizacijos, sprendimą suteikti Mahirui Gamzajevui meno kūrėjo statusą (Lietuvos literatūros vertėjų sąjungos valdybos 2016 m. gegužės 16 d. posėdžio protokolas Nr. VA-121):

1. T v i r t i n u Lietuvių literatūros vertėjų sąjungos sprendimą suteikti Mahirui Gamzajevui (a. k. 35803081801) meno kūrėjo statusą.

2. N u s t a t a u, kad šis įsakymas gali būti skundžiamas teisės aktų nustatyta tvarka.

Kultūros ministras Šarūnas Birutis

LIETUVOS RESPUBLIKOS KULTŪROS MINISTERIJA
Bendrųjų reikalų skyrius
1

M. Həmzəyevə Litvanın Bədii Sənət Yaradıcısı statusu verilməsi barədə LR Mədəniyyət nazirinin 23 may 2016-cı il tarixli Sərəncamının surəti.

LİTVA HÖKUMƏTİ SOYDAŞIMIZI MÜKAFATLANDIRIB

Litva Azərbaycanlıları Cəmiyyətinin sədri, Litva Milli İcmalar Şurasının üzvü Mahir Həmzəyev çoxillik səmərəli ictimai fəaliyyətinə, Litva Milli icmalarının mədəniyyətlərarası dialoqunun genişləndirilməsinə və vətəndaşlıq şüurunun artırılmasına, Litva–Azərbaycan ədəbi, mədəni və tarixi əlaqələrinin inkişaf etdirilməsinə verdiyi mühüm töhfələrə görə 15 dekabr 2016-cı ildə LR Hökuməti yanında Milli Azlıqlar Departamenti tərəfindən mükafatlandırılıb.

Diasporla İş üzrə Dövlət Komitəsindən Azərtac-a bildiriblər ki, 1979-cu ildən Vilnüs şəhərində yaşayıb çalışan M. Həmzəyev elmi-ədəbi fəaliyyətlə yanaşı, həm də diaspora işi ilə məşğuldur. 1988-ci ildə Litva Azərbaycanlıları Cəmiyyətini yaradan M. Həmzəyev Litva, Azərbaycan və Rusiya mediasında Qarabağ münaqişəsi, Quba soyqırımı və Xocalı qətliamı mövzularında işıq üzü görmüş 100-ə yaxın tarixi, analitik, polemik və siyasi-publisistik yazıların müəllifidir.

Litvada müxtəlif dövlət işləri və ictimai vəzifələrdə çalışan M. Həmzəyev 1991-ci ildən LR Hökuməti yanında Litva Milli İcmalar Şurasının üzvü, 2016-cı ilin mayından Seymin Liberal sayudis fraksiyasının millətlərarası münasibətlər və dini məsələlər üzrə məsləhətçisidir.

Azərbaycan Dövlət İnformasiya Agentliyinin (Azərtac-ın) veb-saytı, 19 dekabr 2016-cı il.



LIUDIJIMAS

Mahiras Gamzajevas

1. M. Həmzəyevin mükafatlandırılması barədə 15 dekabr 2016-cı il tarixli Şəhadətnamənin görüntüsü. 2. LR Hökuməti yanında Milli Azlıqlar Departamentinin direktoru Vida Montvidayteyə Litva–Azərbaycan mədəni əlaqələrinə dair litvaca ensiklopedik nəşr təqdim edilərkən.

AKADEMİK TEYMUR KƏRİMLİ LİTVADA İŞGÜZAR SƏFƏRDƏ

AMEA-nın Humanitar elmlər bölməsinin akademik-katibi, Əlyazmalar institutunun direktoru, akademik Teymur Kərimli 9–12 mart 2017-ci il tarixlərində Litvada işgüzar səfərdə olub.

T. Kərimli martın 9-da Litva Elmlər Akademiyasının (LEA) prezidenti Valdemaras Razumasla görüşüb. Görüşdə AMEA-nın fəaliyyət istiqamətləri, strukturu, elmi nailiyyətləri, həmçinin burada aparılan islahatlar barədə məlumat verən Teymur Kərimli qeyd edib ki, ölkəmizdə elm sahəsinə xüsusi diqqət yetirilir. O, 2016-cı ilin sonunda ölkə Prezidenti tərəfindən AMEA Yüksək texnologiyalar parkının yaradılması haqqında Sərəncam imzalandığını bildirib.

Akademik V. Razumas isə LEA-nın yaranma tarixi, elmi sahədə ölkə daxilində, eləcə də beynəlxalq təşkilatlardakı fəaliyyəti barədə məlumat verib. O, 2018-ci ildən Litvada ali məktəblərin sayının azaldılacağını deyib.

1. Litva EA-da görüş. Soldan sağa: Azərbaycanın Litvadakı səfiri H. Məmmədzadə, akademik T. Kərimli və LEA-nin prezidenti akademik V. Razumas. 2. T. Kərimli Trakaydakı S. Şapşal adına karaim muzeyində karaim xadimi H. Kobetskayteyə və muzeyin müdiri Vidas Alvikasa milli suvenir xalçanı təqdim edərkən.

Görüşdə Litva və Azərbaycan arasında elmi əməkdaşlığın imkanları müzakirə edilib və tərəflər əməkdaşlıq haqqında sazişin imzalanmasında maraqlı olduqlarını bildiriblər.

Teymur Kərimli Litva Ədəbiyyatı və folkloru institutu direktorunun elmi məsələlər üzrə müavini, professor Auşra Martişyute-Linartiene ilə də görüşüb. Görüşdə hər iki ölkənin müasir yazarlarının əsərlərinin tərcümə və nəşr edilməsi məsələləri müzakirə olunub.

Martın 10-da Vilnüs Universitetinin rektoru Arturas Jukauskas ilə görüşən akademik 2015-ci ildən etibarən AMEA-da magistratura təhsilinin başlandığını və hazırda bakalavr təhsilinin verilməsi istiqamətində işlərin aparıldığını bildirib.

Litva səfəri çərçivəsində Trakay şəhərindəki Sürəyya Şapşal adına karaim xalq muzeyini ziyarət edən T. Kərimli bu quruma Azərbaycan mini xalçası və AMEA-nın xətti ilə ingilis dilində nəşr olunmuş "Azərbaycan xalçaları: İrəvan qrupu" albom-kitabı hədiyyə edib.

Vilnüs – Trakay – Bakı, 9–12 mart 2017-ci il.

XALQ YAZIÇISI ANARA LİTVADAN YUBİLEY TƏBRİKİ

Hörmətli Anar Rəsul oğlu RZAYEV!

Sizi – Azərbaycan ədəbiyyatının ünlü klassikini, məşhur Xalq yazıçısı və dramaturqunu, tanınmış ictimai-mədəni xadimi, şərəfli 80 illik yubileyiniz münasibəti ilə həm Litva Azərbaycanlıları Cəmiyyəti adından, həm də istedadınızın Litvadakı çoxmillətli pərəstişkarları adından səmimi-qəlbdən təbrik edirəm.

Bir sıra əsərləriniz Litva dilinə tərcümə olunmuş və Litva oxucuları Sizi özünəməxsus üsluba malik nasir, çoxsaylı roman və kinossenarilər müəllifi, həmçinin Litva ədəbiyyatının səmimi dostu kimi tanıyıb hörmət edirlər. Məmnunam ki, Sizin çoxillik ictimai və mədəni fəaliyyətiniz sayəsində Azərbaycanda Litvanın adı səslənir, bu ölkənin bədii sənət ustalarının ədəbiyyat, mədəniyyət və incəsənət sahəsində qazandığı uğurlar təqdim olunur.

Siz bu gün həm də Litva Azərbaycanlıları Cəmiyyətinin xətti ilə Litva mədəniyyət xadimləri və qələm qardaşlarınızla yaradıcılıq münasibətlərini davam etdirməklə, yüzillik tarixə söykənən Litva–Azərbaycan ədəbi-mədəni əlaqələri ənənələrini genişləndirib zənginləşdirir, xalqlarımızın qədim mədəniyyətlərarası dialoqunda yaradıcılıq nailiyyətlərinizlə şəxsən iştirak edirsiniz.

Azərbaycan Yazıçılar Birliyinin təcrübəli sədri olaraq Azərbaycan diaspora ədəbiyyatı təmsilçilərinin fəaliyyətini həmişə diqqət mərkəzində saxladığınız üçün, onlara əsl vətənpərvər ziyalı və ustad sənətkar münasibəti göstərib böyük həssaslıqla yanaşdığınıza görə Sizə minnətdarlığımı bildirirəm.

Hörmətli Anar müəllim, Sizə həyatda möhkəm can sağlığı, xoş əhval-ruhiyyə, uzun yaradıcılıq illəri və yeni-yeni parlaq ədəbi tapıntıların sevincini yaşamağı arzulayıram.

Hörmətlə,

Mahir HƏMZƏYEV
Litva Azərbaycanlıları Cəmiyyətinin sədri,
Litva Respublikası Hökuməti yanında Milli İcmalar Şurasının üzvü,
Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvü.

Vilnüs, 14 mart 2018-ci il.

Bakı, "525-ci qəzet", 16 mart 2018-ci il.

VİKTORAS PRANSKETİSİN MAHİR HƏMZƏYEVƏ YUBİLEY TƏBRİKNAMƏSİ

LIETUVOS RESPUBLIKOS SEIMO
PIRMININKAS

Hörmətli Mahir HƏMZƏYEV!

Sizi 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Litva müstəqilliyinin bərpa edilməsi dövründən başlayaraq göstərdiyiniz önəmli fəaliyyət və ölkə ictimaiyyətinə verdiyiniz mühüm töhfələr Dövlətimizi şərəfli 100 illik tarixə aparan yolda davamlı olaraq müşayiət edir.

Dövlət və Cəmiyyətin tərəqqisi naminə göstərdiyiniz yorulmaz ictimai, mədəni fəaliyyətiniz üçün və Litva ilə qurduğunuz əsl vətəndaş əlaqələrinə görə, bu gözəl Yubiley günündə Sizə təşəkkür edir, bundan sonra da Sizə yüksək məqsədlərə aparan həyat yolu və mətinlik arzulayıram.

Gördüyünüz işlərlə və uğurlarınızla həqiqətən fəxr edə bilərsiniz!

Hörmətlə,

Professor Viktoras PRANSKETİS
Litva Respublikası Seyminin Sədri

Vilnüs şəhəri, 8 mart 2018-ci il.

İRENA DEGUTİENENİN MAHİR HƏMZƏYEVƏ YUBİLEY TƏBRİKNAMƏSİ

LIETUVOS RESPUBLIKOS SEIMO
PIRMININKAS

Hörmətli Mahir HƏMZƏYEV!

Sizi 60 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm və bu gözəl yubiley günündə Sizə yüksək hörmət və ehtiram göstərən, şərəfinizə ən səmimi təşəkkür sözlərini ifadə edən şəxslərin sıralarına qatılıram.

Bu gün bu bayram təntənəsi bizə keçdiyiniz şərəfli həyat yoluna bir daha nəzər salmağa fürsət yaradır və həmin yolda həm keçmişdə, həm də indi göstərdiyiniz dərin məzmunlu və zəngin fəaliyyətinizlə, gözəl təşəbbüsləriniz və gərəkli mühüm işlərinizlə sevinib fəxr etməyə imkan verir.

Litva Milli İcmalarının fəaliyyətinin gücləndirilməsi, həmin fəaliyyətin ölkəmizdə yaşayan müxtəlif millətlər üçün doğma evə çevrilmiş Litva dövlətinin çiçəklənməsi naminə yönəldilməsi işinə verdiyiniz mühüm töhfələrə görə Sizə dərin minnətdarlığımı bildirirəm.

Siz, Litva–Azərbaycan ədəbi, mədəni, ictimai və siyasi əlaqələrinin həm istedadlı tədqiqatçısı, həm də yeni dövrdə bu əlaqələrin gözəl qurucularından biri olaraq tanınmısınız. Sizin belə fəaliyyətiniz sayəsində bu gün xalqlarımız və dövlətlərimiz bir-birini daha yaxından tanıyıb əməkdaşlıq edirlər. 1918–1920-ci illər Litva–Azərbaycan dövlətlərarası münasibətlərinin bərpa olunması,

əlaqələrin yeni istiqamətdə qurulub inkişaf etdirilməsi sahəsində gördüyünüz vacib işlər və uzun illər boyu bu işə yorulmadan göstərdiyiniz böyük qayğılara görə Sizə təşəkkür edirəm!

Bir daha Sizi bu təntənəli yubiley münasibətilə təbrik edir, Sizə möhkəm can sağlığı, şəxsi həyatınızda xoşbəxtlik və bütün işlərinizdə yeni-yeni uğurlar arzulayıram!

Hörmətlə,

İrena DEGUTİENE
Litva Respublikası Seymi Sədrinin müavini

Vilnüs şəhəri, 8 mart 2018-ci il.

LİTVA–AZƏRBAYCAN MƏDƏNİYYƏTLƏRARASI DİALOQUNA DİASPOR DƏSTƏYİ

Diaspora xadimi Mahir Həmzəyev çoxillik səmərəli ictimai və mədəni fəaliyyətinə, xalqımızın milli mənəvi dəyərlərinin Litvada təbliği işinə verdiyi layiqli töhfələrə, Litva–Azərbaycan mədəniyyətlərarası dialoqunun inkişaf etdirilməsi sahəsindəki mühüm xidmətlərinə görə LR Hökumətinin yanında Milli Azlıqlar Departamenti tərəfindən Təşəkkürnamə ilə təltif olunub.

1979-cu ildən Vilnüsdə yaşayıb çalışan, ixtisasca filoloq-araşdırmaçı olan M. Həmzəyev elmi-ədəbi və tarixi tədqiqatlarla yanaşı, diaspora işi ilə də məşğuldur. O, 1988-ci ildə Litvada başlanmış dirçəliş hərəkatı və dövlət müstəqilliyinin bərpa olunması uğrunda mübarizənin Litva milli azlıq təşkilatları arasında ilk təşəbbüsçülərindən biri kimi çıxış edib. Həmçinin 1988–1991-ci illərdə Vilnüsdə fəaliyyət göstərmiş Millətlərarası Əlaqələndirmə Assosiasiyasının təsisçilərindən olub. 1988-ci ildən Litva Azərbaycanlıları Cəmiyyətinin sədridir. 1991-ci ildən Litva Hökuməti yanında Milli İcmalar Şurasının, 2001-ci ildən indiyədək Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvüdür. 2016-cı ilin mayından LR Seyminin Liberal Sayudis fraksiyasının millətlərarası münasibətlər və dini məsələlər üzrə məsləhətçisidir. Ümumdünya Litva Ensiklopediyası Redaksiya Kollegiyasının üzvü, Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü və "Ədəbiyyat qəzeti" redaksiya şurasının üzvüdür. 2016-cı ildən Litva Ədəbi tərcüməçilər ittifaqının həqiqi üzvüdür, 2016-cı ilin mayında ona LR mədəniyyət nazirinin sərəncamı ilə Litvanın bədii sənət yaradıcısı statusu verilib.

M. Həmzəyevin XIX–XX əsrlərdə Litva–Azərbaycan ədəbi-mədəni və ictimai-siyasi əlaqələri, 1918–1922-ci illərdə Litva–Azərbaycan dövlətlərarası

münasibətləri mövzusunda işlədiyi 350-dən artıq tədqiqat işi, ədəbi-tarixi, elmi-publisistik və ictimai-siyasi məqalələri 1980–2018-ci illərdə Litvada və Azərbaycanda çap olunub. Bu çalışmaların əksəriyyətində xalqlarımız, ölkələrimiz və mədəniyyətlərimiz arasındakı müxtəlif vektorlu əlaqələr Azərbaycan və Baltik dövlətlərinin istiqlal tarixində ilk dəfə olaraq müstəqillik dövrünün mədəniyyət siyasəti doktrinasına uyğun ideoloji yanaşmalar və konseptual dəyərləndirmələrə əsaslanan yeni tədqiqat bucağı altında araşdırılıb. O, həmçinin Qarabağ münaqişəsi, 1918-ci il azərbaycanlıların soyqırımı, 1992-ci il Xocalı qətliamı mövzusunda 1990–2018-ci illərdə Litva, Azərbaycan və Rusiya mediasında işıq üzü görmüş 100-ə yaxın tarixi, analitik, polemik və siyasi-publisistik yazıların müəllifidir.

AMEA-nın vitse-prezidenti, Milli Məclisin elm və təhsil komitəsinin sədri, akademik İsa Həbibbəyli ədəbiyyatımızın Litva dilinə tərcümə edilməsi və qədim ədəbi əlaqələrimizin araşdırılması ilə bağlı bir məqaləsində göstərir ki, M. Həmzəyevin Litvada gördüyü geniş işlər, elmi və yaradıcılıq fəaliyyəti təkcə XXI əsrin diaspora nümayəndəsi üçün yox, ümumiyyətlə, ziyalı üçün örnək sayılmağa layiqdir.

Azərbaycan Dövlət İnformasiya Agentliyinin (Azərtac-ın) veb-saytı, 3 iyul 2018-ci il.

DİASPORAMIZ "LİTVA NAMİNƏ" MAHNI BAYRAMINDA İŞTİRAK EDİB

6 iyul 2018-ci ildə – Litvanın Dövlətçilik günündə Vilnüsdə təşkil olunmuş ənənəvi mahnı bayramının iştirakçıları paytaxtda təntənəli yürüş keçiriblər.

Kafedral meydandan Vingis parkına qədər davam edən həmin yürüşdə ilk dəfə ölkənin milli azlıqlarının təşkilatları da iştirak ediblər. İyirminci dəfə keçirilən mahnı bayramı – bu dəfə Litva dövlətinin bərpa olunmasının 100 illik yubileyinə həsr edilib. Yubiley bayramının devizi Litvanın dövlət himni olaraq qəbul edilmiş "Milli şərqi"dəki məşhur "Litva naminə..." söz birləşməsi idi.

Litva Azərbaycanlıları Cəmiyyətinin sədri Mahir Həmzəyev başda olmaqla, Azərbaycan diasporunun nümayəndələri və Litva ali məktəblərində təhsil alan azərbaycanlı tələbələr də Litvanın bu məşhur ümummilli bayramında iştirak ediblər. Vilnüsün on minlərlə sakini və Litva paytaxtının qonaqları

Litva azərbaycanlıları "Litva naminə" mahnı bayramı iştirakçıları sıralarında. Vilnüs, 6 iyul 2018-ci il.

həmvətənlərimizi çox səmimi qarşılayıblar. Bu mühüm tədbirdə bizim diasporun uğurlu iştirakı Azərbaycanın Litvadakı səfirliyinin təşkilatı dəstəyi ilə baş tutub.

Mahnı bayramı Litvada ənənəvi etnokulturoloji tədbirdir. 1924-cü ildən başlayaraq bu ölkədə orta hesabla hər beş ildən bir dəfə keçirilən bu festivalda milli mahnı, xor, rəqs kollektivləri və folklor yaradıcılıq qrupları iştirak edirlər.

Analoji bayramlar Latviyada və Estoniyada da təşkil olunur. 2008-ci ildə hər üç Baltik dövlətin mahnı və rəqs bayramları UNESCO-nun Mədəni irs siyahısına daxil edilib.

Vingis parkında düzənlənmiş bayramın bağlanış mərasimində tədbirin bütün iştirakçıları və tamaşaçılar hamı birlikdə "Milli şərqi"ni – dövlət himnini ifa ediblər. Bu mərasimdə "Milli şərqi"ni oxuyan insanların sayı təxminən 12 min nəfər olub.

Azərbaycan Dövlət İnformasiya Agentliyinin (Azərtac-ın) veb-saytı, 10 iyul 2018-ci il.

TAMERLAN QARAYEV LİTVAYA SƏFİR TƏYİN OLUNDU

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Tamerlan Elmar oğlu Qarayev Azərbaycan Respublikasının Litva Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 dekabr 2018-ci il

SƏFİR T. QARAYEV LİTVA PREZİDENTİNƏ ETİMADNAMƏSİNİ TƏQDİM ETDİ

Litva Prezidenti Dalya Gribauskayte Azərbaycanın bu ölkəyə yeni təyin olunmuş səfiri Tamerlan Qarayevin etimadnaməsini qəbul edərkən. Vilnüs, Litva Prezidentinin sarayı, 16 yanvar 2019-cu il.

16 yanvar 2019-cu ildə Litvanın Prezident sarayında Azərbaycanın bu ölkəyə yeni təyin olunmuş səfiri Tamerlan Qarayevin etimadnaməsinin Litva prezidenti Dalya Gribauskayteyə təqdim etmə mərasimi baş tutdu.

Səfir T. Qarayev və Prezident D. Gribauskayte etimadnamənin təqdim olunmna mərasimindən sonra.
Vilnüs, Litva Prezidentinin sarayı, 16 yanvar 2019-cu il.

Mərasimindən sonra keçirilən görüşdə Litva Prezidenti ölkəsinin Azərbaycanla daha sıx iqtisadi münasibətlər qurmaqda maraqlı olduğunu qeyd etdi, ticarət, informasiya texnologiyaları, turizm, tələbə mübadiləsi, ərzaq sənayesi, nəqliyyat, logistika və bir çox digər sahələrdə əlaqələrin möhkəmlənməsi üçün hazır olduğunu bildirdi. Prezident D. Gribauskayte Azərbaycanın AİĬ üçün vacib tərəfdaş olduğunu vurğuladı, AİĬ ilə Azərbaycan arasında hazırlanan yeni sazişin qarşılıqlı dialoqun genişləndirilməsinə xidmət edəcəyini dedi.

Sonra səfirlikdə qəbul-ziyafət təşkil edildi. Qəbulda Litva siyasətinin patriarxı, müstəqil Litvanın ilk dövlət başçısı Vitautas Landsbergis, millət vəkilləri, dövlət qurumlarının rəhbərləri, səfirlər, şəhər merləri, ictimaiyyət nümayəndələri, elm və mədəniyyət xadimləri, yurddaşlarımız iştirak etdilər.

Yeri düşmüşkən, 1991-ci ildə Litvanın dövlət müstəqilliyinin tanınması haqqında Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurasının qərarını Tamerlan Qarayev imzalayıb. Litva tərəfindən Azərbaycanın dövlət müstəqilliyinin tanınması haqqında qərarı isə həmin vaxt Litva Respublikası Ali Sovetinin Sədri olmuş Vitautas Landsbergis imzalayıb. Bu hadisə rəsmi qəbulda və keçirilən görüşlər zamanı Litva rəhbərliyi və dövlət rəsmiləri tərəfindən isti qarşılanaraq rəğbətlə qeyd edildi.

Litva azərbaycanlılarının cəmiyyəti
Lietuvos azerbaidžaniečių draugija
Raugyklos g. 25, LT-00140 Vilnius, Lietuva, tel. +370 610 74 094; e-mail: m.gamzajevas@gmail.com

AZƏRBAYCANIN LİTVADAKI SƏFİRİ TAMERLAN ELMAR OĞLU QARAYEVƏ

Salam, hörmətli Səfir!

Azərbaycan Respublikasının Litva Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməyiniz və Vilnüsdə diplomatik fəaliyyətə başlamağınız münasibəti ilə Sizi Litva Azərbaycanlıları Cəmiyyəti adından səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan dövlətinin Litvada layiqli səviyyədə təmsil olunması naminə Sizə çalışdığınız məsul diplomatik vəzifədə böyük inam və tükənməz yaradıcılıq qüvvəsi, milli meyarlı və ən yüksək əyarlı işlər, uğurlu fəaliyyət və fərəhli nəticələr arzulayıram.

İnanıram ki, təməli 1918-ci ildə qoyulmuş müstəqil Azərbaycan–Litva dövlətlərarası münasibətləri Sizin səmərəli fəaliyyətiniz sayəsində qarşılıqlı faydalı şəkildə daha da inkişaf edəcək və dövlətlərimiz arasındakı tərəfdaşlıq əlaqələri uğurla davam etdiriləcəkdir.

Ümidvaram ki, rəhbərlik etdiyiniz Səfirliklə Litva Azərbaycanlıları Cəmiyyəti arasında işgüzar münasibətlərin qurulması və birgə məqsədyönlü fəaliyyətin aparılması gərəkli səviyyədə həyata keçiriləcək, şəxsi səylərniz sayəsində tarixi Vətənimizlə bizi bağlayan etnokulturoloji əlaqələr və mədəni körpülər möhkəmlənəcək, Litvada azərbaycançılıq ideologiyası dərindən kök salacaqdır.

Sizi əmin etmək istərdim ki, 1988-ci ildən fəaliyyət göstərən Litva Azərbaycanlıları Cəmiyyəti Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsi və ərazi bütövlüyünün bərpa olunması uğrunda Ermənistan–Azərbaycan, Qarabağ münaqişəsi ilə bağlı təbliğat savaşının Litva cəbhəsində indiyədək apardığı mübarizəni dönmədən və güzəştə getmədən davam edəcək, Səfirliyin fəal dəstəyi ilə strateji maraqlar ətrafında birlik və həmrəylik nümayiş etdirəcəkdir.

Cəmiyyətin fəalları həmçinin Vətənimizin adının Litvada daha ucadan və iftixarla səslənməsi, Litva–Azərbaycan dövlətlərarası münasibətlərinin yeni keyfiyyət və məzmun səviyyəsinə qaldırılması naminə Səfirliyin fəaliyyətinə Azərbaycan və Litva xalqları arasındakı qədim tarixi, ictimai-siyasi və ədəbi-mədəni əlaqələri inkişaf etdirmək, mədəniyyətlərarası dialoqu genişləndirmək, kreativ tədbirlər keçirmək və akademik fəaliyyət göstərmək, ölkələrimizin QHT-ləri arasında əməkdaşlığı optimallaşdırmaq yolu ilə dəstək vermək üçün bilik, təcrübə və qüvvələrini əsirgəməyəcəklər.

Diqqətinizə görə təşəkkür edir və fürsətdən istifadə edərək Sizə ən xoş arzularımı bildirirəm.

Hörmətlə,

Mahir HƏMZƏYEV
Litva Azərbaycanlıları Cəmiyyətinin sədri,
Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvü,
Litva Respublikası Hökuməti yanında Milli İcmalar Şurasının üzvü

Vilnüs şəhəri, 16 yanvar 2019-cu il.

GEDİMİNAS KİRKİLASIN LİTVA AZƏRBAYCANLILARINA TƏBRİKNAMƏSİ

Litva Azərbaycanlıları Cəmiyyətinin sədri Mahir Həmzəyevə

21 may – Litva Milli İcmalar günüdür. Bu əlamətdar gün Litvada bu il altıncı dəfə bayram kimi qeyd olunur. Bu, yalnız bizim milli icmalara aid olan gün deyil – Litvanın bütün vətəndaşları üçün xüsusi önəm daşıyan bir gündür. Belə ki, Litva çoxmillətli, çoxmədəniyyətli, tolerant və açıq cəmiyyətli bir ölkədir.

XIX əsrin birinci yarısından başlayaraq azərbaycanlıları Litva ilə tarixi, ictimai, mədəni əlaqələr və xüsusən də ədəbi körpülər birləşdirir. Litva azərbaycanlıları icması nisbətən gənc icmadır, onun əsası ölkəmizdə qoyulub və icma burada boy atıb. Azərbaycanlılar ölkəmizin digər xalqları ilə bərabər Litvanın Müstəqilliyini müdafiə ediblər. Bu gün Litva azərbaycanlıları icmasının mədəni həyatı bulaq kimi qaynayır və bu fəal icma Litva özəlliyinin ayrılmaz tərkib hissəsidir.

Litvada tarixən həmişə etnik müxtəliflik və mehribanlıq hökm sürüb, indi də elə bu cürdür və hamımız birlikdə çalışmalıyıq ki, ölkə gələcəkdə də bu cür qalsın. Axı, Litva – çoxmillətli və dünyaya açıq Avropadakı dinc və rahat evimizdir.

Litvanın bütün milli cəmiyyətlərini, icmalarını və onların üzvlərini, Milli İcmalar Evini və Milli İcmalar Şurasını, eləcə də Litvanın bütün vətəndaşlarını və sakinlərini, həmçinin bütün litvalıları Litva Milli İcmalar günü münasibəti ilə səmimi qəlbdən təbrik edirəm.

Hörmətlə,

Gediminas KİRKİLAS
Litva Respublikası Seymi sədrinin müavini,
Seymin Avropa işləri komitəsinin sədri

Vilnüs şəhəri, 21 may 2019-cu il.

LİTVA PREZİDENTİ HƏMVƏTƏNİMİZİ ORDEN İLƏ TƏLTİF EDİB

Litva Respublikasının prezidenti Gitanas Nauseda Litva dövlətinin bərpa edilməsinin 103-cü ildönümü münasibətilə Litva Azərbaycanlıları Cəmiyyətinin sədri, ədəbiyyatşünas, publisist və tərcüməçi Mahir Həmzəyevi "Litva qarşısında xidmətlərə görə" ordeninin Cəngavər xaçı ilə təltif edib.

Azərbaycan Respublikasının Litvadakı Səfirliyindən Azərtac-a bildiriblər ki, soydaşımız Mahir Həmzəyev Litvanın dövlət müstəqilliyinin bərpa olunmasında və çoxmillətli Litva vətəndaş cəmiyyətinin qurulmasında görkəmli xidmətlərinə, çoxmədəniyyətli, demokratik və tolerantlı Litva cəmiyyətinin inkişafında uzunmüddətli səmərəli ictimai-siyasi və mədəni fəaliyyətinə görə Litva Prezidentinin 15 fevral 2021-ci il tarixli Fərmanı ilə təltif olunub.



LIETUVOS RESPUBLIKOS PREZIDENTAS

DEKRETAS
DĖL LIETUVOS RESPUBLIKOS IR UŽSIENIO VALSTYBIŲ PILIEČIŲ APDOVANOJIMO LIETUVOS VALSTYBĖS ORDINAIS IR MEDALIAIS VASARIO 16-OSIOS – LIETUVOS VALSTYBĖS ATKŪRIMO DIENOS PROGA

2021 m. vasario 15 d. Nr. 1K-54
Vilnius

1 straipsnis.
Vadovaujantis Lietuvos Respublikos Konstitucijos 84 straipsnio 22 punktu, a p d o v a n o j a m i Vasario 16-osios – Lietuvos valstybės atkūrimo dienos proga už nuopelnus Lietuvos Respublikai ir už Lietuvos vardo garsinimą pasaulyje Lietuvos valstybės ordinais ir medaliais šie Lietuvos Respublikos ir užsienio valstybių piliečiai:

Ordino „Už nuopelnus Lietuvai" Riterio kryžiumi

Mahiras Gamzajevas – Lietuvos literatūros vertėjų sąjungos meno kūrėjas; Vilniaus knygos draugijos pirmininkas; Lietuvos azerbaidžaniečių bendrijos pirmininkas; aktyvus daugiatautės Lietuvos pilietinės visuomenės kūrimo puoselėtojas; tolerantiškos, pilietiškai brandžios, daugiakultūrės ir demokratiškos Lietuvos visuomenės stiprintojas;

Respublikos Prezidentas Gitanas Nauseda

1. M. Həmzəyevin təltif olunması barədə LR prezidenti G. Nausedanın 15 fevral 2021-ci il tarixli Fərmanı. 2. "Litva qarşısında xidmətlərə görə" ordeninin Cəngavər xaçının görüntüsü.

M. Həmzəyev 1988-ci ildə Litvada başlanmış dirçəliş hərəkatı və dövlət müstəqilliyinin bərpa olunması uğrunda mübarizənin Litva milli azlıqları arasında ilk təşəbbüsçülərindən biri kimi çıxış edib, 1988–1991-ci illərdə fəaliyyət göstərmiş Litva Millətlərarası Əlaqələndirmə Assosiasiyasının təsisçilərindən olub. 1988-ci ildə Vilnüsdə yaşayan həmvətənlərimizlə birgə Litva Azərbaycanlıları Cəmiyyətini yaradıb və o ildən bu təşkilatın sədridir. 1990–1991-ci illərdə Litvanın müstəqilliyi uğrunda Xalq hərəkatı – *Sajūdis* Seyminə üzv seçilib. 1991-ci il Vilnüsün qanlı yanvar təcavüzünə məruz qaldığı günlərdə Litva Millətlər Departamentinin xətti ilə LR Hökumətinin yanında yaradılan Milli İcmalar Şurasının həmtəsisçisi olub və 30 ilə yaxın bu Şuranın üzvü olaraq geniş fəaliyyət göstərib.

1992–1995-ci illərdə Azərbaycan Respublikasının Litvadakı Səlahiyyətli nümayəndəsi olub. 2001, 2006, 2011 və 2016-cı illərdə Azərbaycanlıların I, II, III və IV qurultaylarında iştirak edib, 2001-ci ildən Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvüdür.

O, çoxillik səmərəli fəaliyyətə, yüksək peşəkarlığa və xüsusi nailiyyətlərə görə 1991–2018-ci illərdə LR Seyminin Sədri, LR Baş naziri, LR Mədəniyyət naziri və digər dövlət qurumları rəhbərləri tərəfindən təşəkkürnamə və fəxri fərmanlara layiq görülüb. M. Həmzəyev həm də Litva milli icmalarının mədəniyyətlərarası dialoqunun genişləndirilməsi, yeni dövr Litva–Azərbaycan ədəbi-mədəni və tarixi münasibətlərinin qurulub inkişaf etdirilməsi, qədim Litva–Azərbaycan mədəni əlaqələrinin və xalqımızın etnokulturoloji dəyərlərinin orijinal tədbirlər vasitəsilə təşviq olunub tanıdılması sahəsində müstəsna nailiyyətlərə görə LR Hökuməti yanında Milli Azlıqlar Departamenti tərəfindən dəfələrlə mükafatlandırılıb.

M. Həmzəyev 2002-ci ildən Ümumdünya Litva Ensiklopediyası Redaksiya kollegiyasının üzvüdür. AYB-nin fəxri üzvü və Litva Ədəbi tərcüməçilər ittifaqının həqiqi üzvüdür. 2016-cı ildə LR Mədəniyyət nazirinin Sərəncamı ilə Litvanın Bədii Sənət Yaradıcısı statusuna layiq görülüb. 2020-ci ildən LR Seyminin Milli təhlükəsizlik və müdafiə komitəsi sədrinin ictimai müşaviridir.

Elmi-mədəni, ictimai-siyasi və diaspora sahəsində xitmətləri ilə tanınan M. Həmzəyev 1979-cu ildən Litvada yaşayıb çalışır. BDU-nun filologiya fakültəsinin məzunudur. Diplom işi "Azərbaycan–Litva ədəbi əlaqələri" mövzusunda olub. 1984–1989-cu illərdə Vilnüs Universitetində litvaşünaslıq üzrə aspiranturada təhsil alan M. Həmzəyev Litva–Azərbaycan ədəbi, mədəni, tarixi və ictimai-siyasi əlaqələri, həmçinin 1918–1922-ci illər dövlətlərarası münasibətləri mövzularında elmi, kulturoloji və komparativistik araşdırmalar aparır, bədii və publisistik tərcümələr edir. 1985-ci ildə Vilnüs Kitabsevərlər Cəmiyyətinin məsul katibi seçilib və 1994-cü ildən isə bu qurumun sədridir.

M. Həmzəyev 2006-cı ildə Azərbaycan prezidenti İlham Əliyevin Sərəncamı ilə "Tərəqqi" medalına layiq görülüb, 2011-ci ildə ona Azərbaycan Respublikasının Əməkdar jurnalisti fəxri adı verilib. 2006-cı ildə Litva prezidenti Valdas Adamkusun Fərmanı ilə "Litva qarşısında xidmətlərə görə" dövlət medalı ilə təltif edilib.

Azərbaycan Dövlət İnformasiya Agentliyinin (Azərtac-ın) veb-saytı, 22 fevral 2021-ci il.
Bakı, "525-ci qəzet", 24 fevral 2021-ci il, № 35.

SƏFİR T. QARAYEVİN M. HƏMZƏYEVƏ TƏBRİKNAMƏSİ

Ambassador
of the Republic of Azerbaijan
to the Republic to Lithuania

Vilnüs şəh., 16 fevral 2021-ci il

Litva azərbaycanlıları cəmiyyətinin
sədri cənab Mahir Həmzəyevə

Hörmətli Mahir müəllim,

Litva Respublikasının Prezidenti cənab Qitanas Nauseda tərəfindən Sizin "Litva qarşısında xidmətlərə görə" ordeni ilə təltif olunmağınız bizi olduqca sevindirdi.

İnanırıq ki, bundan sonra da Litva Respublikasının ədəbi ictimai mühitinin zənginləşdirilməsində və tarixi Vətəniniz Azərbaycan Respublikası ilə Litva arasında mədəni, ədəbi və humanitar münasibətlərin daha da dərinləşdirilməsində səylərinizi əsirgəməyəcəksiniz.

Hörmətlə,

Tamerlan Qarayev

MİLLİ MÜXTƏLİFLİKLƏRDƏN RƏVAC ALAN MƏDƏNİ ƏLAQƏLƏRİMİZ...

Eston, latış, Litva və Azərbaycan xalqlarının dekorativ tətbiqi sənətinə məxsus milli ornamentlərin əks olunduğu toxuma və bədii tikmə nümunələri – sanki aramızdakı mənəvi körpülərin müxtəlif formalı dayaqlarının istinad yerləridir, həm də fərqli naxışların və rənglərin qovuşmasından qaynaqlanan mədəni əlaqələrimizin rəmzləridir...

Xalqlarımız arasındakı mənəvi körpülərin dayaqlarını gücləndirən əl sıxmalar... Azərbaycanın Litvadakı səfiri Tamerlan Qarayev, müstəqil Litvanın ilk Dövlət başçısı Vitautas Landsbergis və Litva Azərbaycanlıları Cəmiyyətinin sədri Mahir Həmzəyev. Vilnüs, Azərbaycan Respublikasının Səfirliyi, 16 yanvar 2019-cu il.

EPİLOQ ƏVƏZİ

Antanas VENTSLOVA (1906–1971)

SEVDİM AZƏRBAYCANI...

Mən gəldim qoynuna uzaq bir eldən, –
Göylərin quşkeçməz cığırlarıylə.
Gəldim ürəyimdə, xəyalımda sən, –
Hüsnünü bir dəfə görməmiş hələ...

Ah, nə mehribansan, ey əziz şəhər!
Dosta dost gülüşü yağır üzündən.
Hər gün sahilini döyən ləpələr –
Bizə nəğmə deyir birlik sözündən.

Açıb qollarını bir ana kimi –
Mənə "gəl" söylədi nurlu küçələr.
Bakı, cilvələndin bir sona kimi,
Gözlərin gözümə güldü gecələr.

Odur, çıraqbandır yenə də sahil,
Nə qədər odlusan, odlar diyarı!
Gəlib sinənəcə qonub elə bil –
Bahar axşamının sıx ulduzları!

Səslənir pəncərəm altında Xəzər
Görünür Ağşəhər, görünür sahil,
Nə qədər xoş gəlir mənə bu yerlər...
Doğma Litvadayam yenə elə bil!

Bəlkə də bu ona görədir ki, mən
Qəlbimlə ellərə bağlıyam hər an.
Məni məftun edir, heyran edirsən,
Öz gözəlliyinlə, ey Azərbaycan!

Antanas Ventslovanın "Bakı" və "Dostluq badəsi" adlı şeirlərindən.
Tərcümə edənlər – Valeh Şıxlı və Əhməd Cəmil.

İSTİFADƏ OLUNMUŞ İLLÜSTRASİYALARIN MƏNBƏLƏRİ

Azərbaycan Respublikasının Dövlət Arxivi
Azərbaycan Respublikasının Dövlət Tarix Arxivi
Azərbaycan Respublikasının Dövlət Kino-Foto Sənədləri Arxivi
Azərbaycan Respublikasının Dövlət Ədəbiyyat və İncəsənət Arxivi
Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivi
Azərbaycan Respublikasının Litvadakı Səfirliyi
Azərbaycan Respublikasının Diasporla iş üzrə Dövlət Komitəsi
M. F. Axundov adına Azərbaycan Milli Kitabxanası
Azərbaycan Yazıçılar Birliyi
Abdulla Şaiqin Mənzil Muzeyi
Estoniya Dövlət Arxivi
Estoniyanın Milli Kitabxanası
Latviyanın Dövlət Tarix Arxivi
Latviyanın Milli Kitabxanası
Litvanın Mərkəzi Dövlət Arxivi
Litvanın Dövlət Tarix Arxivi
Litvanın Ədəbiyyat və İncəsənət Arxivi
Litvanın Xüsusi Arxivi
M. Majvidas adına Litva Milli Kitabxanası
LEM Vruvlevskilər adına Elmi kitabxanası
Litva Ədəbiyyatı və folkloru institunun kitabxanası
Litva Respublikası Prezidentinin Kanselyariyası
Litva Respublikası Seyminin Kanselyariyası
Litva Respublikası Hökumətinin Kanselyariyası
Litva Milli Radio və Televiziya Yayımları şirkəti
Litva Yazıçılar İttifaqı
Litvanın Elmi və Ensiklopedik Nəşrlər Mərkəzi
Litva Hökuməti yanında Milli Azlıqlar Departamenti
Vilnüs Milli İcmalar Evi
V. Kreve-Mitskəviçyusun Vilnüsdəki mənzil muzeyi
V. Kreve-Mitskəviçyusun Subartonis kəndindəki ev muzeyi
İnformasiya agentlikləri: Azərtac, Elta, BNS

Fotogörüntülərin müəllifləri

Maryus Abramaviçyus, Djoya Gunda Barisayte, Petras Arnoldas Barisas, Alvida Gedaminskiene, Vladimiras Guleviçyus, Tadas Jebrauskas, Algimantas Jijyunas, Paulyus Lileykis, Vilyus Mikulenas, Olga Poşakova, Arunas Sartanaviçyus, Leonardas Semaško, Regimantas Tamoşaytis, Vladas Uznyaviçyus, Saulyus Ventskus.

Kitabda həmçinin müəllifin şəxsi arxivindən, eləcə də Azərbaycan, Estoniya, Latviya və Litvanın bir sıra media vasitələri – "Azadlıq", "525-ci qəzet", „Ulduz", "Azərbaycan gəncləri", "Sakala", "Sakala Lisaleht", "Olewik", "Ocaq", "Müsu Laiki", "Karogs", "Tauta", "Rocznik tatarski", "Vyriausybės žinios", "Respublika", "Genocidas ir rezistencija", "Merkio kraštas" adlı qəzet və dərgilərdən, "Delfi.lt", "Bernardinai.lt" xəbər portallarından, azad şəkildə yayımlanan Vikipediya internet ensiklopediyasından və digər ödənişsiz elektron məlumat bazalarından götürülmüş görüntülərdən istifadə olunub.

Mahir HƏMZƏYEV

AZƏRBAYCAN – BALTİK MƏDƏNİ ƏLAQƏLƏRİ
XIX–XXI əsrlər

Kulturoloji məqalələr, tarixi publisistika, ədəbi düşüncələr və resenziyalar, politoloji qeydlər, müsahibələr, sənədli oçerklər və esselər

Tərtib edəni, xüsusi redaktoru və ön zösün müəllifi – Mahir Həmzəyev.
Üz qabığının rəssamı və nəşrin dizayneri – Deymante Ribakoviene.
Kompüter tərtibatı – Dalya Kavalyunayte.

Formatı 170×240 mm. Həcmi 504 səh. 23,50 çap vərəqi.
Ofset çapı. Kağızı – 80 qr. Tirajı 500.

Vilnüs, Azərbaycan Respublikasının Litvadakı Səfirliyi, 2022-ci il.
BALTO print QSC-nin mətbəəsində çap edilib.

Nəşr haqqında biblioqrafik məlumatlar Litvanın Martinas Majvidas adına Milli Kitabxanasının Milli Biblioqrafik Məlumat Bankında (NBDB) təqdim olunub.

Leidinio bibliografinė informacija pateikiama Lietuvos nacionalinės Martyno Mažvydo bibliotekos Nacionalinės bibliografijos duomenų banke (NBDB).

The bibliographic information about the publication is available in the National Bibliographic Data Bank (NBDB) of the Martynas Mažvydas National Library of Lithuania.

ISBN 978-609-95862-1-2